*disciplinae*

Z.T. Qolenkova, M.M. Akuliç,
V.N. Kuznetsov

# Ümumi sosiologiya

Professor Z.T. Qolenkovanın redaktorluğu ilə

*Rusiya Federasiyasının Təhsil Nazirliyi tərəfindən "Sosiologiya" fənni üzrə ali məktəblərin tələbələri üçün dərs vəsaiti kimi buraxılmışdır.*

4349

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

Bakı
DİPLOMAT
2007

UDK 1/14
BBK 87.3
057

*Tərcümə edən:*

Fəlsəfə elmləri doktoru, professor *İzzət Rüstəmov*

*Elmi redaktorlar:*

Fəlsəfə elmləri doktoru, professor *Nazim Hüseynli*

Fəlsəfə elmləri namizədi, dosent *Fazil Vahidov*

*Texniki redaktor:*

Fizika-riyaziyyat elmləri namizədi *Çingiz Rüstəmov*

057 Ümumi sosiologiya, Bakı, 494 s., 2007.

İSBN 9952-425-06-6

*Bakı Dövlət Universitetinin Sosial elmlər və psixologiya fakültəsinin Elmi Şurasının 25 may 2007-ci il tarixli qərarı ilə çapa məsləhət görülmüşdür.*

Dərs vəsaiti sosiologiyanın başlıca məsələlərinin sistematik şərhidir. Sosiologiyanın tarixinin, materialın toplanması metodologiyasının analizi ilə yanaşı müasir elm üçün aktual olan mədəniyyət, şəxsiyyət, sosial institutlar, qloballaşma, şəbəkə yanaşması, sosial ekologiya kimi problemlər də nəzərdən keçirilir. Materialın daha yaxşı qavranılması üçün hər bir fəsildən sonra mövzuya aid testlər verilir, bölmələrdən sonra seminar və "dəyirmi masa"larda müzakirə olunmaq üçün mövzular verilir.

Ali məktəblərin tələbələri üçün nəzərdə tutulmuşdur.

İSBN 5-8297-0217-7 © «Гардарики» - 2005

İSBN 9952-425-06-6 © «Diplomat» - 2007

## TƏRCÜMƏÇİDƏN



Hörmətli oxucular, əmin olduğumu bildirirəm ki, diqqətinizə təqdim etdiyimiz "Ümumi sosiologiya" kitabı xoşunuza gələcəkdir. Cəsarətlə demək olar ki, bu kitab Azərbaycan dilində çap olunmuş və ali məktəb tələbələri üçün nəzərdə tutulmuş daha mükəmməl dərs vəsaitidir. Əlbəttə, Azərbaycan dilində sosiologiyaya dair yazılmış və artıq oxucuların istifadəsində olan dərsliklərin, dərs vəsaitlərinin, digər elmi tədqiqat araşdırmalarının, monoqrafik əsərlərin rolunu inkar etmək fikrində deyilik. Həqiqət naminə həmçinin deməliyəm ki, rus müəllifləri, xüsusilə də Moskva, Sankt-Peterburq və Rusiya Federasiyasının digər elm mərkəzlərinin alimləri tərəfindən "Sosiologiya" kursları yaradılmış, sosiologiyanın tarixinə, nəzəri məsələlərinə, təcrübi sosiologiyaya dair sanballı, dəyərli əsərlər yaradılmışdır. Bunu inkar etmək olmaz. Lakin etiraf olunmalıdır ki, Rusiya Elmlər Akademiyasının müxbir üzvü, prof. Qalina Qolenkovanın rəhbərliyi altında rus dilində hazırlanmış "Ümumi sosiologiya" kitabı istər tarixi-məntiqi planda, istərsə də müasir tələblər baxımından sosiologiyanın aktual problemlərinin daha uğurlu əhatə olunması və qruplaşdırılması planında daha çox diqqəti cəlb edir. Fəlsəfə və sosiologiya sahəsində söz sahibi olan bir sıra həmkarlarımla da məsləhətləşdikdən sonra haqqında bəhs etdiyimiz "Ümumi sosiologiya" adlı iri həcmli kitabın tərcüməsinə başladım. Çox şadam ki, artıq həmin maraqlı kitabın Azərbaycan dilinə tərcüməsi tam şəkildə hazırdır və bir qədərdən sonra tələbələrimizin istifadəsinə veriləcəkdir.

Dərs vəsaiti "Sosiologiya elm kimi", "Mədəniyyət və cəmiyyət", "Şəxsiyyət və cəmiyyət", "Cəmiyyət", "Sosial dəyişikliklər, idarəetmə və qloballaşma problemləri" adlanan beş bölmədən ibarətdir. Hər bir bölmə isə müvafiq fəsillərə bölünür. Kitabı oxunaqlı edən məqamlardan biri budur ki, hər bir fəslin axırında müvafiq testlər və onların cavabları

verilir. Bu da, sözsüz, tələbələrə magistraturaya girərkən testlərlə işləmək vərdişləri aşılamaqda əhəmiyyət kəsb edir. Kitabın sonunda "Dəyirmi masa"larda müzakirə olunmaq üçün maraqlı, müasir və aktual mövzuların siyahısı verilir. Hesab edirik ki, bu da tələbələrin kurs və buraxılış işləri üçün mövzu seçmək və problemləri müəyyən etmək qayğılarını yüngülləşdirə bilər.

Kitab həmçinin lazımi ədəbiyyatların siyahısı ilə təchiz edilmişdir.

Unudulmamalıdır ki, uzun müddət bir elm sahəsi kimi sosiologiyaya mənfi münasibət bəslənilmiş, o daha çox qərb elmi, bir çox hallarda da burjua elmi fikir sahəsi kimi nəzərdən keçirilmişdir. Yaxşı ki, bu sahədə vəziyyət əsaslı şəkildə dəyişmiş, sosioloji fikir bir elm sahəsi olaraq formalaşmış və sosiologiya özünün başlıca anlayış və müddəalarını kəsb edə bilmişdir. Kitabın müəllifləri bununla əlaqədar geniş fikir mübadiləsi aparır və sosiologiyanı cəmiyyət haqqında çox mühüm bir elm sahəsi kimi qiymətləndirirlər. Onlar həmçinin cəmiyyətin həyatının mürəkkəb proseslərinin öyrənilməsi və onların inkişaf dinamikasını və meylini müəyyənləşdirmək və proqnozlaşdırmaq üçün empirik sosioloji tədqiqatların ciddi əhəmiyyət kəsb etdiyinə diqqət yönəldirlər.

Mövcud dərs vəsaitinə marağı artıran məqamlardan biri də bundan ibarətdir ki, müəlliflər burada sosioloji fikir tarixinin korifeylərinin sosiologiyasının yığcam şərhinə xüsusi yer ayırır və onların hər birinin sosiologiya tarixindəki xidmətlərini təhlil edirlər. Oxucu O.Kontun, H.Spenserin, E.Dürkheymin, M.Veberin, P.Sorokinin və b. sosioloji fikirləri haqqında konkret nəzəri materialla tanış olmaq imkanı əldə edir. Kitabda həmçinin K.Marksın, M.M.Kovalevski və T.Parsonsun sosiologiyası oxuculara yığcam şərhdə təqdim olunur.

Mədəniyyətin sosiologiyası, o cümlədən informasiya cəmiyyətində mədəniyyət, mədəniyyətlə cəmiyyətin qarşılıqlı münasibəti kimi məsələlərin təhlili kitabda xeyli yer tutur, oxucu əsas mədəniyyət institutları ilə tanış olur.

Dərs vəsaitində "Şəxsiyyət və cəmiyyət" problemi xüsusi bölmədə şərhini tapır. Burada biz şəxsiyyət anlayışı, şəxsiyyətin strukturu, şəxsiyyətin sosiallaşması və şəxsiyyətlə bağlı digər məsələlər haqqında yığcam təsəvvür əldə edə bilirik.

Xüsusi bölmədə cəmiyyət, cəmiyyətin sosial strukturu, cəmiyyət və dövlət, vətəndaş cəmiyyəti və dövlət kimi məsələlər müasir elmi müddəalar, konsepsiya və paradiqmalar nəzərə alınmaqla maraqlı



təhlildə oxuculara təqdim olunur. Yeri gəldikcə kitabın müəllifləri göstərilən məsələlərin şərhi və qiymətləndirilməsində digər sosial elmlərlə, xüsusilə sosial fəlsəfə ilə səsləşən və fərqlənən cəhətlərə lazımi diqqət yetirirlər.

Kütləvi kommunikasiyanın sosiologiyası müasir elmi faktların və informasiya materiallarının əsasında araşdırılır. Burada sosial kommunikasiya və informasiya qaynaqları, kütləvi kommunikasiyanın modelləri və mahiyyəti anlaşıqlı şəkildə təhlil olunur.

Diqqətinizə təqdim edilən kitabda siyasətin, iqtisadiyyatın sosiologiyasının, idarəetmənin sosiologiyasının təhlilinə xüsusi yer ayrılıb. Digər mövzularla yanaşı bu sadalanan problemlərə dair şərhlər və təhlillər ciddi maraq doğurur. Müəlliflər problemlərin mahiyyətini açarkən diqqəti başlıca məqamlar üzərində cəmləşdirirlər, daha dəqiq desək, onlar lüzumsuz şərhlərdən qaçaraq hər bir mövzu üçün səciyyəvi olan, mövzunu açmağa kömək edən məqamları bir növ yığcam "modelləşdirirlər".

Kitab "Qlobalizm və ekoloji sosiologiya" probleminin şərhi ilə başa çatır. Nəzərə alsaq ki, qloballaşma həm elmi, həm də siyasi dünyanı, iqtisadiyyat aləmini lərzəyə salan, bir-birinə əks şərhlər və təhlillər doğuran, bir çox ölkələrin inamla yanaşdığı və bir çox ölkələrin isə şübhə ilə yanaşdığı qarşısıalınmaz bir prosesdir, təqdim olunan mövzu ciddi əhəmiyyətə malikdir. Bəşər cəmiyyətinin öz ömrünü salamat və uğurla davam etdirməsi üçün dünya məkanındakı ekoloji durum taleyüklü məna kəsb edir. Bəşəriyyət artıq reallığa çevrilmiş dünya miqyaslı ekoloji böhrandan, fəlakətdən qoruna biləcəkmi? Elm qarşısıalınmaz ekoloji fəlakətin, məsələn, deyək ki, planetimizdə artıq reallıq olan intensiv istiləşmənin və yaxud Arktika buzlaqlarının əriməsinin qarşısını ala biləcək təsirli vasitələr təklif edə biləcəkmi? Dünyanın inkişaf etmiş ölkələrinin birgə səyləri olmadan ekoloji dəyişikliklərin mənfi nəticələrini aradan qaldırmaq mümkündürmü? Hər bir insanın, bütövlükdə bəşəriyyətin ekoloji mədəniyyətini yüksəltmək mümkündürmü? Hörmətli oxucu, bütün bu suallara kifayətləndirici cavab almaqda hazırkı kitab yardımçınız olacaqdır.

Bir sıra məqamlarla bağlı da oxucularla fikirlərimi bölüşdürmək istərdim. Nəzərə alın ki, "Ümumi sosiologiya"nı rus alimləri, Rusiya Federasiyasının vətəndaşları yazıblar və təbiidir ki, tez-tez Rusiya sosial-iqtisadi mühitinə müraciətlər olunur, Rusiya həyatından gətirilmiş faktlar elmi təhlilə cəlb edilir. Əlbəttə, ümidvar olduğumuzu bildiririk ki,

oxucularımız bu maraqlı kitabı mütaliə edərkən müasir Azərbaycan gerçəkliyinə aid faktların, elmi informasiyanın öyrənilməsindən, nəzərə alınmasından yan keçməyəcəklər, müasir Azərbaycan sosiumunun sosioloji təhlilinə də diqqət yetirəcəklər.

Bir məqamı da unutmamağı tövsiyə edərdim. Sosiologiyaya dair ədəbiyyatlarda sosioloji fikrin Şərq qaynaqları az öyrənilib, yaxud da bir başa tədqiqat obyektinə çevrilməyib. Oxucularımda yəqinlik yarada bilərəm ki, Şərq mütəfəkkirlərinin, o cümlədən Azərbaycan mütəfəkkirlərinin elmi yaradıcılığı qiymətli sosioloji fikirlərlə zəngindir. İstərdim, bunlar diqqətdən kənarda qalmasın.

Yekun olaraq, kitabda istifadə olunan anlayışlar, kateqoriyalar, terminlər barədə də söhbət açmaq istərdim. Əvvəlki tərcüməçilik təcrübəmi də nəzər alaraq terminləri, müvafiq anlayış və kateqoriyaları Azərbaycan dilinə tərcümə etmişəm.

Hesab edirəm ki, bunlar uğurlu hesab etmək olar. Lakin bununla belə bir çox terminlər də var ki, onları Azərbaycan dilinə tərcümə etməyi lazım bilmədik. Kitabın müəllifləri nəzərə çatdırırlar ki, sosiologiyaya dair mövzuların şərhi zamanı digər təbiətşünaslıq elmlərinin terminlərindən istifadə edilmişdir. Biz də bunu nəzərə almışıq. Həmçinin hesab etmişik ki, bəhs etdiyimiz terminlərin əksəriyyəti xarici dillərdən keçmədir və kitabdakı konkret kontekstdə mənanı yaxşı ifadə edir. Ümidvar olduğumuzu bildiririk ki, oxucular zəruri hallarda müvafiq lüğətlərdən istifadə etməlidirlər. Lakin bununla belə gələcəyə sosiologiyaya dair terminlər lüğətini hazırlamağı planlaşdırmaq olar...

Hörmətli oxucular, diqqətinizə təqdim olunmuş "Ümumi sosiologiya" dərs vəsaitinə diqqət yetirmənizi, onu dərindən mütaliə etmənizi arzu edərdim.

İZZƏT RÜSTƏMOV
Fəlsəfə elmləri doktoru, professor

***P.S.*** Tərcümənin kompüter həllində və bir sıra texniki məsələlərin yerinə yetirilməsində yaxından iştirak etdiklərinə görə oğlum *Çingiz Rüstəmova* və nəvəm *Gəray Rüstəmova* minnətdarlığımı bildirirəm.

# I BÖLMƏ

# SOSİOLOGİYA ELM KİMİ

## 1-Cİ FƏSİL. SOSİOLOGİYANIN OBYEKTİ, PREDMETİ VƏ METODU

### 1.1. Obyekt, predmet və əsas sosioloji yanaşmalar

Sosiologiya elmi bilik kimi XIX əsrin ortalarında Qərbi Avropada meydana gəlmişdir. Burjua cəmiyyətinin sürəkli inkişafı, onun sosial strukturunun və fəaliyyət mexanizmlərinin dəyişməsi yeni biliklər, yeni ictimai elm tələb edirdi.

Sosiologiyanın yanaşmasının onu sosial fəlsəfədən, tarixdən, iqtisadiyyatdan, siyasətdən, etikadan, psixologiyadan, demoqrafiyadan, statistikadan və cəmiyyəti öyrənən digər elmlərdən fərqləndirən spesifikliyi onun obyektində və predmetində özünü göstərir.

Tədqiqat obyekti bizi əhatə edən dünyanın, o cümlədən sosial aləmin bizim şüurumuzdan asılı olmayaraq mövcud olan müəyyən hissəsidir. Hər bir elm öz tədqiqat obyektinə malik ola bilər, eyni zamanda özünün tədqiqat obyektini seçməklə obyektin ayrı-ayrı tərəflərini, hədlərini tədqiq edən bir çox elmlər üçün bir tədqiqat obyekti mövcud ola bilər. Tədqiqatın predmeti obyekti öyrənməyin hüdudlarını, onun tədqiqi predmet sahəsini müəyyən edir. Obyektin məntiqi təsvirindən ibarət olmaqla predmet obyektiv reallığın təsvirinə kömək edən kateqoriya və anlayışların məcmusu kimi çıxış edir. Tədqiqat predmetinin müəyyən edilməsi tədqiqat üçün obyektin müəyyən xassələrinin seçilməsini və onun digər xassələrindən sərf-nəzər olunmağı nəzərdə tutur.

*Sosiologiyanın obyekti* – sosial təşkilin qruplar, institutlar, təşkilatlar, birliklər kimi müxtəlif formaları halında birləşmiş olan sosial münasibətlərin və qarşılıqlı təsirlərin məcmusudur. Sosiologiyanın obyekti bunlardır: cəmiyyət bütöv sosial reallıq kimi; cəmiyyət empirik surətdə mövcud olan reallıq kimi; cəmiyyətin bütöv bir tam kimi inkişafı

və fəaliyyəti; obyektiv sosial hadisələr; sosial təşkilatlar; sosial institutlar; sosial qarşılıqlı əlaqələr; sosial hadisələr; sosial proseslər; sosial birliklər; sosial subyektlər.

Sosiologiyanın predmeti haqqında təsəvvürlər sosiologiyanın bütün tarixi boyunca dəyişmişdir. Məsələn, sosiologiyanın baniləri cəmiyyəti bütöv bir reallıq kimi nəzərdən keçirərək, onun predmetini demək olar ki, eyni şəkildə şərh edirdilər, lakin bu cəmiyyətin mahiyyətini, strukturunu, inkişaf dinamikasını və perspektivlərini müxtəlif şəkildə başa düşürdülər. Sonralar sosiologiyanın predmeti və metodu çox vaxt vəhdət halında nəzərdən keçirilirdi. Bütövlükdə sosiologiyanın inkişafında üç əsas mərhələni fərqləndirirdilər. Birinci mərhələ – erkən nəzəri klassikanın təşəkkül tapması mərhələsidir ki, (XIX əsrin ortaları) bu da O. Kontun, H. Spenserin, K. Marksın adları ilə bağlıdır. İkinci mərhələ – institutlaşma və yaxud erkən nəzəri-metodoloji klassika mərhələsidir (XIX əsrin sonu – XX əsrin əvvəlləri). Bu mərhələnin parlaq nümayəndələri F. Tyonnis, B. Dürkheym, M. Veberdir. Üçüncü mərhələ – yetkin nəzəri-metodoloji klassika mərhələsidir (XX əsrin ortalarına qədər). Bu marhələni P. Sorokin, T. Parsons, R. Merton, digər fransız, ingilis, alman sosioloqları təmsil edirlər. Dördüncü mərhələ – klassik mərhələdən sonrakı mərhələ, yaxud müasir mərhələ olub, XX əsrin ortalarından indiki vaxta qədərki dövrü əhatə edir.

Çox böyük sosioloqların təsəvvürlərinə, o cümlədən sosiologiyanın predmeti haqqında onların baxışlarına üçüncü fəsil həsr olunmuşdur. Lakin burada yalnız onu qeyd edək ki, XX əsrin sonlarında sosiologiyanın predmeti haqqında klassik baxışlara alternativ olan yeni baxışlar meydana gəlmişdir. Bu baxışlarda mərkəzi mövqeləri bütöv obyekt kimi cəmiyyət deyil, hərəkətdə olan fəal şəxs, sosial proseslərin, dəyişikliklərin, inkişafın aktoru olan sosial subyekt tutmağa başlayır. Bu yanaşma fransız sosioloqlarından A. Turenə və P. Burdyeyə, ingilis alimlərindən M. Arçerə və E. Giddensə xasdır. Sosiologiya insanın ictimai həyatının öyrənilməsinə, qrup və birliklərin öyrənilməsinə müraciət edir. Giddens yazırdı: "Sosiologiyanı insan cəmiyyətlərinin müasir industrial sistemlərə xüsusi diqqət yetirməklə sistematik öyrənilməsi kimi müəyyənləşdirmək olar" (E. Giddens, 1999, S.24, 39)[1].

[1] Burada və sonra mötərizələrdə göstərilmiş mənbələrin biblioqrafiyası tövsiyə olunan ədəbiyyatın siyahısında verilmişdir.



Amerikan sosioloqları R. Park və E. Byorcess sosiologiyanı kollektiv davranışı öyrənən elm hesab edirdilər. Fin sosioloqu E. Asp Q. Visvedenin sosiologiyanın predmetinə verdiyi aşağıdakı tərifi misal gətirir: sosiologiyanın predmeti – sosial davranış kimi və sosial yönümlü davranış kimi formalaşmış davranışın başa düşüldüyü sosial davranışdan və sosial əlamətlərin daxil olduğu sosial strukturlardan (yaş strukturu, iqtisadi struktur, peşə strukturu) və sosial qurumlardan (kilsə, sənaye müəssisələri, ictimai təşkilatlar, dostların əhatəsi və s.) ibarətdir. Amerikan sosioloqu N. Smelzer qeyd edir: "Sosiologiyanı cəmiyyətin və sosial münasibətlərin elmi surətdə öyrənilməsi kimi müəyyənləşdirmək olar" (Smelzer, 1994. S. 14]. V.A. Yadovda oxuyuruq: "Sosiologiya – sosial birliklərin və onların özünütəşkil formalarının: sosial sistemlərin, sosial struktur və institutların təşəkkül tapması, inkişafı, dəyişiklikləri və yenidən qurulması haqqında elmdir; sosial subyektin fəallığının doğurduğu sosial dəyişikliklər haqqında elmdir; sosial münasibətlər... haqqında elmdir; sosial hərəkətlərin və kütləvi davranışın qanunauyğunluqları haqqında elmdir".[1]

N. Lapin haqlı olaraq belə sual verir: sosiologiyanın predmetinin klassik anlamı ilə nə etməli? Bu anlam rədd olunur və yaxud saxlanılır? Bu anlamın əlavəyə və yaxud inkişaf etdirilməyə ehtiyac varmı? N. Lapin göstərir ki, sosioloji ictimaiyyət buna əməli cavablar verməlidir, başqa cür olsa, bir elm kimi sosiologiyanın obyekti və predmeti silinib aradan çıxacaqdır. Bütövlükdə nəzərə almaq lazımdır ki, sosiologiyanın predmeti tarixi xarakter daşıyır, bu predmet mürəkkəbləşir, daha ziddiyyətli olur, onun obyekti də dəyişikliyə məruz qalır.

Lapinə görə sosiologiyanın predmeti – insanın sosial fəaliyyətindən, sosial münasibətlər və proseslərdən, bütöv sistemlər olan birliklər və cəmiyyətlərdən, onların funksiyaları və strukturlarından ibarətdir; sosiologiya sosioloji, eləcə də digər elmi yanaşma və metodların köməyi ilə əldə edilmiş sosial faktlara və empirik məlumatlara əsaslanaraq, öz predmetinin vəziyyətlərini və dinamikasını öyrənir (bax: Lapin, 2002).

Bütün yuxarıda gətirilmiş təriflər ümumi xarakter daşıyıb daşımamasından və ya konkret olub olmamasından asılı olmayaraq

[1] *Ядов В.А.* Некоторые проблемы теории и методологии социологических исследований//Стратегия социологического исследования. М. 1998. С.36.

sübut edir ki, sosiologiyanın predmetində sosial reallığın mühüm tərəfləri öz əksini tapır.

Sosiologiyanın predmeti haqqında, sosioloji biliyin həqiqiliyi haqqında, bu biliyin həqiqiliyinin yoxlanılması və əldə edilməsinin metodları haqqında mübahisələr və diskussiyalar bu günə qədər davam etməkdədir.

*Cəmiyyətlə və şəxsiyyətin, qrupun, birliyin və bütövlükdə cəmiyyətin müəyyən sosiomədəni kontekstdə real fəaliyyəti ilə vasitələnmiş sosial hadisələrin, sosial proses və münasibətlərin fəaliyyət və inkişaf sistemini sosiologiyanın predmeti hesab etmək olar.* Sosiologiyanın predmetinə aiddir: şəxsiyyətin, sosial qrupun və bütövlükdə cəmiyyətin fəaliyyət və inkişaf qanunları və qanunauyğunluqları, sosial birliyin real ictimai şüuru, fəaliyyəti, gerçək davranışı (bilikləri, ustanovkaları və b.), bu sosial birliyin formalaşması mexanizmi. V.İ. Dobrenkov və A.İ. Kravçenko sübut edirlər ki, elm kimi sosiologiyanın predmetinin müəyyən edilməsi üç səviyyədə baş verir – empirik (təkcə), konseptual (xüsusi) və kateqorial (ən ümumi) səviyyələrdə. *Sosiologiyada öyrənmə predmetini* bəşəriyyətin həyat fəaliyyətinin ayrı-ayrı konkret və nadir hadisələri deyil, cəmiyyətdə insanların davranış və qarşılıqlı əlaqələrinin davamlı və təkrar olunan nümunələri, sosial fəaliyyətin strukturu təşkil edir.

Sosial hadisələrin sosioloji təhlilinin spesifikasını üç başlıca sual ifadə edir.

1. Sosial strukturlar və davranış, qarşılıqlı əlaqə nümunələri necə formalaşır və yaxud başqa cür desək, sosial təşkilatın müxtəlif formalarının əmələ gəlməsinin səbəbləri, şərtləri və amilləri nələrdir?

2. Bu sosial strukturlar, davranış və qarşılıqlı təsir nümunələri necə davamlılıq və sabitlik əldə edirlər; sosial qrupların, birlik və institutların normal fəaliyyəti nəyin sayəsində təmin olunur?

3. Sosial strukturlar, davranış və qarşılıqlı təsir nümunələri nə şəkildə dəyişir və məhv olurlar, sosial pozulmanın səbəbləri nələrdir?

*Sosiologiyanın əsas məqsədi* – sosial subyektlərin davranışının rasional izahını vermək və sosial problemlərin həlli mexanizmlərini müəyyən etməkdir. Məqsədə uyğun olaraq sosioloji tədqiqatlar üç prinsip üzərində qurulur:

- empirizm prinsipi üzərində. Bu prinsipə görə nəzəri müddəalar və nəticələr spesifik sosioloji metodların köməyi ilə əldə edilmiş məlumatlarla təsdiq olunur;



- izahetmə (əsaslandırma) və yaxud əldə edilmiş təcrübi məlumatların, empirik faktların və ümumiləşdirmələrin nəzəri cəhətdən əsaslandırılması prinsipi üzərində;
- dəyərlilik haqqında hökmlərdən azad olmaq, yəni nəticələrin müstəqilliyi, obyektivliyi prinsipi üzərində.

Sonuncu prinsipi E. Dürkheym və M. Veber əsaslandırmışlar. Onlar göstərirdilər ki, peşə fəaliyyətinin hər bir növünə peşə etikasını təşkil edən müəyyən əxlaqi dəyərlər, normalar, davranış qaydaları xasdır. Sosiologiyanın da öz peşə etikası vardır. Bu etika ondan ibarətdir ki, sosiologiya üçün başlıca etik məqsəd ən yüksək etik dəyər olan idrakdır, obyektiv bilik əldə edilməsinə səy göstərilməsidir.

Sosioloqlar sosial hadisələri tədqiq edərkən müxtəlif yanaşmalardan, hər şeydən əvvəl, sistem və kompleks yanaşmalarından istifadə edirlər.

Ümumelmi *sistem yanaşması* İkinci Dünya müharibəsi ərəfəsində L. fon Bertalanfi tərəfindən işlənib hazırlanmışdır. İlk əvvəl bu yanaşmadan təbiət elmlərində, xüsusilə biologiyada istifadə ediblər, lakin sonralar bu yanaşma elmi biliyin digər sahələrində də yayılmışdır. Sistem yanaşmanın əsas məzmunu onun mərkəzi anlayışları olan sistem, sistemyaratma əlaqələri və münasibətləri, struktur, ətraf mühit, sistemin səviyyələri, sistemin səviyyələrinin iyerarxiyası anlayışları və s. vasitəsilə aşkara çıxarılır.

Sosiologiyada sistem yanaşma sosial hadisə və prosesin s o s i a l s i s t e m halında, yəni insanlar, onların qarşılıqlı münasibətləri, davranış və fəaliyyət normaları, rollar və dəyərlər kimi elementlərdən ibarət olan bütöv bir mövcudluq kimi öyrənilməsini nəzərdə tutur. Sosial sistem bu sistemin elementlərinin xassələri məcmusuna müncər edilməyən müəyyən keyfiyyətlərlə xarakterizə olunur. Sosioloqlar sosial sistemlərin əsas tiplərinə ictimai-iqtisadi formasiyanı, sosial birliyi, sosial təşkilatı, sosial institutları və şəxsiyyəti aid edirlər.

Sosial sistemlər öz xassələrinə görə eyni elementlərdən ibarət olan homogen və müxtəlif təbiətli, müxtəlif keyfiyyətli elementlərdən ibarət olan heterogen sistemlər kimi mövcuddurlar. Homogen sistemlərə kiçik qrupları, sosial sinifləri, peşə kollektivlərini və b. aid edirlər. Heterogen sistemlərə sosial-hakimiyyət sistemlərini (dövləti), maddi-cismani elementləri və insan ehtiyatlarını özünə daxil edən sosial-texniki sistemləri (müəssisə, şəhər); ekoloji-sosial sistemləri (coğrafi rayonu) aid edirlər. İstənilən halda sosial sistemlər digər tiplərdən olan

sistemlərdən fərqli olaraq daha yüksək mürəkkəblik səviyyəsi ilə seçilirlər. Sosial sistemlərin açıqlığı və müxtəlif fəaliyyət strategiyalarının işlənib hazırlanması və həyata keçirilməsinin köməyi ilə adaptasiya olunmaq qabiliyyəti bu sistemlərin xüsusiyyətini təşkil edir.

Sistem yanaşmadan istifadə etmək tələbləri müəyyən hərəkətlərin ardıcıllığı şəklində təqdim oluna bilər: 1) ətraf mühitdən müəyyən sistemin seçilib ayrılması, həmin hərəkətlərin əlaqəsinin aşkara çıxarılması; sistemin sərhədlərinin müəyyənləşdirilməsi, sistemin xassələrinin, onun elementlərinin, struktur və funksiyalarının müəyyən edilməsi; 2) sistemin fəaliyyətinin və inkişaf mexanizmlərinin təhlili.

Sistemin tədqiqi, bir tərəfdən, bu sistemin elementlərə bölünməsinin, digər tərəfdən, elementlərin bəzi klaslarının ümumi strukturda və sistemdə birləşməsinin köməyilə həyata keçirilir.

Obyektin sistem təsviri iki səviyyədə – fərdi səviyyədə (sistemin tərkibinə daxil olan fərdlər arasındakı münasibətlər təsvir olunur) və inteqral, fərdüstü (müxtəlif tamlıqlar arasındakı münasibətlər təsvir olunur) səviyyədə həyata keçirilir.

Sistem yanaşmanın sayəsində sosiologiya cəmiyyət haqqında təsəvvürlərin müxtəlif variantlarını işləyib hazırlamışdır: cəmiyyət spesifik ictimai münasibətlərin məcmusu kimi, cəmiyyət fəaliyyət sistemi kimi, fəaliyyət subyektlərinin (istər fərdi, istərsə də kollektiv fəaliyyət subyektlərinin) sistemi kimi, cəmiyyət norma və dəyərlərin sistemi kimi, cəmiyyət sosial institutların, qrupların, təşkilatların, birliklərin sistemi kimi.

*Kompleks yanaşma* sistem yanaşmanın əsasında meydana gəlmişdir. Hər iki yanaşmanın ümumi xassələrindən danışarkən qeyd etmək əhəmiyyətlidir ki, bu yanaşmalar müasir elmin inkişafının fənlərarası xarakterinin nəticəsində yaranmışlar. Sistem yanaşma bir elmi fənnin çərçivəsində qalmaqla elmi biliklərin sintezinə çalışır, kompleks yanaşma isə müxtəlif fənlərə xas olan idrak vasitələrindən istifadə etmək yolu ilə gerçəkliyin dərk edilməsi məqsədini həyata keçirir. Kompleks yanaşmanın köməyilə istənilən hadisə və proseslər, vəziyyətlər, situasiyalar, münasibətlər, qarşılıqlı əlaqələr öyrənilə bilər.

Sosiologiyada kompleks yanaşmanın aşağıdakı prinsipləri fərqləndirilir.

1. Çoxtəréflilik prinsipi. Bu prinsip mürəkkəb təşkil olunmuş obyektə xas olan bir neçə xassələrin, tərəflərin, aspektlərin eyni vaxtda zəruri olaraq öyrənilməsini nəzərdə tutur. Bu prinsip elmi idrakın ümumi prinsipi olan ümummetodoloji və elmi idrakı öyrənilən obyektlərin bütöv halında dərk edilməsinə istiqamətləndirən hərtərəflilik prinsipinə əsaslanır.



2. Öyrənilən obyekt haqqında ilkin təsəvvürlərin vəhdəti prinsipi. Bu prinsip vahid elmi tədqiqat çərçivəsində müxtəlif fənlərin nümayəndələri arasında qarşılıqlı anlaşmanın əsasını təşkil edir.

3. Relevant biliklərin səfərbərliyə alınması prinsipi. Bu prinsip mövcud biliklərin strukturunun və məzmununun retrospektiv təhlilinin aparılmasını və hazırkı obyektin öyrənilməsinə bilavasitə aidiyyatı olanın seçilib ayrılmasını tələb edir.

4. Baza fənni prinsipi. Tədqiqat çərçivəsində öyrənilən obyekt haqqında daha ümumi təsəvvür verən əsas elm müəyyən edilir, həmin obyektin mahiyyətini aşkara çıxarır. Kompleks sosioloji tədqiqatlarda qarşılıqlı əlaqənin təşkilatçısı rolunda baza fənni kimi çox vaxt sosiologiya çıxış edir.

5. Tədqiqat predmetinin sistem təşkili prinsipi. Bu prinsip nəzərdə tutur ki, tədqiqatların predmeti müxtəlif fənlərdən götürülmüş biliklərin təsadüfi toplusu deyil, biliklərin yeni sistemidir.

6. Biliklərin konqruentliyi, uyğunlaşması prinsipi. Bu prinsip onu göstərir ki, kompleks tədqiqatlar bir-birini tamamlayan bilikləri özünə daxil etməlidirlər, vahid təsəvvürlərə uyğun gəlməyən biliklər isə kənara atılmalıdır, lakin bu biliklər yadda saxlanılmalıdır.

7. İdrak prosesinin və konkret tədqiqatın iştirakçılarının fikir həmrəyliyinin vəhdəti prinsipi. Bu prinsip digər iki prinsipin· bir-biri ilə uyğunlaşdırılmış rəngarəng bölünmüş tədqiqat məqsədinin vəhdəti prinsipinin və tədqiqatın ideya-məqsəd qayəsinin vəhdəti prinsipinin köməyilə açıqlanır.

8. Xüsusi nəticələrin vahid, bütöv nəticə halında inteqrasiyası - ayrı-ayrı nəticələrin öyrənilmiş hadisənin tam xarakteristikasını verən ziddiyyətsiz konstruksiyası halında sintezi prinsipidir.

Bu prinsiplərdən belə nəticə çıxır ki, elə-belə kompleks sosioloji tədqiqat mümkün deyildir. Bəlkə sosiologiyanın aparıcı yer tutduğu sosial tədqiqat mümkündür. Sosioloji tədqiqatların əsas əlaməti sosial hadisənin tam halında nəzərdən keçirilməsi tələbindən irəli gələn komplekslikdir.

Kompleks sosial tədqiqatlar dörd əsas formada həyata keçirilir:

- iki fənnin kifayət etdiyi fənlərarası kompleks tədqiqat;

- sosiohumanitar fənlərin, həmçinin başqa sıralardan olan fənlərin ayrı sahələrinin, məsələn, sosial-bioloji tədqiqatın, daxil olduğu fənlərarası kompleks tədqiqat;
- bir qayda olaraq sosiohumanitar və digər elmlər kompleksinin daxil olduğu fənlərarası kompleks terminal proqramlar (müvəqqəti);
- daimi xarakter daşıyan, mürəkkəb təşkil olunmuş obyektlərin uzun müddət öyrənilməsi məqsədilə yaradılan fənlərarası stasionar proqramlar.

Həmçinin N. Smelzerin fərqləndirdiyi əsas sosioloji yanaşmaları da nəzərdən keçirək. *Demoqrafik yanaşma* – əhalinin doğum, ölüm halı, miqrasiya, fəaliyyət növləri kimi xarakteristikalarının öyrənilməsini nəzərdə tutur. *Psixoloji yanaşma* – insanların davranışının onun sosial əhəmiyyəti baxımından izahını nəzərdə tutur, həmin davranışın arxasında duran motivləri, fikirləri, sosial yönümləri, insanın özü haqqında təsəvvürlərini açıqlayır. *Kollektivist yanaşma* – qrupların və təşkilatların, müxtəlif qəbildən olan birliklərin, kollektivin üzvləri arasında kommunikasiya proseslərinin öyrənilməsi zamanı tətbiq olunur. *Rol yanaşması* – qarşılıqlı rol münasibətlərinin sistemi kimi ictimai həyatın öyrənilməsini nəzərdə tutur. Cəmiyyət burada insanların, onların cəmiyyətdəki mövqeyi və sosial rolu ilə şərtlənən qarşılıqlı təsiri vasitəsilə nəzərdən keçirilir. *Kulturoloji yanaşma* – mədəniyyətin ictimai qaydalar, normalar, dəyərlər, ənənələr kimi elementlərinin əsasında davranışın təhlili zamanı tətbiq olunur.

Sosioloqlar sosial hadisələri və prosesləri onların vəhdəti və rəngarəngliyi halında tədqiq edərkən yuxarıda göstərilən bu yanaşmaların hamısından istifadə edirlər.

## 1.2. Sosioloji biliyin əsas paradiqmaları

Paradiqma anlayışını elmə amerikan tədqiqatçısı T. Kun "Elmi inqilabların strukturu" əsərində (1993) daxil etmişdir. Paradiqma elmi işin xüsusi forması, onun nümunəsidir, elmi ictimaiyyətə müəyyən zaman ərzində problemlərin qoyuluşu və həlli modelini verən qəbul edilmiş elmi nailiyyətlərdir. Paradiqma öyrənilən gerçəkliyi yeni qaydada təsvir edən konkret elmi işin nəticəsində yaradılır. Paradiqma idrak prinsiplərinin, cəmiyyəti öyrənməyin yanaşma və metodlarının məcmusunu, predmet haqqında müəyyən təsəvvürləri, mövcud paradiqmanı əmələ gətirən ideyalar əsasında tədqiqatçıların bir-biri ilə



qarşılıqlı əlaqələrinin təşkilinin müəyyən normalarını özündə ehtiva edir. S. Kravçenko paradiqmaya sərrast tərif vermişdir: *paradiqma bu və ya digər nəzəriyyənin əsasında duran əsas müddəa və prinsiplərin spesifik kateqorial aparata malik olan və bir qrup alimlər tərəfindən qəbul edilən məcmusudur*.

Sosiologiyada iki əsas paradiqmanı fərqləndirmək olar:

- antroposentrist (anthropos *yunan* sözündən olub insan deməkdir) paradiqma. Bu paradiqmanın mənası amerikan sosiologiya dərsliklərinin birinin "İnsandan cəmiyyətə" adlanan yarımsərlövhəsində ifadə olunmuşdur. Bu paradiqma hər bir insanın müstəqilliyini, xüsusiyyətlərini nəzərə alır. Cəmiyyətin dərk edilib başa düşülməsi insandan başlanır, yəni cəmiyyəti əmələ gətirən insanlar necədirlərsə, cəmiyyət də elədir;
- sosiosentrist paradiqma. Burada sosioloqların diqqət mərkəzində cəmiyyət durur; insan sosial münasibətlərin müəyyən müstəqilliyə malik olan məhsulu kimi nəzərdən keçirilir.

4349

Göstərilən paradiqmalardan hər biri diqqəti sosial gerçəkliyin bir tərəfi üzərində cəmləşdirir, buna görə də onların inteqrasiyası zəruridir. İnsanın və cəmiyyətin bir-birinə qarşı qoyulması halını aradan qaldırmağı, onları qarşılıqlı əlaqə və qarşılıqlı şərtlənmə halında nəzərdən keçirməyi öyrənmək lazımdır.

Sosioloji biliyin inkişafı üç yanaşma üzərində qurulur:

- təbii-tarixi yanaşma. Bunun da əsas məzmunu cəmiyyətin inkişafının qanunauyğun, təbii-tarixi proses kimi nəzərdən keçirildiyi təkamülçülük nəzəriyyələrində, marksist nəzəriyyəsində, müxtəlif pozitivist konsepsiyalarında ifadə olunmuşdur. Fərdlərin və birliklərin davranışı və şüuru obyektiv qanunlarla müəyyən edilir, buna görə də insanın azadlığı burada "dərk edilmiş zərurət" kimi şərh olunur. Bu yanaşmanın əsas müddəalarının mütləqləşdirilməsi fatalizmə və ictimai inkişafın birxətliliyi haqqında təsəvvürlərə gətirib çıxarır;
- fəaliyyət yanaşması. Struktur-funksional təhlili buna aid etmək olar. İctimai inkişaf insan fəaliyyətinin qanunları ilə müəyyən edilir, ona görə ki, insanlar azaddırlar və öz layihələrinə uyğun olaraq yeni ictimai formalar yaradırlar. İctimai inkişaf insan fəaliyyətinin qanunları ilə müəyyən olunan mövcudluq kimi şərh olunur. Bu yanaşmanın müddəalarının mütləqləşdirilməsi volyuntarizmə və subyektivizmə gətirib çıxarır;
- humanitar-şəxsiyyət yanaşması. Bu yanaşma yenikantçılıqda,

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

simvolist interaksionizmdə, fenomenolist sosiologiyasında, etnometodologiyada, konstruksionizmdə işlənib hazırlanır. Bu yanaşmanın tərəfdarları belə hesab edirlər ki, sosial reallıq, ictimai dəyişikliklər qrup şüurunun fəaliyyətindən doğur və yaxud qiymətlərin, mənaların, dəyərlərin intersubyektiv dünyasında yaradılır. İstər obyektiv sosial qanunların, istərsə də insan fəaliyyəti qanunlarının mövcudluğu inkar edilir. Bu yanaşmanın müddəalarının mütləqləşdirilməsi sosial dəyişikliklərin izahında idealizmə gətirib çıxarır.

S. Kravçenko sosioloji paradiqmaları cəmiyyətin təhlilinə prinsipial metodoloji yanaşmaların xarakterinə görə sosioloji paradiqmaları üç böyük qrupa bölür:

1) sosial birlikləri, onların öztəşkil formalarını, ictimai institutların fəaliyyətini nəzərdən keçirən struktur-funksional paradiqmalar (institutların sosial strukturlarınm makrosəviyyədə insanların davranışına təsiri öyrənilir);

2) konkret tarixi, sosial və mədəni kontekst nəzərə alınmaqla insanların makrosəviyyədə davranışını öyrənən və şərh edən interpretativ paradiqmalar;

3) sosial strukturların və fəal sosial agentlərin qarşılıqlı əlaqəsini, onların bir-birinə təsirini ifadə edən inteqral (birləşdirici) paradiqmalar.

Əlbəttə, sosiologiyanın konkret istiqamətlərində paradiqmaların ayrı-ayrı müddəaları bir araya gələ bilər. Eyni zamanda da elmi birlik qruplara bölünüb ki, bunlardan da hər biri paradiqmaların başlıca olaraq birini əsas tutur.

Hazırkı vaxtda sosial idrakın paradiqmalarının dəyişməsi baş verir. Özünütəşkil nəzəriyyəsi – s i n e r g e t i k a getdikcə daha böyük mövqelər fəth edir. Sinergetikanın banisi də İ. Priqojindir.

Bu dəyişmənin əsasında aşağıdakı ideyalar durur:

- dünyanın və onun haqqında elmi biliyin sistemliliyi, bütövlüyü ideyası;
- inkişafın qeyri-xəttiliyi, çoxvariantlılığı, dönməzliyi ideyası;
- sistemlərin, fiziki, canlı, sosial sistemlərin ümumi *keyfiyyəti olaraq* özünütəşkil ideyası;
- xaosun və nizamın, zərurət və təsadüfün qarşılıqlı əlaqəsi ideyası;
- idrak ideyası – insanın təbiətlə dialoqu ideyası.



Sinergetika inandırıcı şəkildə göstərir ki, istənilən açıq sistem üçün müəyyən qədər xaosun, kortəbiiliyin, qeyri-müəyyənliyin mövcud olması bəla deyil, zərurətdir. Lakin xaos o dərəcədə olmalıdır ki, idarəetmə mümkün olsun; idarəetmə də elə olmalıdır ki, xaos yoxa çıxmasın (Priqojinə görə "idarə olunan xaos"). Açıq, mürəkkəb təşkil olunmuş sistem olaraq sosial sistem (cəmiyyət) təsadüfi fluktuasiyalara (həyəcanlanmaya) məruz qalır. Bu fluktuasiyalar müəyyən vaxtdan sonra sosial sistemin tarazlığını pozur və o, sabitliyini itirir. Müsbət əks əlaqələrin təsiri sayəsində fluktuasiyalar getdikcə daha çox güclənir və bifurkasiyaya – əvvəlki strukturun dağılmasına və onun keyfiyyətcə yeni vəziyyətə keçməsinə gətirib çıxara bilər. Mümkündür ki, sistem nizamlılığın digər daha yüksək səviyyəsinə keçsin (dissipativ struktur). Elə bu da özü özünü təşkil edən struktur adlanır. Beləliklə, qeyri-bərabərlik və qeyri-sabitlik burada nə isə dağıdıcı və neqativ bir hal kimi nəzərdən keçirilmir. Xaos yaradıcı başlanğıc kimi, entropiya nizamın mənbəyi kimi çıxış edir. Priqojin güman edir ki, davamlılıq və müvazinət hətta inkişafın çətinə düşməsi kimi də qiymətləndirilə bilər. Yeni struktur nizamlılığın və təşkiletmənin daha yüksək səviyyəsi kimi özünütəşkilın nəticəsində gözlənilmədən (spontan) meydana gəlir, inkişaf seçimi çox olanda bir nizamlılıq olaraq xaosdan yaranır. Bifurkasiya nöqtəsi ilə yanaşı güclü fluktuasiyalar müşahidə olunur, sistem sanki seçim qarşısında tərəddüd edir.

Sosial hadisə və proseslərin təhlili zamanı həm dialektik, həm də sinergetik metodlar uğurla tətbiq olunurlar. Bu metodlar bir-birini istisna etməyib, əksinə bir-birini tamamlayırlar, hər ikisi müasir cəmiyyətlərdəki transformasiya proseslərinin sosioloji təhlili zamanı fəal surətdə istifadə olunur.

Sosioloji bilik cəmiyyətə aşağıda göstərilən qaydada təsir göstərir:

1) sosioloqlar tərəfindən işlənib hazırlanmış metodlar cəmiyyətin tədqiqinin digər sahələri üçün yararlıdır;

2) sosiologiya insanların ictimai hadisələrə münasibətlərinə təsir göstərir, həmçinin sosial siyasət məsələləri üzrə qərarların qəbul edilməsi üçün informasiya verir;

3) sosioloji tədqiqat cari sosial praktikanın səmərəliliyini adekvat olaraq qiymətləndirməyə kömək edir.

## 1.3. Sosiologiyanın metodologiyası

Sosioloji metod haqqında təsəvvürlər sosiologiyanın bir elm kimi təşəkkülü prosesində formalaşmışdır. Sosioloji metod pozitivizmdən başa düşən və formal sosiologiyaya doğru, cəmiyyətin struktur-funksional təhlilinə doğru inkişaf etmişdir.

*Pozitivist metod* cəmiyyətin təbiətşünaslıq elmlərinin istifadə etdiyi prinsip və metodların köməyi ilə öyrənilməsini nəzərdə tuturdu. Belə ki, O. Kont empirik məlumatları əldə etməyin ümumnəzəri metodlarının: müşahidənin, eksperimentin, müqayisəli tarixi metodun (sinxron və diaxron metodun) sosiologiyaya tətbiq olunanlığını əsaslandırmış və özünün nəzəri müddəalarının təsviri üçün bunlardan istifadə etmişdir. H. Spenser sosial hadisə və prosesləri induksiya və deduksiya metodlarının köməyi ilə tədqiq edərkən təbiətşünaslığın və tarix elminin məlumatlarından sosioloji ümumiləşdirmələr üçün geniş istifadə etmişdir. Lakin bütövlükdə erkən nəzəri sosiologiyanın klassikləri qarşılarına yeni empirik dəlilləri əldə etməyin metodlarını işləyib hazırlamaq məqsədini qoymamışdılar. E. Dürkheym sübut edirdi ki, sosiologiya sosial faktları başlıca əlamətləri fərdlərdən asılı olmamaq, obyektiv surətdə mövcud olmaq və məcburi xarakterə malik olmaq, xarici təzyiq göstərmək kimi başlıca əlamətlərə malik olan əşyalar kimi öyrənməlidir. Dürkheymə görə sosiologiyada obyektiv metod bütün cəmiyyətdə yayılmış, fərdə münasibətdə məcburi olan hərəkət üsulları olaraq sosial faktların mövcudluğunu nəzərdə tutur; faktları isə empirik məlumatları əldə etməyin nəzəri cəhətdən əsaslandırılmış üsullarına istinad etməklə aşkara çıxarmaq mümkündür. İntiharın tiplərinin və səbəblərinin Dürkheym tərəfindən tədqiq edilməsi empirik tədqiqat üçün nümunəyə çevrilmişdir.

F. Tyonnis nəzəri və tətbiqi sosiologiya ilə yanaşı empirik sosiologiyanı təsviri fənn kimi fərqləndirmişdir. Tyonnisə görə empirik sosiologiya induktiv metoda əsaslanır və ümumi müddəalar olaraq nəzəri sosiologiyanın anlayışlarından istifadə edir.

1934-cü ildə C. Moreno cəmiyyəti dərk etməyin yeni metodunu – qrup üzvləri arasındakı sosial-psixoloji münasibətləri ölçməyə imkan verən *sosiometrik* metodu təklif etmişdir.

Sosiometrik metod buna əsaslanmışdır ki, "sosial sistemlər münasibətlərin nəinki obyektiv, xarici təzahürlərini (makrostruktur), həmçinin çox vaxt zahirən görünməz olan subyektiv-emosional



münasibətləri (mikrostruktur) özünə daxil edən cəzb edən - rədd edən, neytral sistemlərdir" (Qromov, Matskeviç, Semyonov, 1997. S.187).

Klassik dövr sosiologiyası problem-tətbiqi istiqamətilə səciyyələnir. Çikaqo sosiologiya məktəbi (ABŞ-da artıq 1892-ci ildə Çikaqo universiteti yaradılarkən təşkil olunmuş birinci sosiologiya departamentidir) həmin sosiologiyanın nümunəsi kimi qəbul olunmuşdur. Bu məktəb hələ Birinci Dünya müharibəsi ərəfəsində aktiv fəaliyyətə başlamışdı və burada görkəmli sosioloqların bir neçə nəsli yetişmişdir: birinci nəsl – A. Smoll, U. Tomas, F. Znanetski, F. Giddinqs, Ç. Kuli; ikinci nəsl – R. Park, E. Byorcess; üçüncü nəsl – U. Oqborn, S. Stauffer, E. Şilz; dördüncü nəsl – Q. Blumer, M.Yanovits və b. Həmin məktəb indi də mövcuddur, özü də bütün amerikan cəmiyyəti üçün həyati əhəmiyyəti olan sosial məsələləri: sosial situasiyalar və şəxsiyyətin ustanovkaları, urbanizasiya və ailə problemləri, sosial yansapmalar, kənara çıxan davranış, cinayətkarlıq və b. məsələləri tədqiq edir. Bu məktəbdə empirik tədqiqatların orijinal metodikaları və texnikaları işlənib hazırlanmışdır ki, bunlar standart şəkil almış və dünya sosiologiyasında geniş tətbiq olunur.

*Dialektik-materialist metod* cəmiyyətin onun materialistcəsinə başa düşülməsi mövqeyindən öyrənilməsini nəzərdə tuturdu (K. Marks, F. Engels). İlk əvvəl "dialektika" (*yunanca* dialektikė ) müsahibə aparmaq sənəti kimi başa düşülürdü. Sokrat dialektika dedikdə bir-birinə əks fikirlərin toqquşması yolu ilə həqiqəti aşkara çıxarmaq sənətini nəzərdə tuturdu. Platon isə dialektika dedikdə elə bir məntiqi metodu nəzərdə tuturdu ki, onun köməyi ilə anlayışların analizi və sintezi əsasında mövcudluğun dərki baş verir. Sofistlər "dialektika" anlayışına mənfi məna verirdilər: onlar belə hesab edirdilər ki, dialektika yalanı həqiqət kimi qələmə vermək üsuludur. Fəlsəfənin inkişaf etməsilə bu anlayış yenidən mənalandırılır. Yeni dövr alman filosofları belə bir əqidəyə gəlmişdilər ki, dialektika varlığın, hərəkətin və inkişafın, gerçəklik və idrakın ən ümumi formaları haqqında təlim kimi çıxış etməlidir. Dialektika təbiətin, cəmiyyətin və təfəkkürün inkişafının ən ümumi qanunları haqqında təlim kimi başa düşülməyə başladı.

Fransız sosioloqu Q. Qurviç dialektikanı empirizm ilə birləşdirməyi təklif edirdi. O hesab edirdi ki, dialektikadan məhrum olunmuş təbiət aləmindən fərqli olaraq sosial gerçəklik öz mahiyyəti etibarı ilə dialektikdir, buna görə də sosioloji idrak dialektik xarakter daşımalıdır. Dialektik metod sosial gerçəkliyi onun bütün müxtəlifliyi,

vəhdət və ziddiyyəti, kəmiyyət və keyfiyyəti, köhnənin yeni tərəfindən inkarı halında tədqiq etməyə imkan verir.

M. Veberin *başa düşən sosiologiya metoduna* uyğun olaraq sosiologiya sosial hərəkətlərin mənasını izah etmək yox, təfsir və şərh etməlidir. Sosiologiyanın başlıca vəzifəsini Veber sosiologiyanın obyektlərinin (istər cəmiyyət, təşkilat və yaxud fərd olsun) daxili qüvvələrinin, insanlar üçün onların əhəmiyyətinin başa düşülməsində görürdü, buna görə də sosiologiya pozitivist-təsviri sosiologiya deyil, başa düşən sosiologiya olmalıdır.

*Struktur-funksional təhlil* – metodoloji fikrin müstəqil istiqamətidir. Bu istiqamət cəmiyyəti öz spesifik funksiyalarına malik hissələrinin yaxşı inteqrasiya olunduğu sabit sistem kimi nəzərdən keçirməyə imkan verir. Sosiologiyada struktur-funksional təhlil iki formada: metod formasında və məzmunlu nəzəriyyə formasında mövcuddur. Bu təhlil məzmunlu nəzəriyyə kimi T. Parsons tərəfindən, xüsusi metod kimi isə onun şagirdi və davamçısı R. Merton tərəfindən işlənib hazırlanmışdır.

Parsonsun sruktur-funksional təhlil metodologiyası nəzəriyyənin və empirik faktların nisbəti haqqında ilkin müddəaya söykənir. Bu müddəaya görə nəzəriyyə faktlara uyğun gəlir, fakt isə hadisələr haqqında maksimum dərəcədə universal sxem kimi qurulmuş konseptual sxemin terminləri ilə empirik olaraq yoxlanılan hökmdür.

Parsonsun baxışları bu bölmənin 3-cü fəslində ətraflı şərh olunacaqdır. Burada yalnız onu qeyd edək ki, Parsonsun hərəkət nəzəriyyəsinin məqsədi əvvəllər müstəqil elementlər kimi nəzərdən keçirilmiş sosial inkişaf amillərinin bütün tiplərini bir sistemdə birləşdirmək idi. Hərəkət nəzəriyyəsinin əsas həlqəsi normalara uyğun olaraq hərəkət edən xadim haqqında təsəvvürdür. Hərəkət seçim azadlığını nəzərdə tutur, dəyərlər, normalar, ideyalar isə bu nəzəriyyədə ictimai varlığın maddi amilləri ilə bərabər səviyyədə çıxış edirlər.

Parsonsa görə hərəkət sistemi dörd yarımsistemdən ibarətdir:

- mədəniyyət, onun funksiyaları yarımsistemi: fəaliyyət nümunələrinin müdafiə olunması, hərəkətlərə məna verilməsi;
- sosial yarımsistem, onun xadimlərin hərəkətlərinin inteqrasiyası funksiyaları;
- şəxsiyyət yarımsistemi, onun məqsədə çatmaq funksiyası;
- orqanizm yarımsistemi, onun adaptasiya funksiyası.

Merton yüksək abstrakt nəzəriyyələrin zəif cəhətlərini görərək,



hərəkətin nəzəri-metodoloji ilkin şərtlərinin empirik tədqiqatlarla birləşdiyi orta səviyyəsi və yaxud diapazonu nəzəriyyələrini işləyib hazırlamışdır. Bu metodologiyadan o, anomiyanın sosial cəhətdən şərtlənməsinin təhlili zamanı istifadə etmişdir. Merton Kolumbiya sosiologiya məktəbinin (Kolumbiya universitetinin sosiologiya departamenti, Nyu-York) liderlərindən biri olmuşdur. Bu məktəb özünün nəzəri, metodoloji və empirik məlumatların sıx qarşılıqlı əlaqəsinə əsaslanan tədqiqatları ilə məşhur olmuşdur. Həmin məktəbin ikinci lideri olan P. Lazarsfeld kəmiyyət və keyfiyyət tədqiqat metodlarından kompleks istifadə olunmasına, empirik məlumatların təhlilinin riyazi metodlarının işlənib hazırlanmasına (latent təhlil, təkrar təhlil, kontent-təhlil və b.) görkəmli töhfə vermişdir.

Struktur-funksional təhlil öz təşəkkülündə üç mərhələdən keçmişdir.

Birinci mərhələdə struktur-funksional təhlil XIX əsr sosiologiyasına alternativ olaraq inkişaf etmişidir. Bu mərhələdə sosial sistemlərin sabitliyini, davamlılığını, cəmiyyətin inkişafında varisliyi təmin edən mexanizmlər haqqında təsəvvürlərin işlənib hazırlanmasına az diqqət yetirilmişdir. Lakin ikinci mərhələdə tədqiqatların məhz bu tərəfi ön plana keçir. Üçüncü mərhələ sosial sistemlərin inkişaf problemlərinə qayıdışla bağlıdır. Lakin bu qayıdış yeni əsasda – sosial sistemlərdə dəyişikliklərə səbəb olan struktur mexanizmlərdən istifadə edilməsi ilə baş vermişdir.

Metod kimi struktur-funksional təhlilin əsasında üç tezis durur:

- sosial sistem vəhdətdir, funksiya isə bir tam kimi sosial sistemin saxlanılmasına kömək edəndir;
- cəmiyyətin fəaliyyət göstərməsi bunun sayəsində təmin olunur ki, o müəyyən funksional tələblərə cavab verir (Parsonsa görə bu cür tələblərə sosial adaptasiya, məqsədənailolma, inteqrasiya və nümunələrin qorunub saxlanılması prosesləri cavab verir);
- fərdin və qrupun davranışı sosial prosesin ali tənzimləyicisi kimi çıxış edən normativ təsəvvürlərlə, dəyərlərlə şərtlənmişdir.

Struktur-funksional təhlil əsas tezislərdən əlavə bu postulatlara istinad edir:

- cəmiyyətin funksional vəhdəti postulatı (bildirilir ki, cəmiyyətin bütövlüyü əsas funksiyaların yerinə yetirilməsinin xüsusi mexanizmləri ilə qorunub saxlanılır. Həmin mexanizmlər də cəmiyyətə imkan verir ki, o, mövcudluğunu saxlasın və tama inteqrasiya olunsun);

• funksionalizmin universallığı postulatı (bildirilir ki, cəmiyyətin bütün elementləri həmin elementlərin cəmiyyəti bir bütöv, tam kimi formalaşdıran funksional xassələri baxımından nəzərdən keçirilməlidir);

• zərurət postulatı (müəyyən funksiyalar yerinə yetirilməyə bilməz və onlar məcburedici gücə malikdirlər ki, bu da bütün ictimai institutların funksional determinasiyasına gətirib çıxarır. Lakin ayrı-ayrı institutların funksional determinasiyası funksional alternativlərin və əvəzləyicilərin meydana çıxması imkanını istisna etmir. Eyni bir funksiya müxtəlif üsullarla təmin oluna bilər).

Bundan əlavə funksional təhlil qarşısında xüsusi tələblər irəli sürülür (burada Merton tərəfindən irəli sürülmüş tələblər gətirilmişdir): 1) funksional təhlil standartlaşdırılmış obyektlərin, məhz sosial rolların, statusların, sosial strukturun, sosial nəzarət vasitələrinin və b. araşdırılması üzərində qurulur; 2) funksional təhlil standart situasiyalarda fəaliyyət göstərən aktorların – iştirakçıların subyektiv motivlərini tədqiq edə bilər; 3) funksiya insan fəaliyyətinin obyektiv nəticəsidir, obyektiv kateqoriyadır; 4) funksiyalar sosial vahidlərlə və yaxud xidmət göstərdikləri ayrı-ayrı qruplar və sosial sistemlərlə uzlaşmalıdırlar; 5) hər bir funksiya xüsusi qaydada yerinə yetirilir. Sosioloqun da vəzifəsi həmin mexanizmi açıb göstərməkdir; 6) funksiya alternativlərə yaxud funksional ekvivalentlərə malik ola bilər.

*Funksiya* anlayışının bir neçə mənası var: sosial sistemin elementinin bir tam kimi onun təşkilində oynadığı r o l ; sosial hadisələr arasında dəyişənlərin funksional asılılığı ilə ifadə olunan a s ı l ı l ı q ; standart şəkil almış, normalarla tənzimlənən və sosial institutlar tərəfindən nəzarət olunan sosial h ə r ə k ə t ; sosial hərəkətin m e x a n i z m i ; sosial hərəkətin məhsulu.

"Funksiya" anlayışından başqa Merton disfunksiya anlayışını daxil etmişdir. Bunun sayəsində də sosial dəyişikliklərin mexanizmlərini tədqiq etmək imkanı yaranmışdır.

Disfunksiya anlayışı insan fəaliyyətinin sosial sistemin dezadaptasiyasına səbəb olan, sistemin sabitliyini pozan, sosial dəyişikliklər əmələ gətirən obyektiv nəticələrini müəyyən edir. Merton insan fəaliyyətinin nəticələrini qabaqcadan nəzərdə tutulmuş nəticələrə və bu sistemin nəzərdə tutulmamış əlavə məhsulu olan gizli nəticələrə bölmüşdür. O göstərirdi ki, sosiologiya disfunksiyaların və sosial proseslərin dərk olunmasında ən çətin və mühüm olan bir hal kimi gizli funksiyaların aşkara çıxarılması və proqnozlaşdırılması ilə məşğul olmalıdır.



Mertonun funksional təhlili cəmiyyətin statikasını, "disfunksiya" anlayışının köməyilə isə cəmiyyətin dinamikasını da öyrənir.

Merton dərketmə hərəkətlərinin məcmusu formasında funksional təhlilin sxemini təklif etmişdir:

• funksional təhlilin obyekti standartlaşdırılmış, yəni təkrar olunan hadisələrdən ibarət olmalıdır və bu hadisələrin təsviri üçün struktur anlayışlarından (davranışın, fəaliyyətin, sosial rolun standart nümunələri, sosial normalar, sosial strukturlar və s.) istifadə olunmalıdır;

• *alternativ davranış nümunələrini nəzərdən keçirmək* lazımdır;

• davranışda iştirakın motivləri ilə bu davranışın obyektiv tərəfi arasındakı fərqi aşkara çıxarmaq lazımdır;

• sosial qarşılıqlı təsirdə və əlaqədə qeyri-iradi şəkildə təzahür edən qanunauyğunluqları aşkara çıxarmaq və qeyd etmək lazımdır.

Sosiologiyada *fenomenoloji metodu* A. Şyuts işləyib hazırlamışdır. Şyuts özünün nəzəri müddəalarında E. Qusserlin şüur fəlsəfəsi olan fenomenoloji fəlsəfəsinə əsaslanmışdır. O, fenomenoloji fəlsəfənin "həyat aləmi" adlanan çıxış anlayışını yenidən mənalandıraraq bu anlayış altında obyektivləşən elmi refleksiyadan əvvəl gələn dünyanı, hissiyyatlar, şübhələr, bəyanatlar dünyasını, elmi refleksiya tərəfindən pozulmamış, təhrif olunmamış dünyanı, adi şüur və sağlam şüur dünyasını başa düşməyə başlamışdır.

Şyutsa görə fenomenoloji sosiologiya fenomenoloji reduksiyanı həyata keçirməlidir, yəni mövcud elmi biliyi bir növ mötərizədən kənara çıxarmalı, onu etiqad kimi qəbul etməkdən imtina etməlidir. Bu sosiologiyanın vəzifəsi – konstruktları, yəni müxtəlif səviyyəli anlayışları bir-biri ilə tutuşdurmaq, müqayisə etməkdir. Şyuts iki səviyyədən olan konstruktları fərqləndirmişdir: birinci konstruktlar işlənib hazırlanmışdır və bunlardan həyat aləmində istifadə olunur, ikinci konstruktlardan isə sosial nəzəriyyələrdə istifadə olunur.

Fenomenoloji sosiologiya "gündəlik həyat sosiologiyası" adını almış xüsusi cərəyanın əsaslarını qoymuşdur.

Yüksək nəzəri-metodoloji yetkinlik Britaniya sosial antropologiya məktəbi üçün də səciyyəvidir. Bu məktəbin nümayəndələri olan E. Vestermark, A.R. Radkliff-Braun, B.K. Malinovski ibtidai, primitiv cəmiyyətlərdə (Britaniya müstəmləkələrinin ərazilərində) insanların həyatı haqqında nəzəri-metodoloji cəhətdən yoxlanılmış məlumatların əldə edilməsi texnikasını elmi cəhətdən əsaslandırmışlar.

Sosiologiya tarixində sosioloji metodologiyanın spesifikası haqqında aşağıdakı təsəvvürlər işlənib hazırlanmışdır.

*Təbii-elmi ustanovka.* Həmin metodologiyanın nümayəndələri bundan çıxış edirlər ki, təbiətşünaslıq metodologiyası həqiqi elmi metodologiyadır və onu cəmiyyətin dərk edilməsinə tətbiq üçün qəbul etmək lazımdır.

*Modifikasiya olunmuş təbii-elmi ustanovka.* Bu ustanovkanın tərəfdarları belə güman edirlər ki, təbiət elmlərinin metodologiyasından cəmiyyətin tədqiqi zamanı istifadə etmək olar, lakin bu istifadənin dairəsini məhdudlaşdırmaq lazımdır. Təbiət elmlərinin metodları əsasında sosial hadisələri öyrənməyin imkanlarını və sərhədlərini müəyyən etmək lazımdır önəmlidir.

*Metodoloji pessimizm.* Mənası budur ki, təbiət elmlərinin metodologiyasını cəmiyyətin tədqiqinə tətbiq etmək olmaz, buna görə də sosiologiya elm statusundan imtina etməli və sosial-fəlsəfi refleksiyanın forması olaraq qalmalıdır.

*Sosiologiyanın metodologiyasının prinsipial spesifikliyi doktrinası.* Bu nöqteyi-nəzərin nümayəndələri ondan çıxış edirlər ki, obyektiv dünyada bir-birinə əks olan iki reallıq mövcuddur: cəmiyyət və təbiət. Sosial reallığı təbiət elmlərinin metodlarının köməyi ilə adekvat şəkildə tədqiq etmək olmaz. Sosiologiyanın təbii-elmi metodologiyadan fərqli olan öz metodologiyası vardır.

*Sintetik təsəvvür.* Bu təsəvvürə görə təbiət elmlərinin metodlarından və sosioloji metodlarının özündən istifadə olunması mümkündür.

## 1.4. Sosioloji bilik sistemi, sosiologiyanın strukturu və funksiyaları

Sosiologiya bir elm kimi biliklər sistemidir, həm bütövlükdə cəmiyyəti və həm də konkret hadisələri, prosesləri öyrənməyə imkan verən təfəkkür üsuludur. Buna uyğun olaraq sosioloji biliyin strukturunda iki tərəfi fərqləndirmək olar: ontoloji bilik (obyektiv sosial proseslər və vəziyyətlər haqqında bilik) və qnoseoloji bilik (sosioloji biliyin özünün əldə edilməsinin üsulları haqqında bilik).

Sosioloqlar cəmiyyəti mikro və makrosəviyyələrdə öyrənirlər. M i k r o s o s i o l o g i y a başlıca diqqəti insanların gündəlik qarşılıqlı təsir və əlaqələrinin təhlilinə yönəldir. Bu cərəyanın nümayəndələri belə



hesab edirlər ki, sosial hadisə və prosesləri yalnız insanların bir-biri ilə qarşılıqlı əlaqələri prosesinə verdikləri mənaları təhlil etməklə başa düşmək mümkündür. Onlar əsas etibarı ilə fərdlərin davranışını, onların cəmiyyətdə baş verən proseslərə təsir göstərən əməllərini, qarşılıqlı əlaqələrinin motivlərini tədqiq edirlər. Yəni sosioloqlar ictimai həyatın ayrı-ayrı sferalarında və sosial birliklərdə baş verən lokal, məhəlli prosesləri və hadisələri insanların davranışının daxili cəhətlərini nəzərə almaqla öyrənirlər. Bu cür tədqiqatlarda başlıca olaraq empirik tədqiqat metodlarından istifadə olunur.

M a k r o s o s i o l o g i y a diqqəti cəmiyyətin əsas strukturları üzərində, cəmiyyətin mahiyyətini başa düşməyə imkan verən davranış modelləri üzənində cəmləşdirir. Başlıca olaraq cəmiyyətin müxtəlif hissələri arasındakı qarşılıqlı əlaqələr və sosial dəyişikliklərin mexanizmləri öyrənilir. Konkret problemlər və situasiyalar tədqiq olunmur, ümumnəzəri təhlil kontekstinə daxil edilir. Makrososiologiya fəlsəfi və ümumelmi metodlar olan abstraktlaşdırmadan, ideallaşdırmadan, ümumiləşdirmə, müqayisə, deduksiya və induksiyadan və b. geniş istifadə edir.

Sosiologiyanın strukturunda *həmçinin* başqa qəbildən olan səviyyələri: ümumsosioloji nəzəriyyələri və yaxud nəzəri sosiologiyanı; xüsusi sosioloji nəzəriyyələri və yaxud orta səviyyə nəzəriyyələrini; tətbiqi sosiologiyanı, konkret (empirik) sosioloji tədqiqatları fərqləndirirlər.

*Ümumsosioloji* nəzəriyyələr cəmiyyətin, bütövlükdə bəşəriyyətin inkişafının dərin mahiyyətli proseslərini əks etdirir, bu və ya digər sosial fenomenlərin meydana gəlməsinin, fəaliyyət göstərməsi və inkişafının səbəblərini aşkara çıxarırlar. Ümumsosioloji səviyyədə qarşılıqlı təsir münasibətləri tədqiq olunur, bu münasibətlərin və qarşılıqlı təsirlərin sistemi olaraq cəmiyyət öyrənilir. Ümumsosioloji nəzəriyyələrə aiddir: O. Kontun pozitiv sosiologiyası, H. Spenserin üzvi nəzəriyyəsi, M. Veberin başa düşən sosiologiyası, K. Marksın marksizmi, T. Parsonsun struktur funksionalizmi, E. Qusserlin fenomenoloji sosiologiyası, Q. Blumerin və C. Midin simvolik interaksionizmi, D. Xomansın hərəkət nəzəriyyəsi. Ümumnəzəri sosiologiya ümumsosioloji nəzəriyyələrin məcmusu, sistemi kimi qarşıya çıxır.

Artıq qeyd etdiyimiz kimi, *orta səviyyə* nəzəriyyələri konsepsiyasını R. Merton işləyib hazırlamışdır. Bu nəzəriyyələrə uyğun olaraq sosioloji biliyin üç səviyyəsi mövcuddur: geniş sosioloji

nəzəriyyələr, orta səviyyə nəzəriyyələri, kiçik işçi hipotezləri. Orta səviyyə nəzəriyyələri ümumi nəzəriyyələrlə kiçik işçi hipotezləri arasında özünəməxsus körpüdür. Bunlara aiddir: sosial institutlar nəzəriyyələri (ailə, din, siyasət, elm institutları və s.), sosial birliklər (qruplar, təşkilatlar, ərazi birlikləri, ölkələr və s. nəzəriyyələri), sosial proseslər (münaqişə, razılıq, intizamsızlıq, urbanizasiya və s.) nəzəriyyələri. Ən yaxşı işlənib hazırlanmış xüsusi sosioloji nəzəriyyələr bunlardır: demoqrafik sosiologiya, təhsil, siyasət, ailə və nikah, hüquq, din, sosial pozuntuluq və münaqişə, həmrəylik sosiologiyası və bir sıra başqaları.

*Tətbiqi, konkret (empirik) sosioloji tədqiqatların* köməyilə aktual sosial problemlər (məsələn, işsizlik, deviant davranış, ailə-nikah münasibətlərinin inkişafı problemləri) həll olunur.

Sosioloji biliyin bütün səviyyələri bir-biri ilə sıx bağlıdır. Struktur cəhətdən sosiologiyanı bir qayda olaraq *fundamental* və *tətbiqi, nəzəri* və *empirik sosiologiyaya* ayırırlar.

Sosiologiya sahəsində işlənib hazırlanan nəzəriyyələr və konsepsiyalar iki əsas suala cavab verirlər: nə dərk olunur (obyekt) və necə dərk olunur (metod ). Beləliklə, bu suallar qnoseoloji vəzifələrin həlli ilə bilavasitə bağlıdır və məcmu halında götürüldükdə nəzəri, fundamental sosiologiyanı formalaşdırırlar. Fundamental tədqiqatlara nəinki nəzəri işlər, eyni zamanda nəzəriyyənin faktual əsaslandırılmasına və yaxud onun modifikasiyasına istiqamətləndirilmiş empirik tədqiqatlar daxildir. Fundamental xarakterli tədqiqatlar "nəzəri", ideallaşdırılmış obyektlə iş görür ki, bu da xüsusi təsvir və müşahidə dilindən istifadə olunmasını nəzərdə tutur. Fundamental işlər əsas etibarı ilə universal izahedici prinsiplərin axtarılmasına həsr edilmiş idrak vəzifələrini həll edirlər.

Fundamental və tətbiqi sosiologiya bir-birindən tədqiqat obyektinə görə deyil, nəzəri və yaxud praktik vəzifələrin həlli məqsədinə görə fərqlənirlər. "Fundamental" və "tətbiqi" terminləri sosioloji biliyin istiqamətliliyini, onun məqsəd yönümünü, "nəzəri" və "empirik" terminləri biliyin spesifikasını və abstraksiyanın səviyyəsini göstərir. Fundamental sosiologiyanın alternativi olaraq tətbiqi sosiologiya, nəzəri sosiologiyanın alternativi olaraq empirik sosiologiya çıxış edir.

Nəzəri sosiologiya yeni biliyin əldə edilməsini nəzərdə tutur. Məsələn: sosial inkişaf proseslərinin təsviri, izahı, başa düşülməsi; konseptual sosioloji tədqiqat modelinin işlənib hazırlanması; sosial



reallığın nəzəri dərki; sosial gerçəkliyi yenidən dəyişdirmək üsullarının müəyyən edilməsi. Nəzəri sosiologiyanın çərçivəsi daxilində xüsusi və özəl sosioloji nəzəriyyələr mövcuddur.

Tətbiqi sosiologiya sosial əhəmiyyətli məqsədlərin həyata keçirilməsi vasitələrinin tapılmasını; nəzəri sosiologiyanın praktik tətbiqini, sosial idarəetmənin sosioloji təminatını; sosial planlaşdırma və proqnozlaşdırma metodlarının reallaşdırılmasını nəzərdə tutur.

Cəmiyyət haqqında, yaxud onun ayrı-ayrı altsistemləri və komponentləri haqqında əldə edilən biliyin səviyyəsindən asılı olaraq tədqiqatlar nəzəri və empirik tədqiqatlara ayrılır. Nəzəri tədqiqatlar nəzəriyyələrin işlənib hazırlanmasına, cəmiyyətin və onun altsistemlərinin inkişafının sosial meyllərinin müəyyən edilməsinə, bunlarda meydana gəlmiş mühüm ziddiyyətlərin təhlilinə istiqamətləndirilmişdir. Empirik tədqiqatlar – öyrənilən sosial hadisələr, obyektlər və proseslər üçün səciyyəvi olan baş vermiş hadisələrin bilvasitə yaxud bilavasitə qeydiyyatı vasitəsilə sosial amillərin toplanmasından və ümumiləşdirilməsindən ibarətdir.

Bu bölgü olduqca şərtidir və o, buna əsaslanır ki, nəzəri istiqamətli tədqiqatda öncüllük elmi vəzifələrə, tətbiqi tədqiqatda isə praktik vəzifələrə verilir. Buna görə də sosioloji tədqiqatlardan bəhs edərkən bu ad altında tətbiqi (empirik) sosiologiyanı da başa düşmək düzgün olardı. Tətbiqi sosiologiyanın s t r u k t u r u n a empirik tədqiqatın metodları, texnika və qaydaları, yəni sosioloqun əldə edə bildiyi informasiyanın toplanması, işlənilməsi və təhlilinin çox və ya az dərəcədə formallaşdırılmış qaydaları daxildir. M e t o d dedikdə empirik məlumatların toplanması, işlənilməsi və təhlilinin əsas qayda və üsullarının məcmusunu başa düşürlər. Tətbiqi sosioloji tədqiqat t e x n i k a s ı metoddan səmərəli istifadə etmək üçün lazım olan təşkilati qaydaların məcmusudur. Hər qayda müəyyən texnikaya əsaslanan bütün əməliyyatların ardıcıllığı, yəni sosioloji tədqiqatı təşkil etməyin əməl və üsullarının ümumi sistemi tətbiqi sosioloji tədqiqatın prosedurudur.

Tətbiqi sosiologiya nəzəri ümumiləşdirmələr üçün empirik material toplamağa, rəngarəng informasiya məqsədyönlü əldə etməyə imkan verir. Nəzəri sosioloji tədqiqat empirik informasiyanın təkrarən təhlilini həyata keçirir, sosial reallıq haqqında, sosial inkişaf qanunauyğunluqları haqqında elmi biliyi formalaşdırmağa, sosiologiyanın konseptual aparatını işləyib hazırlamağa imkan verir.

İstənilən sosioloji tədqiqat, bir tərəfdən, sosial proseslərin

qanunauyğunluqlarının adekvat suratdə əks etdirilməsinə (nəzəri sosiologiya) və digər tərəfdən, konkret problem situasiyalarının və problemlərin həllinə yönəldilmiş elmi cəhətdən əsaslandırılmış proqnoz və tövsiyələrin formalaşdırılmasına (tətbiqi sosiologiya) səy göstərir.

Tətbiqi sosiologiya nəzəri sosiologiya ilə reallıq, cəmiyyət həyatının konkret sahələri arasında əlaqələndirici vasilədir. Tətbiqi xarakterli tədqiqatlar ictimai həyatın müxtəlif sahələrindəki konkret problemlərin həlli məqsədilə aparılır. Tətbiqi sosioloji tədqiqatların gedişində sosial əhəmiyyətli müəyyən problemin həllinə kömək edən ümumiləşdirmələr və tövsiyələr formalaşdırılır.

Empirik sosioloji tədqiqat sosial gerçəklik haqqında elmi ümumiləşdirmələr və nəticələr üçün, həmçinin real sosial siyasət praktikasında istifadə olunan empirik məlumatlar əldə etməyə imkan verir.

Qeyd etmək lazımdır ki, bəzi hallarda fundamental və tətbiqi tədqiqatlar arasında kəskin hədd qoymaq çətindir, çünki yüksək səviyyəli tətbiqi tədqiqat nəticələri elmi-idraki dəyərə də malik ola bilər.

P. Sorokin sosioloji bilikdə üç sahə strukturunu fərqləndirməyi təklif etmişdir:

- ümumi struktur sosiologiyası. Bu sosiologiya bütün sosiomədəni hadisələrin növ xassələrini, onların strukturunu və tərkibini; əsasında əhalinin və qarşılıqlı münasibətlərin tiplərinin diferensiasiya edildiyi və təbəqələrə bölündüyü qrup və ya institutların əsas tiplərini; mədəni sistemlərin əsas tiplərini və onların qarşılıqlı münasibətlərini; sosial qruplara və mədəni sistemlərə daxil olan şəxsiyyətlərin strukturunu və tiplərini öyrənir;
- ümumi dinamik sosiologiya. Bu sosiologiya təkrar olunan sosial prosesləri - sosial ünsiyyəti, qarşılıqlı təsiri, sosiallaşmanı, münaqişəni, ağalıq, tabelik münasibətlərini, adaptasiyanı, miqrasiyanı, mobilliyi tədqiq edir. Ümumi dinamik sosiologiya sosial sistemlərin yaranması proseslərini (o cümlədən öz üzvlərini necə əldə edib itirmələrini, sosial strukturlar çərçivəsində onların bölünməsini); təkrar olunan mədəni prosesləri - mədəni nümunələrin və sistemlərin ixtirasını, inteqrasiyasını və dezinteqrasiyasını, onların şəxsiyyətə təsirini; sosiomədəni proseslərin dəyişikliklərinin ritmini, tempini, dövriliyini, meyllərini; cəmiyyətdəki təkrar olunan sosiomədəni prosesləri öyrənir. Nəticə etibarilə sosiologiyanın bu sahəsi insanların necə və nə üçün dəyişdiklərini tədqiq edir;



- xüsusi sosiologiyalar. Bunlar da mahiyyət etibarı ilə elə eyni şeyi tədqiq edirlər, lakin sosiomədəni hadisələrin dəqiq, əsaslı öyrənilməsi üçün seçilmiş xüsusi növü çərçivəsində. Xüsusi sosioloji nəzəriyyələr sosial hadisənin və bütövlükdə cəmiyyətin inkişafının qanunauyğunluqlarını və perspektivlərini aşkara çıxarırlar.

Sosiologiyanın rolu və əhəmiyyəti onun spesifik funksiyaları ilə müəyyən olunur.

*Nəzəri-idraki funksiya* sosial inkişafın qanunauyğunluqlarının, müxtəlif sosial hadisə və proseslərin dəyişməsi meyllərinin öyrənilməsini nəzərdə tutur. Sosiologiya müxtəlif subyektlər arasında təşəkkül tapan ictimai münasibətlərin öyrənilməsinə, həmin subyektlərin fəaliyyətinin obyektiv və subyektiv tərəflərinin, həmçinin sosial institutların, qrup və təşkilatların fəaliyyətinin təhlilinə çox mühüm əhəmiyyət verir. Bundan əlavə sosiologiya cəmiyyətin iqtisadi, siyasi və mənəvi həyatındakı sosial proseslərin inkişafı haqqında elmi proqnozlar işləyib hazırlayır. Yeni bilik o zaman meydana gəlmiş olur ki, ictimai inkişafın tələbatları ilə insanların subyektiv fəaliyyəti arasında ziddiyyətdən ibarət olan sosial problem formulə edilmiş olsun.

Bir sıra hallarda sosiologiya mənfi rol da oynayır, belə ki sosioloji məlumatların izahı zamanı insanların şüuru ilə manipulyasiya edilməsi mümkündür.

*Diaqnostik funksiya* cəmiyyətin obyektiv vəziyyətinin aydınlaşdırılması deməkdir. Diaqnostik tədqiqatlar öyrənilən obyektin vəziyyətinin, sosial institutların, qrupların, təşkilat və kollektivlərin fəaliyyətindəki nöqsanların və yansapmaların vəziyyətinin aydınlaşdırılması məqsədilə aparılır. Sosioloji təhlil öyrənilən hadisənin "xəstəliyinin səviyyəsini" müəyyən etməyə imkan verir.

*Praktik (texnoloji) funksiya* sosial proseslərin səmərəli idarə olunmasına dair praktik nəticələrin və tövsiyələrin işlənib hazırlanmasını nəzərdə tutur. Sosiologiyanın əməli funksiyası sosial hadisələrin və proseslərin empirik və nəzəri təhlili əsasında sosial idarəetmə mexanizmlərinin yaxşılaşdırılmasına, bütün səviyyələrdə - kollektivdən tutmuş bütövlükdə cəmiyyətə qədər sosial idarəetmənin səmərəliliyinin yüksəldilməsinə yönəldilmiş tövsiyələri işləyib hazırlamaqdan ibarətdir. Cəmiyyətin ən yaxın və uzaq gələcəyi, cəmiyyətin iqtisadiyyatının, sosial, siyasi və mənəvi sahələrinin inkişafına dair sosioloji proqnozlar mühüm əməli əhəmiyyətə malikdir.

*Evristik funksiya* sosium və şəxsiyyət haqqında, sosial birliklər,

qruplar və təşkilatlar haqqında yeni biliyin əldə edilməsinə istiqamətləndirir.

*Proqnostik funksiya* sosial hadisə və proseslərin istiqamətliliyı və meylinin aşkara çıxarılmasını, tədqiq olunan obyektin vəziyyətinin proqnozlaşdırılmasını nəzərdə tutur. Bu funksiya ən yaxın və ya uzaq gələcəkdə sosial sistemin mümkün olan vəziyyətlərinin müəyyən olunduğu, bütövlükdə cəmiyyətin və yaxud onun ayrı-ayrı vəsilələrinin və altsistemlərinin sosial inkişafının qabaqcadan elmi xəbər verilməsinin həyata keçirildiyi ümumi konseptual müddəalar sistemində reallaşdırılır. Sosiologiya elminin sayəsində aşağıdakıları bilməyin əsasında qısamüddətli və yaxud uzunmüddətli proqnozlar tərtib olunur:

- reallığın keyfiyyət və mahiyyətinin;
- bu reallığın fəaliyyət qanunlarının;
- reallığın inkişaf qanunlarının.

Sosial hadisələrdən söhbət gedərkən proqnozlaşdırma xüsusilə önəmlidir, belə ki, o, 1) müəyyən dəyişikliklərin zəruriliyini və 2) bu dəyişikliklərin həyata keçirilməsi imkanını göstərir.

Sosiologiya bu halda, bir tərəfdən, öyrənilən cəmiyyətin inkişafının əsaslarının, onun ümumi perspektivlərinin dərk edilməsinə, digər tərəfdən, ayrıca sosial subyektin konkret imkanlarının dərk edilməsinə əsaslanır. Sosiologiyanın proqnozlaşdırma funksiyası cəmiyyətin hər bir sahəsinin elmi cəhətdən əsaslandırılmış inkişaf perspektivinin şüurlu surətdə işlənib hazırlanması və həyata keçirilməsi üçün şəraitin yaradılmasına cəmiyyətin tələbatını əks etdirir.

*İdarəetmə funksiyası* sosiologiyanın cəmiyyətin aktual problemlərinin həllində iştirakında özünü göstərir. Rusiya cəmiyyətinin bazar münasibətlərinə keçməsi şəraitində idarəetmənin sosioloji təhlili xüsusilə əhəmiyyətlidir. Sosioloji tədqiqat metodlarının köməyi ilə bu prosesin sosial aspektləri, insanların yeni iqtisadi reallıqlara daxil olmalarının sosial nəticələri tədqiq olunur.

*Sosial layihələşdirmə və konstruksiyalaşdırma funksiyası* gələcək obyektin parametrləri sisteminin və yaxud mövcud obyektin keyfiyyətcə yeni vəziyyətinin elmi cəhətdən əsaslandırılmış şəkildə qurulması deməkdir. Sosial layihələşdirmə zamanı obyektin necə obyekt olmasından asılı olmayaraq sosial məsələlər həll olunur, yəni obyekt həqiqətən sosial obyektidirmi (xəstəxana, məktəb), istehsal obyektidirmi (zavod, fabrik), arxitektor obyektidirmi (mikrorayon) və s., belə ki layihəyə sosial layihələşdirmənin bir-biri ilə qarşılıqlı əlaqədə olan bütün altməqsədlərinin həyata keçirilməsi üçün şəraitin kompleks



şəkildə təmin edilməsinin sosial parametrləri daxil edilir. Sosial layihələrin reallaşdırıla bilməsi dərəcəsinin müəyyən edilməsi zamanı işgüzar oyun metodu özünü yaxşı doğrultmuşdur.

*Təşkilati-texnoloji funksiya* sosial prosesin və yaxud sosial münasibətlərin inkişafında, müxtəlif qəbildən olan problemlərin həllində, idarəetmənin təşkilində konkret nəticənin əldə edilməsi üzrə əməli hərəkətlərin üsulunu və dəqiq qaydalarını müəyyən edən vasitələrin sistemini qabaqcadan müəyyənləşdirir. Bu funksiya sosial texnologiyaların yaradılmasını nəzərdə tutur. O sanki sosial layihələşdirməni davam etdirir, belə ki, sosial texnologiya sosial layihənin həyata keçirilməsi üzrə tədbirlərin işlənib hazırlanmasını ifadə edir.

*İnstrumental funksiya* o deməkdir ki, sosiologiya sosial idrakın ümumi metodlarından istifadə etməklə yanaşı sosial gerçəkliyin təhlili üçün özünün yanaşma və priyomlarını işləyib hazırlayır. Müəyyən metodların köməyi ilə özünün konkret halında olan sosial hadisə dərk edilir və inikas olunur, digər metodların köməyi ilə həmin sosial hadisənin yenidən qurulmasının yolları işlənib hazırlanır. Sosiologiyanın instrumental funksiyası axtarış, qeydəalma, işlənilmə, təhlil, ümumiləşdirmə üzrə metodların və instrumentarilərin (alətlərin) işlənib hazırlanmasına yönəldilmişdir. Sosioloji tədqiqat sosiologiyanın özünəməxsus daha ümumi aləti olub, metodlar çoxluğunu özündə birləşdirir. Sosial idrakın tədqiqat instrumentarisinin (alətinin) yaradılmasının sosiologiyada mühüm əhəmiyyəti vardır.

*İnformasiya funksiyası* fərdlər və birliklər haqqında, onların tələbatları, maraqları, dəyər yönümləri və istiqamətləri haqqında, konkret situasiyalarda real və verbal (şifahi) davranışın motivləri və faktları haqqında ilkin və işlənilmiş təkrar məlumatlar əldə etməyə imkan verir. Sosioloji tədqiqatlar bütövlükdə cəmiyyətin dərk edilməsi üçün, bu cəmiyyətin idarə edilməsi üçün informasiya bazası yaradır. İnformasiyanın mövcudluğu sosioloqa məsul dövlət qərarlarına: hökumət qərarlarına, qanunvericilik aktlarına və s. ekspert qiyməti verməyə imkan yaradar. Sosioloji informasiya nəinki qəbul edilən idarəçilik qərarları üçün informasiya bazasının yaradılması üçün, eyni zamanda bu qərarların əməli surətdə həyata keçirilməsi üzərində müntəzəm nəzarətin həyata keçirilməsi üçün lazımdır, çünki sosioloji informasiya idarəedici orqanlarla idarəetmənin subyektləri arasında əks əlaqəni təmin edir.

Testlər

1. Sosiologiya bir elm kimi meydana gəlmişdir:
   a) XVIII əsrdə; b) XIX əsrdə; v) XX əsrdə.

2. Bir elm kimi sosiologiyanın banisi :
   a) H. Spenserdir; b) K. Marksdır; v) O.Kontdur.

3. H. Spenserə görə sosiologiyanın predmeti:
   a) münaqişələr və ziddiyyətlərdən keçərək bütövlük istiqamətində inkişaf edən cəmiyyətdir;
   b) sosial orqanizm olan cəmiyyətidir ki, burada cəmiyyətin sosial institutlarının təbii təkamülü sayəsində diferensiasiya inteqrasiya hesab olunur;
   v) əsasını iradə ilə hərəkət edən insanların qarşılıqlı təsirlərinin təşkil etdiyi cəmiyyətdir.

4. P. Sorokin sosiologiyanın predmetini belə başa düşürdü:
   a) bir-biri ilə qarşılıqlı təsirdə olan fərdlərin real məcmusu kimi cəmiyyətin öyrənilməsidir ki, bu məcmuda sosial subyektin vəziyyəti (statusu) onun institutlardakı hərəkətlərindən asılıdır;
   b) müasir industrial sistemlərə xüsusi diqqətin yetirildiyi cəmiyyətin müntəzəm şəkildə öyrənilməsidir.

5. Dəyərlilik mühakimələrindən azad olmaq prinsipinin sosiologiyada tətbiqini əsaslandırmışdır:
   a) T. Parsons; b) Q. Zimmel;
   v) M. Veber; q) E. Dürkheym.

6. Əsas sosioloji paradiqmalar:
   a) antroposentrik; b) sosiosentrik; v) etnosentrik.

7. Sosioloji paradiqmaları aşağıdakı qruplara ayırmaq olar:
   a) struktur-funksional; b) məqsədli;
   v) interpretativ; q) inteqral;
   d) hipotetik.



8. Sinergetikanın banisi:
   a) İ.Stenqersdir; b) İ. Priqojindir; v) Q. Xakendir.

9. Başa düşən sosiologiyanın müəllifi:
   a) M. Veberdir; b) T. Parsonsdur; v) P. Sorokindir.

10. Struktur-funksional təhlilin əsas postulatları:
   a) cəmiyyətin bütövlüyü;
   b) funksional vəhdət;
   v) funksionalizmin universallığı;
   q) zərurilik postulatı.

11. "Disfunksiya" anlayışını sosiologiyaya gətirmişdir:
   a) R. Merton; b) T. Parsons.

12. A.Şyuts banisi olmuşdur:
   a) sistem metodunun;
   b) struktur-funksional təhlil metodunun;
   v) fenomenoloji metodun.

13. Sosioloji biliyin səviyyələri:
   a) ümumsosioloji nəzəriyyələr;
   b) ümumelmi nəzəriyyələr;
   v) orta səviyyə nəzəriyyələri;
   q) tətbiqi sosiologiya.

14. Sosiologiyanın funksiyaları:
   a) nəzəri-idraki; j) təşkilati-texnoloji;
   b) diaqnostik; z) sosial layihələşdirmə və konstruksiyalaşdırma;
   v) praktik; i) instrumental;
   q) evristik; k) yeni biliyin əldə edilməsi;
   d) idarəetmə; l) informasiya.
   e) proqnozlaşdırma;

Cavablar

**1** - b; **2** - v; **3** - b; **4** - a; **5** - v; q; **6** - a; b; **7** - a, v, q; **8** - b; **9** - a; **10** - b, v, q; **11** - a; **12** - v; **13** - a, v, q; **14** - a, b, v; q, d, e, j, i, l.

# 2-Cİ FƏSİL. EMPİRİK SOSİOLOJİ TƏDQİQATLARIN METODİKASI VƏ TEXNİKASI

## 2.1. Empirik sosioloji tədqiqatın mahiyyəti və növləri

Sosiologiyanın inkişafı eyni zamanda nəzəriyyəni zənginləşdirən və sosial proseslərin tənzimlənməsi mexanizmlərini işləyib hazırlamağa imkan verən empirik tədqiqatların da inkişafı deməkdir.

Sosioloji tədqiqatlar statistik informasiyanı insanların maraq və ehtiyacları, rəy və əhval-ruhiyyələri haqqında, həyat planları, həyat səviyyəsi və həyat keyfiyyəti, dəyərlilik yönümləri haqqında konkret məlumatlarla tamamlamaqla əks əlaqəni təmin edirlər. Empirik tədqiqatlar sosiologiyada artıq XIX əsrin sonlarında və XX əsrin əvvəllərində geniş inkişaf tapmışdı. Bu cür tədqiqatlar ideyası təbiətşünaslıqdan, iqtisadiyyatdan, psixologiyadan, etnoqrafiyadan, hüquqşünaslıqdan, yəni eksperimental tədqiqatların daha əvvəl təşəkkül tapmış olduğu elmlərdən əxz edilmişdir. XX əsrdə cəmiyyətin intensiv sosial-iqtisadi və siyasi inkişafı şəraitində sosiologiyanın bir elm kimi təkmilləşdirilməsilə empirik sosiologiya getdikcə daha artıq əhəmiyyət qazanırdı.

Empirik sosioloji tədqiqatlar sosioloji araşdırmalarla eyniyyət təşkil etmir. Empirik sosioloji tədqiqatlar sosioloji biliyi artırmaq məqsədi daşıyır və ilkin idraki situasiyanın səciyyələndirilməsini, hipotezlərin işlənib hazırlanmasını, metodikaların nəzarət olunan tətbiqini, tədqiqat haqqında hesabatların dolğunluğunu və məcmu halında proqramı (normativ modeli) təşkil edən digər xarakteristikaları nəzərdə tutur; sosioloji araşdırmalar isə sadəcə olaraq sosial informasiyanın toplanmasını və ümumiləşdirilməsini (sorğular, ictimai rəyin qabaqcadan öyrənilməsi, statistik araşdırmalar və s.) nəzərdə tutur.

***Empirik sosioloji tədqiqat vahid bir məqsədin – tədqiq olunan sosial proses və yaxud hadisə haqqında sonradan əməli şəkildə istifadə edilmək üçün səhih obyektiv məlumatların əldə edilməsinin reallaşdırılmasına yönəldilmiş məntiqi cəhətdən ardıcıl metodoloji, metodik və təşkilati-texniki prosedurların sistemidir.***

Bir çox əsaslardan, o cümlədən predmetin tələb olunan təhlilinin məqsədlərindən, dərinlik və spesifikasından asılı olaraq empirik sosioloji tədqiqatların aşağıdakı növlərini fərqləndirirlər (cədvəl 1).



Cədvəl 1

**Sosioloji tədqiqatların növləri**

| Nəzəri | | | Məqsədə görə | | Empirik | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| Vəzifələrinə görə | | | Həyata keçirilməsinin tezliyinə görə | | Miqyasına görə | | | | |
| Kəşfiyyat | Təsviri | Analitik | Birdəfəlik | Təkrar | Beynəlxalq | Ümummilli | Regional | Sahə | Lokal |
| Pilot | | | Panel | | Longityudinal | | | | Monoqrafik |

*Kəşfiyyat* (pilot, zond) tədqiqatı – vəzifələrin məhdud dairəsinin həlli üçün aparılan tədqiqatın ən sadə növüdür. Bu, mahiyyət etibarilə instrumentarinin (metodik sənədlərin): anketin, müsahibə blankının, sorğu vərəqinin və b. "ilkin sınaqdan keçirilməsi"dir. Bu cür tədqiqatın sadələşdirilmiş proqramı və instrumentarisi olur və onun seçmə məcmusu 20-dən 100 adama qədər təşkil edir. Adətən bu tədqiqat problemin əvvəlcədən dərindən öyrənilməsini nəzərdə tutur: məqsədlər, hipotezlər, vəzifələr, məsələlər, onların formulə edilməsi dəqiqləşdirilir.

*Təsviri* tədqiqat – tədqiqatın daha mürəkkəb növü olub, öyrənilən obyekt haqqında nisbətən bütöv təsəvvür əldə etməyə imkan verir. Əgər təhlil obyekti bir-birindən fərqlənən xarakteristikalara malik nisbətən böyük məcmudan ibarət olarsa, bu tədqiqat həyata keçirilir. Təsviri tədqiqat prosesində alim obyektin strukturunda həmcins qrupları (məsələn, təhsil səviyyəsinə və yaxud cinsinə görə) seçib ayırır ki, bu da maraqlandırıcı xarakteristikaları müqayisə etməyə, onlar arasında əlaqələrin mövcud olmasını və yaxud mövcud olmamasını aşkara çıxarmağa imkan verir. Empirik məlumatların toplanılması bir və ya bir neçə metodla həyata keçirilir. Sonuncu halda informasiyanın səhihliyi və dolğunluğu artır ki, bu da daha dərin nəticələrin əldə edilməsinə və elmi cəhətdən yoxlanılmış tövsiyələrin formulə edilməsinə kömək edir.

*Analitik* tədqiqat öyrənilən hadisənin və yaxud prosesin elementlərinin təsvirindən daha çox onların meydana gəlməsi və inkişafı

səbəblərinin aydınlaşdırılmasına yönəldilmişdir. Bu cür tədqiqatın mənası kauzal əlaqələrin (səbəb-nəticə əlaqələrinin) aşkara çıxarılmasından ibarətdir. Həmçinin, əgər təsviri tədqiqatda öyrənilən obyektin xarakteristikaları arasında əlaqə müəyyən edilirsə, analitik tədqiqatda aydınlaşdırılır ki, həmin əlaqə bu və ya digər hadisəni şərtləndirir, ya yox. Analitik tədqiqat bu və ya digər sosial hadisəni determinə edən, şərtləndirən bir çox amillərin məcmusunu öyrənməyə imkan verir. Bu tədqiqat müfəssəl işlənilmiş proqramlar və instrumentarilər tələb edir. Tədqiqatın bu növü öyrənilən sosial hadisənin və ya prosesin müəyyən tərəfləri haqqında yalnız ilkin təsəvvür verən kəşfiyyat və təsviri tədqiqatları əslində başa çatdırır. Analitik tədqiqat çox vaxt kompleks xarakter daşıyır. Məsələn, sosial eksperiment analitik tədqiqatın növ müxtəlifliklərindən biridir.

*Birdəfəlik* (nöqtə) tədqiqat hər hansı bir hadisənin və ya prosesin öyrənildiyi anda onların vəziyyəti və kəmiyyət parametrləri haqqında informasiya verir ki, bu da müəyyən mənada statik tədqiqat adlandırıla bilər. Birdəfəlik tədqiqatın gedişində əldə edilən informasiya obyektin ani "parçası"nı əks etdirir, lakin onun inkişaf meyllərini və istiqamətini aşkara çıxarıb müəyyənləşdirmir.

*Təkrar* tədqiqat obyektin inkişaf dinamikası haqqında fikir yürütməyə, məlumatların müqayisəli təhlilini həyata keçirməyə imkan verir. Təkrar tədqiqatlar arasında fasilələr tədqiq olunan obyektin xüsusiyyətlərindən asılıdır. Sosiologiyada təkrar tədqiqatların iki növünü fərqləndirirlər:

1) vahid proqram və metodika üzrə müəyyən vaxt intervalı ilə eyni bir sosial problemi öyrənən panel tədqiqatları. Bu cür tədqiqatların nəticələri informasiyanı təzələməyə və zənginləşdirməyə, inkişafın dinamikasını, istiqamətini və meyllərini aşkara çıxarmağa imkan verir;

2) bir sıra illər ərzində vahid instrumentaridən istifadə etməklə vahid və yaxud yaxın problemlər üzrə adamların eyni məcmusunun təkrar öyrənilməsindən ibarət olan lonqityud tədqiqatlar.

*Monoqrafik* tədqiqat oxşar obyektlər sinfinin bir nümayəndəsi kimi müəyyən obyektin hərtərəfli, "qlobal" öyrənilməsinə yönəldilmişdir. Bu tədqiqatı digər elmlərin – tarixin, iqtisadiyyatın, kulturologiyanın, linqvistikanın, psixologiyanın metodları tamamlayır.

*Koqort* tədqiqat müəyyən vaxt müddətində, məsələn, bir il ərzində eyni vaxtda eyni bir hadisəni yaşamış (ailə yaradılması, ali məktəbə daxil olma və s.) insanların spesifik məcmularını öyrənir. Məsələn, anadan olma ili üzrə seçilmiş koqortanı nəsl, müharibədə iştiraka görə isə müharibə iştirakçıları və s. adlandırırlar.



*Beynəlxalq* tədqiqatlar müxtəlif ölkələrdə baş verən hadisə və proseslərin müqayisəsini nəzərdə tutur. Bu, metodoloji cəhətdən mürəkkəb tədqiqatlardır, belə ki, mentalitet, mədəni təcrübə, milli ənənələr, həmçinin öyrənilən problemlərin spesifikası həm vəzifələrin, həm də əldə edilmiş nəticələrin şərhini, həmçinin tədqiqat strategiyasının seçilməsini çətinləşdirir.

Qeyd etmək əhəmiyyətlidir ki, sosial hadisə və yaxud proses mürəkkəbliyindən və spesifikasından asılı olmayaraq nöqtəvi və yaxud təkrar xarakterə malik olan və ilkin informasiyanı toplamağın müxtəlif metodlarından istifadə edən kəşfiyyat, təsviri ya da analitik tədqiqat səviyyəsində öyrənilə bilər. Öz növbəsində sosioloji tədqiqatın istənilən növünü istənilən hadisə və proseslərin təhlilinə tətbiq etmək, elmi informasiyanın müəyyən həcmini əldə etmək mümkündür.

Əgər əsas tədqiqata qədər sınaq tədqiqatı həyata keçirilərsə, mürəkkəb obyektlər haqqında sosioloji informasiyanın səviyyəsi yüksəlir. Bu sınaq tədqiqatını başlıca tədqiqat üçün əsas məşq hesab etmək olar, belə ki, bu tədqiqat əsas tədqiqata hazırlıq mərhələsinin uğurluluğu haqqında və gözlənilən nəticələr haqqında ilk hökm çıxarmağa imkan verir.

Empirik sosioloji tədqiqat *bütöv* ola bilər, bütün əsas məcmu ilə sorğu aparılıbsa, *monoqrafik* və *seçmə* tədqiqat ola bilər.

Empirik sosiologiyanın bu və ya başqa sosial proseslər və hadisələr haqqında informasiyanın toplanması, işlənməsi və təhlili üzrə özünün formallaşdırılmış qaydaları vardır. Bu qaydalar da onun strukturunu (tədqiqatın metodlarını, texnika və prosedurunu) əmələ gətirir. Empirik sosiologiyada m e t o d empirik məlumatların toplanması, işlənməsi və təhlilinin əsas priyom və üsullarının məcmusu deməkdir. Empirik tədqiqatın t e x n i k a s ı metoddan səmərəli istifadə olunmasına yönəldilmiş təşkilati priyomların məcmusunu özündə birləşdirir. Empirik sosioloji tədqiqatın p r o s e d u r u – hər biri müəyyən texnikaya əsaslanan bütün əməliyyatların ardıcıllığıdır, onun təşkilinin hərəkət və üsullarının ümumi sistemidir.

Empirik sosioloji tədqiqatın üç səviyyəsi vardır: metodoloji, metodik və prosedur səviyyələri. *Metodoloji səviyyə* tədqiqatçının, onun elmi mövqelərinə əsaslanan nəzəri yanaşmasını özündə birləşdirir. Bu nəzəri yanaşmanın köməyi ilə sosial problem, tədqiqatın predmeti və

nəticələri izah və şərh olunur. *Metodik səviyyə* sosial hadisə və proseslərin ölçülməsi nəzəriyyəsində, ilkin informasiyanın toplanması və işlənməsinin bu nəzəriyyədə hazırlanmış metodlarında əks olunmuşdur. *Prosedur səviyyə* – empirik tədqiqatın həyata keçirilməsinin bilavasitə təşkilidir. Bütün bu üç səviyyənin reallaşdırılması öyrənilən sosial hadisənin izahı üçün, sosial problemin həlli üçün əsas ola biləcək müəyyən sosioloji model yaratmağa imkan verir.

Sosioloji tədqiqatın hazırlanmasına işlərin, elmi prosedurların və əməliyyatların müxtəlif növləri, tədqiqatın etibarlı nəzəri əsası, onun ümumi məntiqi, informasiyanın toplanmasının instrumentarisinin işlənib hazırlanması, tədqiqatçılar qrupunun formalaşdırılması daxildir.

Cəmiyyətin fəaliyyəti və inkişafı üçün mühüm əhəmiyyətə malik real mövcud olan problemlərin təhlili sosioloji tədqiqatın məqsədini təşkil edir. Empirik sosioloji tədqiqatın predmeti aktual olmalı, həyat tərəfindən tələb edilməli, sosial cəhətdən əhəmiyyətli olmalıdır.

Sosioloji tədqiqatın aparılması üçün zəruridir:

- tədqiqat proqramının reallaşdırılması ilə bağlı olan işlərin növləri və ardıcıllığı müəyyən edilməlidir;
- maliyyə xərclərinin və resursların smetası tərtib edilməlidir;
- tədqiqatın mərhələlərini seçməli və ayrı-ayrı iş növlərinə, bütövlükdə tədqiqata sərf olunan vaxt sərfi hesablanmalıdır;
- icraçının əməyinin normalaşdırılması həyata keçirilməlidir;
- tədqiqatçılar qrupunun hərəkətləri əlaqələndirilməlidir.

## 2.2. Empirik sosioloji tədqiqatın əsas mərhələləri və strukturu

Sosiologiyada empirik tədqiqatın aşağıdakı əsas mərhələlərinin seçilməsi qəbul olunmuşdur:

- problem-axtarış mərhələsi – sosial problemin aşkara çıxarılması və ilkin təhlili, başlıca olaraq standart olmayan və ya qismən standartlaşdırılmış metodikaların köməyilə təsviri hipotezin formalaşdırılması üçün informasiyanın axtarılması;
- analitik (təsviri) mərhələ – təsviri hipotezin illüstrativ sübutudur ki, bu da problemlərin aşkara çıxarılmasına, qismən və yaxud tam şəkildə standartlaşdırılmış metodikaların köməyilə təsviri hipotezin qurulmasına yönəldilmişdir;
- eksperimental (izahedici) mərhələ – izahedici hipotezin sübutudur ki, bu da müxtəlif sosioloji metodların (dərin təhlilin, ekspert sorğusunun, testləşdirmənin, intervünün, eksperimentin v.s.) köməyi ilə səbəbiyyət asılılıqlarının aşkara çıxarılmasını nəzərdə tutur;
- konstruktiv-praktik mərhələ (layihə mərhələsi) proqnozlaşdırma metodlarından və sosial texnologiyalardan istifadə edilməklə sübut edilmiş izahedici hipotezin köməyilə tədqiqat obyektinin təkmilləşdirilməsi üzrə layihənin (praktik tövsiyələrin) yaradılması.

Konkret sosioloji tədqiqatın strukturunun əsas e l e m e n t l ə r i bunlar hesab olunur: subyekt (tədqiqatçı, elmi kollektiv); öyrənilən obyekt; tədqiqat predmeti, ümumi qayə; problem situasiyası; məqsədlər, vəzifələr, hipotezlər; əsas və törəmə elmi anlayışlar; ümumi və xüsusi metodoloji müqəddimələr (prinsiplər, qaydalar, tələblər); ilkin və yekun (tədqiqatın nəticələrinə görə) sosioloji informasiya; elmi məlumatları əldə etməyin metodları və üsulları; tədqiqatın planlaşdırılması və təşkili, əldə edilmiş nəticələrin təhlili və ümumiləşdirilməsi. Bütün bunlar tədqiqatın proqramında əks olunur (bax: bu fəslin 2.3.)

Strukturun komponentləri arasında əlaqənin xarakteri konkret sosioloji tədqiqatın aşağıdakı tərkib hissələri ilə şərtlənir:

- elmi problemin həllində və elmi nəticənin əsaslandırılmasında məntiqi prosedurların məcmusu kimi məntiqi altstruktur ilə;
- elmi fəaliyyətin tədqiqatın məqsəd və vəzifələrinə uyğun olan formalarının məcmusu və ardıcıllığı olaraq təşkilati altstruktur ilə;
- öyrənilən problemin hüdudları daxilində istifadə olunmuş əsas və törəmə anlayışların qarşılıqlı əlaqəsi olaraq qnoseoloji altstruktur ilə.

Konkret sosioloji tədqiqatın ümumi strukturuna müəyyən fazalar, mərhələlər və prosedurlar daxildir. Klassik empirik sosioloji tədqiqatda hər biri xüsusi prosedurların məcmusundan ibarət olan dörd əsas mərhələni fərqləndirirlər:

1) hazırlıq mərhələsi (tədqiqat proqramının işlənib hazırlanması, məqsədlərin və planın müəyyənləşdirilməsi);

2) ilkin sosioloji informasiyanın toplanması (tədqiqatçının qeydləri, sənədlərdən çıxarışlar, sorğuların, müşahidənin nəticələri);

3) sosioloji tədqiqatın gedişində toplanılmış informasiyanın EHM-də işlənilmək üçün hazırlanması, məlumatların işlənilməsi və təhlili;

4) yekun mərhələsi (nəticələrin və tövsiyələrin formalaşdırılması, layihələrin yaradılması).

## 2.3. Sosioloji tədqiqat proqramı

Sosioloji tədqiqatın hazırlanması onun proqramının işlənib hazırlanmasından başlanır. Bu proqramda ümumi konsepsiya (nəzəri-metodoloji müqəddəm şərtlər) şərh olunur, məqsədlər və əsas hipotezlər, həmçinin əməliyyatların və prosedurların məntiqi ardıcıllığı formulə edilir. Proqram iki bölmədən ibarətdir: metodoloji bölmədən (problemin formulə edilməsi və əsaslandırılması, tədqiqatın məqsədinin göstərilməsi, tədqiqatın obyektinin və predmetinin müəyyən edilməsi, əsas anlayışların məntiqi təhlili, tədqiqat hipotezlərinin və vəzifələrinin formulə edilməsi) və metodik bölmədən (araşdırılan məcmunun müəyyən edilməsi, sosioloji informasiyanın toplanmasında istifadə olunan metodların seçilib qruplaşdırılması, xarakteristikası, informasiyanın toplanması instrumentarisinin məntiqi strukturu, bu informasiyanın riyazi işlənilməsinin məntiqi sxemləri, informasiyanın təhlili).

### *Proqramın metodoloji bölməsi*

Sosioloji tədqiqat üçün sifarişin alınması çox vaxt problem situasiyasının, istehsalın, idarəetmənin bu və ya digər sahəsində hər hansı bir ziddiyyətin ya da sadəcə olaraq işlərin qeyri-qənaətbəxş olmasının qeydə alınması şəklində ifadə olunur. Buna görə də proqram problemin təsvirindən və təhlilindən, tədqiqatın obyektinin, predmetinin müəyyən edilməsindən başlanır. Problem situasiyasında iki əsas aspekt fərqləndirilir:

- qnoseoloji aspekt. Bu aspekt sosial həyatın təbiəti və xüsusiyyətləri hələ kifayət qədər aydın olmayan, mövcud vasitələrin və metodların köməyilə tənzimlənə bilməyən bu və ya digər sosial ziddiyyətlərin meydana gəldiyi hər hansı bir sahəsinin tədqiq edilməsi zərurətini əks etdirir. Qnoseoloji aspekt sosial hadisə haqqında evristik biliklərin əldə edilməsini, tədqiq olunan obyektin nəzəri modelinin yaradılmasını nəzərdə tutur. Bu modelin əsasında da problem situasiyasının praktik tərəfi seçilir və formulə edilir;
- praktik aspekt – həlli üçün məqsədyönlü idarəçilik təsirlərini tələb edən müəyyən sosial ziddiyyətdir.



Sosioloq problem situasiyasını dərk edib anlamalı və tədqiq olunacaq problemi formulə etməlidir, yəni öyrənilən sosial hadisələrin, proseslərin və onların xassələrinin dairəsini müəyyən etməlidir. Problemin qoyuluşunun dəqiqləşdirilməsinin çıxış momentini digər alimlər tərəfindən artıq əldə edilmiş nəticələrin bilinməsi təşkil edir. Problemin müəyyən edilməsi xüsusi nəzəri işin mövcud olmasını tələb edir. Sosioloq aşağıdakı vəzifələri həll etməlidir:

1) Hazırkı problemin real mövcudluğunu təyin etməli:

a) problemi kəmiyyətcə və yaxud keyfiyyətcə səciyyələndirən göstəriciləri;

b) bu göstərici üzrə uçot və statistika məlumatlarını;

v) uçot və statistika məlumatlarının səhihliyini.

2. Həlli sosiologiyadan istifadə edilməsilə mümkün olan problemin daha mühüm elementlərini və ya amillərini seçib ayırmalı.

3. Problem situasiyasının xüsusi təhlil tələb etməyən və yeni elementlərin tədqiqi üçün informasiya bazasını təşkil edən öyrənilmiş elementlərini seçib müəyyənləşdirməli.

4. Tədqiqat axtarışının əsas istiqamətlərinin müəyyən edilməsi məqsədilə başlıca və ikincidərəcəli komponentləri seçib ayırmalı.

5. Analoji problemlərin həllinin mövcud üsullarını təhlil etməli.

Təsvir sifarişçi tərəfindən təklif oluna biləcək, ya da tədqiqatçının elmi marağı ilə şərtlənən problemin dəqiq və konkret formulə edilməsilə başa çatır. Nəzərə alınması əhəmiyyətlidir ki, problem həmişə insanların hansısa praktik və yaxud nəzəri hərəkətlərə tələbatları haqqında biliklərlə onları reallaşdırmağın yolları və vasitələrinin bilinməsi arasındakı ziddiyyətdir. Əgər ziddiyyəti mövcud vasitə və biliklərin köməyi ilə ləğv etmək mümkündürsə, onda bu halda söhbət praktik problemdən, köhnə biliklərin və məlum vasitələrin axtarışından gedir, əgər aparılan tədqiqat nəzəri istiqamətə malikdirsə, onda tədqiqatçı hər şeydən əvvəl elmi vəzifəni həll edir, yəni tədqiqat yeni nəzəri biliklərin əldə edilməsinə yönəldilmişdir. Mütləq deyildir ki, praktik fəaliyyət prosesində meydana gəlmiş problem situasiyası elmi problemə çevrilsin.

Lakin tədqiqat proqramı işlənib hazırlanarkən problemi dəqiq ifadə etmək heç də həmişə mümkün olmur. Bu halda problemi ümumi cəhətləri etibarilə qeyd edirlər və çatışmayan informasiya əldə edildikdən sonra onu dəqiqləşdirirlər. Dərin nəzəri biliklərin və praktik təcrübənin olmaması, qeyri-peşəkarlıq bununla nəticələnir ki, tədqiqatçı real situasiyanı əks etdirməyən və yaxud artıq çoxdan həll edilmiş

problemi irəli sürə bilər.

Tədqiq olunan sosial problemə uyğun olaraq sosioloji tədqiqatın obyekti və predmeti müəyyən edilir. Sosioloji tədqiqatın *obyekti* – sosial tədqiqatın yönəldiyi və özünün empirik xassələrinə görə dərk edən subyektdən asılı olmayan müəyyən sosial reallıqdır (hadisə, prosesdir). *Sosial ziddiyyətə malik olan və problem situasiyasını yaradan istənilən* sosial proses, hadisə, sosial həyat sahəsi, sosial qrup və s., həmçinin insanların fəaliyyəti, bu fəaliyyətin baş verdiyi şərait və həmin fəaliyyətin daşıyıcıları və yaxud müşahidə vahidləri olmaq etibarilə insanların özləri tədqiqatın obyekti ola bilərlər. Sosioloqlar informasiyanın daxil olduğu müşahidə vahidlərini (informasiya toplayan vahidləri) və haqqında informasiya toplanılan müşahidə vahidlərini (təhlil vahidlərini) bir-birindən fərqləndirirlər. Beləliklə, tədqiq olunan sosial obyektin barəsində bilavasitə informasiya toplanıldığı elementi sosial tədqiqatda müşahidə vahidi adlanır.

Obyektin tərəflərindən bilavasitə öyrənilməli olan birini tədqiqatın *predmeti* kimi qəbul etmək olar. Eyni bir sosial obyektlə əlaqədar bir neçə tədqiqat predmeti seçmək olar. Bunlardan da hər biri onunla müəyyən olunur ki, o, obyektin məhz hansı tərəfini əks etdirir, o nə məqsədlə, hansı problemin həlli üçün seçilmişdir. Konkret sosioloji obyektin fəaliyyətinin və inkişafının bütün qanunlarını dərk etmək məqsədinin qarşıya qoyulduğu halda sosial tədqiqatın obyekti və predmeti üst-üstə düşə bilər.

### *Sosioloji tədqiqatın məqsədi və vəzifələri*

Tədqiqatın ümumi istiqaməti və gözlənilən son nəticə onun *məqsədi* adlanır. Məqsəd tədqiqatın istiqamətindən (nəzəri və yaxud tətbiqi tədqiqat) asılı olaraq irəli sürülür. Bu məqsədə nail olmaq üçün müəyyən vəzifələri həll etmək zəruridir.

Tədqiqatın *vəzifələri* dedikdə sosial problemin təhlili və həlli ilə bağlı irəli sürülən əsas və əsas olmayan tələblərin formulə olunduğu konkret məqsədli qayələrin məcmusu başa düşülür. Vəzifələr başlıca və əlavə, əsas və ikincidərəcəli olurlar. Bu vəzifələrin xarakteri və spesifikası məqsədin məzmunundan asılıdır. Əsas vəzifələr tədqiqatın məqsədinə uyğun gəlir, əsas olmayan vəzifələr isə problemin ayrı-ayrı tərəflərinə toxunur və öyrəniləcək amillərin kompleksindən irəli gəlir. Məqsəd və vəzifələrin qoyuluşu tədqiqatı sistem kimi təqdim etməyə



imkan verir. Sosioloji tədqiqatın vəzifələrində qoyulmuş problemin həllinə yönəldilmiş hərəkətlərin özünəməxsus mini-proqramı əks olunur, məqsədə nail olunmasına yönəldilmiş addımlar və mərhələlər müəyyən qaydada qeyd olunur.

### *Tədqiqatın əsas anlayışlarının interpretasiyası (təfsiri) və dəqiqləşdirilməsi*

Anlayışın təfsiri anlayışların məzmununun dəqiqləşdirilməsi və onların ölçülməsi üçün instrumentarinin əməliyyatlarının işlənib hazırlanması üçün zəruri olan idraki və təşkilati hərəkətlərin ardıcıllığını nəzərdə tutan müəyyən prosedurdur. Anlayışın nəzəri və empirik təfsiri tədqiqat metodologiyasının işlənib hazırlanmasında zəruri mərhələdir. Anlayışların təfsiri və dəqiqləşdirilməsi prosesində aşağıdakı əsas tədqiqat vəzifələri həll olunur:

- mövcud tədqiqatda istifadə olunan nəzəri anlayışların əsas aspektlərinin aydınlaşdırılması;
- nəzəri bilik səviyyəsində praktik problemlərin təhlili üçün nəzəri əsasın işlənib hazırlanması və müvafiq olaraq tədqiqatın yekununun, çıxarılan nəticələrin və edilən tövsiyələrin elmi əsaslandırılmasının təmin edilməsi;
- öyrənilən hadisələrin kəmiyyət, statistik göstəricilərin köməyi ilə ölçülməsinin və qeydə alınmasının təmin edilməsi.

Nəzəri təfsir nəticəsində uçota və qeydə alına bilən xüsusi anlayışlar hasil olunur. Sosial reallığın elementar fraqmentlərini əks etdirən anlayışları sosioloqlar indikator anlayışlar adlandırırlar. Təfsir olunan anlayışların ümumilik dərəcəsinin azalması həddi təfsirin məqsədilə və elmin instrumental imkanları ilə müəyyən edilir. Anlayışların təfsirinin formal momentinin mütləqləşdirildiyi və bu halda aşağı həddin yalnız hissi məlumatlardan ibarət olduğu proses reduksionizm (məntiqi pozitivizmdə geniş inkişaf tapmışdır) adlanır.

Sosiologiyada təfsirin aşağıdakı ardıcıl növləri fərqləndirilir:

- nəzəri təfsir (az ümumiliyə malik anlayışların vasitəsilə daha ümumi anlayışların məzmununun açılması);
- empirik təfsir (əsas anlayışların məzmununu konkretləşdirən empirik əlamətlərin müəyyən edilməsi);
- operasional təfsir (vasitəsilə empirik əlamətlərin ölçülməsinin həyata keçirildiyi operasiyaların müəyyən edilməsi və anlayışların

operasionallaşdırılması üçün indikatorların müəyyənləşdirilməsi).

Anlayışların sosioloji təfsir prosedurunun mahiyyəti mövcud prosesin sosial məzmununu müəyyən edən terminlərin dəqiqləşdirilməsi vasitəsilə aşkara çıxarılır. Empirik obyektin konkret xassəsi onun **əlaməti** adlanır, bu əlamətin mövcud olmasının nəzəri forması isə **dəyişən** adlanır. İndikator adı altında obyektin əlamətinin təzahür dərəcəsinin göstəricisi başa düşülür. Məntiqi təhlilin köməyilə instrumentarıdə sosioloji tədqiqatın vahid konsepsiyasını təcəssüm etdirməyə, onun məqsəd və vəzifələrini reallaşdırmağa, irəli sürülmüş hipotezlərin doğruluğunu yoxlamağa imkan verən bir sıra metodik prosedurlar həyata keçirilir.

### *İşçi hipotezlərin irəli sürülməsi*

*Hipotez adı altında öyrənilən hadisə haqqında elmi cəhətdən əsaslandırılmış elə bir ehtimal başa düşülür ki, o, tədqiqat nəticəsində rədd oluna bilər və yaxud təsdiq oluna bilər.* Sosioloji hipotezlərin çıxış müqəddəm şərtləri real hadisələrin müşahidə edilməsi, bu hadisələrin sosiologiyanın və qonşu elmi fənlərin anlayışlarında izah edilməsi sistemindən istifadənin nəzərə alınması ilə formalaşdırılır. Əldə edilmiş mövcud biliklər müşahidələrdən alınan məlumatların izahı üçün kifayət etmədikdə yeni ehtimallar - hipotezlər meydana gəlir.

Elmdə hipotezlərin irəli sürülməsi və yoxlanılması qaydaları işlənib hazırlanmışdır:

1. Hipotez toxunduğu bütün faktlarla uzlaşdırılmalı və yaxud heç olmazsa uyğunlaşdırılmalıdır.
2. Bir-birinə qarşı duran, müəyyən silsilə faktların izahı üçün irəli sürülmüş bir çox hipotezlərdən bu faktların daha çox miqdarını eyni qaydada izah edəni daha münasibdir.
3. Bir-biri ilə əlaqədə olan faktlar seriyasının izahı üçün önəmlidir ki, çox hipotez irəli sürülməsin və onların əlaqəsi daha sıx olsun.
4. Hipotez irəli sürülərkən onun nəticələrinin ehtimali xarakterini nəzərə almaq əhəmiyyətlidir.
5. Bir-biri ilə ziddiyyət təşkil edən hipotezləri əsas tutmaq olmaz.

İrəli sürülmüş hipotezlər sosioloji tədqiqatın sonrakı mərhələlərini bilavasitə müəyyən edirlər. Hipotezlərin işlənib hazırlanması empirik məlumatların toplanılması və təhlilinin məntiqi əsaslarının özünəməxsus formalaşdırılması kimi çıxış edir.



Sosiologiyada ümumilik dərəcəsinə görə hipotezlərin aşağıdakı şəkildə fərqləndirilməsi qəbul olunmuşdur:

- hipotezlər-əsaslar və hipotezlər-nəticələr;
- əsas və əsas olmayan hipotezlər (tədqiqat vəzifələri nöqteyi-nəzərindən);
- ilkin və təkrar (işlənilməsi və əsaslandırılması dərəcəsinə görə) hipotezlər. Təkrar hipotezlər, əgər empirik məlumatlarla rədd edilmirsə, ilkin hipotezlərin əvəzində irəli sürülürlər;
- təsviri və izahedici (tədqiqat probleminin predmet sahəsi haqqında ehtimalların məzmununa görə) hipotezlər.

Təsviri hipotezlər obyektlərin mühüm xassələri haqqında (təsnifatı hipotezlər), öyrənilən obyektin ayrı-ayrı elementləri arasında əlaqələrin xarakteri haqqında (struktur hipotezlər) ehtimaldır. İzahedici hipotezlər – öyrənilən proses və hadisələrdə qarşılıqlı təsir əlaqələrinin (funksional) və səbəb-nəticə asılılığının (kauzal) dərəcəsi haqqında ehtimallardır.

### *Hipotezlərə ümumi tələblər*

Elmi hipotez aşağıdakı tələblərə cavab verməlidir:

- nəinki hazırkı tədqiqatda bilavasitə öyrənilən hadisə və proseslərə, eyni zamanda hadisələrin daha geniş dairəsinə tətbiq oluna bilməlidir;
- sadə olub, aydın, anlaşıqlı, başa düşülən elmi dillə ifadə olunmalıdır;
- sosiologiya elminin hazırkı inkişafı səviyyəsində, tədqiqatın metodik zənginliyi və praktik imkanları şəraitində prinsipial şəkildə verifikasiya olunmalıdır.

Hipotezdə aşağıda göstərilənlər olmamalıdır:

- empirik cəhətdən izah edilməsi mümkün olmayan anlayışlar, belə ki, başqa cur olsa, hipotez yoxlanıla bilməyəcək;
- əvvəlcə müəyyən edilmiş elmi faktlarla ziddiyyət təşkil etmək.

Tədqiqat proqramında tədqiqatın nəzəri-metodoloji bazası və metodları müəyyən edilir. Sosiologiyada seçmə tədqiqat metodu geniş tətbiq edilir.

### *Proqramın metodik bölməsi*

Proqramın ikinci hissəsi və yaxud metodik bölməsi ilk növbədə seçmə cəminin və yaxud seçmənin müəyyən edilməsini özündə birləşdirir. Seçmə sosioloji tədqiqat bütöv və monoqrafik tədqiqata nisbətən daha geniş yayılmışdır.

### *Seçmə metodu*

Seçmə metodu dedikdə elə bir tədqiqat metodu nəzərdə tutulur ki, o, baş cəmin bir hissəsinin nəzərdən keçirilməsi əsasında onun öyrənilən əlamətlərinin xarakteri haqqında nəticə çıxarmağa imkan verir. Proqramın metodik hissəsində seçmənin müəyyən edilməsinə mühüm yer ayrılır. Sosiologiyada seçmə adlanır: 1) sosioloji tədqiqat obyektinin bilavasitə öyrənilməli olan elementlərinin məcmusu; 2) obyektin elementlərinin, müşahidə və öyrənilmə vahidlərinin seçilməsi üsullarının, priyomlarının, prosedurlarının məcmusu.

Sosioloqlar seçmənin aşağıdakı növlərini fərqləndirirlər:

- *Təsadüfi seçmə.* Burada hər bir fərdin imkanı vardır ki, təsadüfi seçməyə daxil olsun. Bu cür seçmədə müşahidə vahidləri təsadüfi olaraq, hər hansı seçilmiş əsas əlamətə görə seçilir (çoxmərtəbəli evdə hər bir üçüncü mənzil, qrupun say siyahısında hər bir beşinci adam və s.). Təsadüfi seçmə aşağıdakı formalarda mövcud ola bilər: mexaniki seçmə. Burada baş məcmudan bərabər aralıqlar vasitəsilə respondentlərin bərabər zərurı miqdarı seçilib götürülür. Yuva seçməsi. Bu halda baş məcmudan qrupları təşkil edən və yaxud daha kiçik vahidlərin yuvalarını (klasterlər) təşkil edən obyektləri seçib götürürlər. Stratifikasiya edilmiş seçmə. Burada seçmə baş məcmudakı müxtəlif qrupların şəxsi çəkisi nəzərə alınmaqla aparılır.
- *Təsadüfi olmayan seçmə.* Bu seçmənin də aşağıdakı müxtəlif formaları vardır: seriya seçməsi. Burada baş məcmu müəyyən hissələrə parçalanır və hər bir hissədən mütənasib qaydada ölçmə üçün vahidlər seçilib götürülür. Əsas massivin kütləunin seçilməsi. Burada bütün baş məcmunun 60-70% soruşulur. Kvota seçməsi. Bu halda bir sıra əlamətlər üzrə respondentlərin müəyyən miqdarı (dörd nəfərdən az olmayaraq) seçilib götürülür (adətən böyük baş məcmu zamanı tətbiq olunur). Məqsədyönlü seçmə. Burada müəyyən edilmiş meyarlar üzrə tipik elementlər seçilib götürülür. Çoxpilləli seçmə. Bu halda seçmənin hər bir pilləsində vahid dəyişir.



Kombinə edilmiş seçmə. Burada seçmənin hər bir pilləsində təsadüfi seçmənin vahidi və texnikası dəyişilir. Çoxfazalı seçmə. Burada böyük həcmdə formalaşmış seçmədən seçmə vahidi dəyişmədən azhəcmli altseçmə aparılır.

Seçmə metodunun mahiyyəti müəyyən terminlərin köməyilə aşkara çıxarılır. Tədqiqatın şamil edildiyi bütün toplu və yaxud tədqiqat obyekti *baş məcmu* adlanır. *Seçmə məcmu* (*təkrar*) baş məcmunun obyektlərinin bütövlükdə bütün məcmu haqqında informasiya əldə etmək üçün sosioloq tərəfindən seçilmiş hissəsidir. Seçmə məcmu baş məcmunun müəyyən bir modeli kimi qarşıya çıxır. Bu məcmu reprezentativ və qeyri-prezentativ ola bilər. *Reprezentativlik* dedikdə seçmə məcmunun baş məcmunun parametrlərini və mahiyyət elementlərini yenidən canlandırmaq xassəsi başa düşülür. Tədqiqat aparılarkən baş məcmunun elementlərinin dolğunluq, adekvatlıq, rahatlıq tələblərinə cavab verən sayı seçmənin əsasını təşkil edir.

Baş məcmunun seçmənin hər bir mərhələsində seçilib götürülən elementləri *seçmənin vahidləri* adlanır. Seçmə məcmunu təşkil edən tədqiqat vahidlərinin sayı onun *həcmi* adlanır. Adətən sosioloji tədqiqatlar ucdantutma xarakter daşımır. Buna görə sosial hadisələr və proseslər haqqında seçmə məcmusu əsasında fikir yürüdürlər (yəni xüsusi parametrlər üzrə seçilmiş insanların müəyyən miqdarının rəyləri, münasibətləri, əhval-ruhiyyəsi və s. öyrənilir). Baş və seçmə məcmular arasında tərs mütənasiblik asılılığı mövcuddur: baş məcmu nə qədər azdırsa, seçmə məcmu o qədər çoxdur və əksinə. Məsələn, 500 adama qədər baş məcmu zamanı seçmənin həcmi adətən 50%-dən aşağı olmur; baş məcmu 100 nəfər olduqda isə seçmə deyil, hamılıqla tədqiqat aparılması məqsədəuyğundur.

### *İşçi tədqiqat planı, instrumentarinin işlənib hazırlanması*

İşçi planı – tədqiqat proqramının geniş və ətraflı açıqlanmasıdır. İşçi planı proqrama, təqvim müddətlərinə, material və insan məsrəflərinə uyğun olaraq tədqiqatın əsas mərhələlərini qaydaya salmağa imkan verir. Müfəssəl və elmi cəhətdən əsaslandırılmış plan elmi, təşkilati və maliyyə xərclərinin həcmini qabaqcadan nəzərə almağa və daha dəqiq müəyyən etməyə, lüzumsuz vurnuxmadan və qeyri-mütəşəkkillikdən, tələsiklik və ləngilikdən ötüşməyə imkan verir, tədqiqata onun bütün mərhələlərində lazımi ahəng verir.

İnstrumentarinin işlənib hazırlanması anketlərin, testlərin, intervünün, müşahidə və eksperiment üçün sualların hazırlanmasını özündə birləşdirir.

* * *

Sosioloji tədqiqatın aparılması elmi-nəzəri, metodik və təşkilati fəaliyyətin çevik, bacarıqla əlaqələndirilməsini, onun iştirakçıları arasında əməyin dəqiq bölgüsünü tələb edir. İstənilən tədqiqat mürəkkəblik dərəcəsindən, məqsəd və vəzifələrdən asılılıqdan kənarda empirik prosedurların bir neçə mərhələlərindən və seriyalarından ibarətdir.

Sosioloji tədqiqatın forma və növləri etibarilə müxtəlif olan elmi-tədqiqat və təşkilati-texniki prosedur və əməliyyatlar aşağıdakı əsas bloklar şəklində strukturlaşırlar.

1. Çöl tədqiqatına hazırlıq: tədqiqat proqramının və instrumentarisinin müzakirəsi, işlənilməsi və təsdiqi; ilkin informasiyanı toplayan qrupun formalaşdırılması və hazırlanmasa; sınaq tədqiqatının aparılması; sınaq tədqiqatının yekunları üzrə ilkin informasiyanın toplanılması proqramına və instrumentarisinə təshihlərin daxil edilməsi; instrumentarinin çoxaldılması. Bu blokda çöl tədqiqatının dəqiq aparılmasını təmin edən təşkilati və metodik iş növlərinin planı qeydə alınır.

2. Çöl tədqiqatı: çöl tədqiqatının təşkili və aparılması, xüsusi metodlardan istifadə edilməklə ilkin empirik informasiyanın toplanılması.

3. Empirik informasiyanın hazırlanması və təhlili: ilkin informasiyanın işlənilməyə hazırlanması üçün, xüsusi sosioloji proqramların köməyi ilə təhlil üçün nəzərdə tutulmuş informasiya kütləsinin formalaşdırılması üçün lazım olan əməliyyatların məcmusunu əhatə edir. İşlərin əldə edilmiş məlumatların işlənilməsi nəticələrinin təhlili ilə bağlı olan bütün növlərini özündə birləşdirir.

4. Hesabat və nəticələr, tövsiyələr, layihələr: aparılmış tədqiqatın nəticələri üzrə hesabatın yazılması, sifarişçinin qarşısında bu hesabatın müzakirəsi və müdafiə edilməsi, tövsiyələrin işlənib hazırlanması və layihələrin yaradılması.

Çöl tədqiqatının hazırlanması gedişində proqram və planın işlənib hazırlanması ilə yanaşı, həmçinin yardımçı sənədlər (anketçi üçün təlimat, seçmə vərəqi və s.) hazırlanır.



Sosioloji tədqiqat arzu edilməz nəticələr də verə bilər. Sosioloqlar tədqiqatın səmərəliliyinin bir neçə altnövlərini fərqləndirirlər. Məsələn, intervünün səmərəsi intervü aparanın davranışının alınan cavablara təsirində özünü göstərir (intervü aparanın alınmış cavaba fəal təsiri – reaksiyası müsahibdə belə təəssürat yaradır ki, ondan başqa fikir gözləyirlər, bəzən passiv təsir də elə bu cür səmərə verir). Sualın səmərəsi və yaxud yönəldici sual onu göstərir ki, sualın özünün ifadə edilməsi müəyyən cavab üçün stimul yaradır. Kontekstin səmərəsi əvvəllər verilmiş sualların müsahibə olunanın cavabına təsiri zamanı meydana gəlir. İnstrumentariyə emosional suallar daxil olduqda və yaxud intervü obyekti aşkara çıxardıqda ki, başqa suallara nisbətən müəyyən suallar daha üstündür, onda təsirin səmərəsi daha böyükdür.

## 2.4. Sosioloji informasiyanı toplamağın metodikası və texnikası

Sosioloji informasiyanın toplanılması mərhələsində elmin zənginləşdirilməsi və normal fəaliyyəti üçün, praktik vəzifələrin həlli üçün zəruri olan yeni biliklər əldə edilir. Empirik tədqiqatın aparılması prosesində sosioloq subyektiv rəylər, mövqelər, münasibətlər və qiymətvermələrlə iş görür, buna görə də obyektiv informasiya əldə etməyə imkan verən metodları tətbiq etmək lazımdır.

İnformasiyanın toplanılması metodları müəyyən edilərkən sosioloq aşağıdakıları nəzərə almalıdır ki:

- tədqiqatın keyfiyyəti bu tədqiqatın operativliyi və qənaətliliyi ilə şərtlənməməlidir;
- hər bir tədqiqat metodunun özünün dəqiq məhdud idraki imkanları vardır, buna görə də metodlar "yaxşı" və yaxud "pis" ola bilməz, bunlar tədqiqat vəzifəsinə adekvat və yaxud qeyri-adekvat ola bilərlər;
- metodun etibarlılığı onun əsaslandırılmış şəkildə istifadə edilməsi ilə və tətbiq qaydalarına əməl edilməsilə təmin edilir.

Sosioloji tədqiqatlar aparılarkən informasiyanın toplanılmasının aşağıdakı metodlarından daha tez-tez istifadə olunur.

### *Müşahidə*

Əməli olaraq istənilən elmi bilik müşahidədən, yəni gerçəkliyin bilavasitə qavranılmasından başlanır. Sosiologiyada müşahidə hadisələrin, öyrənilən obyektə aid olan və tədqiqat mövqelərinə görə əhəmiyyətli olan insanların və qrupların davranışının qavranılması və qeydə alınması yolu ilə ilkin məlumatların toplanılması metodu kimi özünü göstərir. Müşahidənin nəticələrinin qeydə alınmasının formaları və priyomları müxtəlif ola bilər: müşahidə blankı və yaxud gündəliyi, fotoaparat, tele- və yaxud kinokamera, diktofon və digər texniki vasitələr.

Bilavasitə müşahidənin başlıca üstünlüyü bundan ibarətdir ki, bu tədqiqat hadisələri və insan davranışının elementlərini onların baş verdiyi anda qeyd etməyə imkan verir, halbuki ilkin məlumatların toplanılmasının digər metodları (məsələn, sorğu, eksperiment ) başlıca olaraq fərdlərin ilkin və yaxud retrospektiv mühakimələrinə əsaslanırlar.

Müşahidə metodunun məziyyətlərinə həmçinin bu da aiddir ki, tədqiqatçı tədqiqat obyektindən müəyyən dərəcədə azaddır; o, fərdlərin suallara düzgün cavab vermək bacarığından və istəyindən asılı olmayaraq faktları toplaya bilər. Müşahidədə baş verən hadisələrin, olayların, faktların qeyd olunması qayəsindən irəli gələn obyektivlik payı əvvəlcədən mövcud olur. Lakin bu prosedurda subyektiv element də vardır, belə ki, müşahidəçinin müşahidə obyekti ilə qırılmaz əlaqəsi də nəzərdə tutulur. Bu əlaqə də müşahidəçinin sosial gerçəkliyi qavramasına və müşahidə olunan hadisələrin mahiyyətini başa düşməsinə, bu hadisələrin təfsirinə öz möhürünü vurmuş olur. Sosioloqlar aşağıdakı qanunauyğunluğu müəyyən etmişlər: müşahidəçi müşahidə obyekti ilə nə qədər güclü bağlıdırsa, onun qavrayışı da bir o qədər emosionaldır, o qədər də daha çox subyektivizm elementi mövcud olur.

Müşahidə metodunun tətbiqini onun təkrar keçirilməsinin mürəkkəbliyi və yaxud mümkün olmaması məhdudlaşdırır.

Müşahidə prosesinin xarakterindən asılı olaraq sosioloqlar onun aşağıdakı tiplərini fərqləndirirlər:

- *nəzarət olunan və nəzarət olunmayan müşahidə* (nəzarət elementlərindən asılı olaraq). Nəzarət olunan müşahidənin gedişində daha dəqiq mənzərənin yaradılması və yaxud bu və ya digər hipotezin yoxlanılması üçün ilkin informasiyanın toplanılması vəzifəsi həll olunur.



Nəzarət olunmayan müşahidəni müşahidənin baş verdiyi sosial atmosferin ümumi təsvirinin həyata keçirildiyi real həyat situasiyalarında aparırlar. Nəzarət olunmayan müşahidənin nöqsanı müşahidəçinin obyektə subyektiv münasibətinin yüksək ehtimallığıdır ki, bu da tədqiqatın nəticələrinə mənfi təsir göstərə bilər;

- *iştiraklı və iştiraksız müşahidə* (müşahidəçinin obyektə nisbətdə vəziyyətindən asılı olaraq). İştiraklı müşahidə o deməkdir ki, tədqiqatçı bu və ya digər dərəcədə öyrənilən prosesə qoşulmuşdur, müşahidə olunanlarla ünsiyyətdədir və onların fəaliyyətində iştirak edir. Bu halda əsas nöqsan – müşahidəçinin hadisələrin iştirakçısı roluna girməsi təhlükəsidir ki, bu da toplanılmış informasiyanın obyektivliyinə və təfsirinə öz təsirini göstərir. İştiraksız müşahidə zamanı tədqiqatçı müşahidə olunan situasiyadan bir növ kənarda qalır, müşahidə olunan insanların fəaliyyətində bilavasitə iştirak etmir, praktik olaraq onlarla ünsiyyətə girmir. İştiraksız müşahidə çox vaxt monoqrafik tədqiqatda, xüsusilə də kəşfiyyat mərhələsində, həmçinin eksperimental tədqiqatda tətbiq olunur
- *strukturlaşdırılmış və strukturlaşdırılmamış müşahidə* (müşahidənin formallaşdırılması dərəcəsinə görə). Strukturlaşdırılmış müşahidə tədqiq olunan obyektin strukturunun müəyyənləşdirilməsi və həmin obyektin strukturunun məqsədyönlü tədqiq olunan elementlərinin seçilməsi deməkdir. Strukturlaşdırılmamış müşahidə zamanı tədqiqatçı öyrənilən prosesin hansı elementlərini müşahidə edəcəyini qabaqcadan təyin etmir, burada bütövlükdə obyekt və yaxud onun əsas növləri öyrənilir;
- *müntəzəm və təsadüfi müşahidə* (müntəzəmlikdən asılı olaraq). Müntəzəm müşahidə müəyyən müddət ərzində hərəkətlərin, situasiyaların, proseslərin təsbit edilməsinin müntəzəmliyilə xarakterizə olunur. Bu cür müşahidə proseslərin dinamikasını aşkara çıxarmağa, onların inkişafının ekstrapolyasiyası haqqında biliyin səhihliyini yüksəltməyə imkan verir. Təsadüfi müşahidə – qabaqcadan planlaşdırılmamış hadisənin, fəaliyyətin, situasiyanın müşahidə edilməsidir. Bu müşahidə çox vaxt hər hansı birdəfəlik, konkret situasiyada həyata keçirilir;
- *çöl və laboratoriya müşahidəsi* (müşahidənin təşkili şəraitinə görə). Çöl müşahidəsi real həyati situasiyada, təbii şəraitdə aparılır, laboratoriya müşahidəsi isə süni yaradılmış şəraitdə, çox vaxt isə eksperimental şəraitdə aparılır.

### *Sosial eksperiment*

Sosial eksperiment dedikdə tədqiq olunan sosial obyektin idarə olunan və nəzarət edilən bəzi amillərinə təsirin nəticəsində onun fəaliyyət və davranış göstəricilərinin kəmiyyət və keyfiyyət dəyişiklikləri haqqında informasiya almaq üsulu başa düşülür. Sosial eksperimentin keçirilməsi olduqca mürəkkəbdir. Onun obyektini müxtəlif cür sosial fəaliyyətlə məşğul olan insanlar təşkil edir. Sosial eksperimentin metodoloji əsaslandırılması sosial hadisələri şərtləndirən önəmli dəyişənlərin müəyyən edilməsini nəzərdə tutur. Alim dəyişənlərə təsir etməklə və səbəb-nəticə asılılıqlarını tədqiq etməklə obyektin strukturunu və ayrı-ayrı dəyişənlərin funksiyalarını aydınlaşdırır. Sosial eksperimentlər tədqiqat obyektlərinin baş məcmusunda deyil, müəyyən natural model – hazırkı tədqiqat üçün daha mühüm olan əlamətlərin seçilməsi əsasında həyata keçirilir.

Sosioloqlar sosial eksperimentləri aşağıdakı kimi təsnifatlaşdırırlar:

- tədqiqat obyektinin və predmetinin xarakterinə görə (sosioloji, iqtisadi, hüquqi, sosial-psixoloji və b.);
- qarşıya qoyulmuş vəzifənin spesifikasına görə;
- eksperimental situasiyanın xarakterinə görə;
- hipotezin sübutunun məntiqi strukturuna görə.

Bəzən həmçinin real və fikri eksperimentləri də fərqləndirirlər. Güman edilir ki, real eksperimentlərdən fərqli olaraq fikri eksperimentlərdə real hadisələr deyil, bu hadisələr haqqında informasiya, bilik yoxlanılır. Fikri eksperimentlərdə eksperimentləşdirmənin real sosial proseslərə məqsədyönlü təsir kimi, eksperimental amilin işə salınması ilə obyektin yenidən dəyişdirilməsi kimi önəmli əlamət mövcud olmur. Fikri eksperimentin növlərindən biri "eks-postfaktum"dur, yəni səbəb əlaqələri haqqında hipotezlərin yoxlanılması üçün məlumatların toplanılmasını nəzərdə tutan eksperimentdir.

Q a r ş ı y a q o y u l m u ş v ə z i f ə n i n s p e s i f i k l i y i n ə görə elmi, tətbiqi, layihə, retrospektiv, həmçinin biramilli və çoxamilli eksperimentləri bir-birindən fərqləndirirlər. Elmi eksperimentlər elmi vəzifələrin, tətbiqi eksperimentlər isə praktik vəzifələrin həllinə yönəldilir. Layihə eksperimentləri tədqiq olunan obyektin gələcəyi ilə bağlıdır: tədqiqatçı hipotetik səbəbləri işə salmaqla güman edilən xassələri layihələşdirir. Belə ki, real eksperiment həmişə proyektivdir, fikri eksperiment isə adətən retrospektiv olub, baş vermiş hadisələr haqqında informasiya ilə manipulyasiya etməyi, iş görməyi, mövcud nəticələri doğuran səbəblər haqqında hipotezlərin yoxlanılmasını nəzərdə tutur. Biramilli eksperimentlərin vasitəsilə asılı olmayan bir dəyişənin təsirinin nəticələri haqqında, çoxamilli eksperimentlərin vasitəsilə isə məqsədə uyğun olaraq seçilmiş və qarşılıqlı təsirləri halında götürülmüş dəyişənlərin təsirinin nəticələri haqqında hipotezlər yoxlanılır.

E k s p e r i m e n t a l s i t u a s i y a n ı n x a r a k t e r i n ə görə nəzarət olunan və nəzarət olunmayan eksperimentləri fərqləndirirlər. Nəzarət olunan eksperiment eksperimental amilin təsiri istisna təşkil etməklə eksperimental və nəzarət olunan obyektlərdə şəraitin bərabərləşdirilməsini, istər eksperimental və istərsə də eksperimentdənxaric dəyişənlərin qiymətlərinin vaxtaşırı dəyişməsini nəzərdə tutur. Nəzarət olunmayan eksperimentlərin nəticələri xarakteri və təbiəti çox vaxt məlum olmayan eksperimentdənxaric amillərdən əsaslı dərəcədə asılıdır.

Eksperimentin gedişində yoxlanılan h i p o t e z i n s ü b u t l a r ı n ı n m ə n t i q i s t r u k t u r u n a görə paralel (simultant) və ardıcıl (suktsessiv) eksperimentləri fərqləndirirlər. Paralel eksperimentdə hipotezin sübutu eyni bir vaxtda iki obyektin, eksperimental və nəzarət olunan obyektlərin vəziyyətlərinin müqayisəsinə əsaslanır. Eksperimental amilin təsirinə məruz qalmış qrup eksperimental qrup, bu təsirin mövcud olmadığı qrup isə nəzarət olunan qrup hesab olunur. Ardıcıl eksperimentdə nəzarət olunan qrup mövcud olmur, belə ki, eyni bir qrup eksperimental amil daxil olana qədər nəzarət olunan, bu amil nəzərdə tutulan təsiri göstərdikdən sonra isə eksperimental qrup hesab olunur.

### *Sənədlərin təhlili*

Sənədlərin təhlili metodu müşahidə olunması artıq mümkün olmayan keçmiş hadisələr haqqında məlumat almağa imkan verir. Sənədlərin öyrənilməsi onların inkişafının qayəsini, meyllərini və dinamikasını aşkara çıxarıb müəyyənləşdirməyə kömək edir. Maliyyə və əmək xərcləri baxımından bu, ən sərfəli metoddur. Digər metodlarla

müqayisədə bu metodun üstünlükləri bundan ibarətdir ki, sənədlərin təhlili prosesində bütövlükdə tədqiqat obyekti və onun əsas elementləri haqqında operativ surətdə faktoqrafik məlumatlar əldə edilir; sənədlərin təhlili zamanı alınmış informasiya obyektiv xarakter daşıyır.

*Rəsmi* və *şəxsi* sənədləri bir-birindən fərqləndirirlər. Sənədli informasiya axını cəmiyyətin bütün həyat fəaliyyəti sahələrinə nüfuz edir. Şəxsi sənədlər – xüsusi şəxs tərəfindən öz təşəbbüsü ilə tərtib edilmiş sənədlərdir (məktublar, tərcümeyi-hallar, memuarlar, gündəliklər və b.).

Sosiologiyada sənədlərin təhlilinin iki əsas metodu: ənənəvi (formallaşdırılmamış) və kontent-təhlil (formallaşdırılmış) metodları tətbiq olunur. *Ənənəvi* təhlil dedikdə sənədin məntiqinin və məğzinin aşkara çıxarılmasına, bu sənəddəki məlumatların müəyyən tədqiqi nöqteyi-nəzərdən şərhinə yönəldilmiş əqli əməliyyatların bütün rəngarəngliyi başa düşülür. Bu metoddan geniş istifadə olunur və o, tədqiqatçıya imkan verir ki, bu və ya digər situasiyanın tədqiqi zamanı ona lazım olan məlumatları bu sənədlərdən əldə etsin. Ənənəvi təhlil – istər rəsmi və istərsə də şəxsi sənədlərdəki informasiyanın təfsirini və başa düşülməsini nəzərdə tutan keyfiyyət təhlili metodudur. Ənənəvi təhlilin iki əsas növünü: sənədin yaranması şəraitinin təhlilini nəzərdə tutan xarici, müəllifin səlahiyyətlilik səviyyəsinin müəyyən edildiyi, bu sənəddəki məlumatların sistemləşdirildiyi daxili, yəni bilavasitə təhlildir.

Ənənəvi metodun əsas nöqsanı materialın subyektiv izah edilməsi imkanında və ehtimalındadır.

*Kontent-təhlilin* mənası mətn şəklindəki informasiyanın kəmiyyət göstəricilərinə keçirilməsindən ibarətdir. Bu məqsədlə bir qayda olaraq iki tip vahidi – təhlil vahidlərini və hesab vahidlərini bir-birindən fərqləndirirlər. Mətndəki anlayışlar (söz, termin, söz birləşməsi, sətirbaşı), mövzular, insanların adları, adlar, ictimai hadisələr, faktlar, təsadüfi hallar və s. təhlil vahidləri hesab olunur. Hesab vahidi – mətndə təhlil vahidinin xatırlanması tezliyidir. Kontent-təhlil öyrənilən problemi daha dərindən dərk etməyə, həmin problemin yaranması və inkişafı haqqında sənədli informasiya almağa imkan verir.

Sənədlərin təhlilinin köməyilə əldə edilmiş sosioloji informasiya çox vaxt digər metodlarla əldə edilən informasiya ilə müqayisə oluna bilər və bu informasiya sosioloji tədqiqatların nəticələrinin etibarlılığının qarşılıqlı şəkildə yoxlanılmasının və onlara nəzarət olunmasının vasitəsi



kimi çıxış edə bilər. Sosiologiyada belə hesab olunur ki, kontent-təhlil vasitəsilə alınan informasiyanın etibarlılığı bununla təmin olunur ki, ilk öncə təhlil olunan birinci mətnin, sonra isə ikinci mətnin məna vahidləri, üstəgəl mətndə əvvəl rast gəlinməyən əlavə məna vahidləri seçilib ayrılır, təhlil olunan üçüncü mətndə isə əvvəlki iki mətndə olanlar üstəgəl əlavə və b. vahidlər seçilir. Yeni məna vahidlərinin rast gəlinmədiyi ikidən beşə qədər mətni öyrənib, belə hesab etmək olar ki, təhlil vahidləri müəyyən edilmişdir. Məna vahidlərinin ekspertlərin köməyi ilə seçilməsi onların etibarlılığını xeyli dərəcədə artırır.

R. Merton "Sosial nəzəriyyə və sosial struktur" kitabında kontent-təhlilin altı tipini fərqləndirir: birinci tip kütləvi informasiya materiallarında gedən simvolların (başlıca sözlərin) hesablanmasına; ikinci tip – müsbət (əlverişli) və yaxud mənfi (əlverişsiz) aspektdə istifadə edilməsinə uyğun olaraq simvolların təsnifatına; üçüncü tip – təbliğat materialının ayrı-ayrı hissələrinin (filmlərdə səhnələrin, radioproqramlarda mahnıların və b.) təsnifatından, auditoriyanın mərkəzi və ucqar maraqları ilə bağlı başlıca və ikincidərəcəli hissələrin seçilməsindən ibarət olan elementlər üzrə təhlilə əsaslanır; dördüncü tip – mətnlərin açıq və gizli mövzularının aşkara çıxarılmasını özündə birləşdirən tematik təhlili təklif edir; beşinci tip – struktur təhlildir ki, bu da təbliğatda qarşılıqlı surətdə bir-birini tamamlayan (düşmən amansızdır, biz mərhəmətliyik), birləşmiş (düşmən amansızdır, xəyanətkardır, təcavüzkardır), bir-biri ilə toqquşan (nə vaxt ki, mövzular bir-biri ilə kəsişən məqsədlərə xidmət edir) müxtəlif mövzuların qarşılıqlı münasibətini tədqiq edir; altıncı tip –ümumi eyni bir məqsədin yerinə yetirilməsinə yönəldilmiş müxtəlif təbliğat sənədlərinin qarşılıqlı münasibətləri ilə iş görür.

Kontent-təhlil mətnləri qruplaşdırmağın əvəzsiz üsulu kimi qalmaqla kütləvi informasiya vasitələrində geniş tətbiq olunur. Kontent-təhlil mətnin bu və ya digər xarakteristikalarının kütləviliyinin axtarılması, uçotu və hesablanması üçün bir-birinə oxşayan standartlaşdırılmış göstəricilərin (indikatorların ) tətbiqinə əsaslanır.

### *Sosioloji sorğu*

Sosioloji sorğu – sosiologiyanın əsas metodlarından biri olmaqla, informasiyanın yazılı və yaxud şifahi halda qeydə alınmasından, yəni cavablarının öyrənilən problemi açıqlayan sualların köməyilə

respondentlə vasitəsiz və vasitəli əlaqədən ibarətdir. Beləliklə, öyrənilən hadisələrin və proseslərin bilavasitə iştirakçıları zəruri informasiyanın mənbəyidirlər.

Sorğu metodundan öyrənilən problem üzrə sənədli mənbələr çatışmadığı və yaxud onlar ümumiyyətlə mövcud olmadığı, tədqiqat predmetinin müşahidə üçün əlçatmaz olduğu və yaxud çətin əldə edilən olduğu, ictimai və yaxud fərdi şüurun müxtəlif elementlərinin: insanların tələbatları, maraqları, motivləri, əhval-ruhiyyələri, dəyərləri, əqidələri, prioritetlərinin və s. öyrənildiyi hallarda istifadə olunur. Sorğu öyrənilən hadisənin və prosesin təsviri və təhlili imkanlarını genişləndirməyə imkan verən və digər metodlarla əldə edilmiş məlumatların bir daha yenidən yoxlanılması məqsədilə sınaq (əlavə) metodu kimi tətbiq oluna bilər.

Sorğu prosesində danışığa reaksiya verməyə və onu tənzimləməyə kömək edən vizual (görünən) əlaqə baş verir. Lakin bu, subyektiv qiymətvermələrə də gətirib çıxara bilər.

Sosioloji sorğuların müxtəlif növləri mövcuddur. Bunların üzərində bir qədər ətraflı dayanaq.

### *Anketləşdirmə*

Anketləşdirmə sosioloji sorğunun mühüm növüdür. Anketləşdimənin mahiyyəti bundan ibarətdir ki, informasiyanın daşıyıcıları olan soruşulanlar sorğu vərəqləri şəklində onlara verilən suallara yazılı cavab verirlər.

Sualların miqdarı və anketin doldurulması texnikası daxil olmaqla anketləşdirmənin keçirilməsi sərt qaydalara tabedir. Anket sorğusunun aləti anketdir. Anketin təşkilinin əsas prinsipləri bunlardır: sualların proqram məntiqi anketin məntiqi ilə eyniyyət təşkil etmir; anketin sualları respondentin mədəniyyətinin və əməli təcrübəsinin spesifikliyi nəzərə alınmaqla qurulmalıdır; anketin məna blokları təxminən eyni həcmdə olmalıdır, anketləri onların mürəkkəbliyinin artması dərəcəsinə görə yerləşdirmək lazımdır. Anketi sosial-demoqrafik blok tamamlamalıdır

Anketi bir sıra qaydaları nəzərə almaqla tərtib etmək lazımdır :

1) anketin əvvəlində respondentə əməkdaşlıq etmək təklifi ilə müraciət verilməlidir. Bu müraciətdə göstərilir ki, kim və nə məqsədlə tədqiqat aparır, anket necə doldurulmalıdır;



2) anket məntiqi cəhətdən mükəmməl olmalı, məntiqi cəhətdən bir-biri ilə əlaqəli olan bölmələrə və yarımbölmələrə malik olmalıdır;

3) anket sualları tədqiqat vəzifələrinin məqsədinə və həllinə xidmət etməlidir;

4) anketdə sualların müxtəlif tiplərini və növlərini peşəkarcasına tətbiq etmək əhəmiyyətlidir (əsas və nəzarət suallarını, vasitəsiz və vasitəli sualları növbələşdirmək, menyu-suallarda mütənasibliyi gözləməli, açıq suallardan sui-istifadə etməməli, mürəkkəb, ikimənalı suallara, çoxmənalı terminlərə yol verməməli və s.);

5) anketin dili aydın, səlis, respondent üçün anlaşıqlı, müəyyən dərəcədə danışıq nitqinə yaxınlaşdırılmış olmalıdır;

6) suallar nəzakətlə, mehribancasına, hörmətlə verilməlidir;

7) anketi səliqəli, yaraşıqlı tərtib etmək lazımdır;

8) anketin sonunda əməkdaşlığa görə respondentə təşəkkür etmək lazımdır.

Yayılması üsuluna görə aşağıdakı anketlər fərqləndirilir: paylanma anketi (anketçinin özü tərəfindən respondentlərə paylanılır); poçt sorğusu (poçt ilə göndərilir); internet-sorğu (anket İnternet vasitəsilə çatdırılır) və mətbuat anketi (anket qəzetdə və yaxud jurnalda çap olunur).

Anketləşdirmə qrup və fərdi anketləşdirməyə bölünür. Qrup şəklində anketləşdirmə üstünlüyə malikdir, belə ki, təşkili cəhətdən daha əlverişli və operativdir: anketlər anket paylayanın bilavasitə iştirakı şəraitində doldurulur və doldurulduqdan sonra dərhal ona qaytarılır. Fərdi anketləşdirmə zamanı anketçi anketi respondentə təqdim edir və onunla razılaşır ki, təkrar görüşərkən anketi nə vaxt qaytaracaq, ya da anketi doldurmağın qaydalarını və sorğunun məqsədini, anketin doldurulmasını gözlədiyini aydınlaşdırır.

### *Poçt sorğusu*

Poçt sorğusu – böyük insan toplularının soruşulmasıdır. Bu sorğunun nöqsanı anketin xüsusi priyomlardan istifadə etmədən geri qaytarılmasının aşağı faizi və anketi doldurmağın nəzarət oluna bilməyən şəraitidir.

*İnternet-sorğu*

İnternet-sorğu hazırda intensiv inkişaf mərhələsindədir. Sorğunun bu növünün danılmaz məziyyətlərindən biri qısa vaxt müddətində və ən az maliyyə sərf etməklə dünyanın bir çox ölkələrində minlərlə insanlarla sorğu aparmaqdır. İnternet-sorğunun texnikası iki üsulla həyata keçirilə bilər: 1) potensial respondentlərin e-mail ünvanlarına anketlərin göndərilməsilə; 2) respondentin interaktiv rejimdə anketin suallarına cavab verəcəyi tədqiqat təşkilatının saytına girməyə imkan yaratmaqla.

*Sorğu vərəqəsinin düzəldilməsinin metodik prinsipləri*

İstənilən sorğunun səmərəliliyi anketin suallarının düzgün tərtibindən asılıdır. Sualların məzmunu, onların ifadə olunması, ardıcıllığı və qarşılıqlı əlaqəsi iki tələbə cavab verməlidir: 1) suallar tədqiqat hipotezlərinin empirik yoxlanılmasını təmin etmək üçün, onun idraki vəzifələrinin həlli üçün zəruri və kifayətləndirici olmalıdır; 2) sorğu vərəqəsi tərtib edilərkən respondentlərin sosial-psixoloji xüsusiyyətlərini nəzərə almaq lazımdır.

*Sualların təsnifatı*

Suallar istər yazılı və istərsə də şifahi sorğularda başlıca rol oynayır, belə ki alınmış informasiyanın keyfiyyəti və kəmiyyəti çox cəhətdən bu suallardan asılı olur. Sualların təsnifatı müxtəlif əsaslar üzrə həyata keçirilir.

Strukturuna görə açıq, qapalı və yarıqapalı sualları fərqləndirirlər. *Açıq* sual sınaq, pilotaj, nəzarət sualı olaraq tədqiqat sahəsinin müəyyən edilməsi mərhələsində özünü doğruldur. Bu cür sualda ehtimal olunan cavablar yer tutmur. Bu sual cavabın müstəqil formulə edilməsini nəzərdə tutur ki, bu da rəylərin, qiymətvermələrin, əhval-ruhiyyələrin, dəyərlilik istiqamətlərinin dinamikasını müəyyən etməyə və öz fikirlərini ətraflı şərh etmək üçün respondentə imkan verir. Bir tədqiqatda açıq suallar çox olmamalıdır, belə ki, respondentlər çox vaxt öz cavablarını açıq ifadə etmək, bu və ya digər mövzu ətrafında uzun-uzadı fikir yürütmək istəmirlər. Bunu da nəzərə almaq lazımdır ki, açıq sualları işləmək olduqca mürəkkəbdir.

*Qapalı* sual cavab variantlarının tam toplusunun təklif olunduğu suala deyilir. Bu cür sual alınmış cavabları daha ciddi şəkildə şərh etməyə imkan verir. Qapalı suallar alternativ ("bəli" və "yox" tipli) və qeyri-alternativ – menyu-suallar olur. Bu cür menyu-suallarda cavab variantlarından bir və ya bir neçə cavab seçmək mümkündür. Qapalı suallar asan şəkildə eynimənalı şərh olunur və işlənilir.

Yarımqapalı suallar cavab variantları toplusuna malik olurlar və öz sualını ("başqası" tipinə görə) daxil etməyə imkan verir. Qapalı suallardan fərqli olaraq yarımaçıq suallar tədqiqatçı tərəfindən nəzərdə tutulmayan əlavə informasiya verə bilər.

Funksiyalarına görə suallar əsas (məqsədli-proqram), nəzarət (əsas suallara münasibətdə yoxlanış sualları), süzgəc-suallara (respondentləri suallara cavab verməyə qadir olan və qadir olmayanlara bölmək üçün süzgəcdən keçirən suallar), tələ-suallar (cavab verənlərin səmimiliyini və vicdanlılığını aşkara çıxaran) suallara bölünür.

Məzmununa görə faktlar, hadisələr, şərait, situasiyalar, biliklər haqqında suallar və motivlər, ustanovkalar, qiymətvermələr, rəylər, əhval-ruhiyyələr haqqında suallar bir-birindən fərqləndirilir. Sualların şərti olaraq ontoloji-qnoseoloji adlanan birinci qrupu obyektiv sosial prosesləri və hadisələri, həmçinin onlar haqqında obyektiv biliyi əks etdirir, aksioloji adlanan ikinci qrup suallar isə subyektiv əxlaqi mövqeləri və psixoloji duyğuları əks etdirir.

Forma etibarilə suallar vasitəsiz – birbaşa (bilavasitə respondentə istiqamətlənmiş), vasitəli (cavab bilavasitə deyil, dolayısı ilə müəyyənləşdirilir) və layihə suallara (sualda situasiya nəzərdə tutulur, lakin hazırkı anda situasiya bilavasitə mövcud olmur) bölünür.

*İntervüləşdirmə*

İntervüləşdirmə – intervü götürənin və respondentin bilavasitə ünsiyyəti vasitəsilə sosioloji informasiyanı əldə etmək metodudur. Bu halda tədqiqatçı sualları özü verir və cavabları da özü qeyd edir.

Respondentin canlı reaksiyası haqqında bilavasitə informasiya əldə etmək zəruri olduğu halda (bu, cavabı daha yaxşı şərh etməyə kömək edir), ya da auditoriyanın rəngarəngliyi nəticəsində yazılı sorğunun çətinləşdiyi və yaxud mümkün olmadığı halda, ya da respondentlərin mədəniyyətində və təhsilində fərqləri, sorğunun keçirildiyi şəraitin nəzərə alınması şərtilə bir çox məsələləri aydınlaşdırmaq tələb olunduğu halda intervü tətbiq olunur.

M. Veber intervünü informasiya toplamağın kral üsulu

adlandırmışdır. İntervü metodunun məziyyəti bundan ibarətdir ki, o:

- respondentlərin rəyləri, motivləri, təsəvvürləri haqqında dərin informasiya almağa imkan verir;
- ünsiyyət üçün sərbəst şəraitin yaradılmasına və cavabların səmimiliyinə kömək edir;
- respondentin psixoloji reaksiyalarını, intervü situasiyasını müşahidə etməyə və lazım olduqda yaranmaqda olan situasiyaya uyğun olaraq təshihlər etməyə imkan verir;
- respondentin intervü aparanla özünün şəxsi ünsiyyətinin sayəsində sorğuya daha ciddi yanaşmasını formalaşdırır;
- sualların tədqiqatçı tərəfindən verilmiş ardıcıl qavranılmasını təmin edir.

Lakin intervü metodunun nöqsanları da vardır: bu da böyük miqdarda respondentlə sorğu aparmağın mümkün olmamasından, çox zəhmət tələb etməsindən və çox xərc tələb etməsindən ibarətdir.

**İntervünün növləri**. İntervünün aparılması texnikasına uyğun olaraq o, qəbul olunduğu kimi, formallaşdırılmış (standartlaşdırılmış) və sərbəst (standartlaşdırılmamış) intervülərə ayrılır. Formallaşdırılmış intervü qabaqcadan formulə edilmiş sualları və bu suallara cavabların variantlarını nəzərdə tutur. Sərbəst intervü mövzuya uyğun olaraq daha az standartlaşdırma və sərbəst müsahibə ilə fərqlənir. Müsahibənin əsas müddəaları sərbəst intervü prosesində söhbətdən sonra qeydə alına bilər.

Fokuslaşdırılmış intervü – intervünün elə bir növüdür ki, burada diqqət sanki müəyyən bir konkret problem üzərində fokuslaşır. İntervünün bu növü respondentlərin tədqiq olunan problemlə bağlı situasiyaya daxil edilməsini nəzərdə tutur.

İntervüləşmənin subyektinə uyğun olaraq qrup və fərdi intervüləşməni bir-birindən fərqləndirirlər. Qrup şəklində intervü diskussiya xarakteri daşıya bilər.

İntervü bir neçə mərhələdən keçir:

1) ilk ünsiyyətin yaradılması: intervü aparan özünü və təmsil etdiyi təşkilatı bildirir; tədqiqat üçün əlverişli atmosfer yaratmaq məqsədilə mücərrəd danışıq mümkündür;

2) *ünsiyyətin möhkəmləndirilməsi*: ilk ümumi məlumatların toplanılması davam edir (adi vəzifələr, həyat və məişət şəraitinin təsviri), soruşulanın səlahiyyətini şübhə altına almaq və şübhələndirici suallar vermək qadağan edilir;



3) əsas suallara keçilməsi: *sonrakı söhbətin önəmliliyini qeyd edən* sözlərlə müşayiət olunmalıdır; tədqiqatçı mürəkkəb suallara cavabları müxtəlif üsullarla – diqqətli baxışı, başının mehribancasına tərpədilməsi ilə, təbəssümlə və s. ilə həvəsləndirir;

4) ünsiyyətin bərpa edilməsi: əgər intervü zamanı müxtəlif səbəblər üzündən əlaqə itirilmişdirsə (respondentin lazımi informasiyanı bilməməsi, sorğunun məqsədini başa düşməməsi, fikrini ifadə etməyi bacarmaması, cavab vermək istəməməsi və s.), *respondentin* ürəkləndirilməsi üsullarından – ilkin yoxlamadan, "əks-səda"dan istifadə etmək olar. Bu halda intervü aparan sadəcə olaraq respondentin son sözlərini təkrar edir, bununla da ona qarşı diqqətli olduğunu nəzərə çatdırır və səmimi olmağa vadar edir;

5) söhbətin başa çatdırılması: intervünün sonunda respondentdən xahiş etmək lazımdır ki, o, özü haqqında bəzi məlumatları bildirsin, lakin hər hansı vəd vermək, tədqiqatın son nəticələri ilə əlaqədar proqnozlar və plan qurmaq lazım deyil.

### *Ekspert sorğusu. Ekspert qiymətləndirməsi metodu*

Ekspert sorğusu – sorğunun müxtəlif növlərindən biridir ki, burada respondentlər olaraq ekspertlər, yəni sosial fəaliyyətin müəyyən sahəsindəki mütəxəssislər çıxış edirlər. Ekspert qiymətləndirməsi metodu tədqiq olunan problemin ən çətin aspektlərini müəyyən etməli, alınan informasiyanın etibarlılığını, nəticələrin sübutluluğunu yüksəltməlidir. Bu metod diaqnostika və proqnozlaşdırma, layihələşdirmə, sosial obyektin vəziyyətinin qiymətləndirilməsi və qərarlar qəbul edilməsi məqsədilə istənilən sosial sahənin öyrənilməsi zamanı tətbiq edilir.

Ekspertlərdən informasiya almaq proseduru ekspertiza adlanır. Ekspert qiymətləri müxtəlif fəaliyyət sahələri haqqında ekspertlərin mühakimələrindən ibarətdir və seçilmiş meyarlar üzrə obyektlərin və onların xassələrinin müqayisəsi qaydasını nəzərdə tuturlar. Müzakirə prosesində problemin inkişafına və həllinə aid olmayan ideyalar kənar edilir.

Ekspert sorğusunda müxtəlif tədqiqat metodları tətbiq olunur. Ən yayılmış metodlardan biri, xüsusilə də sosial proqnozlaşdırma məqsədilə – beyin hücumu metodudur. Beyin hücumunu həyata keçirməyin çıxış nöqtəsini bu ehtimal təşkil edir: ideyalar nə qədər çoxdursa və onlar

keyfiyyət etibarilə nə qədər rəngarəngdirlərsə, o qədər də çox ümid vardır ki, bunların içərisində də zəruri ideyalar mövcud ola bilər.

Ekspert sorğusu keçirilməsinin bir forması da texniki vasitələrin (diktofon, kompüter emalı və s.) tətbiqi ilə dərin intervüləşdirmə aparılması ola bilər. Belə intervüləşdirmə öyrənilən sosial obyekt haqqında maksimum tam informasiya almağa imkan verir.

"Ənənəvi diskussiya" – sosioloji tədqiqat mövzusu üzrə ekspertlərin kiçik qrupu ilə söhbət – həmçinin tədqiq edilən problemin mümkün olan həlli yollarını aydınlaşdırmağın mühüm üsuludur. Diskussiyanın məqsədi qrup kollektiv rəyin yaradılmasıdır. Bunun müvəffəqiyyəti isə diskussiya predmetinin dəqiq ifadə olunması ilə və iştirakçıların böyük əksəriyyətinin onunla tanış olması ilə müəyyənləşdirilir.

"Aid edilmiş qiymət metodu" diskussiyaların bir neçə dövrəsinin təkrarlanmasını nəzərdə tutur ki, bunun nəticəsində də mövcud fikir ayrılıqlarının mahiyyəti aydınlaşdırılır və razı olmayanların xüsusi rəy hüququ saxlanılmaqla ekspertiza iştirakçılarının hamısının və yaxud əksəriyyətinin tədricən vahid rəyi əldə edilir. "Aid edilmiş qiymət metodu" özünün qiyabi variantında Delfi metodu adlanır. Bu metoddan istifadə olunması respondentlərin anonimliyinin saxlanılmasını təmin edir, yəni ekspertlər bir-biri ilə görüşməyib, anonim anketlər doldururlar və yaxud suallara EHM-nın köməyi ilə cavab verirlər. İşin birinci dövrəsi qurtardıqda ekspertlər bütövlükdə qrupun mövqeyinin yekun xarakteristikaları ilə tanış olurlar, ikinci dövrədə isə ekspertlər əksəriyyətin mövqeyini nəzərə almaqla öz rəyində düzəlişlər edə bilər, ya da bu mövqenin qəbul edilməməsinin səbəblərini öyrənə bilərlər. Üçüncü dövrədə yeni informasiya ekspertlərə öz nöqteyi-nəzərlərinə bir daha yenidən baxmaq imkanı verir.

### *Onlayn sorğular*

Müasir dünyada internet texnologiyaları getdikcə daha möhkəm mövqe tutur. Bəzi alimlər belə hesab edirlər ki, artıq 10-15 ildən sonra İnternet yüksək dərəcədə rahat ünsiyyət vasitəsinə çevriləcəkdir, bir sıra ənənəvi kommunikasiya formaları isə öz cazibədarlığını itirməyə başlayacaqdır. Bu cür proqnozun ehtimallığı kifayət qədər yüksəkdir, buna görə də perspektivdə sorğuların – lokal mövzulara toxunan, xüsusi qruplar üçün nəzərdə tutulmuş, siyasi, marketinq, sosial-iqtisadi, sosial-mədəni sorğuların böyük əksəriyyəti veb şəbəkəsi vasitəsilə həyata keçiriləcəkdir. Bu cür sorğuların texniki təminatı artıq indi testlərdən, üçölçülü təsvirlərdən, videosüjetlərdən, elektron poçtundan istifadə edilməsi sayəsində, o cümlədən bir başa dialoq, telefon əlaqəsi rejimində, əməli olaraq mümkündür.



Yeni – onlayn sorğu özünün texnologiyasına və təşkilinə görə köhnə, yaxşı məlum olan kütləvi sorğuya – poçt anketləşdirməsinə, yüz ildən çox tarixə malik "işıqlı" və "qaranlıq" dövrləri olan tarixə malik metoda yaxındır. Veb-sorğu XX əsrin sonlarında meydana gəlmişdir, lakin bu sorğu sosioloji və marketinq sorğularının müxtəlif növlərində yaradılmış və təsbit olunmuş qiymətli nə varsa, hamısını irs olaraq qəbul etmişdir.

Tədqiqatçılar qeyd edirlər ki, yaxın illərdə çox böyük amerikan təşkilatlarının müxtəlif təbiətli sosial informasiyanın toplanılması və təhlili sahəsində təşkilati səylərinin və metodik axtarışlarının əsas hissəsi sorğu veb-texnologiyasının təkmilləşdirilməsinə yönəldiləcəkdir.[1]

Onlayn sorğular sisteminin görünən, yaxud respondentlərə və müştərilərə təqdim olunan hissəsi və kənar müşahidəçilərdən gizli qalan, bu sistemin əsas xassələrini şərtləndirən mexanizmi vardır. Onlayn sorğunun proqram təminatı müəyyənedici rol oynayır, çünki respondent panelinin necə cəmləşməsi və istismar edilməsi, göndərmənin və respondentlərlə qarşılıqlı əlaqənin mühüm parametrlərinin verilməsi, sosioloqun sosioloji sualların bu və ya digər tiplərindən, şkalalardan və s. istifadə etmək imkanlarının müəyyənləşdirilməsi ondan asılıdır.

Sosiologiyada onlayn sorğuların üç mühüm tematik istiqaməti müəyyənləşdirilmişdir:

1) şəbəkə davranışının və İnternetdən istifadə edənlərin elektron torunun inkişafının texnoloji və sosial-mədəni aspektlərinə münasibətinin öyrənilməsi;

2) əmtəələr və xidmətlər bazarında istehlakçı məqsədləri və davranışının, xüsusilə ayrıca qrupların (ərazi, demoqrafik və sosial-mədəni qrupların) istehlakçı maraqlarının tədqiq edilməsi;

3) sosial və siyasi məqsədlərin, o cümlədən seçici istəklərinin, hakimiyyətin regional problemlərinə, beynəlxalq siyasətə münasibətin, siyasətçilərin reytinqinin və s. öyrənilməsi.

---

[1] Вах: Шарков Ф.И., Родионов А.А. Социология массовой коммуникации. М., 2002.

**Onlayn sorğunun panelləri.** Bu sorğunun aşağıdakı panelləri mövcuddur: ümumi tipli panel, ixtisaslaşdırılmış və lokal panellər, milli və qlobal panellər. Veb-sorğu ikipilləli seçmədən istifadə olunmaqla həyata keçirilir: əvvəlcə respondent paneli komplektləşdirilir, sonra isə bu paneldən təsadüfi qaydada tədqiqatçı tərəfindən nəzarət olunan parametrlər üzrə baş məcmunu təmsil edən kvota kəsiyi seçilib götürülür. Bununla yanaşı nisbətən kiçik və zəif tədqiqat strukturları şəbəkəni qurmağın əsasən passiv üsullarından istifadə edirlər. Onlar sorğularda iştirak etmək üçün tədqiqatçı şirkətlərinin təsadüfi müştərilərinin və onların saytlarının qeydiyyata alınmasını təklif edirlər.

İxtisaslaşdırılmış paneldə isə öyrənilən strukturun və yaxud məhdud ixtisaslaşdırılmış panelin (ekspert paneli və b.) üzvlərinin siyahısından birpilləli seçmədən istifadə olunur.

Onlayn sorğu iştirakçılarının qeydiyyatının aparılması respondentin tədqiqat strukturunun fəaliyyətilə və panelin üzvləri barədə onun siyasətilə tanış olmasından başlanır, sonra isə respondentə təklif edilir ki, özünü təqdim etsin: yəni cinsini, yaşını, yaşayış yerini, elektron ünvanını göstərsin. Qeydiyyatdan keçənlərə təsdiqnamə, minnətdarlıq və sorğu zamanı identifikasiya olunmuş *və* sorğu zamanı göstərilən kod göndərilir. Sorğunun müddəti geniş ölçüdə tərəddüd edir, orta hesabla 15-20 dəqiqə təşkil edir.

Mütəxəssislər tərəfindən şəbəkənin saxlanmasının və panelçi respondentlərin sorğularda fəallığının artırılmasının xüsusi üsulları işlənib hazırlanmışdır: birincisi, bütün firmalar izah edirlər ki, insanın rəyi yalnız sorğuda iştirak etməklə müvafiq instansiyalar tərəfindən eşidiləcək və nəzərə alınacaqdır; ikincisi, respondentlərin maddi, o cümlədən pul şəklində həvəsləndirilməsinin müxtəlif formalarından istifadə olunur (bu, lotereyalar, sorğuya görə ödəniş, güzəşt kuponları və s. ola bilər).

### *İnterSurvey: yeni əsrin sorğu texnologiyası*

İnterSurvey şirkəti 1998-ci ildə ABŞ-da Silikon vadisinin ən böyük kompüter firmaları, Stenford universiteti və Thi Vashington Post Company tərəfindən təşkil edilmişdir. İnterServey-in yaradıcılarından biri ictimai rəyin və kütləvi davranışın öyrənilməsi sahəsində məşhur mütəxəssis, seçmə tədqiqatların təşkili üzrə və sosiologiyada kəmiyyət metodlarının tətbiqi üzrə ekspert N. Naydır. İnterSurvey-in iqamətgahı



San-Fransisko və San-Oze arasındakı Menlo-Park adlı kiçik şəhərcikdə yerləşir. İnterSurvey-in Prezidenti böyük elmi və idarəçilik təcrübəsi olan D. Riversdir.

Müştərilərə daha operativ xidmət göstərmək məqsədilə şirkət Nyu-Yorkda, Vaşinqtonda, Çikaqoda və bir sıra mərkəzi və şərq ştatlarında ofislərini açmışdır. Bu şirkət çoxlu miqdarda siyasi sorğular, həmçinin marketinq tədqiqatları aparır, televiziya reklamı istehlakçılarının testləşdirilməsini həyata keçirir və XXI əsrdə sorğular texnologiyasını yaratmaq iddiasındadır.

*Onlayn sorğuların keçirilməsi sahəsində ixtisaslaşmış* digər şirkətlər kimi İnterSurvey telefon nömrələrinin təsadüfi seçilməsi metodunun köməyi ilə cəlb edilmiş potensial respondentlərin panelinə malikdir. Bu texnologiyanın prinsipial yeniliyi bundan ibarətdir ki, bu texnologiyaya nəinki İnternetə çıxışı olan ailələr qoşulurlar, həmçinin kompüteri olmayan və yaxud internetdən istifadə edə bilməyən ailələr bütün bunları pulsuz alırlar. Mütəxəssislərin rəyinə görə İnterSurvey-ə Amerika əhalisinin 96 % cəlb edilmişdir və nəticələrin yüksək ifadəliliyinə nail olunmuşdur. Zərurət olduğu halda bu şirkətin panelindən adi təsadüfi seçmənin köməyi ilə bütövlükdə ölkənin əhalisini təmsil edən *1000* respondent sorğu üçün götürülür, məqsədli tədqiqatların aparılması üçün seçmələr təşkil olunur. Sorğularda iştirak pulla, hədiyyələrlə, pulsuz telefon kartoçkaları ilə, aviabiletlərdə güzəştlərlə və s. ilə həvəsləndirilir. Əgər adətən sorğunun hazırlanması və həyata keçirilməsi bir neçə həftə və yaxud aylar tələb edirsə, İnterSurvey-in sorğularının 70 %-i sifariş alınandan sonra 48 saat müddətində həyata keçirilir.

Hər bir onlayn respondenti orta hesabla həftədə bir dəfə elektron poçtu ilə növbəti sorğu haqqında məlumatın və sorğu sənədlərinin alınması yolu ilə soruşulur. Əgər sorğu 24 saat ərzində keçirilirsə, onda seçmə məcmusunun 60 %-ni əhatə etmək mümkün olur; əgər sorğu 48 saat davam edirsə, seçmə məcmusunun 75 %-i əhatə olunur. Sorğunun məlumatları avtomatik olaraq müvafiq arxivlərə ötürülür, əvvəlcədən tərtib edilmiş qayda üzrə işlənilir, sonra isə təsvir üçün İnterSurvey-in analitiklərinə verilən cədvəllər tərtib edilir. Sorğularda firma video- və üçölçülü qrafika tətbiq edir, bununla da respondentə real zaman kəsiyində meydana çıxan bütün suallara cavab almaq imkanı verir.

### *Keyfiyyət metodları*

Müasir sosiologiyada kəmiyyət ("sərt") metodları ilə yanaşı keyfiyyət metodlarından ("yumşaq") getdikcə daha fəal istifadə olunur. Lakin bu metodları bir-birinə qarşı qoymamağı, əksinə tədqiqatın məqsədinə uyğun olaraq onları bir-biri ilə əlaqələndirməyi öyrənmək lazımdır. Məsələn, bir tədqiqatda anket sorğusu ilə fokus-qrupları faydalı şəkildə tətbiq etmək mümkündür. Müasir sosiologiyada daha geniş yayılmış keyfiyyət metodlarını nəzərdən keçirək.

#### *Bioqrafik metod*

Bioqrafik metod insanın keçdiyi həyat yolunun, onun tərcümeyi-halının ayrı-ayrı mərhələlərinin təhlili vasitəsilə həyata keçirilir. Belə təhlil əsas etibarilə insanın şəxsi sənədlərinin öyrənilməsi vasitəsilə həyata keçirilir. Bu təhlil prosesində sosioloq həmin insanın davranışını və əməllərini aydınlaşdırmağa, onun daxili aləmini, əqidə və dəyərlilik meyllərini anlamağa səy göstərir. Elmi məqsədlərlə tərcümeyi-halın tam və tematik öyrənilməsi həyata keçirilir.

#### *Keys-stadi (Case study)*

Keys-stadi metodu ilə ayrı-ayrı hallar, situasiyalar öyrənilir. Tədqiqatın eninə istiqamətləndirildiyi, yəni çoxlu miqdar vahidə malik olduğu strategiya bu metodun ekstensiv planı adlanır. Dərinə hərəkəti, yəni hər bir vahid haqqında ayrılıqda informasiya toplanılmasını nəzərdə tutan strategiya intensiv plan adlanır. Ekstensiv strategiyanın çıxış nöqtəsi olaraq ictimai rəyin öyrənilməsini qəbul etmək olar. Bu zaman isə çoxlu miqdar insanlara adətən müxtəlif sosial qruplar daxilində mövqeləri aydınlaşdıran dəqiqləşdirici suallarla tamamlanan bir sual verilir. Bu cür tədqiqatdan əsas məqsəd böyük sayda insanlardan müsahibə götürmək yolu ilə mübahisəli məsələ üzrə əhalinin mövqeyi haqqında maksimum ətraflı təsəvvür əldə etməkdir. İntensiv metodun əsası olaraq yalnız bir vahidin öyrənilməsini nəzərdə tutan "təsadüfi halın" (case study) tədqiqi götürülmüşdür.

İki və ya bir neçə vahidin tədqiqi adətən müqayisəli metod adlanır. Bir və ya bir neçə vahidin öyrənilməsinin üstünlüyü ondan ibarətdir ki, bu, fikri nə isə bir şey üzərində cəmləməyə, çox müfəssəl təsvir verməyə və vahidin bütöv mənzərəsini yaratmaqla ayrı-ayrı detallar arasında qarşılıqlı əlaqəni müəyyən etməyə imkan verir.



Keys-stadi ayrıca empirik obyekt vasitəsilə sosial hadisənin dərin, tam və kompleks təhlilinə yönəldilmiş tədqiqat strategiyasıdır.

Latent proseslər haqqında, sosial münasibətlərin gizli mexanizmləri haqqında daha dərin informasiyanın alınması bu metodun şəksiz məziyyətlərinə aiddir. Məhz bu metod insanlar arasında mövcud olan qeyri-formal münasibətlərin sferasını yenidən qurmağa imkan verir, sosial reallığın, hər bir subyektin unikallığının daha yaxşı başa düşülməsinə kömək edən konkret predmetlərin öyrənilməsi zərurətini aşkara çıxarır və eyni zamanda da sonradan ümumiləşdirilmək üçün ümumi cəhətləri seçib fərqləndirməyə imkan verir.

Sərbəst intervüləşdirmə və iştiraklı müşahidə keys-stadinin klassik metodları hesab olunur, lakin onların da öz xüsusiyyətləri vardır. Keys-stadi çərçivəsində intervüləşdirmə zamanı tədqiqatçı yanaşmasının kompleksliyi və çevikliyi tələb olunur, belə ki, intervünün keçirilməsi imkanı situasiyadan asılı olaraq yaranır. Sərbəst müsahibələrdə əvvəlcədən yalnız mövzu və tədqiqat suallarının ümumi siyahısı verilir, konkret suallar isə sosioloq tərəfindən bilavasitə söhbət prosesində ifadə olunur və korrektə olunur. Bütün suallar buna yönəldilməlidir ki, intervü götürənə nisbətən daha çox respondent diqqət fokusunu müəyyən etsin. İş prosesində "etibarlı" müsahibə yarana bilər ki, bunun gedişində də yeni suallar ortaya çıxır, söhbətin predmeti isə əvvəlcədən nəzərdə tutulduğuna nisbətən digər xarakteristikalar kəsb edir.

Fərdi intervüdən fərqli olaraq qrup söhbətində adamlar daha sərbəst, daha ürəyi açıq olurlar, bir qayda olaraq, nə isə təəssürat doğurmağa və yaxud nəyisə gizlətməyə, biclik eləməyə səy göstərmirlər. Bu, onunla izah olunur ki, adamlara kollektivin adından rəy söyləmək imkanı verilib. Adətən iki-üç adam fəal danışır, qalanları isə daha çox emosional şəkildə çıxış edirlər, yəni yalan danışmağa qoymurlar, faktları dəqiqləşdirirlər, razılaşırlar və yaxud etiraz edirlər.

İştiraklı müşahidə key-stadinin əsas, klassik metodlarından biridir. Onun texnikası antropoloji müşahidələrin texnikası ilə oxşardır. İştiraketmə tipi üzrə tədqiqatçılar bir növ müşahidəçilər iştirakçılar hesab olunurlar. Onlar kifayət qədər uzun bir müddətdə öyrənilən obyektə "daxil olmaq" imkanına malikdirlər. Müşahidəçi hadisəni mümkün qədər daha dolğun və ətraflı təsvir etməlidir ki, onun canlı atmosferini bərpa etsin. Hadisəni müşahidə etməyin mühüm elementi vaxtın dəqiq qeydə alınmasıdır; bu da eyni bir informasiyanı səmərəli və çoxtərəfli istifadə etməyə imkan verir.

### *Fokus-qruplar*

Fokus-qruplar metodu kütləvi informasiyanı toplamağın kəmiyyət-keyfiyyət metodlarına aiddir. İlk dəfə bu metod R. Merton tərəfindən təsvir edilmişdir. Fokus-qruplar metodu qabaqcadan hazırlanmış ssenari üzrə intervünün "adi adamların" kiçik qrupu ilə müzakirə formasında keçirilməsi metodikasından istifadə etməklə həyata keçirilir. Müəyyən hallarda bu metod keyfiyyət informasiyasını kəmiyyət göstəricilərinə çevirməyə imkan verir. Diskussiya qrupunun tərkibinə əsas metodik tələb həmcinslikdir ki, bu da qrupun müəyyən üzvlərinin onun digər üzvlərinə birbaşa və ya dolayısı ilə təzyiq göstərməsini aradan qaldırır. Məsələn, kütləvi informasiya təhlil edilərkən fokus-qrupun bütün gələcək iştirakçıları eyni bir televiziya verilişinə baxmalı, qəzetdəki məqaləni oxumalı, eyni bir kütləvi tədbirdə iştirak etməlidirlər. Moderator respondentlərə sualları ardıcıl surətdə verərək qrup diskussiyasını təşkil edir. Respondentlər də öz təcrübəsindən, əqidəsindən, anlamından çıxış edərək situasiyanı izah edirlər. Moderator alınmış informasiyanı ümumiləşdirərək, fərdi rəylərin cəmini kəmiyyət formasına çevirir.

Fokus-qruplar çox dərin intervü ilə müqayisə oluna bilərlər, lakin bunlar daha miqyaslıdırlar və bir adamla deyil, insanların kiçik bir qrupu ilə (bir qayda olaraq, 6 nəfərdən 8 nəfərəcən) iş aparırlar. Fokus-qrupların keçirilməsi zamanı müşahidə elementlərindən də istifadə olunur; bu da onlarda laboratoriya şəraitində keçirilən tədqiqatlarla oxşarlıq yaradır, belə ki, iştirakçıların davranışı heç də tam sərbəst deyildir. Fokus-qrupların iştirakçıları kommunikativ prosesi həyata keçirərək bir-biri haqqında, həmçinin tədqiq olunan predmet haqqında rəy formalaşdırırlar. Nəzərə almaq lazımdır ki, fokus-qrupların davranışı münaqişəli və konform ola bilər ki, bu da nəticələrə təsir göstərir. Moderator fərdi rəy və qiymətlərin bütün diapazonunu əldə etməyə səy göstərməlidir.

Fokus-qrupların məlumatlarının toplanılması, təhlili və işlənilməsinin həmçinin özünün spesifikası var, çünki tədqiqatçı nəinki alınmış cavabları, eyni zamanda öz xüsusi müşahidəsinin nəticələrini təhlil edir. Məlumatların təhlili konkret kontekst və kommunikativ prosesin xarakteri nəzərə alınmaqla həyata keçirilir. Bu metoddan



istifadə edərkən özrefleksiyanın mühüm əhəmiyyəti vardır, belə ki, intervüyə yaradıcı yanaşan tədqiqatçı özünü dərk etmək vasitəsilə digər adamları başa düşə bilir. Fokus-qruplar öyrənilən problem üzrə baxışların geniş spektrinə malik olmalıdırlar, buna görə də hesabat yazarkən alimin rolu daha çox həmin baxışları qruplaşdırmaqdan, təhlil etməkdən və ümumiləşdirməkdən ibarət olur.

Fokus-qruplar metodunun tətbiqinin bəzi məhdudluqları da vardır: respondentlərin sayı prezentativ olmaya bilər, lakin bu say əhalinin tədqiqat obyektini təşkil edən müxtəlif kateqoriyalarını təmsil etməlidir; tədqiqat məqsədilə şərtlənən müzakirə mövzuları gündəlik praktikada olduğu kimi iştirakçılara aydın olmalıdır.

Fokus-qruplara adamların seçilməsi həmin qrupların səlahiyyətliliyinin müəyyən edilməsi, sosial-demoqrafik və digər məlumatların qabaqcadan qeydə alınması məqsədilə ilkin anketləşdirmə əsasında həyata keçirilir. Əvvəlcədən diskussiyanın məntiqi və təxmini strukturu müəyyənləşdirilir, lakin problemin müzakirəsinin sərt planına əməl edilməsi məsləhət deyil, belə ki, bu mühüm informasiyanın itirilməsinə gətirib çıxara .bilər. Fokus-qrupların işlədiyi dövrdə respondentlərin bir-birini müzakirə etmələrinə yol vermək olmaz.

Fokus-qruplarda verilən sualları əsas, istiqamətləndirici, yoxlama, dəqiqləşdirici (qrupu müzakirə olunan mövzuya qaytarmaq üçün), spesifik (incə mövzuların müzakirəsi üçün), faktoloji (faktların dəqiqləşdirilməsi üçün), təşkilati - yardımçı (diskussiyanı təşkil etməyə kömək edən) suallara ayırırlar. Sualların tərtibi və tətbiq olunması qaydaları ənənəvi müsahibələrə edilən tələblərlə əsas etibarı ilə uyğun gəlir.

Məlumatların etibarlılığının yüksəldilməsi məqsədilə onları təhlil və şərh edərkən video- və audioyazılardan istifadə etmək əhəmiyyətlidir. Tədqiqatın nəticələrini təsvir şəklində təqdim edirlər, lakin onları cədvəllər şəklində də formallaşdırmaq olar.

Beləliklə də, sosioloji informasiyanı toplamağın müxtəlif metodlarını nəzərdən keçirdik. Metodun seçilməsi və onun konkret şəkildə tətbiqi problemin mahiyyətindən və elmdə onun işlənilməsi dərəcəsindən, tədqiqatın məqsəd və vəzifələrindən, tədqiqat qrupunun peşəkarlığından və resurslarından *asılıdır.*

## 2.5. Sosioloji tədqiqatın nəticələrinin işlənilməsi və təhlili

Sosioloji tədqiqatın yekun mərhələsinə məlumatların işlənilməsi, təfsiri və təhlili, empirik cəhətdən dəqiq yoxlanılmış və əsaslandırılmış ümumiləşdirmələrin, nəticələrin, tövsiyə və layihələrin qurulması daxildir. İşlənilmə mərhələsi bir neçə pilləyə ayrılır:

- informasiyanın redaktə edilməsi – tədqiqat gedişində əldə edilmiş informasiyanın yoxlanılması, unifikasiya edilməsi və formallaşdırılması. İşlənilmə üçün ilkin hazırlıq mərhələsində metodik instrumentarinin dəqiqliyi, dolğunluğu və doldurulmanın keyfiyyəti yoxlanılır, keyfiyyətsiz doldurulmuş anketlər kənara atılır;
- kodlaşdırma – dəyişənlərin yaradılması yolu ilə məlumatların formallaşdırılmış emal dilinə keçirilməsi; kodlaşdırma keyfiyyət və kəmiyyət informasiyaları arasında əlaqələndirici vasitə olub, EHM-nın yaddaşına daxil edilmiş informasiya üzərində ədədlərlə əməliyyatlar aparılması ilə xarakterizə olunur. Əgər kodlaşdırma zamanı dolaşıqlıq baş verərsə, kod dəyişdirilərsə və yaxud itərsə, onda informasiya səhv olacaq;
- statistik təhlil – sosioloqa müəyyən ümumiləşdirmələr etməyə və nəticələr çıxarmağa imkan verən bir sıra statistik qanunauyğunluqların və asılılıqların aşkara çıxarılması;
- interpretasiya –sosioloji məlumatların sadəcə ədədi kəmiyyətlər deyil, tədqiqatçının məqsədləri və vəzifələri, onun biliyi, təcrübəsi ilə əlaqələndirilmiş müəyyən sosioloji məlumatlardan ibarət olan göstəricilərə çevrilməsi.

İnformasiya materialının təhlili hansı tədqiqatın - keyfiyyət və ya kəmiyyət tədqiqatının aparılmasından asılı olaraq fərqlənir. Keyfiyyət tədqiqatında təhlil adətən artıq məlumatların toplanılması mərhələsində başlanılır, çünki alim özünün çöl qeydlərində izahlar verir, müzakirə olunan ideyaları qeyd edir və s. Təhlil dövründə əgər məlumatlar kifayət deyildirsə və yaxud irəli sürülmüş hipotezlərin düzgünlüyünü yoxlamaq lazımdırsa, onda tədqiqatçı bəzən məlumatların toplanılmasına yenidən qayıda bilər. Keyfiyyət təhlilində tədqiqatçı qarşısında təsvir və təfsir arasında balansın gözlənilməsi (müşahidə olunan hadisə haqqında daha dolğun, gerçəkliyə maksimum dərəcədə yaxınlaşdırılmış təsəvvür yaratmaq əhəmiyyət kəsb edir, lakin lüzumsuz şərhlərə yol verilməməsi lazımdır), tədqiqatçının interpretasiyaları ilə onun iştirakçılarının situasiyanı necə qavrayıb başa düşmələri arasında düzgün nisbətin



saxlanılması problemləri durur (lazımdır ki, iştirak edən şəxslərin özlərinin gerçəkliyi qavramalarının maksimum dərəcədə dolğun şəkildə ötürülməsinə səy göstərilsin, onların davranışına haqq qazandırılmasından və yaxud diaqnoz qoyulmasından qaçılsın, lazımdır ki, iştirak edən şəxslərin rəyləri xalis, olduğu şəkildə verilsin, lakin öyrənilən hadisənin yalnız *analitik konstruksiyaya* məruz qalacaq tərəflərini saxlamağın da əhəmiyyəti az deyildir).

Kəmiyyət təhlilində bir-birinə təsir edən dəyişənlər anlayışları ilə əməliyyat aparılır. Müxtəlif tədqiqatların nəticələrinin toplanılması, işlənilməsi, təhlili, modelləşdirilməsi və müqayisəsi zamanı tətbiqi riyazi statistikanın metodları və modellərinin hamısından istifadə olunur. Birinci qrupa seçmə metodunu, təsviri statistikanı, əlaqə və asılılıqların təhlilini, statistik nəticələr, qiymətlər və meyarlar nəzəriyyəsini, eksperimentlərin planlaşdırılmasını, ikinci qrupa isə çoxdəyişənli statistikanın bir sıra metodlarını, şkalalaşdırmanın müxtəlif metodlarını, taksonomik prosedurları, korrelyasion, faktoloji, səbəb təhlilini, həmçinin statistik modellərin böyük qrupunu aid edirlər.

### *Sosioloji ölçmənin əsas prosedurları*

Ölçmə obyektlərinin (onların xassələri və aralarındakı münasibətlərlə bağlı) rəqəmlər arasında sosioloji tədqiqatlarda şkalalar adlandırılan müvafiq münasibətlərlə birlikdə müəyyən rəqəm sisteminə keçirilməsi proseduru ölçmə adlanır.

Şkala - münasibətlərilə birlikdə iradi empirik sistemin bütün gerçək rəqəmlər çoxluğundan ibarət olan rəqəm sistemində əks olunmasıdır.

Respondentin obyektiv keyfiyyət xarakteristikalarının (cinsi, milliyyəti, təhsili, sosial vəziyyəti) və yaxud rəylərin, ustanovkaların, qiymətləndirmələrin siyahısını ehtiva edən adlar şkalası *nominal şkala* adlanır.

*Qaydaya salınmış nominal şkala* (və yaxud Quttman şkalası) subyektin obyektə münasibətinin, subyektin məqsəd yönümlərinin ölçülməsi üçün nəzərdə tutulmuşdur. Bu şkala kumulyativlik və reproduktivlik kimi mühüm məziyyətlərə malikdir.

*Rütbə şkalasına* cavabların tədqiq olunan əlamətin intensivliyinin azalması və yaxud çoxalması qaydasında rütbə üzrə bölüşdürülməsi daxildir.

*İnterval şkalası* – şkalanın öyrənilən sosial obyektin nizamlanmış təzahürləri arasındakı intervalların ballarda və yaxud ədədi qiymətlərdə ifadə olunmuş fərqi ilə müəyyən edilən tipidir.

Hər bir şkala simvollar (öyrənilən əlamətin indikatorları) arasında yalnız müəyyən əməliyyatlara və statistik xarakteristikaların yalnız konkret toplusunun hesablanmasına yol verir.

Şkaloqrammanın işlənilməsinin öz qaydası var: eksperimental qrup (təxminən 50 nəfər) seçilir və qrupa təklif edilir ki, kontinuumu əmələ gətirməsi güman edilən mühakimələr barədə öz rəylərini söyləsinlər. Şkala üzrə yüksək bal hər bir cavaba verilən qiymətlərin cəmləşdirilməsi yolu ilə müəyyən edilir. Eksperimental qrupun sorğusunun məlumatları matris şəklində elə yerləşdirilir ki, sorğu aparılmış adamları yüksək baldan aşağı bala doğru toplanılmış balların miqdarına görə düzmək mümkün olsun. "+" işarəsi qiymət verilən obyektə səmimi münasibəti, "-" işarəsi isə qeyri-səmimi münasibəti bildirir.

## *Təhlil və ümumiləşdirmə*

Kütləvi informasiyanı təhlil etməyin keyfiyyət və kəmiyyət növləri mövcuddur.

K e y f i y y ə t növlərinə aiddir:

- obyektin sabit invariant əlaqələrinin aşkara çıxarılmasına yönəldilmiş funksional təhlil;
- obyektlərin daxili elementlərinin və onları birləşdirmək üsulunun aşkara çıxarılması ilə bağlı olan struktur təhlil;
- obyektin tam halında öyrənilməsindən ibarət olan sistem təhlil.

İnformasiyanın k ə m i y y ə t (statistik) təhlili sosioloji tədqiqat nəticəsində əldə edilmiş məlumatların işlənilməsi, təsnifatlaşdırılması, modelləşdirilməsi və qiymətləndirilməsinin statistik metodlarının məcmusunu özündə birləşdirir.

Statistik təhlil metodları həll edilən vəzifələrin və istifadə olunan riyazi aparatın xarakterinə görə dörd əsas qrupa bölünür:

1) birölçülü statistik təhlil - sosioloji tədqiqatda ölçülmüş əlamətlərin empirik qaydada yerləşdirilməsini təhlil etməyə imkan verir. Bu halda əlamətlərin dispersiyaları və orta arifmetik qiymətləri seçilib



ayrılır;

2) əlamətlərin bir-birinə qoşulması və korrelyasiyasının təhlili - əlamətlər arasındakı cüt korrelyasiyaların hesablanması ilə bağlı olan kəmiyyət şkalalarında ölçülmüş statistik metodların məcmusundan və keyfiyyət əlamətləri üçün birləşdirilmə cədvəllərindən (aşağıda bax) istifadə edilməsini nəzərdə tutur;

3) statistik hipotezlərin yoxlanılması - adətən tədqiqatın məzmunlu nəticəsi ilə bağlı olan müəyyən statistik hipotezi təsdiq etməyə və yaxud təkzib etməyə imkan verir;

4) çoxölçülü statistik təhlil – tədqiq olunan obyektin ayrı-ayrı məzmun tərəflərinin onun çoxlu miqdar əlamətlərindən kəmiyyət asılılıqlarını təhlil etməyə imkan verir.

*Əlamətlərin birləşdirilməsi cədvəli* – iki və ya daha çox əlamətin onların bir-biri ilə birləşdirilməsi prinsipi üzrə qruplaşdırılması əsasında sosioloji tədqiqat obyektləri haqqında məlumatların təqdim edilməsi formasıdır. Bunu əyani olaraq yalnız ikiölçülü kəsiklərin toplusu şəklində təsəvvür etmək olar. Birləşdirmə cədvəli hər hansı bir əlamətin digər əlamətlərə təsirinin dərəcələr üzrə təhlilini aparmağa və iki əlamətin qarşılıqlı təsirinin vizual ekspress-təhlilini verməyə imkan verir. İki əlamətdən əmələ gəlmiş birləşmə cədvəlləri ikiölçülü cədvəllər adlanır. Bu cədvəllər üçün əlaqə ölçülərinin böyük bir miqdarı işlənib hazırlanıb; bunlar təhlil üçün daha münasibdir və çox dürüst, mənalı nəticələr verir. Əlamətlərin çoxölçülü birləşdirmə cədvəllərinin təhlili əsas etibarilə onu təşkil edən ikiölçülü marqinal cədvəllərin təhlilindən ibarətdir. Əlamətlərin birləşdirilməsi cədvəlləri mütləq və yaxud faiz nisbətlərində ifadə olunmuş əlamətlərin birgə görüşməsi tezlikləri haqqında məlumatlarla doldurulur.

Birləşdirmə (qoşalaşdırma) cədvəllərinin təhlili zamanı çıxarılan statistik nəticələrin iki əsas sinfi mövcuddur: əlamətlərin bir-birindən asılı olmaması haqqında hipotezin yoxlanılması və əlamətlər arasındakı əlaqə haqqında hipotezin yoxlanılması.

Statistik təhlil metodlarına daxildir:

- orta kəmiyyətlərin təhlili;
- variasiya (dispersiya) təhlili;

- əlamətin orta qiyməti ilə əlaqədar onun dəyişmələrinin öyrənilməsi;
- klaster (taksonomik) təhlil – informasiyanın qruplaşdırılması haqqında ilkin və yaxud ekspert məlumatlarının mövcud olmadığı halda əlamətlərin və obyektlərin təsnifatı;
- loqxətti təhlil – cədvəldə qarşılıqlı əlaqələrin axtarışı və qiymətləndirilməsi, cədvəl məlumatlarının yığcam təsviri;
- korrelyasiya təhlili – əlamətlər arasında asılılığın müəyyən edilməsi;
- faktor təhlili – əlamətlərin çoxölçülü statistik təhlili, əlamətlərin daxili qarşılıqlı əlaqələrinin müəyyən edilməsi;
- reqression təhlil – faktor-əlamətlərin dəyişmələrindən asılı olaraq nəticəli əlamətin qiymət dəyişmələrinin öyrənilməsi;
- latent təhlil - obyektin gizli əlamətlərinin aşkara çıxarılması;
- diskriminant təhlil - sosioloji tədqiqat obyektlərinin ekspert təsnifatının keyfiyyətinin qiymətləndirilməsi (bax: Tatarova, 2003).

* * *

Tədqiqat o zaman başa çatmış hesab olunur ki, nəticələr təqdim edilmiş olsun. Tədqiqatın məqsədinə uyğun olaraq bu nəticələr müxtəlif formalara malik olur: şifahi, yazılı, fotoşəkillərdən və səsdən istifadə edilməsi. bu nəticələr qısa və yığcam və yaxud geniş və ətraflı ola bilər; onlar mütəxəssislərin məhdud dairəsi və yaxud geniş əhali üçün tərtib oluna bilər.

Sosioloji tədqiqatın son mərhələsi yekun hesabatının hazırlanmasından və onun sonradan sifarişçiyə verilməsindən ibarətdir.

Hesabatın strukturu aparılmış tədqiqatın tipi ilə (nəzəri və yaxud tətbiqi tədqiqat olması ilə) müəyyən edilir və əsas anlayışların operasionallaşdırılmasının məntiqinə uyğun gəlir.

Əgər tədqiqat nəzəri xarakter daşıyırsa, onda hesabatda əsas diqqət problemin elmi qoyuluşuna, tədqiqatın metodoloji prinsiplərinin əsaslandırılmasına, anlayışların nəzəri izahına verilir. Sonra isə qəbul edilən seçmənin qurulmasının əsaslandırılması verilir – mütləq müstəqil bölmə formasında – alınmış nəticələrin konseptual təhlili həyata



keçirilir. hesabatın sonunda isə konkret yekunlar, mümkün olan praktik nəticələr və onların reallaşdırılması üsulları şərh olunur.

Tətbiqi tədqiqat haqqında hesabatda əsas diqqət praktika tərəfindən irəli sürülmüş və sifarişçi tərəfindən təklif edilmiş vəzifələrin həllinə verilir. Bu cür hesabatın strukturunda tədqiqat obyektinin və predmetinin, tədqiqatın vəzifələrinin təsviri, seçmənin əsaslandırılması zəruridir. Əsas vurğu praktik nəticələrin və tövsiyələrin formulə edilməsinə və onların həyata keçirilməsinin real imkanlarına yönəldilmişdir.

Hesabatda bölmələrin sayı bir qayda olaraq tədqiqat proqramında formulə edilmiş hipotezlərin sayına uyğun gəlir. İlk öncə başlıca hipotezə cavab verilir. Hesabatın birinci bölməsində öyrənilən sosioloji problemin aktuallığı qısaca əsaslandırılır, tədqiqatın parametrlərinin xarakteristikası verilir. İkinci bölmədə tədqiqat obyektinin sosial-demoqrafik xüsusiyyətləri təsvir edilir. Hesabatın sonrakı bölmələrinə proqramda irəli sürülmüş hipotezlərə verilən cavablar daxildir. Yekunda əsasında ümumi nəticələrin durduğu əməli tövsiyələr verilir. Hesabata labüd surətdə əlavə birləşdirilir ki, buraya da tədqiqatın bütün metodoloji və metodik sənədləri: statistik cədvəllər, diaqramlar, qrafiklər, instrumentarilər daxildir. Bunlardan yeni tədqiqat proqramının hazırlanması zamanı istifadə oluna bilər.

Sosioloji tədqiqatın nəticələrinin təhlili və ümumiləşdirilməsi sosial proses və hadisələrin mümkün variantlarını qabaqcadan xəbər verməyə imkan verir. Öncəgörmənin formalarından biri *sosial proqnozlaşdırmadır* – tədqiq olunan obyektin inkişaf perspektivlərinin və yaxud mümkün vəziyyətinin elmi tədqiqidir. Sosial proqnozlaşdırma cəmiyyətin həyat fəaliyyətinin bütün sahələrində həyata keçirilə bilər.

Sosioloji tədqiqatın aparılması - müxtəlif iş növləri ilə, elmi prosedur və əməliyyatlarla zəngin prosesdir, ona görə də sosioloq tədqiqatın etibarlı nəzəri əsasının qayğısına qalmalı, onun ümumi məntiqini düşünüb tapmalı, informasiyanın toplanılması üçün metodik sənədləri işləyib hazırlamalı, ictimai hadisə və proseslərin dərk edilməsinə, sosioloji məlumatların təhlilinə marağı və qabiliyyəti olan insanlardan tədqiqatçı qrupu formalaşdırmalıdır. Bütövlükdə sosioloji tədqiqat o zaman uğur qazanır ki, zəruri işlərin bütün həcminin irəli sürülmüş elmi tələblərə uyğun olaraq yerinə yetirilməsinə əminlik olsun.

Testlər

1. Empirik sosioloji tədqiqatın mərhələlərini söyləyin:
   a) ilkin mərhələ;  q) eksperimental mərhələ;
   b) problem-axtarış mərhələsi;  d) konstruktiv-praktik mərhələ.
   v) analitik mərhələ;

2. Tədqiqat proqramının əsas bölmələrini söyləyin:
   a) metodoloji;
   b) analitik;
   v) metodik.

3. Alınmış tədqiqat nəticələrinin interpretasiyasının növlərini söyləyin:
   a) nəzəri;  v) metodoloji;
   b) empirik;  q) operasional.

4. Sosioloji informasiyanın toplanılmasının metodları:
   a) müşahidə;  b) eksperiment;
   v) sorğu;  q) sənədlərin təhlili;
   d) ünsiyyət.

5. Klaster təhlili bundan ibarətdır:
   a) izahları əsasında obyektlərin təsnifatlaşdırılması metodu;
   b) obyektlərin təsnifatı metodu. Bu metod informasiyanın qruplaşdırılması haqqında ilkin və yaxud ekspert məlumatları olmadıqda təsnifatın üsullarını birləşdirir;
   v) cədvəldə qarşılıqlı əlaqələrin güc və etibarlılığının axtarılması və qiymətləndirilməsi metodu.

Cavablar:

**1** - b, v, q, d; **2** - a, v; **3** - a, b, q; **4** - a,. b, v, q; **5** - b.



# 3-cü FƏSİL. SOSİOLOGİYANIN MEYDANA GƏLMƏSİ VƏ İNKİŞAFI

## 3.1. O. Kontun sosiologiyası

Sosiologiya elm kimi XIX əsrdə meydana gəlmişdir. Onun banisi fransız alimi Oqyust Kontdur (1798 - 1857).

Tarixin hərəkətverici qüvvəsi kimi zəkanın imkanlarına, dini dünyagörüşünü əvəz etməyə və cəmiyyətin təşkiledici qüvvəsi olmağa qadir olan "pozitiv" elmə inanan Kont onu bəşəriyyətin mövcudluğunun bütün formalarının: dinin, siyasətin və s. mərkəzində qoymağa səy göstərmişdir.

Elmin metafizikadan və teologiyadan ayrılması, gələcəyin "elmi Bibliyası"nın yaradılması - Kontun pozitiv metodunun əsas ideyası belə idi.

"Pozitiv" terminınə Kont bir neçə məna vermişdir: 1) xəyali olanın əksinə olaraq real olan; 2) faydasız olanın əksinə olaraq faydalı olan; 3) şübhəli olanın əksinə olaraq səhih olan; 4) tutqun olanın əksinə olaraq dəqiq olan; 5) mənfi olanın əksinə olaraq müsbət olan. Bu halda həmin müsbət olan yeni fəlsəfənin mühüm xassələrindən birini nəzərə çatdırır. Konta görə bu fəlsəfə öz təbiəti etibarı ilə başlıca olaraq məhvetmə üçün deyil, təşkiletmə üçün təyin edilmişdir.

Alim sübut edirdi ki, tədqiqatçının çıxış etməli olduğu əsas və ilkin gerçəklik bütövlükdə götürülmüş cəmiyyətdir. O, məhz qlobal cəmiyyəti sosiologiyanın ümumi predmeti kimi nəzərdən keçirmişdir.

Kontun baxışlarında ictimai həyata sistem yanaşmanın rüşeymləri vardır. Məsələn, müstəqil elm kimi sosiologiyanın yaradılmasının əsasına o, "sosial sistem" ideyasını, yəni cəmiyyətin özünəməxsus orqanizm kimi, elementləri spesifik funksiyalar yerinə yetirən və yalnız bu sistemin tələblərinə xidmət göstərən müəyyən bütövlük kimi başa düşülməsi ideyasını qoymuşdur. Həmçinin dialektik yanaşma da Konta yad deyildir. Onun statikası və dinamikası cəmiyyətin hərəkətini, fəaliyyət və inkişaf qanunlarını öyrənir. Lakin Kont sosial elementlərin və strukturun real dialektikasını başa düşmürdü və sosial həyatın

elementlərini sadə, daimi və dəyişməz elementlər kimi, ictimai inkişafı isə eyni elementlərin müxtəlif kombinasiyalarının nəticəsi kimi nəzərdən keçirmişdir.

Kontun sosial dinamikasının guşə daşı olan üç mərhələ qanunu eyni zamanda həm tarixi, həm də məntiqi qanundur: bəşər ağlının inkişafının üç mərhələsi tarixin inkişafının üç mərhələsinə - teoloji, metafizik və pozitiv (elmi) mərhələlərinə uyğun gəlir.

Lakin Kont xalqların tarixi inkişafının konkret formalarının rəngarəngliyinin təhlilindən imtina etmişdir. Bu halda dəlil olaraq o, yalnız özünün quraşdırdığı sxemi təsdiq edən faktları gətirmişdir. Nəticə etibarı ilə onun ictimai inkişaf nəzəriyyəsi metafizik, nəzəri sxemdən artıq bir şey deyildi.

## 3.2. H. Spenserin sosiologiyası

Herbert Spenser (1820 - 1903) - ingilis filosofu və sosioloqu, pozitivizmin və elm kimi sosiologiyanın banilərindən biridir. O. Kontdan fərqli olaraq Spenser üzvi aləmin və sosial hadisələrin əlaqəsindən çıxış edirdi. Biologiya ilə sosiologiya arasında psixologiyanı yerləşdirərək, o belə güman edirdi ki, dünya ideyaların rəhbərlik etdiyi hisslərlə idarə olunur.

Təkamülçülük Spenserin dünyagörüşü konsepsiyasının mərkəzi anlayışıdır. Cəmiyyətlə təbiət arasında müxtəlif analogiyalar gətirməklə, sosial təkamülün üzvi xarakterini qeyd etməklə Spenser inqilabi yenidənqurmanı təbii ədaləti məhv edən fəaliyyət kimi rədd etmişdir. Tərəqqini Spenser universal hesab edirdi, onu insanın və cəmiyyətin təkmilləşdirilməsi prosesi kimi başa düşürdü, lakin sonralar o, "tərəqqi" anlayışına həddindən artıq antroposentrik bir hal kimi yanaşırdı, "təkamül qanununu" isə nəinki "həyatın yaxşılaşması" kimi, eyni zamanda tənəzzül elementlərinə malik proses kimi də nəzərdən keçirirdi. Spenserin ideal cəmiyyəti elə bir cəmiyyətdir ki, orada "sosial orqanizm" onu təşkil edən fərdlərə xidmət göstərir, "idarəetmə isə mümkün qədər daha az hüdudlara çatdırılacaq, azadlıq isə imkan daxilində daha böyük genişliyə nail olacaqdır".

Spenserə görə cəmiyyət iki əsas tipdən ibarətdir: hərbi (totalitar) cəmiyyətdən və sənaye (industrial) cəmiyyətindən. Hərbi cəmiyyətdə hakimiyyət iyerarxiyası ciddi surətdə determinə edilmişdir, fərd məcburi surətdə cəmiyyətə tabe edilmişdir, cəmiyyət özü isə güclü şəkildə mərkəzləşdirilmiş nəzarət altındadır. Sənaye cəmiyyətində sosial təşkilat daha çevikdir, siyasi azadlıqlar mövcuddur, hakimiyyət fərdlərin iradəsini ifadə edir. Bununla belə sənaye cəmiyyətində də hərbi cəmiyyətin ayrı-ayrı cəhətləri saxlanılır. Spenser tərəfindən sənayeyəqədərki və sənaye cəmiyyətlərinin bir-birindən fərqləndirilməsi sosiologiyada böyük rol oynamışdır və sosial inkişaf proseslərinin təsnifatlarının əksəriyyətinin əsasına qoyulmuşdur.



Spenserin təlimində dövlət nəzəriyyəsi mühüm yer tutur. Spenserə görə cəmiyyətin xarakteri fərdlərin xarakteri ilə müəyyən edilir. Sabit cəmiyyətdə "vətəndaşlar kütləsi" ideologiyası dövlət quruluşu tipinə uyğun gəlir. Buna əks halda təşkilatlar məcburi surətdə yaradılır və saxlanılır. Dövlətin mənası vətəndaşların mənafelərini qorumaqdan və təmin etməkdən ibarətdir. Doğrudur, dövlət öz hakimiyyətinin güc və ədalətinə hədsiz inamı təmin edə bilməz.

Spenser cəmiyyətin sosialist quruculuğuna qarşı kəskin şəkildə çıxış edir və belə güman edirdi ki, belə cəmiyyətdə köləlik, xüsusilə məcburi əmək formasında və nemətlərin ictimai mənafelərin öncəliyi nəzərə alınmaqla bölgüsü labüddür. "Şəxsiyyət dövlətə qarşı" əsərində Spenser yazırdı: sosializm "-nə vaxtsa dünyanın görmədiyi ən böyük bədbəxtlik olacaqdır, belə ki, despotizmin ən kəskin forması ilə başa çatacaqdır". Lakin Spenser sosial tərəqqinin və sosial təkamülün təntənəsinə inamı saxlayırdı.

Spenser sosiologiyasının əsas xarakteristikaları aşağıdakılardan ibarətdir:

- tarixi-müqayisəli metoddan və etnoqrafik məlumatlardan geniş istifadə edilməsi;
- cəmiyyətin orqanizm kimi şərh edilməsi;
- cəmiyyətin qanunauyğun təkamülünün qəbul edilməsi;

Bununla yanaşı nəzərə almaq lazımdır ki, cəmiyyətin orqanizmlə eyniləşdirilməsi yaşayış uğrunda mübarizə haqqında Darvin qanununun bütün bəşəriyyətə mexaniki olaraq şamil edilməsinə gətirib çıxardı.

## 3.3. E. Dürkheymin sosiologiyası

Emil Dürkheymin (1858 1917) elmi fəaliyyətinin nəzəri mənbələrini Maarifçilik ideyaları, xüsusilə Ş.L. Monteskyenin, J.A. Kondersenin, J.J. Russonun, həmçinin K.A. Sen-Simonun və O. Kontun ideyaları təşkil etmişdir.

Dürkheymin sosioloji konsepsiyalarında iki başlıca meyl müşahidə olunur: cəmiyyətin və təbiətin inkişaf qanunauyğunluqlarının analogiyasından çıxış edən naturalizm və sosial realizm – cəmiyyətin reallığın bütün digər növlərindən fərqli olan xüsusi növ reallıq kimi başa düşülməsi.

Dürkheym bəyan edirdi ki, cəmiyyət sosial reallığın elementlərinin – sosial faktların məcmusundan ibarətdir. Dürkheymə görə elə bu faktlar sosiologiyanın predmetini təşkil edir.

Dürkheym yazırdı: "Kəskin şəkildə müəyyən olan və ya müəyyən olmayan, lakin fərdə xarici təsir göstərə bilən... və eyni zamanda da özünün fərdi təzahürlərindən asılı olmayan öz xüsusi mövcudluğuna malik olan istənilən fəaliyyət obrazı sosial faktdır" (Dürkheym, 1991. S. 42.).

Sosial faktların nəzəri əsaslandırılmasına böyük əhəmiyyət verən Dürkheym sosioloji tədqiqat praktikasında iki təhlil metodunu tətbiq edirdi: səbəbiyyət və funksional metodları. Dürkheymə görə sosioloji izahetmə səbəb izahetməsidir ki, bunun da məğzi sosial hadisənin sosial mühitdən asılılığının təhlilindən ibarətdir.

Cəmiyyəti tədqiq edərkən Dürkheym fərdi və kollektiv şüuru bir-birindən ayırırdı: "Əgər qrupun üzvləri bir-birindən ayrılmış olduqları halda edə biləcəklərinə nisbətən o, tamamilə başqa cür düşünür, hiss edir və hərəkət edir. Deməli, əgər bu sonunculara əsaslanılsa, qrupda baş verənlərdən heç nə baş çıxara bilməyəcəyik".

Dürkheymin yaradıcılığında əsas kateqoriya sosial həmrəylikdir. Alim öz qarşısında aşağıdakı vəzifələri qoymuşdu:

1) əmək bölgüsünün funksiyalarını tədqiq etmək, yəni bu əmək bölgüsünün hansı sosial tələbata uyğun gəldiyini müəyyən etmək;

2) əmək bölgüsünün səbəblərini və bu əmək bölgüsünün asılı olduğu şəraiti aşkara çıxarmaq;

3) bu əmək bölgüsünün "qeyri-normal" formalarını təsnifatlaşdırmaq, belə ki, "burada biologiyada olduğu kimi, patoloji olan fizioloji olanı daha yaxşı başa düşməkdə bizə kömək edəcəkdir".

Dürkheym ehtimal edirdi ki, əmək bölgüsü nə qədər dərin olarsa, insanlar birlik və mübadiləyə bir o qədər daha çox səy göstərəcəklər. Bunun da hüquqi forması müqavilədir. İbtidai cəmiyyətlərdə mexaniki həmrəylik yer tutur. Burada "şəxsiyyəti kollektiv udur". Əmək bölgüsü – yüksək inkişaf etmiş cəmiyyətin əlamətidir. Əməyin ixtisaslaşması fərdləri bir-birini tamamlayan funksiyaları yerinə yetirməyə məcbur edir, qeyri-iradi olaraq onlar bir tam təşkil edirlər. İnkişaf etmiş



cəmiyyətdə həmrəylik – istehsalat rolları bölgüsünün təbii nəticəsidir. İctimai əmək bölgüsünə uyğun olaraq hər bir fərdin hər hansı bir xüsusi funksiyanı yerinə yetirdiyi inkişaf etmiş cəmiyyət müxtəlif orqanları olan orqanizmi xatırladır; buna görə də Dürkheym həmrəyliyin bu növünü üzvi həmrəylik adlandırırdı.

Dürkheym gələcək cəmiyyətdə xüsusi mülkiyyətin və bərabərsizliyin mövcudluğunu mümkün hesab edirdi; maddi nemətlərin əldə edilməsini isə fərdlərin təbii qabiliyyətlərinin tənzimlənməsi ilə, onların istedadı ilə əlaqələndirirdi. Dürkheymin baxışlarında bərabərlik, ədalət və azadlıq müasir sənaye cəmiyyətinin yaxınlaşmış olduğu yüksək ictimai təşkilat tipinin qurulmasının əsasında durur. Dürkheym gələcəyi kapitalizm cəmiyyətinin əsaslı şəkildə yenidən qurulmasında deyil, onun təkmilləşdirilməsində görürdü, buna görə də diqqəti hər şeydən əvvəl əxlaqi problemlər üzərində, ictimai münasibətlərin hüquqi və əxlaqi nizamlanmasının inkişafı üzərində cəmləşdirirdi.

Dürkheym intihar probleminin tədqiqinə ayrıca bir monoqrafiya həsr etmişdir (bax: Dürkheym, 1994). O, ictimai böhran problemini öyrənərkən qeyd edirdi ki, intihar "bizim kollektiv xəstəliyimizin ötürüldüyü formalardan biridir" və bu formanın öyrənilməsi onun mahiyyətinə gəlib çatmağa kömək edəcəkdir. İntiharın izahının əsasında Dürkheymin "sosiologizm" nəzəriyyəsi durur (sosial reallığın birinciliyinin qəbul edilməsi). Bu "sosiologizm" vasitəsilə bütün digər amillər, o cümlədən, suitsidə (intihara) fərdi meyllilik nəzərdən keçirilmişdir.

Dürkheym intiharın üç növünü fərqləndirirdi: eqoistik, altruist, anomiya növləri. İntiharın birinci növünü fərdin cəmiyyətdən ayrılmasını şərtləndirən səbəblər doğurur. İkinci halda fərdi mənafelər sosial mənafelər tərəfindən tamamilə udulmuşdur, qrupun inteqrasiyası o dərəcədə böyükdür ki, fərd müstəqil vahid kimi mövcudluğunu itirir. İntiharın üçüncü növü başlıca olaraq iri miqyaslı ictimai sarsıntılar, iqtisadi böhranlar zamanı, fərdin sosial dəyişikliklərə, yeni sosial tələblərə uyğunlaşmaq iqtidarında olmadığı, cəmiyyətlə əlaqəsini itirdiyi hallarda müşahidə olunur.

"İctimai əmək bölgüsü haqqında" əsərində Dürkheym anomiyanı cəmiyyətin inkişafının ictimai funksiyalarının uyğunsuzluğu ilə izah edirdi. "İntihar"da o, anomiyanı ictimai sarsıntılar zəminində fərdi tələbat və ehtirasların normativ tənzimlənməsi sisteminin pozulması ilə müşayiət olunan əxlaqi böhran kimi nəzərdən keçirmişdir. Bu isə şəxsiyyətin öz müvazinətini itirməsinə, qrupa məxsus olmaq, intizam və

ictimai həmrəylik hissinin itirilməsinə gətirib çıxarır ki, bunun nəticəsində də kənara çıxma, sapma davranışı formalaşır.

Konsepsiyanı "psixi həyatın yüksək forması", "şüurların şüuru" olmaq etibarı ilə kollektiv şüur haqqında ideya tamamlayır. Dürkheym belə nəticəyə gəlir ki, cəmiyyət tərəqqi etdikcə kollektiv şüurun məcburi xarakteri zəifləyir. Fövqəltəbiilik ideyası, Allah ideyası dinin zəruri atributu deyildir. İstisnasız olaraq bütün dini təlimlərin başlıca cəhətini Dürkheym bütün predmetlərin din tərəfindən müqəddəsləşdirilən bir-birinə əks iki sinfə: dünyəvi (adi, gündəlik, bayağı, natəmiz) və müqəddəs olanlara bölünməsində görür. Birincilər insanın hər günlük fərdi məşğuliyyətləri ilə, onun xüsusi maraqları ilə, "eqoist ehtirasları" ilə bağlıdır. İkincilər isə, birincisi, qadağa ilə, dünyəvi işlərdən ayrı düşməklə müşayiət olunur, ikincisi, səylərin, məhəbbət və hörmətin obyekti olub, eyni zamanda məcburiyyət və hörmət obyekti kimi xidmət göstərir. Dinə Dürkheym müqəddəs, yəni qadağan edilmiş şeylərə aid olan etiqad və ayinlərin – kilsə adlanan, ona əməl edən hər kəsi eyni bir əxlaqi icma halında birləşdirən etiqad və ayinlərin bütöv sistemi kimi tərif verir, yəni kilsə qrupun kollektiv dini həyatını qaydaya, sahmana salan təşkilatdır. .

Dürkheym dini əbədi adlandırır, belə ki insanın və cəmiyyətin münasibətlərinə ideoloji forma vermək zərurəti həmişə mövcuddur. Lakin o, Allahsız dini elan edir, cəmiyyəti ilahi kürsüyə qaldırır. Dürkheym ümumiyyətlə başa düşürdü ki, cəmiyyətin problemindən asılı bir şey kimi nəzərdən keçirdiyi insan fərdiyyəti problemi nəzəri cəhətdən həll edilməmiş olaraq qalır.

Marksizmi tənqid edərək Dürkheym onu vulqar iqtisadi determinizm ilə, ictimai hadisələrin iqtisadi amillərdən birxətli səbəbiyyət asılılığı ilə, ideyaların iqtisadi həyata əks təsirinin qəbul edilməməsi ilə eyniləşdirirdi. Lakin o, özü Marksın sosioloji konsepsiyasına yaxın olan ideyalar söyləmişdir. Məsələn, Dürkheym yazırdı ki, "sosial həyat bu həyatda iştirak edənlərin baxışları ilə deyil, daha dərin səbəblərlə izah olunmalıdır".

Dürkheym sosiologiyanın klassiki kimi tanınmışdır, onun Qərb sosiologiyasına təsiri hazırda hamı tərəfindən qəbul olunmuşdur, belə ki o, sosiologiya elminin bir çox əsaslı, fundamental problemlərini tədqiq etmişdir. "Sosiologizmin" ümumnəzəri müddəaları struktur funksionalizm məktəbinin prinsiplərinin əsasını təşkil etmişdir.



## 3.4. M. Veberin sosiologiyası

Maks Veber (1864 - 1920) – XIX əsrin sonu və XX əsrin əvvəllərinin daha böyük və məşhur sosioloqlarından biridir. Onun sosiologiyasının metodoloji prinsipləri həmin dövrün Qərb cəmiyyətşünaslığının nəzəri işləri ilə sıx bağlıdır.

Veber sosiologiyanın metodologiyasını işləyib hazırlayarkən özünün erkən işlərində onun imkanlarını inkar etmişdir:

- insan davranışının təbiətşünaslığın qanunları ilə müqayisə olunan universal qanunlarının kəşfində;
- bəşər cəmiyyətlərində təkamül tərəqqisinin təsdiqində;
- cəmiyyətdə mövcud olan və yaxud mümkün gələcək situasiyanın qiymətvermə baxımından və yaxud əxlaqi cəhətdən əsaslandırılmasında;
- əgər hansısa cəmləşdirici anlayışları fərdi hərəkət terminlərində ifadə etmək mümkün deyildirsə, həmin anlayışları işləyib hazırlamaqda.

Sosiologiyanın predmetini Veber sosial hərəkətin öyrənilməsi ilə əlaqələndirir. Veberin sözlərinə görə sosiologiya şəxsiyyətin davranışını yalnız ona görə nəzərdən keçirir ki, şəxsiyyət öz hərəkətlərinə müəyyən məna daxil edir. Sosial hərəkət adı altında Veber insan davranışını (fərqi yoxdur, xarici və yaxud daxili əməl olsun, əməlsizlik və ya məruzqalma olsun) başa düşür. Bu o halda olur ki, əgər hərəkət edən və ya hərəkət edənlər onunla müəyyən mənanı əlaqələndirmiş olsunlar. Lakin elə hərəkət sosial hərəkət adlandırılmalıdır ki, bu hərəkət "hərəkət edən və ya hərəkət edənlər tərəfindən nəzərdə tutulan öz mənasına görə başqalarının davranışına aid edilmişdir və bununla da özünün baş verməsində istiqamətləndirilmişdir". Veberə görə sosial hərəkət iki momenti nəzərdə tutur: fərdin və ya qrupun subyektiv motivasiyasını və Veberin hələ "gözləmə" adlandırdığı başqasına istiqamətləndirməni.

Veberin ideal tipi – onun istifadə etdiyi elmi anlayışların bütün sistemi üçün baza tipi – təbiətşünaslıqdakı ideal modelə yaxındır. Veber deyir ki, ideal tiplər adlanan fikri konstruksiyalara ola bilsin, yalnız mütləq boş məkan ehtimal olunduqda hesablanan fiziki reaksiyalar kimi həmçinin reallıqda az təsadüf edilir (bax: Veber, 1990). Veber ideal tipi "bizim fantaziyamızın məhsulu, özümüzün yaratdığımız xalis zehni qurum" adlandırır. Bununla da onun qeyri-empirik mənşəyə malik olduğunu nəzərə çatdırmışdır. "İqtisadi mübadilə", "sənət", "kapitalizm", "kilsə", "sekta", "xristianlıq", "orta əsr şəhər təsərrüfatı"

kimi anlayışlar fərdi tarixi qurumların təsviri üçün vasitələr kimi istifadə olunan ideal-tipik konstruksiyalardır.

İdeal tip – mahiyyət etibarı ilə hadisələrdən onların hamısı üçün ümumi olmasa da, heç olmasa bir çoxları üçün səciyyəvi olan nəyinsə ayrılmasıdır. İdeal tip anlayışını Veber elmi idrakın məqsədi deyil, yalnız vasitəsi kimi nəzərdən keçirir.

Veber başa düşən sosiologiyanın banisi hesab olunur. Veber belə güman edirdi ki, sosiologiya fərdin və yaxud fərdlər qrupunun hərəkətinə istiqamətləndirilməlidir. Bu halda ən aydın anlaşılan hərəkət düşünülmüş hərəkətdir, yəni: 1) hərəkət edən fərdin özü tərəfindən aydın başa düşülən məqsədlərin yerinə yetirilməsinə yönəldilmiş hərəkət; 2) bu məqsədlərə çatmaq üçün hərəkət edən fərdin özü tərəfindən adekvat kimi qəbul olunan vasitələrdən istifadə edən hərəkət.

Veber sosial hərəkətin dörd tipini fərqləndirir:

- müəyyən davranışın gözlənilməsinin nəzərə alınması ilə və bu gözlənilmənin rasional cəhətdən istiqamətləndirilmiş və tənzim olunan məqsədlər üçün "şərait" və yaxud "vasitə" kimi istifadə edilməsilə baş verən məqsədyönlü sosial hərəkət;
- hər hansı şübhəsiz dəyərə və yaxud hərəkətin özdəyərinə inamın əsasında baş verən dəyərlilik – rasional hərəkət;
- affektiv, yəni aktuallaşdırılmış affektlərlə və hisslərlə müşayiət olunan emosional hərəkət;
- vərdişə, ənənələrə əsaslanan ənənəvi hərəkət.

Alim belə hesab edirdi ki, sosioloqların vəzifələrinə iki birinci hərəkətin tədqiqi daxildir. Məqsədyönlü hərəkəti o, sosiologiya üçün metodoloji əsas kimi götürür, bununla da əsas reallıq olaraq sosial "totallıqlara" (məsələn, xalq, cəmiyyət, dövlət, iqtisadiyyat kimi) əl atan sosial nəzəriyyələrdən uzaqlaşır.

Veber mədəniyyət haqqında elmlərin ümumi əhəmiyyətə malik olması probleminə böyük əhəmiyyət verirdi. Müəyyən dərəcədə o, alman filosofu V. Dilteyin antinaturalizminə tərəf çıxırdı. O, bu inamda idi ki, insan fəaliyyətini öyrənərkən səma cisimlərinin hərəkətini öyrənən astronomun əsaslandığı eyni metodoloji prinsiplərdən çıxış etmək olmaz. Özünün metodoloji tədqiqatlarında Veber mahiyyət etibarı ilə tarix elminin antinaturalist əsaslandırılmasının yenikantçı variantını əsas götürür. Bu varianta görə tarix elmi qiymətləndirmə düşüncələrindən azad olmalıdır.

"Protestant etikası və kapitalizm ruhu" əsərində Veber mədəni dəyişikliklərin protestantizm ilə əlaqəsini nəzərdən keçirir, Qərb cəmiyyətinin rasionalizminin mənbələrini tədqiq edir (bax: Yenə orada).



## 3.5. K. Marksın sosiologiyası

Karl Marks (1818 – 1883) – XIX əsrin ən məşhur və nüfuzlu sosial mütəfəkkirlərindən biridir. Müəllifin hələ sağlığı zamanı marksizm təlimi meydana gəlmiş və müstəqil inkişaf etməyə başlamışdır. Bu təlimin mənbəyə yaxınlıq dərəcəsini və onun izahının həqiqiliyini müəyyən etmək mürəkkəbdir.

Marksın əsərlərində fəlsəfi antropologiyaya, insan və cəmiyyət probleminə mühüm diqqət yetirilmişdir. Marksa görə insan hər şeydən əvvəl istehsal edən insandır, onun heyvandan başlıca fərqi bundadır. Məhsuldar qüvvələr inkişaf etdikcə insanın, özünün yaratmış olduğu mahiyyətlərdən uzaq düşməsi baş verir. Marks şəxsiyyəti sosial-tarixi inkişafın çıxış nöqtəsi kimi deyil, nəticəsi kimi nəzərdən keçirir.

Marksın təliminin çıxış müddəası tarixin materialist anlayışı və tarixin izahıdır. "Siyasi iqtisadın tənqidinə dair" əsərinin müqəddiməsində Marks yazırdı: "Öz həyatlarının ictimai istehsalında insanlar onların şüurundan asılı olmayan müəyyən, zəruri münasibətlərə – onların maddi məhsuldar qüvvələrinin müəyyən pilləsinə uyğun gələn istehsal münasibətlərinə daxil olurlar. Bu istehsal münasibətlərinin məcmusu cəmiyyətin iqtisadi strukturunu, real bazisi təşkil edir ki, onun üzərində yuridik və siyasi üstqurum yüksəlir və bu bazisə ictimai şüurun müəyyən formaları uyğun gəlir. Maddi həyatın istehsal üsulu ümumiyyətlə həyatın sosial-siyasi və mənəvi proseslərini şərtləndirir. İnsanların varlığını onların şüuru deyil, əksinə, insanların ictimai varlığı onların şüurunu təyin edir".[1]

Marks birincilər sırasında birinci olaraq cəmiyyətin bütöv bir sistem olması haqqında təsəvvürü işləyib hazırlamışdır. Bu nəzəriyyədə *ictimai-iqtisadi* formasiya – bir-biri ilə qarşılıqlı əlaqədə olan elementlərdən ibarət və qeyri-sabit tarazlıq vəziyyətinə malik sosial sistem haqqında təlim əsaslı yer tutur. İctimai-iqtisadi formasiyalar ümumdünya tarixinin ardıcıl olaraq bir-birini əvəz edən dövrlərinə uyğun gəlir. Marks beş əsas formasiyanı: quldarlıq, feodal, kapitalizm və kommunizm formasiyalarını fərqləndirir. Marks həmçinin Asiya istehsal

[1] Маркс К., Энгельс Ф. Соч. Т. 13. С. 67.

üsulunu ayrıca xatırladır.

Marksa görə sosial inkişaf müəyyən qanunlara uyğun olaraq baş verir. Bu qanunlar dedikdə o, "hadisələr arasındakı daxili və zəruri əlaqəni" başa düşürdü (Вах: Маркс, Энгельс. т.25.Ч. 1,2).

Marks bəşəriyyətin inkişafının əsasında duran universal və dəyişməz tarixi qanunların mövcudluğuna inanırdı. O, hesab edirdi ki, ziddiyyətlər, əksliklərin mübarizəsi inkişafın hərəkətverici qüvvəsinin mənbəyidir. Abstraktdan konkretə yüksəlmə Marksda ümumelmi idrak metodu kimi nəzərdən keçirilmişdir.

Marksda sosial inkişaf nəzəriyyəsi sosial inqilablar nəzəriyyəsi kimi özünü göstərir. Sosial inqilabı o, labüd və hətta arzuolunan hesab edirdi, belə ki, sosial inqilab nəinki daha az mütərəqqi olan ictimai-iqtisadi formasiyadan daha çox mütərəqqi olan ictimai-iqtisadi formasiyaya keçidi, nəinki sadəcə olaraq ictimai münasibətlərin dərindən keyfiyyətcə dəyişməsini təmin etməlidir, eyni zamanda bu dəyişmənin spesifik üsulunu – sosial münasibətlərdə sürətli, kəskin, münaqişəli irəliləyişi təmin etməlidir.

Siniflər və sinfi mübarizə nəzəriyyəsi Marksın təlimində mərkəzi yer tutur. Öz əsərlərində o, sinfə tərif vermir, lakin onun əsərləri əsasında tərtib olunmuş belə bir tərif mövcuddur. Marksa görə siniflər – qeyri-bərabər vəziyyətdə olan və öz aralarında mübarizə aparan sosial qruplardır, daha dar mənada siniflər – mülkiyyətə, hər şeydən əvvəl istehsal vasitələrinə münasibətlərinə görə bir-birindən fərqlənən sosial qruplardır.

Proletariat və burjuaziyanı Marks antaqonist siniflər kimi, sinfi mübarizəni isə cəmiyyətin inkişafının hərəkətverici qüvvəsi kimi nəzərdən keçirmişdir, bəşəriyyətin perspektivini o, sinfi bölgünün mövcud olmayacağı kommunizm formasiyasında görürdü.

## 3.6. M.M. Kovalevskinin sosiologiyası

Rusiya mütəfəkkiri Maksim Maksimoviç Kovalevskinin (1851 - 1916) sosioloq kimi təşəkkülünə O. Kontun, H. Spenserin əsərləri və hüquqşünaslıqda müqayisəli-tarixi metodun nailiyyətləri böyük təsir göstərmişdir.

Sosiologiyanın bəşər cəmiyyətinin nizamı və tərəqqisi haqqında elm olması haqqında Kontun baxışlarına tərəfdar çıxan Kovalevski ehtimal edirdi ki, bəşər cəmiyyətlərinin nizamı və tərəqqisindən daha



çox onların təşkili və təkamülü haqqında danışmaq lazımdır: bu halda sosiologiyanın iki əsas bölməsini – statika və dinamikanı saxlamaq zəruridir.

Kovalevski mərkəzində həmrəylik və tərəqqi təliminin durduğu orijinal sosioloji nəzəriyyənin yaradıcısıdır. Bəşəriyyətin tərəqqi yolu ilə inkişafını o, həmrəyliyin artması ilə, siniflərin, xalqların, dövlətlərin yaxınlaşması ilə əlaqələndirirdi. Tərəqqinin mənbəyi kimi inqilaba o, mənfi yanaşırdı. Kovalevskiyə görə tərəqqi ideyası olmadan sosiologiyanın özü də müstəqil elm kimi mövcud ola bilməz, belə ki, tərəqqi cəmiyyətin inkişafının əsas qanunlarından biridir.

Rusiyada birincilər sırasında Kovalevski müqayisəli-tarixi metodun sosial hadisələrin tədqiqinə tətbiqi məsələsini əsaslandırmışdır. Ümumsosioloji nəzəriyyənin və müqayisəli-tarixi metodun nisbəti məsələsi "Müqayisəli-tarixi hüquqşünaslıq və onun sosiologiyaya münasibəti. Hüququn öyrənilməsi metodları" (1899) əsərində xüsusi olaraq araşdırılmışdır.

Elmi fikrin inkişafı üçün Kovalevskinin özünəməxsus təkamül inkişafı nəzəriyyəsi kimi çıxış edən genetik sosiologiyasının xüsusi əhəmiyyəti olmuşdur. Genetik sosiologiya çərçivəsində o, sosial təkamülü, onun mərhələlərini və fazalarını tədqiq edir, qədim dövrlərdən başlayaraq ictimai institutların, dövlətçiliyin, sosial quruluşun genezisini müəyyənləşdirməyə çalışır.

Kovalevski cəmiyyəti qeyri-adi şəkildə mürəkkəb və çoxtərəfli qurum kimi nəzərdən keçirir. Bu qurumu öyrənmək və izah etmək yalnız bu təkamülə cavabdeh olan çoxsaylı amillərin bütün məcmusunun köməyi ilə mümkündür. Məhz buna görə də Kovalevskinin sosiologiyasını plyuralistik sosiologiya adlandırırlar.

## 3.7. P. Sorokinin sosiologiyası

Pitirim Sorokin (1889 - 1968) – görkəmli rus-amerikan sosioloqudur. Onun fundamental əsəri "Sosiologiyanın sistemi", dördcildlik "Sosial və mədəni dinamika" və bir çox digər işləri dünya sosiologiyasının inkişafında misilsiz rol oynamışdır. Sorokin inteqral sosiologiya problemini dəqiq surətdə irəli sürmüş, insanların şəxsiyyətlərarası qarşılıqlı əlaqə formalarını, onlar arasındakı biopsixoloji fərqləri, sosial nəzarət mexanizmlərini, sosiumun sinfi, qrup, ərazi, dil, mədəni, peşə, yaş strukturlarını və digər strukturlarını, sosial prosesləri və

dəyişiklikləri tədqiq etmişdir. Sosiomədəni supersistem anlayışından istifadə edən Sorokin onun üç tipini fərqləndirmişdir: rasional, hissi və ideasional tiplər. Bunlardan da hər biri inkişafda olaraq müxtəlif tarixi dövrlərdə bəşər cəmiyyətinə xasdır.

Sorokin hesab edirdi ki, cəmiyyətdə bütün Kainat üçün ümumi olan qanunlar fəaliyyət göstərir, çünki cəmiyyət təbiətin bir hissəsidir, insan zəkası isə kosmik enerjinin ən mükəmməl formasıdır. Sosiologiyanın vəzifəsini o, cəmiyyətin mövcudluğunu təmin edən münasibətlərin və əlaqələrin, asılılıqların təhlilində görürdü: "Sosiologiya, bir tərəfdən, insanların bir-biri ilə qarşılıqlı təsir hadisələrini, digər tərəfdən, bu qarşılıqlı təsir prosesindən yaranan hadisələri öyrənir" (Sorokin, 1991, Ч.1. С. 4).

Sorokin sosiologiyanın strukturunda nəzəri və əməli sosiologiyanı bir-birindən fərqləndirirdi. Nəzəri sosiologiya sosial analitikaya (sosial hadisənin və onun əsas formalarının strukturunu, quruluşunu öyrənir), sosial mexanikaya (insanların qarşılıqlı təsir proseslərini, onların davranışını və hərəkətverici qüvvələrini tədqiq edir) və sosial genetikaya və yaxud genetik sosiologiyaya (məkan və zaman daxilində sosial həyatın inkişafının tarixi meyllərini formulə edir) ayrılır.

Əhalinin öyrənilməsi sahəsində sosial tədqiqatlara Sorokin böyük diqqət yetirirdi. O, cəmiyyəti yayılaraq ayrı-ayrı təbəqələr (stratalar) əmələ gətirən slyudanın bir parçası ilə müqayisə edir. Alim bu nəticəyə gəlir ki, vahid cəmiyyət mövcud ola bilməz. Cəmiyyətlərdən hər birinin real olaraq özünün sosial stratifikasiyası vardır. "Sinif" anlayışının sosioloji mənasını inkar edən Sorokin özünün elementar və kumulyativ sosial qruplar anlayışlarını ona qarşı qoyurdu.

Sorokin həmçinin qapalı, açıq və aralıq qrupları bir-birindən fərqləndirirdi. "Mədəni cəhətdən inkişaf etmiş" ölkələr üçün o, həmçinin irqi, cinsi, yaş, ailə, dövlət, dil, peşə, əmlak, hüquq, ərazi, dini, partiya, ideoloji kimi sosial-qrup strukturlarını təklif etmişdir. Bu struktur sosioloqların bütün dünyada bu günlərimizə qədər istifadə etdikləri sosial stratifikasiya nəzəriyyəsinin əsasını təşkil etmişdir.

Sosial mobillik nəzəriyyəsi (əhalinin yenidən qruplaşdırılması nəzəriyyəsi) həmçinin indiyə qədər öz əhəmiyyətini itirməmişdir.

Sorokin sosial mobilliyi istiqamətinə görə (şaquli və üfiqi mobillik), formasına görə fərdi və kollektiv mobillik və intensivliyinə görə fərqləndirir. O, yenidən qruplaşdırmaların üç tipini fərqləndirmişdir: fərdlərin müəyyən qruplardan digər qruplara keçməklə



yerdəyişməsi, müəyyən homogen (həmcins) qrupların meydana gəlməsi və digər qrupların yoxa çıxması, bütöv bir aqreqatın qeyb olması və onun yeni qruplaşma ilə əvəz edilməsi.

Alim iztirablarla, müharibələrlə, əxlaqi axtarışlarla bağlı olan etik xarakter probleminə böyük diqqət yetirmişdir.

### 3.8. T. Parsonsun sosiologiyası

Tolkott Parsons (1902 – 1979) – amerikan sosioloqu, ümumi fərdi hərəkət nəzəriyyəsinin və dünya sosiologiyasına böyük təsir göstərmiş sosial sistemlər nəzəriyyəsinin müəllifidir. Sosiologiyanın mərkəzi vəzifəsini o, cəmiyyətin funksional cəhətdən bir-biri ilə bağlı olan dəyişənlərin sistemi kimi təhlilində görürdü. Sistem təkrar olunan və bir-biri ilə qarşılıqlı əlaqədə olan sosial hərəkətlərin hər hansı sabit kompleksi kimi başa düşülür. Parsons istənilən sosial sistemin funksional təhlili qaydalarını işləyib hazırlamağa və bütün sosial sistemlərin "funksional ilkin şərtləri" üçün zəruri şərtlərin məcmusunu müəyyənləşdirməyə çalışırdı. Parsonsa görə hər bir sosial sistem insanın fiziki tələbatını bu tərzdə ödəməlidir ki, o, sağ qala bilsin, həmçinin maddi ehtiyatların bölgüsünün müəyyən vasitələrinə malik ola bilsin. Sosial sistem fəaliyyət növlərinin müəyyən təşkilinə və institusional vasitələrə malik olmalıdır.

Parsonsun əsərlərində iki proseslə: sosial sistemin özünü saxlamaq meyli və mühitə münasibətdə müəyyən sərhədlərin və daimiliyin saxlanılması meyli (homeostatik müvazinət) ilə müəyyən edilən sosial qayda problemi xüsusi yer tutur.

Parsons sosial hərəkət nəzəriyyəsini işləyib hazırlayarkən sosial hərəkət, qarşılıqlı təsir və sosial sistem haqqında təsəvvürlərin sintezini yaratmışdır. O, hərəkətin elementləri və motivasiyalarının üç sinfini fərqləndirmişdir: koqnitiv (məqsədə çatılmasına aid olan obyektlər haqqında ideyalar və informasiya), katektik (xadimin tələbatı ilə bağlı olaraq məqsədəçatma obyektlərinə emosional münasibət) və qiymətləndirmə (seçmə alternativləri) siniflər. Hərəkət elementləri qarşılıqlı təsir prosesi vasitəsilə sosial elementlərə çevrilirlər.

Geniş sistemlərdə sosial qarşılıqlı təsirlərin təbiətini həm hərəkətin və həm də qarşılıqlı səmtləşmənin subyektləri kimi çıxış edən "eqo" və "alter"in diadik qarşılıqlı təsiri xarakterizə edir. Bütövlükdə bu münasibətlər qarşılıqlı hərəkətlərdən normativ şəkildə razılaşdırılmış

gözləmələrin çoxluğundan ibarətdir, cəmiyyət isə sosial statusların və rolların məcmusudur. Parsonsa görə uzunmüddətli sosial qarşılıqlı təsir sosial sistemin daxili uyğunluğuna (funksional inteqrasiyasına) gətirib çıxarır.

Parsonsa görə istənilən sosial sistem aşağıdakı şərtlərə cavab verməlidir:

- özlərinin maddi (təbii) və insani ehtiyatlarının rasional təşkilinə və bölgüsünə;
- əsas məqsədlərin müəyyən edilməsinə və onlara nail olunması prosesinin (məqsədə səmtləşmə problemi) müdafiə edilməsinə;
- həmrəyliyin, inteqrasiyanın saxlanılmasına;
- rollar icra olunarkən xadimlərin motivasiyalarının müdafiə edilməsinə və şəxsiyyət motivasiyası sistemində gizli gərginliklərin aradan qaldırılmasına.

Testlər

1. O. Kont "pozitiv" terminınə mənalar vermişdir:
   a) real; d) ziyanlı;
   b) müsbət; e) dəqiq;
   v) faydalı; j) zəruri.
   q) səhih;

2. E. Dürkheymin sosiologiyasına xasdır:
   a) naturalizm; b) sosial realizm; v) təkamülçülük.

3. E. Dürkheymin yaradıcılığında əsas diqqət bu problemlər üzərində cəmləşmişdir:
   a) münaqişə; v) həmrəylik;
   b) əməkdaşlıq; q) intihar.

4. M. Veber fəaliyyətin aşağıdakı növlərini fərqləndirmişdir:
   a) dəyərlilik; q) qiymətlilik-rasional;
   b) məqsədli-rasional; d) affektiv;
   v) məqsədli; e) ənənəvi.



5. Dialektik materializm metodunu inkişaf etdirmişdir:
   a) M. Veber; b) R. Merton; v) K. Marks.

6. M. Kovalevskinin inkişaf etdirdiyi əsas ideyaları sadalayın:
   a) ümumdünya-tarixi müqayisələr ideyası;
   b) inqilab ideyası;
   v) təkamül ideyası.

7. "Sosial və mədəni dinamika" əsərinin müəllifi:
   a) M. Kovalevski; b) P. Sorokin; v) M. Veber.

8. Vahid cəmiyyətin mövcud ola bilməyəcəyini söyləyən sosioloqun adını çəkin:
   a) M. Kovalevski; b) P. Sorokin; v) T. Parsons.

9. T. Parsons –
   a) amerikan sosioloqudur;
   b) alman sosioloqudur;
   v) rus sosioloqudur.

10. T. Parsonsun sosiologiyasında əsas diqqət yetirilmişdir:
   a) təkamülçülüyə;
   b) konfliktologiyaya;
   v) struktur-funksional təhlilə.

Cavablar

**1** - a, b, v, q, e; **2** - a, b; **3** - v, q; **4** - b, q, d, e; **5** - v; **6** - a, v; **7** - b; **8** - b; **9** - a; **10** - v.

Seminarlarda və "dəyirmi masa"larda müzakirə olunmaq üçün mövzular:

1. Sosiologiya elm kimi.
2. Rus və Qərb sosiologiyası: ümumi və xüsusi cəhətlər.
3. Klassik Qərb sosiologiyası.
4. Sosioloji tədqiqat proqramı (tərtib olunması və müzakirəsi).
5. Rusiyada sosiologiyanın inkişafı: tarix və müasirlik.

## II BÖLMƏ
## MƏDƏNİYYƏT VƏ CƏMİYYƏT

# 1-ci FƏSİL. MƏDƏNİYYƏT ANLAYIŞI VƏ MƏDƏNİYYƏTİN STRUKTUR-FUNKSİONAL XARAKTERİSTİKALARI

### 1.1. Mədəniyyət anlayışı

"Kultura" termini (*latın.* cultura - torpağın becərilməsi, işlənilməsi, təkmilləşdirilməsi) insanın onu öz tələbatına xidmət göstərməyə tabe etmək səyini göstərir. Bu termində aqrikultura adlanan şey öz əksini tapmışdır. Bu anlayışın tədricən məcazi mənası meydana gəlib. Burada isə ön plana aşağıdakı məna çıxır: yenidən dəyişdirmək, qayğı göstərmək, qoruyub saxlamaq, aşağıdakı mənada tərbiyə etmək: "insanı yetişdirmək". İndi "kultura" anlayışı aşağıda göstəriləni bildirir: təhsilin köməyilə və insanın mənəvi həyatının qayğısına qalmaqla insanın qabiliyyət və bacarıqlarını inkişaf etdirmək və təkmilləşdirmək.

Mədəni norma və yaxud dəyər bir neçə inkişaf mərhələsindən keçməlidir:

1) artım, böyümə mərhələsi - mövcud mədəni nümunənin, onun hər hansı bir qrupda və yaxud cəmiyyətdə yayılmaq dərəcəsinin əhəmiyyəti dəyişir;

2) mədəni nümunənin elə bir müəyyən həddə çatmasıdır ki, həmin həddin arxasında o, xarici mühitlə və özünün artım mərhələsi ərzində güclənən ziddiyyətlər üzündən meydana gələn öz daxili məzmunu ilə münaqişəyə girir;

3) cırlaşma mərhələsi bu mərhələdə mədəni nümunə ziddiyyətlərin təsiri altında yeni keyfiyyət halına keçir: köhnə məzmun tamam məhv edilmir, öz əksliyinin yeni mədəni nümunənin əsasına çevrilir.

Sosiologiyada mədəniyyət sosial sistem və şəxsiyyətlə yanaşı çıxış anlayışı kimi nəzərdən keçirilir. Lakin mədəniyyətin vahid anlamının olmaması onun tərifi ilə əlaqədar çoxlu sayda çətinliklər doğurmuşdur. Elmi fəaliyyətin müxtəlif sahələrində bu sosial hadisəyə 300-dən artıq tərif verilmişdir. Həmin tariflərin müəllifləri həmin sosial hadisənin



bütün fəaliyyət sahəsini əhatə etməyə çalışırlar. İngilis etnoqrafı E. Taylorun verdiyi tərif daha uğurlu görünür: "Mədəniyyət .. cəmiyyətin üzvü olaraq insan tərəfindən əldə edilən və nail olunan bilikləri, etiqadları, incəsənəti, əxlaqı, qanunları, adətləri, digər qabiliyyət və vərdişləri özündə birləşdirən müəyyən mürəkkəb tamdır"[1]. Əgər binalar, incəsənət əsərləri, kitablar, mədəni predmetlər və gündəlik məişət predmetləri şəklində bizi əhatə edən maddiləşdirilmiş bilikləri, etiqad və bacarıqları buraya əlavə etmiş olsaq, onda aydın olar ki, mədəniyyət "cəmiyyətin üzvləri tərəfindən istehsal olunan, sosial cəhətdən mənimsənilən və bölüşdürülən hər şeydir"[2].

Amerikan antropoloqları A. Kreber və K. Klakxon "Mədəniyyət. Konsepsiyaların və definisiyaların tənqidi icmalı" əsərində (1941) mədəniyyətə verilmiş bütün tərifləri beş tipə bölmüşlər:

1) təsviri təriflər - Taylora görə "mədəniyyət və yaxud sivilizasiya geniş etnoqrafik mənada bütövlükdə biliklərin, etiqadların, incəsənətin, mənəviyyatın, qanunların, adətlərin və cəmiyyətin üzvü olaraq insan tərəfindən mənimsənilmiş bir sıra digər bacarıq və vərdişlərin cəmidir"[3];

2) tarixi təriflər - nümunə olaraq məşhur linqvist E. Sepirin verdiyi tərifi göstərək. O, mədəniyyət dedikdə "bizim həyatımızın özəyini təşkil edən fəaliyyət üsullarının və əqidələrin sosial cəhətdən irs olaraq qəbul olunmuş kompleksini"[4] başa düşürdü.

3) normativ təriflər - iki qrupa bölünür. Birinci qrupa həyat tərzi ideyasına istiqamətləndirilən təriflər daxildir (məsələn, antropoloq K. Uisler aşağıdakı tərifi verir:"... icmanın və yaxud tayfanın əməl etdiyi həyat tərzi mədəniyyət hesab olunur... Tayfanın mədəniyyəti tayfanın riayət etdiyi etiqad və praktikaların standartlaşdırılmış məcmusudur"[5]; ikinci qrup ideallar və dəyərlər haqqında təsəvvürlərə istiqamətləndirilmiş təriflərdir (məsələn, filosof T. Karverin verdiyi tərif: "Mədəniyyət -- insanın artıq enerjisinin onun ali qabiliyyətlərinin daimi reallaşması zamanı üzə çıxmasıdır"; və yaxud sosioloq U. Tomasın verdiyi tərif: "Mədəniyyət ... söhbətin vəhşi insanlardan və yaxud sivilizasiyalı insanlardan getməsindən asılı olmayaraq istənilən

---

[1] *Тайлор* Э. Первобытная культура. М., 1989. С.81.
[2] Yenə orada.
[3] Yenə orada.
[4] *Sapir* E. Language. N.Y., 1921. P.221.
[5] *Wissler* C. An introduction to the social anthropology. N. Y. 1929. P.15.

insanlar qrupunun maddi və sosial dəyərləridir (institutlar, adətlər, ustanovkalar davranış reaksiyalarıdır)";

4) psixoloji təriflər – mədəniyyət öyrənilmiş davranışın sosioloji ifadəsi kimi başa düşülür (antropoloq R. Benediktə görə eşşək arılarında və yaxud qarışqalarda olduğu kimi "öyrənilmiş davranış insana anadangəlmə verilməmiş olan, onun rüşeym hüceyrələrində qabaqcadan müəyyən edilməmiş olan, yaşlı insanlardan öyrənmək yolu ilə hər bir yeni nəsl tərəfindən yenidən mənimsənilən davranışdır".[1] "Mədəniyyət – qrup, birlik və yaxud cəmiyyət üçün ümumi olan vərdiş olunmuş davranış formalarıdır. Mədəniyyət maddi və yaxud maddi olmayan elementlərdən ibarətdir" (sosioloq K. Yanq);

5) struktur təriflər – "a) ... mədəniyyətlər – cəmiyyət üzvlərinin təşkil olunmuş təkrar olunan reaksiyalarından başqa bir şey deyildir; b) mədəniyyət – komponentləri hazırkı cəmiyyətin üzvləri tərəfindən bölüşdürülən və irsi olaraq ötürülən öyrənilmiş davranışın və davranış nəticələrinin birləşdirilməsidir" (antropoloq R. Linton)[2];

6) genetik təriflər – "mədəniyyət – fenomenlərin xüsusi sırası və yaxud sinfinin məhz: bəşər növü üçün spesifik olan, "simvolizasiya" adlandırdığımız zehni qabiliyyətin reallaşdırılmasından asılı olan şeylərin və hadisələrin adıdır. Daha dəqiq deyilsə, mədəniyyət maddi obyektlərdən – alətlərdən, uyğunlaşdırılmış şeylərdən, naxışlardan, həmayillərdən və s.-dən, həmçinin simvollaşdırma kontekstində fəaliyyət göstərən hərəkətlərdən, etiqadlardan və ustanovkalardan ibarətdir. Bu, yaşayış uğrunda və yaxud sağ qalmaq uğrunda mübarizədə insanın istifadə etdiyi incə... mexanizmdir" (sosioloq L. Uayt).[3]

P. Sorokin mədəniyyətə bir-biri ilə qarşılıqlı təsirdə olan və yaxud bir-birinin davranışını şərtləndirən fərdlərin şüurlu və yaxud şüursuz fəallığı ilə yaradılmış və dəyişikliyə uğradılmış nə varsa, hamısının ümumi məcmusu kimi tərif vermişdir. Bu definisiyaya uyğun olaraq elm, incəsənət, din, fəlsəfə, texnika mədəniyyətin hissəsidir.[4]

Şübhəsiz ki, yuxarıda gətirilmiş bütün təriflərin müəllifləri bununla razıdırlar ki, mədəniyyət – bəşər cəmiyyətinin xarakteristikasıdır, özü də bioloji cəhətdən irsən qəbul olunmayan, təlimlə bağlı olan

[1] *Benedict R.* Race, science and politics. N. Y., 1947. P. 13.
[2] *Linton R.* The cultural background of personality. N. Y. 1945. R. 5, 32.
[3] *White L.* Ethnological theory. N.Y., 1949. P.363.
[4] Bax: *Сорокин П.* Социальная и культурная динамика. М., 2000, т.1. С.3.



xarakteristikasıdır. "Mədəniyyət o şeydir ki, o, insanı heyvandan ayırır. Mədəniyyət – bəşər cəmiyyətinin xarakteristikasıdır... mədəniyyət bioloji şəkildə irsən keçmir, lakin təlimi nəzərdə tutur, ... mədəniyyət mövcud olan və simvolik şəkildə ötürülən ideyalarla birbaşa bağlıdır (dilin vasitəsilə)" (İonin, 1996. S. 47).

Mədəniyyətə sosioloji yanaşma onun insanın, sosial qrupların davranışının tənzimlənməsilə, bütövlükdə cəmiyyətin fəaliyyəti və inkişafı ilə bilavasitə əlaqəsinə əsaslanır. Burada mədəniyyətin dəyərlilik - normativ məzmununa, onun sosial roluna xüsusi əhəmiyyət verilir. Alman filosofu və sosioloqu, 1917-ci ildə "mədəniyyətin sosiologiyası" terminini sosiologiya elminə gətirmiş və terminin müəllifi olan A. Veber qeyd edirdi ki, mədəniyyətin sosiologiyası bütün tarixi hadisələrin vəhdətini dərk edir, mədəniyyəti digər sosial hadisələrlə qarşılıqlı əlaqədə nəzərdən keçirir.

Mədəniyyətin sosiologiyasının predmeti dedikdə Veber mədəni dəyərlərin və normaların təşəkkülünün və fəaliyyətinin sosial amillərinin, onların cəmiyyətə və insanın sosial davranışına təsirinin öyrənilməsini başa düşürdü.[1]

Mədəniyyətin müasir anlamı çox cəhətdən sistem-struktur funksionalizm təsəvvürləri ilə müəyyən edilir. T. Parsons mədəniyyətdə "nisbətən sabit simvolik sistemlərin" mövcud olduğuna görə mədəniyyətin sosial sistemlərin iyerarxiyasında yüksək mövqe tutduğunu bəyan etməklə mədəniyyəti bir-biri ilə bağlı üç aspektdə nəzərdən keçirirdi: birincisi, mədəniyyət mirasdan və sosial ənənədən ibarətdir; ikincisi, mədəniyyət insanın genetik təbiətindən asılı deyildir; üçüncüsü, mədəniyyət hamı tərəfindən qəbul olunandır. Bir tərəfdən, mədəniyyət insanın inkişafının məhsuludur, digər tərəfdən, onun determinantıdır.

Sorokin mədəniyyətlə cəmiyyət arasında mədəniyyətin tiplərində reallaşan əsaslı əlaqələri aşkara çıxarmışdır.

Beləliklə, mədəniyyətin başa düşülməsi sosial cəhətdən qazanılmış və nəsildən nəslə ötürülən insanların öz həyat fəaliyyətini təşkil etmələri üçün vasitə olan önəmli simvolların, etiqadların, ideyaların, dəyərlərin, ənənələrin, davranış norma və qaydalarının sisteminə müncər edilir.

Mədəniyyətin aşağıdakı mahiyyət xüsusiyyətləri vardır:

[1] Bax: *Adler V.* Kant und Markxismus. Berlin. 1925.

- mədəniyyət - dəyərlər, simvollar və mənaların hamı tərəfindən qəbul olunan sistemidir;
- mədəniyyət -- insanın öz həyat fəaliyyəti prosesində əldə etdiyi, nail olduğudur. İnsanın mədəni dəyərləri və simvolları mənimsəməsi insanın genetikadan xaric davranış və həyat fəaliyyəti proqramını formalaşdırır. Mədəniyyətə yiyələnilməsi insanın heyvandan fərqinin həlledici amilidir;
- mədəniyyət – nəsildən nəslə ötürülən hər şeydir.

Sosiologiyada mədəniyyətin adətən aşağıdakı səviyyələrini fərqləndirirlər: empirik səviyyə - mədəniyyət idarələri və təşkilatları, institutları (teatrlar, kitabxanalar, kino, ədəbiyyat, incəsənət, elm, din və s.); normativ səviyyə - insanın və sosial qrupların davranışını tənzimləyən qəbul edilmiş normalar və qaydalardır. Bunlar institutlaşdırılmış və institutlaşdırılmamış norma və qaydalar ola bilər; fundamental səviyyə (dəyərlər, ideyalar) - bu, sanki mədəniyyətin kvintessensiyasıdır, onun cövhəri, məğzidir ki, cəmiyyətin mövcudluğunun həyati əhəmiyyətə malik olan dəyərlərini və mənasını özündə birləşdirir. Fundamental dəyərlərin əsasında şəxsiyyətin dəyərlilik meylləri, yəni insanın, onun ən mühüm məqsədləri kimi çıxış edən arzu və istəkləri, tələbatları formalaşır.

Cəmiyyətin mədəniyyətinin inkişafı haqqında aşağıdakı göstəricilər qruplarına görə də fikir yürütmək olar:

1) ictimai biliyin inkişaf səviyyəsini, mədəni proseslərin intensivliyini əks etdirən göstəricilər;

2) cəmiyyətin mədəni yönümünün əsas, dominant tipinin aşkara çıxarılması ilə bağlı olan göstəricilər;

3) insan mövcudluğu dəyərlərinin ictimai şüurda bərqərar olması dərəcəsini qeydə alan göstəricilər;

4) hakim mədəniyyətin digər mədəniyyətlərlə qarşılıqlı münasibətləri nöqteyi-nəzərindən cəmiyyətin mədəni inkişafını səciyyələndirən göstəricilər.

Mədəniyyəti sosial sistem kimi səciyyələndirərkən onun çıxış prinsiplərinə diqqət yetirmək lazımdır.

1. *Varislik prinsipi.* Bu prinsip inkişaf prosesində yeni ilə köhnə arasında zəruri əlaqə kimi təzahür edir. Mövcud mərhələdə ictimai həyatın gedişində istinad edilməsi, istifadə edilməsi mümkün olan nə varsa, mədəniyyətdə qavranılır və saxlanılır. Varislik prinsipi – milli mədəniyyətin dəyərlərini və özünəməxsusluğunu təsdiq edən mədəni



mühafizəkarlığın əsasıdır. Onun vəzifəsi nəinki özü özlüyündə qiymətli olan, eyni zamanda sosial və siyasi sabitliyin başlıca şərtlərindən biri kimi çıxış edən "yüksək mədəniyyətin" saxlanılmasından ibarətdir.

2. *Maddi və mənəvi mədəniyyətin, humanitar və texniki biliyin bütövlüyü, vəhdəti prinsipi.* Maddi olan mənəvi olan üçün "ambardır", mənəvi olan isə bu və ya başqa halda maddi olanın vasitəsilə reallaşdırılır.

3. *Mədəniyyətin sosial həyatın bütün sahələrinə nüfuz etməsi prinsipi.* Burada mədəniyyətin yaradıcı xarakteri təzahür edir. Mədəniyyət fəaliyyətin ən müxtəlif məhsullarında obyektivləşdirilir, istər cismani, istərsə də simvolik - işarə məhsulları olsun.

4. *Özinkişaf qabiliyyəti prinsipi* – üç formada: təsadüfi, kortəbii, dərkedilməmiş formalarda təzahür edir.

5. *Qarşılıqlı təsir prinsipi.* Mədəniyyətlərin qarşılıqlı təsiri istər müəyyən mədəniyyətin daxilində (nəsillər arasında, fiziki və zehni əmək adamları arasında, eyni bir dövlətin sinifləri və millətləri arasında əlaqələr), istərsə də müxtəlif ölkələrin və xalqların mədəniyyətləri arasında baş verir. Qarşılıqlı təsir öz növbəsində mədəniyyətlərin rəngarəngliyini doğurur: ayrıca bir cəmiyyətin və yaxud xalqın içərilərində (submədəniyyətlər), bütün bəşəriyyət miqyaslarında (sosiomədəni supersistemlər, məsələn, Şərqin və Qərbin).

Mədəniyyətin bütövlüyü nəzərdə tutur ki, dünya mədəni prosesinin bütün fenomenləri bir-biriləri ilə qarşılıqlı əlaqədədir, bir-birilərindən qarşılıqlı asılılıqdadır, zaman və məkan daxilində cərəyan edən vahid mədəniyyət sisteminin fraqmentləridir, hissələridir. Buna görə də epoxadan və regiondan asılı olmayaraq mədəniyyətin tədqiqi tarixi mədəni prosesin ümumi qanunauyğunluqlarının nəzərə alınması ilə həyata keçirilməlidir.

Mədəniyyətlər qarşılıqlı surətdə bir-birinə nüfuz edir və bir-birini qarşılıqlı surətdə zənginləşdirirlər. Hazırkı zamanda mütləq mənada bir-birindən ayrı düşmüş mədəni birliklər demək olar ki, mövcud deyildir (kiçik tayfalar istisna təşkil etməklə). İnsanlar başqasının təcrübəsini qəbul etmək üçün açıqdırlar və eyni vaxtda da öz dəyərlərini bölüşdürməyə hazırdırlar.

Mədəniyyət daim inkişaf edir. Mədəniyyətin inkişafının ən mühüm proseslərindən biri olan assimilyasiya bir xalqın, adətən daha az sivilizasiyalı xalqın mədəniyyətinin başqa bir xalq tərəfindən tam və

yaxud qismən udulması deməkdir. Assimilyasiya edilmiş mədəniyyət dilin itirilməsilə məhv olub gedir.

Digər, heç də az əhəmiyyətli olmayan proses – müəyyən etnomədəni birliyin digər mədəniyyət mühitinin tam şəkildə mövcud olmadığı və yaxud belə mühitin kifayətsiz olduğu başqa bir yaşayış rayonuna transkulturasiyasıdır, yəni könüllü miqrasiyasıdır və yaxud zorla köçürülməsidir.

Etnomədəni birliyin mədəniyyəti çox sabit, dayanıqlı olsa da, yeni şəraitdə məhv ola və yaxud xeyli dərəcədə dəyişikliyə uğraya bilər.

Müasir sosiologiya elmində mədəniyyət nəzəriyyəsinin işlənilməsi və mədəniyyətin empirik tədqiqi bir-biri ilə birləşir. Konkret sosioloji tədqiqata cəlb oluna bilən mədəniyyət sistemini m ə d ə n i n ü m u n ə l ə r təşkil edir. Mədəniyyətə insanın həyat fəaliyyətinin müəyyən sahələrində insanların davranışının, şüur və fəaliyyətinin xüsusiyyətləri daxildir. Mədəniyyətin növlərindən hər biri (məsələn, əmək, istirahət, məişət, ailə münasibətləri, şəxsiyyətlərarası münasibətlər mədəniyyəti, fərdin, sosial qrupun, təbəqənin mədəniyyəti, ümumbəşər mədəniyyəti, siyasi mədəniyyət, təfəkkür mədəniyyəti, idman mədəniyyəti) bu və ya digər mədəniyyət nümunələrinin, münasibətlərinin mövcud olması nöqteyi-nəzərindən, onların yayılması, dərəcəsi, tətbiqinin səmərəliliyi, münaqişələrin adaptasiyası və həlli baxımından spesifik sosioloji metodlarla öyrənilir. Həmçinin konkret tarixi dövrdə bu və ya digər mədəni dəyərlərə və davranış nümunələrinə münasibəti tədqiq etmək olar.

## 1.2. Mədəniyyətin strukturu və funksiyaları, davranışın tənzimlənməsinin mədəni mexanizmləri

Mədəniyyətin məqsədyönlü öyrənilməsinə 1949-cu ildə başlanılmışdır. Həmin vaxt amerikan tədqiqatçısı E. Xobel öyrənilmək üçün mədəniyyətin *mədəni element* adını almış ən kiçik vahidini seçib götürməyi təklif etmişdir. Mədəni element adı altında Xobel "davranış nümunəsinin və yaxud maddi məhsulun artıq bölünməz hesab olunan vahidini" başa düşürdü. Maddi mədəniyyətin elementlərinə beləiəri, məsələn, mismar, karandaş, vintaçan və yaxud paltar, maddi olmayan mədəniyyətin elementlərinə – birisi ilə görüşərkən əlsıxma və yaxud şlyapanı çıxarıb yuxarı qaldırmaq, miniyi yolun sağ tərəfi ilə sürmək, salamlaşmanın forması kimi öpüş və s. aiddir. Hər bir mədəniyyətə vahid



bir tam halında birləşmiş minlərlə mədəni element daxildir.

Mədəniyyət elementləri *mədəni kompleks* halında birləşirlər. Bütün bu elementlər bir-biri ilə qarşılıqlı əlaqədə olduqlarından mədəni kompleks də ayrı-ayrı elementlərin əsasında tanınır: bir elementə görə bütün mədəni kompleksi təsəvvürdə canlandırmaq mümkündür.

Kompleks – mədəni elementlə institut mədəniyyəti və yaxud institusional mədəniyyət arasında aralıq həlqədir. Mədəni institutlar insan fəallığının daha mühüm növlərini birləşdirmək yolu ilə yaranırlar. Lakin bütün komplekslər mədəni institutlara məxsus deyillər. Bunlardan bəziləri daha az əhəmiyyətli növlərin (məsələn, markalardan kolleksiya düzəltmək) ətrafında birləşirlər.

Amerikan tədqiqatçısı U. Qudinaf mədəniyyətin bir-biri ilə qarşılıqlı əlaqədə olan dörd elementini fərqləndirir: anlayışlar, münasibətlər, dəyərlər, qaydalar.[1] N. Smelzer deyirdi ki, "mədəniyyət – müəyyən həyat tərzinin ümumiliyi ilə bir-biri ilə bağlı olan insanlar üçün ümumi olan dəyərlərin, həyat haqqında təsəvvürlərin sistemidir" (Smelzer, 1994. S. 654). Həmçinin vətən sosioloqları mədəniyyətin strukturuna baxışlarda bir-birindən ayrılırlar. L.N Koqanın fikrinə görə mədəniyyət üç əsas bloku özündə birləşdirir: koqnitiv, davranış və praksioloji blokları. [2] Q.E. Zborovski mədəniyyətin komponentləri olaraq dəyərlər, normalar, adətlər, *dil* və *fəaliyyətin* adını çəkir (bax: Zborovski, 2004b).

D ə y ə r l ə r mədəniyyətin bazisi, onun çox mühüm struktur elementidir. F. Nitsşe qeyd edirdi ki, dəyərlər məsələsi səhihlik məsələsindən daha fundamentaldır: sonuncu yalnız o zaman tam ciddilik qazanar ki, biz dəyərlər məsələsinə cavab vermiş olaq. Dəyərlər məsələsi həqiqətən fundamentaldır, lakin bu məsələni ciddi surətdə irəli sürmək yalnız cəmiyyətin, mədəniyyətin və yaxud sivilizasiyanın tipini öyrəndikdən sonra mümkündür. Hazırkı vaxtda sosioloqları nə naturalist (dəyərlərin mənbəyi – tələbatlar, dəyərlər – empirik şəkildə qeydə alınan fakt), nə transsendentalist (dəyərlərin mənbəyi transsendentaldır, onların varlığı idealdır), nə aksioloji konsepsiyalar təmin edə bilməz. Dəyərlərin sosial təbiəti haqqında, sosial subyektlərin, onlara xas olan dəyərlər sistemlərinin vasitəsilə bir-birindən fərqləndirilməsi haqqında təsəvvür

---

[1] *Goodenough W.* Culture. Language and society. Menlo Park. 1981, P. 62

[2] Bax. *Коган Л.Н.* Социология культуры. Екатеринбург, 1992, с. 9-12.

getdikcə daha artıq dərəcədə qəbul olunmaqdadır.

Dəyər sosial subyektin tələbatların, mənafelərin, məqsədlərin reallaşdırılması üsullarını seçərkən rəhbər tutduğu həyati mənadır. Sosial subyektlər arasında münasibətlərin ahəngdarlığı mütləq əxlaqi olmasa da (müqavilə kimi qəbul olunmuş), hamı tərəfindən haqq qazandırılmış dəyərlərin əsasında meydana gəlməklə inteqrasiyanın, bütövlüyün əhəmiyyətli amili kimi çıxış edir və sosial inkişafın əsas prinsiplərinin seçilməsinə təsir göstərir.

T. Parsons *mədəniyyət və cəmiyyət dəyərlərini bir-birindən* ayırırdı. Cəmiyyət dəyərləri adı altında o, sivilizasiya dəyərlərini başa düşürdü. Lakin onun təsəvvürü anlayışın özünü daraldır və bəsitləşdirir, onu sxematik hala salır. Mədəniyyətlər həmişə məhəlli olublar, hətta Makedonskinin və Daranın, Hitlerin və Stalinin böyük imperiyaları, İspan ağalığı və Britaniya müstəmləkəçiliyi metropoliyanın və əyalətlərin səviyyələrini yalnız bərabərləşdirirdilər. Sivilizasiya özü ən ümumiliyə səy göstərir. Sivilizasiyanın bütün nailiyyətləri: dini, texniki, elmi, iqtisadi və s. nailiyyətləri buna xidmət edirlər. Nə zaman ki, sivilizasiya həqiqi mənada dünya sivilizasiyasına çevriləcək, o zaman *onun son transformasiyası – dünya mədəniyyətinə çevrilməsi* başlanacaqdır: dəyərlərin yenidən qiymətləndirilməsi baza dəyərlərini dəyişdirəcək, etika və hüququ, elm və dini, texnika və iqtisadiyyatı yenidən quracaqdır. Bizim texnogen sivilizasiyamız proqnostik mədəniyyətə – noosfer mədəniyyətinə çevrilə bilər.

Sivilizasiya cəmiyyətində fəaliyyət göstərən dəyərlər ayrı-ayrı dəyərlərin: əxlaqi, etik, hüquqi, estetik, dini, idraki, iqtisadi, texniki və b. dəyərlərin cəmidir. Hər bir cəmiyyətin özünün dəyərlər sistemini əmələ gətirən, üstün mövqe tutan, dominant dəyərləri vardır. Müxtəlif mədəniyyətlərin dəyərlər sistemləri dominantları etibarı ilə bir-birindən, həmdə ki, müxtəlif sivilizasiyaların dəyərlər sistemlərindən xeyli dərəcədə fərqlənirlər. Sivilizasiyalarda dominantlardan başqa dəyərlərin əsas blokları fəaliyyət göstərir. Mədəniyyətlər öz-özlüyündə uyğunlaşdırılmışlar və bir-biri ilə ziddiyyət təşkil etmirlər (müəyyən mənada bir-biri ilə ahəngdarlıq təşkil edirlər). Bununla belə indiki halda bu məsələ üzərində ətraflı dayanmağa ehtiyac yoxdur.

Əxlaq və hüquq - estetika, texnika, elm, din və yaxud iqtisadiyyatla birbaşa bağlı olmayan sosial kateqoriyalardır. Müəyyən dərəcəyə qədər bu kateqoriyalar ictimai münasibətlərin tənzimləyiciləridir. Həmçinin demək olardı: bəlkə də estetikadan başqa. Amoral və hüquqa əks olan



"seksual inqilab", zorakılığın təbliği, cinayətkarlığın baş alıb getməsi, narkomaniya və alkoqolizm, bir "gözəllik" kimi baş verə biləcək virtual kompüter reallığı - bütün bunlar heç bir zaman noosferə çevrilə bilməyəcəyi təhlükəsi qarşısında olan ekosferin birbaşa dağıdılması, məhv edilməsidir.

Bununla əlaqədar olaraq gələcəkdə "sivilizasiya cəmiyyətinin dəyərləri" kimi daha dəqiq terminin əvəzində "əxlaqi dəyərlər" və yaxud "əxlaq dəyərləri" və "hüquqi dəyərlər" və yaxud "hüquq dəyərləri", "cəmiyyətin dəyərləri" kimi (hamı tərəfindən qəbul edilmiş termin) anlayışların işlədilməsi nəzərdə tutulur.

*Əxlaqi dəyərlər* insanın dünyagörüşü prioritetləri ilə təqdim olunmuşlar. Bu prioritetlər isə insanın nəsli mahiyyətinin qorunub saxlanılmasına və inkişaf etdirilməsinə yönəldilmişdir. İnsan əvvəlki nəsillərin mədəni təcrübəsini mənimsəyərək, öz mənəvi aləmini formalaşdırır, onu öz həyati təcrübəsinə köçürür.

Əxlaq dəyərləri mədəniyyətin cəmiyyətdə münasibətləri tənzimləyən aparıcı komponenti kimi çıxış edirlər. Bu, insanların həyat fəaliyyəti və ünsiyyəti prosesində formalaşan, öz mahiyyəti etibarı ilə xəlqi olan əxlaqi ideallarin, insan və cəmiyyət haqqında humanist təsəvvürlərin kollektiv şəkildə tərəfdar çıxılan sistemidir. Əxlaq təcrübə obyektlərinin sosial münasibətlər kontekstində qiymətləndirilməsini nəzərdə tutur. Əxlaqi davranış digər sosial subyektlərlə qarşılıqlı təsirləri özündə birləşdirən sosial situasiyada mədəni dəyərin reallaşdırılması deməkdir.

Əxlaq dəyərləri insanın cəmiyyət haqqında davamlı, sabit təsəvvürünü saxlamağa imkan verir. Bu dəyərlərin həyata keçirilməsi qarşılıqlı sosial təsirləri optimal şəkildə nizamlamağa imkan verir və sosial münasibətlərin tənzimlənməsinin və cəmiyyətdə həmrəylik və inteqrasiyaya nail olunmasının mühüm vasitəsi kimi çıxış edir. Sosial qaydalar (məsələn, rejimlər) əxlaqa nisbətən daha tez dəyişirlər. Onlar daha dinamikdirlər, hətta eyni bir sosial sistemin daxilində dəyişkəndirlər. Əxlaq dəyərləri sosial qarşılıqlı təsirlərin və əlaqələrin nə qədər optimal və ahəngdar olduğunu, nə qədər səmərəli, sabit, həyati qabiliyyətə malik olduğunu müəyyən edir. Cəmiyyətdə münasibətlərin bütün məcmusunun nizamlanması və ahəngdarlaşması birinci növbədə mədəni determinantların sayəsində təmin olunur.

Hər bir dəyər hər hansı bir hisslə deyil, hisslərin ahəngdar

səsləşməsi ilə, məna və səylərin hər hansı biri ilə deyil, onların məcmusu ilə xarakterizə olunur. Əxlaqi dəyəri hər hansı bir məqsəd vasitəsilə - şəxsi və yaxud sosial məqsəd vasitəsilə müəyyən etmək olmaz. Xeyirxah əməllər həyata keçirən insan onları nə özlüyündə, nə də onların konkret təzahür halında izah edə bilməz. Xeyir, nəciblik, əlbir olma, dərdə şəriklik, özünü qurban vermək – məhəbbətin törəmələridir. Fundamental əxlaqi dəyərlər mədəniyyətin kvintessensiyası, cövhəridir. Məhz bu əxlaqi dəyərlər dünyada insan varlığının məğzini və mənasını əks etdirir. Məhz onların əsasında şəxsiyyətin, onun mühüm məqsədləri kimi çıxış edən dəyərlilik istiqamətləri formalaşır.

Əxlaqi dəyərlər universal əxlaqi normalarda əks olunmuşdur və ayrı-ayrı insanlar və sosial birliklər arasında münasibətləri və qarşılıqlı təsirləri tənzimləyirlər. Əxlaqi dəyərlər əsasında qurulmuş qarşılıqlı təsirlər proqnozlaşdırıla bilər, onlar sabit və dayanıqlıdırlar, sosial sistemlərin inteqrasiyasını təmin edirlər. Belə qarşılıqlı təsirlərin gedişində iştirakçılar nəinki özlərinin, eyni zamanda tərəfmüqabilinin məqsədlərini, məramlarını, meyllərini nəzərə alırlar. Əxlaqi dəyərlər ən ali və nəsli dəyərlərdən ibarətdir.

Yüksək əxlaqi dəyərlər insanın Mütləqə, Allaha etiqadına əsaslanır. Dəyərlərin bu tipinin ontoloji cəhətdən dərin kök salması, varlığın dini ontologiyalaşdırılması bir çox rus mütəfəkkirləri tərəfindən qəbul olunur (N. Sorski, N.A. Berdyayev, F.M. Dostoyevski və b.). Həqiqətən, ən yüksək əxlaqi dəyər – universaliyadır ki, o da heç bir həyati konstantaya (sabitə) müncər deyildir, rasional üsullarla dərk olunmur, bu yalnız etiqad əsasında qəbul olunur. İnsan məhəbbətlə başqa bir aləmi - sosial aləmi deyil, sosialdan xaric dəyərlərlə və məna ilə zənginləşmiş, şəxsiyyət dünyasını yaradır. Məhəbbət - eyni vaxtda və eyni qiymətdə özündə və başqasında olan həyatdır. Məhəbbət, etiqad, həqiqət, gözəllik yüksək dəyərlər olmaqla insanlar arasında və yalnız dolayısı ilə sosial subyektlər arasındakı münasibətləri qaydaya salır. Sosial subyektlərin qarşılıqlı təsirlərində onların nizamlayıcı rolu hüquq dəyərləri ilə və digər sosial tənzimləyicilərlə müqayisədə böyük deyildir. Əksinə, yüksək insani dəyərlərin vəhdəti, bir-birinə uyğun gəlməsi insanlar arasında münasibətlərin ahəngdarlaşdırılması üçün həlledici əhəmiyyətə malikdir. Bununla da cəmiyyətdə də münasibətlər ahəngdarlaşdırılır.

Nəsli əxlaqi dəyərlər - bir tərəfdən, insanların əxlaqi həyatının dolğunluğunu təmin edir, digər tərəfdən isə, özləri də



mədəniyyət dəyərləri olmaqla rasional şəkildə anlaşılır və təsnifatlaşdırılırlar. Bu dəyərlər insanın mövcudluğunun mənası ilə sıx bağlı olub, mədəniyyətdə normalaşır, ənənə və adətlərdə təsbit olunub, möhkəmlənir. Nəsli dəyərlərə həyatı, xeyirxahlığı, sağlamlığı, hörməti, qarşılıqlı anlaşılmanı, qarşılıqlı iştirakı, dərdə şərikliyi və s. aid edirlər. Bu dəyərlər insan üçün təbii olaraq, irrasional olaraq, kollektiv şüursuzluğun nəticəsi kimi təşəkkül tapır. Əxlaqi dəyərlər, xalq ayinləri, ənənələri intuitiv şəkildə formalaşaraq şüurda əks olunurlar, insan tərəfindən cəmiyyət üçün onların əhəmiyyəti nöqteyi-nəzərindən dərk olunurlar. Onların mahiyyətinin əxlaqi ("yazılmamış") normalarda təsbit olunması bu cür dərketmənin nəticəsidir.

Ənənə və adətlərdən fərqli olaraq *norma* fəaliyyətin hər hansı bir prinsipini, parametrini, vahid, bütöv münasibətlərin aspektini əhatə edir ki, bu da insanların davranışının variantlılığının müəyyən ölçüsünü və onun strukturunun mürəkkəbləşməsini nəzərdə tutur. Dəyərlərdən, ənənələrdən, adətlərdən fərqli olaraq normalar və qaydalar istər şüursuz və istərsə də şüurlu şəkildə formalaşırlar.

*Mədəni norma* davranış gözləmələrinin sistemi kimi, müəyyən mədəni stereotip kimi müəyyən olunur. Deməli, normativ mədəniyyət gözlənilən davranışın, hərəkətin, qarşılıqlı təsirin normalarının, standartlaşdırılmış üsullarının işlənib hazırlanmış sistemidir. Adətləri, ənənələri, tabuları, əxlaqi normaları mədəni normaların müxtəlif növlərinə aid edirlər.

Sosial birliklər və qruplar öz inkişafı gedişində tədricən adətlərdə təsbit olunan ən münasib, səmərəli davranış nümunələrini seçib götürürlər. Adətlər bu, elə adi mədəniyyətdir, gündəlik həyat mədəniyyətidir.

Saxlanılan və nəsildən nəslə ötürülən adət ənənə adlanır. Ənənə dəyərlər, normalar və adətlərin nəsildən nəslə ötürülməsi üsuludur.

Cəmiyyətin mövcudluğunun çox mühüm şərti əxlaqi normaların fəaliyyət göstərməsidir. İnsan sosial xadim kimi eyni zamanda həm əxlaqi, həm də hüquqi dəyərlərin daşıyıcısı kimi çıxış edir. Onun üçün davranış etalonuna hər cür norma deyil, yalnız o normalar çevrilirlər ki, onlar əxlaqi dəyərlərə uyğun gəlir. Məhz bu cür normaları universal normalar adlandırırlar. Onlar sadəcə olaraq hamı tərəfindən qəbul olunan dəyərlər sistemi ilə deyil, dünyada insanın varlığının mənasını əks etdirən daimi mədəniyyət dəyərləri ilə bağlıdırlar. Universal normalar

özünə məxsus "ictimai məcəllələrdə" möhkəmlənirlər. Məsələn, namus "oğurluq etmə", "yalan danışma" və s. kimi nəsihətlərin məcmusuna əsaslanan universal normadır. Bu norma "ictimai namus məcəlləsində" təsbit olunmuşdur. Bu dəyərlərin dərk olunması sosial və fərdi xüsusiyyətlərdən asılıdır, ona görə də cəngavərin, tacirin, prezidentin, fəhlənin və b. "namus məcəlləsində" fərqlər müşahidə olunur. Universal normalar bu və ya başqa şəkildə insanların həyat fəaliyyətinin müəyyən situasiyasına, tərəfinə yönəldilmiş məxsusi normalarda əks olunurlar. Lakin bu əks olunma həmişə natamam, yarımçıq olaraq qalacaqdır.

Əxlaqi normalar müxtəlif təbəqə və səviyyələrə malikdir. Mədəni-dini dəyərlərə əsaslanan universal normalar normativ strukturun yuxarı təbəqəsini əmələ gətirirlər. Bu normativ struktur cəmiyyətdəki münasibətləri tənzimləyir, belə ki, bu normaların yerinə yetirilməsi həmin yuxarı təbəqə üçün cəmiyyətdə dayanıqlığı, sabitliyi təmin edir.

Sonrakı təbəqə əsasında qeyri-dini xarakterli əxlaqi dəyərlərin durduğu normalardan ibarətdir. E. Dürkheym normativ əxlaq nəzəriyyəsinə haqlı olaraq ahəngdarlıq, sosial həmrəylik, sosial sağlamlıq, altruist davranış, insan haqlarının müdafiəsi, insan həyatının təhlükəsizliyi, rifah halı, ədalət və s. kimi universal məziyyətləri daxil edirdi. O, sosial sülh, cəmiyyətin bütün üzvlərinin həmrəyliyi, bütün sosial siniflərin əməkdaşlığı konsepsiyasından çıxış edərək, əxlaqi qaydaların funksional nəticələrinin təhlilini vermişdir. Bu problemin işlənib hazırlanmasında Dürkheymin xidmətlərini qəbul etməklə yanaşı biz onun ayrı-ayrı konseptual müddəaları ilə razı deyilik. Axı universal normalar nəticə etibarı ilə sosiumla deyil, mədəniyyətlə müəyyən edilir. Buna görə də "əxlaqi universalizmin" ölçüsü olaraq sosial qəbul olunma və bəyənilmə deyil, əxlaq dəyərlərinə uyğunluq çıxış edir. Demək lazımdır ki, universal normaların buna yaxın anlayışına biz digər sosioloqlarda təsadüf edirik. Məsələn, P. Sorokin yazırdı ki, normalar göstərir: nə baş verməlidir, nə gözlənilir; hər bir normativ mühakimə müəyyən növ qiymətverməni nəzərdə tutur. Baş verməli olacaq hər bir şeyin əsasında bir əsas norma ilə uyğun gələn qiymətvermə durur.

Universal normaların həqiqiliyinin meyarı onların mədəniyyət dəyərlərinə uyğun gəlməsidir. Həqiqətən, yalnız o normalar universaldır ki, onların əsasında bir çox xalqlar üçün qiymətli olan şey durur. Universal insan dəyərlərinin prioritetliliyi, obyektiv sosial münasibətlərin, hər şeydən əvvəl iqtisadiyyat və siyasət sahəsində, humanistləşdirilməsi sosial sülhə nail olunmasının çox mühüm şərtidir.



Əxlaqi qaydaların və normaların yenidən istehsalı tərbiyə prosesində, həmin qayda və normaların insanların əməllərində tətbiqi vasitəsilə baş verir. Mənimsənilmiş əxlaqi qayda və normalar cəmiyyətdə, sosial subyektlər olaraq şəxsiyyətlər səviyyəsində qarşılıqlı təsirlərin mühüm tənzimləyicisinə çevrilir.

*Hüquqi dəyərlər* insanın sosial mahiyyətin inkişafına yönəldilmiş dünyagörüşü prioritetləridir. Onların ilk qaynaqları insanın özünün sosial həyatındadır. Hüquqi dəyərlər sosial hərəkətin əsasıdır. Bu dəyərlər sosial hərəkətin nə isə mental, simvolik və davranış nümunələri olaraq dəyərlilik istiqamətlərini formalaşdırır, hüquqi normalara keçərək inteqrativ funksiyanı yerinə yetirirlər.

Hüquq dəyərlərinin təşəkkülü bütün bəşər tarixi boyunca baş verir. İlk əvvəllər bu dəyərlər əməklə, onun müxtəlif növləri ilə bağlı olmuşlar. Əmək fəaliyyətinin cəmiyyətin sağ qalıb yaşaması üçün daha mühüm olan növləri və üsulları tədricən xüsusi əhəmiyyət kəsb edirlər, əmək dəyərlərinin bir hissəsi saxlanılır, bir hissəsi isə dəyişir, modernləşir. Hüquqi dəyərlərin kollektiv həyatla bağlı olan bir qrupu müxtəlif qruplar və təşkilatlar arasında əlaqələri və münasibətləri nizamlayır. Cəmiyyətin praktik həyatı gedişində yoxlanılan bu dəyərlər cəmiyyətdə həyat, davranış norma və qaydalarının təməlinə çevrilirlər. Hüquqi dəyərlərin daha bir qrupu təşəkkül tapmaqda olan və mövcud olan cəmiyyətin təhlükəsizliyə, müdafiəyə tələbatı ilə şərtlənmişdir. Cəmiyyət inkişaf etdikcə dəyərlərin istər məzmunu, istərsə də iyerarxiyası, sistemi də dəyişir. Dəyərlərdən bəziləri digər dəyərlərlə əvəz olunur, lakin bu halda yerdəyişmə, əvəzolunma heç zaman mütləq və eyni vaxtda baş vermir.

Hüquqi dəyərlər məkan və zaman daxilində, sosial həyatın bu və ya digər aspektləri inkişaf etdikcə dəyişirlər. Bu dəyərlərin istər mahiyyət səviyyəsində və istərsə də hadisə səviyyəsində öz spesifikası vardır, yəni onlar faydalılıq, əhəmiyyətlilik baxımından nəzərdən keçirilə bilərlər.

XX əsrdə hüquq dəyərləri iyerarxiyasında praqmatik xarakterli dəyərlər inkişaf etmiş informasiya cəmiyyətlərində üstünlük təşkil edirdi. Lakin sivilizasiyanın qeyri-sabit inkişafı, ekoloji fəlakət təhlükəsi dünyada insanın yerinə və vəzifələrinə yeni şəkildə baxmağa məcbur etdi, insanın özünün mövcudluğunun dəyərini aktuallaşdırdı.

Müasir sosioloqların və politoloqların əsərlərində sivilizasiyanın davamlı, tarazlıqlı inkişaf etdirilməsi zərurəti haqqında fikir israrla yürüdülür. Bu, insanlar arasında əxlaqi münasibətlərin, sosial subyektlər

arasında ağıllı münasibətlərin, təbiətə münasibətdə qayğı münasibətlərinin formalaşmasını nəzərdə tutur. Sivilizasiyanın inkişafı – insanın və cəmiyyətin səylərini tələb edən uzunmüddətli prosesdir. Sivilizasiyanın inkişafının uğurluluğu cəmiyyətdə, bütövlükdə planetdə mövcud olan dəyərlərin və deməli, müxtəlif sosiumların inteqrasiyası dərəcəsindən asılıdır.

1. *Bir tam kimi bəşəriyyət səviyyəsində hüquqi dəyərlər.* Bu halda bütün bəşəriyyət dəyərlər məkanı olaraq çıxış edəcəkdir. Hüquqi dəyərlər (dövlətlərin ərazi, elmi-texniki və digər bütövlüyü ilə, bu dövlətlərin təhlükəsizliyi ilə bağlı olan dəyərlər, dövlətlərarası qarşılıqlı təsir, azadlıq, əməkdaşlıq, həmrəylik, məsuliyyət dəyərləri və s.) sosial varlıqlar kimi insanların, bir tam kimi bəşəriyyətin və ayrı-ayrı sosiumların saxlanılmasına yönəldilmişdir. Bu dəyərlər optimal dərəcədə razılaşdırılmış olmalı və bəşəriyyətin başlıca tələbatına planetdə həyatın davam etdirilməsinə uyğun olmalıdır.

2. *Millətlər və milli birliklər arasında münasibətləri müəyyən edən hüquqi dəyərlər.* Dəyərlilik məkanı – müəyyən millətdir və yaxud millətlər qrupudur. Hüquqi dəyərlərə milli dəyərləri, həmçinin millətlərarası qarşılıqlı təsir dəyərlərini aid edirlər. Burada aşağıdakı məqamlar önəmlidir: 1) milli dəyərlərin onların öncəliyi dərəcəsinə və əhəmiyyətinə görə uyğunlaşdırılması imkanlarının dərk edilməsi, millətlərarası dəyərlərin milli inkişaf tələblərinə uyğun olan sisteminin yaradılması; 2) millətlərarası dəyərlərin razılaşdırılmış sisteminin yaradılması. Milli dəyərlərə misal olaraq milli suverenliyi, millətlərin öz müqəddəratını təyin etmək hüququnu, milli mədəniyyət hüququnu, milli inkişaf hüququnu göstərmək olar. Bütün bunlar digər hüquqi dəyərlərdən fərqli olaraq əxlaqi milli dəyərlərə əsaslanırlar. Bu, qrup və milli maraqların qaynağıdır. Milli mədəniyyətlərdə ümumi olan millətlərarası dəyərlilik həmrəyliyinin formalaşmasının bazası kimi çıxış edir. Sosial transformasiya proseslərini müşayiət edən kəskin millətlərarası münaqişələr köklü milli dəyərlər və maraqlar haqqında təsəvvürlərdə fikir ayrılığı ilə şərtlənmişdir. Bu təsəvvürlər istər yanılmaların (qeyri-həqiqi anlamı), istərsə də milli dəyərlər sistemində əxlaqi və hüquqi dəyərlər arasında ziddiyyətlərin nəticəsi ola bilər. Çeçenistanın ərazisində yaşayan sıravi çeçenlərin və rusların kütləvi informasiya vasitələrində gətirilən müsahibələri subut edir ki, insanlar sülhə və əməkdaşlığa can atırlar. Onların əxlaqi dəyərləri belədir. Hakimiyyət, ağalıq, sərvət və s. hüquqi dəyərlər çeçen liderləri tərəfindən üstüörtülü



şəkildə millətin azadlığı, müstəqilliyi kimi təqdim olunur "Çeçen münaqişəsinin" əsasında milli rəng verilən sosial dəyərlər durur.

3. *Sosial təşkilatlar və qruplar arasında münasibətləri şərtləndirən hüquqi dəyərlər.* Bu dəyərlərə struktur-funksional və rol uyğunluğu, subordinasiya, mütəşəkkillik və s. dəyərləri aid edirlər. Struktur-funksional və rol uyğunluğu təşkilatın, qrupun məqsədlərinə nail olunmasının şərti kimi çıxış edir. Subordinasiya hörmətin və dostluq münasibətlərinin artıq kifayət etmədiyi zaman təşkilatın, qrupun məqsədlərinin həyata keçirilməsi ilə əlaqədar meydana gəlir və qiymətləndirilməyə başlayır. Lakin subordinasiya da təşkilatın optimal səmərəliliyini təmin etmir, buna görə də mütəşəkkillik dəyəri formalaşır. Göstərilən dəyərlər daha dinamikdirlər, onlar qrup dəyərlərinin sosial və fərdi dəyərlərlə uyğunlaşdırılmasına əsaslanan struktur-funksional uyğunluğunun yüksək dərəcəsinə möhtacdır.

4. *Sosial təbəqələr arasındakı münasibətləri şərtləndirən hüquqi dəyərlər və yaxud sosial-stratifikasiya dəyərləri.* Bu dəyərlərə hakimiyyət, sərvət, nüfuz və s. dəyərləri aid edirlər. Müəyyən sosial təbəqələrin özlərinin spesifik dəyərləri vardır.

5. *"İnsan - cəmiyyət" sistemindəki münasibətləri şərtləndirən hüquqi dəyərlər.* Bu dəyərlər fərdin sosial cəhətdən şərtlənmiş dəyərləridir (bilik, təhsil, peşə, moda dəyərləri və s.). Bu qrup dəyərlərin hüquqi dəyərlər sisteminə eyni çəkidə daxil olması "qızıl ortaya" cəhd göstərilməsi ilə, eqoizm və altruizm arasında mərkəzə doğru hərəkətlə təmin olunur. Fərdin sosial cəhətdən şərtlənmiş hüquqi dəyərlərinin və cəmiyyətin hüquqi dəyərlərinin bir-birinə uyğunluğu, bir araya sığması sosiallaşma ilə təmin olunur. İnsanın dəyərlilik yönümləri və məramları onun sistemində üstünlük təşkil edən dəyərlərdən asılıdır. V. Yadov terminal (həyat fəaliyyətinin məqsədləri) və instrumental (məqsədə nail olmaq vasitələri) dəyərlilik yönümlərini fərqləndirir. Bunların da əsas funksiyası cəmiyyətin obyektiv tələblərinin və insanın istəklərinin uyğunlaşdırılmasından ibarətdir.

Bütün hüquqi dəyərlər cəmiyyətin iqtisadi, siyasi, mənəvi və sosial sferaları üzrə təsnifatlaşırlar. Müasir Rusiya cəmiyyətinin dəyərlərini sosioloqlar mənəvi (təkmilləşmə, özünüaktuallaşdırma, din, əxlaq, incəsənət, ədəbiyyat, kino, öz əsasında əxlaqi dəyərlərə malik olanlar); iqtisadi (mülkiyyət dəyərləri); siyasi (hakimiyyət, söz azadlığı, siyasi seçim, siyasi birliklər, demokratiya dəyərləri); merkantilist (faydalılıq,

qazanc dəyərləri), ictimai quruluş və inkişaf (elm, təhsil, tərəqqi, həmrəylik, nizam, müqavilə səmərəlilik, karyera - mənsəb dəyərləri) dəyərlərə bölürlər.

Praktik fəaliyyətdə əxlaqi və hüquqi dəyərlər əqidələr, onların həqiqiliyinə inam formasında təzahür edirlər. T. Parsons bildirirdi ki, dəyərlər yüksək prinsiplərdir ki, bunların əsasında istər kiçik ictimai qruplarda və istərsə də bütövlükdə cəmiyyətdə həmrəylik təmin edilir.

Əxlaqi dəyərlər sosial inteqrasiyaya həmişə kömək edir, hüquqi dəyərlər sosial sistemin həm inteqrasiyasına, həm də dezinteqrasiyasına istiqamətləndirilə bilərlər.

İnteqrasiyaya yardım edən hüquqi dəyərlər cəmiyyətin təşkilinin məqsəd və prinsiplərinə uyğun gələn, əxlaqi dəyərlərə zidd olmayan dəyərlərdir. Dezinteqrasiyaya səbəb olan dəyərlər – cəmiyyətin təşkilinin məqsəd və prinsiplərinə, əxlaqi dəyərlərə zidd olan dəyərlərdir. Onların reallaşdırılması fərdi və qrup deviasiyalarına gətirib çıxarır, cəmiyyətdə sosial gərginlik, münaqişə vəziyyəti, anomiya yaradır.

Rusiya sosioloqu N.İ. Lapin hüquqi dəyərlərin inteqrasiyaedici və dezinteqrasiya dəyərlərinə bölünməsilə razılaşaraq, aşağıdakı təsnifatı təklif edir: həyati mənalı, vital, interksionist, sosiallaşdırıcı dəyərlər. Bu bloklardan hər biri istiqamətindən asılı olaraq inteqrasiyalaşdırıcı və yaxud dezinteqrasiyalaşdırıcı rol oynayır. İnteqrasiyalaşdırıcı həyati mənalı dəyərlərə (onlar elə əxlaqi dəyərlərdir) o, insanın həyatını, xeyri (insan öz təbiəti etibarı ilə xeyirxahdır), həqiqəti, gözəlliyi, azadlığı, uşaqların yaradıcılıq işini aid edir. Bu dəyərlər cəmiyyətin bütövlüyünü təmin etməklə, sosial münasibətləri və qarşılıqlı təsirləri inteqrasiya edir. Dezinteqrasiyalaşdırıcı həyati mənalı dəyərlər (bunlar elə qanunlarda təsbit olunmuş hüquqi dəyərlərdir) qətlə haqq qazandırılması, şər, yalan, fıravanlıq, pul, sonsuzluqdur. Bu dəyərlər yalnız cəmiyyətdə məna kəsb edir və sosial cəhətdən şərtlənmiş hər hansı nemətlərin əldə edilməsi xatirinə reallaşdırılır. Bu fikir o demək deyildir ki, bütün həyati mənaya malik hüquqi dəyərlər dezinteqrasiyalaşdırıcı dəyərlərə aiddir. Məsələn, müsbət özünüaktuallaşdırma və özünüifadə insan həyatının mənasına çevrilməklə əxlaqi dəyərlərlə ziddiyyət təşkil etmirlər. Həyati mənalı əxlaqi və hüquqi dəyərlər arasındakı ziddiyyətlər Lapin tərəfindən nəzərdən keçirilmiş variantında: həyatın mənası – adam öldürmək; xeyir – şər; yaradıcılıq – pul; uşaqlar – sonsuzluq – bəşəriyyətin bütün tarixi boyunca aparılan çoxsaylı diskussiyaların predmeti olaraq qalır. Həyatın



mənasını əmələ gətirən əxlaqi və hüquqi dəyərlər arasında münaqişənin sosial sistem üçün dezinteqrasiyalaşdırıcı əhəmiyyəti var. Bu münaqişə sosial narazılıq yaradır.

Dəyərlər mədəni və sosial ideallarla bağlıdır. Əxlaqi dəyərlər "ədalətli cəmiyyət", "ədalətli dövlət" idealında, sosial dəyərlər isə "texniki cəhətdən inkişaf etmiş cəmiyyət", "mütərəqqi cəmiyyət", "demokratik cəmiyyət" idealında əks olunurlar. Sosial idealda fəaliyyətin məqsədi və mənası əks olunur. Baş verməli olanla mövcud olan arasında, fərdi və sosial dəyərlər arasında, ideallar arasında ziddiyyət xarici və daxili münaqişədə təzahür edir. Daxili dəyərlilik münaqişəsi sosial münasibətlərin münaqişətörədicilik dərəcəsini artırmaqla, sosial qaydanı pozmaqla insanı bir növ bayıra, xaricə atır. Bu ziddiyyətlərin həll edilməsi hüquqi dəyərlərin əhalinin əksəriyyəti tərəfindən qəbul olunan dominant iyerarxiyasının formalaşmasını tələb edir. Dəyərlərin daxili münaqişəsi dəyərlilik prioritetlərinin psixoloji, emosional sabitsizliyi ilə, dəyişməsi ilə, dəyərlərin yeni iyerarxiyasının formalaşması ilə xarakterizə olunur. Əxlaqi ideallarin dəyişməsi isə cəmiyyətin əxlaqi birliyinin dağılmasına şərait yaradır. A.S. Axiezer qeyd edir ki, mövcud əxlaqi idealın funksional əsassızlığı onun əks əxlaqi ideaila əvəz olunması ilə nəticələnir. Şəxsiyyət və cəmiyyətin dəyərlilik münaqişəsinin xarici ifadəsi, ictimai dəyərlərin prioritetlərin qəbul edilməməsi və yaxud sosial dəyərlərin mövcud iyerarxiyası ilə razı olmaması fərdin tərəfindən müəyyən hərəkətlərlə müşayiət olunur. Bir halda ki, subyekt sosial gərginliyin və sosial münaqişənin mənbəyidir, deməli, münaqişənin, o cümlədən dəyərlilik münaqişəsinin dərk edilməsi subyektivlik vasitəsilə mümkündür.

Lakin dəyərlər nə isə donmuş bir mütləqdən, absolyutdan ibarət deyildir, cəmiyyətin inkişafı ilə dəyərlər də dəyişikliyə uğrayırlar. Yeni dəyərlər sisteminin təşəkkülü qarşılıqlı münasibətlərin və dünyagörüşü qiymətləndirmələrinin atributiv keyfiyyəti kimi tolerantlığı nəzərdə tutur. Transformasiya prosesində olan cəmiyyət şəraitində eyni vaxtda bir neçə, bəzən də daban-dabana bir-birinə zidd olan dəyərlər sistemləri fəaliyyət göstərir ki, onlar arasında razılığa nail olunması üçün dözümlülük tələb olunur. Sosial subyektlərin dəyərlilik prioritetləri etiqada əsaslanırlar. Tarix – onların həqiqiliyinin meyarıdır, buna görə də dözümlülük, tolerantlıq sosial həmrəyliyə aparan yoldur.

Sosial qrupların siyasi və iqtisadi maraqları dəyərliliklə

aşılanmışdır; bu maraqlar çıxış, baza dünyagörüşü məramlarını əks etdirir. Mədəni Avropa ənənəsində cəmiyyətdə insanın tutduğu yerin bir-birinə əks iki anlamı mövcuddur: 1) cəmiyyət insan üzərində prioritetə malikdir; 2) insan cəmiyyət üzərində prioritetə malikdir. Bu və ya digər mövqeyə bəslənən inama uyğun olaraq dəyərlər sisteminin düzülüşü həyata keçirilir, sübutlar gətirilir, ideologiya müəyyən edilir və iqtisadi, siyasi, sosial və mənəvi məqsədlər irəli sürülür.

Mədəniyyətin strukturu onun **funksiyaları** ilə qırılmaz surətdə bağlıdır. Onun əsas funksiyaları üzərində dayanaq.

- Adaptasiya funksiyası – mədəni inkişaf prosesində mənimsənilmiş davranış nümunələrinin sayəsində fərdin sosial mahiyyətinin sosial mühitə adaptasiyasından, uyğunlaşmasından ibarətdir.
- Humanistlik funksiyası – insanın yaradıcılıq potensialının inkişafı ilə, təbiətə və digər insanlara humanist münasibətin formalaşması ilə müəyyən edilir. Mədəniyyət qabaqcadan verilmiş standartlara görə insanı yaratmaq qabiliyyətinə malikdir.
- İnsanyaradıcı, sosiallaşdırıcı funksiya – insanın şəxsiyyət kimi formalaşdırılmasından, onun cəmiyyətdə mövcud olan dəyərləri və normaları mənimsəməsindən ibarətdir. Mədəniyyət sosiallaşmanın məzmununu, vasitələrini və üsullarını müəyyən edir.
- Qnoseoloji (idrakı) funksiya – insanın cəmiyyətin və təbiətin fəaliyyət və inkişaf qanunauyğunluqlarına uyğun olan davranış xəttinin müəyyən edilməsi üçün zəruri olan bilikləri əldə etməsinə əsaslanır. Bu funksiya elm, incəsənət, ədəbiyyat vasitəsilə tənzimlənir.
- Normativ funksiya – mədəniyyətin ideallarm, normaların, davranış nümunələrinin məcmusu kimi başa düşülməsini nəzərdə tutur ki, bu da zəruri davranış standartlarını verir. Mədəniyyət – sosiomədəni nəzarət vasitəsilə insan davranışının tənzimləyicisidir.
- İnformasiya funksiyası – sosial təcrübənin varislik qaydasında ötürülməsini təmin edir, keçmişi; hazırkı vaxtı və gələcəyi bir-biri ilə bağlayır. Bu funksiyanın reallaşdırılması ictimai həyatın təşkili üçün insana, sosial qrup və birliklərə zəruri informasiya verir.
- Kommunikativ funksiya – qarşılıqlı anlaşılmanın, ünsiyyət və davranışın adekvatlığına kömək edir. Mədəniyyət – insanların ünsiyyətinin şərti və nəticəsidir. Bunun da sayəsində mədəniyyətdə işlənib hazırlanmış ünsiyyət vasitələrinin (işarə sistemləri, dil) köməyi ilə ünsiyyətin əsl insani formaları mənimsənilir. Kommunikativ funksiyanın vasitəsilə şəxsiyyət və cəmiyyətin əlaqəsi yaranır, inkişaf üçün daha münasib olan ənənələrin qarşılıqlı təsiri və seçimi həyata keçirilir.



- Dəyərlilik-istiqamətləndirici funksiyası – insanın sərəncamına onun həyat və fəaliyyəti prosesində istiqamətləndiyi dəyərlər sistemini verir.
- Aksioloji (qiymətləndirmə) funksiya – insanların mədəniyyətin sayəsində "faydalılıq" və "ziyanlılıq" prizmasından istifadə edərək, nəyin "xeyir" olduğunu başa düşmək bacarığında ifadə olunur.
- İnteqrativ funksiya – insanların istər milli, istərsə də dünya mədəniyyəti çərçivəsində birləşdirilməsində **ifadə** olunur. Mədəni birliyə mənsub olmaq hissi o zaman formalaşır ki, birliyin üzvləri arasında baxışların, əqidələrin, dəyərlərin, ideallarm vahid məcmusu yayılmaqda olsun.

**Testlər**

1. Latın dilindən tərcümədə "kultura" sözü deməkdir:
   a) torpağın becərilməsi, işlənilməsi, təkmilləşdirilməsidir;
   b) insanın təkmilləşdirilməsidir.

2. T. Parsons mədəniyyəti bir-biri ilə qarşılıqlı əlaqədə olan üç aspektdə nəzərdən keçirmişdir.
   a) miras və sosial ənənə kimi;
   b) mədəniyyət insanın genetik təbiətdən asılı deyildir;
   v) mədəniyyət hamı tərəfindən qəbul olunandır;
   q) mədəniyyət vəhdət və varislikdir.

3. U. Qudinafın mədəniyyət sistemində fərqləndirilmiş dörd elementi söyləyin:
   a) anlayışlar;
   b) münasibətlər;
   v) dəyərlər;
   q) normalar;
   d) qaydalar.

4. Mədəniyyətin on funksiyasını söyləyin:
   a) adaptiv;
   b) humanistik;
   v) insanyaradıcı;
   q) qnoseoloji (idraki);
   d) normativ;
   e) informasion;
   j) kommunikativ;
   z) dəyərlilik-istiqamətləndirici;
   i) aksioloji (qiymətləndirici);
   k) inteqrativ;
   l) həmrəyləşdirici.

5. Dəyərlər bölünür :
   a) əxlaqi dəyərlərə;
   b) qanunvericilik dəyərlərinə;
   v) hüquqi dəyərlərə.

6. Hüquqi dəyərlər inteqrasiyaedicidirlər, əgər onlar:
   a) təşkilatın məqsədlərinə və prinsiplərinə uyğundursa, əxlaqa ziddirlərsə;
   b) təşkilatın məqsədlərinə və prinsiplərinə uyğundurlarsa, əxlaqa zidd deyillərsə.

Cavablar:

**1** – a; **2** – a, b, v; **3** – a, b, v, d; **4** - a, b, v, q, d, e, j, z, i, k; **5** a, **6** b.



# 2-ci FƏSİL. MƏDƏNİYYƏTİN TİPOLOGİYASI VƏ SOSİOMƏDƏNİ TOLERANTLIQ

## 2.1. Mədəniyyətin tipləri, formaları və növləri

Mədəniyyətin tipologiyası indiyə qədər aktual sosioloji vəzifə olaraq qalır. P. Sorokin bu problemin tədqiqi ilə məşğul olarkən üç əsas tipdən olan mədəniyyəti bir-birindən fərqləndirirdi: ideasional, sensitiv və idealist mədəniyyətlər. O belə güman edirdi ki, konkret cəmiyyətlərin tarixinin müxtəlif dövrlərində mədəniyyətin bu və ya digər tipi hökmran olur. Doğrudur, bəzən hər iki tip bir-biri ilə "qarışır".

*İdeasional mədəniyyət* dedikdə Sorokin dini mentallıq səltənətini başa düşürdü. Bu cür mədəniyyət dindarlıq üzərində əsaslanmışdır, elm dinə tabedir, dünyagörüşü və yaradıcılıq Allaha inama istinad edir, etika və hüquq əxlaqın mütləq, daimi və dəyişməz prinsiplərinin qəbul edilməsi üzərində qurulmuşdur, ictimai qayda isə Allah tərəfindən bərqərar olunmuş kimi qavranılar. İdeasional cəmiyyətdə ailə münasibətləri müqavilə və məcburi münasibətlər üzərində üstünlük təşkil edirlər.

*Sensitiv mədəniyyət* insanları real həyatda əminamanlığa nail olmağa istiqamətləndirir, dini etiqada skeptik münasibətlə xarakterizə olunur. Sensitiv cəmiyyətdə elm başçıl yer tutur və fəal surətdə inkişaf edir. Etika və hüquqda fayda, utilitarizm prinsipi hökm sürür. Dövlət hakimiyyəti dünyəvi xarakterə malikdir və başlıca olaraq kontrakt və məcburi münasibətlər üzərində qurulur.

*İdealist mədəniyyət* – qarışıq tipə malik mədəniyyətdir. Bu mədəniyyət üçün ideasional və sensitiv elementlərin tarazlığı səciyyəvidir. İdealist mədəniyyət dünyagörüşü real gerçəkliyin rəngarəngliyi haqqında, bu gerçəklikdə istər hissi və istərsə də fövqəlhissı cəhətlərin mövcud olması haqqında təsəvvürü özündə ehtiva edir. İdealist etika və hüquq ideasional və sensitiv dəyərləri özündə birləşdirir.

Mədəniyyətin tarixi tipləri - ibtidai, antik, orta əsr mədəniyyətləri, İntibah, Yeni dövr mədəniyyəti, müasir Qərb mədəniyyəti üzərində dayanmadan qeyd edək ki, bütün zamanlarda mədəniyyətdə ümumi, xüsusi və təkcə inkişaf etmişdir. Amerikan antropoloqları bütün mədəniyyətlər üçün ümumi olan aşağıdakı mədəni universalilləri

fərqləndirirlər: normalar, dəyərlər, qaydalar, ənənələr, xassələr, yaş dərəcəsi, təqvim, rəqəm, mifologiya, əmək kooperasiyası, təhsil, etika, etiket, ailə şənlikləri, bayram şənlikləri, təmizliyə riayət edilməsi, yemək hazırlanması, dekorativ sənət, təbabət, qanunlar, rəqslər, şəxsi ad, cəza sanksiyaları və b.

Milli və etnik mədəniyyət milli mədəniyyətin daha qədim təbəqəsi olaraq nə isə məxsusi, spesifik hal kimi müəyyən edilir. Etnik mədəniyyət başlıca olaraq məişət sahəsini və "əcdadların adətlərini", onların təcrübəsini əhatə edir. Etnik mədəniyyət üçün mühafizəkarlıq, varislik, "köklərin saxlanılması" yönümü xarakterikdir. Etnik mədəniyyət xalqların özünəməxsusluğunu, onların tarixi keçmişini əks etdirir.

Milli mədəniyyətin zənginliyi yazıya və təhsilə əsaslanır. Milli mədəniyyət intellektin inkişafı ilə bağlıdır və müxtəlif siniflərin, sosial təbəqələrin, qrupların, təşkilatların mədəniyyətlərinin özünəməxsus sintezidir. Milli mədəniyyətin özünəməxsusluğu maddi və mənəvi sferalarda təzahür edir. Çoxmillətli hər bir cəmiyyətdə dominant mədəniyyət, yəni cəmiyyət üzvlərinin əksəriyyətinin rəhbər tutduğu dəyərlərin, etiqadların, ənənələrin və adətlərin məcmusu mövcud olur.

Dünya mədəniyyəti milli mədəniyyətlərin millətlərin və xalqların sosiomədəni inkişafındakı ümumini əks etdirən ən yaxşı nailiyyətlərinin sintezindən ibarətdir. Dünya mədəniyyəti mədəni xüsusiyyətlərin mövcud xalq üçün ənənəvi ifadəsinin saxlanılması şərti ilə hər bir milli mədəniyyətdə ümumbəşəri məzmunun inkişafının nəticəsidir.

Mədəniyyətin subyektinə, daşıyıcısı və istehsal edəninə uyğun olaraq onun üç formasını fərqləndirirlər: elitar, xalq və kütləvi mədəniyyət.

*Elitar mədəniyyət* elita tərəfindən (və yaxud elitanın tapşırığı ilə mütəxəssislər tərəfindən) yaradılır və həyata keçirilir, klassik ədəbiyyatı və musiqini, yüksək sənəti özündə birləşdirir. Onun əsas istehlakçıları - yüksək savadlı insanlardır. Orta və aşağı inkişaf səviyyəsinə malik olan, bu mədəniyyəti başa düşmək üçün hazırlıqsız olan insan üçün o, az müyəssərdir. Elitar mədəniyyət nisbətən məhdud istehlakçılar dairəsi üçün nəzərdə tutulmuşsa da, onun devizi "Sənət sənət üçündür"sə də, o, kütləvi mədəniyyətin səviyyəsinin yüksəldilməsinə şərait yaradır.

*Xalq mədəniyyəti* xalqın xüsusi hazırlığı olmayan konkret nümayəndələri tərəfindən yaradılır. Onların adları naməlum qalır. Xalq mədəniyyəti mifləri, əfsanələri, eposu, nəğmələri, rəqsləri, musiqini özündə birləşdirir.



*Kütləvi mədəniyyəti* onu kütləvi informasiya vasitələrinin köməyi ilə yayan peşəkarlar yaradırlar. Kütləvi mədəniyyət təhsil səviyyəsindən asılı olmayaraq hamı tərəfindən başa düşülür və hamı üçün açıqdır. O, insanların istənilən, o cümlədən ani sorğularını təmin etməyə çalışır. Kütləvi mədəniyyətdə moda müvəqqəti və dəyişəndir, onun demokratikliyi isə xəyalidir. Kütləvi mədəniyyət insanların erotikaya və zorakılığa qeyri-şüuri marağı kimi arxetiplərə əsaslanır. Kütləvi mədəniyyətin tipik qəhrəmanları - supermenlər, seks-bombalar, seks-simvollar və s.-dir. Kütləvi mədəniyyətin slenq adı - pop-mədəniyyətdir və onun müxtəlif növlərindən biri olan kitçdir.

Kütləvi mədəniyyətin seriya məhsulu aşağıdakı əlamətlərlə səciyyələnir: münasibətlərin və simvolikanın bəsitliyi ilə, səhnələrin təsvirində naturalizmlə, müvəffəqiyyətə pərəstişlə, güclü şəxsiyyətlə və tamahkarlıqla, əyləncəlilik və sentimentallıqla. Kütləvi mədəniyyət əyləncə kompensasiya funksiyasını yerinə yetirir.

Kütləvi mədəniyyət sivilizasiyanın sonuncu mərhələsi kimi, mənəvi köləliyin son ifadəsi kimi O. Şpenqlerin "Avropanın qürubu", A. Şveyserin "Mədəniyyət və etika", X. Orteqa və Qasetin "Kütlələrin üsyanı", E. Frommun "Sahib olmaq və yaxud mövcud olmaq" əsərlərində və başqa əsərlərdə nəzərdən keçirilmişdir.

Cəmiyyətə çoxlu sayda sosial qruplar: demoqrafik, milli, professional qruplar daxildir. Bu qruplardan hər biri tədricən öz mədəniyyətini, yəni submədəniyyəti yaradır. Submədəniyyət adı altında ümumi mədəniyyətin böyük sosial qrupa məxsus olan hissəsini başa düşürlər. Gənclərin submədəniyyətini, yaşlı insanların submədəniyyətini, milli azlıqların, peşəkar qrupların submədəniyyəti və s. fərqləndirirlər. Submədəniyyət dominant mədəniyyətdən fərqlənir, lakin onların baza dəyərləri birdir və onlar bir-birinə qarşı durmurlar.

Mədəniyyətin hakim mədəniyyətlə qarşıdurma və ziddiyyətdə olan hissəsi kimi əksmədəniyyət özünü başqa cür təzahür etdirir. "Əksmədəniyyət" termini amerikan sosioloqu T. Rozzek tərəfindən 1960-cı illər Qərb gənclər hərəkatlarının (xüsusilə xippilərin) səciyyələndirilməsi üçün elmə daxil edilmişdir.

Dəyişdirilmiş şəkildə əksmədəniyyət dedikdə delinkvent submədəniyyəti başa düşülür. Amerikan sosioloqları A. Koen və V. Miller əksmədəniyyəti cinayətkarların mədəniyyəti kimi müəyyənləşdirmişlər. Onların fikrincə bu mədəniyyətə asosial əxlaq

cinayətə əxlaqi cəhətdən haqq qazandıran dəyərlər və normalar sistemi daxildir. Delinkvent submədəniyyətinin özünün ənənələri, ayinləri və ritualları, jarqonları, tatuirovkaları, ləqəbləri vardır.

Əhali kütləsinin Stalinin "QULAQ arxipelaqını"ndan, həbsxana və həbs düşərgələrindən keçmiş olduğu Rusiyada oğru, katorqa mahnıları nəinki delinkvent mədəniyyətinə, eyni zamanda xalq mədəniyyətinin bir hissəsinə çevrilmişdir. Emosional zənginlik, sentimentallıq, "azadlıq" həsrəti bu mahnıları rus qəlbinə uyğun şəklə salır.

## 2.2. Sosiomədəni tolerantlıq və həmrəylik, mədəni relyativizm

Polietnik dövlətdə sabitlik və sosial davamlılıq çox cəhətdən sosiomədəni həmrəyliyin səviyyəsindən asılıdır. Bu gün aşkar olur ki, istər ümumdünya və istərsə də regional miqyasda tolerantlıq insanın salamat qalmasının çox mühüm mexanizmlərindən biridir. Rusiyanın polietnik cəmiyyəti üçün bu problem xüsusilə aktualdır. "Rusiya cəmiyyətində tolerantlıq şüuru qayələrinin formalaşması və ekstremizmin profilaktikası *(2001 - 2005-ci illər)*" Dövlət Federal proqramı da bunu bir daha təsdiq etdi. Lakin Rusiya və xarici ölkə elmində tolerantlıq nəzəriyyəsi az tədqiq olunmuşdur. Buna görə də ilk öncə müəyyən etmək lazımdır ki, tolerantlıq dedikdə nə başa düşülür.

*Tolerantlıq özünün ən sadə izahında başqalarının fikirlərinə, əqidələrinə, etiqadlarına, davranışına dözümlülük göstərilməsidir.* Lakin bu cür anlamda da tolerantlığın təzahürünün bir neçə aspektini fərqləndirmək olar: dəyərlilik kimi, davranış norması kimi, sosial qarşılıqlı təsirin tənzimləyicisi kimi. Bununla əlaqədar olaraq V. A. Lektorskinin tolerantlığa verdiyi aşağıdakı tərif uğurlu görünür: tolerantlıq tənqidi dialoq nəticəsində mövqelərin qarşılıqlı şəkildə dəyişdirilməsi məramı ilə həmahəng olaraq başqasının ənənəsinə hörmətdir.[1] Bu, çox vaxt yeganə düzgün hesab olunan "öz" dəyərlərinin, "öz" mədəniyyətinin hökmranlığı kimi başa düşülən etnomərkəzçiliyin daim aradan qaldırılması kimi şərh edilən sosiomədəni tolerantlıq baxımından xüsusilə aktualdır. Onların "düzgünlüyünün" əsaslandırılması mahiyyətcə radikaldır, çünki, "öz" dəyərləri və mədəni

[1] Bax: *Лекторский В.А.* Идеалы и реальность гуманизма // Вопросы философии. 1994, № 6.



stereotipləri artıq bunun nəticəsində düzgün hesab olunur və qəbul olunur ki, onlar "özlərinindir", "başqalarının" deyildir. Sosiomədəni tolerantlıq yalnız o zaman ortaya çıxır ki, bu cür radikalizm ictimai rəy tərəfindən rədd edilir, ictimai, milli şüurda kök salmır.

V.A. Tişkov tolerantlığın strukturunda iki səviyyəni fərqləndirir: psixoloji səviyyə (şəxsiyyətin və kollektivin daxili məramı və münasibəti) və siyasi səviyyə hərəkət və yaxud qanun və ənənənə vasitəsilə hiss olunan ictimai norma). Fikrimizcə buraya mənəvi və ictimai səviyyələri də əlavə etmək lazımdır.

Psixoloji səviyyədə sosiomədəni tolerantlığın əsas komponenti sosiomədəni identikliyin xüsusi növüdür ki, bu da L. M. Drobijevanın təsnifatında normal identiklik mənasını, Q.U. Soldatovada isə pozitiv etnik identiklik mənasını almışdır. Pozitiv sosiomədəni identiklik dedikdə Soldatova özünün və başqalarının sosiomədəni qruplarına münasibətdə tolerantlığın bərabərliyini başa düşür. Bu cür bərabərlik bir tərəfdən, sosiomədəni qrupun müstəqil və sabit mövcudluğunun şərti kimi, digər tərəfdən, tolerantlığı polietnik aləmdə mədəniyyətlərarası dinc qarşılıqlı təsirin şərti kimi nəzərdən keçirməyə imkan verir. Bütövlükdə sosiomədəni identikliyi "normalar" tipi üzrə yüksək tolerantlıq və müsbət sosiomədəni əlaqələrə hazırlıq səciyyələndirir.

Sosial planda həmçinin sosiomədəni identikliyin polietnik cəmiyyətə münasibətdə etnosun özünü identikləşdirdiyi sosial sosiomədəni identiklik adlandırılan növünü də fərqləndirirlər. Belə ki, bizim ölkəmizdə yaşayan çoxsaylı etnoslar özlərini Rusiya cəmiyyəti ilə, xüsusilə rus xalqı ilə identikləşdirirlər. Sosial identifikasiya prosesi–sosiomədəni tolerantlığın və həmrəyliyin təşəkkülünün mühüm amilidir.

Tolerantnalığı həmçinin istənilən sosial münasibətlərdə, o cümlədən sosiomədəni münasibətlərdə həmrəylik yaratmağa qadir olan vasitə kimi də nəzərdən keçirirlər.

S o s i o m ə d ə n i h ə m r ə y l i y i n iki əsas tipi mövcuddur: dəyərlilik həmrəyliyi və funksional-məqsədli həmrəylik. Sosiomədəni həmrəylik eyni zamanda etniklərdaxili və etniklərarası həmrəyliyə bölünür. Dəyərlilik sosiomədəni həmrəyliyinin əsasında mövcud etnosların nümayəndələrinin rəhbər tutduqları əxlaqi və hüquqi dəyərlərin vəhdəti və ümumiliyi durur. İstənilən etnosa digər xalqların dəyərlər sistemindən çox və ya az dərəcədə fərqli olan dominant dəyərlər xasdır. "Özünün" olmayan etnosun mədəniyyətinə, dəyər və əqidələrinə

tolerant münasibət elə bir özüldür ki, onun üzərində etnikarası həmrəylik yaranır.

Etniklərarası həmrəyliyin formalaşmasında din böyük rol oynayır. Müxtəlif dinlər arasında, xüsusilə dünya dinləri arasında tolerant münasibətlər həmişə sosiomədəni və etniklərarası həmrəyliyin rəhnidir.

Müxtəlif etnoslar arasında və onların daxilində funksional-məqsədli həmrəyliyin təşəkkülü mahiyyət etibarı ilə müxtəlif qəbildən olan razılaşmaların, müqavilələrin, sazişlərin bağlanmasından ibarətdir. Hüquqi dövlətdə etnosların bərabərliyi iqtisadi, siyasi və mənəvi sahələrdə onların hüquqlarını və mənafelərini müdafiə edən qanunların sayəsində əldə edilir.

Sosiomədəni həmrəyliyin təsnifatı müxtəlif əsaslar üzrə mümkündür. Belə ki, motivlərdən asılı olaraq sosiomədəni həmrəylik siyasi, iqtisadi, tarixi, konfessional, sosial-məişət və s. həmrəyliyə bölünür. Etnosun inkişaf məqsədlərindən asılı olaraq sosiomədəni həmrəylik ictimai məhsulun bölgüsü prinsiplərindən ibarət olan sosial-iqtisadi həmrəyliyə; hakimiyyətdə iştirakla əlaqədar olan həmrəyliyi nəzərdə tutan sosial-siyasi həmrəyliyə; sosial münasibətlərin, ərazi sərhədlərinin ümumi sistemindəki statusa münasibətdə həmrəyliyi bildirən ərazi-status həmrəyliyinə ayrılır. Etnosların qarşılıqlı-ərazi, iqtisadi və siyasi iddiaları həmişə potensial münaqişələrə malik olur.

Millətlər, siniflər və digər böyük qruplar (sosial-demoqrafik, sosial-professional qruplar və s.) arasında həmrəylik sosiomədəni şəkildə əsaslandırıla bilər. Bu həmrəylik dəyərlərin, mənafelərin, məqsədlərin vəhdətində, ümumiliyində, uyğunluğunda təzahür edir. Qruplararası münasibətlər içərisində milli münasibətlərin sosiomədəni həmrəyliliyi və nizamlılığı çox mühüm yer tutur. Millətlər arasında həmrəylik milli dəyərlərin strukturunda əxlaqi keyfiyyətlərin ümumi səviyyəsinin mövcud olmasına əsaslanır. Əgər millətlər arasında münasibətlər başlıca olaraq bu cür dəyərlər üzərində qurulursa və bunların vasitəsilə tənzimlənirsə, onda müxtəlif millətlərin nümayəndələri həmrəylik şəraitində yaşayırlar. Xalqların mədəni spesifikliyinə məhəl qoyulmaması, üstəlik də repressiyalar və ayrı-seçkiliklər protestlərə, narazılığa, millətlərarası münaqişələrə və sosiomədəni müharibələrə gətirib çıxarır.

Millətlərarası münasibətlərin nizamlanması əxlaqi dəyərlərə söykənməklə, cəmiyyətin mədəni-milli, ərazi xüsusiyyətləri və dövlətin strateji maraqları nəzərə alınmaqla qanunçuluq çərçivəsində həyata



keçilməlidir.

Real sosial praktikada əhalinin yüksək miqrasiyaya malik olduğu regionlarda və şəhərlərdə tolerantlığa nail olunması hər şeydən çətindir. Uzun müddət bir ərazidə yaşayan etnoslar nəinki məişət, eyni zamanda sosial münasibətlərdə sülhə və həmrəyliyə daha artıq dərəcədə meyllidirlər.

Tədqiqatçılar etnik həmrəyliyin üç əsas əlamətini fərqləndirirlər.

1. Müxtəlif etnosların davranışının, hərəkətlərinin və qarşılıqlı əlaqələrinin nizamlılığı. Böyük insan qrupları normalarla və qaydalarla tanış olmuşlar, onları qəbul edir və yerinə yetirirlər. Sosiomədəni dəyərlərdəki mühüm ayrılıqlar düşmən, münaqişə xarakterində deyillər. Sosial məqsədlər etnoslar tərəfindən zəruri və nail oluna bilən bir şey kimi qəbul olunurlar. Bütün bunlar ona gətirib çıxarır ki, müxtəlif millət və xalqların nümayəndələri cəmiyyətdə mövcud olan norma və qaydaların əsasında fəaliyyət göstərir və qarşılıqlı təsirdə olurlar.

2. Sosial mütəşəkkilliyin, həmrəyliyin artması. Sosial-mədəni subyektlər özlərini vahid bir tamın hissəsi kimi dərk edirlər, digər etnoslarla qırılmaz əlaqəni hiss edirlər. Hərəkətlər və qarşılıqlı təsirlər tamın, sosiomədəni və digər sosial subyektlərin maraq və məqsədlərinin nəzərə alınması ilə həyata keçirilir.

3. İnsanlar sosiomədəni mənsubluğundan asılı olmayaraq cəmiyyətdə qəbul olunmuş davranış qaydalarına əməl edir, özlərini sosial cəhətdən müdafiə olunmuş hesab edirlər və sabahkı günlərinə inamları vardır.

Sosiomədəni identikliyin və tolerantlığın formalaşması şəxsiyyətin sosiallaşması prosesində baş verir. Məktəbəqədərki və kiçik məktəb yaşında etnomədəni identikliyin və tolerantlığın ötürülməsində ailə aparıcı rol oynayır. Bu mərhələdə məhz ailə uşağa öz dilinə, mədəniyyətinə məhəbbət aşılayır. Sonralar bu prosesdə təhsil sistemi, referent qrupları mühüm əhəmiyyət kəsb etməyə başlayır. Təhsil sistemində tolerantlıq ideyası bir çox üsullarla: təhsilin və tərbiyənin məzmununun dəyişməsilə, tolerantlıq mədəniyyətinin tədris predmetlərinə daxil edilməsilə, mədəni-tarixi ənənələrin öyrənilməsi, milli mədəniyyət kontekstində şagirdlərin istiqamətləndirilməsi intellektual, əxlaqi, emosional inkişafı ilə; mədəniyyətlərin rəngarəngliyi və qarşılıqlı təsiri anlamının formalaşması ilə; tolerantlıq ideyalarına xas olan dəyərlər, baxışlar və davranış normalarının mənimsənilməsilə; insan haqlarına hörmətin tərbiyə edilməsilə; istənilən

münaqişələrin, o cümlədən sosiomədəni ziddiyyətlərin qarşısının alınması və həllinin pozitiv metodlarının təbliği və tətbiqi vasitəsilə reallaşa bilər.

Tolerantlıq mövzusunu tədris prosesinə daxil edərkən regional fərqləri, milli-mədəni xüsusiyyətləri, sosiomədəni birliklərin öz mədəniyyətlərinin saxlanılmasına və dirçəldilməsinə səyini nəzərə almaq lazımdır. Tolerantlıq ruhunda tərbiyə insanın ümumi hüquq və azadlıqlarının izahından başlanılmalıdır. Məktəblini, tələbəni regionda, şəhərdə etnik situasiyanı təhlil etməyi, etnik münaqişələrin səbəblərini və etnik həmrəyliyin formalaşmasının yollarını müəyyən etməyi, öz münasibətini və davranışını təhlil etməyi öyrətmək lazımdır

Sosiomədəni xüsusiyyətlər özü özlüyündə münaqişə törədən və yaxud pozucu amil deyildir. Davamlı, sabit inkişaf edən cəmiyyətdə kifayət qədər müxtəlif sosial-mədəni qruplara mənsub olan insanlar bir-birinə olduqca asanlıqla isinişirlər, bir-birinə qarşı münasibətdə tolerantdırlar, tez həmrəyləşirlər.

Testlər

1. P. Sorokin mədəniyyətin aşağıdakı tiplərini fərqləndirmişdir:
   a) xalq mədəniyyətini; v) idealist mədəniyyəti;
   b) ideasional mədəniyyəti; q) sensitiv mədəniyyəti.

2. İdealist mədəniyyət dedikdə P. Sorokin başa düşürdü:
   a) ideasional və sensitiv elementlərin balanslaşdırılmış inteqrasiyası ilə səciyyələnən qarışıq tipli mədəniyyəti;
   b) ideasional və sensitiv elementlərin münaqişəsi ilə səciyyələnən mədəniyyəti.

3. Mədəniyyətin subyekti, daşıyıcısı və istehsalçısına uyğun olaraq mədəniyyət bölünür:
   a) elitar mədəniyyətə; q) kommunikativ mədəniyyətə;
   b) xalq mədəniyyətinə; d) kütləvi mədəniyyətə.
   v) informasiya mədəniyyətinə;



4. Submədəniyyət dedikdə başa düşülür:
   a) ümumi mədəniyyətin xalqa xas olan hissəsi;
   b) ümumi mədəniyyətin böyük sosial qrupa xas olan hissəsi.

5. Əksmədəniyyət dedikdə başa düşülür:
   a) əsas mədəniyyətlə qarşıdurmada və münaqişə vəziyyətində olan mədəniyyət;
   b) əsas mədəniyyətlə həmrəy qarşılıqlı təsir vəziyyətində olan mədəniyyət.

Cavablar:

**1**- b, v, q; **2** – a; **3** – a, b, d; **4** – b; **5** – a.

## 3-cü FƏSİL. İNFORMASİYA CƏMİYYƏTİNDƏ MƏDƏNİYYƏT

Nə haqqındasa məlumatların, xəbərlərin məcmusu kimi informasiya anlayışı fəlsəfədə qədim dövrlərdən mövcuddur. Müasir cəmiyyətdə kibernetikanın[1] və informatikanın (informasiyanın bütün növlərinin istehsalı, işlənməsi, saxlanması və yayılması) inkişafı sayəsində bu anlayış yeni məna və daha geniş tətbiq sahəsi əldə etmişdir.

"İnformasiya cəmiyyəti" terminini elmi dövriyyəyə Tokio Texnoloji İnstitutunun professoru Y. Xalşi daxil etmişdir. Yapon alimləri birinci olaraq informasiya cəmiyyəti konsepsiyasının tədqiqi ilə məşğul olmuşlar. Bu ad altında onlar kompüterləşmənin yüksək səviyyəsinin informasiyaya daxil olmağı təmin etdiyi cəmiyyəti başa düşürdülər.

1962-ci ildə amerikan iqtisadçısı F. Meklap belə bir fikir söyləmişdir ki, istənilən digər məhsul kimi biliyi istehsal etmək, yerini dəyişmək, satmaq və satın almaq olar. 1972-ci ildə isə İ. Masudun rəhbərliyi altında yapon tədqiqatçı qrupu "İnformasiya cəmiyyətinin layihəsi, 2000-ci il üçün milli məqsəd" qətnaməsində informasiya

[1] 1948-ci ildə amerikan riyaziyyatçısı, müasir kibernetikanın atası N. Viner "Kibernetika və yaxud canlı maşında İdarəetmə və əlaqə" əsərində canlı orqanizmlərdə cəmiyyətdə və maşınlarda idarəetmə və əlaqə haqqında elm olan kibernetikaya "informasiya baxışını" təklif etdi.

dəyərlərinin istehsalının maddi dəyərlər istehsalı üzərində prioritetliyi ideyasını irəli sürmüşdür, belə ki, informasiya dəyərləri müasir cəmiyyətin inkişafı və formalaşmasının aparıcı qüvvəsidir.

Sankt-Peterburq alimləri M. İqnatyev, E. Pyatlina, Y.Şeynin informasiya cəmiyyətinə elə bir cəmiyyət kimi tərif verirlər ki, burada informasiya iqtisadi və sosial həyatın əsas komponenti kimi çıxış edir. O.Verşinskaya buna diqqət yetirir ki, informasiya sosiumunda xammalın və materialların emalı sahəsində olduğundan daha çox insan məşğuldur.

Bütövlükdə alimlər belə ümumi fikrə gəlirlər ki, bəşəriyyət öz inkişafının yeni mərhələsinə – informasiya fazasına, deməli, informasiya cəmiyyətinə daxil olur. Bu isə artıq nəinki nəzəri problemdir, eyni zamanda reallıqdır.

İnformasiya anlayışı bütün xüsusi elmlər üçün ümumi anlayışa, riyazi ideyaların məcmusunu və riyazi vasitələrin kompleksini özündə birləşdirən informasion yanaşması tədqiqatın ümumelmi vasitəsinə çevrilmişdir. Kommunikasiya vasitələrinin inkişafı ilə ehtimali metodlardan istifadə edilməklə informasiyanın kəmiyyətinin ölçülməsi sahəsində ilk təşəbbüslər edilmişdir. Sonralar isə riyazi informasiya nəzəriyyəsinin digər variantları, xüsusilə sintaktik nəzəriyyələr kimi ümumi ad almış topoloji və kombinator variantları meydana gəlmişdir. İnformasiyanın məzmun (mənaca) və aksioloji (dəyərlilik) aspektləri semantik və praqmatik nəzəriyyələr çərçivəsində tədqiq olunur. Müasir elmdə informasiya anlayışının təkamülü müxtəlif dünyagörüş, xüsusilə, fəlsəfi şərhlərin – transsendental şərhin (informasiyanın fövqəltəbii təbiəti), informasiyanın subyektiv hadisə kimi izahının (neopozitivizmdə və ekzistensializmdə) meydana gəlməsi və s. ilə müşayiət olunurdu.

Bununla belə, informasiya nəzəriyyəsində də, informatikada da axıra qədər həll edilməmiş çoxlu sayda fəlsəfi məsələlər, xüsusilə "informasiya" anlayışının predmet sahəsinə aid olan suallar qalmaqdadır: "informasiya" bütün maddi obyektlərin xassəsidirmi və yaxud yalnız canlı, öz-özünüidarə edən və yaxud şüurlu varlıqların xassəsidir.

Müasir kommunikasiya vasitələri özünün dəyişdirici rolunu hələ XXI əsrdə oynamalıdır. Doğrudur, artıq hazırda yeni informasiya texnologiyaları (İT) məsələn, mülkiyyət haqqında ənənəvi təsəvvürləri dəyişdirə bilmişdir. Siz torpağınızı satdığınız zaman bu torpaq yeni sahibinin əlinə keçir, informasiya isə satıcıdan alıcıya keçmə zamanı satıcıya mənsubluğundan məhrum olmur. Bu da əmtəənin bazarda nə isə hansısa davranış variantı deyil, nə isə daha böyük bir şeydir.



Minilliklər ərzində xalqların yaşayış məkanı və qızıl onların başlıca resursları olmuşdur. Ən yeni zaman isə yeni resurs – informasiyanı yaratmışdır. Hazırkı yüzillikdə məhz bu resurs həlledici resurs, informasiya texnologiyaları isə istənilən şirkətin müvəffəqiyyətinin əsas şərtlərindən biri olacaqdır.

İnformasiya texnologiyaları aparat təminatı, telekommunikasiyalar, məlumat bazalarının idarə edilməsi sistemləri və informasiyanın saxlanılması, işlənilməsi və ötürülməsinin digər texnoloji vasitələri kimi müəyyən olunur. Bu texnoloji priyomlar insanlara bir qədər əvvəl təsəvvürə gətirilməsi mümkün olmayan üsullarla bir-biri ilə ünsiyyət saxlamaq imkanı vermişdir. İT-nın açıqlığı və onların tətbiqinə sərf olunan xərclərin daim aşağı düşməsi yeni aparat vasitələrinə, proqram təminatına və informasiyanın işlənilməsinin digər texnologiyalarına investisiya qoyuluşuna vadar edir, çünki bazarın dönməz tələbi belədir.

Lakin cəmiyyətin informasiyalaşdırılmasının nəticələri, eləcə də yeni texnoloji inqilabların nəticələri müxtəlif xalqlar, regionlar və ölkələr üçün eyni olmayacaqdır. İnformasiyanın və informasiya xidmətlərinin azad istehsalı və mübadiləsi, informasiyaya qeyri-məhdud şəkildə daxil olunması və onun sürətli texnoloji, elmi, sosial tərəqqi üçün, ekoloji və demoqrafik problemlərin həlli üçün istifadə edilməsi insanın azadlıq və hüquqlarının tanındığı, sosial və iqtisadi təşəbbüsün bəyənildiyi, lakin eyni zamanda da tam nəzarətsizliyə və anarxiyaya yer olmadığı, mədəni ənənələrin möhkəm olduğu cəmiyyətlərdə mümkündür.

İnformasiya cəmiyyətinin operativ şəkildə çox böyük miqdarda informasiya kütləsini əldə etmək imkanı vardır və deməli, İT strateji qərarlar qəbul edilməsi prosesinin hər bir mərhələsində əmək məhsuldarlığının yüksəldilməsinə kömək edir. İT biznes-prosesi əhəmiyyətli dərəcədə dəyişdirir, ictimai həyatda yeni imkanlar açır. İnternet və korporativ şəbəkələr, mobil əlaqə-biznesin rəqabət qabiliyyətini saxlamağa, nəzarətin operasional məhsuldarlığının və təsirliliyinin artırılmasına, xarici mühitdəki dəyişikliklərə adekvat şəkildə cavab verməyə imkan verən minimal strateji qərarlardır. (ABŞ-ın Müdafiə Nazirliyinin 1969-cu ildə istifadəyə verilmiş kommunikasiya şəbəkəsi İnternetin Əcdadıdır. Bu gün İnternet çox milyonlarla kompüteri birləşdirir. Modemlə təchiz olunmuş PK-nın hər bir istifadəçisi provayder şirkətinə üzv yazılmaqla ayda təxminən 20 dollara İnternetdən istifadə edə bilər. İT şirkətə işçi prosesləri xeyli dərəcədə

sürətləndirməyə, xərcləri azaltmağa, müxtəlif fəaliyyət növlərinin koordinasiyasını yaxşılaşdırmağa, məhsuldarlığı əhəmiyyətli dərəcədə yüksəltməyə imkan verir).

Bununla belə İT-nin mövcudluğunun özü onların üstünlüklərinin praktik olaraq reallaşdırılmasına təminat vermir. Səviyyəsi çox halda təşkilati normalarla (hər şeydən əvvəl tətbiq etmənin ən ilkin mərhələsində ) müəyyən olunan İT-nin səmərəli istifadə olunmasına ən çox tez-tez onların istər bütövlükdə şirkət tərəfindən və istərsə də bilavasitə istifadəçilər tərəfindən kifayət qədər tanınmaması mane olur.

Cəmiyyətin modernləşdirilməsi prosesi labüd surətdə təhsilin əhəmiyyətinin artması ilə müşayiət olunur. İnformasiya cəmiyyətində ixtisaslaşma və peşəkarlaşma getdikcə daha böyük əhəmiyyət qazanır. Bununla əlaqədar informasiya cəmiyyəti şəraitində tələbələrin problemləri və perspektivləri Rusiya pedaqoqlarının daimi düşüncə predmetinə çevrilmişdir.

Tələbələr -- bilik istehlakının mühüm subyektidir. Tələbələr formalaşmaqda olan informasiya cəmiyyətinə fəal surətdə qoşulurlar. Sözsüz ki, kompüterləşmə onlara çox böyük təsir göstərir. Lakin Rusiyada indiyədək bu prosesə mənfi təsir göstərən ciddi problemlər, xüsusilə, informasiya texnologiyalarının öyrənilməsinin və onlardan istifadə edilməsinin səviyyəsinin kifayət qədər yüksək olmaması aradan qaldırılmamışdır.

Bir çox sosioloqlar informasiya cəmiyyətində tələbələrin perspektivlərini aşağıda göstərilən vəziyyətlərlə əlaqələndirirlər:

- informasiya cəmiyyətinin kompüterləşmədən asılı olan yeni infrastrukturunun formalaşması ilə;
- kompüterlərin təkmilləşdirilməsi ilə;
- informasiya məlumat bankları və informasiyanın kütləvi istehsalı şəbəkələrinin yaradılması və inkişaf etdirilməsi ilə;
- təhsil məqsədləri üçün İnternetdən geniş istifadə edilməsi ilə çox böyük informasiya massivlərinin operativ şəkildə əldə edilməsi imkanı ilə;
- kifayət sayda yüksək ixtisaslı informatika müəllimlərinin hazırlanması ilə;
- multimedia dərsliklərinin hazırlanması ilə;
- distansion təhsilin inkişaf etdirilməsi ilə.

Lakin informasiya sivilizasiyası nəinki nəhəng nailiyyətləri



nümayiş etdirir. Bir çox filosoflar bu sivilizasiyanın sosial tənqidçiləri rolunda çıxış edirlər, ola bilsin ki, insanların gözündən gizlənən təhlükələri görməyə çalışırlar. Onlar hər şeydən əvvəl vahid qlobal informasiya məkanının yaradılmasındakı gözlənilməz çətinlikləri qeyd edirlər. Heç də həmişə sosial, iqtisadi və sosiomədəni amilləri qabaqcadan görmək mümkün olmur, hətta bir vasilədə baş vermiş səhv bütövlükdə sistemi sıradan çıxarmaq təhlükəsi yaradır.

Digər tədqiqatçılar, xüsusilə, amerikalı E. Toffler xəbərdarlıq edirlər ki, cəmiyyətin bu qədər sürətlə inkişafı şok əmələ gətirə bilər. İnsanlar dünyanın gözləməkdə olduğu çox böyük dəyişikliklərə psixoloji cəhətdən hazır deyillər. Alimlər həmçinin bunu da göstərirlər ki, sürətli sosial tərəqqinin ziddiyyətləri insanların cəmiyyətdən uzaqlaşmasına gətirib çıxaracaqdır. Hələ 1970-ci illərin sonlarında E. Fromm informasiyanın insanlar üzərində təzyiq və hökmranlıq vasitəsinə çevriləcəyi informasiya imperializminin meydana gəlməsi imkanından danışmışdır.

Tez-tez yazırlar: elm bilmir ki, yeni texnologiyalar insana necə təsir göstərəcəkdir. Filosoflar informasiya resurslarına daha tez sahib olan ölkələrin siyasi diktatından çəkindirirlər. On yeni siyasi texnologiyalardan və informatika vasitələrindən istifadə etməklə istənilən ictimai rəyi inamla formalaşdırmaq, ictimai şüurla manipulyasiya etmək mümkündür. İnformasiya texnologiyalarının hökmranlığı bütün ictimai və mədəni həyatı qətiyyətlə dəyişdirə bilər.

İnsan informasiya məkanında yaşaya bilərmi? Yeni texnologiyaların insanın psixikasına əlverişli təsirindən danışmaq üçün hələ ciddi əsaslar yoxdur. Əksinə, bir çox tədqiqatçılar göstərirlər ki, kütləvi kompüterləşmə insanın təbiətinə mənfi təsir göstərir, şüuru dəyişdirir. Emosional aləmdən qismən və yaxud tamamilə məhrum olan insanlar meydana gəlirlər. Bunlar "kompüterləşmə zəmanəsinin övladlarıdır". Yeni texnika ilə ünsiyyəti insan ölçüləri ilə, onun mədəniyyəti ilə sınaqdan keçirmək lazımdır.

Rusiya artıq buradan meydana çıxan bütün nəticələri ilə birlikdə informasiya cəmiyyətinin üzvüdür. Emosiyalardan və mənəviyyatdan məhrum olan dünyada yaşayıb yaşamayacağımız və yaxud, əksinə, emosional aləmin mənəviyyatını, zənginliyini, həyatın məhəbbət və fərəhini saxlayıb saxlamamağımız çox cəhətdən məhz bugünkü Rusiya tələbələrindən asılıdır.

Testlər

1. İnformasiya cəmiyyəti konsepsiyalarını birinci olaraq hansı ölkənin alimləri işləyib hazırlamağa başlamışlar:
   a) Rusiyanın;
   b) ABŞ-ın;
   v) Yaponiyanın.

2. İnformasiya texnologiyaları nədir:
   a) aparat təminatı, telekommunikasiyalar, məlumat bazalarının idarə edilməsi sistemləri və informasiyanın saxlanılması, işlənilməsi və ötürülməsinin texnoloji vasitələri;
   b) texnoloji vasitələr.

3. İnternetin nümunəsi olmuşdur:
   a) SSRİ Müdafiə Nazirliyinin kommunikasiya şəbəkəsi;
   b) ABŞ Müdafiə Nazirliyinin kommunikasiya şəbəkəsi.

4. İnformasiya cəmiyyətində nəyin rolu xeyli dərəcədə artır:
   a) biliklərin; b) təhsilin; v) siyasətin.

5. Multimediya dərsliklərinin mövcudluğu informasiya cəmiyyətinin atributudurmu?
   a) bəli;
   b) yox.

Cavablar

**1** - v; **2** - a; **3** - b; **4** - a, b; **5** - a.



# 4-cü FƏSİL. MƏDƏNİYYƏTİN ƏSAS İNSTİTUTLARI

## 4.1. Elm mədəniyyət institutu kimi

Mədəniyyətin institutları adı altında insanların müəyyən sosial əhəmiyyətli funksiyaları yerinə yetirən, özlərinin mədəni dəyərlərdən, davranış norma və nümunələrindən irəli gələn sosial rolları əsasında məqsədlərə birgə nail olunmasını təmin edən mütəşəkkil birliklərini başa düşürlər. Mədəniyyətin aşağıdakı institutlarını fərqləndirirlər: elm, incəsənət, din, kino, teatr, muzey və b. Bunlardan bəzilərini nəzərdən keçirək.

İnsan çox müxtəlif biliklərə sahibdir, lakin onların heç də hamısı elmi biliklər deyildir. Elmi biliyi müddəaların və nəticələrin rasionallığı, onların hamı üçün əhəmiyyətliliyi, şəxssizliyi fərqləndirir. Elmi bilikdə subyektiv rəğbət və yaxud nifrət, etiqad və əqidələr deyil, obyektiv həqiqət əks olunur. Bu bilik yenidən bərpa oluna bilər və yoxlanıla bilər (elmi bilik verifikasiya oluna bilər); o, şərtlərin, parametrlərin xüsusi dilin məntiqi ciddiliyi, dəqiqliyi, birmənalılığı ilə, ayrı-ayrı elementlərin qarşılıqlı məntiqi asılılığı ilə səciyyələnir.

"Elm" termini altında biliklər məcmusunu və ictimai əməyin xüsusi növünü, elmi bilikləri hasil etməli, toplamalı, dərk etməli və nəzəri cəhətdən sistemləşdirməli olan, həmçinin onun istifadə edilməsi mexanizmlərini işləyib hazırlamalı olan özünəməxsus fəaliyyət növünü başa düşürlər. Elmin məqsədi həqiqətə, təbiət, cəmiyyət və təfəkkür, insan haqqında həqiqi biliyə nail olmaqdır.

Alman ekzistensialist filosofu M. Haydegger elmə belə tərif vermişdir: "elm mövcud olan hər şeyin bizim üçün necə olacağını müəyyən edən üsuldur, özü də həlledici üsuldur". Buna görə də o göstərirdi ki, içərisində bugünkü insanın hərəkət etdiyi və orada qalmağa çalışdığı gerçəklik getdikcə daha çox Qərbi Avropa elmi adlandırılanla müəyyən olunur.

1930-cu illərdə amerikan sosioloqu R. Merton "VII əsr İngiltərəsində elm, texnika və cəmiyyət" əsərində birinci dəfə olaraq elmi əsasında mənəvi ilkin şərtlərin durduğu sosial institut kimi nəzərdən keçirmişdir.

1960-cı illərdə Mertonun elə "Elmin sosiologiyası" adlanan əsəri çıxır. Merton əmin idi ki, elm institutu yeni və səhih bilik əldə edilməsi

üzrə fəaliyyəti, stimullaşdırmalıdır. Mertonla yanaşı C. Bernal (İngiltərə), U. Oqborn, P. Sorokin, T. Parsons, T. Kun (ABŞ), D. Qvişiani, Q. N. Dobrov (SSRİ) K. Manheym, M. Şeler (Almaniya) elm olaraq sosiologiyanın inkişafına böyük töhfə vermişlər.

Elmi sosiomədəni institut kimi nəzərdən keçirərkən qeyd etmək lazımdır ki, müasir cəmiyyətdə "faydaya xidmət göstərilməsi" kimi sosiomədəni prinsip üstünlük təşkil edir, halbuki belə olduqda "həqiqətə xidmət göstərilməsi" prinsipi ikinci plana keçirilmişdir. Ola bilsin bu, elmin kifayət qədər maliyyələşdirilməməsi ilə, alimin nüfuzunun aşağı düşməsilə bağlıdır.

Müasir sosioloji ədəbiyyatda sosiomədəni institut olaraq elmin aşağıdakı sosial funksiyalarını fərqləndirirlər:

- kreativ-praktik funksiya. Bu funksiya elmi biliklərin istehsalına və gücləndirilməsinə, irəli sürülmüş elmi müddəaların və nəzəri konstruksiyaların təcrübi yoxlanılmasına (verifikasiyasına) yönəldilmişdir;
- praktik funksiya. Bu funksiya elmin istehsalla və idarəetmə ilə əlaqəsini müəyyən edir. Elm bilavasitə məhsuldar qüvvəyə çevrilir. Əldə edilmiş biliklərə nəinki nail olmaq, eyni zamanda onları reallaşdırmaq əhəmiyyət kəsb edir;
- mədəni-dünyagörüşü funksiyası. Bu funksiya yeni elmi dünyagörüşünün və elmi mədəniyyətin yeni tipinin, dünyaya elmi baxışın və münasibətin formalaşması deməkdir, əldə edilmiş biliklərin yayılması deməkdir; elm cəmiyyətin mənəvi inkişafının özünəməxsus vasitəsi kimi çıxış edir;
- kommunikativ funksiya. Bu funksiya elm aləmindəki qarşılıqlı münasibətləri, əlaqələri nəzərdə tutur. Elmi cəmiyyətlər, konfranslar, diskussiyalar və s. buna misal ola bilər;
- proqnostik funksiya. Bu funksiya gələcəkdə baş verə biləcək yeni faktları, hadisə və prosesləri qabaqcadan xəbər vermək qabiliyyətindən ibarətdir.

Elmlərin aşağıdakı tiplərini fərqləndirirlər: təbiətşünaslıq elmləri, ictimai (sosial) elmlər və antropoloji elmlər. Təbiətşünaslıq elmlərində öyrənmənin predmetini təbiət, sosial elmlərdə – cəmiyyət, antropoloji elmlərdə – insan təşkil edir. Bununla belə bir sıra elmlər müxtəlif bilik sahələrinin qovşağında yerləşirlər, inteqrativ predmet sahəsinə malikdirlər. Məsələn, məntiq, psixologiya, sosial ekologiya.

İctimai elmlər digər elmlərdən fərqli olaraq həm obyektiv faktları



(real hadisələri, prosesləri, hərəkatları), həm də subyektiv faktları (fikirləri, qiymətləndirmələri, əqidələri, motivləri, məqsədləri) öyrənir.

Sosioloji tədqiqat elmin struktur təşkilinin öyrənilməsini nəzərdə tutur. Elmin strukturunda iki elementi fərqləndirirlər: elmi fənni və elmi kollektivi. Bu günümüzə qədər çoxlu sayda elmi fənlər mövcuddur, o cümlədən elmşünaslıq. Elmi kollektiv digər əmək kollektivlərindən əhəmiyyətli dərəcədə fərqlənir, bu da bir tərəfdən, elmin məqsəd və vəzifələri ilə, digər tərəfdən də, elmlə məşğul olmaq üçün tələb olunan intellektin səviyyəsi ilə şərtlənir. Doğrudur, alimlər rəngarəng keyfiyyətlərə malik elə həmin adamlardır.

## 4.2. İncəsənət mədəniyyət institutu kimi

İncəsənət – mədəniyyətin mühüm hissəsidir. İncəsənət emosiyalarla və həyəcanlarla bağlı olduğundan gerçəkliyin hissi qavrayışını və yenidən subyektiv bərpasını nəzərdə tutur. İncəsənətdə fikirlər və iradə həlledici rola malik deyillər. Elm həqiqəti, incəsənət isə gözəlliyi araşdırır.

Budur böyük mütəfəkkirlər incəsənət haqqında belə deyirlər: incəsənət "həqiqəti hissi formada aşkara çıxarmalıdır" (Hegel); incəsənət "insan qəlbinin dərinliklərinə işıq" saçır (Şuman), insanlar üçün ünsiyyət vasitəsidir, incəsənət onları birləşdirir (L. Tolstoy).

Obrazlılıq incəsənətin mühüm tərkib elementidir. Təxəyyül gücü ilə müəllif hadisələri və onların səbəblərini konkret obrazlar şəklində əks etdirir. Bu halda obrazın real gerçəkliklə uyğunluq dərəcəsi müxtəlifdir: konkret şəkildə tanınılmaqdan qeyri-müəyyən abstrakta qədər. İncəsənət bitmiş, tamamlanmış müəllif əsərləri şəklində təzahür edir. İncəsənətin mahiyyətinin öyrənilməsi ilə estetika məşğul olur.

İncəsənət – həmişə sosial təcrübədən, subyektiv vəziyyətdən, sosial situasiyadan asılı olaraq qiymətvermələri dəyişməyə imkan verən yaradıcı qavrayışdır. Məsələn, bizim əlverişsiz ekoloji situasiyaya və sosial fəlakətlərə malik zamanəmizdə Holland rəssamı X. Bosxun (1460 - 1516) bir vaxt yarımsərsəm hesab olunan tabloları yeni şəkildə qavranılır.

İncəsənətin təsiri sosial statusdan və yaxud təhsildən asılı deyildir. Demokratik və hamı üçün açıq olan incəsənət insanı vəcdə gətirir, onun hisslər və emosiyalar aləminə nüfuz edir. İncəsənət proqressiv və yaxud reqressiv olmur. Cəmiyyət bəzən dünyaya elə yaradıcı bəxş edir ki, onun meydana gəlməsini, sosial şəraitlə izah etmək çətin olur. Məsələn, Antik

dövrdə, İntibah dövründə bədii yaradıcılığın yüksəlişi nə ilə bağlıdır?

İncəsənəti sosioloji cəhətdən strukturlaşdırsaq, incəsənət əsərinin yaradıcısını və incəsənətin istehlakçısını fərqləndirmək mümkündür.

İncəsənət sosial institut olaraq aşağıdakı sosial əhəmiyyətli funksiyaları yerinə yetirir:

- kommunikativ funksiya. Həmin funksiya buna əsaslanır ki, insanlar incəsənətlə tanış olmaq və onu mənimsəmək prosesində yüksək emosionallıq və hissiyyat səviyyəsində ünsiyyətdə olurlar, bunun sayəsində də mənəvi birliyə nail olunur;
- praktik funksiya. Bu funksiya gerçəkliyə mənəvi münasibəti nəzərdə tutan incəsənət şedevrlərinin yaradılması ilə əlaqədardır. İncəsənətin praktik əhəmiyyəti onun müxtəlif növlərində təzahür edir: təsviri sənətdə, musiqi, sintetik, "texniki", dekorativ-tətbiqi sənətlərdə və digər sənətlərdə. Həmçinin cürbəcür istiqamətlərdə, cərəyan və üslublarda incəsənətin təcrübi əhəmiyyəti reallaşır, bunlarda bədii əlamətlərin tarixən təşəkkül tapmış və müxtəlif epoxalar və xalqlar üçün səciyyəvi olan ümumiliyi əks olunur (məsələn, Roma üslubu, barokko, romantizm, realizm);
- relaksasion funksiya. Bu funksiya incəsənətin insanın ruhi-mənəvi aləminə, bu aləmin bərpasına, müvazinətinə təsirini inikas etdirir. İncəsənətin təsiri altında insan sosial proses və dəyişiklikləri ayrı cür qavramağa başlayır;
- əvəzvermə funksiyası. Bu funksiya sosial aləmdə insanın "gözəlliklə" ünsiyyətinin çatışmayan hissəsinin əvəzinin çıxılmasına cavabdehdir. İncəsənət insanın gözəlliyə tələbatını təmin edir, ödəyir;
- hedonik funksiya. Həmin funksiya incəsənətdən həzz almaqdan, insanın həzz almaq tələbatının ödənilməsindən ibarətdir;
- harmoniyalaşdırıcı funksiya. Bu funksiya nəzərdə tutur ki, incəsənət münasibətləri ahəngdarlaşdırır, insanda harmoniklik tərbiyə edir.

Beləliklə, incəsənət sosial həyatda mühüm rol oynayır, cəmiyyətə sabitləşdirici təsir göstərir.

## 4.3. Din mədəniyyət institutu kimi

Mədəniyyətin inkişafı dinlə qırılmaz surətdə bağlıdır. Yada salaq ki, əvvəlcə bütpərəstlik, politeizm meydana gəlmiş və yalnız sonralar vahid Allah ideyası yaranmışdır. Qərb sosiologiyasında din adı altında



etiqadların, simvolların, dəyərlərin və insanlar qrupunu varlığın predmet kateqoriyaları sahəsinə aid məsələlərin həlli ilə təmin edən praktikaların institutlaşdırılmış sistemini başa düşürlər. Rusiya sosiologiyasında bu, əsasında fövqəltəbiiliyin izah olunduğu etiqad və ayinlərin sistemidir. Sosiologiyanın tarixində dinin rolunun dərk edilməsi sahəsində iki yanaşmanı fərqləndirmək olar: 1) neqativ yanaşma - dinin inkar edilməsi və onun tənqidi (Demokrit, Tit Lukretsi Kar, Lukian, Abelyar, Kopernik, Bruno, Monten, Makiavelli, Helvetsi, Holbax, Didro, Feyerbax, Nitsşe, Marks, Engels, Lenin, Rassel və b.); 2) pozitiv yanaşma - dinin faydasının və zəruriliyinin qəbul edilməsi (Spinoza, Dekart, Hobbs, Bekon, Volter, Robespyer, Tolstoy, Dostoyevski, Berdyayev, Dürkheym, M. Veber və b).

Dinin sosioloji öyrənilməsi onu sosial fenomen, hadisə kimi nəzərdən keçirməyi nəzərdə tutur. Sonralar K. Marks tərəfindən inkişaf etdirilmiş ateist təlimi işləyib hazırlamış O. Kont dinə "baxışlar və əməllərin davranışı tənzimləyən və sitayiş predmeti kimi çıxış edən istənilən sistemi" kimi müəyyənləşdirirdi. O, dini gerçəkliyin, insan üzərində hökmranlıq edən təbii və sosial qüvvələrin tarixən qanunauyğun, fantastik inikası hesab etmişdir. Marks dini istismar vasitəsi, "xalq üçün tiryək" kimi nəzərdən keçirirdi. Konfliktoloji nəzəriyyələr belə bir nöqteyi-nəzərə əsaslanırdı ki, din müəyyən sosial qrupların digər sosial qruplar üzərində hökmranlığını saxlamağa kömək edir, insanların istismarına şərait yaradır. Marksist-leninçi təlim sosializm ölkələrində özünün əməli təcəssümünü tapmışdır (məbədlərin, monastırların dağıdılması və bağlanılması, kilsənin dövlətdən ayrılması, din xadimlərinin təqib edilməsi və s.).

E. Dürkheym və M. Veber dinə sosiomədəni inteqrasiyanın çox mühüm amili kimi yanaşırdılar. Dürkheym insan qrupları və kollektivlərinin formalaşmasında dinin rolunu və əhəmiyyətini tarixi dövrlərdən (epoxadan) asılı olmayaraq tədqiq edib, cəmiyyəti elə bir özünütənzimləyən orqanizm kimi nəzərdən keçirirdi ki, dövlət onun ağlı, din isə canıdır. Dürkheymə görə din mədəniyyətin inteqrasiyasının, yaranmasının və onun dəyərlərinin ötürülməsinin əsasında duran rəmzlərin, simvolların məcmusudur. "Dini həyatın sadə formaları" adlı əsərində alim Avstraliya totemik ayinlərinin nümunəsində dinin qaynaqlarını, köklərini izləmiş və sosial birliklərin formalaşmasına onların təsirini göstərmişdir. Onun hesab etdiyi kimi, din cəmiyyətin inkişafını stimullaşdırır, çox mühüm mədəniyyətyaradıcı amil kimi çıxış

edir. Burada o əhəmiyyətli deyildir ki, bu, xristianlıqdır, islamdır və yaxud hər hansı digər bir etiqaddır, təki insanlar birləşmiş, mütəşəkkil və xoşbəxt olsunlar.

Veber göstərirdi ki, kilsə daha çox universal institutlaşmaya meyl edir, halbuki sekta adətən dindarlar arasında ilkin, şəxsi əlaqə və münasibətlərə səy göstərən kiçik qrupdan ibarət olur. Kilsə sosial institut olaraq çoxlu insanları birləşdirir. Bu, cəmiyyətin strukturuna daxil edilmiş və dini fəaliyyət üçün peşəkarcasına hazırlanmış insanlar qrupuna malik formal təşkilatdır.

Dinin və onun etik normalarının cəmiyyətin iqtisadi həyatına təsirini, həmin iqtisadi həyatın konkret tarixi və coğrafi şəraiti hesaba almaqla nəzərdən keçirərkən Veber "Protestant etikası və kapitalizm ruhu" əsərində sübut edirdi ki, çox böyük iqtisadi nailiyyətləri təmin etmiş kapitalizm çox cəhətdən katolisizmdən fərqli olaraq protestantizm üçün səciyyəvi olan dini motivlərin və dəyərlərin nəticəsi idi. Veberə görə mistika ilə aşılanmış katolisizm feodal münasibətlərinin əsasında, rasionalist protestantizm isə kapitalist münasibətlərinin əsasında durur. Protestant ailəsi uşaq vaxtlarından körpədə əməksevərlik, qənaətçilik, səmimilik, təvazökarlıq, sərhesablıq, işgüzarlıq, peşə borcuna sadiqlik kimi keyfiyyətləri tərbiyə edir. Yığıcılığa və istehlakçılığa səy göstərilməsinə tərəfdar olmayan Veber qeyd edirdi ki, kapitalizm ruhuna sahib olmuş insanlar dinə münasibətdə kifayət qədər biganədirlər. Veberə görə kapitalizmin "ümumi əlamətdar cəhəti" rasionalizm, praqmatik haqq-hesabdır. Kapitalizm dindən kənardır.

Dinlə bu və ya digər sivilizasiyanın, bu və ya digər cəmiyyətin təkrarolunmaz simasını yaradan iqtisadiyyat arasında sıx qarşılıqlı əlaqənin mövcud olması haqqında fikir Veberin ümumiləşdirici ideyasıdır.

Bütövlükdə Dürkheym və Veber cəmiyyətdə dinin birləşdirici və möhkəmləndirici rolunu, onun inteqrativ əhəmiyyətini göstərmişlər.

Sosioloqlar dinin strukturunda aşağıdakı elementləri fərqləndirirlər:

- müqəddəsliyin, fövqəltəbiiliyin qəbul edilməsi, onlara etiqad;
- dini ideologiya və dindarların, ayin xidmətçilərinin dini fəaliyyəti formasında mövcud olan dini şüur (mömin həyat obrazı haqqında təsəvvür və s.);
- ayin formalarında və ayindənkənar formalarda həyata keçirilən və dinin fəaliyyət göstərməsi, yayılması və saxlanılmasına



istiqamətləndirilmiş dini fəaliyyət (ayinlər, fəaliyyət nümunələri);

- dini fəaliyyətin subyektləri (ayrı-ayrı şəxsiyyətlər, sosial qruplar və təşkilatlar);
- bir dini etiqada inam bəsləyən dindarların birləşdirilməsini nəzərdə tutan dini təşkilatlar;
- dini hərəkatlar (zəvvarlıq, müharibələr, ekumenik hərəkat, qardaşlıqların yaradılması və b.).

Din həmçinin sosial əhəmiyyətli funksiyaları yerinə yetirir. Məsələn, Dürkheym insan həmrəyliyinin oyanmasını və cəmiyyətin inkişafı üçün idealların, dəyərlər və normaların irəli sürülməsini dinin əsas funksiyası hesab edirdi.

Z. Freyd dini mənəvi əsarət amili və ümumbəşər nevrozu kimi başa düşürdü. Lakin bununla belə Freyd dinin üç sabitləşdirici və təşkiledici funksiyasını göstərmişdir: insan marağının təmin edilməsi; həyatın təhlükələri və dönüklükləri qarşısında qorxunun aradan qaldırılması; bədbəxtlikdə onların təskinlik tapması; qadağa və məhdudiyyətləri bəyan edən təlimatlar. Freydə görə din "mədəniyyətin psixoloji arsenalı, ambarıdır".

Müasir sosiologiyada adətən dinin aşağıdakı f u n k s i y a l a r ı n ı fərqləndirirlər:

- dünyagörüşü funksiyası. Bu funksiya dünyanın dini mənzərəsinin yaradılmasına, insanın məna və amalının, onun mənəvi və ictimai inkişafı yollarının izahı və aydınlaşdırılmasına əsaslanmışdır:
- inteqrativ funksiya. Bu funksiya müəyyən dini dəyərlər ətrafında insanların birləşdirilməsindən ibarətdir;
- normativ-tənzimləyici funksiya. Bu funksiya dindarlardan tələb olunan və onların davranışını tənzimləyən dini ideálların, dəyərlərin, ehkamların, norma və göstərişlərin, ayin və ənənələrin, davranış standartlarının yaradılmasından ibarətdir;
- əvəzvermə funksiyası – maddi çatışmazlıqları və məişət problemlərini, sosial və şəxsi rahatsızlığı, öz həyatını qura bilməmək, diqqətdən kənarda qalmaq və s. əvəzini çıxan dini ünsiyyətdə, fəaliyyətdə ifadə olunur.
- psixoterapevtik funksiya – dinin hiss və emosiyalara təsirini, bərpaedici psixoloji təsiri nəzərdə tutur (dualar, ibadətlər və s.);
- relaksasiya funksiyası – digər relaksasiya üsulları olmadıqda dinin vasitəsilə insanın ruhi və mənəvi qüvvələrinin bərpa edilməsidir;

- kommunikativ funksiya – digər dindarlarla ünsiyyətdən ibarətdir.

Dinin sosiologiyası müstəqil istiqamət kimi XIX əsrin sonlarında sosiologiyanın çərçivəsi daxilində meydana gəlmişdir. Hazırkı vaxtda dinin sosiologiyası dinin nəinki mahiyyətinin, strukturu və funksiyalarının, eyni zamanda dini münasibətlərin intensivliyinin, dinə qovuşmanın səbəblərinin, insanın dindarlığının səviyyə və xarakterinin, dini davranış və fəaliyyətin xüsusiyyətlərinin və yönümünün, sekulyarizasiya proseslərinin və dinin sosiomədəni rolunun öyrənilməsi ilə məşğul olur. Sosioloqlar P. Berger və D. Lukman dinin yeni sosial formaya keçməsi prosesindən haqqında danışırlar, nə zaman ki, insan dünyanı konstruksiya edərkən, özü özü üçün konstruksiya etmənin əsası olaraq müəyyən sistemi seçir.

Müasir Rusiya cəmiyyətində dindarlığın artması müşahidə edilir. Bununla əlaqədar olaraq dinin yeri, rolu və funksiyalarının, sosial proseslərə dinin təsiri mexanizmlərinin və bu təsirin dərəcəsinin sosioloji təhlili xüsusi aktuallığa malikdir.

## Testlər

1. Elmin fərqləndirici cəhətləri:
 a) müddəaların və nəticələrin rasionallığı;
 b) müddəa və nəticələrin irrasionallığı;
 v) ümuməhəmiyyətlilik və şəxssizlik.

2. Elmin məqsədi:
 a) bilik əldə edilməsi;
 b) həqiqi biliyin əldə edilməsi.

3. Elmi sosial institut kimi birinci dəfə nəzərdən keçirmişdir:
 a) T. Parsons;
 b) R. Merton;
 v) Ç. Kuli.



4. Elmin tiplərini söyləyin:
 a) texniki elmlər;
 b) təbiətşünaslıq elmləri;
 v) antropoloji elmlər;
 q) ictimai (sosial) elmlər

5. İctimai münasibətlərin ahəngdarlaşdırılması incəsənətin funksiyasıdırmı?
 a) bəli;
 b) xeyir.

6. Dinin cəmiyyətin iqtisadi həyatına məqsədyönlü təsirini nəzərdən keçirmişdir:
 a) K. Marks; b) M. Veber.

Cavablar

**1** – a, v; **2** – b; **3** – b; **4** – b, v, q; **5** – a; **6** – b.

## Seminarlarda və "Dəyirmi masa"larda müzakirə olunmaq üçün mövzular:

1. Rus sosiologiyasında mədəniyyət problemləri.
2. Mədəniyyətin assimilyasiyası və dissimilyasiyası.
3. Gənclər qruplarının submədəniyyəti.
4. Müasir Rusiya cəmiyyətində *kütləvi mədəniyyət* problemləri.
5. Müasir şəraitdə sosiomədəni identiklik problemləri.
6. *Müasir Rusiyada informasiya mədəniyyətinin formalaşması.*
7. Şərq və Qərb: sosiomədəni supersistemlər.
8. Transkulturasiya: mitlər (əfsanələr) və tarix.

## III BÖLMƏ
## ŞƏXSİYYƏT VƏ CƏMİYYƏT

# 1-ci FƏSİL. ŞƏXSİYYƏT ANLAYIŞI, ŞƏXSİYYƏTİN STRUKTURU VƏ TİPOLOGİYALARI

## 1.1. Sosiologiyada şəxsiyyət anlayışı

İnsan və şəxsiyyət bir çox elmlərin predmetini təşkil edir. Təbiət elmləri insanı təbiət varlığı kimi, humanitar elmlər – ictimai varlıq kimi öyrənirlər. Burada birincilər, yəni təbiət elmləri insanın mövcudluğunun sosial şərtlərini və amillərini, ikincilər isə, yəni humanitar elmlər insanın təbii tələbatlarını nəzərə alırlar.

Sosiologiyada insanın öyrənilməsi digər humanitar elmlərlə, xüsusilə fəlsəfə, etika, mədəniyyətşünaslıq, psixologiya, politologiya, iqtisadiyyat, hüquqşünaslıqla kəsişir. Beləliklə, bir tərəfdən, elmlərin inteqrasiyası, digər tərəfdən isə, diferensiasiyası baş verir.

Sosiologiya – insanı sosial tip kimi, sosial birliklərin fəaliyyəti prosesində qazanılmış tipik xüsusiyyətlərə malik olan şəxsiyyət tipi kimi tədqiq edən yeganə elmdir. Bununla yanaşı sosiologiyanın diqqət sahəsinə real mövcud olan şəxsiyyətlər də daxil edilmişdir, elə şəxsiyyətlər ki, onların formalaşması "cari ictimai-mədəni şəraitin" spesifikası ilə şərtlənmişdir. Lakin bu real mövcud olan şəxsiyyətlərin fərdi xüsusiyyətləri deyil, insanda sosial cəhətdən tipik olan, insanın funksiyaları və oynadığı rollar, həmçinin sosial əhəmiyyətli fəaliyyəti öyrənilir. İnsanda sosial olan şəxsiyyətin sosioloji təhlilində ilkin, başlıca cəhətdir.

Humanitar elmlərdə "insan", "fərdiyyət", "fərd", "şəxsiyyət" anlayışlarından geniş istifadə olunur. Bu anlayışlardan hər birinin spesifik yükü vardır.

"İnsan" anlayışında bəşər nəslinə xas olan cəhətlər əks olunur, insan bioloji və sosial varlıq kimi çıxış edir. "Fərd" - ayrıca götürülmüş insandır, insan nəslinin vahididir, bəşəriyyətin bütün sosial və psixoloji



cəhətlərinin, zəkanın, iradənin, tələbatların, mənafelərin, dəyərlərin və s. konkret daşıyıcısıdır. "Fərd" anlayışı ayrıca götürülmüş insan səviyyəsində bir tam kimi insanın xarakteristikalarını, əlamətlərini əks etdirir; fərd insan nəslinin bölünməz və sonlu məxsusi atomudur, ilk kərpicciyəzidir. "Fərdiyyət" anlayışında bir fərdi digər fərddən fərqləndirən məxsusi, orijinal olan əks olunur. Bunlar fizioloji, psixoloji, mədəni və digər xüsusiyyətlər ola bilər.

Antik dövrdə şəxsiyyət aktyor tərəfindən teatrda istifadə olunmuş və oynanılmış üz örtüyü, maska və roldur. Şəxsiyyətin sosioloji izahında insanda sosiallığın ölçüsü, insanın sosial münasibətlərə daxil olmasının ölçüsü əks olunur. K. Marks "Hegelin hüquq fəlsəfəsinin tənqidinə dair" əsərində yazırdı ki, "şəxsiyyət" anlayışına onun saqqalı və yaxud qanı deyil, abstrakt fiziki təbiəti deyil, onun "sosial keyfiyyəti" uyğun gəlir. Şəxsiyyət – ictimai varlıqdır. Şəxsiyyət anlayışı insanın təbiətdənkənar, təbiət fövqündəki mahiyyətini seçib qeyd etməyə, onun sosial başlanğıcına və mahiyyətinə elmi diqqət yetirməyə imkan verir. *Şəxsiyyət - fərdin inkişafının nəticəsidir, insanın sosial keyfiyyətlərinin tam təcəssümüdür.*

İnsan şəxsiyyət kimi müəyyən təkamül keçirmişdir. İbtidai vaxtlarda o, adaptiv, uyğunlaşma fəaliyyəti ilə səciyyələnmişdir, halbuki bizim müasirimiz olan insanın daha zəngin funksional repertuarı var və bütövlükdə təbiətdə və cəmiyyətdə fəal dəyişdirici rol oynayır. Şəxsiyyət insanı təbiət aləmindən qoparıb ayıraraq, daha dolğun şəkildə təzahür etmiş, formalaşmış, insanı zənginləşdirmişdir, onun xüsusi (ictimai) təbiətinin getdikcə daha da təmərküzləşmiş substansiyasına çevrilmişdir.

Şəxsiyyətə həsr edilmiş ilk sosioloji əsərlərdən birinin müəllifi olan İ.S. Kon (bax: Kon, 1967) şəxsiyyəti onun inkişafına təsir edən bütün əvvəlki tarixin təsiri şəraitində şüurlu fəaliyyət münasibətlərinin subyekti kimi nəzərdən keçirmişdir. Kon qeyd edirdi ki, insan şəxsiyyət olaraq doğulmur, sonradan şəxsiyyətə çevrilir. V.A. Yadov şəxsiyyətin sosial tərkib hissəsini qeyd etmişdir: "Şəxsiyyət insanın sosial xassələrinin bütövlüyüdür, ictimai inkişafın və fərdin fəal "unsiyyət" fəaliyyətinin vasitəsilə sosial münasibətlər sisteminə daxil olmasının məhsuludur".[1]

Bir çox müasir tədqiqatçılar şəxsiyyət anlayışını insan fərdinə nisbətən həcmcə daha geniş olan sosial obyektlər sinfinə (tayfa, qrup,

[1] *Ядов В.А.* Социология: словарь-справочник. М. 1990. Т.2

dövlət) şamil edirlər, "sosial şəxsiyyəti" ixtiyari ümumilik səviyyəsinə malik hansısa sosial bir obyektə xas olan bütöv, unikal doktrinal - konstitusion kompleks kimi (hazırkı sosial obyektin inteqrasiya olunmuş super həyat proqramı, onun müxtəlif dərəcədə dərk olunan ideallarının, dəyərlərinin, nəzəri baxışlarının, qanunların və həmin sosial obyektin mövcudluğunun, yenidən istehsalının və inkişafının təşkilinin tətbiqi nümunələrinin iyerarxiyalaşdırılmış sistemi müəyyənləşdirirlər.

## 1.2. Şəxsiyyətin strukturu

Şəxsiyyət mürəkkəb şəkildə strukturlaşdırılmış qurumdur. Bu halda şəxsiyyətin struktur komponentləri qabaqcadan fiziki və ya bioloji təbiətlə deyil, şəxsiyyətin fəal sosial fəaliyyətin subyekti kimi daxil olduğu ictimai münasibətlərin bütün məcmusu ilə müəyyən olunur.

Şəxsiyyətin sosiologiyasının təşəkkülünə məşhur Avstriya psixoloqu Z. Freyd tərəfindən işlənib hazırlanmış psixoanalitik nəzəriyyə mühüm təsir göstərmişdir. Şəxsiyyətin strukturunda Freyd üç başlıca psixoloji komponenti qeyd etmişdir: O (İd), Mən (Eqo) və Fövqəl-Mən (Super-Eqo)

O şüursuz instinktlərin hökm sürdüyü təhtəlşüur və ya şüursuzluq sahəsidir. Bunlar bioloji tələbatların təmin edilməsi ilə bağlıdır. Bu tələbatların içərisində Freyd libidozlu (intim meylləri) və aqressiv meyli xüsusi olaraq seçirdi. Ətraf aləm bu tələbatların təmin olunmasına mane olduğundan, onlar sıxışdırılır və instinktiv psixoloji enerjinin (libidonun) nəhəng cənini əmələ gətirir. Şüuraltını təminetmə prinsipi idarə edir. Freyd göstərirdi ki, hər bir insanda elə bir mövcudluq vardır ki, o deyir: yalnız mənim xoşuma gələni icra edəcəm. Lakin çox vaxt bioloji təbiətin diktə etdiyi və cəmiyyətin pislədiyi şey xoşa gəldiyindən fərd bununla mübarizə aparmağa məcbur olub, onu şüursuzluq sahəsinə sıxışdırır.

Mən - şüur sferası olub, şəxsiyyətin, onun xarici aləmlə təmaslarını idarə edən komponentini müəyyən edir. Dünyaya gələrkən insanda dərhal təmin edilməsini tələb edən yalnız bioloji instinktlər mövcud olur. Lakin zaman keçdikcə insan ətrafdakıların təsiri altında onların qabağını almağa başlayır, özünü qaydalara uyğun aparmağı, ondan tələb olunanı yerinə yetirməyi öyrənir. Şüursuz olanı cilovlamağa və onu sosial cəhətdən bəyənilən davranışa doğru yönəltməyə çalışan şüur və yaxud Mən belədə formalaşır.



Şüur sferasını insanı ağıla qulaq asmağa məcbur edən reallıq prinsipi idarə edir. Rasional Mən insanı sərhesab, təşəbbüskar, zirək, öz məqsədlərinə nail olmağa və çətin şəraitdən çıxmağa qadir edir.

Fövqəl-Mən - interiorlaşdırılmış mədəniyyət sferasıdır, yəni fövqəlşüurdur: daxili, fərd tərəfindən mənimsənilmiş sosial əhəmiyyətli normalar, sosial qadağalar, cəmiyyətin diktə etdiyi davranış normaları və s. Fövqəl-Məni Freyd şəxsiyyətin əxlaqi məhdudlaşdırılmasının daxili nəzarətçisi, mənbəyi adlandırır. Fövqəl-Mən tərbiyə prosesində şüursuz surətdə (hər şeydən əvvəl ailədə) formalaşır və vicdan şəklində təzahür edir.

Həlledici rolu Freyd O-nun şüuraltı komponentinə verir, bu ad altında insan şəxsiyyətinin ən iri və ən dərin qatını, psixi özlüyünü başa düşür; o elə bir buğdadır ki, sosiallaşma prosesində ondan Mən və Fövqəl-Mən meydana gəlir.

Bütün üç komponent daimi münaqişədədir. Fövqəl-Mən-nin enerjisi ilə söndürülən şüursuz meyllər insan üçün dözülməz gərginlik yaradır. Deməli, özünün təzahürlərindən birində dayandırılmış olan həmin meyllər başqa bir şeydə labüd olaraq müəyyən səmərə verməlidir. Bu cür səmərələrin mədəniləşdirilməsi Fövqəl-Mən-nin təsiri əsasında həyata keçirilir. Freydə görə insanın yaradıcılığı "gizlinə" sıxışdırılmış şüursuz tələbatların simvollaşdırılmasıdır.

P. Sorokin tamamilə müəyyən sosial koordinatlar sistemində şəxsiyyətin formalaşması, inkişafı və fəaliyyəti haqqında müddəanı hərtərəfli əsaslandırıb, qeyd etmişdir ki, şəxsiyyət çoxplanlı mozaik (alabəzək) struktura malikdir. Şəxsiyyət bütövdür, lakin bununla yanaşı o, çox vaxt bir-birinə əks olan bir sıra Mən-lərə bölünür. Sorokin şəxsiyyətin strukturunu futbol topuna oxşar sxematik olaraq sfera şəklində təsəvvür edir. Bu sferanın da mərkəzində Mən-nin bu və ya digər mozaik komponenti, məsələn, ailə, professional, siyasi komponent yerləşə bilər.

Şəxsiyyət sosial əlaqə və münasibətlərin yaradılması prosesində meydana gələn və reallaşdırılan sosial şərtlənmiş keyfiyyətlərin məcmusundan ibarətdir. Buna uyğun olaraq şəxsiyyətin strukturunda aşağıdakı e l e m e n t l ə r i fərqləndirmək olar:

- şəxsiyyətə digər adamlarla qarşılıqlı təsirdə olmağa imkan verən keyfiyyətlər. Əmək fəaliyyəti, sosial-siyasi, mənəvi, ailə, məişət fəaliyyəti və sosial həyatın bu sahələrindəki qarşılıqlı təsirlər insandan tamamilə müəyyən keyfiyyətləri tələb edir. Sosial əhəmiyyətli

keyfiyyətlərə fəaliyyətin məqsədi və motivi, şəxsiyyətin sosial rolları və funksiyaları, dil, biliklər təhsil səviyyəsi və s. aiddir. Bu və ya digər keyfiyyətlər şəxsiyyətin həyat obrazında, üslubunda, həyat səviyyəsi və həyat keyfiyyətində reallaşdırılır. İctimai mənalı fəaliyyət üçün (əmək fəaliyyəti, siyasi və mənəvi fəaliyyət üçün) zəruri keyfiyyətlər həlledici keyfiyyətlərdir;

- şəxsiyyətin fərdi və sosial tələbatları və onların təmin edilməsi mexanizmləri. Şəxsiyyətin strukturuna nəinki sosial cəhətdən münasib olan üsullarla təmin olunan fərdi tələbatlar, eyni zamanda sosial tələbatlar daxildir, belə ki, insan ictimai varlıqdır, cəmiyyətin müəyyən hissəsidir. Davranışı və fəaliyyəti sosial tələbatlar müəyyən edir, belə ki, məhz onların reallaşması cəmiyyətin inkişafını fəallaşdırır;
- tapşırılmış funksiyaları optimal qaydada yerinə yetirməyə imkan verən biliklər, vərdişlər. İnsan sosiallaşma və təhsil prosesində müxtəlif növ fəaliyyət üçün biliklər və vərdişlər əldə edir;
- müxtəlif fəaliyyət növləri üçün bacarıq və qabiliyyət. İnsan çalışır ki, qabiliyyət və bacarığını yaradıcı surətdə inkişaf etdirsin, cəmiyyət isə bunun üçün lazım olan şəraiti yaradır. Məlum olduğu kimi heç də bütün bacarıq və qabiliyyətlər həyata keçirilmir, reallaşmır. Bəzən qərarlaşmış sosial şərait buna maneçilik törədir, mövcud situasiya mane olur, bəzən insan özü bunun üçün kifayət qədər səy göstərmir. İnkişaf prosesində bioloji qabiliyyət və bacarıq tədricən sosial məzmunla tamamlanır, zənginləşir;
- öz həyat fəaliyyəti prosesində şəxsiyyətin rəhbər tutduğu dəyərlər və prinsiplər. Sosial fəaliyyətin müxtəlif tərəflərinə bağlı olaraq şəxsiyyətin dəyərləri və prinsipləri diferensiasiya olunur. Bunlardan ən mühümləri şəxsiyyətin əqidə və inamlarını əmələ gətirir, onun dünyagörüşünün "özəyinə" çevrilir. Onlar insanın davranışında başlıca olanı müəyyən edir və bu suala cavab verir: "Nə üçün insan başqa cür deyil, bu cür hərəkət etmişdir?".

Şəxsiyyətin mövcud struktur elementlərinin müxtəlif kombinasiyaları insanın məqsədyönlü fəaliyyətini, bu fəaliyyətin özünütənzimləmə və özünüinkişafetdirmə mexanizmlərini müəyyən edir.



## 1.3. Şəxsiyyətin tipologiyaları

Şəxsiyyətin bazis tipləri mədəniyyətin bu və ya digər cəmiyyətdə təşəkkül tapmış tipindən asılıdır. Şəxsiyyətin sosial cəhətdən bəyənilən tipi – mədəniyyət və hüququn nümunələrini mənimsəmiş və bunlara uyğun olaraq hərəkət edən şəxsiyyətdir. Mövcud cəmiyyət üçün optimal olan şəxsiyyət tipinin aşkara çıxarılması cəmiyyətdə bir çox submədəniyyətlərin mövcud olmasını çətinləşdirir.

P. Sorokin mədəniyyətin tiplərinə uyğun olaraq üç əsas şəxsiyyət tipini fərqləndirmişdir. *İdeasional şəxsiyyət* öz əqidələrində dindardır və yenilməzdir. Onu adi vurnuxma, dünya işləri az maraqlandırır, bu şəxsiyyət başlıca olaraq daxili mənəvi həyatla yaşayır, ruhunun xilası qayğısına qalır, dini hökmlərə ciddi əməl edir. İdeasional şəxsiyyətin tərkidünya həyatını üstün tutan, ruhun xatirinə özündə ləkəli başlanğıcı boğan nümayəndələrini Sorokin asketik alttipinə (rahiblər, monaxlar, stoiklər, tərki-dünyalar, biyabannəşeinlər və s.) aid etmişdir. Cəmiyyətdən uzaqlaşmayıb özünü şərlə mübarizəyə həsr edənlər, digər insanların mənəvi xilasına çalışanlar ideasional şəxsiyyətin aktiv alttipinə daxil edilmişdir (yeni hərəkatların baniləri, yaradıcıları, missionerlər).

*Sensitiv şəxsiyyət* Allahla və ruhla az maraqlanır. O, özünü gündəlik qayğılara həsr edib, həyat sevinclərinə və uğurlarına, hissi zövqlərə can atır. Sensitiv şəxsiyyətlər mövcud şəraiti və vəziyyəti, digər insanları özünə tabe etməyə çalışan aktiv şəxsiyyətlərə, mövcud şəraitə uyğunlaşan, digər insanları istismar edən, onların hesabına yaşayan passiv şəxsiyyətlərə və həyasız, yəni əxlaqsız, riyakar, özlərinin eqoist məqsədlərinə çatmaqda mənəviyyatsız olan şəxsiyyətlərə (A. Makedonski, I Pyotr, C. Rokfeller, V.İ. Lenin və b.) bölünürlər.

*Qarışıq tipdən olan şəxsiyyətlər* idealistlərə və yalançı idealistlərə ayrılırlar. İdealist şəxsiyyətlər zəkanı rəhbər tutaraq problemləri həll edirlər. Onlar yüksək ideallara etiqad bəsləyir, mənəvi cəhətdən zəngin həyat sürür, həyati nemətləri və hissi idealları inkar etmirlər, lakin eyni zamanda da bunları başlıca cəhət kimi qəbul etmirlər (Konfutsi, Foma Akvinski, Petrarka). İkinci yarımtipdə yalançı idealist şəxsiyyətdə – mənəvi həyat zəif inkişaf etmiş olur və mentallıq inteqrasiya olunmayıb. Bu şəxsiyyətin fərqləndirici cəhəti – küt, süst səbrətmədir (qullar, dustaqlar, dilənçilik və məhrumiyyət şəraitində yaşayan adi insanlar).

Sorokin belə hesab edir ki, konkret cəmiyyətlərdə ona görə müxtəlif mədəniyyət tipləri mövcuddur ki, bu cəmiyyətlərdə şəxsiyyətlərin tipləri müxtəlifdir.

N.A. Berdyayev dörd şəxsiyyət tipini və onlara uyğun olan sosiallıqları seçərək, öz tipologiyasını təklif etmişdir:

- insan tənha deyil və o, sosialdır - bu tip ən yayılmış tipdir, burada Mən sosial mühitə uyğunlaşmışdır, onun şüuru daha artıq dərəcədə obyektivləşdirilmiş və sosiallaşdırılmışdır;
- insan tənha deyil və sosial deyil - bu halda Mən də sosial mühitə uyğunlaşmışdır, onun şüuru həmçinin sosiallaşmışdır, lakin şəxsiyyət sosial aktivlik göstərmir, cəmiyyətin və xalqın taleyinə biganədir;
- insan tənhadır və sosial deyil - bu tipin nümayəndələri sosial mühitə pis uyğunlaşmışlar, onlar ahəngdar, harmonik deyillər, zəif sosiallaşmışlar, sanki cəmiyyətdən ayrı düşmüşlər. Bu şəxsiyyət tipi "lirik şair", "tənha mütəfəkkir", "zəminsiz estet: gözəllik aludəçisi" kimi təmsil olunur. Bu cür şəxsiyyətlər bir qayda olaraq mühafizəkar zamanələrdə mühafizəkar, inqilabi dövrlərdə inqilabi olurlar. Lakin onlar nə mübariz, nə də təşəbbüskar deyillər;
- insan tənhadır və sosialdır - bu tipin nümayəndələri üzlərini həmişə xalqın və cəmiyyətin taleyinə doğru çevirmişlər. Berdyayev bunlara yenilikçiləri, islahatçıları, ruh inqilabçılarını aid edir.[1]

L.N. Qumilyov özünün işləyib hazırladığı passionarlıq nəzəriyyəsində şəxsiyyəti onun sosial aktivliyi mövqeyindən nəzərdən keçirir.

Qərb sosiologiyasında üstünlük təşkil edən sosial oriyentasiyalara, istiqamətlərə uyğun olaraq nəzəri, siyasi, iqtisadi, sosial-dini, estetik şəxsiyyət tiplərini göstərirlər. Müasir vətən tədqiqatçılarından V.Q. Nemirovskini qeyd edək. O, aşağıdakı beş şəxsiyyət tipini təklif etmişdir: "yaradıcı" (əməyə, həyatın mənasına, məhəbbətə ünsiyyətə, azadlığa, müstəqilliyə tələbat və s.), "romantik" (romantikaya, riskə və təhlükəyə tələbatlar), "istehlakçı" (rahatlığa, yığıcılığa, istirahətə tələbat), "lider" (hakim mövqe tutmaq, nüfuz qazanmaq, kamilləşmə tələbatı), "konformist" (iztirab və himayədarlıq tələbatı).

Dəyərlilik oriyentasiyalarına əsaslanan sosioloqlar ənənəçilər

[1] Bax: Бердяев Н.А. Философия свободного духа. М. 1999.



(nizam, borc, şərəf, ləyaqət dəyərlərinə və s. istiqamətlənmiş), idealistlər (özinkişafa, ənənələrə və avtoritetlərə, müstəqillik və azadlığa etinasız yanaşılmasına istiqamətlənmiş), hedonistlər (həzz və ləzzət almağa səy göstərirlər), realistlər (özünüreallaşdırmağa, borcun yerinə yetirilməsinə istiqamətlənmişlər, özintizamı və özünənəzarəti müəyyən skeptisizm ilə birləşdirirlər) və frustrasiya edilmiş (bu tip üçün özünə aşağı səviyyədə qiymət verilməsi, məyus vəziyyət, əzabçəkmə, gərəksizlik və heçlik duyğusu səciyyəvidir) şəxsiyyət tiplərini fərqləndirirlər.

Bir sıra sosioloqlar aşağıdakı şəxsiyyət tiplərini fərqləndirirlər: cəmiyyətdə real üstünlüyə malik modal şəxsiyyət tipi, cəmiyyət üçün arzu olunan ideal şəxsiyyət tipi, cəmiyyətin tələbatına cavab verən ən optimal bazis şəxsiyyət tipi.

1940 - 1980-ci illərdə marginal şəxsiyyət tipi, yəni öz mühitindən ayrı düşmüş və yeni mühitə uyğunlaşa bilməmiş şəxsiyyət tipi anlayışı meydana gəlmişdir. Nəticədə bu şəxsiyyət cəmiyyətin kənarına sıxışdırılmış və bəzən də bu cəmiyyətdən kənara atılmış olur.

Qrup qarşılıqlı təsirini öyrənən makrososioloqlar belə hesab edirlər ki, şəxsiyyət cəmiyyətin (mədəniyyətin, tarixin və s.) məhsuludur. E. Dürkheym, M. Veber, T. Parsons kimi böyük alimlər bu fikrə tərəfdar idilər. Onlar sosiallaşma problemini əsas olaraq götürürdülər. Sosiallaşma dedikdə onlar birliyin mədəniyyətinin (normaların, dəyərlərin, davranış qaydalarının və anlamaq stereotiplərinin) mənimsənilməsini başa düşürdülər.

Məşhur sosial antropoloq R. Linton modal və normativ şəxsiyyət anlayışlarını elmə daxil etmişdir.

Modal şəxsiyyət - cəmiyyət üzvlərinin əksəriyyəti kimi eyni mədəni nümunələri qəbul edən fərddir.

Normativ şəxsiyyət dedikdə variasiyalar idealından kənara çəkilmiş statistik cəhətdən daha çox yayılmış şəxsiyyət tipi başa düşülür. Cəmiyyət nə qədər sabit deyildirsə, sosial tipi normativ şəxsiyyətlə uyğun gəlməyən bir o qədər də çox insan mövcud olur. Və əksinə, sabit cəmiyyətlərdə insan öz baxışlarında "ideal stereotipə" yaxınlaşır ki, bu da təbii olaraq birlik tərəfindən müdafiə olunur. Böhranlı anlarda istənilən cəmiyyətdə anomiyalar (qaydanın normal qəbulunun pozulması) meydana gəlir və deviasiyaların miqdarı (kənara çıxmaların, sapmaların) nəzərə çarpacaq dərəcədə artır.

Məsələn, R. Merton şəxsiyyətin cəmiyyətdə hasil olunmuş mədəni normalara sosial adaptasiyasının beş modelini göstərmişdir:

- konform modeli – bu halda şəxsiyyət mövcud mədəniyyətin və cəmiyyətin məqsədlərinə tərəfdar çıxır və bu məqsədləri leqal, tövsiyə olunan vasitələrlə həyata keçirməyə çalışır;
- innovasiya modeli – bu halda fərd birliyin məqsədlərini qəbul etsə də onları qeyri-adi, qəbul edilməmiş vasitələrlə həyata keçirməyə çalışır;
- ritualizm – şəxsiyyət adaptasiyasının kənaraçıxma formasıdır. Bu halda fərd öz birliyinin məqsəd və dəyərlərini qəbul etmir, lakin bununla belə "oyun qaydaları"na riayət edir, yəni sosial nailiyyətlərin yol verilə bilən vasitələri haqqında qərarlaşmış təsəvvürlərə uyğun olaraq özünü aparır;
- eskeynizm – kənara çəkilmə sosial reallıqdan uzaqlaşıb, öz "ekstravaqant" aləmlərinə çəkilmə. Eskeynizm həm üstün, dominant məqsədləri və onların əldə edilməsi üçün cəmiyyətin tövsiyə etdiyi vasitələri inkar edən şəxsiyyətlər üçün səciyyəvidir;
- ixtişaş, qiyam – ümumqəbul olunmuş məqsədlər və vasitələr şəxsiyyət tərəfindən olduqca ambivalent başa düşülür, onun davranışı ictimai təşkilin normalarına fəal surətdə əks çıxmağa və onların təkzib olunmasına yönəldilmişdir.[1]

Müasir sosiologiyada konfliktoloji cərəyanın ən böyük nümayəndələrindən biri olan R. Darendorf Aristotelin "homo politicus" (ictimai həyatda, idarəetmədə iştirak edən insan) terminini əsaslanaraq, şəxsiyyətlərin tipologiyasını işləyib hazırlamışdır. O, aşağıdakı növləri fərqləndirir:

- homo faber – "zəhmətkeş insan": yük daşıyan, əziyyət çəkən şəxsiyyət (kəndli, döyüşçü, siyasətçi);
- homo consumer – müasir istehlakçı, kütləvi cəmiyyət tərəfindən formalaşdırılmış şəxsiyyət;
- homo üniversalis – müxtəlif fəaliyyət növləri ilə məşğul olmağı bacaran insan;
- homo soveticus – dövlətdən asılı olan insan.[2]

"Birölçülü insan" konsepsiyasını Q. Markuze 1960-cı illərin əvvəllərində çapdan çıxmış eyni adlı kitabında formulə etmişdir. Burada

[1] Bax: Американская социологическая мысль. Тексты. М., 1994.
[2] Bax: *Darendorf R.* Konflikt und Freiheit. München. 1972.



o, göstərir ki, tələbatlar mexanizmi vasitəsilə cəmiyyətə sosial dəyişiklikləri ləngidən və onların qarşısını alan ölgünləşmiş sosial-tənqidi münasibəti ilə birlikdə "birölçülü insan"ın yeni kütləvi tipi formalaşır.[1]

Amerikan sosioloqu D. Rismen göstərirdı ki, müasir cəmiyyət insanları birölçülü insanlara, yəni bəsit sosial qavrayışa və kobud təfsir aparatına malik şəxsiyyətlərə çevirir.

T. Adorno, K. Xorni və digər yeni marksistlər və yeni freydçilər belə bir nəticəyə gəlmişdilər ki, müasir cəmiyyətdə "normal" şəxsiyyət "nevrotikdən" ibarətdir. E. Fromm XVI əsrdən başlayaraq XX əsrin ikinci yarısına qədər bir dövrdə şəxsiyyətin sosial xarakterinin təkamülünə diqqət yetirmişdir. Onun fikrincə bu təkamülün mahiyyəti "avtoritar", "yığıcı xarakterindən" "bazar xarakterinə" keçiddən ibarət idi. E. Fromm yazırdı: "Bazar xarakterli şəxsiyyətlərin ... hətta öz xüsusi "mən"i yoxdur, ... çünki onların "mən"i daim dəyişir ... "İdentikliyin böhranı" - müasir cəmiyyətin bu böhranı – bu faktdan irəli gəlmişdir ki, bu cəmiyyətin üzvləri simasız alətlərə çevrilmişlər. Onların identiklik hissi korporasiyaların və yaxud özgə nəhəng bürokratik təşkilatların fəaliyyətində iştiraklarından ibarət olur".[2] Frommun "bazar xarakteri" Markuzenin "birölçülü insanı" ilə müqayisə olunur.

Hazırkı vaxtda "yeni rus" (kifayət qədər mədəni və sosial inkişafa malik olmadığı halda sürətlə varlanan şəxsiyyət tipi) və "yeni yoxsul" (nisbətən yüksək sosiomədəni inkişafa, ictimai statusa malik olan, lakin aşağı gəlir səviyyəli şəxsiyyət) sosioloji şəxsiyyət tipləri araşdırılır.

Yenicə yaranmaqda olan, humanitar elmlərin qovşağında yerləşən, onları inteqrasiya edən sosionika elmində s o s i a l t i p l ə r i n tədqiqinə çox böyük diqqət yetirilir.

İnsanların sosial tiplərə bölünməsinin əsasında K. Yunqun psixoloji tiplər təlimi durur. Yunq bir-birinə əks olan iki tipi – ekstravertlər və introvertlər tiplərini fərqləndirirdi və onları aşağıdakı qruplara bölürdü: rasional - irrasional, təfəkkür qabiliyyətli məntiqçi tipi – emosional etik tipi; duyan, sensor tipi – intuitiv intuisiyaçı tipi.

E k s t r a v e r t insanlardan və hərəkətlərdən enerji alır, buna görə də xarici aləmə ünsiyyətə doğru üz tutmuşdur, bir növ öz fikirlərini və hisslərini sürətlə bayıra çıxarır. İ n t r o v e r t – enerjini özündən alır,

[1] Bax: *Маркузе Г.* Одномерный человек. М. 1994.
[2] Bax: *Фромм Э.* Иметь или быть? М. 1986. Стр-170-171.

qapalıdır, diqqətini özünün daxili aləmi üzərində cəmləşdirmişdir, ünsiyyəti zəifdir. Ona düşüncələr üçün obyektiv olaraq şəxsi vaxt lazımdır. Zahirən o özünü qismən təzahür etdirir, dərhal açıqlanmır, lakin ətrafındakılara etibar etdikdə və yaxud müstəsna hallarda özünü nümayiş etdirir.

Bu hər iki davranış tipləri normaldırlar, sadəcə olaraq bu tiplərdən hər biri qüvvə və enerjini özünəməxsus qaydada alır. Onlar özlərinin bəyəndiklərinin çərçivəsindən uzun müddət kənara çıxmamalıdırlar. Doğrudur, onlar həm məktəbdə, həm də işdə ekstraversiyanı yayırlar və məsələn, belə bəyanat verirlər: "Sizin qiymətiniz sinifdə necə işləməyinizdən asılı olacaqdır".

R a s i o n a l   t i p – bu, qətiyyətli, ən az gərginliklə qərar qəbul etməyi bacaran insandır. Bu insan aydın şəkildə başa düşür ki, nə üçün məhz bu cür qərar qəbul edilmişdir. Rasional tip öz qərarını ardıcıl surətdə və dönmədən həyata keçirir, bu qərarı dəyişdirmir. O, öz həyatını və hətta başqalarının həyatını dəqiq planlaşdırmağa və ona nəzarət etməyə meyllidir. Rasional tipdən olan insanlar buna meyllidirlər ki, yeni informasiyanı nəzərə alınadan, hətta bu informasiya göstərsə ki, qərarı dəyişmək lazımdır, tez qərar qəbul etsinlər. İ r r a s i o n a l   və yaxud   q a v r a y a n   tip qərar qəbul etməyə tələsmir, informasiyanı toplayıb artırmağı üstün tutur, şəraitdən asılı olaraq qəbul olunmuş qərar dəfələrlə dəyişə bilər, həm də insan özü çox vaxt aydınlaşdıra bilmir ki, qərarı nə üçün dəyişdirmişdir. Bu cür çeviklik, spontanlıq, həyatın və davranışın müəyyən kortəbiiliyi ətrafdakı insanlar tərəfindən heç də həmişə adekvat başa düşülmür.

T ə f ə k k ü r   s a h i b i ,   m ə n t i q i   t i p   hadisələrin, həyatın mühüm cəhətlərini, qanunauyğunluqlarını başa düşməyə, izah etməyə çalışır. Emosional tip üçün başlıca cəhət hadisəyə münasibət bildirməkdir, onu qiymətləndirməkdir, qərarlar hisslərə uyğun olaraq, bu hisslərin başqalarına, şəxsiyyətlərarası münasibətlərə necə təsir etməsi nəzərə alınmaqla qəbul olunur. Cinsi fərqləri qeyd edən məntiq-emosiyalar şkalasına əsasən demək olar ki, on kişidən altısı özünü emosional kateqoriyaya aid edir.

D u y a n ,   s e n s o r   t i p   hadisələri adətən reallıq kimi, fakt kimi, hissi təcrübə kimi (duyğular, qavrayış) qəbul edir. Sensoriklər konkret informasiyanı üstün tuturlar, o şeyi ki, onu görmək, eşitmək, əllə toxunmaq olar. Bu halda həmin tip diqqətini faktlar və detallar üzərində



cəmləşdirir; onun əlində qərar qəbul etmək üçün meyar kimi sağlam düşüncə və ətrafdakıların təcrübəsi çıxış edir, xəyalpərəstlik onlara yaddır. Bu tipdən olanlar əllərindəki arıquşunu göydəki durnadan üstün tuturlar. İ n t u i t i v   t i p   hadisələrin inkişafını proqnozlaşdırmağa meyllidir, bu tip təxəyyülə malikdir, istədikləri şəkildə informasiya toplayır, bəzən də "sıçrayışlarla", bu informasiyada məna və müxtəlif hadisələr arasında qarşılıqlı əlaqələri axtara-axtara, intuisiyaya və öncəgörmələrə inanır; qərar qəbul edərkən bu tipdən olan adamlar daxili səsə, bu cür situasiyalarda ətrafdakıların necə hərəkət edəcəklərindən asılı olmayaraq öz intuisiyalarına əsaslanırlar. İki adam informasiyanı müxtəlif şəkildə topladıqda onların münasibətləri təhlükə altında qala bilər Məsələn, sensor tipdən olan insan soruşduqda ki, "Saat neçədir?", dəqiq cavab eşitmək istəyir, intuitiv tipdən olan adamın cavabı adətən belədir: "Artıq gecdir, getmək lazımdır". Sensorik hövsələdən çıxaraq sualı təkrar edir: "Konkret de, saat neçədir?", özünün doğruluğuna əmin olan intuit cavab verir: "Bu cür şıltaqlıq yaramaz. Axı mən dedim ki, getmək vaxtıdır; artıq üçdən çoxdur".

Duyğular və yaxud intuisiya sahəsi üstün olan insanları irrasional tipə aid edirlər, çünki bu cür adamlar cari duyğulardan və yaxud intuitiv öncəgörmələrdən asılı olaraq öz qərarını və davranışını çevik şəkildə dəyişməyi bacarırlar. Məntiqi üstünlüyə malik insanları rasional tipə aid edirlər, onlar dəqiq qərarlar qəbul etməyə meyllidirlər, onlar üçün mühakimələr duyğulara nisbətən daha mühümdür.

Təfəkkür tipi emosional, intuitiv, duyan tiplər ekstraversiyadan və ya introversiyadan asılı olaraq özünəməxsus funksiyalarda təzahür edəcəklər. Müxtəlif sosial tiplərdən olan insanların funksional strukturlarını bir-biri ilə müqayisə etməklə onların qarşılıqlı münasibətlərinin, onların uyğunluğunun inkişafının ehtimali meyllərini proqnozlaşdırmaq olar.

Müxtəlif sosial tiplər arasındakı qarşılıqlı münasibətlərin mümkün variantlarını nəzərdən keçirək. Ekstravertlərin cizgiləri Don Kixot, Hüqo, Hamlet, Jukov, Napoleon, Cek London, Ştirlits, Hekslı; introvertlərin cəhətləri Düma, Robespyer, Qorki, Yesenin, Balzak, Drayzer, Dostoyevski, Qaben (Cədvəl 2) kimi personaj və tarixi şəxsiyyətlərdə daha parlaq təcəssümünü tapmışdır.

Cədvəl 2

**Sosial tiplərin qısa xarakteristikası**

| Sosial tipin adı | I kanal (güclü) | II kanal (əlavə) | III kanal ("zəif yer") | IV kanal (tələinedici) |
|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 |
| Yesenin: "Macəraçı" – intuitiv-emosional, qavrayan irrasional introvert. Həyat qayəsi: "Özün yaşa və qoy başqaları da yaşasın" | İntrovert/İntuisiya. Ürəyədammalar – ümumi planda proqnoz, yeni ideyaları öz canına çəkir | Emosiyalar/Ekstravert. Başqalarının emosiyalarını hiss edir, küsməməyə çalışır, lakin emosional cəhətdən səbrli deyil | İşgüzar məntiq, bəzən yanıtmır, qərar qəbul etmək, işlərdə, məişətdə qaydanı saxlamaq çətindir. "Özinkişaf şüarı: "İşləmək lazımdır" | Sensorika – duyğular (real duyğulardan uzaqlaşır) |
| Dostoyevski: "Yazıçı", "İlhamverici lider" – emosional-intuitiv, həll edən introvert. "Təzyiqə uymamaq və özün də başqalarına təzyiq göstərmə!" | İntrovert/Emosiyalar. İnsanların münasibətini hiss edir, küsüşmür, uzun müddət səbr edir, bağışlayır, adamlara kömək edir. | İntuisiyalar/Ekstravert. İnsanların potensial imkanlarını qabaqcadan görür, moralistdir, humanistdir, tərbiyəçidir. | Sensorika, iradə, tələbkarlıq. "İstədiyini yox, lazım olanı et!" Qaydanı, planauyğunluğu sevir. "Özünü məcbur etmək lazımdır" | Məntiq. Düşüncəyə meyl, xəyalpərəstlik. |
| Heksli: "Jurnalist" – intuitiv-emosional, qavrayan, irrasional ekstravert. | Ekstravert/İntuisiya. İnsanları yaxşı başa düşür, onları fəallaşdırır, perspektivi, yeniliyi qabaqcadan görür. Zarafatçıldır. | Emosiyalar/İntrovert. Hiss edir ki, insanlar ondan nə gözləyir, onların emosiyalarını idarəetməyi, inandırmağı bacarır. Kompromisə can atır. Tez özündən çıxandır. | Məntiqi təhlil çətinliklə alınır. Çoxlu ideyalar, çevik davranış var, lakin mühüm olanı nəzərdən qaçıra bilər. "Məntiqli ol". | Sensorika (real duyğulara biganədir, qarmaqarışıqlıq yaradır). |



*Cədvəl 2-nin davamı*

| 1 | 2 | 3 | 4 | 5 |
|---|---|---|---|---|
| Hamlet: "Aktyor" – emosional-intuitiv həll edən ekstravert | Ekstravert/Emosiyalar. Qaynar, kəm-hövsələ hisslər. Diqqət mərkəzində olmağı sevir. Başqalarının emosiyalarını hiss edir, inandırmağı bacarır | İntuisiya/İntrovert. Hadisələri, adamların hərəkətlərini yaxşı proqnozlaşdırır, qətiyyətlidir, münaqişəyə gedir. | Sensorika. Rahatlığı sevir, rahatsızlığı və ağrını pis keçirir. "Səni görmək istədikləri kimi görün". | Məntiq zəifləmişdir, ziddiyyətli mühakimələr |
| Robespyer: "Alim" – məntiqi-intuitiv introvert. | İntrovert. Analitik təfəkkür. Faktlarla deyil, ümumi qanunauyğunluqlarla, ideyalarla maraqlanırlar. | İntuisiya. Perspektivi, şeylərin mahiyyətini hiss edir, standart olmayan qərarlar verməyi bacarır | Sensor-iradi kanal. İradi təzyiqə dözmür, öz fikrini müdafiə edir, qabiliyyətsiz işi xoşlamır. "Özünü məcbur etməlisən" | Emosiyalar gərgin vəziyyətdədir, münaqişələrdə başqalarını günahlandırır. |
| Balzak: "Yaradıcı", "Həyatı dərk edib anlayandır" – intuitiv-məntiqi irrasional introvert. | İntrovert/İntuisiya. Gələcəyi hətta təfərrüatı ilə qabaqcadan görür. Dünyanı qavramağın genişliyi. İdeyaların və davranışın qabaqcadan gözlənilməzliyi. | İşgüzar məntiq. İş qabiliyyətlidir, hər şeyi qabaqcadan nəzərdə tuta bilər. Vasvasıdır, ehtiyatlı, qənaətçildir. | Emosiyalar. Adamların emosiyalarını pis hiss edir, nəzakətsizlik göstərə bilər, başqalarını üstünə qaldıra bilər. Qaraqabaqdır, qərəzsizdir. "Öz hisslərini açıq bildirmə". | Sensorika, iradə zəifləmişdir |
| Don Kixot: "Yenilikçi" – intuitiv-məntiqi, irrasional ekstravert | Ekstravert/İntuisiya. Vəzifələrin həlli zamanı dərrakəlilik. İnsanların qabiliyyətlərini yaxşı anlayır. Qlobal düşüncələr, məişət huşsuzluğu. | Nəzəri məntiq. Məlumatların təhlili, nəzəriyyələrin, təsnifatların yaradılması | Zəif emosionallıq. Başqalarına münasibətdə həssas deyil. Buna görə də davranışın nəzakətsizliyi, qeyri-adekvatlılığı irəli gəlir. Əhvalın tez-tez dəyişməsi. | Sensorika, duyğular zəifladilmişdir, real aləmdən uzaq düşmək, fantaziyalar aləminin üstünlük təşkil etməsi. |

*Cədvəl 2-nin davamı*

| 1 | 2 | 3 | 4 | 5 |
|---|---|---|---|---|
| Cek London: "Biznesmen", "Anadangəlmə lider" – məntiqi-intuitiv həlledici ekstravert | Ekstravert / Məntiq. İşgüzar məntiq, konkret təfəkkür, praktiklik. "Hipotezləri uydururam". | İntuisiya/Perspektivləri görür, strateji planlaşdırma. Risk praktik nəticənin əldə edilməsi üçün düşünülmüşdür. Pul qazanmağı bacarır. | Sensorika. Realistdir, rahatsızlığa dözə bilir, paltar zövqü pisdir. "Başqalarının səni görmək istədikləri kimi görün". | Emosiyalar. Bəzən qəzəb həddini aşır, adamların hisslərini pis başa düşür, hissiyyatsızdır, təkəbbürlüdür, kəskindir, başqalarını tənqid edir. |
| Drayzer: "Qoruyucu", "İşə sadiq" – emosional-sensor həll edən introvert | İntrovert/Emosiyalar. Güclü emosiyalar, lakin onlar zahirən təmkinlidirlər, küsülülüklərdən qaçır, digər insanların maraqlarını öz maraqlarından yüksək tutur, kömək göstərir, lakin qanmazın cavabını verə bilir. | Sensorika/Ekstovert. İradə, özünə, başqalarına qarşı tələbkarlıq; realizm, praktiklik. Əllə işləmək bacarığı, dözümlülük, işgüzarlıq, icraçılıq, planlılıq, qətiyyətlilik. | İntuisiya pis vəziyyətə qoyur, insanlardan, mümkün olan dəyişikliklərdən pis baş çıxarır. "Pis olan haqqında danışma, yaxşısı budur xoş olan haqqında danış". | Məntiq zəifləmişdir, mühüm olanı fərqləndirə bilmir, "ağaclar arxasında meşəni görmür", dəqiq təlimatları üstün tutur. |
| M. Qorki: "Qəyyum", "Anadangəlmə təşkilatçı" – məntiqi-sensor həll edən introvert "İlk planda işdir" | İntrovert/Məntiq. "Çikinə-pikinə qədər" təsinfatlaşdırır, təhlil edir, təfəkkürün praktik, işgüzar istiqamətliliyi | Sensorika/Ekstravert. Güclü iradə, realizm, qəddarlıq, nizam-intizam tələbi, təfərrüatına vararaq nəzarət edir. | İntuisiya pis vəziyyətə salır, hadisələri, başqa insanların imkanlarını qabaqcadan görə bilmir, bütövlükdə mənzərəni görmür, buna görə də şübhəlilik, ehtiyatlılıq. | Emosiyalar zəifləmişdir, başqa adamların hisslərini və maraqlarını diqqətsiz buraxır, öz emosiyaları söndürülüb, təmkinlidir, barışmaz olur. |



*Cədvəl 2-nin davamı*

| 1 | 2 | 3 | 4 | 5 |
|---|---|---|---|---|
| Hüqo: "Satıcı", "Hamının və hər kəsin dostu" – emosional-sensor həll edən ekstravert | Ekstravert/Emosiyalar. İnsanların əhval-ruhiyyəsini yaxşı hiss edir, emosiyalarla, əyləncələrlə yaşayır, nəcibdir, ünsiyyətlidir, insanlara yol tapa bilir. | Sensorika/İntrovert. Rahatlıq, komfort duyğusunu qiymətləndirir, zövqlə geyinir, realistdir, detallara diqqət yetirir, çox dəqiqdir. | İntuisiya zəifləmişdir, hadisələrin cərəyan etməsi meyllərini, ümumi mənzərəni pis qavrayır. "Hər şeyi qabaqcadan planlaşdırır". | Məntiq zəifləmişdir, ikincidərəcilini və başlıca olanı pis fərqləndirir. |
| Ştirlits, Şerlok Holms: "İnzibatçı", "Anadangəlmə rəhbər" – məntiqi-sensor həll edən ekstravert | Ekstravert/Məntiq. İşgüzar məntiq, praktiklik, təfərrüatı təhlil edir, "kəşfiyyatçıdır", "bacarıqlı əllər". Dəqiq hərəkət proqramı işləyib hazırlayır. | Sensorika. Realizm, təfərrüata diqqət yetirilməsi, "hər şeyi görür, eşidir". Son dərəcə dəqiqdir, başqalarına tənqidi münasibət bəsləyir, lakin iradları nəzakətlə bildirir. | İntuisiya. Dəyişikliklərə şübhə ilə yanaşır, səhvləri təhlil edir ki, onları təkrar etməsin. "Hər şeyi qabaqcadan planlaşdır". | Emosiyaları hər zaman nəzarətdə saxlamaq olmur. |
| Düma: "Sənətkar" – sensor-emosional irrasional introvert. "Özün yaşa, başqalarına da yaşamağa imkan ver" | İntrovert/Sensorika. Müsbət duyğular keçirməyə çalışır, rahatlığı, estetikliyi, həyatdan həzz almağı sevir. | Emosiyalar. İnsanların əhval-ruhiyyəsini yaxşı hiss edir, onları idarə etməyi bacarır. Küsüşmür, tənqid etmir, münaqişələri yerinə qoyur. | İşgüzar məntiq axsadır. Öz arzu etdiyindən əlavə nə isə etməyə məcbur etmək, qərarlar qəbul etmək, təlimatı yerinə yetirmək çətindir. | İntuisiya zəifləmişdir. |
| Qaben: "Usta" – sensor-məntiqi irrasional introvert. "Bu günlə yaşa" | İntrovert/Sensorika. Xoşagəlməz duyğulardan uzaqlaşmağa meyllidir, təmaslara qarşı həssasdır, rahatlığı, komfortu sevir. | İşgüzar məntiq. Əməli nəticəyə çalışır, zirəkdir, qərarlar məntiqidir, obyektivdir. | Emosiyaları gizlədir, lakin coşa bilər. İncikliyi uzun müddət unutmur. "Öz hisslərini açıq bildirmə". | İntuisiya. Davranışın qabaqcadan gözlənilməzliyi və ardıcılsızlığı çeviklik |

*Cədvəl 2-nin davamı*

| 1 | 2 | 3 | 4 | 5 |
|---|---|---|---|---|
| Jukov, Makedonski: "Həvəsləndirici" – sensor-məntiqi irrasional ekstravert: "Məqamı duy". | Ekstovert/Sensorika. Güclü iradə, məqsədəyönlülük, praktiklik, çevik qərarlar, insanlardan asılı olmamaq, qəddarlıq. | Məntiq/İntrovert. Gerçəkliyin məntiqi və konkret təhlili, işi təfərrüatına qədər planlaşdırır, sərt nəzarət. | Emosiyalar. Emosiyalarını bildirməkdə ehtiyatlıdır, məqsədinin həyata keçirilməsi naminə digər insanların hisslərini, maraqlarını, hətta həyatını inkar edə bilər. | İntuisiya. Çeviklik, davranışın qabaqcadan gözlənilməzliyi. qərarlara alternativ axtarır, son anlarda qərarlarını dəyişir. |
| Napoleon: "Siyasətçi" – sensor-emosional irrasional ekstravert | Ekstravert/Sensorika. Güclü iradə, inamlı lider, sürətli, qətiyyətli, praktik və taktiki qərarlar, qavrayışın konkretliyi. | Emosiyalar/İntrovert. İnsanların hisslərini başa düşür, onlarla manipulyasiya etməyi, özünə tərəf çəkməyi bacarır. Öz hisslərinin gücünü nümayiş etdirməyi bacarır. | Məntiqi yarıtmır, hadisələrin başlıca məntiqi mənasını yaddan çıxara bilər. İmpulsivlik, volyuntarizm, davranışın məntiqsizliyi. "Məntiqli ol!" | İntuisiya. Davranışın çevikliyi, gözlənilməzliyi, öz hərəkətlərinin ayrı-ayrı nəticələrini qabaqcadan görməyi bacarmamaq. |



1. Dual (ikili) münasibətlər (bütöv tamamlanma).

Dualdan alınan informasiya yardım, kömək, korreksiya kimi qavranılır, belə ki, bu informasiya güclü I kanaldan IV kanala (zəif, tənqidə və təzyiqə biganə olan, lakin köməyi həvəslə qəbul edən) gəlir. Məsələn, Yesenin və Jukov, Napoleon və Balzak, Ştirlits və Dostoyevski kimi sosial tiplər bir-birini qarşılıqlı surətdə tamamlayırlar. Duallar aşağıdakı əlamətlərə görə bir-birindən fərqlənirlər: ekstraversiya - introversiya, etika – məntiq, sensorika – intuisiya; lakin rasionallıq və irrasionallıq əlamətcə bir-birinə uyğun gəlir. Duallar işdə, ailədə etibarlıdırlar. Ancaq dual öz tərəfmüqabilinə onun sosial qiymətini izah edə bilər, onu istənilən, hətta ən mürəkkəb həyati situasiyada başa düşüb, yardım edə bilər. Duallar bir-birilərinə ancaq konstruktiv, əməli şəkildə təsir edirlər. Onlar demək olar ki, küsüşmürlər, inciklikləγ qısamüddətli olur, onların səbəbləri isə tez aradan qaldırılır və ya unudulub gedir. Dual münasibətlər ailə həyatında çox əlverişlidir.

Elə uyğunluqlar da mümkündür ki, bu zaman dörd sosial tipdən olan insanlar bir-birini büsbütün tamamlayırlar, qarşılıqlı kooperasiyaya, psixofizioloji və psixoloji rahatlığa, maksimum məhsuldar fəaliyyətə yardım göstərirlər.

2. Yarımdual münasibətlər.

I və IV kanallar üzrə tamamlama münasibətləri mövcuddur, lakin II və III kanallar üzrə kompensasiya, əvəzvermə yoxdur, buna görə də insanlar bir-biri ilə tanış olarkən planlar qururlar, detallar, təfərrüat barədə razılığa gəlirlər, hər şey yaxşı gedir, lakin fikirləşilmiş plan reallaşdırılarkən bir-birinə kömək etmək vəziyyətində olmurlar, çünki hər ikisi eyni bir sahədə güclü deyillər. Nəticədə qarşılıqlı dilxorçuluq yarana bilər (məsələn, Napoleon və Yesenin arasında).

3. İlğım münasibətləri.

Güclü I kanallar eynidirlər, ona görə də tərəfmüqabilin güclü funksiyası qiymətləndirilmir ("mən özüm belə bacararam"), zəif funksiya isə (IV) əlverişsiz halda özünü göstərir (işgüzar əlaqələr az səmərəlidir). Bir – birini başa düşürlər, lakin işlərində o qədər də ciddi deyillər (istirahət, yüngül ünsiyyət). Məsələn. Yesenin və Don Kixot sosial tipləri arasında ilğım münasibətləri mövcuddur, lakin ailədə onlar yol gedə bilirlər, belə ki, onlar ünsiyyətdə olarkən psixoloji rahatlığın müəyyən faizi meydana gəlir.

4. Tam əkslik münasibətləri

Kanallarda funksiyalar eynidir, lakin müxtəlif istiqamətlidir, yəni eyni problemlərə müxtəlif tərəflərdən baxırlar, ünsiyyət səthidir, elə bil ki, ünsiyyət müxtəlif dillərdə həyata keçirilir. Öz hərəkətlərini əlaqələndirə bilmirlər, hətta cüzi şeylərdə. Lakin tanışlığın əvvəlində bənzəməmələri ilə, müəmmaları ilə bir-birilərini cəzb edirlər, bir-birinin xoşuna gələ bilərlər, lakin sonradan çətinlik üzündən, bəzən isə razılığa gələ bilməyin mümkün ola bilməməsi səbəbindən bir-birindən ayrılırlar. Bu münasibətləri həm də söndürmə münasibətləri adlandırırlar: introvert ekstravertin fəallığını söndürür və o birində tədricən qıcıqlanma, hirslənmə toplanır. Prinsipcə bu cür münasibətlər az səmərəlidir.

5. Güzgü münasibətləri

Güclü kanallar üzrə informasiyanın fəal mübadiləsi gedir: birinin düşündüyünü o birisi heç bir söz demədən reallaşdırır. Burada münaqişə az ehtimal olunandır, qarşılıqlı fayda isə göz qabağındadır Misal olaraq Yesenin – Hamlet cütlüyünü qeyd edək.

6. Münaqişə münasibətləri

Yaxından ünsiyyətdə olduqda əvvəldə münaqişələr labüddür, çünki tərəfmüqabillərdən hər biri III kanal üzrə başqasının zəif nöqtəsinə təsir göstərir. Gələcəkdə isə qarşılıqlı hörmət münasibəti yaranır (misal: Yesenin – Ştirlits). Bununla belə ailədə münaqişə münasibətləri psixosomatik xəstəliklərə gətirib çıxarır.

7. Təftiş münasibətləri

Hər bir sosio tip kimin üçünsə müfəttişdir və eyni zamanda isə kimin üçünsə təftiş olunandır. Müfəttiş qeyri-iradi olaraq təftiş olunanın zəif III kanalına təsir göstərir və bu halda cavab təsirinə məruz qalmır; təftiş olunana lap yaxın gələ bilər, hu halda həmçinin elə iradlar söyləyə bilər ki, o birisi buna ürək acısı ilə münasibət bildirə bilər. Müfəttiş isə başa düşmür ki, nə üçün ondan inciyirlər, axı o heç kimi incitmək istəməmişdir. Uzunmüddətli qarşılıqlı təsirdə münaqişə labüddür. Əgər ünsiyyət I və III kanallardan çıxarılmış funksiyalar üzrə baş verirsə, onda münaqişə dərhal deyil, təmas zonaları genişləndikcə baş verir. Təftiş olunan ittihamı dərhal kəskin rədd edə bilmir – müfəttiş onu susdurur, nəticədə də təftiş olunanda əsəb xəstəliyi, psixosomatik xəstəliklər baş qaldırıb, inkişaf edə bilər.



8. Eyniyyət münasibətləri

Eyniyyət təşkil edən sosial tipdən olan adamlar arasında informasiya birisindən digərinə asanlıqla ötürülür. Belə münasibətlər müəllim və şagird üçün yaxşıdır, lakin əgər onların bilikləri bərabərləşirsə, o zaman onlar bir-biri üçün maraqsız olurlar, onların bir-biri ilə söhbət etmələri üçün daha bir şey qalmır, onlar bir-birinə yardım edə bilmirlər, belə ki, onların hər ikisinə eyni zəif cəhətlər və funksiyalar xasdır. Belə hal istisna təşkil edir ki, onların qarşısında ümumi məqsəd durmuş olsun (məsələn, Lenin və Krupskaya – məntiqi-sensor ekstravertdirlər).

9. Qohumluq münasibətləri

Əgər qohumları eyni maraqlar birləşdirirsə, onlar dünyanı oxşar şəkildə qavrayır, işgüzar münasibətlərdə bir-birilərinə kömək edə bilərlər, lakin əgər onların maraqları başqalaşırsa, bir-biri ilə ziddiyyət təşkil edirsə, onlar arasındakı münasibətlər xoşagəlməz olur, bir-birilərini qıcıqlandırırlar. Sözdə bir-birilərini qəbul edirlər, lakin bir-birinə tamam əks qaydada hərəkət edirlər, az qala bir-birlərini satqın hesab etsinlər: "Biz razılaşmışdıq, görün siz, neyləyirsiniz!"

10. Super-Eqo münasibətləri

I və II kanalların funksiyaları oxşar olmadığından maraqlar tamamilə müxtəlifdir, qarşılıqlı anlaşılma yoxdur, tez-tez münaqişə baş verir. Hər biri özündə inkişaf etdirmək istədiyi keyfiyyətləri digərində görür. Buna görə də sonrakı ünsiyyətin gedişində bir-birinə hörmət edə bilər, bir-birini qiymətləndirə bilərlər. Super-Eqo münasibətləri – "Sən mənim idealımsan" tipi üzrə olan münasibətlərdir. İnsanlar nəinki bir nov öz aralarında yarışırlar, eyni zamanda da öz idealı üçün lazım olan nə varsa, daha yaxşı şəkildə həyata keçirməyə çalışırlar (ailədə bu, məhəbbət oyunu münasibətləridir).

11. İşgüzar münasibətlər

Tərəfmüqabillər II yaradıcı kanal üzrə bir-birilərini yaxşı başa düşürlər. Münasibətlər sakitdir, lakin bunlar bütövlükdə müxtəlif məqsədləri olan insanların qarşılıqlı təsiridir. Yaxın münasibətlər arzu olunan deyildir, belə ki, qısa psixoloji məsafədə tərəfmüqabillərin niyyətləri tərəfmüqabili qıcıqlandırmağa başlayır.

12. Aktivasiya münasibətləri

Tərəfmüqabillərdən hər birinin ikinci kanalının yaradıcılıq funksiyası digər tərəfmüqabilin kanalında zəif funksiyanı fəallaşdırır, yəni insanlar bir-birinin fəallığını sürətləndirirlər. Münasibətlər əlverişlidir, lakin tam əvəzlənmə yoxdur; görünür ki, müxtəlif həyat ritmləri ilə əlaqədar olaraq qarşılıqlı yorulma baş vermişdir (I tip – rasional tipdir, digər tip – irrasional tipdir). Müəyyən vaxt bir-birindən ayrılıb dincəlmək lazımdır. Bundan sonra onlar biri-birilə məmnuniyyətlə yenidən ünsiyyətə başlayırlar.

13. Saxta eyniyyət münasibətləri

Zəif funksiyalar üzrə çarpazlaşma mövcuddur. Onların ümumi maraqları vardır, lakin bu maraqlar müxtəlif istiqamətlidir. Onlar ümumi mövzuları müzakirə edə bilərlər. Lakin onlardan hər biri çətin vəziyyətdən öz xüsusi yolu ilə çıxır, nəticədə də qarşılıqlı anlaşılmazlıq yaranır. Münaqişələr hərdən bir baş verir, çəkişməsiz bir-birindən ayrılırlar.

14. Sosial sifariş münasibətləri

Əvvəldə münasibətlər dostyanadır, hər iki tərəf bir-birinə heyran qalır. Lakin sifariş yerinə yetirən nə deyirsə və nə yerinə yetirirsə, nə edirsə, bu, sifarişçiyə o qədər də əhəmiyyətli görünmür, sifarişçi isə, əksinə, sifariş qəbul edən tərəfindən olduqca nüfuzlu bir adam kimi qəbul olunur və onun göstərişləri dönmədən yerinə yetirilir. Lakin sifariş qəbul edən imkan daxilində sifarişçidən ayrılmağa çalışır, buna görə də münasibətlərin pozulması istisna təşkil etmir.

Nəzərdən keçirilən sosial tipləri müxtəlif qruplara bölmək olar: nəzəriyyəçilər – praktiklər, strategiyaçılar və taktikaçılar, məntiqçilər - etiklər, pozitivistlər – neqativçilər, statiklər – dinamikçilər, konstruktivçilər və emotistlər. Misal qismində bunlardan bəzilərini nəzərə çatdıraq.

Nəzəriyyəçilər – Don Kixort, Balzak, Cek London, Robespyer, Heksli, Yesenin, Hamlet, Dostoyevski. Praktiklər – Düma, Napoleon, Drayzer, Hüqo, Qaben, Jukov, Maksim Qorki, Ştirlits. Strategiyaçılar – Düma, Napoleon, Qaben, Jukov, Robespyer, Gek London, Dostoyevski, Hamlet. Taktikaçılar – Don Kixot, Balzak, Heksli, Yesenin, Hüqo, Drayzer, Ştirlits, Maksim Qorki.



Pozitivistlər – Don Kixot, Napoleon, Qaben, Yesenin, Maksim Qorki, Hüqo, Cek London. Neqativistlər - Balzak, Heksli, Jukov, Hamlet, Ştirlits, Robespyer, Drayzer. Pozitivistlər yenini həvəslə qarşılayırlar, neqativistlər isə heç bir şeyi təkcə inamla qəbul etməyib, yeniyə ehtiyatla yanaşırlar.

## 1.4. Şəxsiyyət ictimai münasibətlər sistemində

Şəxsiyyət sosial qarşılıqlı təsirlərin və münasibətlərin ilkin, çıxış elementidir. Şəxsiyyətin cəmiyyətlə qarşılıqlı təsiri marksizm nəzəriyyəsində yerli-yerində tədqiq edilmişdir. Bu nəzəriyyədə şəxsiyyət insanın sosial keyfiyyətlərinin bütövlüyü kimi, "mövcud cəmiyyətin sosial münasibətlərinin fərddə müəyyən qaydada həyata keçirilmiş inteqrasiyası", "tarixi inkişafın məhsulu" kimi, fərdin fəaliyyət və ünsiyyət vasitəsilə sosiuma daxil olmasının nəticəsi kimi çıxış edir.

K. Marks başa düşürdü ki, insanın dünyası tarixən meydana gəlmiş və sosial cəhətdən nəzərdə tutulan obyektiv gerçəklikdir. İnsan bu gerçəkliyi yaradır, onu yenidən dəyişdirir, öz qarşısında məqsədlər və ideallar qoyur, özünün şəxsiyyətində aşkara çıxan öz mahiyyətini formalaşdırır və zənginləşdirir. Bu predmet dünyası "faydalılığın xarici münasibəti" kimi özünü göstərir; "bu faydalılığı isə indiyə qədər insanın mahiyyəti ilə əlaqədə nəzərdən keçirməmişlər", əksinə, insanın predmetləşdirilmiş mahiyyət qüvvələri kimi nəzərdən keçirmişlər. Buna görə də "məxsusi şəxsiyyətin" mahiyyəti onun sosial keyfiyyətini təşkil edir. Marksa görə şəxsiyyətin formalaşması və inkişafı üçün həlledici şərt cəmiyyətin real bazisini təşkil edən iqtisadi münasibətlərdir; bunların üzərində də sosial, siyasi, sosial-mədəni, ailə-məişət münasibətləri qurulur.

Marksizmdə şəxsiyyət fəal şəkildə ictimai münasibətlər ansamblına, daxil edilmişdir. Şəxsiyyətin sinfi mənsubiyyəti sosial qarşılıqlı təsirlərin xüsusiyyətlərini şərtləndirir. Marksizm nəzəriyyəsində şəxsiyyətin subyektiv xassə və keyfiyyətlərinin öyrənilməsinə xeyli yer verilmişdir. Bütövlükdə marksizmdə şəxsiyyət sosial münasibətlərin obyekti və subyekti kimi nəzərdən keçirilir: bir tərəfdən, insanlarla qarşılıqlı təsir prosesində şəxsiyyət ictimai münasibətlərin strukturunu əmələ gətirir, digər tərəfdən isə, şəxsiyyət özü həmin münasibətlərin tarixi inkişafının məhsulu kimi çıxış edir.

Şəxsiyyətin strukturunun daha məşhur nəzəri modeli marksist sosial-fəlsəfi ənənəsi çərçivəsində tədqiq edilmişdir. Bu model "insanın mahiyyəti ayrıca bir fərdə xas olan abstrakt deyildir. Öz fəaliyyətində insan bütün ictimai münasibətlərin məcmusudur" deyən prinsipə əsaslanmışdır.

Marksın azadlıq, bərabərlik, ədalət haqqında, şəxsiyyətin hərtərəfli və ahəngdar inkişafı haqqında ideyaları ictimaiyyətin geniş dairəsində, o cümlədən elmi ictimaiyyət tərəfindən rəğbətlə qarşılanmışdır. Bununla belə proletar diktaturası vasitəsilə xüsusi mülkiyyəti ləğv etmək və istehsal vasitələrini ictimailəşdirmək yolu ilə bu ideyaları praktik olaraq həyata keçirmək səyi əks-nəticəyə – sosial münasibətlərin deformasiyasına gətirib çıxardı.

Sosial dəyişikliklərin marksist proqramının iflasa uğramasının səbəbləri çox dərindədir. Bunlar təkcə bu və ya digər ölkələrin sosializmə keçmək üçün sadəcə olaraq hazır olmamalarında deyil, həmçinin partiya elitası tərəfindən xalqın adından həyata keçirilmiş təqiblər, repressiyalar siyasətində idi. N. Berdyayev yazmışdır: "İnsanın iztirab və bədbəxtlikdən birdəfəlik xilas edilməsinin həyatın təşkilinin xarici sferasında axtarılması ən böyük rasionalist xəyaldır. Bu elə insan təbiətinin özgələşdirilməsinin ... formalarından biridir. Sosial ədalətsizliyə, insanın insan tərəfindən istismarına qalib gəlmək olar. Bunu insan cəmiyyətinin yeni təşkili edə bilər, lakin bununla həyatın daxili faciəliliyi aradan qaldırılmayacaqdır, yalnız güclənəcəkdir".[1]

Şəxsiyyətə ictimai münasibət həmişə fəaliyyət sferaları üzrə diferensiasiya olunmuşdur. Fəaliyyət mövqeyindən yanaşma şəxsiyyət və cəmiyyətin tədqiqində əsas yanaşmalardan biridir. Bu məsələ L.S. Vıqotskinin (1896 – 1934) mədəni-tarixi məktəbi çərçivəsində konkret şəkildə inkişaf etdirilmişdir. Elə Vıqotskinin özünün və onun ardıcıllarının əsərlərində insan öz məqsəd və vəzifələri olan, davranış və hərəkətlərinin yalnız rasionallıq mövqeyindən izahının mümkün olmadığı fəal varlıq kimi nəzərdən keçirilir. İnsanın cəmiyyət və təbiətlə əlaqəsinin xüsusiyyətləri şəxsiyyətdə öz ifadəsini tapır. Bu xüsusiyyətlər ünsiyyətdə, koqnitiv və predmet fəaliyyətində təzahür edir. V.A. Yadov şəxsiyyəti sosial münasibətlərin obyekti və subyekti kimi təhlil edərək, ona aşağıdakı tərifi verir: "Şəxsiyyət – insanın sosial

[1] *Бердяев Н.А.* Философия свободного духа. М., 1994. С. 413.



xassələrinin bütövlüyüdür, ictimai inkişafın və fərdin aktiv fəaliyyət və ünsiyyət vasitəsilə sosial münasibətlər sisteminə daxil olmasının məhsuludur".[1]

E.A. Anufriyev belə güman edir ki, "şəxsiyyətin sosial strukturu insanın obyektiv olaraq daxil olduğu birliklərin təsiri altında fərdin rəngarəng fəaliyyəti prosesində meydana gələn və inkişaf edən sabit obyektiv və subyektiv sosial xassələri qrupunu özündə birləşdirir". Anufriyev bu strukturun aşağıdakı elementlərini fərqləndirir: həyat obrazında və əmək fəaliyyəti, ictimai-siyasi, mədəni-idrak, ailə-məişət fəaliyyəti kimi fəaliyyət növlərində təzahür edən sosial keyfiyyətləri həyata keçirmək üsulu; obyektiv sosial tələbatlar yaradıcı fəaliyyət bacarıqları (anadangəlmə), biliklər, vərdişlər, din, mədəni dəyərlərə yiyələnmək dərəcəsi, yəni şəxsiyyətin mənəvi dünyası, əxlaq normaları və prinsipləri, əqidələr (bax: Anufriyev, 1984. S. 103).

Şəxsiyyətin istənilən fəaliyyəti strukturlaşdırılmışdır. Şəxsiyyətin strukturuna daxildir: 1) motivlər, məqsədlər, vasitələr; 2) şərait, amillər, fəaliyyət; 3) şəxsiyyətin davranışı və hərəkəti; 4) fəaliyyətin nəticəsi. Fəaliyyət insanın dünyada varlığının əsas mövcudluq üsulu kimi çıxış edir. Bu üsul isə fəaliyyətin strukturunun bütün göstərilən elementlərini özündə birləşdirir.

Sosiologiyada şəxsiyyətin fəaliyyətinin iqtisadi, siyasi, mənəvi və ictimai, xüsusilə, istirahət, ailə-məişət formalarını fərqləndirmək qəbul olunmuşdur. Bu fəaliyyət növlərindən hər biri həmçinin strukturlaşıb və diferensiasiya edilib.

Şəxsiyyətin ətraf aləmə münasibətlərinin xarakterinə uyğun olaraq sosioloqlar fəaliyyəti maddi və mənəvi fəaliyyətə, praktik və nəzəri fəaliyyətə ayırırlar. Tarixi prosesin obyektiv gedişinə münasibəti əsas götürərək, fəaliyyəti mütərəqqi və mürtəce, inqilabi və əksinqilabi fəaliyyət növlərinə ayırmaq olar. Fəaliyyətin mütərəqqi və yaxud mürtəce fəaliyyət növünə aid edilməsi meyarının seçilməsi indiyə qədər mübahisəli olaraq qalır. Müasir şəraitdə inqilabi və əksinqilabi fəaliyyət problemi aktuallığını itirir, birinci plana təcavüzkar fəaliyyət, hər şeydən əvvəl terrorçuluq fəaliyyəti keçir.

Sosioloqlar fəaliyyətin nəticəsinə görə onu təhlil edərək, yaradıcı fəaliyyəti (innovasiya fəaliyyətini) və yenidən istehsaledici (reproduktiv) fəaliyyəti bir-birindən fərqləndirirlər. Yaradıcı fəaliyyət

[1] *Ядов В.А.* Социология: Словарь-справочник. М. 1990. Т.2. С. 71.

yeni nəticənin alınmasına və ikinci fəaliyyət isə mövcud nəticələrin yenidən bərpasına və yaxud innovasiya fəaliyyəti üçün zəruri bazanın yaradılmasına yönəldilmişdir.

Şəxsiyyətin qabiliyyət və istedadı onun əsas fəaliyyəti prosesində daha tam və dolğun şəkildə aşkara çıxır. Şəxsiyyət iki fəaliyyət növünə – peşə və ailə-məişət fəaliyyətinə yiyələndikcə ahəngdar və dolğun şəxsiyyətə çevrilir. Müasir şəraitdə şəxsiyyət özünün məişət fəaliyyətini optimal şəkildə təşkil edə bilər. Bu, peşə fəaliyyəti üçün güc saxlamağa imkan verir.

Sosioloqlar ehtimal edirlər ki, şəxsiyyətin formalaşması, fəaliyyət göstərməsi və inkişafı zamanı əsas fəaliyyət növləri oyun, təhsil və əməkdir. İnsanın filogenezində əmək başlıca yer tutur. Əmək fəaliyyətinin növləri rəngarəng və çoxcəhətlidir, bu da şəxsiyyətə öz təsirini göstərir, ona öz möhürünü basır.

İstənilən fəaliyyət üçün aşağıdakılar əhəmiyyətlidir:

- şəxsiyyətin fəaliyyətdə tələb olunan və təzahür edən keyfiyyətləri;
- fəaliyyətin ictimai bəyənilmədə və yaxud məzəmmətdə ifadə olunan obyektiv və subyektiv qiymətləndirilmələri;
- fəaliyyətin, onun müəyyən növlərini stimullaşdıran motivləri;
- fəaliyyətin cəmiyyət tərəfindən təklif olunan və şəxsiyyət tərəfindən seçilən üsulları və mexanizmləri;
- fəaliyyətin sosial və fərdi cəhətlərdən əhəmiyyətli olan nəticələri.

Şəxsiyyətə fəaliyyət baxımından yanaşma aşağıdakılara müncər edilir:

- fəaliyyətin sisteməmələgətirici vəsiləsinin, dominant növünün müəyyən edilməsinə (peşə fəaliyyətinə, idrak və əyləncə fəaliyyətinə);
- fəaliyyətin həyata keçirilməsi prinsipinin aydınlaşdırılmasına – məcburi və yaxud azad fəaliyyət, özgələşmiş və yaxud özgələşməmiş fəaliyyət;
- fəaliyyətin müxtəlif növləri arasında əlaqənin xarakterinin (harmonik və yaxud disharmonik), onların iyerarxiyalılığı dərəcəsinin öyrənilməsinə;
- fəaliyyət növlərindən hər birinin həyata keçirilməsi səviyyəsinin tədqiqinə.



İctimai münasibətlər sistemində şəxsiyyətin dərk edilməsində F. Znanetskinin (1882 – 1958) baxışlarına xüsusi diqqət yetirmək lazımdır. Znanetskiyə görə sosial şəxsiyyət müəyyən sosial mühit şəraitində formalaşır və cəmiyyətdə mövcud olan hüquq və vəzifələrin real sistemlərinin modellərini təcəssümləşdirir. Bütövlükdə qeyd edək ki, insan yalnız cəmiyyətdə şəxsiyyət kimi təşəkkül tapır və şəxsiyyət olaraq mövcudluğunu davam etdirir.

## Testlər

1. Şəxsiyyət budur:
   a) ayrıca insandır, bəşər nəslinin nümayəndəsidir;
   b) yaradıcı varlıq olan insandır;
   v) sosial varlıq olan insandır.

2. V.A. Yadov şəxsiyyətə belə tərif verir:
   a) insanın sosial xassələrinin bütövlüyüdür, ictimai inkişafın və fərdin aktiv "ünsiyyət" fəaliyyəti vasitəsilə sosial münasibətlər sisteminə daxil olmasının məhsuludur;
   b) bütün əvvəlki tarixin şüurlu fəaliyyətin inkişafına təsiri şəraitində bu şüurlu fəaliyyət münasibətlərinin subyektidir.

3. Z. Freydə görə şəxsiyyətin strukturu ibarətdir:
   a) O (İd), Mən (Eqo) və Fövqəl-Mən-dən (Super-Eqo-dan);
   b) MƏN və qeyri-Mən-dən;
   v) şüursuzluqdan və şüurluluqdan.

4. Davranış tələbatları və motivləri şəxsiyyətin strukturuna aiddirlərmi?
   a) bəli; b) yox.

5. Şəxsiyyətin P. Sorokin tərəfindən fərqləndirilmiş tipləri:
   a) eqoist və altruist şəxsiyyət;
   b) ideasional, sensitiv, idealist və yalançı-idealist şəxsiyyət.

6. Şəxsiyyəti "passionarlıq mövqeyindən tədqiq etmişdir:
   a) L. Qumilyov; v) N. Mixaylovski.
   b) R. Merton;

7. Frustrasiya olunmuş şəxsiyyət tipinə xasdır:
   a) özünə yüksək qiymətvermə;
   b) özünə aşağı qiymətvermə;
   v) özünə orta qiymətvermə.

8. Modal tip:
   a) cəmiyyət üçün ideal olandır;
   b) cəmiyyətdə real üstünlüyə malik olandır;
   v) cəmiyyət üçün optimal olandır.

9. Eskeypizmi şəxsiyyətin sosial adaptasiyası modelinə daxil etmişdir:
   a) R. Linton; v) E. Dürkheym;
   b) R. Merton; q) M. Kovalevski.

10. "Birölçülü insan" konsepsiyasının müəllifi:
   a) T. Adornodur; b) K. Xornidir; v) Q. Markuzedir.

11. Sosial rollar nəzəriyyəsinin baniləri:
   a) C. Mid və R. Lintondur; b) T. Parsons və R. Parkdır.

12. Sosionika öyrənir:
   a) sosial tipləri; b) deviant tipləri; v) normativ tipləri.

13. K. Marksa görə insanın mahiyyəti:
   a) ictimai münasibətlərin məcmusudur;
   b) fərdi münasibətlərin məcmusudur;
   v) beynəlxalq münasibətlərin məcmusudur.

14. Şəxsiyyətin fəaliyyəti:
   a) strukturlaşdırılmış və iyerarxiyalaşdırılmışdır;
   b) maddidir və mənəvidir;
   v) praktikdir və nəzəridir;
   q) yaradıcıdır və bərpaedicidir;
   d) qanunyaradıcıdır və əyani-obrazlıdır.

Cavablar

**1** – b; **2** – a; **3** – a; **4** – a; **5** – b; **6** – a; **7** – b; **8** – b; **9** – b; **10** – v;
**11** – a; **12** – a; **13** – a; **14** – a, b, v, q.



# 2-Cİ FƏSİL. ŞƏXSİYYƏTİN SOSİALLAŞMASI

## 2.1. Sosiallaşma anlayışı

Sosiallaşma problemi – sosiologiyada ən mühüm, əsaslı problemlərdən biridir. Bununla belə vətən elmində bu anlayışın tətbiq olunma imkanları kifayət qədər uzun bir vaxt ərzində şübhə ilə qarşılanmışdır. Belə hesab edilirdi ki, "tərbiyə" anlayışı bu anlayışı əvəz edir. Bununla əlaqədar olaraq hər iki anlayışı bir-birindən ayırmağa çalışacağıq. Sosiologiyada *tərbiyə – cəmiyyətdə fəaliyyət göstərən normativ modellərə uyğun olaraq şəxsiyyətin məqsədyönlü, müntəzəm surətdə formalaşdırılması prosesidir*, yəni mühitin bütün amillərinin təsiri altında şəxsiyyətin formalaşmasıdır. İnsanın inkişafı üçün əxlaq tərbiyəsinin mühüm əhəmiyyəti vardır. Əxlaq tərbiyəsi dedikdə isə insanda ictimai əxlaqi keyfiyyətlərin şüurlu surətdə və müntəzəm olaraq tərbiyə edilməsi, yetişdirilməsi başa düşülür. Bu isə mənimsənilmiş əxlaqi dəyərlər və etik biliklərlə, əxlaq normalarını praktik fəaliyyətdə həyata keçirmək, təcəssümləşdirmək məqsədilə bu əxlaq normalarına uyğun olaraq yaşamağı bacarmaqla təşkil olunur və istiqamətləndirilir. Tərbiyənin subyektləri ailə, məktəb, kollektiv, KİV, təşkilatlardır, dindir və s. Tərbiyə birmənalı proses deyildir. Əsas ziddiyyət ictimai praktika ilə, onun təkmilləşdirilməsi zərurəti ilə "münasib", "sözəbaxan" insan formalaşdırılmasına istiqamətləndirilmiş xüsusi, məqsədyönlü fəaliyyət arasında uyğunluğun olmamasındadır. Tərbiyə prosesində bəzən insan, onun özinkişaf səyi təzyiqə məruz qalır. Əxlaq tərbiyəsi prosesində bütövlükdə sosial-mədəni təcrübə seçmə yolu ilə mənimsənilir, müəyyən keyfiyyətlər formalaşdırılır.

Tərbiyə həmişə tərbiyəçilərin və tərbiyə olunanların, dar mənada müəllimlərin və şagirdlərin qarşılıqlı surətdə bir-birini zənginləşdirməsi, fəal qarşılıqlı təsiri deməkdir. Buna görə də "tərbiyə" anlayışından daha çox pedaqoqlar istifadə edirlər, nəinki sosioloqlar. Sosiologiyaya görə tərbiyə cəmiyyətin və onun sosial institutlarının yaşlı nəsillər tərəfindən toplanılmış mədəniyyətin ötürülməsi, keçirilməsi və bu mədəniyyətin cavan nəsillər tərəfindən biliklər, qabiliyyət və bacarıqlar, vərdişlər,

münasibətlər, fəaliyyət üsulları sistemi vasitəsilə mənimsənilməsi üzrə funksiyasıdır. Q.E.Zborovski belə hesab edir ki, tərbiyənin özünütərbiyə kimi izah edilməsi sosiallaşma anlayışına yaxındır (bax: Zborovski, 2004 b).

İ.S. Kon həmçinin diqqəti "tərbiyə" və " sosiallaşma" anlayışlarının yaxınlığı üzərində cəmləşdirir, eyni zamanda dəqiqləşdirir ki, "tərbiyə" anlayışı həcmcə "sosiallaşma" anlayışından genişdir. Kon bunu da nəzərə çatdırır ki, tərbiyə həmişə məqsədyönlü prosesdir, halbuki sosiallaşma bilməyərəkdən edilmiş, spontan təsirləri də özündə birləşdirir (bax: Kon, 1967).

E. Giddens "sosiallaşma" anlayışının mahiyyət və məzmununu açaraq, onu elə bir proses kimi müəyyənləşdirir ki, onun nəticəsində körpə ,içərisində anadan olduğu mədəniyyəti mənimsəyən müstəqil şəxsiyyət kimi formalaşır. Sosiallaşma "mədəni proqramın" passiv mənimsənilməsi prosesindən ibarət deyil, sosiallaşma insanın özünün bu prosesdə aktiv, fəal iştirakı ilə bağlıdır. Sosiallaşma sosial təcrübəni və mədəniyyət dəyərlərini bir nəsildən başqa nəslə ötürməklə müxtəlif nəsilləri bir-biri ilə bağlayır." (Giddens, 1994. S.38).

Beləliklə, *sosiallaşma – "şəxsiyyətin təşəkkülü və inkişafı prosesi olub, fərd tərəfindən özünün bütün həyatı boyunca ona mövcud cəmiyyətdə fəaliyyət göstərməyə imkan verən sosial və digər normaların, mədəni dəyərlərin və davranış nümunələrinin mənimsənilməsindən ibarətdir".*[1] Sosiallaşma insana sosial təbiətə yiyələnməkdə və cəmiyyət həyatında iştirak etmək bacarığı qazanmaqda kömək edən mədəniyyətə qovuşmaq, kommunikasiya və davranış proseslərini özündə birləşdirir.

Y.Şepanski sosiallaşmanı bütövlükdə mühitin fərdi ictimai həyatda iştiraka cəlb edən, mədəniyyəti anlamağı, kollektivdə davranmağı, özünü təsdiq etməyi və müxtəlif sosial rolları yerinə yetirməyi öyrədən təsiri kimi müəyyənləşdirir. N. Smelzer sosiallaşmanı elə bir proses kimi nəzərdən keçirir ki, onun vasitəsilə fərdlərin öz sosial rollarına uyğun olan bacarıq və sosial məramları formalaşır.

Müxtəlif lüğətlərdə və arayış kitabçalarında sosiallaşmaya verilmiş digər təriflərə də təsadüf etmək olar: sosiallaşma – "fərd tərəfindən öz həyatı boyunca onun mənsub olduğu cəmiyyətin sosial və mədəni dəyərlərinin mənimsənilməsi prosesidir", "sosiallaşma şəxsiyyətin

[1] Социологическая энциклопедия: В 2 т. М., 2003. Т. 2. С 445.



təşəkkülü, fərd tərəfindən mövcud cəmiyyətə, sosial birliyə, qrupa xas olan dəyərlərin, normaların, qayələrin öyrənilməsi və mənimsənilməsi prosesidir", "fərd tərəfindən sosial-mədəni təcrübənin mənimsənilməsi və daha da inkişaf etdirilməsi prosesidir", "fərd, şəxsiyyət tərəfindən davranış nümunələrinin mənsub olduqları dəyərlərin, norma və məramların mənimsənilməsi prosesidir".

M. Mid və R. Benedikt müxtəlif inkişaf pillələrində olan cəmiyyətlərdə sosiallaşma proseslərini, cəmiyyətlərdən hər birinin mədəniyyətinin həyati dəyişikliklərin xarakterinə və nəticələrinə təsirini tədqiq etmişlər. T. Parsons həmçinin sosiallaşma prosesinin və cəmiyyətdə fərd tərəfindən rollar və funksiyaların yerinə yetirilməsinin qarşılıqlı əlaqəsinə diqqət yetirmişdir. N. Smelzer bu ideyaları inkişaf etdirərək, qeyd edir ki sosiallaşma "fərdin, onların sosial rollarına uyğun olan qabiliyyət və ustanovkalarının formalaşması üsullarını nəzərdə tutur." (Smelzer, 1994. S. 126). Smelzerə görə sosiallaşma iki məqsəd güdür: insanların öz rollarına uyğun olaraq onların qarşılıqlı təsiri və cəmiyyətin üzvləri tərəfindən mövcud davranış qaydalarının mənimsənilməsi sayəsində onun qorunub saxlanılmasının təmin edilməsi.

Sosiallaşma ikitərəfli prosesdir. Bu proses, bir tərəfdən, cəmiyyət tərəfindən sosial-tarixi təcrübənin, simvollar, dəyərlər və normaların ötürülməsindən, digər tərəfdən isə, fərdin onları mənimsəməsindən, interiozasiyasından (ictimai həyatın forma etibarı ilə xarici proseslərinin daxili şüur proseslərinə keçilməsi) ibarətdir. Sosiallaşmanı sosial Mən-nin təşəkkülü adlandırmaq olar.

Sosiallaşmanın erkən mərhələlərində fərd özünün sosial yerini axtarıb tapmaq istəyir. Şəxsiyyət cəmiyyətdə təşəkkül tapır. Şəxsiyyətin formalaşması prosesinə istər bioloji (qabiliyyətlər, temperament, meyllər), istərsə də sosial amillər (sosial mühit, mədəniyyət, qrup təcrübəsi və fərdi təcrübə) amillər təsir göstərir.

## 2.2. Sosiallaşma nəzəriyyələri

Sosiallaşma haqqında təsəvvürlərin inkişafına Z. Freydin ideyalarının böyük təsiri olmuşdur. Freyd ehtimal edirdi ki, insanın davranışları başlıca olaraq qeyri-şüuri ilə şərtlənmişdir. O göstərirdi ki, körpələr nəinki heç də həmişə dərhal təmin olunmayan fizioloji tələbatlara, eyni

zamanda da erotik-şəhvani tələbatlara malikdir. 4 yaşından 5 yaşına qədər olan dövrdə uşaqda Edip kompleksi – anasına qarşı erotik hiss və atasına münasibətdə antaqonizm formalaşa bilər. Avstriya psixoloqu və psixiatrının bu ideyaları əsassız deyildir; qeyri-şüurinin erkən çağlarda formalaşması ehtimalı kifayət qədər yüksəkdir.

J. Piaje uşağın mənlik şüurunun inkişaf prosesinin dörd mərhələsini fərqləndirir:

- sensor-motor və yaxud hissi-hərəki mərhələ (2 yaşına qədər) – uşaq ətrafındakıları dərk etməyə və onların daimi xassələrini müəyyən etməyə çalışır, daha doğrusu, bu işə alışır;
- "hərəkət öncəsi" (2 yaşından 7 yaşınadək) – uşaq sözlər işlətməyə başlayır, tədricən nitq inkişaf edir. Lakin o hələ özünün zehni qabiliyyət və bacarığından müntəzəm şəkildə istifadə edə bilmir. Bu mərhələdə uşaq eqosentrikdir, dünyanı öz anlayışına uyğun olaraq izah edir, dialoq aparmağı bacarmır, digər adamların fikirlərini qəbul etmir; bu yaşda ünsiyyət xüsusilə zəruridir;
- "konkret hərəkətlər" (7 yaşından II yaşınadək) – uşaq artıq abstrakt məntiqi anlayışları qavramağa, riyazi məsələlər həll etməyə, nəticələr çıxarmağa və ümumiləşdirmələr aparmağa qadirdir;
- "formal hərəkətlər" (11 yaşından 15 yaşınadək) – abstrakt təfəkkür qabiliyyəti, hipotetik ideyaları qavramaq bacarığı daha çox inkişaf etmişdir, uşaq yaranmış problemlə bağlı düzgün qərar qəbul etməyə qadirdir.

M. Parten 1932-ci ildə uşaq yaşında oyunun bir neçə mərhələsini fərqləndirmişdir: "tənha müstəqil oyun": bu oyun hətta kompaniyada tək oynayan kiçik uşaqlar üçün səciyyəvidir; "assosiativ və yaxud, birləşmiş oyun" (3 yaşınadək). Bu halda uşaq öz davranışını digər adamların davranışı ilə, öz istəklərini başqalarının istəkləri ilə əlaqələndirməyə başlayır; "birgə oyun" (4 yaşı və ondan yuxarı) – öz hərəkətlərini, davranış və istəklərini ətrafdakılarla əlaqələndirir, koordinə edir. Partenə görə 5 yaşında uşağın inkişafı çox cəhətdən valideynlərdən, onlarla ünsiyyətdən və hətta başqa adamlarla ünsiyyətdən və qarşılıqlı təmasdan asılıdır.

C. Mid şəxsiyyət nəzəriyyəsini işləyib hazırlayarkən belə ehtimal edirdi ki, kiçik yaşlı uşaqlar hər şeydən əvvəl böyüklərin hərəkətlərini təqlid etmək hesabına sosial varlıqlar kimi inkişaf edirlər. Mid oyunu şəxsiyyətin sosiallaşmasının mühüm üsulu hesab edir. Oyun zamanı uşaqlar böyükləri təqlid edərək tədricən daha mürəkkəb hərəkətləri mənimsəyirlər, özünü dərk etməyə, öz Mən-ni digərlərindən fərqləndirməyə başlayır. Sosiallaşmanın sonrakı mərhələsinə (oyundan sonrakı) Mid təşkil olunmuş mütəşəkkil oyunu (8-9 yaş) aid etmişdir. Bu mərhələdə uşaq dəyərləri, qaydaları, içərisində formalaşdığı mədəniyyəti dərk edir.



Giddens qeyd edir ki, Freydin, Midin ve Piajenin nəzəriyyələri bizim insana necə çevrildiyimizi izah edir, lakin şəxsiyyətin sosiallaşmasının baş verdiyi sosial mühiti nəzərdən keçirmir.

*Ç. Kulinin "Güzgü Mən-i" nəzəriyyəsi.* Kuli ehtimal edirdi ki, şəxsiyyətin sosiallaşması prosesi onun öz Mən-ni dərk etməsi vasitəsilə baş verir: şəxsi Mən fərd tərəfindən sanki güzgüdə başlıca olaraq onunla qarşılıqlı əlaqədə, qarşılıqlı təsirdə olan insanların reaksiyaları vasitəsilə nəzərdən keçirilir. Ç. Kuli mənlik şüurunu (mən özüm haqqında nə fikirləşirəm), sosial şüuru (başqalarının mənə necə yanaşdıqları barədə nə fikirləşirəm) və ictimai şüuru (qruplarda mənim haqqımda nə fikirləşirlər və başqa adamlar mənsub olduqları qrup haqqında nə fikirləşirlər) fərqləndirmişdir.

Onun nəzəriyyəsinə görə insan uşaqlıq dövründən başlayaraq ətrafdakı insanların özünəməxsus "sosial güzgü" kimi qavradığı fikri əsas götürür. Burada insan passivdir, başqa adamların fikirlərini mənimsəyir. "Güzgü Mən-i" insanı sosiallaşmanın bütün mərhələlərində formalaşdırır. Sosial güzgü həmişə fəaliyyətdədir, o həmişə bizim qarşımızdadır və həmçinin daim dəyişməkdədir.[1]

*C. Midin "ümumiləşdirilmiş başqası" nəzəriyyəsi.* "Ümumiləşdirilmiş başqası" ən ümumi dəyərlərdən və müəyyən qrupun davranış standartlarından ibarətdir. Bunlar da həmin qrupun üzvlərində "Mən-obraz"ı formalaşdırır. Bu nəzəriyyə müəyyən mənada "güzgü Mən-ni "nəzəriyyəsini tamamlayır. Ünsiyyət prosesində fərd bir növ başqa fərdlərin yerinə keçir və özünü başqa şəxsiyyət kimi görür. O, öz hərəkətlərini və zahiri görkəmini "ümumiləşdirilmiş başqasının" təsəvvür olunan qiymətləndirmələrinə uyğun olaraq qiymətləndirir.

"Ümumiləşdirilmiş başqasının" bu tanınması "rolun qəbulu" və "rolun icrası" prosesləri vasitəsilə inkişaf edir. "Rolun qəbul edilməsi" – başqa bir situasiyada və yaxud başqa bir rolda şəxsiyyətin davranışını öz üzərinə götürmək cəhdidir ."Rolun icrası" həqiqi rol davranışı ilə

[1] Bax: *Cooly Ch.* Human nature and sosial order. N.Y., 1962.

bağlıdır. Fərd "ümumiləşdirilmiş başqası"nı təkrar və qəbul edərək tədricən öz Mən-nin obrazını formalaşdırır.

Midin konsepsiyasını *A. Tallerin "faydalı başqası" konsepsiyası* tamamlayır. "Faydalı başqası" – həmin şəxsiyyətdir ki, fərd onu bəyənməyə nail olmaq istəyir və onun göstərişlərini əsas olaraq qəbul edir.

*K. Marksın və F. Engelsin şəxsiyyət nəzəriyyəsi.* İnsan – ictimai varlıqdır. Şəxsiyyətin formalaşması prosesində həlledici bu faktdır ki, "fərdlər həm fiziki və həm də mənəvi cəhətdən bir-birini yaradırlar."[1] "... fərdin inkişafı onun bilavasitə və dolayısı ilə təmasda, ünsiyyətdə olduğu bütün digər fərdlərin inkişafı ilə şərtlənmişdir..."[2] Şəxsiyyət sosialdır, belə ki, onun bütün rolları və onun mənlik şüuru ictimai inkişafın məhsuludur.

## 2.3. Sosiallaşmanın fazaları və mərhələləri

Sosiologiyada sosiallaşmanın iki fazasını fərqləndirmək qəbul olunmuşdur: adaptasiya və interiorizasiya (internalizasiya). Adaptasiya - (adaptare *latın* sözündən olub, "uyğunlaşma" deməkdir) daha çox belə müəyyənləşdirilir: 1) özünütəşkil sistemlərinin dəyişməkdə olan mühit şəraitinə uyğunlaşmasıdır; 2) xarici mühitlə cismani-energetik qarşılıqlı təsirdir, sosial sistemin mövcudluğunun interaksiya ilə, məqsədə nail olunması və dəyərlilik nümunələrinin saxlanılması ilə yanaşı funksional şərtlərindən biridir (T.Parsons).

*Sosial adaptasiya* dedikdə fərdin yeni sosial mühit şəraitinə fəal surətdə uyğunlaşması prosesi və onun nəticəsi başa düşülür. Qabarıq, aydın fərdiyyətə malik insan yeni mühiti daha artıq dərəcədə mənimsəyir, nəinki ona uyğunlaşır.

Sosial mühitin mənimsənilməsi prosesində fərd həmin mühitin norma və dəyərlərini dərk edərək, onları rəhbər tutmağa başlayır. Adaptasiya insana sosial, professional, təhsil mühitinə və digər mühitə inteqrasiya olunmağa, birliklərin, təşkilatların, qrupun fəaliyyətinə daxil olmağa imkan verir. Adaptasiya aktiv və passiv, müsbət və ya mənfi ola bilər. Q.E. Zborovski qeyd edir ki, adaptasiyanın əsas funksiyası

[1] *Маркс К., Энгельс Ф.* Соч. Т.3. С. 36.
[2] Yenə orada. C. 440.



nisbətən sabit mühit şəraitinin mənimsənilməsindən, qəbul olunmuş sosial davranış, hərəkət üsullarından istifadə etmək vasitəsilə təkrar olunan, tipik problemlərin həllindən ibarətdir (Zborovski, 2004 b)

Sosial mühitin xarakterindən asılı olaraq adaptasiyanın müxtəlif növlərini fərqləndirirlər: sosial-siyasi, sosial-iqtisadi, sosial-mədəni, sosial-məişət, sosial-psixoloji, etnik adaptasiya və b. Əgər insan mühitə uyğunlaşmışsa və onu yaradıcılıqla mənimsəmişdirsə, deməli, adaptasiya uğurla getmişdir. Uğur şəxsiyyətin yüksək rollarında və statuslarında öz ifadəsini tapır. Uğursuz adaptasiya və buna uyğun olaraq aşağı sosial vəziyyət sosial mühitə uyğunlaşmağı bacarmamaqla, şəxsiyyətin passivliyi və mənfi xarakteri ilə bağlıdır. Uğursuz, baş tutmayan adaptasiyanın formalarından biri marqinallıqla, işsizliklə və s. ilə müşayiət olunan dezadaptasiyadır.

Sosiallaşmanın sonrakı fazası *interiorizasiya və yaxud internalizasiyadır.* Bu da fərdin prosesə mahiyyətcə, dərindən daxil olması, prosesi elə bir şəkildə mənimsəməsidir ki, bu halda xarici mühit üçün səciyyəvi olan normalar, standartlar, davranış stereotipləri, dəyərləri üzvi şəkildə şəxsiyyətin daxili "mənsubiyyətinə" çevrilir (bax: Zborovski, 2004 b). Bu, xarici tələblərin insanın daxili qayəsinə çevrilməsi prosesidir.

İnteriorizasiya adaptasiyaya əsaslanır və onunla müqayisədə daha uzunmüddətli və fundamental mərhələdir. İnteriorizasiya prosesində fərd, birincisi, cəmiyyətin tələblərinə uyğun olan sabit daxili tənzimləyicilər sistemini əldə edir, ikincisi, hər hansı bir struktura tam şəkildə daxil olur. Bəzən hətta sosial təşkilat və yaxud qrup müəyyən şəxsiyyətlə assosiasiya yaradır, belə ki, o, zəruri və əvəzedilməz olmuşdur.

Sosiallaşma həyat tsiklləri adlanana uyğun gələn müəyyən mərhələlərdən keçir. Həyat tsiklləri sosial rolların dəyişməsi ilə, yeni sosial statusun qəbulu ilə, əvvəlki vərdişlərdən, ətrafdakılardan, həyat tərzindən imtina edilməsi ilə və s. ilə bağlıdır. Həyat tsiklinin hər bir mərhələsi bir-birini qarşılıqlı surətdə tamamlayan proseslərlə müşayiət olunur: desosiallaşma və resosiallaşma. Desosiallaşma köhnə dəyərlərdən, normalardan, rollardan və davranış qaydalarından əl çəkmək prosesidir. Resosiallaşma – köhnələrə əvəz olaraq yeni dəyərləri, normaları, rolları, davranış qaydalarını mənimsəmək prosesidir.

M. Mid və Ç. Kuli kimi tanınmış tədqiqatçılar rolların mənimsə-

nilməsi prosesi olaraq sosiallaşmanın üç mərhələsini fərqləndirirlər:

- imitasiya – müşahidə olunan hərəkətlərin mexaniki təkrarı;
- oyun – roldan rola keçilməsi, oynanılmış roldan kənara çəkilmə;
- qrup halında üzvlük – öz rolunu qrupun gözü ilə mənimsəmə.

J. Piaje şəxsiyyətin sosiallaşmasının ardıcıl mərhələlərinin zəncirləri kimi koqnitiv (zehni, əqli) inkişaf konsepsiyasını formulə etmişdir: 2 yaşınadək olan mərhələ – sensor mərhələsi: nə qədər ki, uşaq əşyanı görür və hiss edir, əşya mövcuddur; 2 yaşından 7 yaşına qədər – preoperasional mərhələ: uşaq əşyanı və əşyanın simvolunu bir-birindən fərqləndirməyi öyrənir; 7 yaşından 11 yaşınadək – konkret-operasional mərhələ: anlayışlardan fikrən istifadə olunması, təxəyyülün inkişaf etməsi; 12 yaşından sonra – formal-operasional mərhələ: abstrakt anlayışların formalaşması.

İnsan rola necə uyğunlaşır, onu necə mənimsəyir sualına cavab vermək üçün mikrososiologiya psixoloji nəzəriyyələrə diqqət yetirir, testlərdən və sosial-psixoloji interpretasiyalardan istifadə edir. Beləliklə, biliklərin yeni sisteminin – *sosionikanın* yaranması və insanların qayələrinin və davranışının öyrənilməsində formalaşmanın daha ciddi üsullarının meydana gəlməsi baş verir.

Sosiallaşma nə qədər vaxtda davam edir? Sosioloqların əksəriyyəti belə hesab edir ki, sosiallaşma prosesi insanın bütün həyatı boyunca davam edir. Nisbətən az yayılmış nöqteyi-nəzərin tərəfdarları belə hesab edirlər ki, sosiallaşma yetkinlik yaşına çatdıqda kamallaşma ilə başa çatır.

Sosiallaşmanın dövrləşdirilməsi məsələsi mübahisəli olaraq qalır. E. Giddens sosiallaşmanı "həyat yolu", yəni bütün həyat boyu baş verən proses kimi nəzərdən keçirir və onun aşağıdakı dövrlərini araşdırır:

- uşaqlıq – insan həyatının aydın, işıqlı anı, uşaqlıqla yeniyetmə yaşı arasında sərhəd;
- yeniyetmə yaşı – uşaqlıqdan yetkinlik yaşına keçilməsi. "Yeniyetmə yaşı" konsepsiyası uşaqların daha sürətlə böyüdükləri indiki vaxtda xüsusilə əhəmiyyətlidir. Yeniyetmələr istəmirlər ki, onları uşaq hesab etsinlər, onlar böyüklərin həyat tərzini təqlid edirlər, baxmayaraq ki, uşaq qaydalarını rəhbər tuturlar;
- yetkinlik – ailənin yaradılması və mənsəbin (karyeranın) formalaşması ilə əlaqələndirilir. Bu yaş öz uşaqlarının doğulması və tərbiyə edilməsi ilə uyğun gəlir. "Orta yaş həddinin böhranı" anlayışı yetkinlik yaşı ilə bağlıdır: bu yaşda böyük uşaqlar ailədən gedirlər, valideynlər, xüsusilə evdar analar həyatın mənasını itirirlər, onlarda belə hiss yaranır ki, həyatları sona qatmaqdadır;
- qocalıq-ahıllıq – sənaye cəmiyyətində yaşlı adamlar əmək qabiliyyətini itirərək əmək qabiliyyəti dövründə olduğuna nisbətən yoxsullaşırlar. Pensiyaya çıxan isə öz yerini tapmalı, yaradıcı yaşamaq və faydalı olmaq üçün yeni imkanlar əldə etməlidir.



Q. Y. Zborovski üç meyara uyğun olaraq (fiziki və sosial yetkinləşmə dövrü, əsas dominant fəaliyyət növlərinin xarakteri, əsas sosial institutlar – sosiallaşmanın agentləri) sosiallaşmanın aşağıdakı mərhələlərini fərqləndirir (bax: Zborovski, 2004 b):

- körpəlik (anadan olandan 3 yaşınadək). Əsas fəaliyyət forması ünsiyyətdir, sosiallaşmanın əsas agentləri isə ailə, ən yaxın qohumlardır;
- uşaqlıq (3 yaşından 6 – 7 yaşınadək). Əsas fəaliyyət forması – oyundur, daha çox rol oyunudur; uşaq müxtəlif sosial rolları mənimsəyir. Sosiallaşmanın agentlərinə məktəbəqədərki uşaq müəssisələri və KİV, daha dəqiqi, televiziya (televiziya uşaq proqramlarına baxarkən uşaq psixoloji cəhətdən özünü daha rahat hiss edir, uşaq bağçalarında isə tez-tez narahatlıq keçirirlər);
- 6 – 7 yaşından 13 – 14 yaşınadək. Bu dövr mahiyyət dəyişikliklərinin baş verməsi ilə nəzərə çarpır: oyunun əvəzində dərs ortaya çıxır; uşaq bağçasını məktəb əvəz edir; cinsi yetkinləşmə başlanır; ailənin rolu aşağı düşür, sosial mikromühitin rolu isə kəskin şəkildə artır;
- 13 – 14 yaşından 20 – 25 yaşınadək . Bu dövrün əsas xarakteristikası – təhsilin başa çatması və professional əmək fəaliyyətinə keçilməsi; əsas fəaliyyət formaları – təhsil, asudə vaxt və ünsiyyət. Cinsi yetkinləşmə başa çatır, adətən cinsi həyat başlanır. Bu mərhələ daxilində peşə seçimi, mənsəb-karyera inkişafı seçimi prosesi gedir. İnsan yetkinlik çağına çatır, əsas həyati məsələləri, o cümlədən iqtisadi məsələləri müstəqil həll edir;
- 20 – 25 yaşından 35 – 40 yaşınadək – sosial cəhətdən yetkin şəxsiyyətin fəaliyyətə başlaması. Bu mərhələ yüksək peşə fəallığı ilə, öz ailəsinin yaradılması ilə, şəxsiyyətin sosiallaşma obyektindən sosiallaşmanın subyektinə çevrilməsi ilə səciyyələnir. Fəaliyyətin əsas növləri – peşə-əmək fəaliyyəti, həmçinin ailə-məişət fəaliyyəti, təhsil, ictimai-siyasi fəaliyyət, asudə vaxt zamanı fəaliyyət, ünsiyyət fəaliyyəti. Sosiallaşmanın agentləri – istehsalat (əmək) kollektivi, ailə, KİV, təhsil

və b;

- 35 – 40 yaşından 55 – 65 yaşınadək. Bu mərhələ yetkinliyin zirvəsindən "qanuni istirahətə" çıxana qədərki zaman çərçivələrini əhatə edir. E. Eriksonun (ABŞ) fikrinə görə məhz bu yaş dövründə ya aktiv inkişafa, yaradıcılığa, ya da daimiliyə, sabitliyə aydın şəkildə ifadə olunmuş səy özünü göstərir;
- pensiya yaşı – aktiv peşə-əmək fəaliyyətindən imtina edilməsi. Bu mərhələdə digər fəaliyyət növləri ilə məşğul olmağa keçməyi bacarmaq olduqca lazımdır. Şəxsiyyətin həyatında onun sosial müdafiəsi, əxlaqi-psixoloji yardım göstərilməsi imkanları ilə bağlı olan sosial institutlar xüsusi rol oynamağa başlayır. Ailənin rolu yenidən sosiallaşmanın ilk mərhələlərində oynadığı əhəmiyyəti kəsb edir.

## 2.4. Sosiallaşmanın sosial amilləri və mexanizmləri

Şəxsiyyətin sosiallaşması prosesinə müxtəlif makro-, mezo- və *mikroamillər* təsir göstərir. *Birinci amillərə cəmiyyət, dövlət,* onun sosial institutları, KİV aiddir. İkincilərə isə fərdin bu və ya başqa şəkildə daxil olduğu qurumlar – ölkə, etnos, region (şəhər, kənd), yerli KİV-lər, tədris müəssisəsi aiddir. Mikroamillər insanın bilavasitə qarşılıqlı təsirdə olduğu amilləri – ailəni, dərs qrupunu, dostları, əmək kollektivini və s. birləşdirir. Mikroamillər digər sosial amillərin ideyalarının keçiricisi xidmətini yerinə yetirə bilərlər.

Müasir şəraitdə yeni sosiallaşdırıcı amil – kompüter meydana gəlmişdir. İnternetin sayəsində insan virtual reallıqdakı davranış nümunə və qaydalarını mənimsəyir.

Sosiologiyada sosiallaşmanın agentlərini və institutlarını fərqləndirmək ənənəsi qəbul olunmuşdur. Sosiallaşmanın a g e n t l ə r i dedikdə digər insanlarda mədəni normaları və sosial rollara edilən tələbləri sosiallaşdıran insanlar başa düşülür. Sosiallaşma i n s t i t u t l a r ı – sosiallaşma prosesini istiqamətləndirən təsisatlardır.

Sosiallaşma ilkin və sonrakı sosiallaşmaya ayrılır. İ l k i n s o s i a l l a ş m a şəxsiyyətlərarası münasibətlərlə bağlıdır. Bu sosiallaşmanı ailə və təhsil kimi institutlar həyata keçirir və valideynlər, ən yaxın qohumlar, dostlar, yaşıdlar, müəllimlər – qısası, sosiallaşan obyektlə ünsiyyət və qarşılıqlı təsir gedişində birbaşa və bilavasitə



tərbiyə və sosiallaşma ilə məşğul olanlar (və yaxud ona təsir göstərənlər) sosiallaşmanın agentləridir. Sosial münasibətlərlə şərtlənən s o n r a k ı s o s i a l l a ş m a n ı insanın dolayısı ilə daxil olduğu institutlar – dövlət, partiyalar, hərəkatlar, KİV, idarələrin inzibati qurumları, ordu, məhkəmə, kilsə və s. həyata keçirirlər. Bu sosiallaşmanın agentləri – sosiallaşan şəxsin daxil olduğu idarə və təşkilatların inzibati qurumlarının nümayəndələridir. Onlar ən yaxın əhatəyə daxil olmur və sosiallaşma prosesinə daimi təsir göstərmirlər.

İlkin sosiallaşma uşaqlıqdan yetkinlik yaşınadək olan dövrlə uyğun gəlir, təkrar, ikinci yaxud sonrakı sosiallaşma isə zəmanət kimi (yetkin insanların sosiallaşması kimi) özünü göstərir.

Sosial amillər şəxsiyyətin sosiallaşmasına aşağıda göstərilən m e x a n i z m l ə r vasitəsilə təsir göstərirlər:

- refleksiya – özü ilə daxili (fikrən) dialoq, bu və ya digər hadisə, situasiya, davranış, qarşılıqlı təsirlə əlaqədar başqa adamlarla dialoq; İnsan real həyat faktlarını təhlil edərək, öz arqumentlərini, əqidə və dəlillərini sıraya düzür;
- ənənəvi mexanizm – fərd tərəfindən ətraf sosial mühitdə hökm sürən, adət və ənənələrdə təsbit olunmuş dəyərlərin, norma və qaydaların mənimsənilməsi;
- şəxsiyyətlərarası mexanizm – "nüfuzlu sayılan digərləri" ilə ünsiyyəti nəzərdə tutur;
- ictimai şüur mexanizmi – insan başqa adamların onun haqqında və onun mənsub olduğu qrup haqqında fikirlərinin təsiri altında sosiallaşır;
- müəyyən submədəniyyət üçün səciyyəvi olan stilləşmiş mexanizm və yaxud həyat stili (üslubu).
- institusionallaşmış mexanizm – mədəniyyət və sosium institutları, yəni tərbiyə və təhsil institutları, istehsalat, siyasi institutlar, KİV və b. Sosial institutlar insana sosial rolları, normaları, dəyərləri mənimsəməyə imkan verir.

Sosiallaşma prosesi kənaraçıxmalardan azad deyildir ki, bu da kənaraçıxan (deviant) adlanan davranışda öz ifadəsini tapır (bax: bu bölmənin 5-ci fəsli).

Testlər

1. E. Giddens sosiallaşmaya aşağıdakı tərifi vermişdir:
   a) sosiallaşma – özünütərbiyə kimi izah edilən tərbiyədir;
   b) sosiallaşma – elə bir prosesdir ki, onun nəticəsində uşaq içində dünyaya gəldiyi mədəniyyəti mənimsəyən müstəqil şəxsiyyət kimi formalaşır.

2. Sosiallaşmanı tədqiq etmək lazımdır:
   a) sosial rollardan asılı olmadan;
   b) sosial rollarla qarşılıqlı əlaqədə .

3. "Güzgü Mən-ni" nəzəriyyəsinin müəllifi:
   a) Ç. Kuli; b) R. Park; v) J. Piaje.

4. C. Mid yaratmışdır:
   a) "güzgü Mən-i" nəzəriyyəsini;
   b) "ümumiləşdirilmiş başqası" nəzəriyyəsini.

5. Sosiallaşmanın fazaları:
   a) adaptasiya və konformizm;
   b) adaptasiya və fəallıq;
   v) adaptasiya və interiorizasiya.

6. Sosiallaşmanın amilləri bölünür;
   a) makro-, mezo- və mikroamillərə;
   b) makro- və mikroamillərə.

7. İlkin sosiallaşma bağlıdır:
   a) sosial münasibətlərlə;
   b) şəxsiyyətlərarası münasibətlərlə .

8. Təkrar sosiallaşmanın agentləridir:
   a) ailə; b) idarələr, təşkilatlar.

Cavablar
**1** – b; **2** – b; **3** – a; **4** – b; **5** – v; **6** – a; **7** – b; **8** – b.



# 3-CÜ FƏSİL. ŞƏXSİYYƏTİN ROL NƏZƏRİYYƏLƏRİ

## 3.1. Sosial statuslar və sosial rollar

### *Sosial status anlayışı*

Sosial status şəxsiyyətin əsaslı xarakteristikasıdır. İnsan həyatı boyunca çoxlu insanlarla qarşılıqlı təsirdə olur. Bu qarşılıqlı təsirlər çox cəhətdən insanın bütövlükdə cəmiyyətdə, xüsusilə sosial qrupda statusundan asılıdır. Sosial status konsepsiyasının müəllifi olan amerikan sosioloqu R. Linton sosial status adı altında cəmiyyətin sosial stratifikasiyasında şəxsiyyətin tutduğu mövqeyi başa düşmüşdür.[1] Bütövlükdə sosial statusa hazırda aşağıdakı kimi tərif verilir: "sosial status insanın sosial əlaqələr və münasibətlər sistemində tutduğu və təbii (irq, cins, milliyyət) və sosial (peşə, gəlir, təhsil və s.) xarakteristikalarla şərtlənən mövqeyidir" (Zborovski, 2004 b, S. 448.). Sosial statusun başlıca xüsusiyyəti bundan ibarətdir ki, "o, şəxsiyyəti, onun sosial mövqeyini istər mövcud qrupun, istərsə də digər qrupların mövqeləri ilə tutuşdurur" (Yenə orada).

### *Sosial statusun növləri*

Real sosial praktikada insan müxtəlif statuslara malik olur. Bu statusları müxtəlif əsaslara görə təsnifatlaşdırmaq mümkündür. R. Linton sosiallaşmaya təyin edilən və əldə edilən (əldə edilmiş) statuslar anlayışlarını daxil etmişdir. Statusların bu növləri insanın nəyin sayəsində hazırkı mövqeni tutmasına uyğun olaraq – irsən alınmış əlamətlərin (cins, irqi mənsubiyyət və s.), yaxud öz səyləri nəticəsindəmi (təhsil alması, xidmət nərdivanı ilə irəliləməsi, mənsəb inkişafı və s.)

[1] Bax: *Linton R.* The study of man. N.Y. L., 1936.

fərqləndirilmişdir. Təyin edilmiş status sənayeyəqədərki cəmiyyətlərdə geniş yayılmışdı; müasir şəraitdə isə əldə edilən status üstünlük təşkil edir.

Sosiologiya statusun daha iki növünü fərqləndirir – qarışıq (işsiz, dilənçi və b.) və inteqrativ (ümumiləşdirilmiş) status. İnteqrativ status insan üçün başlıca olandır. Ətrafdakılar insanı məhz onun inteqrativ statusu ilə eyniləşdirirlər. Bu status daha çox peşə mənsubiyyəti ilə bağlıdır, doğrudur, o, sosial mənşə ilə və milli mənsubiyyətlə də müəyyən oluna bilər. İnteqrativ status şəxsiyyətin həyat tərzini, davranış manerasını və ünsiyyət dairəsini təyin edir.

Sosioloqlar şəxsiyyətin statuslarının iki səviyyəsini: sosial-qrup (insanın sosial strukturda mövqeyi) və şəxsi (insanın kiçik qrupda, ailədə, maraq qrupunda mövqeyi və s.) səviyyələrini fərqləndirirlər. Sosial-qrup statusu qrupun cəmiyyətin stratifikasiya sistemində mövqeyi ilə determinasiya olunmuşdur, şəxsi səviyyə insanın fərdi xüsusiyyətləri ilə şərtlənmişdir

Sosial status şəxsiyyətin zahiri simasında (paltar, jarqon, davranış v s.) və daxili mövqeyində (əqidəsi, qayəsi, dəyərlilik istiqamətləri v s.) təzahür edir.

Əldə edilmiş bir çox (lakin hamısı yox) sosial statusları şəxsiyyət dəyişdirməyə qadirdir. Lakin bu, kifayət qədər mürəkkəb prosesdir. Müasir cəmiyyət əldə edilmiş sosial statusların inkişafı üçün, daha yüksək sosial statusa səy göstərilməsinin reallaşması üçün xeyli ilkin şərtlər yaradır.

### *Sosial toplu, hüquqlar və vəzifələr, nüfuz və imic*

Hər bir insanın çoxlu miqdarda statusu var. R. Merton şəxsiyyətə "məxsus olan" statusların məcmusunu müəyyən etmək üçün "status toplusu" anlayışını daxil etmişdir. Status toplusunun kəmiyyəti insanın həyatının nə dərəcədə inkişaf etmiş, çoxcəhətli, rəngarəng olmasından, insanın sosial əlaqələr və münasibətlər sisteminə nə dərəcədə daxil olmasından asılıdır. Şəxsiyyətin statusu həmişə digər statuslara münasibətdə müəyyən olunur (tələbə – müəllim, ər – arvad, valideyn – övlad və s.). Biz "tələbə – dayı" demirik; əlbəttə, reallıqda belə ola bilər, belə ki, statusların xarakteristikaları digər münasibətlər sistemində önəmlidir (tələbə – müəllim, dekan, rektor və b., dayı – bacıoğlu). Bu misalda təhsil münasibətləri sistemində inteqrativ status



tələbədir, qohumluq münasibətləri sistemində – dayıdır.

Təyin edilmiş və qazanılmış statuslar daimi və müvəqqəti – uzun müddətli, qısamüddətli olur (istər iki gün, istərsə də altı il tələbə olmaq mümkündür). İnsan psixoloji cəhətdən özünü öz statusu ilə eyniləşdirir. Həm də ki, bu statusların məcmusu nə qədər çoxcəhətlidirsə, bu eyniləşdirmə də o qədər rəngarəngdir.

Status insandan cəmiyyətdə qəbul edilmiş müəyyən vəzifələrin, norma və qaydaların yerinə yetirilməsini tələb edir, lakin digər tərəfdən isə, insan özü hüquqlar və imtiyazlar verir. Statusların hüquqların, vəzifə və imtiyazların məcmusu ilə əlaqəsi aşağıdakı qanunauyğunluqlara tabedir:

- insanın sosial statusu nə qədər yüksək olarsa, o qədər də o, çox hüquqa malik olar;
- bu status üçün nəzərdə tutulan məsuliyyət nə qədər çox olarsa, insanın malik olduğu hüquqlar da bir o qədər çox olar;
- sosial status məsuliyyətin həcminə görə nə qədər konkret olarsa, insanın o qədər çox vəzifələri olar;
- status vəzifələrini yerinə yetirməyən insan status hüququ və imtiyazlarından məhrum edilir;
- insan itirilmiş statusa və öz vəzifələri, hüquqları və imtiyazları olan yeni statusa doğru həmişə hərəkətə başlaya bilər.

Status fərqləri çox vaxt simvolika vasitəsilə (ordenlər, medallar, nişanlar, poqonlar, geyim və s.) nümayiş etdirilir. Adamlar həmişə bu və ya digər şəkildə bir-birinin ictimai vəziyyətini müqayisə edirlər. Cəmiyyətdə insanın mövqeyinin nüfuzunu – "ictimai münasibətlər sistemində ayrıca insanın real vəziyyətinin ictimai şüurda inikası"[1] – insanın cəmiyyətdə malik olduğu nüfuzu, hörməti sübut edir. Statusa müqayisəli ictimai qiymət verilməsi müəyyən şkalaya malikdir (yüksək, orta, aşağı status). Şəxsiyyətin nüfuzu formal təyin olunan və insanın nüfuz şkalasında vəziyyətini müəyyən edən rütbələrdə qeyd olunur.

Real praktikada nəinki statuslar, eyni zamanda konkret insanın status obrazları mövcuddur. İnsanın statusuna uyğun olaraq onun obrazı haqqında kompleks təsəvvür "imic" anlayışı ilə müəyyən olunur, müəyyən statusa malik olan insan öz xüsusi nüfuzu və imici üzərində məqsədyönlü şəkildə işləyə bilər. Status nüfuzu və imici haqqında sosial təsəvvürlər zaman keçdikcə dəyişir və təkmilləşir.

---

[1] Российская социологическая энциклопедия. М., 1998.

### *Sosial rol anlayışı, sosial rolun növləri və strukturu*

Sosial status və sosial rol biri digərsiz mövcud olmayan, bir-biri ilə qarşılıqlı əlaqədə olan anlayışlardır, belə ki, status müəyyən rolların yerinə yetirilməsini nəzərdə tutur, rollar isə müəyyən statusa uyğun gəlirlər. Rolların mövcud olması cəmiyyətin tələbləri ilə, konkret birliklər və qruplarla şərtlənir. İnkişaf etməmiş funksional struktura malik sadə cəmiyyətlərdə rol repertuarı məhdud olur, rol sanki insanın mahiyyətidir, onunla elə bil "qaynayıb qarışıb". Müasir inkişaf etmiş cəmiyyətdə insan çoxlu sayda statusa və uyğun surətdə rola malikdir. Sosiologiyada rol dedikdə nə başa düşülür? Rolun sosioloji anlamı onun sosial – mədəni, dəqiq deyilsə, teatr anlamından nə ilə fərqlənir? C. Mid rolu statusdan asılı olaraq təlimatlar, göstərişlər sistemi kimi nəzərdən keçirmişdir, belə ki, sosial funksiyalar üfüqi, şaquli xətlər üzrə fərqlənirlər və iyerarxiyaya tabedirlər. R. Linton sosial rolu insanın statusu ilə assosiasiya təşkil edən və gözlənilməkdə olan davranış kimi başa düşürdü. Şəxsiyyətin müasir sosioloji rol nəzəriyyəsi Midin və Lintonun təsəvvürlərinə əsaslanaraq *sosial rolu şəxsiyyətin ümidlərinə uyğun olaraq onun sosial mövqeyi ilə obyektiv surətdə təyin olunmuş və şəxsiyyətin şəxsiyyətlərarası və ictimai münasibətlər sistemində yeri ilə şərtlənmiş davranış modeli kimi müəyyən edir.* Rol anlayışı müəyyən situasiyada hər bir fərdin öz davranışı və başqa insanların davranışı ilə əlaqədar olaraq ümidlərinin məcmusunu özündə cəmləşdirir. Sosial rol sosial funksiya şəklində və funksiya isə rol şəklində təzahür edir. Bunlar bir-biri ilə qarşılıqlı əlaqədə olan anlayışlardır, doğrudur, sosial funksiya anlayışı sosial rol anlayışına nisbətən genişdir.

E. Bern məşhur "İnsanların özlərinin oynadıqları oyunlar" adlı sosial-psixoloji filmində insanların rolları necə qavradıqlarını, özlərini bu rollarla necə eyniləşdirdiklərini və seçilmiş roldan asılı olaraq öz talelərini necə qurduqlarını təhlil etmişdir. Birisi öz taleyini özü qurur (mən qəhrəmanam), digəri şəraitə uyğunlaşır (amöbşəkilli şəxsiyyət).

Mid və Kuli rolların mənimsənilməsi prosesi olaraq sosiallaşmanın üç mərhələsini fərqləndirirlər: 1) imitasiya – müşahidə olunan hərəkətlərin mexaniki surətdə təkrarı; 2) oyun – roldan rola keçmə, oynanılmış roldan uzaqlaşmaq; 3) qrup halında üzvlük – öz rolunun mənimsənilməsi, lakin qrupun gözü ilə mənimsənilməsi.

T. Parsonsa görə istənilən sosial rol beş əsas xarakteristika əsasında



təsvir oluna bilər:[1]

- əldə etmək üsulu ilə – bəzi sosial rollar təyin olunur, digərləri isə əldə edilir, qazanılır;
- emosionallıqla – müəyyən rollar emosional təmkinlilik, digərləri isə sərbəstlik tələb edir;
- miqyası ilə – rolların bir hissəsi formulə edilmiş və ciddi şəkildə məhdudlaşdırılmışdır, digər hissəsi isə yoxa çıxmışdır;
- formallaşma ilə – hərəkətlər ya ciddi surətdə müəyyən edilmiş hüdudlardadır, ya da ixtiyaridir.
- motivasiya ilə – ümumi rifah üçün, şəxsi qazanc üçün və s.

Parsonsun fikrincə rol həmişə bu xarakteristikaların məcmusunu özündə birləşdirir. Misal olaraq o, fahişənin rolunu gətirir: əldə etmək üsulu nöqteyi-nəzərindən bu, qazanılmış, nail olunmuş roldur; ikinci xarakteristika sıfır qiymətinə malikdir; rolun miqyası dəqiq müəyyən edilmişdir – pula görə seksual xidmət; bu rol formallaşdırılmış xarakterə malikdir – konkret xidmət növü üçün müəyyən haqq müəyyən olunur; motivasiya aydındır – göstərilən xidmətə görə maddi qazanc əldə edilməsi.

Sosial rol davranış modelini formalaşdırır, sosial aktor kimi fərdə müəyyən tip davranış, hərəkət nümunəsini təklif edir.

Bəzən aktorun sosial rolu ilə aktyorun teatr rolu arasında birbaşa analogiya barədə səhv təsəvvür yaranır. Lakin bu rollar prinsipial olaraq bir-birindən fərqlənirlər. Birincisi, mahiyyət etibarı ilə: sosial rollar yerinə yetirilir, teatr rolları oynanılır; ikincisi, müddətinə görə – nə qədər ki, insan hazırkı statusuna malikdir, sosial rollar yerinə yetirilir; bu isə uzun müddət davam edə bilər. Teatr rolları isə yalnız tamaşa zamanı oynanılır; üçüncüsü, məkan xarakteristikalarına görə – eyni bir sosial rolu min kilometrlərlə bir-birindən aralı məsafədə olan insanlar (Rusiyada ata və Nigeriyada ata) yerinə yetirə bilərlər, halbuki teatrda rol onun səhnəsi ilə məhdudlaşmışdır.

Sosiologiyada sosial rolların aşağıdakı n ö v l ə r i fərqləndirilir: hüquqa və qanuna əsaslanan *institusional* rollar (cəmiyyət tərəfindən rəsmi sanksiya almış) və ənənələrdən, adətlərdən, əxlaqdan, ictimai toqquşmadan asılı olan *qeyri-institusional* rollar. Rolun öyrədilməsinə daxildir: 1) icra olunan rola uyğun olaraq vəzifələri yerinə yetirməyin və hüquqları həyata keçirməyin öyrədilməsi; 2) təlim alanların rola uyğun

[1] *Parsons T.* The Social system Glencoe, 1951.

olan qayələrin, hisslərin, ümidlərin, gözləmələrin əldə edilməsi. Rol insanın sosial və fərdi tələbatlarını təmin etməlidir. Rolun öyrədilməsi sosiallaşma prosesində həyata keçirilir və bu öyrədilmənin uşağın qabiliyyətinə nə dərəcədə adekvat olaraq aparılmasından və bu rolun sosial planda nə qədər uğurlu olmasından asılıdır, belə ki, istənilən rol sosial mühit tərəfindən sifariş verilir.

Sosioloqlar rolun s t r u k t u r u n d a *rol sərəncamını* və *rol gözləməsini* bir-birindən fərqləndirirlər – bu o deməkdir ki, sosial sistem şəxsiyyətdən nə tələb edir, ona nə tapşırır və ondan nə gözləyir. Lakin rol davranışı (rolun icrası) heç də həmişə rola, rol gözləmələrinə uyğun gəlmir. Eyni zamanda da rol gözlənilməsinin özü də ziddiyyətli ola bilər. Q. Y. Zborovski düzgün olaraq qeyd edir ki, sosial rolun strukturu ziddiyyətli xarakterə malikdir və şəxsiyyətlə onun sosial əhatəsi – istər ən yaxın və istərsə də uzaq əhatəsi olsun – ziddiyyətlərin ilkin səbəblərini özündə daşıyır.

## 3.2. Rol razılaşması və rol münaqişəsi

İnsan cəmiyyətdə müəyyən sosial rola malik olarkən, bu rolu dərk edərkən, mənimsəyərkən və onu həyata keçirərkən hazırda mövcud olan sosial strukturla və bilavasitə funksional - rol vəzifələri ilə razı da ola bilər və yaxud razı olmaya da bilər.

Standart, tipik sosial hərəkətlər sosial funksiyalarda təsbit olunduğu halda funksional - rol razılaşması baş verir.

Fərdin sosial institutda müəyyən sosial tələbatların təmin edilməsinə yönəldilmiş tipik hərəkətləri sosial vəzifədən irəli gələn obyektivləşdirilmiş rollardan asılı olaraq təsbit olunurlar. İnstitut sosial tələbatların təmin edilməsi üçün nəzərdə tutulmuş rol və statusların məcmusu kimi çıxış edir. İnsan yalnız o zaman institusional əlaqə və münasibətlərə daxil olmuş hesab olunur ki, onun fərdi tələbatı sosial tələbata uyğun gəlir və o bu rolu fəaliyyətdə olan sosial institutların çərçivəsində həyata keçirməyə razı olur.

İnstitusionallaşmış davranışa institusional norma və qaydaların dərk edilməsi, həmçinin "yazılmamış" qayda və normaların daxil olduğu fərdi təsəvvürlərə uyğunluğu təsir göstərir. İnstitutun qayda və tələblərini bilən, özünü bu qayda və tələblərə uyğun olaraq aparan insan institutun çərçivəsi daxilində özü üçün rahat fəaliyyəti təmin edir. Lakin,



əgər mənimsənilmiş əxlaqi və hüquqi normalar ümumən qəbul edilmiş əxlaqi və hüquqi normalarla uyğun gəlmirsə, onda münaqişə meydana gəlir və bunun nəticəsi olaraq da insanın, sosial qrupun, sosial təşkilatın mövcudluğunda narahatlıq, diskomfort yaranır. Cəmiyyətdə qarşılıqlı təsir normaları haqqında fərdi, qrup, təşkilati təsəvvürlərin dərkinin və strukturunun dəyişməsi motivasiya dinamikasının inkişafına səbəb olur. İnstitusional qarşılıqlı təsir prosesində biliklər genişlənir və müvafiq olaraq motivasiya strukturu da dəyişir.

Sosial subyekt cəmiyyətdə müəyyən status əldə edərək hüquqlar və vəzifələr əldə edir ki, bunlarla o, dəyərlilik və funksional cəhətdən razı da ola bilər, razı olmaya da bilər. Rol razılığının formalaşması rol bacarıqlarının və rolun icrasına yaradıcı münasibətin inkişaf etdirilməsinə, məqsədlərə nail olunmasında və konkret vəzifələrin yerinə yetirilməsində kollektivin və insanın qiymətinin yüksəldilməsinə yönəldilmişdir. Əgər insan rol tələblərini və gözləmələri bilirsə və bunlar onun fərdi dəyərlər sisteminə zidd deyilsə, onda funksional razılığa nail olunur.

İnsan sosial subyekt olaraq hazırda mövcud olan formal qaydaya uyğun olaraq hərəkət edir, lakin özünün xüsusi dəyərləri və dəyər oriyentasiyaları olan antrop subyekt kimi rolun həyata keçirilməsi üsulları ilə, rolun mənası və məqsədilə razılaşa da bilər, razılaşmaya da bilər. Bununla o da izah olunur ki, sosial təşkilat və qrup rolların icrasına nəzarət edirlər, insandan və digər sosial subyektlərdən institusional cəhətdən şərtlənmiş davranış və hərəkət tələb edirlər. İnstitusional münaqişə o zaman yaranır ki, rol icraçısının gözlənilən və real davranışı bir-birinin əksinədir, bir-biri ilə ziddiyyət təşkil edir.

İnsan müxtəlif sosial rolları yerinə yetirərkən mənimsənilmiş dəyərləri və normaları praktikada yoxlayır onları sosial qruplar, təşkilatlar tərəfindən ondan tələb olunan dəyərlər və normalarla müqayisə edir. Yaranan ziddiyyət şəxsiyyətin dəyərlilik-normativ məramlarının dəyişməsi ilə, deviant davranışla, xarici dəyər və normaların dəyişməsinə yönəldilmiş hərəkətlərin baş verməsi ilə həll olunur.

Sosial razılığın formalaşması razılaşmamanın və münaqişələrin funksional – rol səbəblərinin aydınlaşdırılmasını və ləğvini nəzərdə tutur. Rola daha çox müəyyənlik verilməsi, rolun məzmununun icraçı qarşısında qoyulan tələblərlə razılaşdırılması, rolların dublyajının kənar edilməsi, rolun öyrənilməsi və işçilərin ixtisasının artırılması, insanda

razılaşdırılmış münasibətlər və qarşılıqlı təsirlər, əlaqələr təşkil etmək bacarığının inkişaf etdirilməsi yaranan münaqişəli situasiyaları həll etməyə imkan verir.

### Rola obyektiv surətdə xas olan münaqişələr

İki və yaxud daha çox rolun təmin edilməsini tələb edən situasiyanı R. Merton rol münaqişəsi adlandırmışdır.[1] Münaqişələrin üç əsas tipini fərqləndirirlər:

- rollar arasında münaqişə, məsələn, professional və ailə rolları arasında, xidməti borcla şəxsi dostluq arasında münaqişə;
- rolun daxilində münaqişə – maraqların münaqişəsi, nə zaman ki, maraqlar, məqsədlər daxili əxlaq qanunları ilə düz gəlmir; nə danışdığın, nə etdiyin, nə fikirləşdiyin arasında münaqişə. Bundan əlavə rol özü özündə ziddiyyətli tələbləri daşıya, onların müxtəlif şərhinə yol verə bilər. Rolun düzgün başa düşülməməsi rol gözləməsi ilə rol davranışı arasında münaqişəyə gətirib çıxarır;
- rol gözləməsi ilə rol icrası arasında münaqişə – bu münaqişə o zaman meydana gəlir ki, insan rol qarşısında qoyulan tələbləri bilmir, başa düşmür və yaxud düzgün izah etmir və müvafiq olaraq özünü rol gözləməsinə münasibətdə qeyri-adekvat aparır (tələbələrə özünün həyatı və ailəsi haqqında danışan müəllim özünü rola nisbətdə adekvat aparmır; azixtisaslı, texniki iş yerinə yetirən rəhbər həmçinin özünü rola adekvat aparmır). Münaqişənin bu tipini rolun həyata keçirilməsinə zəif hazırlıq da stimullaşdırır. Deyək ki, tələbəni sinif nümayəndəsi seçiblər, amma bu rol haqqında onun təsəvvürləri həmin rol qarşısında qoyulan tələblərdən çox uzaqdır. Şəxsiyyətin cəmiyyətdə uğurlu fəaliyyət göstərməsi müxtəlif qrupların gözləmələrinin uçota alınmasını, rol qarşısında qoyulan tələbləri bilməyi və onlara riayət edilməsini və bu rola uyğun olaraq davranış qaydalarına əməl edilməsini nəzərdə tutur.

Rolla bağlı gərginliyin aşağı salınmasının və rol münaqişələrini aradan qaldırmağın üsulları müxtəlifdir. Merton hesab edirdi ki, insan özünün sosial rollarını mühüm və mühüm olmayan sosial rollara, ailədə yerinə yetirilən və işdə icra olunan rollara ayırmalı və buna uyğun olaraq hərəkət etməlidir. Psixologiyada və sosiologiyada rol gərginliyini aşağı salmağın və aradan qaldırmağın üsulları olaraq rolların tənzimlənməsi, onların rasionallaşdırılması və bölgüsü nəzərdən keçirilir.

[1] Bax: *Merton R.K.* The role-set: problems in sociological theory // British journal of sosiology. 1957. № 8.



Bütövlükdə qeyd edək ki, rollar nəzəriyyəsi şəxsiyyətin rol davranışını aşağıdakı şəkildə strukturlaşdırır: rol gözləməsi – rolun başa düşülməsi – rolun yerinə yetirilməsi. Rol davranışı rol gözləməsindən başlanır: insan onu necə icra etməlidir və rolun icrasından nə əldə etməlidir. Rolun başa düşülməsi o deməkdir ki, insan bu rolu özü üçün mümkün hesab edir. Rolun yerinə yetirilməsi göstərir ki, rol haqqında təsəvvürlər nə dərəcədə düzgün olmuşdur, rol davranışı şəxsiyyət qarşısında hansı imkanları açır, bu rol təkmilləşməyə, kamilləşməyə imkan verirmi.

### Testlər

1. Sosial status konsepsiyasını təklif etmişdir:
   a) R. Linton;
   b) R. Merton.

2. C. Mid sosial rol dedikdə başa düşürdü:
   a) statusdan asılı olaraq sərəncamlar sistemini;
   b) cəmiyyətdə insanın mövqelərini.

3. Sosial statusun əsas növləri:
   a) təyin edilmiş status;
   b) nail olunmuş (əldə edilmiş);
   v) qarışıq status;
   q) fərdi status;
   d) inteqrativ status.

4. Şəxsiyyətin statuslarının əsas səviyyələri:
   a) sosial-qrup statusu;
   b) milli status;
   v) şəxsiyyətin statusu.

5. Şəxsiyyətin davranışının tipik nümunəsi təqdim edilmişdir:
   a) sosial rolda;
   b) sosial statusda.

6. Sosial rolların növləri:
   a) institusional rollar;
   b) institusional olmayan rollar;
   v) könüllü rollar.

7. Rol razılaşması o yerdə mövcud olur ki:
   a) insan rolu özü üçün səthi təsəvvür edir;
   b) insan rolun tələblərini bilir.

8. R. Merton elə bir situasiyanı rol münaqişəsi hesab edir ki, o zaman:
   a) rolun tələblərinin təmin edilməsi zəruridir;
   b) iki və yaxud daha çox rolun tələblərini yerinə yetirmək lazımdır.

9. Şəxsiyyətin rol davranışının strukturuna daxildir:
   a) rol gözləməsi;
   b) rolun münasibliyi;
   v) rolun başa düşülməsi;
   q) rolun yerinə yetirilməsi.

Cavablar

**1** – a; **2** – a; **3** – a; b, v, d; **4** – a, v; **5** – a; **6** – a, b; **7** – b; **8** – b; **9** – a, v, q.



# 4-CÜ FƏSİL. ŞƏXSİYYƏTİN HƏYAT TƏRZİ VƏ ASUDƏ VAXTI

## 4.1. Həyat tərzi sosioloji təhlil obyekti kimi

Biz hər gün baş verən, gündən-günə təkrar olunan işlər və qayğılar dünyasında, həyəcan və sevinc içərisində yaşayırıq. Bizim həyatımız cəmiyyətdə, dövlətdə, dünyada baş verən miqyaslı tarixi hadisələrin fonunda cərəyan edir. Bu həyat da onlardan asılı olaraq eyni zamanda tarixin gedişinə təsir göstərir.

A. Şyuts gündəlik hadisələr sosiologiyasını işləyib hazırlayaraq qeyd edirdi ki, gündəlik fəaliyyət dünyada baş verən hadisələrin geriyə dönməzliyi səbəbindən geriyə dönməzdir. Şyutsa görə gündəlik hadisələr dünyası ilə müqayisədə bütün digər dünyalar hər hansı bir çatışmazlığa, defisitə malikdir (mövcudluq, fəallıq, şəxsən qoşulmaq defisiti və s). Gündəlik həyat – "ali reallıqdır", onun strukturu isə ən dolğun və zəngin strukturdur. Müxtəlif "mədəni aləmlərin" təhlili göstərir ki, bu aləmlərin hər birinə özünün xüsusi koqnitiv üslubu və özlərinin daxili təşkilat formaları xasdır.

K. Marks və F. Engels istehsal üsulunu "müəyyən fəaliyyət üsulu, müəyyən həyat tərzi kimi" nəzərdən keçirir və belə hesab edirdilər ki, "fərdlərin həyat fəaliyyəti necədirsə, onlar özləri də elədirlər".[1]

Sosializm cəmiyyətinin humanitar elmlərində həyat tərzi kapitalist və sosialist həyat tərzlərinə bölünürdü, sosialist həyat tərzinin uğurluluğu və üstünlükləri əsaslandırılırdı. Bu ona gətirib çıxarmışdı ki, yenidənqurmanın əvvəlindən başlayaraq həyat tərzi mövzusu Rusiya sosioloji elmində xüsusi şəkildə nəzərdən keçirilməmişdir.

Gündəlik həyatın dəyərlilik paradiqmaları artıq uşaqlıq dövründə formalaşır; birinci növbədə bu, ananın məhəbbətidir, ailə qayğılarıdır. Böyüdükcə şəxsiyyət öz mövcudluğunun məkan-zaman şəraitini (yaşayış yeri, vaxt keçirmə müddəti) qiymətləndirməyə başlayır. *Gündəlik həyat vaxtını* şəxsiyyətin həyatının cərəyan etdiyi vaxt kimi müəyyənləşdirmək olar. Bu vaxt onunla səciyyələnir ki, şəxsiyyət onu

[1] *Маркс К., Энгельс Ф.* Соч. Т. 3. С.19.

necə və nə ilə istifadə edir. Məişət dəyərləri rahatlığı təmin edən, sevinc gətirən keyfiyyətlərdən ibarətdir. Məişətin təşkili, o cümlədən mənzil təminatı gündəlik həyatın başlıca qayğılarındandır. İngilislər deyirlər: "Mənim evim – mənim qəsrimdir". İnsanlar ev mühitinin dəyərini, evin ona verdiyi təhlükəsizlik, qoruna bilmək dəyərini dərk edərək, ev-mənzillərinin xatirinə bir çox qurbanları verməyə hazır olurlar.

Müasir həyatın təşkili vaxtın cərəyan etməsi tempinə, sürətinə daim diqqət yetirməyi tələb edir. Hamıya məlumdur ki, zaman, vaxt qavrayışı yaş artdıqca dəyişir: gənclikdə elə gəlir ki, vaxt ləng, yetkinlik illərində isə olduqca sürətlə gedir. Lakin bu və ya digər şəkildə gündəlik həyatın zaman strukturu əmək fəaliyyətinin texnoloji ritmləri ilə müəyyən olunur: həyati əhəmiyyətli, sevimli işi olan adam vaxtın qədrini bilir, onu qiymətləndirir.

Əlbəttə, gündəlik məişət insanı yeknəsəq təkrar olunan gündəlik işlərin toruna sala bilər. Nəticədə də "sensor aclıq" deyilən meydana gəlir. "Sensor aclıq" dedikdə psixoloqlar kəskin duyğulara qaynar ehtiyacı başa düşürlər.

Gündəlik həyat mədəniyyəti dəyərlərin maddi - əşya "pərdəsini" birinci plana çəkir, bu dəyərlərin mənəvi məzmununu ona müncər edirlər. Beləliklə də, istehlakçılığa pərəstiş, nüfuzu təmin edən əşyalara pərəstiş meydana gəlir. Bir çoxları sərgilərə və teatr tamaşalarına heç də estetik zövq xatirinə getmir; gedir ki, özünü "mədəni adam" kimi tanıtsın (özünü məhz belə hiss etsin). Lakin E. Frommun qeyd etdiyi kimi, "sahib olmaq mövcud olmaq deyildir". Gözəlliyin başa düşülməsini və qəşənglik hissini pulla satın almaq olmaz, necə də ki, digər adamlar tərəfindən diqqətin xarici əlamətlərinə nail olmaqla həqiqətən hörmətli və sevimli olmaq mümkün deyildir.

Dəyərlərin onların əşya daşıyıcıları ilə əvəz edilməsi bəzən insan varlığının ali mənəvi dəyərlərinə və ideallarına biganə, etinasız – kinayəli yanaşılmasına gətirib çıxarır. Ən dəhşətlisi bundadır ki, şəxsiyyət dəyər olmaqdan məhrum olur və bir əşya kimi nəzərdən keçirilməyə başlayır, nəticədə insan xarici mühit tərəfindən udulur və özü də digər əşyalar içərisində əşyaya, şəraitin köləsinə, gözəgörünməz qüvvələrin əlində oyuncağa çevrilir. O, axın boyu üzür, etməli olduğu işi yerinə yetirir, çünki "belə qəbul olunmuşdur".

Adamlar ictimai həyatın yeknəsəqliyindən müxtəlif şəkildə yaxa qurtarmağa çalışırlar. Buna parlaq misal İ. A. Qonçarovun "Oblomov" romanının qəhrəmanıdır. Bu qəhrəman gündəlik həyat vurnuxmasında iştirakdan sadəcə olaraq kənarlaşdırılır və özünün rahat divanında sakitlik tapır. XX əsrdə bu cür passiv protest "hippizmdə" – yarımdilənçi həyatla kifayətlənən və "xoş vaxt keçirməkdən" başqa heç bir şeyə səy göstərməyən avara gənclər hərəkatında öz ifadəsini tapmışdır.



Nifrət bəslənilən "mütəşəkkil cəmiyyətin" qəfəsindən qurtarmağın daha bir üsulu – cinayətlər yoludur. Lakin kriminal həyat tərzi insanı gündəlik həyat köləliyindən qurtarmır, əksinə, onu "həqiqi olmayan varlıq" girdabına atır.

"Həqiqi olmayan" varlıqdan xilas olunması insanın həyatın mənasını qazanmasında özünü göstərir. Həyatın mənasını başa düşmək qabiliyyəti genlərdə verilməmişdir, o, mədəniyyət vasitəsilə əldə edilir. Mədəniyyət insana həyati mənalı dəyərlər üçün "meydan" verir. Bu "meydanda" insan həyatın mənasını tapmaq imkanına malikdir. Gündəlik həyat aləmi bir çox anlayışlarla təsvir edilir ki, bunların da içərisində *həyat tərzi* anlayışı mühüm yer tutur.

Qərb sosiologiyasında həyat tərzi adı altında çox vaxt insanın peşə əməyindən kənardakı fəaliyyəti və davranışı başa düşülür. Bu cəhətdən Qərb sosiologiyası Marksın mövqeyinə yaxındır. Marks yazırdı ki, başlıca sərvət asudə vaxtdır. İstehsal sferası şəxsiyyətin həyat tərzinin sadə və zəruri ilkin şərtidir ki, bu da hər bir adama eyni qaydada təsir göstərir.

Rusiya sosiologiyasında istehsal fəaliyyəti həyat tərzinin mühüm komponenti kimi şərh olunur, çünki o, insana fərqləndirici təsir göstərir. Qeyri-istehsal fəaliyyəti haqqında işləyənlərin, işsizlərin, marginalların həyat tərzi kimi danışmaq olar.

Rusiya sosiologiya ensiklopediyasında həyat tərzi "fərdin, sosial qrupun, bütövlükdə cəmiyyətin həyat fəaliyyətinin tipik növlərinin məcmusunu əhatə edən, onu təyin edən həyat şəraiti ilə vəhdətdə götürülən sosioloji kateqoriyadır".[1] Q. Y. Zborovski buna diqqət yetirir ki, "həyat tərzi" anlayışı "şəxsiyyətin daxili aləminin , onun şüurunun xarakteristikalarının insan fəaliyyətinin xarici, müşahidə olunan təzahürlərinin əlaqəsini, qarşılıqlı münasibətini, keçidini, çevrilməsini görməyə" imkan verir. Bu kateqoriyanın sayəsində "şəxsiyyətin kompleks öyrənilməsi üçün imkan yaranır. Bu kompleks öyrənmə həyat

[1] Российская социологическая энциклопедия. М., 1998. С. 327.

şəraitlərinin vəhdəti ilə, şüurun vəziyyəti ilə, fəaliyyətin forma və növləri ilə əlaqədardır", şəxsiyyətin istehsalda fəaliyyətinin təhlili hesabına onun öyrənilməsini genişləndirməyə (söhbət "həyatın istehsal - əmək əsasından" gedir), həyat tərzinin şəxsiyyətə təsirini öyrənməyə və öz xüsusi həyat tərzi olan şəxsiyyətin haqqında daha tam bilik verməyə imkan verir" (Bax: Zborovski, 2004 b).

Həyat tərzi müəyyən sosial təbəqəyə xas olan normativ-formasion həyat tərzinə, sosial qrupun, birliyin – həyat tərzinə və şəxsiyyətin həyat tərzinə ayrılır. Həmçinin yaşayış yeri üzrə həyat tərzi – şəhər və kənd həyat tərzi, peşə mənsubiyyəti üzrə həyat tərzi, tələbə, müəllim, fəhlə həyat tərzi və s. fərqləndirilir.

Həyat tərzinin öyrənilməsi insanların davranışının (onların həyat üslubunun) həyat ukladı, həyat səviyyəsi, həyat keyfiyyəti ilə şərtlənən səbəbləri nəzərə alınmaqla sosial həyatın əsas sferalarını nəzərdən keçirməyə imkan verir.

H ə y a t ü s l u b u – insanların müəyyən davranış tipini ifadə edən sosial-psixoloji kateqoriyadır. Məzmununa görə həyat üslubu insanların bütövlükdə bütün həyat fəaliyyətini əhatə edən "həyat tərzi" kateqoriyasından dardır. Həyat üslubu diqqətin insan fəaliyyətinin subyektiv tərəfi üzərində, fərdin, ailənin, digər sosial qrupların əməllərinin, gündəlik davranışının motivləri, formaları üzərində cəmləşdirməyə imkan vermir.

Sosiologiyada sosial qrupun və ayrı-ayrı insanların həyat üslubu öyrənilir. Həyat üslubu – həyat şəraitini qavramağın yalnız mövcud şəxsiyyətə və yaxud qrupa xas olan xüsusi üsuludur, fərdi cəhətdən təkrar olunmayan psixika, xarakter, temperament xüsusiyyətlərinə, maraq və tələbatlara cavab verən hərəkət və davranışın xüsusi tövrü, qaydasıdır. Məlumdur ki, müxtəlif insanlar eyni bir istehsal funksiyasını yerinə yetirərkən öz fərdi üslubundan, istifadə edir (birisi hərəkət planı üzərinə dəfələrlə düşünməyi üstün tutur, başqası sınaq və səhvlər metodu ilə hərəkət edir).

Həyat üslubu həyat imkanlarından, həyat səviyyəsi və keyfiyyətindən asılıdır. S.İ. Ojeqov u k l a d ı ictimai həyatın, məişətin qərarlaşmış nizamı, düzümü, təşəkkül tapmış quruluşu kimi müəyyənləşdirir.[1] Bu kateqoriya münasibətlərin müəyyən tipini ifadə

[1] *Ожегов С.И.* Словарь русского языка. М., 1963.



edir. Əgər cəmiyyətdən söhbət gedirsə, onun sosial-iqtisadi quruluşu bir və yaxud bir neçə ukladdan ibarət ola bilər. Çoxukladlı cəmiyyətdə bunlardan biri üstünlük təşkil edir və digər ukladları özünə tabe edir, bütövlükdə sosial-iqtisadi quruluşun xarakterini müəyyən edir.

H ə y a t s ə v i y y ə s i həmçinin sosial-iqtisadi kateqoriyadır. Həyat səviyyəsi başlıca olaraq özünün keyfiyyət təyinatından sərf-nəzər edilmiş kəmiyyət göstəriciləri ilə səciyyələnən istehlak nemətləri ilə təmin olunmaq mənasında insanların maddi və mədəni tələbatlarının təmin edilməsi dərəcəsini ifadə edir.

Həyat səviyyəsi şəxsiyyətin maddi və mənəvi istehlakından xəbər verir. Doğrudur, bu kateqoriya daha çox iqtisadi kateqoriyadır, nəinki sosioloji, bununla belə həyat səviyyəsi kateqoriyası fərdin həyat tərzinin son dərəcə mühüm göstəricisidir. Lakin həyat səviyyəsi və həyat tərzi arasındakı əlaqəni şişirtməyə dəyməz. Məsələn, bir çox varlı adamlar mənəvi və əxlaqi planda çox kasıb həyat tərzi keçirirlər. Prinsipcə cəmiyyətdə əhalinin yüksək həyat səviyyəsinə nail olmaq meyli nə qədər güclüdürsə, hər bir insanın tam dolğun həyat tərzinin inkişafı üçün bir o qədər çox ilkin şərtlər mövcud olur.

H ə y a t k e y f i y y ə t i – insanların maddi və mənəvi tələbatlarının təmin edilməsi keyfiyyətini ifadə edən kateqoriyadır (qidalanmanın, paltarın keyfiyyəti, mənzil rahatlığı və s.). Əgər həyat səviyyəsi fəaliyyət üsulunun kəmiyyət parametrləri haqqında təsəvvür verirsə, həyat keyfiyyəti onun mahiyyət, məzmun tərəflərini, yəni əməyin xarakter və məzmununu, yaşayış mühitinin və ətraf mühitin keyfiyyətini və s. aşkara çıxarır.

Beləliklə, güman etmək olar ki, həyat keyfiyyəti fəaliyyət üsulunu əks etdirməklə, eyni zamanda cəmiyyətin durumundan - onun fərdlərin əsas tələbatlarını təmin edən iqtisadi, siyasi, ekoloji, hüquqi mühitindən xəbər verir.

Həyat tərzi məkan-zaman kontekstində xeyli fərqlənir. Müxtəlif sosial təbəqələrin və sosial qrupların, müxtəlif etnosların və hətta ümumiləşdirilmiş Avropa və Asiya həyat tərzindən danışmaq olar.

## 4.2. Həyat tərzinin strukturu

Həyat tərzinin strukturunu əmələ gətirən əsas elementlərə aiddir: 1) İnsanın fəaliyyətinin və davranışının formaları, növləri; 2) şəxsiy-

yətin həyat fəaliyyətinin şərtləri və amilləri. Həyat tərzinin strukturu bir növ üç suala cavab verir: insan öz həyatı haqqında nə fikirləşir? və bu həyat üçün nə arzu edir? İnsan öz ideyalarını, istək və məqsədlərini hansı şəraitdə və hansı amillərin təsiri altında həyata keçirir?

Fərdin həyat tərzi fəaliyyət və davranışın fərdin dominant və ikincidərəcəli ideyalarının, istək və məqsədlərinin həyata keçirilməsinə yönəldilmiş müxtəlif dominant və ikincidərəcəli forma və növlərindən təşəkkül tapır.

Həyat tərzinin struktur elementləri olaraq həmçinin onun səviyyəsi, keyfiyyəti, uklad və üsulu nəzərdən keçirilə bilər.

Həyat tərzi insanın bütün həyatı boyunca dəyişir, lakin uzun müddət nisbi sabit və dayanıqlı ola bilər. Məsələn, məktəbəqədərki uşağın və məktəblinin və yaxud işləyən insanın və pensiyaçının həyat tərzləri əhəmiyyətli dərəcədə müxtəlifdir. Həyat yolunun hər bir mərhələsinə öz dominant fəaliyyət növləri xasdır:

- məktəbəqədərki həyat tərzi – oyun;
- məktəb həyat tərzi – dərs, istirahət ,ictimai həyat;
- işləyən insanın həyat tərzi – iş, istirahət, ictimai və ailə-məişət fəaliyyəti;
- işsiz insanın həyat tərzi – ailə-məişət fəaliyyəti və yaxud asosial fəaliyyət və deviant davranış;
- pensiyaçı həyat tərzi – ailə-məişət fəaliyyəti, asudə vaxt zamanındakı fəaliyyət və ictimai fəaliyyət.

"Həyat tərzi" kateqoriyasından sosioloqlar sosial hadisələrin və proseslərin proqnozlaşdırılması və layihələşdirilməsində, həmçinin həmin hadisə və proseslərin idarə edilməsində istifadə edirlər. Bu məqsədlə də şəxsiyyətin həyatının səviyyəsi, keyfiyyəti, ukladı, üslub və tərzinin müəyyən göstəriciləri tətbiq olunur. Nəzəri təsəvvürlərin və empirik sosioloji tədqiqatların əsasında həyat tərzinin, sosial hadisələrin və proseslərin həyat tərzi ilə qarşılıqlı əlaqədə axtarış və normativ proqnoz modelləri yaradılır.

Həyat tərzi çox cəhətdən *şəxsiyyətin asudə vaxtını* müəyyən edir (bax: 4.3.) Asudə vaxt anlayışı insan fəaliyyətinin növləri ilə bağlıdır. İnsanın həyatı müxtəlif tələbatların təmin edilməsinə xidmət edən fasiləsiz, arasıkəsilməz rəngarəng fəaliyyətdir. Bütün fəaliyyətin növlərini həmcins qruplar halında (sosial-iqtisadi, fizioloji əsasa və s . görə) birləşdirmək olar:



- ictimai təsərrüfatda əmək;
- işlə bağlı fəaliyyət növləri;
- ev təsərrüfatında əmək;
- alış-veriş və xidmətlər;
- uşaqlara baxılması və onların tərbiyə edilməsi;
- fizioloji tələbatların ödənilməsi;
- asudə vaxtda məşğuliyyətlər.

İstənilən fəaliyyət növünün strukturu həmin fəaliyyətin həyata keçirilməsinə hazırlığı, bununla bağlı olan yerdəyişdirmələri elə fəaliyyət növünün özündə birləşdirir. Sosioloqlar əsas (ilkin) və eynivaxtlı (ikinci, təkrar) fəaliyyət növlərini bir-birindən fərqləndirirlər. Bu sonuncu fəaliyyət növü əsas, birinci (ilkin) fəaliyyət zamanı həyata keçirilir (məsələn, yemək zamanı radioya qulaq asmaq). Orta hesabla sutkada hər bir adama buna 5-6 saat vaxt gedir.

Fəaliyyətin strukturunda həmçinin formal və qeyri-formal; bilavasitə və dolayısı ilə, bilavasitə və bilavasitə fəaliyyəti fərqləndirirlər.

## 4.3. Şəxsiyyətin asudə vaxtı

Vaxt adı altında reallığın bir-birini əvəz edən hadisələrin ardıcıllığında ifadə olunan xassəsini başa düşürlər. "Şəxsiyyətin vaxtı" kateqoriyasının bir neçə tərkib hissəsi vardır:

- qeyri-iş vaxtı – şəxsiyyətin əmək fəaliyyətindən kənar vaxtı: ev əməyi, məişət tələbatlarının ödənilməsi, uşaqlara baxılması və onların tərbiyə edilməsi, fizioloji tələbatlarının təmin edilməsi, asudə vaxt;
- iş vaxtı – əmək vaxtı, ictimai istehsalda iştirakın davamlılığının ölçüsü. İş vaxtı, iş həftəsi, iş ayı, iş ili iş vaxtının vahidləridir;
- asudə vaxt – vaxtın ictimai təsərrüfatdakı əməkdən azad olan hissəsidir. Asudə vaxt mənəvi və sosial (geniş mənada) tələbatların (dərs, ixtisas artırılması, mədəniyyət müəssisələrinə baş çəkilməsi, passiv, istirahət və bir sıra digər məşğuliyyətlər) təmin edilməsi ilə xarakterizə olunur. Asudə vaxtın əsas funksiyalarına aiddir: 1) istirahət və sərf edilmiş fiziki və zehni qüvvələrin bərpa edilməsi; 2) zehni və fiziki qüvvə və qabiliyyətlərin inkişaf etdirilməsi; 3) əyləncələr və ünsiyyət;
- sosial vaxt – insan fəaliyyətinin istər müvəqqəti məkanı ilə,

istərsə də bu fəaliyyətin ölçüsü ilə müəyyən edilir. Sosial vaxt fəaliyyətdən ayrılmazdır, bu vaxt xərclənmir, bu və ya digər sahədə müxtəlif fəaliyyət növlərinin ardıcıllığından təşəkkül tapır.

Şəxsiyyətin asudə vaxtı əsas etibarı ilə istirahət üçün və məişət fəaliyyəti üçün istifadə olunur. Müasir cəmiyyətdə asudə vaxt zamanındakı fəaliyyətin aşağıdakı ssenariləri mövcuddur:

- adi bikarçılıq – düşüncəsiz, məqsədsiz və qayğısız vaxtkeçirmə;
- labüd fəaliyyət olan ev işi. Ev işləri ilə də məşğul olarkən eyni zamanda da istirahət etmək, dincəlmək və yaxud əksinə, yorulmaq olar;
- bayram – asudə vaxtın həyatın hərgünlük gedişindən fərqlənən və yüksək əhval-ruhiyyə yaradan istənilən formasıdır. Bayram həmişə oyun elementini özündə daşıyır, insan "adi" davranışın bir çox qaydalarından kənara çıxır, özünü sərbəst aparır, geyinib-kecinir, gərginliyi üzərindən atır;
- məşğuliyyətlərin dəyişməsi – asudə vaxt xidməti fəaliyyətlə bağlı olmayan maraqlar üzrə işlərlə zənginləşir. Başqa bir işlə məşğul olmağa keçilməsi əxlaqi və fiziki yorğunluğu aradan götürməyə imkan verir;
- məzuniyyətin işlə uyğunlaşdırılması – normalaşdırılmamış iş günü olan adam çox vaxt istirahəti işlə özünə münasib olan qaydada əlaqələndirir. İşlə istirahət arasında sərhədin aradan qaldırılması yaradıcı əmək üçün səciyyəvidir. İş və istirahət burada bir-birinə qarşı durmur, əksinə qarşılıqlı surətdə bir-birini tamamlayır.

Real həyatda insanların həyat tərzi istirahət və istehsal fəaliyyətinin müxtəlif ssenariləri ilə səciyyələnir. İnsan asudə vaxtı necə keçirməkdə və mövcud şərait və sosial tələblər çərçivəsində necə işləmək qərarını verməkdə azaddır.

## Testlər

1. Qərb sosiologiyasında həyat tərzi başa düşülür:
   a) peşə fəaliyyəti və davranış kimi;
   b) peşə əməyindən kənarda olan fəaliyyət və davranış kimi.

2. Həyat tərzi -
   a) insanların müəyyən tipini ifadə edən sosial-psixoloji kateqoriyadır;
   b) fərdin, sosial qrupun, bütövlükdə cəmiyyətin həyat fəaliyyətinin məcmusunu əhatə edən və bu fəaliyyəti müəyyən edən şərtlərlə vəhdətdə götürülmüş sosioloji kateqoriyadır.



3. Həyat üslubu asılıdır:
   a) həyat ukladından;
   b) həyat səviyyəsindən;
   v) həyat üsulundan;
   q) həyat keyfiyyətindən.

4. Həyat keyfiyyəti:
   a) insanların maddi və mənəvi tələbatlarının ödənilməsi keyfiyyətini ifadə edən kateqoriyadır;
   b) insanların maddi və mənəvi istehlakının kəmiyyət xarakteristikasıdır;
   v) ictimai həyatın təşəkkül tapmış nizamı, quruluşudur.

5. Həyat tərzinin struktur elementlərinə aiddir:
   a) insanın fəaliyyətinin və davranışının formaları və növləri;
   b) şəxsiyyətin həyat fəaliyyətinin şərtləri və amilləri;
   v) tələbatların ödənilməsinin üsulları.

6. Asudə vaxt:
   a) peşə əməyinə sərf edilmiş vaxtdır;
   b) ictimai təsərrüfatdakı əməyə sərf edilməyən vaxtdır.

7. Asudə vaxtdan istifadə edilməsi müəyyən edilir:
   a) insanın özü tərəfindən;
   b) digər insanlar tərəfindən.

## Cavablar

**1** – b; **2** – b; **3** – a, b, q; **4** – a; **5** – a; b; **6** – b; **7** – a.

# 5-Cİ FƏSİL. ŞƏXSİYYƏTİN DAVRANIŞI, ÖZÜNÜTƏNZİMLƏMƏ VƏ SOSİAL NƏZARƏT

## 5.1. Şəxsiyyətin davranış konsepsiyaları

Şəxsiyyətin davranış konsepsiyalarında (B. Skinner, C. Xomans, K. D. Opp və b.) şəxsiyyət müxtəlif stimullara edilən reaksiyaların sistemi kimi özünü göstərir. Sosioloqlar davranışın üç tipini fərqləndirirlər: normativ, deviant və delinkvent davranış tipləri.

Şəxsiyyətin *normativ davranışı* daha çox yayılmışdır. Normativ davranış mədəniyyət və hüquqda ifadə olunmuş, qanunlarda və məcəllələrdə təsbit edilmiş normalara, qaydalara əsaslanır. Normativ davranışın iki əsas növü vardır: hüquqi normativ davranış və əxlaqi normativ davranış. Qeyd etmək lazımdır ki, normativ davranış hüquq fəlsəfəsində, sosiologiyada, psixologiyada bəzən hüquqi davranış kimi tədqiq olunur, lakin həcminə görə hüquqi davranış "normativ davranış" anlayışından dardır. Belə ki, hüquqi davranış adı altında sosioloqlar cəmiyyətdə mövcud olan hüquqi normalara münasibətdə şəxsiyyətin sosial davranışının bir növünü. (V.V. Kasyanov, V.N. Neçipurenko) və yaxud fərdi və kollektiv subyektlərin, onların şüurunun və iradəsinin nəzarəti altında olan, hüquq normaları tərəfindən nəzərdə tutulan və yuridik nəticələrə səbəb olan (V.N. Kudryavtsev, V.P. Kazimirçuk) sosial əhəmiyyətli davranışı başa düşürlər. Normativ davranış isə həmçinin həm estetik və həm əxlaqi, həm dini davranış ola bilər.

Hüquq sosiologiyasında hüquqi davranışı bir qayda olaraq qanuni (cəmiyyətdə mövcud olan hüquqi normalara uyğun gələn) və qanunsuz (qəbul edilmiş hüquq normalarına zidd gələn) hüquqi davranışa bölürlər. Qanuni hüquqi davranış öz növbəsində üç növə malikdir: obyektiv – qanuni hüquqi davranış (insan normaları obyektiv gerçəklik kimi qavrayır, onların düzgünlüyünə əmindir və özünü onlara uyğun aparır), situasion-haqlı hüquqi davranış (normalara əqidəyə görə yox, situasiyaya görə, vəziyyətdən asılı olaraq əməl olunur), qanuna tabe olan davranış (insan qanunlara əməl edir, lakin onun maraqları hüquqi normaların məzmunu ilə ziddiyyət təşkil edə bilər).



Qanunsuz hüquqi davranış situasiyalı - təsadüfi (hüquq pozuntusu vəziyyətin gedişindən və yaxud həyəcan vəziyyətindən doğur və qəsdən baş verməmişdir) və şərtlənmiş davranışa (bilərəkdən və şüurlu olaraq baş verir) bölünür. Hüquqi davranış həmişə hüquq normaları ilə bağlıdır: qanuni hüquqi davranış – icazə verən normalarla, qanunsuz davranış isə icazə verməyən normalarla bağlıdır.

Qanuni və qanunsuz davranış bir sıra ümumi əlamətlərə malikdir:

- İstənilən hüquqi davranışın sosial əhəmiyyəti var: ya müsbət, ya da mənfi istiqamətli. İstənilən hüquqi davranış bu və ya başqa şəkildə cəmiyyətdə münasibətlərin və qarşılıqlı təsirlərin vəziyyətində öz inikasını tapır. Hüquqi davranışın sosial əhəmiyyəti şəxsiyyətin ona verdiyi subyektiv-psixoloji əhəmiyyətlə uyğun gəlməyə də bilər.
- Yalnız psixi cəhətdən ağılı başında olan, qanunla müəyyən edilmiş yaşa çatmış insanın davranışı hüquqi davranış hesab olunur.
- Hüquqi davranış hüquqi sənədlərlə – qanunlarla, qanunvericilik aktları ilə, qərarlarla, sərəncamlarla reqlamentləşdirilir.
- Hüquqi davranışa dövlət tərəfindən hüquq-mühafizə orqanları vasitəsilə nəzarət olunur.
- Hüquqi davranışın obyektiv və subyektiv tərəfləri vardır: hüquqi davranışın hüquqi normalara uyğunluğu obyektiv tərəfi, subyektin özünün motiv və hərəkətlərini dərk etməsi dərəcəsi və xarakteri subyektiv tərəfi təşkil edir.
- Hüquqi davranış sosial həyatın bütün sahələrində qarşılıqlı hüquqi təsirlər sferalarında reallaşdırılır.

Sosial subyektlərin hüquqi davranışı hüquqi mədəniyyətin struktur elementini təşkil edir. Hüquqi mədəniyyət davranışın legitim və hamı tərəfindən qəbul edilmiş nümunələrini, norma və dəyərləri, stereotipləri və qaydaları yaradır. Şəxsiyyətin hüquqi mədəniyyəti və hüquqi şüuru insanda özünün cəmiyyətdə sosial rolu və yeri haqqında təsəvvürlərin təşəkkülünü, cəmiyyətin hüquqi normalarının onun şüurunda "kök salmasını", şəxsiyyəti bu normalara əməl edilməsinə istiqamətləndirən daxili motivasiyanın meydana gəlməsini nəzərdə tutan hüquqi sosiallaşma prosesində formalaşır. Hüquqi sosiallaşma gedişində şəxsiyyətin sosiuma inteqrasiya olunması vətəndaş cəmiyyətinin və dövlətin hüquqi həyatında iştiraka qoşulması baş verir. Asosial istiqamətli sosiallaşma prosesində fərddə hüquqi nihilizm, kriminal

meyllər, deviant və dövlət əleyhinə davranış inkişaf edir.

Cəmiyyətin sosial normaları insanın lazımi, zəruri davranışı haqqında bizdə təsəvvür yaradır. Cəmiyyət – inkişaf edən dinamik sistemdir. Cəmiyyətin inkişafı ilə onun dayaqları olan sosial normalar da dəyişir. Cəmiyyətdə baş verən dəyişikliklər deviant davranışda əks olunur.

*Deviasiya* – sosial normadan biopsixolojisosial səbəblərlə şərtlənən kənaraçıxmadır. Lakin deviasiya nəinki mənfi xarakter daşıya bilər, nəinki cinayətlə eyniləşdirilə bilər. Deviantlara həm siyasi radikallar, istər novator-rəssamlar, istər fəaliyyəti qəbul olunmuş normaları pozan görkəmli alimlər aiddirlər. Vətən tədqiqatçısı Y.İ. Qilinski cəmiyyətə ziyan vuran mənfi kənaraçıxma davranışı və sosial yaradıcılığın müxtəlif formalarını özünə birləşdirən müsbət kənaraçıxma davranışını bir-birindən fərqləndirir. Deməli, deviant davranış yaradıcı davranış ola bilər (sosial innovasiyalar, yenilikçilər) və dağıdıcı davranış ola bilər (cəmiyyətdə dominantlıq təşkil edən sosial-mədəni ümidlərdən və normalardan kənara çıxan hərəkətlər), sosial cəhətdən bəyənilən neytral, ya da pislənilən ola bilər. Qeyd etmək lazımdır ki, deviant davranışın xarakteristikası sosial ümidlərin qeyri-müəyyənliyi ilə bağlıdır. Məsələn, ictimai normalar baxımından söyüş söymə kənara çıxmadır və yaxud hətta təhqirdir, dustaqlar arasında isə bu, adi danışıq praktikasıdır. Buna görə də günahkarın və normadan kənara çıxmanın müəyyən edilməsi öz davranışını möhkəmləndirmək üçün kifayət qədər hakimiyyətə malik olan subyektdən xeyli dərəcədə asılıdır. Məsələn, son illərdə Rusiyada ənənəvi olaraq deviant davranış hesab olunmuş homoseksualizm, alkoqolizm, narkomaniya yeni şəkildə qiymətləndirilməyə başlamışdır. Getdikcə belə bir fikir daha çox möhkəmlənir ki, bu cür davranış tərzləri xəstəlik təzahürüdür. Lakin elə "əbədi" normalar vardır ki, bəşəriyyət onların tapdalanmasına, onlara məhəl qoyulmamasına heç bir şəraitdə razı olmayacaqdır (məsələn, qətl, zorakılıq).

Deviasiyanın səbəbləri müxtəlif elmlərin nümayəndələri tərəfindən tədqiq edilmişdir. Məsələn, alimlərin bir hissəsi bu fikirdədir ki, normadan kənara çıxılma qabaqcadan b i o l o j i a m i l l ə r l ə müəyyən olunur. Bu mövqenin banisi italyan məhkəmə psixiatrı, həkim və kriminalist Ç. Lombrozodur. O, şəxsiyyətin fiziki cəhətləri ilə kriminal davranış arasındakı əlaqəni müəyyən etmişdir. XX əsrin ortalarında



amerikan həkimi və psixoloqu U. Şeldon hətta deviant davranışa qabaqcadan meylli olmağın insan bədəninin quruluşundan asılı olduğunu müəyyən etmişdir.

Nəzəriyyələrin ikinci qrupu kənaraçıxma davranışının səbəblərini p s i x o l o j i a m i l l ə r l ə izah edir, Z. Freyd deviasiyanın mənbəyini insanın fizioloji tələbatları ilə onun mühitinin sosial-mədəni məzmunu arasında münaqişədə görür. Psixoanalitik nəzəriyyənin bu aspekti bilavasitə kənaraçıxma davranışının təbiətinin və səbəblərinin sosioloji şərhinə yaxınlaşır. Bu aspektin tərəfdarları ona diqqət yetirirlər ki, deviasiya daha çox insanın fizioloji və psixiki xassələri ilə deyil, onun mövcud olub yaşadığı konkret mədəni-tarixi mühitlə bağlıdır.

Deviasiyanın daha ətraflı s o s i o l o j i i z a h ı n ı E. Dürkheym və R. Merton vermişlər. Onlar şəxsiyyətin "uğurlu" və "uğursuz" sosiallaşması prosesindən bəhs edirlər. Dürkheym anomiyanı deviant davranışının əsası hesab edir və anomiya dedikdə elə bir vəziyyəti nəzərdə tutur ki, bu vəziyyətdə şəxsiyyət sabit şəkildə qərarlaşmış sosial statusa milik deyildir. Buna görə də sabitlik, yəni davranış xəttinin seçilməsindən qabaqcadan xəbər tutmaq mövcud olmur. Əgər cəmiyyət anomiya vəziyyətindədirsə, onda insanlara öz davranışını normalarla əlaqələndirmək çətindir: onlara aydın deyildir ki, cəmiyyət onlardan nə gözləyir. Merton özünün analogiya nəzəriyyəsində cəmiyyətin məqsədlərlə onlara nail olmağın sosial cəhətdən bəyənilən vasitələri arasındakı ayrılığı deviant davranışın səbəbi adlandırır. Əgər insanlar qarşıda qoyulmuş məqsədə cəmiyyətdə qəbul olunmuş vasitələrlə nail ola bilmirlərsə, onlar qeyri-qanuni üsullara əl atırlar. Merton məqsəd və vasitələrə münasibətdən asılı olaraq şəxsiyyətlərin davranışının tipologiyasını işləyib hazırlamışdır. Fərdi adaptasiya tiplərini Merton şəxsiyyətin rol davranışı kimi səciyyələndirir. İnsan öz mövqeyini dəyişə bilər və adaptasiyanın bir tipindən digər tipinə keçə bilər.

Bir sıra sosioloqlar deviant davranışın və istənilən davranış tərzinin işlənib hazırlanması üsulları arasında oxşarlığı qeyd edirlər. Lakin birincilər sırasında birinci olaraq bu cür nəticəyə Q. Tard gəlmişdir. Tard deviant davranışın izahı üçün təqlid nəzəriyyəsini formulə etmişdir. Fərd həyatda rastlaşmış olduğu, tanıdığı və yaxud haqqında eşitmiş olduğu adamların davranışını təqlid edir.

E. Sazerlend diferensial assosiasiya nəzəriyyəsini işləyib hazırlamışdır. Bu nəzəriyyə insanların baxışları və davranışlarının

formalaşması prosesində sosial qarşılıqlı təsirin rolunu qeyd edir. Bu nəzəriyyəni çox qədim bir atalar sözü ilə qüvvətləndirmək olar: "Yaxşı kompaniyalardan yaxşı oğlanlar çıxır, pis kompaniyalardan isə pis oğlanlar çıxırlar"

Sosioloq V.Miller mədəni aidetmə nəzəriyyəsini təklif etmişdir. Bu nəzəriyyənin əsasında belə bir təsəvvür durur ki, sosial cəhətdən məzəmmətlənən davranış eynilə sosial cəhətdən bəyənilən davranış kimi sosiallaşma prosesləri tərəfindən törədilə bilər. Belə ki, "şərt" görünmək arzusu bəzən ətrafdakıların sözdə təhqir edilməsi ilə, onlara fiziki təzyiq göstərilməsi ilə nəticələnir. Bu nəzəriyyənin tərəfdarları qeyd edirlər ki, müxtəlif submədəniyyətlərə mənsub olan fərdlər davranış modelləri ilə bir-birindən fərqlənirlər, belə ki, onların sosiallaşması bir-birinin eyni olmayan proseslərlə müəyyən edilir.

Marksizm nəzəriyyəsinə görə hakim kapitalistlər sinfi xalq kütlələrini istismar və qarət edir, bu halda da öz cinayətlərinə görə cəzadan qaçırlar, zəhmətkeşlər isə öz həyatları uğrunda mübarizələrində müəyyən əməllər törətmək məcburiyyətində qalırlar. Hakim sinif bu əməlləri cinayət əməlləri kimi pisləyir. Marksizm nəzəriyyəsi bununla da deviasiya probleminə münaqişə hadisəsi mövqeyindən yanaşmanın əsasını qoymuşdur. Münaqişə nəzəriyyəsində çox şey doğrudur, həmçinin bu da doğrudur ki, qanunları tərtib edənlər və bu qanunların icrasını təmin edənlər əlində hakimiyyəti olan fərdlər və sosial qruplardır. Deməli, qanunlar neytral, bitərəf ola bilməzlər, onlar müəyyən sosial qrupun maraqlarına xidmət edir və onun əsas dəyərlərini ifadə edirlər.

Stiqmatizasiya nəzəriyyəsi buna əsaslanır ki, fərdlər çox vaxt bir-biri ilə yola gedə bilmirlər, belə ki, öz maraqlarında və həyata baxışlarında bir-birindən fərqlənirlər. Bu halda kim hakimiyyətdədirsə, onun öz baxışlarını və prinsiplərini institusional həyatı idarə edən normalarda ifadə etmək və bu normaları pozanları uğurla "lənətləndirmək" imkanı vardır. Stiqmatizasiya nəzəriyyəsinə görə deviasiya davranışın özü tərəfindən deyil, cəmiyyətin ona reaksiyası ilə müəyyən olunur.

Göstərilən bu nəzəriyyələrdən hər biri deviant davranışını yalnız qismən izah edir və normadan kənara çıxmanın hansısa mühüm bir mənbəyini aydınlaşdırır. Deviant davranış isə çoxlu miqdar forma qəbul edə bilər. Əslində, *deviant davranış cəmiyyətdə qəbul edilmiş standartlarla sadəcə olaraq uyğun gəlməyən davranışdır.*



Sosial yayınmaların tipologiyasında deviant davranışın mədəni və psixi kənara çıxmaları, fərdi və qrup kənar çıxmaları, ilkin və sonrakı kənara çıxmalar, mədəni-pisləyici kənara çıxmalar kimi tiplərini fərqləndirilir. İlkin deviasiya – bir sıra sosial davranış normalarının pozulmalarıdır ki, bir çox insanlar özlərinin gündəlik həyatında bunlara yol verirlər (məsələn, maşın sürən zaman sürətin artırılması, küçəni müəyyən edilməyən yerdən keçmək). Lakin, əgər bu faktlardan ictimaiyyət xəbər tutursa, ikinci deviasiya baş verir. Bu deviasiya isə deviant şəxsə "damğa vurulması" ilə müşayiət olunur (yol hərəkəti qaydalarının qatı kobud pozucusu).

Deviasiyanın struktur təhlili bir-biri ilə qarşılıqlı əlaqədə olan üç komponentin araşdırılmasını nəzərdə tutur: deviant davranışın subyekti kimi insanı; davranışın deviantlığının və ya da konformluğunun qiymətləndirilməsinin meyarı kimi normaları və davranışa reaksiya verən xarici subyekti.

"*Delinkvent davranışı*" termini altında cinayət cəzası düşməyən hüquqazidd əməllərin məcmusunu, yəni qanunun qəbul etmədiyi davranışı başa düşürlər. Delinkvent davranışı ilə cinayət davranışı arasında hədd o yerdədir ki, orada inzibati məsuliyyət sferası qurtarır və cəzalandırılan əməllər sferası başlanır.

## 5.2. Sosial nəzarət və deviasiya

Cəmiyyətin normal fəaliyyət göstərməsi və inkişafı bir çox faktlardan və şərtlərdən asılıdır. Onların təmin edilməsinin əsas mexanizmini sosial nəzarət təşkil edir. "Sosial nəzarət" termini elmi dövrəyə Q. Tard tərəfindən gətirilmişdir. Tard "sosial nəzarət"i ilk əvvəl hüquq pozucusunun (cinayətkarın) normal həyata qaytarılması, sonra isə şəxsiyyətin sosiallaşması amili kimi şərh etmişdir. Tardın ardınca R. Park sosial nəzarət adı altında ölkədə sosial qayda yaratmaq və onu təmin etmək xatirinə cəmiyyətin fərdə məqsədyönlü təsirini başa düşmüşdür. P. Berger yazır ki, "sosial nəzarət" sosiologiyada ümumən qəbul edilmiş anlayışlardan biri olmaqla, istənilən cəmiyyətin özünün itaətsiz üzvlərini cilovlamaq üçün tətbiq etdiyi ən müxtəlif vasitələri nəzərdə tutur. Heç bir cəmiyyət sosial nəzarətsiz keçinə bilməz" (Berger, 1996. S. 68).

Sosial nəzarət formal nəzarətə və qeyri-formal nəzarətə ayrılır. Formal nəzarət rəsmi statusa malikdir, müvafiq orqanlar: hüquq-mühafizə orqanları, məktəb, ordu, KİV, siyasi partiyalar, hökumət, dövlət tərəfindən həyata keçirilir.

Qeyri-formal nəzarət qohumlar, dostlar, tanışlar, həmkarlar tərəfindən reallaşır. Qeyri-formal sosial nəzarətin spesifik agentini ictimai rəy təşkil edir (bax: bu fəslin 5.3 bəndi). Nəzarətin bu və ya digər növünün səmərəliliyi situasiyadan asılıdır, lakin tarixən qeyri-formal nəzarət formal nəzarətdən əvvəl gəlir.

Formal sosial nəzarət getdikcə daha artıq qlobal miqyas alır. Totalitar cəmiyyətdə sosial nəzarət total, ən ümumi xarakter alır.

Sosial nəzarətin fəaliyyət göstərməsində adətən iki əsas tərəfi fərqləndirirlər: normativ (davranışın dəyərlilik-normativ tənzimləyiciləri), institusional (tənzimləmə funksiyasına malik olan sosial institutlar) tərəflər. Normativ sosial nəzarət arzu olunan, zəruri davranışın tələblərini əks etdirən normalar sistemini nəzərdə tutur. Nəzarətin subyektləri normalarla müəyyən edilmiş sərhədlər çərçivəsində fəaliyyət göstərir. Cəmiyyətdə müəyyən edilən vahid normativ rejim hüquqi qayda adlanır.

Müasir cəmiyyətdə sosial nəzarət institusionallaşır. Məsələn, ailə nəinki sosiallaşmanın mühüm institutudur, eyni zamanda bundan da az olmayan önəmli sosial nəzarət institutudur.

Təsir formasına görə sosial nəzarət ümumi və müfəssəl nəzarətə ayrılır. Ümumi nəzarət o deməkdir ki, nəzarət edəni yalnız son nəticə maraqlandırır, o bütövlükdə tələblərin yerinə yetirilməsini yoxlayır. Ətraflı nəzarət zamanı nəzarət edən davranış və əməlin bütün xarakteristikalarına göz qoyur (məqsədə nail olmağın müddətləri, mərhələləri, metodları, alətləri, üsulları və s.). Dövlət miqyasında nəzarətin tətbiq edilməsi siyasəti dövlətin yaradılması ilə nəticələnir.

Sosial nəzarət üç mühüm funksiyanı yerinə yetirir:

- tənzimləyici funksiyanı – sosial nəzarətin köməyilə insanların davranışının sosial tənzimlənməsi həyata keçirilir;
- mühafizə funksiyasını – sosial nəzarət ümumi əhəmiyyətli dəyərləri qoruyub saxlamağa, bu dəyərlərə qəsd cəhdlərinin qarşısını almağa imkan verir. Çox cəhətdən sosial nəzarətin sayəsində sosial təcrübənin nəsldən nəslə ötürülməsi baş verir;
- sabitləşdirici funksiyanı – sosial nəzarət standart situasiyalarda davranışın eynişəkilliliyini və qabaqcadan xəbərverilənliyini təmin edir, sosial qaydaya doğru aparır.



T. Parsons qeyd edirdi ki, sosial nəzarətin funksiyası sosial ümidlərlə fərdlərin real davranışı arasında uyğunsuzluğu minimuma çatdırmaqdan ibarətdir, bununla da onun başlıca xüsusiyyətini, onun üçlük vəhdətini qeyd etmişdir.

Sosial nəzarətin məqsədi insanın normativ, demək olar konformist davranışının, sosial qaydalara uyğun olan davranışın təmin edilməsindən ibarətdir. Sosiallaşmadan fərqli olaraq sosial nəzarət üçün cəmiyyətdə normaya riayət etməyin motivləri əhəmiyyətsizdir.

Sosial tənzimlənmə və nəzarətin üç əsas üsulunu (metodunu) fərqləndirirlər:

- icazəvermə (nəzarətin ən yumşaq üsulu) – qadağan olunmamış (icazə verilmiş) davranış variantlarını göstərir;
- göstəriş – müəyyən, zəruri davranışın variantlarından bəhs edir;
- qadağan – davranışın qadağan olunmuş variantlarını bəyan edir, lakin icazə verilmiş davranışın variantlarından bəhs etmir.

Sosial nəzarət *qrup halında təzyiq və qrup nəzarəti* vasitəsilə təzahür edir. Fərdə, onun daxil olduğu qrupların normativ-dəyərlilik mexanizmi təzyiq göstərir.

Əgər fərd qrupda qəbul edilmiş normaları pozursa, onda ona qarşı nəzarət, o cümlədən sanksiyalar şəklində nəzarət tətbiq olunur. Sanksiyalar sosial nəzarətin əsas alətidir. Bu sanksiyalarda fərdə normanı reallaşdıran təsir tədbirləri öz əksini tapır. Sanksiya insanı normaya uyğun olaraq lazımi davranış üçün stimullaşdıran vasitədir (həvəsləndirmə və yaxud cəzalandırma). Sanksiyalar institusional və sosial mexanizmlər vasitəsilə tətbiq olunur. Bu sanksiyalar müsbət (normalara əməl edilməsi üçün həvəsləndirməni nəzərdə tutan) və mənfi (cəzalandırmanı nəzərdə tutan), formal və qeyri-formal sanksiyalar olur. Formal və qeyri-formal sanksiyalar nəzarətin subyektlərinə uyğun olaraq tətbiq edilir. Bu subyektlər də formal (məktəb, milis, məhkəmə və b.) və qeyri-formal (ailə, şirkət və b.) subyektlərə ayrılır.

Müsbət sosial sanksiyalar bu və ya digər instansiyalar tərəfindən açıq şəkildə bəyənilmə və həvəsləndirmədir (ordenlər, medallar, fəxri fərmanlar, mükafatlar və s.), qeyri-formal sanksiyalar dostlar, həmkarlar, qohumlar, həmçinin ictimai rəy, KİV tərəfindən bəyənilmə

və həvəsləndirmədir (hörmət göstərilməsi, dostcasına tərif, alqışlar və s.), formal mənfi sanksiyalar – qanunla, təlimat və müddəalarla, nizamnamə və qərarlarla (həbs, işdən çıxarma, cərimə və s.) nəzərdə tutulmuş cəzalardır, qeyri-formal mənfi sanksiyalar – qeyri-formal əhatə tərəfindən həyata keçirilən cəzalardır (boykot, lağaqoyma, şayiə s.).

Normalar və sanksiyalar bütöv bir tamı təşkil edirlər. Norma yalnız o zaman sosial nəzarət potensialına malik olur ki, o, müvafiq sanksiya ilə təsbit edilmiş olsun.

Tətbiq olunan sanksiyaların tipi nəzarətin bilavasitə və bilvasitə, sərt və yumşaq ola biləcək metodlarını müəyyən edir.

Sosial nəzarətin mühüm forması məcburetmədir. N. Smelzer qeyd edirdi ki, "sosial nəzarət – cəmiyyətin normalarının və dəyərlərinin məcmusudur, həmçinin onların həyata keçirilməsi üçün tətbiq olunan sanksiyalardır... sosial nəzarət ətrafdakıların deviant davranışın aradan qaldırılmasına yönəldilmiş səyləridir, deviantların cəzalandırılması və yaxud onların islah edilməsidir" (Smelzer, 1994, S. 227). Sosial nəzarət, sözsüz ki, deviant davranışı ilə bağlıdır. T. Parsons qeyd edirdi ki, sosial nəzarət qoyulması məqsədilə deviantların təcrid edilməsindən və bəraətdən istifadə edilməsi mümkündür.[1] Təcridedilmə həbs olunmağı nəzərdə tutur. Bəraət qazandırma həyatda sosial cəhətdən münasib yer tutmaqda deviantlara kömək göstərilməsinə yönəldilmişdir.

Sosioloqlar aşağıdakı qanunauyğunluğu aşkara çıxarmışlar: deviasiyalar o zaman azalır ki, nə zaman cəmiyyətdə zorakılıq azalır, insanlar arasında münasibətlərdə tolerantlığın səviyyəsi yüksəlir; deviasiyalar artır, nə zaman ki, cəmiyyətdə ekstremizm və zorakılıq inkişaf etmişdir, sosial nəzarət prosesində isə təsirgöstərmənin zorakı metodlarından istifadə olunur.

## 5.3. İctimai rəy sosial tənzimləyici kimi

İctimai rəyin sosial əhəmiyyəti olduqca böyükdür. Kütləvi yardım istənilən sosial-siyasi hərəkətin uğur qazanmasını təmin edir.

"İctimai rəy" termini XII əsrin ikinci yarısında İngiltərədə meydana gəlmişdir, XYII əsrin sonlarında isə hamı tərəfindən qəbul edilmişdir.

Protaqor hamının yanında söylənilən fikirdən bəhs etmişdir, bu ad altında əhalinin əksəriyyətinin fikrini, rəyini başa düşmüşdür. Platona

[1] Bax: *Parsons T.* The Sosial system. Glencoe, 1951.



görə "açıq söylənilən" aristokratın rəyidir. N. Makiavelli ictimai rəyin müstəsna əhəmiyyətini qeyd etmişdir. G.V.F. Hegel həmçinin bu hadisəyə diqqət yetirmişdir. Onun strukturunda Hegel bir sıra elementləri fərqləndirmişdir: 1) ictimai rəyin mövcudluğunun şərtləri; 2) ictimai rəyin obyekti (məzmunu); 3) ictimai rəyin daşıyıcısı; 4) ictimai rəy kimi çıxış edən mühakimənin xarakteri; "ən ümumi" və "xüsusi" rəylərin nisbəti, ictimai rəydə həqiqətin və yalanın birləşdirilməsi və əksliyi.

İ. Kant rəy haqqında ümumiyyətlə rəy kimi bəhs etmişdir və belə güman etmişdir ki, rəy "nəyinsə həqiqiliyinin şüurlu olaraq qəbul edilməsidir".

Rəy sosial subyektin öz marağına az aidiyyəti olan hadisə və olaylara qiymətləndirici münasibətinə, sosial qiymətləndirmə (faydalılığın, məqsədəuyğunluğun, ədalətin) prosesinə əsaslanır. Obyektə maraq rəyin formalaşması prosesinin başlanmasını müəyyən edir, subyektin sosial marağı isə onun dəyərlər sistemi ilə yanaşı rəyin istiqamətliliyini müəyyən edir. Deməli, rəyin strukturunda obyekt və subyekti fərqləndirmək olar. R ə y i n  o b y e k t i – hər hansı hadisə, proses və ya da sadəcə olaraq müəyyən meyarlara cavab verən sosial faktdır. S u b y e k t olaraq müxtəlif səviyyəli birliklər – dövlətin və yaxud planetin əhalisindən tutmuş ayrı-ayrı yaşayış vilayətlərinə qədər birliklər çıxış edə bilər.

*İctimai rəy – sosial birliklərin ictimai həyat problemlərinə münasibətdir ki, bu münasibət də emosiyalarda və mühakimələrdə, sonra isə hərəkətlərdə, əməllərdə təzahür edir.* İctimai rəy ictimai şüuru əks etdirir; ictimai şüur da öz növbəsində böyük sosial qrupların, bütövlükdə xalqın ictimai maraq doğuran aktual hadisələrə münasibətini (verdiyi qiyməti) əks etdirir. İctimai rəy insanların qarşılıqlı sosial təsirinin mühüm mexanizmlərindən biridir. İctimai rəy üçün səciyyəvidir: nisbi yayılmaqlıq, intensivlik, düzgünlük, etibarlılıq və sabitlik. İctimai şüur cəmiyyətdə baş verən proseslərə sosioloji cəhətdən situasiyanın özünün komponentlərindən biri kimi çıxış etməklə önəmli təsir göstərməyə qadirdir. İctimai şüur istər qurucu, yaradıcı, istərsə də dağıdıcı sosial gücə malikdir. O, dövlət institutlarının və yaxud digər sosial-siyasi institutların çox güclü partnyorudur (opponentidir).

Alimlərin əksəriyyəti ictimai rəyin formalaşmasının bir neçə amillərini fərqləndirirlər, lakin ən mühüm amil olaraq insanların sosial

maraqlarını hesab edirlər. İctimai rəyin formalaşmasının üç mərhələsini fərqləndirirlər. Bu mərhələlərin də zaman hüdudları olduqca dəyişkəndir:

- ictimai rəyin yaranması mərhələsi – ictimai rəyin fərdi-qrup tipinin təşəkkülü. Bu mərhələdə subyektdə (xalqda) mühüm əməli əhəmiyyətə malik olan, insanların mühüm maraqlarına toxunan problem üzrə dəyərlilik – qiymətləndirmə fikirləri ilə mübadilə etmək tələbatı yaranır;
- ictimai rəyin bilavasitə formalaşması mərhələsi –fərdi və qrup rəylərinin intensiv mübadiləsidir ki, onların da gedişində kollektiv rəy, onun əsasında isə ictimai rəy ifadə olunur. Birinci mərhələnin emosional komponenti rasional komponentlə əvəz olunur;
- ictimai rəyin fəaliyyət göstərməsi (hərəkətə başlaması) mərhələsi – rəy əksəriyyətin mühakiməsi kimi çıxış edir. İctimai rəyin məzmununun iradi komponenti dominantlıq təşkil edir. İctimai rəy şifahi formadan davranış formasına keçir. Problemə maraq itdikdə ictimai rəyin formalaşması prosesi dayanır.

İctimai rəyin inkişaf prosesinin məzmununa və intensivliyinə cəmiyyətin bütün kütləvi-mənəvi-psixoloji qurumları qoşulmuşdur. İctimai rəyin formalaşması xətti toplama prinsipi ilə müəyyən olunur: ayrıca rəy ümumi rəyə çevrilə bilər, rəylərin bir hissəsi ümumiyyətlə ümumi rəyə daxil olmaya da bilər və s. Sosial maraqla, diskussiyalılığı ilə, səlahiyyətliliyi ilə müəyyən olunan qrup rəyi ictimai rəyə çevrilir. Deməli, rəyi fərdi rəyə, qrup rəyinə və ictimai rəyə ayırmaq olar.

İctimai rəy bir çox xassələri ilə, hər şeydən əvvəl miqyaslılığı ilə, subyektiv yayılanlığı, müəyyənliyi, qütbliyi ilə, polyarizasiya olunması ilə, intensivliyi, sabitliyi, formalaşma sürətilə, əlaqəliliyi və uzlaşdırmış olması ilə səciyyələnir.

### *İctimai rəyin funksiyaları*

Funksiya adı altında (*lat.* functio – icra etmə, yerinə yetirmə) – sosiologiyada belə başa düşülür: 1) sosial sistemin bu və ya digər elementinin bir tam kimi həmin sistemin təşkilində yerinə yetirdiyi rol; 2) müxtəlif proseslər arasında dəyişənlərin funksional qarşılıqlı əlaqələrində ifadə olunan asılılıq; 3) sosial institutlar tərəfindən tənzimlənən sosial hərəkət.



İctimai rəy aşağıdakı funksiyalara malikdir:

- qiymətləndirmə funksiyası – kütləvi sosial subyektin sosial gerçəkliyin aktual probleminə "bəli – yox" forması üzrə maraqlı - dəyərlilik münasibətini ifadə edir;
- idraki funksiya – ictimai rəyin sosial idrakın mənbəyi, vasitəsi və üsulu kimi çıxış etmək qabiliyyətini nəzərdə tutur;
- adaptasiyaedici funksiya – fərdi və qrup subyektlərinin təsiri altında ictimai rəy tərəfindən yerinə yetirilən sosial rolları əks etdirir. Bu funksiya sosial keyfiyyətləri formalaşdırır, cəmiyyətdəki mövcudluğun norma və qaydalarını, qəbul etdirir;
- mədəniyyət varisliyi funksiyası – ictimai rəyin mədəniyyətin normaları, dəyərləri, ənənələri, mərasimləri və digər komponentlərinin nəsldən nəslə ötürülməsi mexanizmlərindən biri kimi çıxış etmək qabiliyyətini müəyyən edir;
- məqsədyönümlülük funksiyası – ictimai rəyin siyasətin və idarəetmənin məzmun tərəfinin formalaşdırılmasında iştirakından ibarətdir. Bu funksiya cəmiyyətin inkişaf məqsədlərinin qoyuluşunda ictimai rəyin rolunu əks etdirir;
- idarəetmə və yaxud tənzimləmə funksiyası – bu funksiyanın məzmunu sosial subyektlərə tənzimləyici təsirdən ibarətdir. Bu funksiya ictimai münasibətlərin müəyyən normalarının (müstəqil hasil olunmuş və yaxud xaricdən gətirilmiş) həyata keçirilməsini təmin edir.

Bu və ya digər sosial institutların və yaxud ayrı-ayrı şəxslərin rəylərinin qarşılıqlı təsirinin xarakterindən asılı olaraq ictimai rəyin funksiyaları aşağıdakılara bölünür:

- öz əhəmiyyətinə görə ən geniş olan ekspressiv funksiya. Bu funksiya cəmiyyətin həyatında istənilən fakt və hadisələrə, müxtəlif institutların, dövlətin liderlərinin hərəkətlərinə münasibətdə müəyyən mövqe tutmaq bacarığında ifadə olunur. Bu xüsusiyyət ictimai rəyə hakimiyyət institutlarının və partiya, dövlət liderlərinin fəaliyyətini qiymətləndirən və ona nəzarət edən qüvvə xarakteri verir;
- məsləhətvermə funksiyası – ictimai rəy bu və ya digər sosial, iqtisadi, siyasi problemlərin həlli üzrə məsləhətçi, müşavir kimi çıxış edir;
- direktiv funksiyası – sosial həyatın amiranə xarakterə malik olan bu və ya digər problemləri üzrə qərarlar qəbul edilməsindən

ibarətdir. Məsələn, seçkilər zamanı xalqın öz iradəsini bildirməsi.

İctimaiyyət tərəfindən formalaşdırılmış mühakimə və hökmlərin məzmununa əsaslandıqda rəy qiymətləndirici, analitik, konstruktiv və tənzimləyici rəy kimi təsnifatlaşdırılır. Qiymətləndirici rəy bu və ya digər hadisə və faktlara münasibətin inikasıdır. Qiymətləndirici rəyə daha çox emosional komponent xasdır. Analitik və konstruktiv rəylər dərin və hərtərəfli təhlil tələb edən hər hansı bir qərar qəbul edilməsinə aid olan məsələdə öz aralarında sıx əlaqədədirlər, lakin öz məzmunu etibarı ilə onlar bir-biri ilə uyğun gəlmirlər. Tənzimləmə rəyinin mənası ictimai münasibətlərin müəyyən normalarının hasil edilməsi, hazırlanması və tətbiq edilməsindən ibarətdir. Tənzimləyici rəy insanların, qrupların, kollektivlərin əxlaqi şüurunda təsbit olunub, möhkəmləndirilmiş qaydaların məcəlləsini əks etdirir.

İctimai rəy həmçinin müsbət və mənfi mühakimələr formasında da çıxış edə bilər.

İctimai rəyi sosioloji metodlarla öyrənərkən onun dəyişməsinin ən kiçik çalarlarını, meyllərini aşkara çıxarmaq, onun müxtəlif qiymətləri arasında kəmiyyət nisbətini dəqiqləşdirmək, siyasi və sosial qüvvələrin real yerləşdirilməsini, düzümünü müəyyənləşdirmək mümkündür. Sosioloji informasiya daha çox hüquq-mühafizə orqanlarının idarəetmə praktikasının əsasında, analitik-informasiya, kadr-tərbiyə və bütövlükdə bütüm xidməti fəaliyyətin əsasında durur.

Beləliklə, ictimai rəy kütləvi şüurun bir halıdır ki, burada müxtəlif sosial birliklərin gerçəkliyin problemlərinə, hadisə və faktlarına gizli və yaxud açıq münasibəti ifadə olunur. İctimai rəy yalnız ictimai maraq doğuran, aktuallığı və diskussiyalılığı ilə fərqlənən problemləri, hadisələri əks etdirir. İctimai rəyin formalaşması kortəbii və şüurlu ola bilər. İctimai rəyin mövcud olmaması, həyata keçirilən kursun ictimai müdafiədən məhrum olması siyasi prosesin nəinki konkret subyektlərinə, eyni zamanda sosial sistemin və dövlətçiliyin elə özünün əsaslarına ciddi zərbəyə çevrilə bilər.



### Testlər

1. Şəxsiyyətin davranış tipləri:
   a) normativ davranış; v) deviant davranış;
   b) hüquqi davranış; q) delinkvent davranış.
2. Normativ davranışın növləri:
   a) eklektik; b) hüquqi; q) əxlaqi.
3. Hüquqi davranışın növləri:
   a) qanuni davranış;
   b) qanunsuz davranış;
   q) cəzalandırılan davranış.
4. Kənara çıxan davranış olur:
   a) sosial bəyənilən; b) bitərəf; q) pislənilən.
5. Anomiya anlayışını daxil etmişdir:
   a) R. Merton; b) E. Dürkheym; v) T. Parsons.
6. Təqlid nəzəriyyəsinin müəllifi:
   a) Q. Tard; b) M. Veber.
7. Mədəni ötürmə nəzəriyyəsinin müəllifi:
   a) E. Sazerlend; b) V. Miller.
8. Deviasiyaya münaqişəli yanaşma tədqiq edilir:
   a) struktur funksionalizmdə; b) marksizmdə.
9. Delinkvent davranışı dedikdə başa düşülür:
   a) cəmiyyətdə qəbul olunmuş norma və qaydalara uyğun olan davranış;
   b) cinayət cəzası altına düşməyən hüquqazidd əməllərin məcmusu, qanun tərəfindən bəyənilməyən davranış.
10. Sosial nəzarət dedikdə R. Park başa düşürdü:
    a) cəmiyyətin özünün itaətsiz üzvlərinin tabe edilməsi üçün tətbiq etdiyi vasitələr;
    b) cəmiyyətin ölkədə sosial qaydanın yaradılması və təmin edilməsi naminə fərdə göstərdiyi məqsədyönlü təsir.

11. Sosial nəzarət bölünür:
a) formal nəzarətə;
b) qeyri-formal nəzarətə;
q) fərdi nəzarətə.

12. Sosial nəzarət təsir formasına görə aşağıdakı qaydada təsnifatlaşdırılır:
a) ümumi sosial nəzarət;
b) ətraflı sosial nəzarət;
q) sosial nəzarət.

13. Sosial tənzimlənmənin və nəzarətin əsas metodları:
a) icazəvermə;
b) təhrik etmə;
v) sərəncam;
q) qadağanetmə.

14. Sosial nəzarətin əsas aləti:
a) sanksiya;
b) qanun.

15. İctimai rəy keçir:
a) şifahi formadan davranış formasına;
b) davranış formasından şifahi formaya.

Cavablar:

**1** – a, v, q; **2** – b, v; **3** – a, b; **4** – a, b, v; **5** – b; **6** – a; **7** – b; **8** – b; **9** – b; **10** – b; **11** – a, b; **12** – a, b; **13** – a, v, q; **14** – a; **15** – a.



# 6-CI FƏSİL. AİLƏ

## 6.1. Ailə anlayışı və ailənin amilləri

Ailə – sosiologiyanın çox mühüm bölmələrindən biridir. Ailənin öyrənilməsinin əsası XIX əsrin ortalarında qoyulmuşdur. Həmin vaxt iki məşhur Avropa statist alimi Rilz və F.Le Ple ailənin strukturuna urbanizasiya, təhsil və din kimi sosial amillərin təsirinin miqyaslı empirik tədqiqini aparmışlar. Həmin vaxtdan ailə probleminə sosiologiyanın diqqəti zəifləmir, çünki ailə unikal, nadir qurumdur: ailə – özünün fəaliyyət və inkişaf qanunauyğunluqları olan qrupdur və eyni zamanda sosial institutdur, özü də ən qədim və əhəmiyyətli.

Sosial qrup olaraq ailəni öyrənərkən sosioloqlar şəxsiyyətin və cəmiyyətin qarşılıqlı əlaqəsini ilkin, şəxsiyyətlərarası münasibətlər səviyyəsində nəzərdən keçirirlər. Empirik tədqiqatlar diqqəti müxtəlif sosial və ailə situasiyalarında ailə üzvlərinin qarşılıqlı təsirləri üzərində, ailə həyatının təşkili və onun sabitliyi amilləri üzərində cəmləşdirirlər.

Ailə – insanların qrup halında həyatının başlanğıc formasıdır ki, burada cəmiyyətdə yaşamaq bacarığı formalaşır. Ailəni digər sosial qruplarla müqayisə edərkən bu mühüm fərqi qeyd etmək lazımdır: digər sosial qruplar mədəniyyətin "ixtiralarıdır", bunların da mövcudluq sferası ictimai həyatdır; ailənin sferası isə şəxsi həyatdır.

Sosioloqlar ailəni elə bir sosial qrup kimi müəyyənləşdirirlər ki, bu qrupun üzvləri qohumluq, nikah və yaxud övladlığa götürmək telləri ilə bir-biri ilə bağlıdırlar və iqtisadi əməkdaşlıq və uşaqlara qayğı əsasında birgə həyatı təşkil edirlər. E. Giddensə görə ailə cəmiyyətin bir-birini sosial cəhətdən, iqtisadi və psixoloji cəhətdən müdafiə edən və ya yardım göstərən özək kimi bir-birini identifikasiya edən insanlardan ibarət özəyidir. Ailənin fərqləndirici xüsusiyyəti təsərrüfatın birlikdə aparılmasıdır.

### *Ailə sosial institutdur*

Ailə sosial institut kimi cəmiyyətin meydana gəlməsilə meydana gəlmişdir. Ailənin formalaşması və fəaliyyət göstərməsi prosesi dəyərlilik - normativlik xarakteristikaları (qadına pərəstişkarlıq, nikah

üçün tay seçilməsi və s.) ilə tənzimlənir.

Sosial institut kimi ailənin spesifikliyi bundan ibarətdir ki, ailə, birincisi, qan qohumluğu, nikah telləri ilə bir-biri ilə bağlı olan iki və yaxud daha çox adamdan ibarət sabit strukturlaşmış təşkilə malikdir; ikincisi, ailə özünütənzimləyən sistem kimi çıxış edir; üçüncüsü, cəmiyyət tərəfindən sanksiya almış birlikdir. Sosioloqlar ailənin funksiyalarını tədqiq edərkən bu funksiyaların səmərəli şəkildə yerinə yetirilməsinin amillərini də təhlil edirlər. Lakin makro və mikro təhlil daim kəsişir, bir-birinə təsir göstərirlər. Buna görə də vətən və xarici ölkə sosiologiyasında ailəyə institut və qrup kimi yanaşmaları bir araya sığışdırmağa, birləşdirməyə cəhdlər edilir. Bu cür istiqamətlərdən biri də ailənin sistem kimi tədqiq edilməsidir. Bu problemlə məşğul olan sosioloqlar arasında hər şeydən əvvəl T. Parsonsu və K. Devisi göstərmək lazımdır.

Parsons ailəni cəmiyyətin, ona qarşı durmayan altsistemi kimi səciyyələndirir. Ailə bütövlükdə sosiumun sabitliyini təmin edir. Bu da digər sosial altsistemlərlə və strukturlarla "instrumental" münasibətlərin yaradılması sayəsində mümkün olur. Şəxsiyyətlərarası dinamikada inteqrativ meylləri, müvazinəti saxlamaqla ailə daxili, "ekspressiv" münasibətləri yaradır.

Sosial institut kimi ailənin sabit fəaliyyət göstərməsi yalnız o zaman mümkündür ki, ailə digər institutlarla, hər şeydən əvvəl dövlətlə, hüquqla, ictimai rəylə, dinlə, təhsillə, mədəniyyətlə qarşılıqlı əlaqədə olsun. Cəmiyyətin struktur-funksional və normativ sistemlərinə daxil olmaqla ailə öz üzvlərinin davranışını tənzimləyir, onlara xas olan sosial rolları və statusları müəyyən edir.

Ailəni sosial institut kimi nəzərdən keçirərkən ailədəki münasibətlərə də diqqət yetirmək zəruridir. Ailə rolları – insanın cəmiyyətdəki sosial rollarından biri kimi ər-arvad (arvad, ər), valideyn (ana, ata), uşaq (oğul, qız, qardaş, bacı), nəsillərarası və nəsillərdaxili (baba, nənə, böyük, kiçik) və s. rollarına ayrılır. Ailə rolunun icrası bir sıra şərtlərdən, hər şeydən əvvəl, rol obrazının düzgün formalaşdırılmasından asılıdır, yəni fərd öz davranışını və bu və ya digər davranışın ona diktə etdiyi qayda və normaları dəqiq, aydın təsəvvür etməlidir. Ailənin uğurla formalaşdırılması üçün həmçinin ailə rolunun situasiya ilə bağlı tələblərinə həssas yanaşma qabiliyyətinə və rol davranışının çevikliyinə, yəni əgər situasiya tələb edirsə, xüsusi çətinlik



çəkmədən roldan çıxmaq və yeni rola daxil olmaq bacarığına yiyələnmək lazımdır.

Ailə və cəmiyyət, ailə və şəxsiyyət münasibətləri hakim istehsal üsulunun, həyat tərzinin və ictimai münasibətlərin təsiri altında bütün tarix boyunca dəyişmişdir. Cəmiyyət inkişaf edərək kişinin və qadının qarşılıqlı münasibətlərini xeyli dərəcədə tənzimləmiş, qadınların istehsalatda, sosial və mənəvi sferalarda diskriminasiyasını aradan qaldırmışdır. Ailənin məzmununun, struktur və formasının təhlili onu tarixən dəyişməkdə olan sosial qrup adlandırmağa imkan verir. Bu qrupun da universal əlaməti heteroseksual əlaqə, qohumluq əlaqələri sistemi, şəxsiyyətin sosial və fərdi keyfiyyətlərinin təmin edilməsi və inkişafıdır, müəyyən iqtisadi fəaliyyətin həyata keçirilməsidir.

Qohumluq və nikah ailəyə yaxın olan anlayışlardır. Qohumluq – fərdlər arasında nikaha və yaxud qan qohumluğu münasibətlərinə əsaslanan (ata, ana və s.) əlaqələrdir. Nikah – iki böyük fərd arasında cinslərin cəmiyyət tərəfindən sosial cəhətdən tanınmış, bəyənilmiş ittifaqıdır.

Bir qayda olaraq ailənin əsasını nikaha girmiş cütlük təşkil edir, lakin son vaxtlarda birlikdə yaşayışla səciyyələnən, lakin hüquqi cəhətdən rəsmiləşdirilməmiş ailələrin sayı artmışdır. Bundan əlavə natamam adlanan nikahlar da mövcuddur. Natamam nikahlarda valideynlərdən biri və yaxud ümumiyyətlə valideyn nəsli olmur.

Ailəni öyrənərkən sosiologiya qadına çox böyük önəm verir. Axı ailənin əxlaqi və sosial bazası məhz qadından asılıdır. Buna görə də qadından xüsusi istedad – ailəni təşkil etmək qabiliyyəti tələb olunur. Bu qabiliyyət küsülülüyü aradan qaldırmaq, qarşılıqlı ər-arvad münasibətləri mədəniyyətini formalaşdırmaq, evdə ahəngdarlığı və sülhü, dincliyi təmin etmək bacarığında öz təzahürünü tapır, öz fəaliyyətində qadın ailə funksiyalarını və ictimai-istehsalat funksiyalarını birləşdirməli olur. Bunun nəticəsində də qadının işi və məsuliyyəti dönə-dönə artır.

Müşahidə edilmişdir ki, professional fəaliyyət qadının intellektual və emosional aləmini zənginləşdirir, onun görüş dairəsini genişləndirir, uşağın nəzərində onun nüfuzunu artırır. Lakin eyni zamanda da statistika qeydə alır ki, işləyən qadınlar uşaqlarla ünsiyyətə xeyli az vaxt sərf edirlər. Bu da tərbiyə prosesinə bilavasitə təsir göstərir.

### *Ailə sosioloqların tədqiqatlarında*

Ailə sosiologiyasının inkişafında bir neçə mərhələni fərqləndirirlər.

Birinci mərhələ – Antik dövrdən XIX əsrin ortalarına qədər olan vaxtı əhatə edir. Q. Kristensen bu mərhələni sosial darvinizm mərhələsi adlandırmışdır. Bu dövrdə ailənin əsas forması olaraq monoqam ailə qəbul olunurdu. Bu ailəni cəmiyyətin çox kiçik, miniatür nümunəsi kimi, cəmiyyətin özünü isə genişlənməkdə olan ailə kimi nəzərdən keçirmişlər. Ailə haqqında təsəvvürlərdə sırf nəzəri konsepsiyalar üstünlük təşkil edirdi.

İkinci mərhələ – XIX əsrin ortaları – XX əsrin əvvəli. Antropoloqlar və etnoqraflar ailəni aktiv surətdə öyrənməyə başlamışdılar. Onlar çöl tədqiqatlarından və ibtidai cəmiyyətlər üzərində aparılmış müşahidələrdən alınmış geniş empirik materiala və müqayisəli tarixi təhlilin nəticələrinə əsaslanırdılar. Nəzəri sxemlərin yerini konkret faktlar tutur. Bu faktların əsasında tədricən ailə sosiologiyasının xeyli dərəcədə antropologiyadan götürülmüş anlayış aparatı təşəkkül tapır. Qohumluğun müxtəlif sistemlərinin öyrənilməsi patriarxatla matriarxatın nisbəti barədə nəzəri diskussiya ilə nəticələndi. Ailənin tarixinin və matriarxat problemlərinin öyrənilməsinin əsasını isveçrəli tarixçi İ.Y. Baxovfen qoymuşdur. Onun fikrinə görə cinslər arasında poliqam münasibətlər monoqam nikahdan əvvəl mövcud olmuşdur, ibtidai nəslin həyatında qadınların rəhbərliyi dövründə isə patriarxatdan əvvəl mövcud olmuşdur.

Şotland vəkili C. Mak-Lennan hesab edirdi ki, öz inkişafında ailə üç pillədən keçmişdir: promiskuitetdən (cinslər arasında heç bir şeylə məhdudlaşmayan münasibətlərdən) analıq hüququ vasitəsilə ata hüququna doğru. C. Mak-Lennan həmçinin elmə endoqamiya və ekzoqamiya anlayışları kimi fundamental anlayışları daxil etmişdir.

O dövrün elmində patriarxat nəzəriyyəsi hakim idi. E. Giddensin rəyincə antropoloji tədqiqatların əksəriyyəti sübut edir ki, kifayət qədər öyrənilmiş bütün cəmiyyətlər patriarxal cəmiyyətlər idi, lakin kişilərin hökmranlığının dərəcəsi və mahiyyəti hər yerdə fərqli olmuşdur. E. Dürkheymin, M. Veberin, F. Müller-Lierin, U. Qudsedlin əsərlərində Avropa və xüsusilə amerikan sosial elmindən ailənin konkret-tarixi idarə edilməsinə doğru çəkilmə qəti olaraq möhkəmləndi. Dürkheym ailənin qohumların böyük dairəsindən "ər-arvad ailəsi" deyilənə doğru



"kontraksiyası" (sıxılması) qanununu formulə etdi. Fransız metodoloqu, nəzəriyyəçi və tədqiqatçısı F.Le Ple ailənin tipologiyasını işləyib hazırlamışdır. Birinci tip olaraq o, fərdin ümumi birliyə tabe olduğu, ailənin vahid və bölünməz özək kimi çıxış etdiyi patriarxal ailəni fərqləndirmişdir. İkinci tip – kök ailəsidir. Burada bütün mülkiyyət ata tərəfindən seçilmiş varisə keçir. Üçüncü tip – qeyri-sabit ailədir. Bu tip ailə sənayeləşmə və urbanizasiya prosesinə cəlb olunmuş müasir cəmiyyət üçün səciyyəvidir. Belə ailədə varislərə ötürmək üçün maddi vasitələr mövcud deyildir, valideynlər və uşaqlar bir-birindən ayrı yaşayırlar.

Üçüncü mərhələ – XX əsrin birinci yarısı (Kristensenə görə spontan elmi mərhələ). Nikah münasibətlərinin pillələri, formaları, tipləri haqqmda empirik məlumatlar toplanılır. Bir çox sosioloqların səyləri sosial mühəndislik və ailə münaqişələrinin həllinə kömək göstərilməsi üzərində cəmləşmişdir.

Dördüncü mərhələ – XX əsrin ortalarından indiki dövrə qədər (Kristensenə görə mənlik şüuru mərhələsi). Bu mərhələ üçün ailə sosiologiyası nəzəriyyəsinin planauyğun qaydada yaradılması və kollektiv empirik tədqiqatların aparılması səciyyəvidir. Məsələn, 1974 – 1975-ci illərdə ABŞ-ın 25 universitetindən təxminən 50 alim çox böyük bir layihədə – ailənin fəaliyyət göstərməsinin izahedici nəzəri modellərinin vahid sisteminin yaradılmasında iştirak etmişlər. Layihə iştirakçıları ailənin öyrənilməsinin 24 sferasını – ailə kommunikasiyası, rol gərginliyi və münaqişəni, ailədə hakimiyyət strukturunu, gənc ailəni, natamam ailəni və b. seçmişlər.

SSRİ-də ailənin öyrənilməsi 1960-cı illərin ortalarından başlayaraq xüsusilə fəal surətdə həyata keçirilirdi. Reproduktiv davranış, işləyən qadınların peşə və ailə rollarının uyğunlaşdırılması, ailədə hakimiyyət və vəzifələrin bölgüsü məsələləri tədqiq olunurdu. 1980-ci illərin əvvəllərində ailənin həyat tərzinə, ər-arvadın emosional münasibətlərinə, münaqişələrə, vəzifələrin bölgüsünə, hakimiyyət və nüfuz münasibətlərinə, ailəyə dövlət köməyinə, nəzəri və metodik problemlərə, gənc ailələrə, uğursuz ailələrdə uşaqların tərbiyəsinə, seksual və nikahaqədərki davranış məsələlərinə daha artıq ciddi diqqət yetirilirdi.

### *Ailənin tipləri*

Ailələr tərkibinə, tipinə, yaşayış yerinə və hakimiyyətin bölüşdürülməsi prinsipinə görə fərqləndirilir. Tərkibinə görə ailələr nuklear və genişləndirilmiş ailələrə bölünür.

*Nuklear ailə* valideynlərdən və onların uşaqlarından ibarətdir, qan qohumları isə ikinci plana keçirlər. Müasir sənaye ölkələrində bu cür ailələrə üstünlük verilir, fərd bir qayda olaraq iki nuklear ailənin: ata və anadan, qardaşlardan və bacılardan ibarət birinci ailənin (sosiologiyada bu ailə oriyentasiya ailəsi adlanır) və fərdin özünün, onun həyat yoldaşının (ərinin) və onların uşaqlarının daxil olduğu ikinci ailənin (təkrar istehsal ailəsi) üzvüdür.

*Genişləndirilmiş ailədə* ailə münasibətlərinin özəyini qan qohumları təşkil edirlər, ər-arvad əlaqələri isə funksional cəhətdən ikincidərəcəli əlaqələrdir. Bu cür ailə müxtəlif formalara malik ola bilər, ər-arvad əlaqələri bəzən mövcud olmur (məsələn, Britaniya tərəfindən müstəmləkə əsarətinə alınana qədər Hindistanda cinsi yetkinlik yaşına çatmış qız icmanın seçdiyi kişi ilə "nikaha daxil olma" ayin mərasimindən keçirdi. Üç gündən sonra "boşanma" ayini həyata keçilirdi. Bundan sonra qız özünə münasib ərləri seçə bilərdi. Uşaq anadan olduqda qadının ərlərindən biri ona müəyyən miqdarda pul verirdi, lakin uşağa münasibətdə heç bir vəzifə daşımırdı. Uşağın qayğısına ananın qohumları qalır və məsuliyyət daşıyırdılar.

Hazırda bir çox tədqiqatçılar sənayeləşdirmənin genişləndirilmiş və nuklear ailələrə təsiri haqqında mübahisə aparırlar. Məsələn, U.C. Qud sənayeləşmə prosesində genişləndirilmiş ailələrin zəifləməsi xeyrinə dəlillər gətirir:

- tez-tez və yaxın görüşlər tələb edən qohumluq əlaqələri insanların yeni iş yerlərinin axtarışı və vəzifəcə böyümək imkanları axtarmaq üçün yerdəyişmələrinə görə zəifləyirlər;
- sosial mobilliyin artması müxtəlif sosial təbəqələrə mənsub olan qan qohumları arasında münasibətləri kəskinləşdirir;
- sənaye cəmiyyəti fərdin təhlükəsizlik, təhsil, hərbi müdafiə kimi tələbatlarını təmin edir, eyni zamanda da bu funksiyaları əvvəllər qan qohumluğu qrupları yerinə yetirirdilər;
- sənaye cəmiyyətində fərd özünün ilk plana keçən şəxsi uğurlarının sayəsində öz ailəsindən nisbətən az asılıdır.



Digər sosioloqlar, xüsusilə XIX əsrdə Nyu-Hempşirdə (ABŞ) toxuculuq fabriklərinin fəhlələrinin ailə həyatını öyrənmiş sosioloqlar aşkar etmişlər ki, sənaye cəmiyyəti, əksinə, qohumluq əlaqələrinin güclənməsinə kömək edir.

Varəsəlik tipinə görə aşağıdakı ailələri fərqləndirirlər:

- *ata xətti üzrə ailə* – nəsl şəcərəsi ata xətti üzrə aparılır, vərəsə ata xətti üzrə ötürülür;
- *ana xətti üzrə ailə* – nəsl şəcərəsi ana xətti üzrə aparılır, vərəsə ana xətti üzrə ötürülür;
- *ikili xətt üzrə ailə* – hər iki ailə xətti eyni dərəcədə əhəmiyyətlidir, nəsl şəcərəsi istər ata, istərsə də ana xətti üzrə aparılır.

Yaşayış yerinə görə və yaxud məkan-ərazi lokallaşmasına görə ailələr aşağıdakılara bölünür:

- *patrilokal ailə* – cavan ər-arvad ərin atasının evində məskunlaşırlar;
- *matrilokal ailə* – təzə evlənmişlər arvadın valideynlərinin evində məskunlaşırlar;
- *neolokal ailə* – təzə evlənmişlər öz valideynlərindən və digər qohumlarından ayrı və onlardan asılı olmadan yaşayırlar;
- *rodilokal ailə* – təzə evlənənlər valideynləri ilə bir yerdə yaşayırlar

Ailə vəzifələrinin bölgüsünün xarakterinə görə, ailədə liderlik məsələsinin necə həll edilməsinə görə ailənin aşağıdakı əsas tipləri fərqləndirilir:

*ənənəvi (patriarxal) ailə* – bir dam altında minimum üç nəsl yaşayır. Ailənin başçısı rolunu ər, o olmadıqda isə ailədə yaşca böyük olan kişi yerinə yetirir. Patriarxal həyat tərzi üçün tipikdir: a) qadının ərindən iqtisadi asılılığı; b) ailə həyatı sferalarının bir-birindən dəqiq fərqləndirilməsi, kişi və qadın vəzifələrinin təsbit olunması; v) ailə liderliyi məsələlərində kişinin şərtsiz nüfuzunun tanınması;

*matriarxal ailə* – ana ən yüksək nüfuza və təsirə malikdir. Xalis şəkildə matriarxata az təsadüf edilir, lakin müəyyən vəziyyətlərdə o mümkündür. Məsələn, ər öldükdə və yaxud o, ailədən getdikdə qadın ailəni maddi cəhətdən təmin etmək məcburiyyətində qalır;

*qeyri-ənənəvi ailə* – kişi liderliyi, kişi və qadın vəzifələrinin bir-birindən fərqləndirilməsi saxlanılır, lakin bu, kifayət qədər obyektiv iqtisadi əsaslar olmadan edilir. Sosioloqlar bu cür həyat tərzini istismarçı

həyat tərzi adlandırırlar. Ona görə ki, ictimai əməkdə kişi ilə bərabər iştirak hüququ ilə yanaşı qadın müstəsna ev əməyi hüququ əldə edir;

*eqalitar və yaxud partnyor ailə* – hakimiyyət və nüfuz ər və arvad arasında bərabər bölüşdürülür. Bu cür həyat tərzi üçün səciyyəvidir: a) ev vəzifələrinin ailə üzvləri arasında ədalətli şəkildə bölüşdürülməsi, məişət problemlərinin həllində ər-arvadın bir-birini qarşılıqlı surətdə əvəz etməsi, b) ailə üçün mühüm olan qərarların birlikdə qəbul edilməsi, v) münasibətlərin emosional dolğunluğu.

### *Nikahın formaları*

Nikah – kişi və qadın arasında sosial münasibətlərin tarixən dəyişən formasıdır ki, onun vasitəsilə cəmiyyət kişi və qadının cinsi həyatını tənzimləyir və sanksiyalaşdırır, ər-arvad və qohumluq hüquq və vəzifələrini müəyyənləşdirir.

Bir qayda olaraq, cəmiyyətdə müəyyən bir əhatə vardır ki, fərdlər ondan nikah üçün özlərinə partnyor seçməlidirlər. Valideynlər arzu edirlər ki, onların övladı "uyğun" arvad və yaxud "uyğun" ər seçsin. Ərin seçilməsi matrimonial normaların iki tipi ilə: endoqamiya və ekzoqamiya ilə tənzimlənir.

Nikahın müəyyən qrupların daxilində (öz sinfinin, irqinin, etnik qrupun və yaxud dini etiqad adamlarının arasında) bağlanılmasını nəzərdə tutan qaydaları endoqamiya adlandırırlar.

Nikahın öz qrupunun hüdudlarından kənarda bağlanılmasını tələb edən qaydalar ekzoqamiya adlanır (hər şeydən əvvəl bu, qan qohumluğu ilə bağlı olmayan fərdlərlə nikahdır). Ekzoqamiya yaxın qan qohumları arasında seksual münasibətlərinə tabunu - insesti özündə birləşdirir.

Nikahlar ər və arvad arasında dörd qarşılıqlı əlaqə prinsipi üzrə bağlanıla bilər:

- monoqamiya – bir ər və bir arvad;
- poliqamiya – kişi və qadın eyni vaxtda bir nikahdan artıq nikahda ola bilərlər;
- poliqiniya – kişi bir arvaddan çox arvad ala bilər;
- poliandriya – qadın eyni vaxtda bir neçə ərə malik ola bilər;
- qrup şəklində nikah – iki və daha çox miqdarda ər və iki və daha çox miqdarda qadın.



## 6.2. Ailə-nikah münasibətləri

Ailə institutu hazırkı vaxtda çətin məqamlar yaşayır. Urbanizasiya, əhalinin intensiv miqrasiyası, qadınların azadlığa çıxması ailəni dağıdır. Ailənin qadınların ərdən iqtisadi asılılığı, dini, əxlaqi qadağa, boşanmaların pislənilməsi kimi sabitləşdirici amilləri qüvvədən düşmüşdür.

Cəmiyyətin inkişafı ilə bağlı olan xarici amilləri dəyişmək artıq mümkün deyildir, buna görə də daxili ailə amilləri müəyyənedici əhəmiyyət kəsb edir. Çoxsaylı tədqiqatların nəticəsində sübut edilmişdir ki, əksər hallarda boşanmanın əsasında ər və arvad arasında münaqişə durur. Sosioloqlar qarşılıqlı ər – arvad münasibətlərinin bir neçə səviyyəsini fərqləndirirlər ki, bu səviyyələr çərçivəsində də aşağıdakı münaqişələr mümkündür:

- psixi-fizioloji münaqişə – seksual həyatın pozulması ilə səciyyələnir;
- psixoloji münaqişə – ailədə qarşılıqlı münasibətlər qeyri-sağlam xarakter daşıyır: daimi küsülülüklər, qarşılıqlı iradlar, qarşılıqlı söz güləşdirilməsi çox vaxt uşaqların üstünə tökülən əsəbilik;
- sosial-rol münaqişəsi – ailə həyat tərzinin qeyri-sabitliyi, ailə – məişət yükünün qeyri-düzgün, qeyri-bərabər bölüşdürülməsi;
- sosial-mədəni (mənəvi) – ər-arvadın bir-birini başa düşməməsi, hörmətsizlik, partnyorla ünsiyyətə marağın olmaması və yaxud bu marağın kifayətsiz olması, partnyorun həyati dəyərlərinin, ideallarının qəbul edilməməsi.

Münaqişələrin səbəblərini həmin münaqişələrin meydana gəldiyi vaxt etibarı ilə də bölmək olar – bilavasitə nikah zamanı meydana gələn və yaxud ailə yaranana qədər obyektiv surətdə mövcud olmuş səbəblər, yəni risk amilləri.

Nikahaqədərki dövrdə risk amillərinin mövcud olması artıq özündə gələcək boşanma təhlükəsi daşıyır. Bu cür amillər içərisində aşağıdakıları göstərirlər: ər-arvadın yaşlarında və təhsillərində böyük fərqin olması, ər-arvaddan birinin alkoqolizmə meylliliyi, nikaha, ailəyə yüngül münasibət, çox erkən yaşda nikaha daxil olma, uşağın çox tezliklə anadan olması ehtimalı. Tanış olmanın az vaxtda baş verməsi, valideynlərin nikahın bağlanılmasına kəskin etiraz etmələri,

məcburiyyətlə, qarşılıqlı razılıq olmadan nikah bağlanılması.

Xarici amillər, əlbəttə, nikahın möhkəmliyinə təsir göstərirlər, lakin bu amillər hələ ailə ocağı yaradılmasına qədər də aşkara çıxarıla bilərlər. Buna görə də birgə həyat nəticəsində meydana gələn daxili səbəblər hər halda başlıca səbəblər olaraq qalırlar.

Tədqiqatların nəticələrinə görə daha çox sayda boşanma 25-30 yaşına, 40 yaşına, həmçinin ər-arvadlığın birinci beş ilinə təsadüf edir. Bu da izah olunandır. Məsələn, gənc ər-arvad artıq tamamilə maddi planda müstəqildirlər, bir-birinin nöqsanlarını əməllicə öyrənə biliblər və bir yerdə yaşamağın mümkün olmadığını dərk edirlər. 40 yaşında isə uşaqlar artıq böyüyüblər və onların xatirinə ailə görkəmi saxlamağa ehtiyac yoxdur.

Boşanmalar adətən aşağıdakı səbəblərlə şərtlənirlər:

- məişət şəraiti ilə, hər şeydən əvvəl, ər və arvaddan birinin ev təsərrüfatını aparmağı bacarmaması və yaxud bunu istəməməsilə, maddi təminatsızlıqla, məcburi surətdə ayrı yaşamaqla;
- şəxsiyyətlərarası münaqişələrlə, məsələn, məhəbbət və bağlılıq hissinin itirilməsilə, kobudluqla, həyata baxışların müxtəlifliliyi ilə, ər və arvaddan birinin xəstəliyilə, qısqanclıqla;
- boşanmaya təşəbbüsçüdə xəyanət, yeni ailə və yaxud yeni hiss yaradılması, valideynlərin və digər şəxslərin müdaxiləsi kimi xarici amillərlə.

Nikah üçün partnyorun seçilməsinə müxtəlif amillər təsir göstərir:

- homoqamiya – özünə oxşarla evlənmək ənənəsi (homoqamiya prinsipi nəinki yaş, dini, milli, eyni zamanda sosial xarakteristikalara tətbiq olunandır);
- fiziki cazibədarlıq – bütövlüklə insanlar zahirən cazibədar olan adamlarla tanış olmağı üstün tuturlar;
- xarakterinin oxşarlığı və yaxud əksliyi amili – F.Vinç tərəfindən formulə edilmiş komplementar tələbatlar nəzəriyyəsinə görə bir-birinə əks olan və qarşılıqlı surətdə biri-birini tamamlayan xarakter birləşdikdə tamlıq, dolğunluq duyğusu yaradır;
- "mübadilə" amili – mübadilə amili nəzəriyyəsinin məğzi bundan ibarətdir ki, bizi "mükafatlandıran" adamları sevirik, bizi cəzalandıranı isə sevmirik. Qarşılıqlı təsir prosesində bir-birimizi mükafatlandıraraq, qarşılıqlı əlaqəni möhkəmləndiririk.



### Şəxsiyyətin ailə üslubuna alternativ olan həyati üslubları

Həyat üslubu – insanlar tərəfindən onların bioloji, ictimai və emosional tələbatlarına uyğun olaraq yaranan həyat modelidir. Qarşılıqlı ailə əlaqələrinin mürəkkəbləşməsilə, ömür müddətinin artması ilə, bəzən partnyorların dəyişdirilməsi imkanı ilə "ailə ağacı" gülməli pöhrələr verərək olduqca genişlənir.

*Subaylıq həyatı.* Subaylıq həyat tərzi getdikcə daha populyar olur. Ailəsiz insanların sayı boşanmaların faizinin yüksək olması, yaşlı adamların təsərrüfatı müstəqil aparmağa qadir olmamaları, gənclərin nikaha daxil olmağı istəməmələri üzündən çoxalır. Lakin təklik daimi status deyildir. İnsan subaylıq həyat tərzi keçirə bilər. Sonra isə nikahsız yaşamağın və yaxud nikahın xeyrinə seçim edə bilər. Sonra isə boşana və yenidən tək yaşaya bilər.

*Qeydə alınmamış cütlüklər (nikahdan kənar ailə).* Son vaxtlar qeydə alınmamış cütlüklərin sayı kəskin şəkildə artmışdır. 25 yaşından 35 yaşınadək olan adamların faktik olaraq az qala yarısı müəyyən vaxtda bu cür həyat tərzinə üstünlük verir. KİV çox vaxt nikahsız yaşayanları "evlənməmiş ər-arvad" adlandırırlar və onların münasibətlərini "sınaq nikahları" kimi müəyyənləşdirirlər. İstənilən halda bir-birilə yaşayan cütlər qeydiyyatdan keçmiş ər-arvadın rastlaşdıqları problemlərdən çoxunu öz üzərilərində hiss edirlər. Lakin bu halda onlar evlənmiş cütlüklərə nisbətən özlərini daha az sabit və müvafiq olaraq çətin situasiyaların öhdəsindən gəlmək bacarığına daha az inamlı hesab edirlər.

*Homoseksual cütlüklər.* Homoseksualizm – seksual partnyorun eyni cinsdən olan fərdə üstünlük verməsidir. Amerikan alimləri çoxsaylı tədqiqatların əsasında belə bir nəticəyə gəlmişlər ki, özünün seksual yönümündən peşmançılıq çəkməyən və ondan utanmayan, istər seksual və istərsə də sosial planda uğurla fəaliyyət göstərməyə qadir olan yaşlı homoseksualistlər heteroseksual kişilər və qadınlara nisbətən o qədər də çox narahatçılıq hiss etmirlər.

### Ailənin funksiyaları

Ailənin bütün funksiyalarını spesifik və spesifik olmayan funksiyalara bölmək olar. Spesifik funksiyalar sosial hadisə kimi ailənin xüsusiyyətlərini əks etdirirlər. Bu funksiyalara uşağın anadan olması

(reproduktiv funksiya), uşaqların dolandırılması, sosiallaşdırılmaları aiddir. Spesifik olmayan funksiyalar elə funksiyalardır ki, ailə müəyyən tarixi vəziyyətlərdə onları yerinə yetirməyə məcbur edilir və yaxud uyğunlaşdırılmış olur. Mülkiyyətin, statusun toplanılması və ötürülməsilə, istehsalın, ev təsərrüfatının, istirahət və asudə vaxtın təşkili ilə bağlı olan bu funksiyalar ailə ilə cəmiyyət arasında əlaqənin tarixi xarakterini əks etdirirlər.

*Reproduktiv funksiya.* Əgər cəmiyyət özünü qoruyub saxlamaq istəyirsə, yeni üzvləri təkrar istehsal etməlidir. Cəmiyyət də adətən öz vətəndaşlarını dünyaya uşaq gətirməyə həvəsləndirir. Rusiyada müasir demoqrafik situasiya narahatçılıq doğurur: doğum aşağı düşür, əhali qocalır, biruşaqlı və uşaqsız ailələrin sayı artır, nikahdankənar doğum çoxalır. Çox vaxt valideynlər uşaqlarından imtina edirlər və yaxud ümumiyyətlə istəmirlər ki, uşaqları olsun; bunu da darısqal mənzil şəraiti, ev işlərinin çoxluğu ilə, özü üçün yaşamaq arzusu ilə əlaqələndirirlər. Son vaxtlarda daha bir səbəb – maddi-iqtisadi səbəb əlavə olunmuşdur. Doğrudur, həyat sabitləşdikcə bu səbəb qaydaya düşür.

*Tərbiyə funksiyası* (ilkin sosiallaşma funksiyası). Bu funksiya reproduktiv funksiya ilə sıx bağlıdır. Ailəni heç bir sosial institutla əvəz etmək olmaz; ailə normal, dolğun inkişaf üçün həyati zərurətdir. Sosial əhəmiyyətli bir çox keyfiyyətlərin təbii olaraq formalaşdırılması üçün uşağa diqqət, qayğı, istilik, mehr, bilavasitə emosional kontakt, ünsiyyət, hər şeydən əvvəl, anası ilə, böyüklərlə ünsiyyət lazımdır. Ailə cəmiyyətin mədəni normalarının başlıca ötürücüsü rolunu oynayır; ailə fərdi "böyük" dünya ilə bağlayır. Ailədəki iqlim - abuhava həmçinin şəxsiyyətin formalaşmasına əhəmiyyətli təsir göstərir. Müasir ailədə çox vaxt kişinin rəddedilməz, yenilməz nüfuzunun itirilməsi və uşağın tərbiyə edilməsində valideynlərin hərəkətlərində uyğunluğun aşağı düşməsi baş verir.

Sosioloqlar ailə tərbiyəsinin aşağıdakı stereotiplərini fərqləndirirlər:

1. Uşaqmərkəzçiliyi – uşaqlara məhəbbət kimi yanlış başa düşülən hər cür güzəştli, bağışlama münasibətini bildirir. Belə ailələrdə uşaqlar ərköyün, eqosentrik böyüyür, heç bir qadağa, vəzifə qəbul etmirlər, valideynlər qarşısında borcu hiss etmirlər. Uşaqmərkəzçiliyi bir uşaqlı ailələr üçün və yaxud uşağı, öz nəvələrini həyati çətinliklərdən qoruyan



nənələrin və babaların tərbiyə etdiyi ailələr üçün səciyyəvidir.

2. Professionalizm – valideynlərin uşağın tərbiyəsindən imtina etmələri ilə səciyyələnir. Valideynlər bunu bəhanə gətirirlər ki, bu işlə peşəkarlar – məktəbdə müəllimlər, uşaq bağçasında isə tərbiyəçilər məşğul olmalıdırlar; valideynlərin vəzifəsi isə uşağı maddi cəhətdən təmin etməkdir. Onların fikrincə, valideynlər tərbiyə ilə o zaman məşğul olurlar ki, uşaq nə isə günah iş görüb, suçlanıb. Həmçinin tərbiyə çox vaxt ciddi qadağalara, danlanca, hətta bədən cəzalarına müncər edilir. Belə ailədə valideynlər və uşaqlar arasında emosional ünsiyyət, rabitə mövcud olmur, inam, etibar səviyyəsi çox aşağı olur.

3. Praqmatizm – uşaqlarda "praktiklik", işi məharətlə qurmaq bacarığı yaratmaq məqsədilə həyata keçirilən tərbiyədir. Bu cür tərbiyə maddi qazanc əldə edilməsinə yönəldilmişdir.

*Təsərrüfat - iqtisadi funksiya.* Bu funksiya ailə münasibətlərinin aşağıdakı aspektləri ilə: ev təsərrüfatının aparılması ilə, ev büdcəsinin tərtib edilməsi və istifadə edilməsilə, ailə istehlakının təşkili ilə, ev əməyinin bölgüsü ilə, ahıllara və əlillərə yardım göstərilməsi və himayəçiliklə və s. ilə səciyyələnir.

*Rekreasiya funksiyası.* Fərd üçün ailənin terapevtik roluna əsaslanır. Ailə sakitlik, inam, təhlükəsizlik, psixoloji rahatlıq "vadisi" olmalı, həyatın sürətlənməkdə olduğu bir şəraitdə emosional yardımı təmin etməli və ümumi həyat tonusunu saxlamalıdır. Rekreasiya funksiyasına mənəvi-estetik məqamlar, ailənin asudə vaxtının və istirahətinin təşkili, ümumi ailə münasibətləri mədəniyyəti daxildir. Bu funksiya ailənin həyat fəaliyyətinə, onun sabitliyinə, nikah cütlüyünün özünün mövcudluğuna əhəmiyyətli təsir göstərir. Ailədə sağlam münasibətlər dostluq, məhəbbət, müdafiə olunanlıq, özdəyərlilik kimi hisslərin inkişafına kömək edir

*Status verilməsi funksiyası.* Ailədə üzvlük əsasında fərdin malik olduğu statusu sosioloqlar sərəncamla verilmiş status adlandırırlar. Bu cür status valideynlərlə (valideyn – uşaq), qardaş və bacılarla, qohumlarla (xalalarla, dayılarla, əmioğulları, nənələri və babaları ilə) münasibətlər də daxil olmaqla çoxlu sayda şəxsiyyətlərarası qarşılıqlı münasibətlərə, həmçinin insanların konkret birliyinə, milli, irqi, dini mənsubluğa istiqamətləndirilməsidir.

*Seksual davranışın tənzimlənməsi funksiyası.* Cəmiyyətin normaları bir qayda olaraq insanların seksual davranışını tənzimləyir,

kimin kiminlə və hansı şəraitdə seksual münasibətlərə daxil ola bilməsini müəyyən edir. Nikahdan kənarda uşağın doğulması, adətən bəyənilmir. Qanuni doğulmaq – uşağın qohumluq münasibətləri sisteminə daxil olması formasıdır. Bu forma yeni doğulmuş uşağın qaygı, vərəsə, tərbiyə, valideyn məhəbbəti hüquqlarını müəyyən edir.

### *Ailənin həyat sikli*

Sosioloqlar ailəni sosial institut kimi nəzərdən keçirərkən "ailənin həyat sikli" anlayışını daxil ediblər. Bu anlayış altında onlar ailədə zaman keçdikcə yaşanan və dəyişməkdə olan ümidlərlə və tələblərlə bağlı olan dəyişiklikləri və yenidənqurmaları başa düşmüşlər. Bu siklin aşağıdakı başlıca mərhələlərini fərqləndirirlər:

- nikaha daxil olma - ailənin yaradılması;
- uşaq doğumunun başlanması – birinci uşağın doğulması;
- uşaq doğulmasının qurtarması – sonuncu uşağın doğulması;
- "boş yuva" – sonuncu uşağın nikaha daxil olması və ailədən ayrılması;
- ailənin mövcudluğunun sona çatması – ər və arvaddan birinin vəfat etməsi.

Hər bir mərhələdə ailə spesifik sosial və iqtisadi xarakteristikalara malik olur. Ailə ər və arvad cütlüyündən başlanır. Yeni üzvlərin (uşağın) meydana gəlməsilə ailə mürəkkəbləşir; yeni rollar (valideynlərin rolu) meydana gəlir və qarşılıqlı əlaqələrin sayı artır. Müəyyən vaxt ailə sabit qalır, sonra ərsəyə çatmış uşaqlar ailəni tərk etdikcə, ailə "sıxılır". Nəhayət, ailə özünün ilkin variantına – cütlüyə qayıdır.

İlk uşağın meydana gəlməsi ilə ər və arvad cütlüyünün həyatı yenidən təşkil olunur. Valideynlər özlərinin işçi rollarına da düzəliş etməli, gündəlik rejimini təshih etməli, ünsiyyət modellərini dəyişdirməli, şəxsi həyatlarının müəyyən hissəsini qurban verməli olurlar. Valideynlərlə ər və arvadın rollarının "rəqabəti" meydana gələ bilər. İkinci, üçüncü uşağın meydana gəlməsi yaşlı uşaqlara təsir göstərir. İlk uşaq çox vaxt özünün qardaş və bacılarına münasibətdə "surroqat" valideyn rolunu və yaxud onlarla valideynlər arasında vasitəçi rolunu yerinə yetirir.

Yaşlı uşaqlar valideyn evini tərk edərkən bir çox valideynlərdə problemlər yaranır. Bir qayda olaraq bu, elə ailə cütlükləridir ki, onlar



uşaqların iştirakından özlərinin qarşılıqlı münasibətlərinin boşluğunu gizlətmək üçün pərdə kimi istifadə edirlər.

Tək valideynləri olan ailələrdən danışarkən biz adətən qadınların rəhbərlik etdikləri ailələri nəzərdə tuturuq, doğrudur, tək atalar da nadir hadisə deyildir. Sosioloqlar bu cür ailələri formalaşdırmağın bir neçə yolunu göstərirlər. Bu yollardan ən kütləvisi ər və arvadın boşanması nəticəsində ailənin dağılmasıdır. Natamam ailələrin daha iki mənbəyi vardır – nikahdan kənar uşaq doğulması, ər və arvaddan birinin ölməsi. Natamam ailələr üçün uşaqların tərbiyə edilməsi və sosiallaşdırılması problemi kəskin şəkildə durur. Yarımçıq ailədə tərbiyədəki qüsurlar adətən neqativ iqtisadi amillərlə bağlı olur, belə ki, nikahın sona çatması ailə gəlirinin ciddi surətdə ixtisarı ilə nəticələnir. Belə ailələrin, demək olar ki, yarısı yoxsulluq həddində yaşayır, bir çoxları dövlət müəssisələrinin maliyyə köməyindən asılı olurlar.

Yarımçıq ailələrin çoxsaylı sosial problemləri içərisində uşaqların sağlamlığı ilə bağlı olan problemlər fərqlənir. Məsələn, tədqiqatlar nəticəsində müəyyən edilmişdir ki, yarımçıq ailələrdən olan uşaqlar tam ailələrdən olan uşaqlarla müqayisədə kəskin və xroniki xəstəliklərdən daha çox əziyyət çəkirlər; bu xəstəliklər də onlarda daha ağır formada keçir.

Tənha qadınlar, bir qayda olaraq ailənin bütün məsuliyyəti onların üzərinə düşdüyündən daha çox stress keçirirlər. Belə qadınlarda aşağı səviyyədə özünüqiymətləndirmə, müvəffəqiyyət qazanmağa daha az inam olur. İşlə tərbiyə arasında balanslaşdırma çoxlu mürəkkəbliklər yaradır. Bir çoxları boş vaxtın çatışmamasından, uşağa xərclərin sürətlə artmasından, tənhalıq hissindən, ikili işlə-yüklə bağlı daim təzyiq altında olmaqdan şikayət edirlər. Tərbiyə fəaliyyəti çərçivəsində analar tam dolğunluğu ilə uşaqlara nəzarət edə və bütövlükdə onların davranışına təsir edə bilmirlər.

Belə bir fakt da narahatlıq doğurur ki, yarımçıq ailələrdə uşaq cinayətkarlığı ehtimalı hər iki valideyni olan ailələrə nisbətən iki dəfə yüksəkdir. Üstəlik də bu cür uşaqların inkişaf səviyyəsi standart göstəricilərdən aşağıdır. Sosial planda bu da əhəmiyyətlidir ki, yarımçıq ailələrdəki uşaqların sosial cəhətdən rəsmiləşdirilən ailə statusları və rollarının ailə repertuarını əyani surətdə mənimsəmək imkanına malik olmurlar.

Çətinliyə düşmüş ailə – hər iki valideynin mövcud olduğu ailədir,

lakin müəyyən amillər ucbatından o, səmərəli fəaliyyət göstərə bilmir. Bu cür ailədə onun üzvləri arasında dərin qarşılıqlı əlaqə yoxdur, səmimi münasibətlər, məhəbbət mövcud deyildir. Çətinliyə düşmüş ailəyə xas olan amillərə sosioloqlar aşağıdakıları aid edirlər:

- ailə üzvlərindən hər hansı birinin asılılığının istənilən formasını. Bu, asılılığın cəmiyyət tərəfindən pislənilən (narkomanlıq, alkoqolizm) açıq formaları, istərsə də gizli formaları (işdən asılılıq, sağlam həyat tərzindən asılılıq və s.) ola bilər;
- ailə üzvlərindən hər hansı birinin uzun sürən və yaxud ağır somatik və yaxud psixiki xəstəliyini. Bu da istər-istəməz onun ailənin həyatından kənar edilməsi ilə nəticələnir;
- ailədə "sirrin", "pünhanlığın" olmasını. Bir qayda olaraq bu amil ailə üzvləri arasında məhdud emosional ünsiyyətdə təzahür edir; uşaq körpəliyindən öz hisslərini, fikirlərini gizlətməyə, digər adamlarla ünsiyyətdə özünü məhdudlaşdırmağa öyrənmişdir;
- ailədə deviant davranışlı üzvün olmasını; bu da daxili və xarici ailə münasibətlərini mürəkkəbləşdirir.

Qeyd etmək lazımdır ki, ailə tərbiyəsi uşağın həyatının birinci illərində xüsusilə mühümdür, çünki uşağın inkişafının bir sıra mühüm "sensitiv pikləri" (emosiyaların, idraki aktivliyin, xarakterin) həmin illərə düşür. Burada da ailənin nüfuzu, xüsusilə də əxlaqi, mənəvi nüfuzu problemi üzərində dayanmamaq olmaz. Həqiqi nüfuz sadəcə olaraq didaktik öyüd-nəsihətlə deyil, valideynlərin həyat tərzi ilə, davranışı ilə qazanılır.

Valideynlərlə uşaqlar arasında emosional ünsiyyət mövcud olmalıdır. V.A. Suxomlinski valideynlər və uşaqlar arasında emosional münasibətlərin zəruriliyinə xüsusilə diqqət yetirirdi, qeyd edirdi ki, normal əxlaqi inkişaf, məhəbbət, xoşbəxtlik və əmək harmoniyası (bu harmoniyadan isə mahiyyət etibarı ilə insanın əxlaqi sağlamlığı asılıdır) o zaman mümkündür ki, uşaq inansın ki, o, kiməsə çox lazımdır və əzizdir və kimsə də onda öz həyatının mənasını görür. Lakin uşaq da həmin adamları çox əziz tutur, dərk edir ki, onlarsız yaşaya bilməz. Ən başlıcası isə bu inam aydın fikir şəklində çıxış etmir, lakin bu inam uşağın bütün insani varlığını həyatının dolğunluğu ilə bağlı fərəh və sevinc duyğuları ilə zənginləşdirir.

Sosiallaşmanın yeniyetmə mərhələsində (bax: bu bölmənin ikinci fəsli) yaşıdların öz submədəniyyətləri, qrup dəyərləri ilə birlikdə,



qeyri-formal qrupların sərt şəkildə reqlamentləşdirilmiş liderliyi ilə birlikdə rolu artır. Çox vaxt bu cür qruplar ailə ilə rəqabət aparır. Əgər əxlaqi üstünlük əziyyət çəkən qrupun tərəfindədirsə, bu, təşviş doğurmaya bilməz. Burada da uşaqlarda onların əxlaqi təşəkkülünün ilkin dövründə əsası qoyulmuş "möhkəmlik ehtiyatı" özünü göstərir.

Çox tez-tez məhz qeyri-formal qruplar ailədə uşaq üçün çatışmayan psixoloji "sığınacaq" kimi çıxış edir. Psixoloji tənhalıq və onun şəxsiyyətin formalaşmasına və həyat fəaliyyətinə təsiri problemi getdikcə daha da aktuallaşır, xüsusilə də şəhər mühitində.

Uşağın gözü qarşısında cəzasızlıq, əxlaqsızlığın baş alıb getməsi nümunələri əxlaqi cəhətdən sağlam ailədə də tərbiyə potensialını qiymətdən sala bilər. "İkili əxlaq", söz və işin uyğunsuzluğu yeniyetmənin gözü qarşısında insanlara, həyata həyasız münasibətin xeyrinə kəsərli, qarşısıalınmaz dəlillər yarada bilər. Sosial aşılanmanın bu cür təzahürləri tədricən əxlaqi dəyərləri – inamlılığı, əmək əxlaqını, vətənpərvərliyi dəyişdirir. Bunun nəticəsində də ictimai işlərə maraq zəifləyir, mənəviyyatsızlıq, şübhə meydana çıxır.

Fəal mübarizəyə alışmamış zəif şəxslər sosial aşılanma ilə rastlaşarkən çox vaxt çıxış yolunu alkoqolizmdə, narkomanlıqda, yansapma davranışın və cinayətkarlığın digər təzahürlərində tapırlar.

Beləliklə, pedaqoji cəhətdən savadlı, humanist dəyərlər və maraqlar əsasında yekdilləşmiş, möhkəmlənmiş ailənin sosial və əxlaqi cəhətdən kamil şəxsiyyətin formalaşmasında rolunu bir daha xüsusi olaraq qeyd etmək lazımdır. Dövlətin vəzifəsi sosial-əxlaqi cəhətdən qabiliyyətli ailəni, yəni üzvlərinin onun dəyərlərini mənimsəməyə hazır olduqları ailəni təşkil etmək üçün şərait yaratmaqdır.

Ailə, xüsusilə tam ailə, yüksək əxlaqi-tərbiyə potensialına malikdir. Bu ailə nəinki sosial institut kimi, eyni zamanda əxlaqi-psixoloji qrup kimi öz imkanlarını maksimum dərəcədə reallaşdırır, həyata keçirir. Sosioloqlar ailənin şüurlu potensialının aşağıdakı göstəricilərini fərqləndirirlər: ictimai maraqların uçotunun meyarı, mənəvi dəyərlərin inkişaf etməsi, ailə qayğılarının bölüşdürülməsinin xarakteri, ailənin üzvləri arasında ünsiyyətin intensivliyi, özünə və başqalarına tələbkarlığın səviyyəsi, qohumlarla və sosial mühitlə əlaqələrin qurulduğu prinsiplər. Bu göstəricilər nə qədər yüksək olarsa, uşağın şəxsiyyətinin formalaşmasına ailənin müsbət təsiri daha güclü olar.

Testlər

1. Ailə
   a) sosial institut və sosial qrupdur; v) sosial qrupdur.
   b) sosial institutdur;

2. Ailəni cəmiyyətin, ona qarşı əks durmayan altsistemi kimi səciyyələndirmişdir:
   a) M.Veber; b) R.Park; v) T.Parsons.

3. Nikah:
   a) fərdlər arasında qan qohumluğu münasibətlərinə əsaslanan əlaqələrdir;
   b) yaşlı iki fərd arasında cəmiyyət tərəfindən qəbul olunmuş və bəyənilmiş ittifaqdır.

4. F.Le Pleyə görə ailənin tipləri:
   a) monoqam və ekzoqam ailə;
   b) nuklear və qarışıq ailə;
   v) patriarxal və matriarxal ailə;
   q) patriarxal, köklü və qeyri-sabit ailə.

5. Nuklear ailə:
   a) valideynlər və uşaqlardır;
   b) valideynlər, uşaqlar, qohumlardır;
   v) valideynlər, uşaqlar, babalar, nənələrdir.

6. Liderliyin xarakterinə görə ailələr aşağıdakılara bölünür:
   a) patrilokal, matrilokal və uşaq-lokal ailələr;
   b) matriarxal, qeyri-ənənəvi, ənənəvi ailələr;
   v) ənənəvi, matriarxal, qeyri-ənənəvi, eqalitar ailələr.

7. Ekzoqamiya:
   a) öz qrupundan kənarda (hər şeydən əvvəl qanqohumu qrupundan kənarda) nikah bağlanılmasını tələb edən qaydalardır;
   b) müəyyən qruplar daxilində nikah bağlanılmasını nəzərdə tutan qaydalardır.



8. Ailə riskinin amilləri:
   a) erkən yaşda nikaha daxil olma;
   b) məcburi nikah;
   v) könüllü nikah;
   q) tanışlığın az vaxtda baş verməsi;
   d) nikaha ciddi münasibət.

9. Alternativ həyat tərzləri:
   a) subaylıq həyatı;
   b) təklik;
   v) nikahdan kənar ailə;
   q) homoseksual cütlüklər.

10. Ailə tərbiyəsinin stereotipləri:
   a) uşaqmərkəzçiliyi və praqmatizm;
   b) uşaq mərkəzçiliyi, peşəkarlıq, praqmatizm;
   v) praqmatizm, uşaqmərkəzçiliyi, rekreativlik.

Cavablar

**1** – a; **2** – v; **3** – b; **4** – q; **5** – a; **6** – v; **7** – a; **8** – a; b, q;
**9** – a, v, q; **10** – b.

Seminarlarda və "dəyirmi masa"larda müzakirə olunmaq üçün mövzular

1. Sosiologiya tarixində şəxsiyyət anlayışı və şəxsiyyətin tipologiyası: ümumi və xüsusi.
2. Şəxsiyyətin tələbatları: onların davranışa və fəaliyyətə təsiri.
3. "Birölçülü insan": mif və ya reallıq.
4. Sosial status və sosial rol: tarix və müasirlik.
5. Tələbənin gündəlik həyatı: onun tərkib hissələri (sosiologiyada "gündəlik həyat" problemi).
6. Sosial nəzarət: totalitar və demokratik cəmiyyət.
7. Müasir deviasiyalar və onların profilaktikası.
8. Müasir cəmiyyətdə ailə: problemlər və perspektivlər.

# IV BÖLMƏ
# CƏMİYYƏT

## 1-Cİ FƏSİL. CƏMİYYƏT ANLAYIŞI VƏ CƏMİYYƏTİN TİPOLOGİYALARI

### 1.1. Cəmiyyət anlayışı

"Cəmiyyət" – sosiologiyanın əsas anlayışlarından biridir. Tarixən cəmiyyət iki aparıcı paradiqmanın: makrososioloji və mikrososioloji paradiqmaların çərçivəsində öyrənilmişdir. Makrososioloji yanaşmanın banisi O.Kont cəmiyyət dedikdə dövlətin, siniflər və ailənin daxil olduqları funksional sistemi başa düşür, cəmiyyətin fərd üzərində üstünlüyünü, fərdə münasibətdə onun obyektivliyini qeyd edirdi.

Konta görə cəmiyyət spesifik sosial reallıqdır, obyektiv dünyanın ikili xarakterə malik hissəsidir: birincisi, cəmiyyət bioloji sıranın davamıdır, ikincisi, yeni keyfiyyətə – sosiallığa malik keyfiyyətcə yeni qurumdur. Sosiallığı Kont insan üçün təbii vəziyyət kimi nəzərdən keçirmişdir. Sosial əlaqə müəyyən dərəcədə xarici xarakter daşıyır və hökumət tərəfindən təmin edilir. Fərdi motivasiya mexanizmini Kont birləşmələri "hissləri" əmələ gətirdiyi "instinktiv impulslarla" izah edirdi. Kont sosiallığın, yəni sosial fəallığın müxtəlifliyinin izahı üçün nə qədər instinkt lazım olduğunu postulə etmişdir: "hərbi", "altruist", "eqoist" instinktləri. Kont sosial qaydanı sabitliyi və sosial tərəqqini təmin edən təməl, əsas hesab edirdi. Cəmiyyətin mühüm xarakteristikalarına o, maksimal mürəkkəbliyi, dəyişkənliyi, fəallığı, spontanlığı aid edirdi, cəmiyyətin ilkin və əsas elementi olaraq ailəni fərqləndirirdi. Kont birinci olaraq cəmiyyətin tədqiqinə sistem yanaşılmasını təklif etmiş, onun bütövlük, bölünməzlik xarakterini, tərkib hissələrinin qarşılıqlı əlaqəsini və qarşılıqlı təsirini qeyd etmişdir. Sosial orqanizmin cəmiyyətdə ictimai əmək bölgüsü və həmrəyliklə təmin olunan funksional diferensiasiyası haqqında Kont ideyalarını sonralar H.Spenser, E.Dürkheym və başqaları inkişaf etdirmişlər.

Ç.Darvinin təkamül nəzəriyyəsinin təsiri altında olmaqla H.Spenser cəmiyyəti inkişaf etdikcə mürəkkəbləşməkdə olan bioloji



orqanizm kimi nəzərdən keçirmişdir. Cəmiyyətin öyrənilməsi üçün o, elmi dövriyyəyə "sosial institut", "funksiya", "struktur", "sistem", "təşkilat" kimi anlayışları daxil etmişdir.

K. Marks və onun ardıcılları cəmiyyəti tamamilə başqa şəkildə şərh etmişlər. Marksa görə cəmiyyət insanların qarşılıqlı təsirinin məhsulu olan, öz fəaliyyət və inkişaf qanunlarına tabe olan xüsusi sosial orqanizmdir, iqtisadi və sosial cəhətdən determinə olunmuş obyektiv reallıqdır, elementləri qarşılıqlı üzvi əlaqədə və dialektik qarşılıqlı təsirdə olan sosial sistemdir.

Marksın sözləri ilə desək, cəmiyyət "fərdlərin bir-birilərini tapdıqları əlaqələrin və münasibətlərin məcmusunu ifadə edir".[1] İctimai münasibətləri Marks maddi münasibətlərə (insanların iradəsindən və şüurundan asılı olmayan) və ideoloji münasibətlərə (insanların şüurundan keçərək, təşəkkül tapan) ayırır. Bu halda maddi münasibətlər (iqtisadi münasibətlər) ictimai inkişafda müəyyənedici rol oynayırlar.

Cəmiyyətə baxışlarda makrososioloji ənənə indiki vaxtacan qalmaqdadır. Xüsusilə, XX əsrdə bu ənənəni T.Parsons və struktur-funksional təhlilin digər nümayəndələri inkişaf etdirmişlər.

M.Veber və Q.Zimmel mikrososioloji paradiqmanı əsas götürürdülər. Veber ideal tip anlayışını daxil etmişdir. Bu anlayış altında o, sosial subyektlər kimi insanların qarşılıqlı təsirini başa düşürdü. Zimmel cəmiyyəti "ictimailəşdirilmiş fərdlərin kompleksi" kimi təsəvvür edirdi. Çikaqo sosiologiya məktəbinin nümayəndələri (U.Tomas, R.Park, C.Mid, Ç.Kuli, F. Znanetski və b.) bu cür anlamla razılaşaraq, cəmiyyəti sosial qarşılıqlı təsirin məhsulu kimi şərh etmişlər. P.Sorokin onlardan fərqli olaraq hesab edirdi ki, cəmiyyət geniş sosial-mədəni münasibətlər və proseslər kontekstində fərdlərin qarşılıqlı təsirinin nəticəsidir.

Mikrososioloji yanaşmanın tərəfdarları cəmiyyəti sosial qrupların məcmusu kimi tədqiq edirdilər. Onlar bəyan edirdilər ki, bütün sosial proseslər ya qrupdaxili və yaxud da qruplararası proseslərdən ibarətdir.

1960 – 1970-ci illərin qovuşağında hər iki paradiqmanı birləşdirməyə və cəmiyyətin təhlilinin operasional səviyyəsinə çıxmağa təşəbbüslər edilmişdir. Birinci təşəbbüs R.Marşa məxsusdur. R.Marş cəmiyyəti daimi ərazisi, uşaq doğumu hesabına təkrar istehsalı, inkişaf

[1] *Маркс К., Энгельс Ф.* Соч. Т.46. Ч.1. С.214

etmiş mədəniyyəti və siyasi müstəqilliyi özündə birləşdirən sosial aqreqat, qurğu kimi nəzərdən keçirmişdir.

Müasir sosiologiya cəmiyyəti öyrənərkən əsas etibarı ilə sistem və sosial-mədəni yanaşmaları tətbiq edir. Sistem yanaşması hazırkı bölmənin 2-ci fəslində nəzərdən keçirilmişdir. Sosial-mədəni yanaşmanın tərəfdarları cəmiyyəti bir dominant – mədəniyyət mövqeyindən tədqiq edirlər.

Qərb sosiologiyasının intensiv şəkildə inkişaf etdirdiyi bu yanaşma son vaxtlar vətən elmində də mövqelər tutmaqdadır. Məsələn, M.S.Komarov cəmiyyəti "iki altsistemin – mədəniyyətin və sosial sistemin qarşılıqlı təsirinin nəticəsindən ibarət" olan sosial-mədəni sistem kimi müəyyənləşdirir. Digər sosial qurumlardan – qruplardan, birliklərdən, təşkilatlardan cəmiyyət öz mövcudluğunun uzunmüddətliliyi və müstəqilliyi ilə fərqlənir, yəni özünün təkrar istehsalı və normal inkişafı üçün bütün zəruri resurslara malikdir".[1]

Y.Q.Volkov və İ.V.Mostovaya cəmiyyətin başa düşülməsinə əsas yanaşmaları təhlil edərək, üç nəzəri modeli fərqləndirirlər: "insanlar", "münasibətlər", "mədəniyyət". Birinci model "cəmiyyətin bütövlüyünün saxlanılması üçün zəruri olan funksiyalar toplusuna uyğun olaraq strukturlaşdırılmış (sosial qruplara bölünmüş) sistem (həmrəy hərəkət edən insanların sistemi) kimi interpretasiyasına əsaslanır" (Volkov, Mostovaya, 1999, S. 123). İkinci modelə görə cəmiyyətin mahiyyəti insanlar arasındakı münasibətlərdən, əlaqələrdən, qarşılıqlı təsirlərdən ibarətdir. İnsanlar arasında əlaqələr müxtəlif ola bilər: iqtisadi, siyasi əlaqələr, münaqişə əlaqələri və s. Cəmiyyətin tədqiqi zamanı hansı əlaqələrin əsas əlaqələr kimi nəzərdən keçirilməsinə uyğun olaraq cəmiyyətin mahiyyətinin başa düşülməsində vurğunun yerdəyişməsi baş verir (K.Marksın materializmi, R.Darendorfun konfliktologiya nəzəriyyəsi və s.). Üçüncü model sosioloqların cəmiyyətə "kulturoloji" baxışından ibarətdir. Mədəniyyət bir-biri ilə qarşılıqlı surətdə bağlı olan və təcəssümləşmiş mənaların sistemi kimi, süni reallıq, sosial həyatın simvolik məkanı kimi müəyyənləşdirilir" (Yenə orada, S.125).

Beləliklə, sosiologiyada cəmiyyət haqqında müxtəlif paradiqmalar və müvafiq olaraq onun müxtəlif definisiyaları mövcuddur. Bunlardan ən yığcamlarını misal gətirək.

[1] *Комаров М.С.* Введение в социологию. М.,1994. С. 297.



"Cəmiyyət – tələbatlarını ödəmək məqsədilə özlərinin qarşılıqlı əlaqə və qarşılıqlı təsirlərinin tarixən təşəkkül tapmış formaları ilə birləşmiş insanların məcmusudur; cəmiyyət davamlılıqla və bütövlüklə, özü özünü yenidən istehsal etməklə və müstəqilliklə, özü özünü tənzimləməklə, özüinkişafla səciyyələnir, mədəniyyətin elə bir səviyyəsinə çatmaqla səciyyələnir ki, bu halda insanların qarşılıqlı əlaqə və qarşılıqlı təsirinin əsasında duran xüsusi sosial normalar və dəyərlər meydana gəlir".[1] Cəmiyyət "bütövlüklə, sabitliklə, dinamizm ilə, açıqlıqla, özünütəşkillə, məkan-zaman varlığı ilə"[2] səciyyələnir. "Cəmiyyət – *insanların əsası sosial strukturdan ibarət olan sosial təşkilidir*".[3] "Cəmiyyət – çoxsaylı xırda birliklərin (arxaik və müasir, formalaşmış və yaxud yaranmaqda olan, strukturlaşdırılmış və yaxud kütləvi birliklərin və s.) daim inkişaf etməkdə olan sistemidir" (Volkov, Mostovaya, 1999. S. 119).

## 1. 2. Cəmiyyətin tipologiyaları

Sosiologiya tarixində cəmiyyətin çoxlu tipologiyaları mövcud olmuşdur, o cümlədən yazıyaqədərki və yazılı tipologiyalar (yazının mövcud olması prinsipi üzrə) və yaxud sadə və mürəkkəb (strukturun və funksiyaların mürəkkəbliyi prinsipi üzrə) tipologiyaları mövcud olmuşdur.

Sosiologiyanın banisi O. Kont cəmiyyətin inkişafının üç mərhələsini: teoloji, metafizik və pozitiv mərhələlərini fərqləndirmişdir. H.Spenser öz tipologiyasında cəmiyyətin sadədən mürəkkəbə doğru təkamülü ideyasına əsaslanmış, onları hərbi (təkamülün ən aşağı nöqtəsi) və sənaye (təkamülün yüksək nöqtəsi) tipologiyalarına ayırmışdır. E. Dürkheym mexaniki həmrəyliyə əsaslanan (sadə cəmiyyətlər) və üzvi həmrəyliyə əsaslanan (mürəkkəb cəmiyyətlər) cəmiyyətləri nəzərdən keçirmişdir. F. Tyonnis cəmiyyətin üç tipini: sənayeyəqədərki, ənənəvi və müasir cəmiyyətləri təhlil edir.

C. Lenski və Q. Lenski cəmiyyətin tipologiyasını yaşayış vasitələrini əldə etməyin xarakter üsullarına uyğun olaraq aparırlar: 1) ovçuluqla və yığıcılıqla yaşayan cəmiyyətlər; 2) bağçılıq

[1] *Осипов Г. и др.* Социология М., 1995. С. 145
[2] *Зборовский Г.У., Орлов Г.П.* Социология. М. 1995. С. 305
[3] *Курганов С.И., Кравченко А.И.* Социология для юристов. М., 1999. S. 42.

cəmiyyətləri; 3) aqrar cəmiyyətlər; 4) industrial (sənaye) cəmiyyətləri.[1]

Cəmiyyətin ən tam tipologiyalarından birini K. Marks təklif etmişdir. Bu tipologiyanın əsası olaraq iki meyarı – istehsal üsulunu və mülkiyyətin formasını götürərək, o, beş ictimai-iqtisadi formasiyanı fərqləndirmişdir: ibtidai-icma, quldarlıq, feodal, kapitalizm və kommunizm ictimai-iqtisadi formasiyaları.

Marksizm nəzəriyyəsində cəmiyyət ictimai münasibətlərin: iqtisadi-siyasi, ictimai, hüquqi, əxlaqi, dini və s. münasibətlərin sistemidir, onun inkişafı isə obyektiv və qanunauyğun təbii-tarixi prosesdir.

Amerikan sosioloqu D. Bell cəmiyyətlərin tipologiyasının sintetik modelini işləyib hazırlamışdır. Onun fikrincə Ümumdünya tarixi üç mərhələdən: sənayeyəqədərki, sənaye və sənayedən sonrakı mərhələlərdən ibarətdir. Bir mərhələdən digər mərhələyə keçid istehsal texnologiyasının, istehsal üsulunun, mülkiyyət formasının, sosial institutların, siyasi rejimlərin, mədəniyyətin, həyat tərzinin, əhalinin sayının, cəmiyyətin bütün sosial strukturunun dəyişməsilə müşayiət olunur. İstər Bell və istərsə də digər Qərb sosioloqları (o cümlədən, Y. Rostou, R. Aron) ənənəvi cəmiyyətdən sənaye cəmiyyətinə və sənayedən sonrakı cəmiyyətə keçidi qanunauyğun və sosial tərəqqinin istiqamətinə uyğun keçid hesab edirlər.

Ən qədim cəmiyyət – ovçuların və yığıcıların cəmiyyətidir. Xeyli sonra aqrar cəmiyyət meydana gəlmişdir. Bu da ənənəvi cəmiyyət idi, onun təsərrüfat fəaliyyətinin əsasında kənd təsərrüfatı istehsalı dururdu, sənaye isə ya az inkişaf etmişdi, ya da mövcud olmamışdır. Bu cəmiyyət üçün zəif sosial diferensiasiya və kənd əhalisinin çoxluq təşkil etməsi səciyyəvi idi.

Ənənəvi cəmiyyətin industrial cəmiyyətə transformasiyasını P. Berger, D. Bell, A. Turen və digər müasir sosioloqlar modernləşmə adlandırırlar.

İndustrial cəmiyyətdə təsərrüfat fəaliyyəti maşın texnikasına əsaslanır. Bu cəmiyyət sənayenin coşqun inkişafı ilə, istehsalın və əhalinin təmərküzləşməsilə, istehsalın amili olaraq elmin daimi mövcudluğu ilə, milli bazarların formalaşması ilə səciyyələnir. Fəal urbanizasiya prosesi gedir. Effektivliyə və səmərəliliyə yönümlü dəyərlər sistemi yaranmağa başlayır. Sosial, peşə, ixtisaslaşma

[1] Bax: *Lenski J., Lenski G.* Human societies. N.Y., 1970.



strukturları və digər strukturlar dəyişir. Eyni hüquqlara və ictimai-siyasi həyatın demokratikləşməsinə əsaslanan vətəndaş cəmiyyətinin formalaşması sənaye cəmiyyətinin mühüm xarakteristikasına çevrilir.

Postindustrial cəmiyyətdə (postindustrial cəmiyyət konsepsiyası D. Bell, C. Gelbreyt, Z. Bjezinski, Q. Kan, A. Toffler, A. Turen və başqaları tərəfindən işlənilib hazırlanmışdır.) bu cəmiyyət üzvlərinin həyatında və fəaliyyətində informasiya texnologiyaları, avtomatlaşdırılmış sistemlər və kompüterləşmə çox ciddi əhəmiyyət kəsb edir. Əmtəə istehsal edən iqtisadiyyatdan xidmət iqtisadiyyatına keçid baş verir. Yeni elita tipi – intellektual tip (texnokratik, ssyentist, sonra isə kompüter elitası) formalaşır. Sosial inkişafda mülkiyyət deyil, təhsil, bilik səviyyəsi və informasiya axınları üzərində nəzarət həlledici rol oynamağa başlayır.

Sosioloji ədəbiyyatda bir tipologiya da mövcuddur. Bu tipologiyaya görə ənənəvi və müasir cəmiyyətlər fərqləndirilirlər. Ənənəvi cəmiyyət üçün əməyin təbii bölgüsü və ixtisaslaşdırılması (başlıca olaraq cins-yaş əlamətinə görə), bütün həyatın ənənəyə əsaslanan qeyri-formal sosial-mədəni tənzimlənməsi, qohumluq münasibətlərinin inkişaf səviyyəsi və ibtidai idarəetmə sistemi səciyyəvidir. Ənənəvi cəmiyyətin əsasında kapitalizməqədərki aqrar tipli iqtisadi uklad durur, cəmiyyətin strukturları isə yüksək sabitliklə seçilir. A.D. Kovalyov ənənəvi cəmiyyəti fərqləndirmək üçün aşağıdakı əsasları təklif edir:

- mülkiyyət münasibətlərinin oxşarlığı – bilavasitə istehsalçının torpağa yalnız qəbilə icması və yaxud feodal sahibkarlar iyerarxiyası vasitəsilə malik olmasından ibarətdir. İstər bu və istərsə də digər üsullar, görünür ki, bölünməz xüsusi mülkiyyət kapitalist prinsipinə qarşı durur və torpağa heç bir müəyyən münasibəti olmayan, bazar qanunları üzrə öz əməyi ilə sərbəst iş görə bilməyən "avtonom şəxsiyyət"i sosial cəhətdən lüzumsuz edirlər;
- mədəniyyətin fəaliyyət göstərməsinin ümumi xüsusiyyətləri – bunlara sabitləşmiş mədəniyyət nümunələrinin, davranış patternlərinin, adətlərin, əmək vərdişlərinin azhərəkətliliyi, ətalətliliyi, yaradıcılığın qeyri-fərdi xarakteri daxildir;
- əməyin silki qaydada möhkəmləndirilmiş nisbətən sadə və sabit bölgüsü.[1]

[1] Bax: *Ковалев А.Д.* Общество традиционное // Современная западная

Müasir cəmiyyət, əksinə, əməyin dərin bölgüsü, münasibətlərin və davranışın tənzimlənməsinin formal sistemi ilə, sosial həyatın institusionallaşması ilə, mürəkkəb idarəetmə ilə seçilir. Müasir *sosiologiyada cəmiyyətin tipologiyasına aid gətirilmiş klassik* yanaşmalar saxlanılmaqdadır, lakin digər yanaşmalardan da istifadə olunur. Bunlardan əsas olanları iki qrup meyar üzərində qurulur: 1) milli-dövlət (fransız cəmiyyəti, rus cəmiyyəti, amerikan cəmiyyəti və s.) və 2) sosial meyarlar.

Cəmiyyətləri demokratik (vətəndaş cəmiyyəti mövcuddur), totalitar (vətəndaş cəmiyyəti mövcud deyildir), avtoritar cəmiyyətlərə (demokratik və totalitar cəmiyyətlər arasında olan cəmiyyətlər) bölmək olar.

K. Popper açıq və qapalı cəmiyyətlər anlayışlarını elmə daxil etmişdir. Açıq cəmiyyət – asanlıqla dəyişməkdə və mövcudluq şəraitinə uyğunlaşmaqda olan demokratik cəmiyyətdir. Açıq cəmiyyət rasionalizmlə, kritisizmlə, fərdiyyətçiliklə, dinamik sosial strukturla, innovasiya qabiliyyətilə, yüksək mobilliklə və plüralist demokratik ideologiya ilə səciyyələnir. Qapalı cəmiyyət – ənənəviçiliklə, statik sosial strukturla, məhdud mobilliklə, innovasiyalara qabiliyyətsizliklə səciyyələnən, doqmatik avtoritar ideologiyaya malik cəmiyyət tipidir.

Nəticə olaraq P. Sorokinin nöqteyi-nəzərini misal gətirək. Bu nöqteyi-nəzərə görə sosial-mədəni qarşılıqlı təsirin strukturunun əsasında qarşılıqlı surətdə bir-biri ilə bağlı olan üç aspekt durur: 1) qarşılıqlı təsirin subyekti kimi şəxsiyyət; 2) özünün sosial-mədəni münasibətləri və prosesləri ilə birlikdə bir-biri ilə qarşılıqlı təsirdə olan fərdlərin məcmusu kimi cəmiyyət; 3) bir-biri ilə qarşılıqlı təsirdə olan şəxslərin sahib olduğu mənaların, dəyərlər və normaların məcmusu kimi və bu mənaları cismanilaşdirən, sosiallaşdıran və aşkara çıxaran daşıyıcıların məcmusu kimi mədəniyyət (bax: Sorokin, 1992).

Sorokin cəmiyyətin dərk edilməsilə əlaqədar mühüm metodoloji nəticəyə gəlir: "cəmiyyət" anlayışı "mədəniyyətə" nisbətən daha geniş anlayış ola bilməz, necə ki, bu iki hadisə bir-birilə əlaqədən kənarda nəzərdən keçirilə bilməz. Mümkün olan yeganə fərq bununla bağlıdır ki, "sosial" termini qarşılıqlı təsirdə olan insanların məcmusunda və onların münasibətləri üzərində cəmləşməni bildirir, halbuki "mədəniyyət"

---

социология: Словарь., М., 1990.



termini mənalar, dəyərlər və normalar üzərində, həmçinin onların maddi daşıyıcıları (və yaxud maddi mədəniyyət üzərində) cəmləşməni ifadə edir (Yenə orada).

T e s t l ə r

1. Cəmiyyətin öyrənilməsində əsas sosial paradiqmalar:
   a) makrososioloji paradiqma;
   b) mikrososioloji paradiqma;
   v) kauzal paradiqma.

2. O. Kont qeyd edirdi:
   a) fərdin cəmiyyət üzərində birinciliyini;
   b) cəmiyyətin fərd üzərində birinciliyini.

3. Cəmiyyəti "ictimailəşdirilmiş fərdlərin kompleksi" kimi təsəvvür edirdi:
   a) K. Marks; b) M. Veber; v) Q. Zimmel.

4. Müasir sosiologiyada cəmiyyətin üç əsas nəzəri modeli fərqləndirilir:
   a) insanlar; b) insan; v) münasibətlər;
   q) mədəniyyət; d) hüquq.

5. C. və Q. Lenskilərə görə cəmiyyətin əsas tipləri:
   a) ovçuluqla və yığıcılıqla yaşayan cəmiyyətlər;
   b) bağçılıq cəmiyyətləri;
   v) aqrar cəmiyyətlər;
   q) inkişaf etmiş cəmiyyətlər;
   d) industrial (sənaye) cəmiyyətlər.

6. Cəmiyyətin tipologiyasının sintetik modelini təklif etmişdir:
   a) U. Tomas; b) R. Park; v) D. Bell.

7. Açıq və qapalı cəmiyyətlər anlayışlarını sosiologiyaya gətirmişdir:
   a) C. Mid; b) P. Berger; v) Z. Bjezinski; q) K. Popper.

C a v a b l a r

**1** – a; **2** – b; **3** – v; **4** – a, v, q; **5** – a, b, v, d; **6** – v; **7** – q.

# 2-Cİ FƏSİL. CƏMİYYƏT SOSİAL BİRLİK VƏ SOSİAL SİSTEM KİMİ

## 2.1. Cəmiyyət sosial birlik kimi

Ən qədim zamanlardan insanlar qruplar halında yaşamışlar. Qarşılıqlı köməyin, yardımın xatirinə, nəyə qarşısa və yaxud kimə qarşısa da birlikdə əks durmaq imkanlarını artırmaq xatirinə birləşərək, onlar qarşısında ümidlərin, vəzifələrin, qarşılıqlı təsirlərin müəyyən şəbəkəsinə daxil olmuş olurlar və həmiştirakçıları bütöv bir tam birlik halında birləşdirirlər.

Sosial ümumiliyə birinci olaraq F. Tyonnis diqqət yetirmişdir. "Birlik və cəmiyyət" kitabında o, münasibətlərin iki tipini: icma münasibətlərini (buraya daxildir: 1) qəbilə münasibətləri, 2) qonşuluq münasibətləri, 3) dostluq münasibətləri) və ictimai münasibətlər (çox vaxt bir insanın digər insan üçün faydalılığının, dəyərliliyinin dərk edilməsi üzərində qurulur) tiplərini səciyyələndirərək, birliklə cəmiyyət arasında aşağıda qeyd olunan fərqləri göstərmişdir ( Bax: Zborovski, 2004 b):

- birlik kəndin kəndli icmasına xasdır, cəmiyyət – industrial-şəhər sosial orqanizmidir;
- əmək bölgüsü sahəsində birlik üçün qohumluq əlaqələri üzərində qurulmuş (təsərrüfatda qohumların vəzifələri) məhdud ixtisaslaşma xasdır, cəmiyyət üçün isə – sosial rolların professionallaşması və bunların ailə rollarından ayrılması xasdır;
- sosial nəzarət sferasında birlik ənənəvi adətlərə və yazılmamış qanunlara söykənir, cəmiyyət – formal hüquqa əsaslanır;
- əsas "birlik" sosial institutları ailə, icma, qonşuluqdur, əsas ictimai institutlar – insanların birliyinin iri korporativ və assosiativ (biznes, hökumət və s.) formalarıdır;
- birliyin mədəniyyəti dini dəyərlərə, cəmiyyətin mədəniyyəti isə dünyəvi dəyərlərə əsaslanır;
- birlikdə həyatın fərdi motivasiyası sahəsində insanlar icma prinsiplərinə uyğun olaraq davranırlar, cəmiyyətdə isə – insanlar şəxssiz ünsiyyət situasiyalarında hərəkət edirlər, hər şey üçün haqq-hesabı pulla çəkirlər və hər şeydən əvvəl şəxsi mənafelərini güdürlər.



XX əsrin ortalarında və ikinci yarısında Qərb sosiologiyasında amerikan sosioloqları sosial birliyin B. Merser və T. Parsons tərəfindən şərhi xususi diqqətə layiqdir. Merser qeyd edirdi ki, "insan birliyi – müəyyən coğrafi ərazidə müəyyən vaxtda yaşayan, ümumi mədəniyyətə malik olan, müəyyən sosial strukturu əmələ gətirən, ayrıca qrupun tərkibində öz vəhdət hissini təzahür etdirən insanların funksional cəhətdən əlaqəli daxili birliyidir"[1]. Parsons birlik dedikdə "özlərinin gündəlik fəaliyyətinin ... daha böyük hissəsini həyata keçirməyin əsası kimi müəyyən ərazi məkanına malik, fəaliyyətdə olan insanların birliyini başa düşürdü. Birlik, mütləq deyildir ki, müstəqil tam olsun".[2]

Vətən sosiologiyasında da sosial birliyin tədqiqinə böyük diqqət yetirilir. V.A. Yadov qeyd edir ki, sosial birliyin xüsusi əhəmiyyət kəsb edən rolunun nəzərə çatdırılması "bugünkü sosial tələbata, ictimai dəyişikliklərin subyektinin, onun maraq və tələbatlarının, onların indiki vəziyyətinin və dinamikasının, vəhdət və qarşıdurmasının təhlilinin obyektiv ictimai tələbinə ən yaxşı şəkildə cavab verir. Beləliklə, bu, sosioloji təhlilin mərkəzinə bütün ictimai təşkil sisteminin başlıca problemlərini qoyur, çünki o, müxtəlif sosial birliklərin, hazırda və tarixi perspektivdə öz maraqlarını reallaşdıran sosial subyektlərin təşkilatından başqa bir şey deyildir"[3].

Bütövlükdə *sosial birlik insanların davamlı məcmusudur, onların həyat şəraitinin və həyat tərzinin, kütləvi şüurun çox və ya az dərəcədə eyni cəhətləri ilə (bütün və yaxud bəzi aspektlərində), sosial normalar, maraqlar və dəyərlərin bu və ya başqa şəkildə ümumiliyi ilə səciyyələnən müəyyən bütövlüyüdür.*[4]

Təşkilatlardan fərqli olaraq sosial birliklər şüurlu surətdə yaradılmırlar. Onlar ictimai inkişafın obyektiv gedişinin, insanın həyat fəaliyyətinin xarakterinin təsiri altında formalaşırlar. Buna görə də sosial birliklər hər şeydən əvvəl tarixi planda nəzərdən keçirilməlidir. Birliyin ilk növləri olaraq insan cəmiyyəti ilə eyni vaxtda meydana gəlmiş və

[1] *Merser B.* The American community. N.Y., 1957. P.27.
[2] *Parsons T.* Social system. Glencoe, 1951. P. 91.
[3] *Ядов В.А.* Социологическое исследование: методология, программы, методы. Самара, 1995. С. 19.
[4] Bax: Социологическая энциклопедия. В 2 т. М., 2003. Т.2.

qanqohumluğu birliyinə və birgə istehsal fəaliyyətinə əsaslanan ailə, qəbilə və tayfanı göstərmək olar. Bu mövcudluq formalarının sayəsində insan özünün məhdud fiziki və intellektual imkanlarını çox dəfələrlə gücləndirmək imkanı əldə etmişdir. Xüsusi mülkiyyətin meydana gəlməsilə ailə mühüm dəyişikliklərə məruz qalır, tədricən sosial siniflər kimi birliklər meydana gəlir. Əmək bölgüsü daha bir birlik formasını – peşəkar qrupları, əmək kollektivlərini yaradır.

Sosioloqlar sosial birliyin aşağıdakı atributiv elementlərini fərqlənirlər:

- məqsədli dəyişən. İnsanların birgə hərəkəti üçün hər şeydən əvvəl hazırkı vəziyyətdə, hazırkı münasibətdə onların fəaliyyət məqsədinin uyğun gəlməsi zəruridir. Bir sıra hallarda məqsəd apriori olaraq, yəni real birliyin formalaşmasına qədər yarana bilər;
- mədəni-tənzimləyici dəyişən. Məqsədlərin uyğun gəlməsi heç də həmişə yaxşı qarşılıqlı anlaşılma, qarşılıqlı yardım demək deyildir. Zəruridir ki, birliyin üzvləri öz qarşılıqlı münasibətlərində onların hamısının qəbul etdikləri vahid qayda və normaları rəhbər tutsunlar. Birlik daxilində münasibətlər mədəniyyət vasitəsilə tənzimlənir;
- həmrəy sosial hərəkətlər dəyişəni. Yenə də uyğun gələn məqsədlərin və mərifət, əxlaq haqqında vahid təsəvvürlərin mövcud olması birliyin meydana gəlməsinə heç də həmişə kömək etmir, partnyorların uyğun gələn məqsədlərinin və həmrəy qarşılıqlı sosial təsirlərinin və tərəfdar olduqları normalar sisteminin əsasının mövcud olması lazımdır;
- "özünün – özgənin" başa düşülməsinin dəyişəni. Həqiqətən, birlik ona daxil olan insanların bərabər həyat şəraiti əsasında formalaşır. İnsanların məcmusu isə yalnız o zaman sosial birliyə çevrilir ki, insanlar öz mövcudluq şəraitinin eyni xarakterə malik olduğunu dərk etsinlər, onlara öz münasibətlərini bildirsinlər. Bununla əlaqədar olaraq onlarda kimin "özlərinin", kiminsə "özgə" olması haqqında çox və ya az dərəcədə aydın anlayış yaranır.

Eyni həyat şəraiti sosial birlik üçün vahid normaların işlənib hazırlanması üçün əsas kimi çıxış edir. Sosial birliyin formalaşması və vəhdətinin saxlanılmasının amillərinə sosial birlikdə qəbul edilmiş adət və ənənələrə əməl edilməsi aiddir. Sosial birliklərin ilkin formalarında adət fəaliyyətin və daxili münasibətlərin əsas tənzimləyicisi kimi, birləşmənin tənzimləyicisi kimi çıxış edirdi. Təbii ki, adət aparıcı rol oynayırdı. Cəmiyyət təkmilləşdikcə adətin təsiri azalmışdır, o, yerini sosial institutlara, hüquqi və əxlaqi davranış normalarına vermişdir. Beləliklə, sosial institutlar sosial birliyin inkişafının başlıca amillərindən birinə çevrilir, belə ki, sosial institutlar ictimai həyatın və insanların birgə fəaliyyətinin təşkilinin sabit, davamlı formasını təşkil edirlər



### *Sosial birliklərin növləri*

Sosial birliklərin müxtəlifliyi onların tipologiyasını yaratmaq zərurətinə gətirib çıxardı. Birliklər ən müxtəlif meyarlar üzrə diferensiasiya oluna bilərlər: keyfiyyət-kəmiyyət tərkibinə görə, müəyyən ərazidə yaşamalarına görə, zaman etibarı ilə və s. Sosial birliklərin bir sıra növləri üzərində dayanaq.

*Kütləvi birlik* – sosial birliyin çoxlu sayda fərdi özündə birləşdirən tipidir. Kütləvi birlik dörd mühüm əlamətlə səciyyələnir: 1) mövcudluğun situativ üsulu ilə, 2) tərkibinin rəngarəngliyi ilə, 3) açıq sərhədlərin mövcudluğu ilə, 4) daha geniş birliklərin struktur elementi hüququnda çıxış etməyə qadir olmaması ilə.

*Qrup birliyi* – fərdlərin kəmiyyət etibarı ilə müəyyən məcmusudur (iki adamdan az olmayaraq). Bu birlik aşağıdakı əlamətlərə malikdir: 1) davamlı məkan-zaman sərhədləri, 2) tərkibinin dəqiq ifadə olunmuş həmcinsliyi, 3) birlik üzvlərinin ümumi məqsəd və vəzifələrə malik olmaqla müxtəlif fəaliyyət növlərini birlikdə yerinə yetirməyə qadir olmaları, 4) daha geniş sosial birliklərin struktur elementi hüququnda fəaliyyət göstərmək qabiliyyəti.

*Sosial-ərazi birliyi* – məkanca məhdud sosial strukturlar çərçivəsində insanlar arasında iqtisadi, sosial, siyasi və digər əlaqələrin mövcudluğu ilə səciyyələnir. Birliklər hər şeydən əvvəl əmək bölgüsü və onun bu və ya digər növləri üzrə fərdlərin bölgüsünün nəticəsində meydana gəlirlər. Bu cür birliklər xeyli dərəcədə əhalinin yenidən istehsalı hesabına davamlı halda mövcud olmaq qabiliyyətinə malikdirlər ki, bu da onları sosial birliyin digər tipi olan d e m o q r a f i k tiplə sıx bağlayır.

*Etnik birlik* – ərazinin və iqtisadi həyatın vəhdəti əsasında formalaşır, lakin onun inkişaf prosesində ərazisi itirilə bilər. Etnik birliyin əlamətləri sırasına bir qayda olaraq vahid dili, mədəniyyətin və psixologiyanın ümumi və sabit xüsusiyyətlərini, etnik mənlik şüurunu

aid edirlər. [1] Müasir nəzəriyyələrin əksəriyyətində etnik birliyi cəmiyyətin sosial strukturunun, onun tərkibindəki digər sosial birliklərlə – siniflərlə, sosial qruplarla, təbəqələrlə, ərazi birlikləri ilə (etnik birliklər haqqında daha ətraflı bax: 2.3) qarşılıqlı təsirdə olan elementi kimi nəzərdən keçirirlər.

M e y d a n a g ə l m ə s i v ə f ə a l i y y ə t g ö s t ə r m ə s i ü s u l l a r ı n d a n asılı olaraq aşağıdakı sosial birlikləri fərqləndirirlər: institusional qaydada və yaxud spontan şəkildə əmələ gələn sosial birliklər, formal və yaxud qeyri-formal sosial birliklər, rəsmi və yaxud qeyri-rəsmi sosial birliklər. Cinsi anlayış kimi h ə m r ə y s o s i a l h ə r ə k ə t əsasında sosial birliklərin üç növ müxtəlifliyini fərqləndirirlər:

- xəyali sosial birliklər (çoxluqlar) – bunların başlıca əlamətini uyğun gələn məqsədlərin, maraqların mövcud olması şəraitində (məsələn, mağazada növbə, avtobusda sərnişinlər) qarşılıqlı sosial hərəkətlərin, həmrəy sosial əlaqənin mövcud olmaması təşkil edir. Çoxluqların aşağıdakı formalarını fərqləndirmək qəbul olunmuşdur: kateqoriya (yəni insanların hansısa bir əlamətə görə seçilməsi, lakin bu seçilmə onlar arasında sosial əlaqələrin mövcud olmasını istisna edir); aqreqasiya (məkanca bir yerdə yerləşən insanların birliyi, yəni lokallaşdırılmış çoxluq – bir qatarın sərnişinləri), kütlə (insanların kütləvi-tipik davranışı ilə, xarici obyektə reaksiyasının həmcinsliyi ilə səciyyələnən birliyi). Məsələn, yoldan keçənlərin leysan yağışına reaksiyası: burada insanlar pərakəndə fərdlər kimi çıxış edirlər;
- kontakt (ünsiyyət) birlikləri – "başqasına oriyentasiyanın", sosial hərəkətin mövcud olması ilə, sosial əlaqənin qurulması ilə səciyyələnir. Lakin bu hərəkətlər, əlaqələr kontakt-ünsiyyət xarakteri daşıyır, yəni onlar davamlı deyillər, məhdud istiqamətlidir, təsadüfidirlər. Sosioloqlar aşağıdakı kontakt birlikləri fərqləndirirlər: auditoriya (bir-biri ilə bilavasitə və yaxud fikri kontaktda – əlaqədə olan mühazirəçi və dinləyicilərin qısa müddətli birdəfəlik qarşılıqlı təsiridir), camaat (spontan, müvəqqəti birlik; bu birlikdə müəyyən "başqasına oriyentasiya", ani sosial əlaqələr: fikir mübadiləsi, yardımetmə, ümumi hərəkət planlarının hazırlanması) meydana gəlir, sosial dairə (özlərinin

[1] Bax: *Кравченко С.А., Мнацаканян М.О., Покровский Н.Е.* Социология: парадигмы и темы, М., 1997. С. 251–252.



sosial tələbatlarının, ünsiyyət tələbatlarının, başqalarına qayğı göstərmək və s. tələbatlarının təmin edilməsi üçün bir yerə toplaşmış peşəkarların, dostların, tanışların və s. dairəsi. Bu, fəal hərəkət edən sosial qruplar yaratmaq üçün əsasdır);

- qrup birlikləri – həmrəy qarşılıqlı təsirlərin davamlı, özünü bərpa kompleksləridir. Sosial qrupların müxtəlifliyi həlli üçün formalaşdıqları vəzifələrin çoxluğuna əsaslanmışdır. Yaranması əsasında askriptiv əlamətin (irqi, etnik əlamətin və s.) durduğu qrupları, sosial əmək bölgüsü nəticəsində, sosial əlaqələrin instisionallaşması nəticəsində formalaşmış status qruplarını (və peşə qruplarını) (kəndlilər, müəllimlər və b.), məqsədli qruplar (təşkilatlar), yəni bu və ya digər vəzifələrin – təsərrüfat, siyasi və s. vəzifələrin həlli üçün birləşmiş qrupları fərqləndirirlər.

Beləliklə, sosial birlik konkret anlamında götürülmüş cəmiyyətdir. İçərisində yaşadığımız, haqqında oxuduğumuz, barəsində eşitdiyimiz və yaxud televiziya ilə gördüklərimiz sosial birlikləri cəmiyyət adlandırırlar. Müəyyən birliklər bizə birbaşa və dərindən təsir göstərir, digər birliklərin rolunu biz dolayısı ilə duyuruq, başqa birliklərin isə bizə heç bir dəxli yoxdur.

Lakin sosial birliklər hətta bizdən olduqca uzaq olsalar da belə, onlar bu və ya başqa şəkildə bizim ya şəxsi mənafeyimizlə, ya bizə yaxın olan adamların mənafeləri ilə bağlı ola bilər. Sosial birliklərin təsiri nəticəsində bizim həyat şəraitimiz dəyişir. Məsələn, hakimiyyət strukturları elə qərarlar qəbul edirlər ki, onlar bizim mənsub olduğumuz sosial birliklərə son nəticədə təsir göstərirlər.

Cəmiyyətdə hər şey bir-biri ilə qarşılıqlı əlaqədədir, hətta əgər biz bu əlaqələri görməsək də, dərk etməsək də, belədir, ona görə də inamla demək olar ki, cəmiyyət – müxtəlif sosial birliklərin qarşılıqlı əlaqəsidir.

## 2.2. Cəmiyyət sosial sistem kimi

Sosioloqlar cəmiyyəti qarşılıqlı surətdə bir-biri ilə sıx bağlı olan və müəyyən qaydada nizamlanmış elementlərin bütöv sistemi hesab edirlər. Cəmiyyətin sistem kimi tədqiq edilməsi mürəkkəb tamın fəaliyyət məntiqini başa düşməyə imkan verir. Bu cür yanaşma sistem yanaşma adlanır. T. Parsons cəmiyyətin sistem anlayışını daha yığcam və obrazlı ifadə etmişdir: cəmiyyət sosial sistemin öz mühitinə münasibətdə ən

yüksək müstəqillik dərəcəsinə malik tipidir. Müstəqillik, özünü yaşada bilmək öz növbəsində ətrafdakı sistemlərlə qarşılıqlı mübadilə münasibətlərinin sabitliyi və öz fəaliyyətinin mənafeyi naminə bu qarşılıqlı mübadiləyə nəzarət etmək qabiliyyəti deməkdir.

İstənilən bütöv sistemin məzmun tərəfini, bu sistemin təşkilinin maddi əsasını mövcud sistemin elementlərinin tərkibi, toplusu, onların qarşılıqlı əlaqəsinin xüsusiyyətləri müəyyən edir

Ümumi sistemlər nəzəriyyəsinin banilərindən biri olan L. fon Bertalanfi sistem adı altında vəhdət əmələ gətirərək, bir-biri ilə müəyyən münasibətlərdə olan elementlərin qarşılıqlı əlaqəsini başa düşürdü. İstənilən sistem aşağıda göstərilən universal əlamətlərə malikdir: b ü t ö v l ü k (sistemin xassələrinin onun elementlərinin xassələri cəminə prinsipial müncər ediləbilməzliyi və həmin elementlərin xassələrindən tamın xassələrinin hasil ediləbilməzliyi), s t r u t k t u r l u q (sistem daxilində elementlər arasında əlaqə və münasibətlərin müəyyən edilməsi vasitəsilə sistemin təsvir edilməsi imkanı); s i s t e m i n v ə m ü h i t i n q a r ş ı l ı q l ı s u r ə t d ə b i r - b i r i n d ə n a s ı l ı l ı ğ ı (sistem öz xassələrini mühitlə qarşılıqlı təsirdə olaraq və onun aparıcı komponenti kimi çıxış edərək, formalaşdırır və təzahür etdirir); i y e r a r x i y a l ı l ı q (hər bir element onu təşkil edənlərə münasibətdə sistem kimi və daha geniş sistemə münasibətdə isə altsistem kimi nəzərdən keçirilir); f u n k s i o n a l x a r a k t e r (bütövlükdə sistem və onun hər bir elementi ciddi surətdə müəyyən funksiyaları yerinə yetirirlər); i n t e q r a s i y a (hissələrin bütöv halında birləşdirilməsi prosesi və mexanizmi).

Sosial sistem kimi cəmiyyətdən danışarkən sosioloqlar aşağıda göstərilən əlavə əlamətləri də nəzərə çatdırırlar: özünütəşkil, dinamizm, açıqlıq, idarəetmənin mövcudluğu, informasiyanın ötürülməsi və b. Sosial sistemin fərqləndiricisi dominant xüsusiyyəti bundan ibarətdir ki, bu sistem bu və ya digər sosial birliyin (sosial qrupun, sosial təşkilatın və s.) bazasında təşəkkül tapır, onun elementlərini isə insanlar təşkil edirlər. Bu insanların da davranışı onların sosial mövqeləri ilə (statusları ilə), konkret sosial funksiyaları ilə (rolları ilə) və mövcud sosial sistemdə qəbul edilmiş sosial norma və dəyərlərlə müəyyən olunur. Cəmiyyət struktur-funksional tam olan sabit, özü özünü tənzimləyən, özü özünü yenidən istehsal edən sistemdir. Bu tamlıq zəruri keyfiyyətlərə malik olan insanların yerləşmiş olduqları sosial strukturların (iqtisadi, siyasi, dini və digər institutların) yaradılması ilə diferensiasiyası müşayiət olunan bir sıra funksiyalar vasitəsilə təzahür edir.



Cəmiyyətin daxili özünütənzimləməsinin yüksək səviyyəsi daxili sosial münasibətlərin, cəmiyyətin strukturlarının sosial keyfiyyətlərinin və müvafiq olaraq ona daxil olan fərdlərin və fərdlər qruplarının sosial keyfiyyətlərinin mürəkkəb sisteminin müdafiəsini və öz-özünü daim yenidən istehsal etməsini təmin edir.

İstənilən cəmiyyət yeni sosial qurumların qarşılıqlı əlaqələrinin təşəkkül tapmış sisteminə qoşulmağın daxili mexanizmlərinə malikdir. Cəmiyyət meydana gəlmiş institutları, birlikləri özünün fəaliyyət və inkişaf məntiqinə tabe edir, onları təşəkkül tapmış sosial norma və qaydalara uyğun olaraq hərəkət etməyə məcbur edir.

Çoxsaylı ziddiyyətlərin (təbiətlə cəmiyyət arasında, istehsalla tələbat arasında və s.) sayəsində cəmiyyət sosial sistem kimi daimi inkişafdadır, lakin bəs hansı ziddiyyət əsas ziddiyyətdir sualına birmənalı cavab yoxdur. Sosial sistemlərin təhlili zamanı digər ziddiyyətlər də – daxili və xarici, antaqonist və qeyri-antaqonist ziddiyyətlər mühüm əhəmiyyətə malikdir. Sözsüz ki, cəmiyyətdə vəziyyətə antaqonist ziddiyyətlər güclü təsir göstərir, onların həlli yeni sosial sistemə keçilməsini tələb edir. Qeyri-antaqonist ziddiyyətlərin aradan qaldırılması kompromis və konsensus formasında baş verir.

Sosial sistemlər sabitlik və davamlılıqla səciyyələnir. Sosial sistemin elə bir halı s a b i t l i k adlanır ki, bu zaman həmin sistem xaricdən edilən güclü təsirlərin əksinə olaraq öz strukturunun və funksiyalarının davamlılığını saxlamaqla fəaliyyət göstərməyə və dəyişməyə qadirdir. Nəzərə almaq lazımdır ki, sabitlik mütləq olmur, belə ki, cəmiyyətin özhərəkəti münaqişələrsiz, yansapmalarsız, dəyişikliklərsiz mümkün deyildir. Qarşıdurma prosesində sosial sistem balanslaşır, yəni ən kəskin tərəddüdlər zamanı da özünü saxlayır, lakin tənqidi həddi deyiləni aşdıqda məhv ola bilər.

Cəmiyyətdə sabitliyi saxlamağa qadir olan bir sıra mexanizmlər mövcuddur (məsələn, müxtəlif sosial birliklərin maraqlar balansının saxlanılmasına yönəldilmiş dəqiq iqtisadi, sosial, siyasi proqramlar). Mövcud sosial sistemin hakimiyyət strukturları bu proqramlara yiyələnməli və zərurət yarandıqda onlardan istifadə etməlidirlər.

Sosial sistem kimi cəmiyyətin strukturunu bu sistemin elementlərinin əlaqə və qarşılıqlı təsirinin müəyyən üsulu əmələ gətirir.

Nəyi cəmiyyətin strukturu hesab etmək olar? *Sosiologiyada sosial struktur adı altında adətən sosial sistemdəki elementlərin sabit, təkrar olunan əlaqəsi başa düşülür.* Həm də bir tam kimi sistemin tədqiqindən fərqli olaraq burada əsas diqqət elementlərə verilir.

M. Rutkeviç sosial strukturların bütün rəngarəngliyini iki qismə ayırır. Birinci qism strukturda ictimai sistemin elementləri olaraq ictimai həyatın müəyyən tərəfləri çıxış edir: iqtisadi, siyasi, mədəni tərəflər. Cəmiyyətin hər bir üzvü bu cəmiyyətin həyatının müxtəlif sahələrində fəaliyyət göstərdiyindən fərdin fəaliyyətinin müəyyən tərəfi onu cəmiyyətin strukturunun istənilən növünə daxil edir. Bu halda struktur element anlayışı "ictimai" anlayışı ilə eynimənalıdır. İkinci qism strukturlarda ictimai sistemin elementləri olaraq insanların müəyyən qrupları – siniflər, təbəqələr, kiçik qruplar və fərdin özü; struktur element anlayışı dar mənada işlədilir və sosial qrupların vəziyyətində bərabərsizliyi bildirir.

Sosiologiyada cəmiyyətin davamlı fəaliyyət göstərməsi prinsiplərini müəyyən etməyin bir neçə metodu işlənib hazırlanmışdır.

Birinci metod cəmiyyətdə müstəqil funksional yükə malik mühüm, əhəmiyyətli altsistemlərin seçilməsinə, həmçinin onlar arasında sabitləşdirici asılılığın müəyyən edilməsinə əsaslanır. Bu metod cəmiyyəti bir neçə altsistemdən: iqtisadi, sosial, siyasi və ideoloji altsistemlərdən ibarət bütöv sistem kimi nəzərdən keçirən d e t e r m i n i s t yanaşma ilə bağlıdır. Bu altsistemlərdən hər birini öz növbəsində sistem kimi nəzərdən keçirmək olar. Bu bütöv, "böyük" sistemi ona daxil olan daha kiçik sistemlərdən fərqləndirmək üçün onu sosiyetal sistem adlandırırlar.[1] Bu sistemlər arasında qarşılıqlı münasibətlər başlıca olaraq səbəb-nəticə əlaqələri üzərində qurulur. Bu cür yanaşmada inkişafı bütün sistemi dəyişdirməyə qadir olan aparıcı altsistemi müəyyənləşdirmək lazımdır. Məsələn, iqtisadi determinizmin daha parlaq nümayəndəsi olan K. Marksın fikrincə aparıcı altsistem iqtisadiyyatdır.

Amerikan sosioloqu E. Şilzin cəmiyyət konsepsiyaları siyasi determinizmin nümunəsidir. Onun qeyd etdiyi kimi, sosiyetal sistem cəmiyyətə çevrilə bilmək üçün "özünün xüsusi daxili "ağırlıq

---

[1] Вах: *Заславская Т.И.* Социетальная трансформация России: детально-структурная концепция. М., 2002.



mərkəzinə" malik olmalıdır, yəni bu sistem özünün xüsusi qrupları çərçivəsində öz xüsusi hakimiyyət sisteminə malik olmalıdır, bundan əlavə, bu sistem öz xüsusi mədəniyyətinə malik olmalıdır".[1]

Mədəni determinizmin tərəfdarları cəmiyyətdə prioritet rolu mədəniyyətə verirlər. Həm də mədəniyyət adı altında çox vaxt mədəni "kod" kimi izah olunan funksional ictimai ideya və dəyərləri, adət və ənənələri öz məzmununa daxil edən, hamının qəbul etdiyi simvollar və mənaların məcmusu başa düşülür.

Klassik f u n k s i o n a l i z m çərçivəsində cəmiyyətin sistem tamlığının izahı cəmiyyətin funksional vəhdəti prinsipi üzərində qurulur. Onun da əsasında belə bir fikir durur ki, sistem yalnız o şeyi yaradır, qoruyur, saxlayır və inkişaf etdirir ki, o, bu sistemin normal fəaliyyət göstərməsi üçün zəruridir. Cəmiyyət öz struktur elementlərini səbəb-nəticə əlaqələrinin müəyyən edilməsi yolu ilə deyil, funksional asılılıq əsasında, yəni sistemə bütövlükdə elə xassələrin verilməsi əsasında birləşdirir ki, ayrılıqda həmin sistemin elementlərindən heç biri bu xassələrə malik deyildir. Cəmiyyət adı altında funksionalizm həmrəy fəaliyyət göstərən insanların bütöv sistemini, sabit mövcudluğu və yenidən istehsalı funksiyaların zəruri toplusu ilə təmin olunan sistemini başa düşür.

Funksionalizmin daha parlaq nümayəndəsi kimi T. Parsonsu göstərmək olar. Parsons buna diqqət yetirir ki, sosial sistemlər öz mahiyyəti etibarı ilə açıq sistemlərdir. Bu sistemlər daim ətraf mühitlə qarşılıqlı təsirdədir, deməli, onların davamlılığı prinsiplərini yalnız sistemdaxili prosesləri tədqiq etməklə formulə etmək çətindir. Parsons öz-özünü tənzimləyən, özü-özünü yenidən istehsal edən sistem kimi cəmiyyətin dörd əsas funksiyasını fərqləndirir:

- adaptasiya funksiyası – cəmiyyətin ətraf mühitə adaptasiya olunmaq, bu mühitin dəyişmələrinə cavab vermək qabiliyyətindən ibarətdir. Lakin cəmiyyətin ətraf mühitə uyğunlaşması passiv olmamalıdır, axı bu halda cəmiyyət keyfiyyət müəyyənliyini itirir ki, bu da onun məhvinə bərabərdir;
- məqsədə nail olmaq funksiyası – istənilən sistemdə ətrafa təsir göstərməklə öz bütövlüyünü saxlamaq kimi obyektiv qabiliyyətin

---

[1] *Шилз Э.* Общество и общества: микросоциологический подход // Американская социология. М., 1972. С. 344–345.

mövcud olması;

- nümunəni saxlamaq funksiyası – sistemin özünün inkişafı gedişində meydana gələn yeni qurumları inteqrasiya etmək, onları öz məntiqinə tabe etmək qabiliyyəti;
- yenidən istehsal etmək funksiyası – sistemin öz elementlərini yenidən istehsal etmək, daxili strukturu saxlamaq qabiliyyəti.

Bu funksiyaların həyata keçirilməsini cəmiyyətin müxtəlif altsistemləri təmin edir. Adaptasiya funksiyasına görə iqtisadi altsistem, məqsədə çatmaq funksiyasına görə – siyasi altsistem, inteqrasiya funksiyasına görə – adətlər və hüquqi institutlar, yenidən istehsal etmək funksiyasına görə – etiqadlar, əxlaq altsistemləri, ailə və təhsil institutları da daxil olmaqla sosiallaşma orqanları cavabdehdir. Funksionalizm funksiyaların hamısını eyni dərəcədə əhəmiyyətli hesab edir, lakin onların yalnız dolğunluğu (bütövlüyü) və onların hər birinin öz vəzifəsini yerinə yetirməsi cəmiyyətin sabitliyini təmin edir.

Beləliklə, *cəmiyyət sosial birliklərin, onlar arasındakı əlaqə və münasibətləri tənzimləyən sosial norma və dəyərlərin sabitliyi, qarşılıqlı əlaqəsi ilə səciyyələnən mürəkkəb, daim inkişaf etməkdə olan sosial sistemdir.* Cəmiyyət – çoxlu miqdarda altsistemlərdən ibarət olan bütöv sistemdir. Cəmiyyətin və ictimai münasibətlərin subyektlərini insanlar, insan qrupları və onların institutları təşkil edir. İnsanların kollektivlərini təbii (ailə, qəbilə, xalq, sinif, millət) kollektivlərə və üzvlüyə əsaslanan (peşələr və maraqlar üzrə müxtəlif birliklər) süni kollektivlərə ayırmaq olar. Təbii kollektivlər daha çox inteqrasiya olunur, daim dəyişmə və yeniləşmədə olan süni kollektivlərə nisbətən daha möhkəm altsistemləri əmələ gətirirlər.

## 2.3. Etnik birliklər

Hər bir insan bu və ya digər etnosa mənsubdur. Bu mənsubluq çox mühümdür, belə ki, sosial məkanda insanın yerini müəyyən edir, onun özünün etnik mənsubluğu (identifikasiyası) ilə bağlı ən səmimi hisslərinə toxunur. Praktiki olaraq həyatın istənilən tərəfinə aidiyyəti olan milli-etnik münasibətlərdə istər təbii, istərsə də sosial-psixoloji keyfiyyətlər ifadə olunur, buna görə də hətta dövlət üçün etnik proseslər bir çox hallarda birincidərəcəli əhəmiyyət kəsb edir.

*Öz aralarında ümumi mənşə və uzunmüddətli birgə mövcudluqla bağlı olan insanlar qrupunu etnik birlik adlandırırlar.* Ərazi birliyi – etnosun formalaşmasının təbii müqəddəm şərtidir, lakin sonralar, etnos formalaşdıqda bu əlamət ikinci plana keçir. Dil ümumiliyi – etnosun formalaşmasının daha bir mühüm şərtidir. Lakin dil də mütləq əhəmiyyətə malik deyildir. Hər şeydən çox etnosun formalaşması üçün insanların şüurunun və davranışının sosial-psixoloji xarakteristikalarının və mənəvi mədəniyyətin (davranış dəyərləri, norma və nümunələri) vəhdəti önəmlidir.



Etnos başlıca olaraq xalqın, onun bütün əlamətlərini yenidən canlandıran etnik m ə n l i k ş ü u r u n u n vasitəsilə müəyyən olunur. Mənlik şüurunun sayəsində xalq öz vəhdətini – öz mənşəyinin ümumiliyini, bununla da öz etnik qohumluğunu dərk edir. Lakin eyni zamanda da etnik mənlik şüuru etnosa özünü başqa xalqla müqayisə etməyə kömək edir ki, bu da öz növbəsində etnos tərəfindən özünün xüsusiyyətlərinin dərk edilməsi üçün zəruri sosial-psixoloji əsas kimi çıxış edir. Əgər mənlik şüuru kimi əlaməti iştirak edirsə, onda etnos nə qədər kiçik olursa olsun, o, yox olmur, digər etnoslarla əriyib qarışmır.

B. I. İordanski mənlik şüurunun struktur elementləri kimi bir neçə əsaslı ideyaları fərqləndirir:

- etnosun ərazisi haqqında, mənşəyi haqqında, onun tarixi keçmişi haqqında təsəvvürlər;
- xalqın mənəvi sifəti haqqında, onun xarakterinin təkrarolunmazlığı haqqında təsəvvürlər. Bir çox sosioloqlar etnosun özünün xarakteri olub olmaması barədə diskussiya aparırlar. Xalq xarakterinin sezilməzliyi onun sosioloji təhlilində obyektiv mürəkkəbliklər yaradır. Xalqın xarakterinin reallığının xeyrinə olaraq bu faktı göstərirlər ki, çox vaxt eyni hissləri müxtəlif etnosların nümayəndələri özlərinin xüsusi formasında, müxtəlif şəkildə yaşayırlar.

E t n i k s t e r e o t i p l ə r – etnosu təşkil edən xalqa müəyyən xüsusiyyətlərin aid edilməsidir. Etnik stereotiplər kollektiv təcrübəni özündə cəmləşdirir, gerçək və xəyali əlamətləri əks etdirir, buna görə də həmin stereotiplər istər həqiqi, istərsə də yanlış ola bilər. Məsələn, deyirlər ki, fransızlara yumor, almanlara dəqiqlik, yaponlara təhlükə qarşısında özünü itirməmək xasdır. Lakin bu stereotiplər doğrudurmu?

Etnik stereotiplərdə bir qayda olaraq "özlərininkinə" məhəbbət, "özgələrə" mənfi münasibət ifadə olunmuşdur. Əgər qəbul etsək ki, bu cür fərqqoymanın səbəbi arxasında özünütəsdiqin xüsusi üstünlüyünün

dərki durur, onda bunu anlamaq çətin deyildir.

Etnos sosial sistem kimi fəaliyyət göstərərək, öz tərkibinə daxil olan şəxsiyyətlərə münasibətdə müəyyən sosial funksiyalar daşıyır:

- müdafiə funksiyası – etnosun tərkibinə daxil olan şəxsiyyətin maraqlarının müdafiə edilməsində və gündəlik həyatda, inam qazanılmasında, digər etnik qrupların nümayəndələri ilə ünsiyyətdə kömək göstərilməsində təzahür edir. Bu funksiya tarixi cəhətdən əhəmiyyətlidir, xüsusilə etnogenezin ilk mərhələlərində
- identifikasiya funksiyası - bu funksiya onunla bağlıdır ki, etnosun bütün üzvləri üçün ümumi olan səciyyəvi cəhətlər və xüsusiyyətlər fərdlərə və onların qruplarına psixoterapevtik təsir göstərir və məhz hazırkı etnik birliyə mənsubluq şüurunun formalaşmasına kömək edir;
- inteqrasiyaedici funksiya – bunda özünü göstərir ki, etnosun, onun ayrı-ayrı nümayəndələri tərəfindən mənimsənilən və gündəlik davranışda yenidən canlandırılan sosial xüsusiyyətləri bir dildən, bir mədəniyyətdən olan insanları vahid etnik birlik halında birləşdirir;
- sabitləşdirici funksiya – bu funksiyanın mahiyyəti ondan ibarətdir ki, fərdlərdə nəinki hazırkı etnik birlikdə kök salmaq, ona məxsus olmaq şüuru, eyni zamanda hissi formalaşır.

Etnos – hər bir konkret şəxsiyyətin formalaşdığı, inkişaf edib, fəaliyyət göstərdiyi spesifik sosial mühitdir. Eyni zamanda da etnos özü daha geniş və rəngarəng mühitdə – cəmiyyətdə fəaliyyət göstərir və inkişaf edir. Etnosun cəmiyyətdə yeri və rolu həlledici dərəcədə onun *sosial statusu ilə – mövcud etnik birliyin, onun özgə etnik qruplarla, sosial təşkilatlar və institutlarla əlaqələrini və qarşılıqlı təsirini təmin edən və cəmiyyətin sosial struktur sistemində mövqelərini müəyyən edən sosial xarakteristikalarının məcmusu ilə müəyyən edilir.* Etnosun aşağıdakı status mövqelərini də fərqləndirmək olar:

- sosial-iqtisadi mövqe – onun əsasında bütövlükdə bu etnosun və orta hesabla onun hər bir nümayəndəsinin payına düşən maddi nemətlərin məzmunu və həcmi durur. Söhbət həyat keyfiyyətinin göstəricilərindən: əmək haqqının orta səviyyəsindən, məşğulluğun və işsizliyin səviyyəsindən, mənzillə təminatdan və s.-dən gedir. Bu göstəricilərin digər etnosun müvafiq göstəriciləri ilə müqayisəsi iqtisadi bərabərlik və ya bərabərsizlik barədə fikir yürütməyə imkan verir;
- sosial-mədəni mövqe – etnosun mənəvi dəyərlərin istehsalı və istehlakı prosesində yerində və rolunda, etnosun nisbi spesifik mədəniyyətə malik olmasında, bu mədəniyyətin yaşanılan ölkənin mədəniyyətinə və dünya mədəniyyətinə töhfəsində ifadə olunur. Bir çox tədqiqatçıların rəyinə görə sosial-mədəni statusun ən mühüm göstəricisi dildir, onun cəmiyyətdə vəziyyətidir (hakim, bərabərhüquqlu, qeyri-bərabər hüquqlu, zülmə məruz vəziyyətdə olması). Məsələn, folklor, ədəbiyyat və incəsənət, din və kilsə, təhsilin və elmin mövcudluğu və inkişaf səviyyəsi və s. kimi göstəriciləri də qeyd etmək olar;



- sosial-siyasi mövqe – dövlətçiliyin və onun müəyyən formalarının (müstəqil dövlət və ya muxtariyyət) mövcudluğu və ya yoxluğu ilə səciyyələnir. Sosial-siyasi statusun təzahürlərindən biri – hakimiyyətin müxtəlif strukturlarında etnosun nümayəndəliyinin olması və dərəcəsidir;
- demoqrafik mövqe – etnosun sayı, onun yaş və ailə tərkibi, xəstələnmənin, doğumun və ölüm halının dinamikası, həmçinin etnosun nümayəndələrinin orta uzunömürlülüyü. Bu göstərici etnosun həyatının nəinki səviyyəsini və həyat tərzini, eyni zamanda da onun sosial rifahının yaxşılaşmasını və yaxud pisləşməsini səciyyələndirir;
- ekoloji mövqe – məskunlaşma ərazisinin sahəsi ilə, relyefin xarakteri ilə, iqlimlə, təbiət mühiti ilə, əhalinin məskunlaşmasının tipi ilə bağlıdır. Bu statusun mühüm göstəricisi etnosun mövcud ərazidə yaşaması müddətidir;
- hüquqi mövqe – iqtisadi, sosial-mədəni, siyasi həyatda etnosun digər etnoslarla müqayisədə bərabərhüquqluluğu və yaxud qeyri-bərabərhüquqluluğu ilə səciyyələnir. Bu göstərici etnosun sosial əhvali-ruhiyyəsini, onun nümayəndələrinin sosial səylərinin sabitliyini və yaxud, əksinə, qeyri-sabitliyini qabaqcadan müəyyən edir;
- sosial-psixoloji mövqe – etnosun həyat tərzinin təşəkkülünə təsir göstərir. Bu mövqe milli xarakter və temperamentin özünəməxsusluğunu, etnosdaxili identifikasiyanın və mənlik şüurunun xüsusiyyətlərini, ənənələri, adətləri və xasiyyətləri, aparıcı həyat oriyentasiyaları və həyat üslubunu özündə birləşdirir.

Etnosun statusu özündə nəinki müəyyən keyfiyyət daşıyır, eyni zamanda da kəmiyyət dəyişikliklərinə də malik olur, yəni cəmiyyətin iqtisadi, siyasi və mədəni həyatına təsirdən asılı olaraq yüksəlir və yaxud aşağı düşür. Aşağı etnik status etnosda psixoloji zərərçəkmə halı əmələ gətirə bilər, protest, etiraz hərəkətlərinin meydana gəlməsi üçün ilkin şərt

yarada bilər, etnosun statusunun yüksək qiymətləndirilməsi dolğunluq, etnik vüqar - qürur hissinə kömək edir.

### *Etnos referent qrup kimi*

Müasir cəmiyyətin həyatı qarşılıqlı təsir, qarşılıqlı asılılıq, qarşılıqlı nüfuzetmə prosesi ilə aşılanmışdır. Əgər bu proseslər mədəniyyət sahəsində universal beynəlxalq üslubun formalaşmasına aparırsa, iqtisadi sahədə vahid dünya təsərrüfatı yaradırlar. Etnik dəyərlər, etnik mənlik şüuru inteqral meyllərə əks keyfiyyətdə çıxış edirlər.

Sosial hüdudların, cins və yaş üzrə rol fərqlərinin silindiyi şəraitdə etnoslar referent qruplar rolunu, yəni fərdin istiqamətləndiyi və özünü şüurlu surətdə mənsub hesab etdiyi (bax: bu bölmənin 3-cü fəsli) insan birliklərinin rolunu oynamağa başlayır. Referent qrup iki funksiyanı – normativ və qiymətləndirici funksiyaları yerinə yetirir, buna görə də həmin qrupun seçimi bu qrupda qəbul edilmiş nəinki müəyyən norma və dəyərlərə oriyentasiya, eyni zamanda özünü və ətraf aləmi qrup təsəvvürləri prizmasından dərk etməsi deməkdir.

Q.Ç. Hüseynov və D.V. Draqunski etniklik barədə sosial acizlikdən, sosial zəmanətlərin yoxluğundan irəli gələn sosial çarəsizlikdən çıxış kimi bəhs edirlər: şəxsiyyətə vacibdir ki, özünü kiminləsə müqayisə etsin. Lakin şəxsiyyətin özünü eyniləşdirə biləcəyi heç kimsə yoxdur, ona özünün "tənha "Mən"ni nüfuzedici "Biz"ə çevirmək çətindir. Biz öyrədənlər, müdafiə edənlər, kömək edənlərik. Təminatsızlıq, inciklik, ümidsizlik artır".[1] Beləliklə, referentliyin itirilməsi ilə bağlı olan sosial frustrasiya etnos səviyyəsində bərpa olunur. Lakin əlavə etmək lazımdır ki, özünü bu və ya digər etnosla eyniləşdirən insanda etnomərkəzçiliyi inkişaf etdirmək olar, belə olduqda "özgələri" – digər etnosun nümayəndələri düşmənə çevirmiş olarlar.

### *Sosial stratifikasiya və etniklik*

Bu və ya digər etnosun sosial-iqtisadi və mədəni statusları onun sosial-professional strukturunun xarakteri ilə və xalqların sosial-professional tərkibinin dinamikası ilə müəyyən olunurlar.

[1] *Гусейнов Г.Ч., Драгунский Д.В.* Национальный вопрос: попытка ответа // Вопросы философии. 1989. №6. С. 43-58



Məlumdur ki, eyni bir dövlətdə yaşayan etnoslar heç də həmişə bərabərhüquqlu vəziyyətdə olmurlar. Etnososial stratifikasiya yalnız o halda meydana gəlir ki, bir etnos cəmiyyətdə digər etnosdan yüksəkdə durur və yaxud bu və ya digər cəhətdən imtiyazlı vəziyyətə malik olur. Etnososial stratifikasiyanın sayəsində sosial amillərin bu və ya digər etnosların həyat şəraitinə və statusuna təsirini müəyyən etmək olar.[1]

V.I. İlyin etnosların statuslarının bərabərsizliyinə təsir edən sosial amillərə regionlararası əmək bölgüsünü, miqrasiyanı və etnik qrupların dəyərlər sistemini aid edir. Köklü etnoslar və yaxud etnik birliklər *azsəmərəli istehsal sahələrində* məşğul olduqlarından çox vaxt etnososial "nərdivanın" aşağılarında yerləşirlər.

İlyinin apardığı empirik tədqiqatlar göstərir ki, mədəni amillər bu və ya digər etnik qrupların yüksək sosial statusa nail olmaq səylərinə fəal təsir göstərir. Bu amillərdən biri kimi həyati uğur qazanılmasına etnik mühitin doğurduğu mədəni oriyentirləri – nişangahları göstərmək olar. Məsələn, keçmiş SSRİ respublikalarında etnik mənsubluq sosial mənsəbin önəmli amilidir.

Müxtəlif etnosların nümayəndələri üçün bərabər hüquqların (mülki və siyasi hüquqların) təmin edilməsi məsələsinin həlledici əhəmiyyəti vardır. Biz yalnız vətəndaşın şəxsiyyətinin, suverenliyinin milli suverenliyə münasibətdə birinci olduğunu başa düşəcəyimiz vaxt sivilizasiyalı xalq olacağıq.

### *Etnoslararası münasibətlər*

Milli münasibətlərin subyektlərinə böyük və kiçik etnoslar (böyük etnoslara misal olaraq rus, fransız, çin xalqlarını, kiçik etnoslara misal olaraq Qafqaz xalqlarını, Şimal xalqlarını göstərmək olar), həmçinin onların nümayəndələri – müxtəlif qəbildən olan sosial qruplar, əhali təbəqələri aiddir. Bu münasibətlər etnosun inkişaf səviyyəsindən xeyli dərəcədə asılı olduğundan iqtisadi, siyasi, dil, mədəniyyət, ekoloji və s. münasibətlər şəklində təzahür edirlər.

*İqtisadi münasibətlər* millətin iqtisadi tələbatlarının təmin edilməsinə yönəldilmişdir. Bu münasibətlər xalqlar arasında istər ticarət əlaqələri sahəsində, istərsə də dövlətlərarası səviyyədə təşəkkül tapır.

[1] Вах: Социальное неравенство этнических групп: представления и реальность. М, 2002.

Müxtəlif milli qurumlar arasında təşəkkül tapmış əmək bölgüsünə əsaslanan etnoslararası münasibətlər təsərrüfat-iqtisadi əlaqələr üzərində bərqərar olur.

*Siyasi münasibətlər* – hər şeydən əvvəl çoxmillətli dövlətin bütün xalqlarının siyasi hakimiyyətin həyata keçirilməsində və taleyüklü problemlərin həllində dövlət səviyyəsində iştirak etməsi münasibətləridir. Bundan əlavə etnoslararası siyasi münasibətlər müxtəlif millətlərin nümayəndələrinin vətəndaş hüquqları və azadlıqlarının reallaşdırılmasına yönəldilmişdir. Bu münasibətlər dövlətlərarası səviyyədə də yaranırlar, nə zaman ki, söhbət dövlət müstəqilliyinə və suverenliyinə malik olan xalqlararası münasibətlərdən gedir. Siyasi münasibətlər dövlətlərarası səviyyədə də meydana gəlir

*Mənəvi münasibətlər* xalqların mənəvi mədəniyyət sahəsində qarşılıqlı surətdə bir-birini zənginləşdirmələrinə və eyni zamanda da milli özünəməxsusluğun qorunub saxlanılmasına yönəldilmişdir.

*Ekoloji münasibətlər* bu və ya digər xalqın uzun müddət yerləşdiyi ərazilərdə təbiətin mühafizəsi və təbiət resurslarının yenidən bərpası problemləri ilə şərtlənmişlər. Ekoloji situasiyanın kəskinləşdiyi müasir şəraitdə bütün xalqların, onların hər birinin milli maraqları nəzərə alınmaqla dünyanın ekoloji inkişafının səmərəli strategiyaların işlənib hazırlanmasında sıx və fəal əməkdaşlığı lazımdır.

Həmçinin yada salmaq lazımdır ki, millətlərarası münasibətlər müxtəlif millətlərdən olan insanların gündəlik ünsiyyəti prosesində şəxsiyyətlərarası səviyyədə də həyata keçirilir. Müasir sivilizasiyalı cəmiyyətin tələblərinə uyğun olaraq hər bir insanda millətlərarası ünsiyyət mədəniyyəti formalaşdırmaq lazımdır. Bu münasibətlər nəzakətliliyi, qarşılıqlı hörməti, bu və ya digər xalqın psixoloji xüsusiyyətlərini bilməyi nəzərdə tutur.

Etnoslararası münasibətlər çoxəsrlik tarix boyunca aşağıdakı proseslərin təsiri altında inkişaf etmişdir:

- əzmək prosesləri – əsarət altına alınmış xalqın genosidi ilə müşayiət olunan müharibələrdə, müstəmləkə işğallarında təcəssümünü tapır;
- dominasiya (hökmranlıq) – müəyyən etnosların hökmran vəziyyəti, başqa etnosların tabe vəziyyəti;
- rəqabətçilik – etnosun təşəkkül və inkişafının ilk vaxtlarında qarşılıqlı təsirin müəyyən tipi;



- kooperasiya (əməkdaşlıq) – çoxmillətli vahid dövlət çərçivəsində bir neçə etnosun dostcasına yanaşı yaşaması prosesi; ehtimal ki, əməkdaşlıq ziddiyyətlərin mövcudluğunu istisna etmir, lakin belə situasiyada qarşıdurma motivləri deyil, həmrəylik motivləri daha böyük əhəmiyyətə malikdir;
- etnik konsolidasiya prosesi – siyasi, iqtisadi, dil və mədəni müstəqilliyin inkişafı, milli-dövlət bütövlüyünün möhkəmləndirilməsi;
- etnoslararası inteqrasiya prosesi – müxtəlif xalqların həyatın bütün sahələrində tələbatlarının tam ödənilməsi naminə onların əməkdaşlığının genişləndirilməsi və dərinləşdirilməsi;
- assimilyasiya prosesi – öz dilini, adətlərini, ənənələrini, etnik mədəniyyətini itirmiş daha az inkişaf etmiş xalqların daha inkişaf etmiş xalqlar içərisində əriyib yoxa çıxması.

Sosioloqlar etnoslararası münasibətlərə təsir edən aşağıdakı amilləri fərqləndirirlər: t a r i x i a m i l l ə r (xalqların münasibətlərini müəyyən edən tarixi hadisələr, digər etnoslarla qarşılıqlı əlaqədə olan etnosun inkişaf xüsusiyyətləri); s i y a s i a m i l l ə r (siyasi quruluşun xarakteri və dövlətin etnik siyasəti); s o s i a l - s t r u k t u r a m i l l ə r i (etnik münasibətlərdə gərginliyin, münaqişəli vəziyyətin inkişafına təkan verir); i q t i s a d i a m i l l ə r (sosial-iqtisadi bərabərsizliyə təsir göstərir, əmək, torpaq, qiymətli kağızlar bazarında rəqabətdə ifadə olunur və sosial ədalətsizlik kimi qiymətləndirilir); s o s i a l - p s i x o l o j i a m i l l ə r (insanların mənzil, iş, təhlükəsizlik kimi baza tələbatlarını təmin etməyin mümkünsüzlüyünü bildirir).

Bu amillərdən istənilən hər hansı biri və yaxud onların məcmusu etnoslararası münaqişəyə gətirib çıxara bilər.

*Etnoslararası münaqişələr* – xalqlar (etnoslar) arasında ziddiyyətlərin son dərəcə kəskinləşməsidir; bunlar siyasi, ərazi, iqtisadi, dil, mədəniyyət, din problemlərinin həlli gedişində yaranan münaqişələrdir. Daha sərt millətlərarası münasibətlər dövlətlərarası səviyyədə baş verir.

Bu münaqişələrin başlıca səbəbi inkişafın qeyri-bərabərliyində, sosial nemətlərə nail olunmasında fərqin mövcudluğunda, bu cür və digər problemləri digərlərinin hesabına həll etmək səyində, "özgələrin"ə psixoloji nifrət göstərilməsindədir.

Çoxmillətli cəmiyyətin millətlərarası münaqişəni vaxtında, qabaqcadan görə bilmək, onu sivilizasiyalı qaydada həll edə bilmək

bacarığı – bu cəmiyyətin vətəndaşlıq yetkinliyinin və demokratizminin mühüm göstəricisidir. Cəmiyyətdə millətlərarası münasibətləri tənzimləməyin hüquqi mexanizmləri işlənib hazırlanmalıdır. Etnoslar və millətlər arasında münaqişələrin meydana gəlməsinin hər cür kortəbiiliyinə baxmayaraq, bu münaqişələri idarə etmək mümkündür. Münaqişələrin idarə edilməsi proseslərində təşkiledici, mərkəzi rol dövlətə məxsusdur. Burada nəzərdə saxlamaq lazımdır ki, etnoslararası problemlərin səmərəli həlli bütün üç idarəetmə səviyyəsinin ahəngdar fəaliyyəti nəticəsində mümkündür: 1) dövlət (federal dövlət) idarəetmə səviyyəsi (etnoslararası münasibətlərin hüquqi tənzimlənməsini təmin edir, vətəndaşlar üçün hüquqi, yuridik, sosial təminatlar yaradır, onlara əməl edilməsinə nəzarəti təmin edir); 2) regional idarəetmə səviyyəsi – (bu səviyyədə etnosların və etnik münasibətlərin inkişafının federal səviyyədə işlənib hazırlanmış proqramı reallaşdırılır, müxtəlif sosial-etnik birliklərin nümayəndələri arasında qarşılıqlı münasibətlər barədə müsbət ictimai rəy formalaşır), 3) yerli idarəetmə səviyyəsi – (yerli özünüidarəetmə sosial-etnik birliklərin nümayəndələrinin yerli xüsusiyyətlərə uyğunlaşması ilə bağlı bütün məsələləri həll edir, onlar üçün münasib mənzil şəraitini, lazımi təhsil almaq imkanını, tibbi xidməti və s. təmin edir).

Etnoslararası siyasət aşağıda göstərilən prinsipial müddəalara əsaslanmalıdır.

1. Dövlət dilinin mövcudluğu şəraitində mövcud ölkənin müxtəlif etnik qruplara mənsub olan vətəndaşlarının ünsiyyət saxlamaq istədikləri istənilən dillərin həqiqi bərabərhüquqluluğunu təmin etmək üçün real, konstitusiya ilə möhkəmləndirilmiş şəraitin yaradılması.

2. Ölkədə yaşayan bütün etnik qrupların mədəniyyətinin inkişafı üçün real imkan və şəraitin yaradılması.

3. İstənilən səviyyəli hakimiyyət strukturlarının milli azlıqların nümayəndələrinin tələb və ehtiyaclarına nəzakətli münasibəti, onlar üçün mehriban münasibət rejiminin yaradılması.

4. Milli-etnik, etnoslararası, beynəlmiləl maraqların ahəngdar surətdə uyğunlaşdırılması - birləşdirilməsi, etnik və etnikarası olanın nisbəti üçün optimal formaların axtarılıb tapılması.

5. Xalqın öz müqəddəratını təyin etməsi hüququnun, müstəqil dövlət yaratmaq hüququnun qəbul edilməsi və eyni zamanda da federasiya subyektlərinin əlaqələrinin siyasi və hüquqi çoxvariantlılığını



nəzərdə tutan federalizmin möhkəmləndirilməsi və inkişaf etdirilməsi zərurəti, onların qarşılıqlı münasibətlərinin, o cümlədən, etnik münasibətlərin rəngarəngliyi.

6. Milli-etnik suverenlik şəraitində insan hüquqlarının prioritetliyi. Bu da vətəndaşların, onların etnik mənsubiyyətinə görə hüquqi qeyri-bərabərliyini təsbit edən hüquqi norma və qaydaların qadağan edilməsini nəzərdə tutur. Bu prinsip etnik problemlərin həllində zorakılığın istənilən formalarını istisna edir. Etnoslararası münasibətlərin təkmilləşməsinin şərti – etnik özünəməxsusluq, etnik fərdilik haqqında qaydadır.

7. Etnoslararası ünsiyyətdə həssaslıq və ehtiyatlılıq, milli ekstremizmin və şovinizmin istənilən formalarının qəbul edilməməsi. Erkən uşaqlıq çağlarından milli qürur hissi tərbiyə etmək lazımdır, lakin eyni zamanda da digər xalqların dilinə, mədəniyyətinə, adət və ənənələrinə dərin hörmət hissi tərbiyə etmək, etnik tolerantlıq qayəsi formalaşdırmaq zəruridir.

Etnik münaqişə o zaman müsbət həll olunar ki, münaqişə aparan tərəflər danışıqlar prosesinə daxil olmağa hazır olsunlar. Danışıqları istənilən münaqişələrin həllinin mühüm vasitəsi adlandırırlar. Əgər milli liderlər danışıqlara başlamaq və ümumi maraqları nəzərə alaraq, onları konstruktiv aparmağı bacarırlarsa, münaqişə edən tərəflər kompromisə nail ola bilərlər.

## Testlər

1. Sosial birliyi birinci olaraq nəzərdən keçirmişdir:
   a) C. Mid;   b) F. Tyonnis;   v) R. Park.

2. T. Parsons sosial birlik adı altında başa düşürdü:
   a) "özlərinin davranış fəaliyyətinin daha çox hissəsini həyata keçirməyin əsası kimi müəyyən ərazi məkanına malik olan və fəaliyyət göstərən şəxslərin birliyini. Birlik mütləq müstəqil tam deyildir";
   b) "müəyyən vaxtda müəyyən coğrafi ərazidə yaşayan, ümumi mədəniyyətə malik olan, müəyyən sosial strukturu əmələ gətirən, ayrıca qrupun tərkibində öz vəhdət hissini təzahür etdirən insanların daxilən (funksional) əlaqəli birliyini".

3. Sosial birliklər:
   a) təbii inkişaf gedişində formalaşırlar;
   b) insanlar tərəfindən şüurlu surətdə yaradılırlar.

4. Sosial birliklərin növləri:
   a) kütləvi; b) qrup halında; v) gənclər birlikləri.

5. Cəmiyyət bu deməkdir:
   a) sabit, özünütənzimləyən, özünüistehsaledən sistemdir;
   b) sosial qarşılıqlı təsirin və sosial əlaqələrin mürəkkəb sistem təşkilidir;
   v) qarşılıqlı təsirdə olan subyektlərin birliyidir.

6. T. Parsonsa görə sistem kimi cəmiyyətin funksiyaları:
   a) adaptasiya funksiyası;
   b) tənzimləmə funksiyası;
   v) məqsədəçatma funksiyası;
   q) obrazı saxlamaq (inteqrasiya) funksiyası;
   d) yenidən istehsal funksiyası.

7. Cəmiyyətin sistem bütövlüyünün izahı metodu:
   a) determinizm; b) funksionalizm.

8. Etnik stereotiplər bunlardır:
   a) etnosu təşkil edən xalqa müəyyən cəhətlərin aid edilməsidir;
   b) sosial qrupa müəyyən cəhətlərin aid edilməsidir.

9. Etnoslararası inteqrasiya:
   a) tələbatların təmin edilməsi məqsədilə həyatın bütün sahələrində xalqların əməkdaşlığının genişləndirilməsi və dərinləşdirilməsidir;
   b) əzilən xalqların işğal olunması və onlara zülm edilməsidir.

Cavablar:

**1** – b; **2** – a; **3** – a; **4** – a, b, q, d; **5** – a, b; **6** – a, v, q, d; **7** – b; **8** – a; **9** – a.



# 3-CÜ FƏSİL. QRUPLARIN VƏ TƏŞKİLATLARIN SOSİOLOGİYASI

## 3.1. Sosial qruplar

Cəmiyyət ən müxtəlif qrupların: böyük və kiçik, real və nominal, ilkin və təkrar qrupların məcmusundan ibarətdir. Qrup insan cəmiyyətinin təməlidir və cəmiyyət özü – böyük qrupdur. Yer üzündə qrupların sayı fərdlərin sayından çoxdur, belə ki, bir insan eyni zamanda bir neçə qrupa daxil ola bilər. Alimlər sübut etmişlər ki insanın bir çox xüsusiyyətləri – abstrakt təfəkkür qabiliyyəti, nitq, dil, özintizam, mənəviyyat – qrup fəaliyyətinin yekunudur. Qrupda normalar, adətlər, ənənələr, ayinlər, mərasimlər yaranır, başqa cür deyilsə, sosial həyatın əsasları qoyulur. İnsan qrupa ehtiyac hiss edir və ondan asılıdır: insanlar yalnız birgə salamat qalırlar.

İnsan öz hərəkətlərinin səmərəliliyini artırmaq arzusu ilə münasibətlər şəbəkəsinə daxil olmağa çalışır. Bu münasibətlər şəbəkəsi insanların səylərini birləşdirərək, onlara vahid tam kimi – sosial qrup kimi çıxış etmək qabiliyyəti verir. *Ümumi sosial əlamətə malik olan, ictimai əmək və fəaliyyət bölgüsünün ümumu sistemində zəruri funksiya yerinə yetirən insanların məcmusunu sosial qrup adlandırırlar.*

Sosiologiya tarixində qrup anlayışına şəxsiyyət və cəmiyyət anlayışı ilə yanaşı artıq Aristoteldə rast gəlinir. Lakin birinci olaraq qrupa "ümumi maraq və yaxud ümumi işlə birləşmiş insanların müəyyən sayı" kimi tərif verən, həmçinin, qrupun bir necə növünü fərqləndirən T. Hobbs olmuşdur. E. Dürkheym, Q. Tard, Q. Zimmel, Ç. Kuli və b. qrup haqqında sosioloji nəzəriyyəni yaratmaq sahəsində ilk təşəbbüs etmişlər. Onların konsepsiyalarında qrup problemi ya qrup proseslərinin fərdi davranışla tutuşdurulması yolu ilə, yaxud da "özü özlüyündə" müstəqil "reallığa" malik olan nə isə "mistik qrup əlaqəsinin" qəbul edilməsi yolu ilə həll edilirdi.

R. Merton sosial qrup dedikdə özünün qrupa mənsubluğunu dərk edən və digərlərinin nöqteyi-nəzərincə bu qrupun üzvləri hesab olunan, müəyyən qaydada bir-biri ilə qarşılıqlı təsirdə olan fərdlərin məcmusunu başa düşürdü. Merton fərdlərin məcmusunun qrup hesab olunması üçün zəruri olan üç şərti, üç elementi fərqləndirirdi: qrupun üzvləri arasında

qarşılıqlı təsirin mövcud olması; qrupun hər bir üzvünün onun digər üzvləri barədə qarşılıqlı gözləmələri; kifayət qədər uzun müddət mövcud olmaları.

Sosial qrupun strukturuna həmçinin qrup prosesləri, dəyərləri, normaları və sanksiyaları daxildir. Qrup prosesləri qrupda baş verən bütün dəyişiklikləri, o cümlədən, onun inkişafını əhatə edir. Qrup dəyərləri hər bir sosial qrupun fəaliyyəti və inkişafının mühüm tənzimləyicisidir. Qrupda fəaliyyət və şəxslərarası münasibətlər hər şeydən əvvəl dəyərlilik və normativlik əsasında həyata keçirilir. Ümumi xarakterli dəyərlərlə yanaşı qrupda konkret ictimai hadisələrlə bağlı dəyərlər də iştirak edir: məsələn, əmək, təhsil, sosial fəallıq və s. ilə bağlı dəyərlər. Bu dəyərlərdən bəziləri konkret qruplar üçün həlledici dəyərlərə çevrilirlər. Qrup normaları və sanksiyaları dəyərlərdə olduğu kimi, qrupun fəaliyyətinin tənzimləyicisi kimi çıxış edirlər. Onlar arasında fərq bundan ibarətdir ki, normalar yalnız qrup dəyərlərinin, yəni qrup əhəmiyyəti olan sosial hadisələrin əsasında yaradılır və formulə edilir.

Sosial qrupların təsnifatları bir qayda olaraq həmin qrupların davamlılığını müəyyən edən əsas əlamətə söykənir. Məsələn, amerikan sosioloqu Y. Yubenk sosial qrupları təsnifatlaşdırmağa imkan verən yeddi əsas əlaməti fərqləndirmişdir: 1) etnik və yaxud irqi mənsubluq; 2) mədəni inkişaf səviyyəsi; 3) qrupun strukturunun tipləri; 4) qrupun daha geniş birliklərdə yerinə yetirdiyi vəzifələr və funksiyalar; 5) qrupun üzvləri arasında ünsiyyət əlaqələrinin üstün tipləri; 6) qruplarda əlaqələrin müxtəlif növləri; 7) digər prinsiplər.

Sosial qrupların nominal (şərti) və real qruplara bölünməsi bu qruplarda qarşılıqlı təsirin mövcud olmasından asılıdır. *Nominal qrup* öz aralarında real olaraq heç cür bağlı olmayan (yaş, cins, peşə mənsubiyyəti, elektoral meyllər və s. üzrə qruplar) insanların hər hansı bir əlamətə görə süni olaraq seçilmiş məcmusu kimi müəyyən edilir. Nominal qruplar elmi və praktik məsələlərin həlli üçün, xüsusilə əhalinin statistik uçotu üçün lazımdır.

*Real qrup* insanların real surətdə mövcud olan məcmusudur ki, burada qrupun üzvləri arasında əlaqə və münasibətlər mövcuddur və həmin qrup digər qruplarla qarşılıqlı təsirdədir. Real qrupun üzvləri özlərini dəqiq surətdə bu qrupla identifikasiya edir, qrupa mənsubluqlarını duyurlar və digər qruplardan fərqi dərk edirlər. Özündə nominal və real qrupların cəhətlərini birləşdirən həmçinin aqreqat



qruplar da mövcuddur. Bu qruplar üçün sərhədlərin silinməsi, formalaşmanın spontanlığı, qarşılıqlı təsirin qısamüddətliliyi və qeyri-davamlığı səciyyəvidir.

Cəmiyyətdə sosial qrupların meydana gəlməsi və fəaliyyət göstərməsi üçün qrup identifikasiyası effektinin, yəni bir-birinə mənsubluq hissinin böyük əhəmiyyəti vardır. *İnqruplar* (daxili qruplar) insanın onlara öz mənsubluğunu hiss etdiyi və özünü onların üzvləri ilə identifikasiya etdiyi qruplardır ("biz"). Fərdin mənsub olmadığı qruplar onun üçün *autqruplar* (xarici qrup) olacaqdır. Xarici və daxili qruplar anlayışı sərhədlərin – sosial demarkasiya xətlərinin əhəmiyyətini qeyd edir. Bu xətlər isə göstərir ki, qarşılıqlı təsir haradan başlanır və harada qurtarır. Bu xətlər "özgələrə" qrupun sahəsinə daxil olmağa imkan vermir və eyni zamanda da qrupun üzvlərini qrupda saxlayır ki, onlar rəqib qruplarla sosial qarşılıqlı təsirdə və əlaqədə olmaq imkanından istifadə etməyə meyllənməsinlər.

Hər bir fərdin davranışına ən yaxın sosial qrup tərəfindən reaksiya mühüm təsir göstərir. Ədavətin və yaxud rəğbətin ifadə olunması, yüksək müsbət qiymət verilməsi və yaxud pislənilmə, yoldaşlıq hissi – bütün bunlar fərdi davranışın mənbəyi və tənzimləyicisidir. İnsan bir qayda olaraq o davranış xəttini mənimsəməyə meyllidir ki, həmin davranış xətti onun ən yaxın ətrafı tərəfindən bəyənilir.

İnsanın davranışı çox vaxt onun daxil olmağa çalışdığı qrupun tərəfdar çıxdığı normalara uyğunlaşmağa nail olunmasına yönəldilmişdir. Davranış normaları və standartları bu qrupun özünə mütləq mənsub olmayan şəxs tərəfindən bəyənilən qruplar sosial psixologiyada *referent qruplar* kimi müəyyən olunur. "Referent qrup" termini ilk dəfə olaraq sosial psixoloq Q. Xaymen tərəfindən təklif edilmişdir. Referent qrup dedikdə o, dəyərlər və normalar sistemi fərd üçün etalon olan real və yaxud şərti sosial qrupu başa düşürdü. "Şəxsiyyət – cəmiyyət" münasibətləri sistemində referent qrupun üç mühüm funksiyası vardır: 1) status (informativ) funksiyası – bu funksiya fərddə cəmiyyətin sosial strukturunda onun yeri haqqında təsəvvürün formalaşmasına kömək edir; 2) tənzimləyici (normativ) funksiya – bu funksiya şəxsiyyət üçün cəmiyyətin, digər sosial qrupların sosial normalarını müəyyən edir; 3) dünyagörüşü (dəyərlilik - qiymətləndirmə) funksiyası. Bu funksiya insanın qayələri, dəyərləri, idealları və məqsədlərini təyin edir və psixoloji identifikasiyanın mənbəyi kimi nəzərdən keçirilə bilər. Fərdin referent qrupunu bilməklə onun sosial xarakteristikasının mahiyyəti

haqqında fikir yürütmək çətin deyildir.

Sosial qruplar kiçik və böyük sosial qruplara bölünə bilərlər:

*Kiçik qrup* – üzvlərinin ümumi fəaliyyətlə birləşdikləri və bir-biri ilə bilavasitə davamlı şəxsi ünsiyyətdə olan az saylı (iki nəfərdən bir neçə on nəfər qədər) sosial qrupdur. Onun üçün istər emosional münasibətlərin, istərsə də xüsusi qrup davranış dəyərləri və normalarının mövcud olması səciyyəvidir. Kiçik qrup şəxsiyyətin tərbiyəsində və təşəkkülündə, onun sosiallaşmasında çox böyük rol oynayır. Bu qrup bütöv bir sistem kimi hazırkı cəmiyyətdə mövcud olan ideyaların, qayələrin, dəyərlər və davranış normalarının keçiricisidir.

İnsanlar bir-biri ilə qarşılıqlı təsirdə olaraq əlaqələrin iki tipini – ekspressiv və instrumental tiplərini əmələ gətirirlər. Ekspressiv əlaqələr insanın digər insanların problemlərinin həllində emosional iştirakı ilə şərtlənir və bu zaman o, həmin insanlara münasibətdə öz üzərinə öhdəliklər götürür. İnstrumental əlaqələr dedikdə hər hansı bir məqsədə çatmaq üçün fərdlərin əməkdaşlığı prosesində yaranan sosial əlaqələri başa düşürlər. Bu əlaqə tiplərinə uyğun olaraq kiçik qrupların iki müxtəlif növünü: ilkin və təkrar növünü fərqləndirirlər. İlkin qrupa bir-biri bilavasitə, şəxsi, sıx qarşılıqlı əlaqələri olan ən azı iki fərd daxil olur (ekspressiv əlaqə). İlkin qrup anlayışını Ç. Kuli (1909) ailəyə tətbiqən daxil etmişdir. Sonralar sosioloqlar bu termini onun mahiyyətini müəyyən edən sıx şəxsi münasibətlərin formalaşmış olduğu istənilən qrupa tətbiq etməyə başlamışlar. İlkin qruplarda qarşılıqlı təsir ən az dərəcədə qazanc, mənsəb, karyera ilə bağlı sosial-rasional mülahizələrlə şərtlənmişdir. Bunların əksəriyyəti könüllü razılıq, şəxsi bağlılıq əsasında yaradılır.

İlkin qruplar – cəmiyyətdə insanlar arasında qarşılıqlı münasibətlərin əsasıdır. Birincisi, bu qruplar fərdin sosiallaşması prosesində həlledici rol oynayırlar. İkincisi, bu qruplar bizim şəxsi tələbatlarımızın çox hissəsinin təmin olunduğu mühiti təmin edirlər (belə qruplarda biz qarşılıqlı anlaşılma, məhəbbət, təhlükəsizlik hissləri, bütövlükdə əminamanlıq duyğusu yaşayırıq). Üçüncüsü, həmin qruplar sosial nəzarət üçün güclü alətdir (bu qrupların üzvləri bizim həyatımıza məna verən bir çox həyati əhəmiyyətli mühüm nemətləri öz əllərində saxlayır və bölüşdürürlər).

Təkrar qrupu hansısa konkret praktik məqsədin əldə edilməsi üçün bir yerə toplaşmış fərdlər təşkil edir. Bu fərdlərin arasında şəxssiz münasibətlər yaranır (instrumental əlaqə tipi): rasional haqq-hesab



üstünlük təşkil edir, sosial əlaqələr şəxssiz, birtərəfli və utilitar xarakter daşıyır. Bu qruplarda əsas əhəmiyyət müəyyən funksiyaları yerinə yetirmək bacarığına verilir. Təkrar qrup əsas sosial institutlarda (iqtisadi, siyasi, təhsil institutlarında) müxtəlif müəssisələrin, təsisatların, məktəblərin və s. zəminində təşkil olunur. Məhz təkrar qruplardakı münasibətlər onların fərdiyyətsizləşdirilmiş yanaşması ilə, xidməti-funksional tələbləri ilə və onların yerinə yetirilməsinə dönməz nəzarətlə birlikdə əmək əxlaqını, intizamı, məsuliyyət və müasir işçinin, vətəndaşın bir çox digər mühüm cəhətlərini formalaşdırır.

*Böyük qruplar* geniş məkanlarda səpələnmiş və vasitəli qarşılıqlı həmrəy təsirlə səciyyələnən çoxminli insanların qruplarıdır (sinfi, ərazi, milli birliklər). Bir qayda olaraq böyük qruplar kiçik qruplardan təşkil olunur. Böyük qrup mədəniyyətin əsas sosial-tipik xarakteristikalarının daşıyıcısı və qoruyucusudur. Onu kiçik qrupdan bunlar fərqləndirir: üzvlərinin böyük sayda olması, qrupun üzvləri arasında məcburi şəxsi əlaqələrin olmaması, daxili birliyin, yekdillik və mütəşəkkilliyin nisbətən az dərəcəyə malik olması.

Qrupdaxili münasibətlərin xarakterinə görə sosial qruplar formal və qeyri-formal qruplara bölünürlər. İlk dəfə olaraq bu təsnifatı amerikan sosioloqu və psixoloqu E. Meyo Xotorn eksperimentini keçirərkən (1927 – 1932) təklif etmişdir. *Formal qrupda* onun üzvlərinin statusu və qrupdaxili münasibətlər rəsmi qaydalarla reqlamentləşdirilir, qarşılıqlı təsirlər şəxssiz və funksionaldır. Belə qrupun fəaliyyət məqsədi dəqiq müəyyənləşdirilmişdir, qrupda qəbul edilmiş normalar qoyulmuş, üzvlərin bütün mövqeləri və rolları bölüşdürülmüşdür. Formal qruplara istənilən təşkilatlar mənsubdur. *Qeyri-formal* qrupda üzvlərin statusu və fəaliyyətinin məqsədi heç də həmişə dəqiq müəyyən edilmir, qarşılıqlı təsirlər şəxslərarasıdır və qarşılıqlı rəqabət, ümumi maraq və yaxud vərdiş üzərində qurulub.

Sosial qrupların öz *strukturu* vardır. Strukturun mərkəzi elementi – qrupun və onun hər bir üzvünün ictimai əmək bölgüsü sistemində, ictimai əlaqə və münasibətlər sistemində yerlərilə müəyyənləşmiş f ə a l i y y ə t i d i r. Bu fəaliyyət strukturun yerdə qalan bütün elementlərinin xarakterini, birinci növbədə, "qrupun" özünəməxsus "skeleti" olan ş ə x s l ə r a r a s ı m ü n a s i b ə t l ə r i n xarakterini müəyyən edir. Onlar fəaliyyətin ən müxtəlif formaları və növləri ilə – istər ümumqrup, istərsə də fərdi formaları ilə bağlıdırlar.

Qrupun strukturunun daha bir elementi onun üzvləri arasında

mövcud olan kommunikasiyalardır. A. Bavelasom kiçik qrupda kommunikasiyanın aşağıdakı tiplərini fərqləndirmişdir: "dairə", "ilan", "iqrek", "sükan", "mürəkkəb dairə" ("hörümçək toru"). "Dairə" və "mürəkkəb dairə" kimi kommunikasiyalardan qərarların qəbulu zamanı sosial qrupun üzvləri arasında müəyyən bərabərlik tələb edən yaradıcılıq işlərinin yerinə yetirilməsində istifadə olunur. Burada bazis lider yoxdur, əks əlaqə mövcuddur ki, burada hər bir kəs hər bir kəsdən informasiya alır. "Sükan" yalnız bütün qrup üçün və onun hər bir üzvü üçün təkbaşına idarəedici qərarlar qəbul edən lider vasitəsilə kommunikasiyanı nəzərdə tutur. Kommunikasiyaların bu üsulu mürəkkəb olmayan tapşırıqların yerinə yetirilməsində daha səmərəlidir.

Qrupun həcmi struktur komponent olmaqla qarşılıqlı əlaqələrin xarakterinə təsir göstərir. Qrup nə qədər kiçikdirsə, kommunikasiya bir o qədər intensivdir, bunun sayəsində də fərd digər insanları tanımaq və onlarla sıx əlaqə yaratmaq imkanı əldə edir. İki adamdan ibarət olan (diada) qruplar valideynlə uşaq arasında, ərlə arvad arasında münasibətlər də daxil olmaqla sıx və nüfuzlu qarşılıqlı təsirlər üçün əlverişli şərait yaradır. Diadada hisslər böyük rol oynayır ki, bu da münasibətlərin nisbətən zəif xarakterini qabaqcadan müəyyən edir: əgər qrupun iştirakçılarından biri tərəfmüqabilindən peşman olursa, onda bunlar arasında qarşılıqlı əlaqə tamamilə pozulacaqdır. Qrupa üçüncü üzvün əlavə edilməsi – triadanın yaranması – sosial situasiyanı kökündən dəyişir. Qrupun iki üzvü müəyyən vəziyyətlərdə vasitəçi və yaxud sülhyaradıcı rolu öz üzərinə götürə bilən üçüncü üzvünə qarşı birləşirlərsə, koalisiyaların yaranması mümkün olur.

Qrupun həcminin böyüməsi onun üzvlərinin davranışına təsir edir. Qrupun üzvləri səy göstərmək məcburiyyətindədirlər ki, öz hərəkətlərini əlaqələndirsinlər, onların davranışı müəyyən məqsədə tabe edilməlidir. Bu cür qrupların öz üzvlərinə təzyiqi daha güclüdür. Bu da konformizmə gətirib çıxarır. Bundan əlavə qrupun üzvləri arasında bərabərsizlik müşahidə olunur. Hər bir kəs problemlərin müzakirəsində başqaları ilə birlikdə iştirak etməyə və qərarların qəbul edilməsinə təsir göstərməyə çalışarkən daha çox çətinliklərlə rastlaşırlar.

Sosioloqlar kiçik həcmli qrupları tədqiq edərkən bu nəticəyə gəlmişlər ki, beş adamdan ibarət qrup daha optimaldır. Belə qrupda üzvlərinin tək sayda olmasının sayəsində tupik situasiyası mövcud olmur, insanlar rollarını asanlıqla dəyişə bilərlər və hər bir kəs nəticələrə formal olaraq yenidən baxılması zərurətindən yan keçərək çətin



vəziyyətdən çıxmaq imkanına malikdir.

Sosial rollar sistemi – qrupun daim dəyişməkdə olan strukturunun dinamik xarakteristikalarının biridir. İstər rolun məzmunu və istərsə də digər rollara münasibətdə əhəmiyyəti dəyişir. Həm də aparıcı rollar liderlərə məxsusdur. Lider qrupun digər hissəsinə nisbətən qrup məqsədlərinə nail olunmasında öz üzərinə daha böyük məsuliyyət götürən qrup üzvüdür. Lakin fərd müstəsna şəxsiyyət keyfiyyətlərinə malik olsa da, heç də həmişə lider olmağa qadir olmur. O insan lider ola bilər ki, onun fəaliyyəti bütövlükdə qrupun fəaliyyətinin səmərəliliyinin əhəmiyyətli dərəcədə yüksəldilməsinə gətirib çıxarsın. Kiçik qruplarda bir qayda olaraq iki lider tipini fərqləndirirlər. Bir lider tipi – "istehsalatçı mütəxəssis"dir. O, cari vəzifələrin qiymətləndirilməsi və yerinə yetirilməsi tədbirlərinin təşkili ilə məşğul olur. İkinci lider tipi – "psixoloq mütəxəssis"dir – şəxslərarası problemlərin öhdəsindən yaxşı gəlir, adamlar arasındakı gərginliyi aradan qaldırır, qrupda həmrəylik ruhunun yüksəldilməsinə kömək edir.

Təbii ki, lider qrupda onun görkəmli keyfiyyətlərini və xüsusiyyətlərini qəbul edən qrup üzvlərinin köməyi və yardımı olmadan ortaya çıxıb, fəaliyyət göstərə bilməz. Beləliklə, lider qrupun avtoritar üzvüdür, şəxsi nüfuzu ona qrupun fəaliyyətində başlıca rol oynamağa imkan verir.

Liderin nüfuzu onun işgüzar və şəxsi keyfiyyətlərinin kollektiv, qrup tərəfindən tanınması üzərində qurulur. Lakin liderin nüfuzu nəinki real (fərdin həqiqi misilsiz keyfiyyətlərinə əsaslanan), eyni zamanda, xəyali (yalnız qrupun üzvlərinin təsəvvürlərində mövcuddur) ola bilər. Lider qrupun submədəniyyətini inkişaf etdirən və dəyişdirən novator, yenilikçi kimi də çıxış edə bilər. Buna görə də o, etibar krediti əldə edir ki, bu da ona qrup normalarından bu və ya başqa dərəcədə geri çəkilməyə imkan verir. Üstəlik də lider qrupun sıravi üzvü kimi bütün qrup normalarını tam şəkildə yerinə yetirməməlidir, başqa cür olsa, o, öz nüfuzunu və son nəticədə lider statusunu itirər.

İctimai həyatın institusional formaları sistemində formal və qeyri-formal olmayan liderliyi fərqləndirirlər. Formal lider – müəyyən olunmuş qaydaya uyğun olaraq təyin olunan və yaxud seçilən liderdir. O, rəsmi rəhbər statusuna malikdir. Qeyri-formal lider sadəcə olaraq qrupun üzvü ola bilər, lakin maksimum dərəcədə tam şəkildə özünün davranışı ilə qrup dəyər və normalarına cavab verməklə, öz əhatəsi içərisində ən böyük nüfuza malik ola bilər.

Lider anlayışı K. Levinin (ABŞ, 1930-cu illər) məlum eksperimentlərindən sonra sosiologiyada geniş tətbiq olunmağa başlamışdır. K. Levi "liderlik üslubu"nu - liderin qrupa təsir üsulları sistemini öyrənib, xüsusilə qrup fəaliyyətinin səmərəliliyinə müxtəlif şəkildə təsir göstərən və aşağıda göstərilən rəhbərlik üsullarına uyğun olan üç lider tipini fərqləndirir: avtoritar lider tipi (qrupun üzvlərinin bütün hərəkətləri onun lideri tərəfindən müəyyənləşdirilir); demokratik lider tipi (bütün hərəkətlər qrup tərəfindən müəyyən olunur); anarxist lider tipi (qrup özbaşına buraxılmışdır).

Sosial qrupun strukturunda s o s i a l  m a n k i r o v k a – saymamazlıq fenomeni mövcuddur. O göstərir ki, insanlar qrupda işləyərkən daha az səy göstərirlər, nəinki müstəqil çalışdıqda. Ehtimal ki, bu, ona görə baş verir ki, qrup tapşırıqlarını yerinə yetirərkən insanlar lazımi inam – etimad hiss etmirlər və ona görə də boş yerə güc sərf etmirlər; onlar belə güman edirlər ki, kütlə içərisində bunu heç kim görməyəcəkdir. Lakin bununla belə qruplar cəmiyyətin həyatında birincidərəcəli əhəmiyyətə malikdirlər və ayrı-ayrı adamların bacara bilmədiklərinin çoxunu həyata keçirməyə qadirdirlər (məsələn, anonim alkoqoliklər qrupları və b.).

Sosial mankirovkanın səmərəsi - effekti güman etməyə imkan verir ki, qrupun həcmi ilə fərdlərin motivasiyası arasında əks asılılıq mövcuddur. S o s i a l  d i l e m m a kimi fenomen bununla sıx bağlıdır. Sosial dilemma elə bir situasiyadır ki, bu situasiyada qrupun üzvləri özlərinin şəxsi maraqlarının maksimum təmin edilməsilə kollektiv əmin-amanlığın maksimum yüksəldilməsi arasında ziddiyyətlə rastlaşırlar. Kollektivçilik ruhunda fəaliyyət göstərməyə fərdin ümumi rifaha ziyan vuran hərəkətlərini məhdudlaşdıran, sosial nəzarət mexanizmləri sövq edə bilər. Çox vaxt bu funksiyanı dövlət yerinə yetirir. Lakin başqa mexanizmlər də, xüsusilə, qrup sərhədlərini qeyd edən və qeyri-adi güclü qrup identifikasiyasının inkişafına kömək edən mexanizmlər də mövcuddur.

Hədsiz sıx əlaqələri olan qruplarda qərarların qəbul edilməsi prosesini q r u p  t ə f ə k k ü r ü adlandırırlar. Bu cür qrupların üzvlərini konsensusun saxlanılması o qədər narahat edir ki, onlar problemi tənqidi dərk etmək qabiliyyətini itirirlər. Qrup təfəkkürünün qurbanları öz işlərinin doğruluğuna sözsüz inanırlar.

Sosial qrupun üzvlərinin bütün qarşılıqlı əlaqələrini bir-birinə əks iki növə ayırmaq olar: rəqabət (yarış) və kooperasiya (hərəkətlərin



razılaşdırılması). Sosial situasiyaların əksəriyyətində insanlar birgə fayda üçün ya səylərini kooperasiya etməli, birləşdirməli, ya da bir-biri ilə rəqabət aparmalıdırlar.

*Qrupun psixoloji strukturu* – fərdi davranışın çox güclü katalizatorudur. Müvafiq qrup normalarının məzmunundan asılı olaraq qrupun psixoloji strukturu həm sosial faydalı və həm sosial pislənilən, hüquqa əks davranış normalarını aktivləşdirə bilər. Sosial proseslərin (demoqrafik, miqrasiya proseslərinin, urbanizasiya, sənayeləşdirmə proseslərinin) dinamikası bəzən sosial qruplara və birliklərə dağıdıcı təsir göstərir, onların qismən pozulmasına gətirib çıxarır. Bu sonuncu sosial qrupların nəinki xarici (formal) strukturunda, eyni zamanda onların daxili, funksional xarakteristikasında əks olunur. Qrup dəyərlərinin dağıdılması baş verir, standartlara və nümunələrə zidd olan davranış formalaşır, qrupun normativ strukturu zəifləyir. Bütün bunlar deviasiyaların artması ilə nəticələnir. Belə şəraitdə normal sosial qruplar özlərinin əsas funksiyalarını yerinə yetirə bilmirlər: fərdi ardıcıl, daxilən ziddiyyətli olmayan davranış standartları sistemi ilə, həmrəylik və qrupa mənsubluq hissi ilə təmin etməyi, sosial hörmətin və nüfuzun qaydaya salınmış dərəcələri sistemi kimi təqdim olunmağı bacarmırlar. Sosial qruplarda insanların vəhdət, onların yekdillik dərəcəsi sosial kənaraçıxmaların miqdarına tərs mütənasibdir. Əgər sosial qrupun vəhdət, birlik dərəcəsi artırsa, bu qrupun üzvlərinin davranışında kənaraçıxmaların miqdarı aşağı düşür və əksinə, davranışda kənaraçıxmaların miqdarı artırsa, bu, sosial qrupların inteqrasiyasının zəifləməsinə gətirib çıxarır.

## 3.2. Sosial təşkilatlar

İstənilən birliyin təşəkkülü kortəbii qrup özünütəşkil prosesləri ilə bağlıdır. Lakin əsas etibarı ilə qrupların strukturlaşdırılması və təşkilatlandırılması kortəbii deyil, hər hansı bir məqsədə uyğun olaraq baş verir. İnsanlar təşkil olunmuş qrupların təşkil olunmamış qruplarla müqayisədə gücünü və üstünlüyünü çoxdan dərk etmişlər. Onlar başa düşmüşlər ki, birgə təşkil olunmuş fəaliyyət daha yaxşı nəticə əldə etməyə imkan verir, buna görə də müasir cəmiyyətdə sosial qrupların xeyli hissəsi təşkilatlar şəklində mövcuddur.

"Təşkilat" ( *fransız* orqanisation sözündən olub; 1) quruluş, qurulma; 2) hər hansı bir məqsədə çatmaq üçün birləşmiş insanların,

qrupların məcmusu deməkdir) terminini müxtəlif cür şərh etmək olar:

1) cəmiyyətin sosial strukturunun elementi kimi onda müəyyən yer tutur, çox və ya az dərəcədə müəyyən edilmiş funksiyanı yerinə yetirmək məqsədi daşıyır. Bu halda sosial təşkilat məlum statusu olan sosial institutdur və avtonom obyekt kimi nəzərdən keçirilir. Bu mənada "təşkilat" sözü, məsələn, müəssisəyə, hakimiyyət orqanına, könüllü ittifaqa və s. aiddir;

2) hər hansı qrupun funksiyaların bölgüsünü, davamlı əlaqələrin qaydaya salınmasını, koordinasiyanı və s. özündə birləşdirən fəaliyyət növüdür. Burada təşkilat obyektə məqsədyönlü təsir prosesi kimi özünü göstərir ki, bu da təşkilatçının fiqurunun və təşkil olunanların heyətinin iştirakını nəzərdə tutur. "Təşkilat" anlayışı "idarəetmə" anlayışına uyğun gəlir, lakin onu tam əhatə etmir;

3) sistemin fəaliyyət göstərən elementlərinin daxili nizamlılığı, uyğunluğu dərəcəsidir. Təşkilat müəyyən məqsədə çatmaq üçün fərdləri (qrupları) birləşdirən münasibətlər sistemi kimi başa düşülür.

Bütün bu üç məna qarşılıqlı surətdə bir-biri ilə sıx bağlıdır. İstənilən təşkil olunmuş qrup (terminin üçüncü mənası) onun "təşkil olunması" nəticəsində: daxili strukturun, kommunikasiyalar sisteminin, mədəni xüsusiyyətlərin, fəaliyyət şəraitinin yaradılması həmçinin sosial rolların bölgüsü (məsələn, rəhbər, koordinator, kommunikator, icraçı rolları və s.) üzrə fəaliyyət nəticəsində əmələ gəlir. Bu qayda ilə formalaşdırılmış qrup daxili keyfiyyətə malik olacaqdır ki, bu keyfiyyət də m ü t ə ş ə k k i l l i k adlanır.

Müasir sosiologiyada təşkilata tərif verilməsinə dörd əsas yanaşma təşəkkül tapmışdır:

1. Amerikan idarəetmə nəzəriyyəsinin banisi Ç. Barnardın nöqteyi-nəzərinə görə təşkilat insanların kooperasiyasının bir növü olub, digər sosial qruplardan şüurluluqla, qabaqcadan xəbərvermə və məqsədyönlülüklə fərqlənir. [1] Barnard və onun ardıcılları əsaslı elementlər olaraq insanların birgə hərəkətlərini, artıq bundan sonra isə məqsədlərə nail olunması zərurətini nəzərdən keçirirlər.

2. C. Març və H. Saymon təşkilat dedikdə qarşılıqlı təsirdə olan fərdlərin birliyini başa düşürlər, bu birlik də cəmiyyətdə ən yayılmış hesab olunan və mərkəzi koordinəedici sistemə malik birlikdir.[2] Diffuz

---

[1] Bax: *Barnard Ch. A.* Definition of authority. N.Y., 1952. P.25–27.
[2] Bax: *March J., Simon H.* Orqanizations. N.Y., 1958. P.19.



nizamsızlığı olan, təşkil olunmamış fərdlərdən onu (təşkilatı) strukturun yüksək spesifikliyi və daxili koordinasiya fərqləndirir. Bu xarakteristikalar təşkilatı bioloji orqanizm ilə müqayisə etməyə imkan verir.

3. P. Blau və U. Skott təşkilatı rasional şəkildə qurulmuş münasibətlərin formal struktura malik və müəyyən məqsədlərin əldə edilməsinə yönəldilmiş sistemi kimi təsəvvür edirlər.[1]

4. A. Etsioni təşkilatı spesifik məqsədlərə çatmaq üçün şüurlu surətdə nəzarət olunan və rekonstruksiya edilən sosial birlik (və yaxud qrup) kimi şərh edir.[2]

Sosioloqlar bütün bu yanaşmaları təhlil edərək, təşkilatları sosial qrupların digər növlərindən fərqləndirən bir sıra cəhətləri seçmişlər:

- təşkilat üçün məqsədli məzmun səciyyəvidir, belə ki, təşkilat nə qədər mümkünsə, tez və daha səmərəli şəkildə nail olmağa çalışdığı müəyyən məqsədlərin reallaşdırılması üçün yaradılır;
- təşkilat – insanları birləşdirmək funksiyasının təmin edilməsi üçün, təkbaşına nail oluna bilməyən məqsədin əldə edilməsi üçün insanların fəaliyyətinin tənzimlənməsinin eyni vaxtda vasitəsi və alətidir;
- təşkilat ona daxil olan üzvlərin öz aralarında bir-biri ilə bağlı olan mövqeləri və rollarının mürəkkəb sistemidir. Təşkilat fərdə öz tələbatlarını, maraqlarını özünün sosial statusu hüdudlarında, təşkilatda qəbul olunmuş norma və dəyərlərə uyğun olaraq reallaşdırmağa imkan verir;
- təşkilatın müxtəlif elementlərinin fəaliyyətinə nəzarəti özünün tənzimləmə mexanizmləri və vasitələri olan idarəedici sistemaltılar həyata keçirirlər. Tənzimləmə vasitəsi olaraq xüsusi səlahiyyətləri olan institutlar tərəfindən işlənib hazırlanan institusional və yaxud təşkilatdaxili normalar böyük rol oynayır. Bu institutlar öz sanksiyalarını tətbiq edərək, normativ tələbləri həyata keçirir və reallaşdırırlar.

A.İ. Priqojin əmək bölgüsünü, funksional əlamət görə əməyin ixtisaslaşmasını təşkilatın səciyyəvi xüsusiyyəti hesab edir. Təşkilatlar, məlum olduğu kimi, şaquli və üfüqi xətlər üzrə qurulurlar. Şaquli strukturlarda idarəedici və idarəolunan sistemlər həmişə iştirak edirlər. İdarəedici sistem üfüqi strukturların fəaliyyətinin koordinasiyası ilə

---

[1] Bax: *Blau P., Scott W.* Formal orqanizations. L., 1979. P.8.
[4] *Etzioni A.* The Comprative analysis of complex orqanizations. 1961. P.45-46.

məşğuldur. Bu cür quruluş məqsədlərin vəhdətinə nail olunmasına, təşkilatın səmərəliliyinə və onun fəaliyyətinin sabitliyinə kömək edir.

Təşkilatın sosial xassələri olaraq aşağıdakıları fərqləndirirlər: a) təşkilat ictimai vəzifələrin həllinin aləti kimi, sosial məqsədlərə çatmaq vasitəsi kimi yaradılır. Bu nöqteyi-nəzərdən ön plana təşkilati məqsədlər və funksiyalar, nəticələrin səmərəliliyi, personalın motivasiyası və stimullaşdırılması və s. çəkilir; b) təşkilat – insan birliyidir, spesifik sosial mühitdir. Bu mövqedən təşkilat sosial qrupların, statusların, normaların, həmçinin liderlik münasibətlərinin, mütəşəkkillik münasibətlərinin, münaqişələrin və s. məcmusu kimi özünü göstərir.

Təşkilatın prinsipial xarakteristikalarından biri sinergiya effekti ilə (yunanca synergeia – əməkdaşlıq, birlik) – təşkilatın iştirakçılarının birgə fəaliyyətinin hesabına iştirakçıların fərdi enerjilərinin cəmi ilə müqayisədə əlavə enerjinin toplanması ilə bağlıdır. Məhz sinergiya effekti elə həvəsləndirici amildir ki, onun xatirinə təşkilatlar yaradılır.

Bu hadisəni idarə etmək, onu gücləndirmək və yaxud görkəmini dəyişdirmək olar, başqa sözlə, məcmu enerjini artırmaq, bununla da təşkilatın işinin səmərəliliyini yüksəltmək olar.

### *Təşkilatın struktur komponentləri*

İstənilən sosial təşkilatın fəaliyyəti onu təşkil edən komponentlərin qarşılıqlı təsiri ilə müəyyən olunur. Q. Levitt bu cür dörd komponenti fərqləndirir: təşkilatın məqsədləri, onun sosial strukturu, texnologiyası və heyəti.

*Təşkilatın məqsədləri* – o şeydir ki, onun xatirinə təşkilatın bütün fəaliyyəti həyata keçirilir. Məqsədi olmayan təşkilat mənasızdır, uzun bir müddətdə mövcud ola bilməz. Təşkilat şəraitində məqsəd – motivlərin, vasitələr və nəticələrin vəhdətidir. Məqsədin əsas elementləri bunlardır:

- müəyyən motiv – bir tələbat müxtəlif məqsədlərin vasitəsilə təmin olunduğu kimi, bir məqsəd də bir neçə tələbatı təmin edə bilər;
- motivin və vasitələrin birləşdirilməsi, yəni müvafiq tələbatın və yaxud qayənin təmin edilmə üsulunun qiymətləndirilməsi.

Təşkilatın fəaliyyətində məqsəd nəticə ilə eyniyyət təşkil etmir, belə ki, hətta bu məqsədə çatıldıqda belə real nəticəyə güman edilən nəticə ilə uyğunluq təşkil etməyən başqa nəticələr daxil edilir. Buna görə



də nail olunmuş məqsəd nəticənin yalnız bir hissəsi ola bilər.

Subyekt tərəfindən məqsədin seçilməsi fərdi meyllərlə, ətraf mühitin təsiri ilə, əlavə məqsədlərlə və s. ilə əsaslı şəkildə qabaqcadan müəyyən edilmiş və məhdudlaşdırılmışdır. Buna görə də məqsədgüdmə subyektin azadlığının yalnız ifadəsi deyildir.

Təşkil olunmuş fəaliyyət şəraitində məqsədlər rəngarəng funksiyalar yerinə yetirirlər: koqnitiv, bölüşdürücü, identifikasiyalaşdırıcı, motivasiyalı, yenidən dəyişdirici, katektik və yaxud emosional-simvolik, ideoloji funksiyalar.

A.İ. Priqojinin fikrincə təşkilatda fərdlərin birgə fəaliyyəti heç olmasa bir-biri ilə qarşılıqlı əlaqədə olan təşkilati məqsədlərin üç növünün mövcudluğunu güman edir (bax: Priqojin, 1995). Təşkilati məqsədləri Priqojin aşağıdakılara bölmüşdür:

- məqsədlər-tapşırıqlar (ümumi hərəkətlərin proqramları, daha yüksək səviyyəli təşkilat tərəfindən verilən və yaxud bazarın diktə etdiyi tapşırıqlar) – prioritet məqsəd-tapşırıqlardır, onlar təşkilatların məqsədli mövcudluğunu müəyyən edir, onların yerinə yetirilməsinə təşkilati prosesin istisnasız olaraq bütün iştirakçılarının diqqəti və əsas səyləri yönəldilmişdir;
- məqsədlər-oriyentasiyalar (kollektivin ümumiləşdirilmiş məqsədləri və təşkilatın hər bir üzvünün şəxsi məqsədləri) – iştirakçıların təşkilat vasitəsilə reallaşdırılan məqsədlərinin məcmusudur. Birgə fəaliyyətin mühüm məqamı məqsədlərin-tapşırıqların və məqsədlərin-oriyentasiyaların uyğun gəlməsidir;
- məqsədlər-sistemlər – təşkilatın tarazlığının, sabitliyinin və bütövlüyünün saxlanılmasına, yəni müstəqil tam kimi onun saxlanılmasına yönəldilmişdir. Məqsədlər-sistemlər təşkilatın mövcud xarici əhatə şəraitində salamat qalmağa, onun digərləri sırasında inteqrasiyasına səy göstərməsini ifadə edir.

*Təşkilatın sosial strukturu* – təşkilatın üzvləri arasında qarşılıqlı münasibətlərin tənzimlənən aspektlərinə aiddir. Müasir ədəbiyyatda məqsədli qrup kimi bu çox mühüm təşkilati komponentlə əlaqədar iki nöqteyi-nəzər mövcuddur. Bu nöqteyi-nəzərlərdən daha çox yayılmış və amerikan sosioloqu Bennisə məxsus olanına görə bəşər cəmiyyətində həmişə elə şey vardır ki, o, iki cür reallıqla adlandırıla bilər: bir tərəfdən, heç bir şeyi təcəssümləşdirməyən normativ sistem, digər tərəfdən, nə

varsa hamısını təcəssümləşdirən faktik quruluş, qayda.[1] Təşkilatın daxilində sosial qaydanı yaratmağa və qorumağa imkan verən çoxlu sayda qaydalar, qadağalar və icazələr mövcuddur. Doğrudur, təşkilatın hər bir üzvü həmin qaydalara tabe olmalıdır, lakin bütün vaxt qaydalar üzrə yaşamaq da mümkün deyildir: bizim həyatımız qaydalardan daim kənaraçıxmadır və eyni zamanda da bu qaydalara istiqamətlənmədir. Buna görə də tədqiqatçılar təşkilatın strukturunun modellərini (ideal normativ modellər) yaradırlar, sonra isə həmin modellərə uyğun olaraq, lakin konkret situasiya nəzərə alınmaqla təşkilatların üzvlərinin faktik davranışını nəzərdən keçirirlər.

Normativ struktur dəyərlərdən ibarətdir (məqsədlərin cazibədarlığının və şüurlu seçiminin, ətraf mühitin sosial normalarının qiymətləndirilməsinin meyarları). Sosial normalar – davranışı idarə edən fərdləri kollektiv məqsədlərə, təşkilatların məqsədlərinə və rol gözləmələrinə çatdıraraq dəyişən və təkmilləşən ümumiləşdirilmiş qaydalardır (davranış şablonlarıdır). Rollar təşkilatın üzvünün (həmin üzv onun təşkilatdakı vəziyyətindən asılıdır) ümumi fəaliyyətə töhfəsini, həmçinin iştirakçıların qarşılıqlı gözləmələrini onların davranışına qarşılıqlı nəzarəti müəyyən edir.

Faktik nizam – davranış strukturudur. Burada hər şeydən əvvəl təşkilat üzvlərinin şəxsi keyfiyyətləri və həmin keyfiyyətlərə onların qarşılıqlı qiymətverməleri əhəmiyyətlidir. Bütövlükdə davranış strukturu insanlar arasındakı münasibətlər sistemindən asılıdır və normativ struktur çərçivəsində durur, eyni zamanda da şəxsi hisslərin, rəğbət və maraqların təzahürü nəticəsində ondan kənara yayınır. Deməli, *təşkilat üzvlərinin müəyyən tərzdə qaydaya salınmış mövqelərinin sistemini – bir-biri ilə qarşılıqlı əlaqədə olan rolların, təşkilatın üzvləri arasında qaydaya salınmış qarşılıqlı münasibətlərin, birinci növbədə, hakimiyyətin və tabeçilik münasibətlərinin məcmusunu özündə birləşdirən sistemini sosial struktur adlandırmaq olar.*

Sosiomaşın sistemi kimi təşkilatın strukturunu üç əsas parametr səciyyələndirir: mürəkkəblik, formallaşma dərəcəsi və mərkəzləşmə. Mürəkkəblik öz növbəsində iki parametrlə: diferensiasiya və inteqrasiya ilə müəyyən olunur. Diferensiasiya təşkilatın müxtəlifliyindən, onun çoxfunksiyalılığından, nail olunan

[1] Bax: *Bennis W.* Orqanizational development nature. Origins and prospects. N.Y., 1969.



məqsədlərdəki fərqlərdən, inteqrasiya isə təşkilatın ayrı-ayrı struktur vahidlərinin qarşılıqlı bağlılıq dərəcəsindən xəbər verir. Əgər inteqrasiya xarakteri etibarı ilə müxtəlif əlaqələrə əsaslanıbsa, təşkilatın mürəkkəbliyini əhəmiyyətli dərəcədə artıra bilər.

Qrupda olduğu kimi təşkilatın sosial strukturu formal və qeyri-formal strukturların qarşılıqlı təsiri vasitəsilə (bax: hazırkı fəslin 3.1) müəyyən olunur. Onları fərqləndirməyin, bir birindən ayırmağın meyarı onlarda mövcud olan əlaqələr, qarşılıqlı təsirlər və münasibətlərin formallaşması dərəcəsidir.

Təşkilat normalarının və ayrı-ayrı struktur vahidlər arasındakı münasibətlərin sərt standartlaşdırılmasına əsaslanan formal təşkilatda kommunikasiyanın, rəhbərlərin və tabeçilikdə olanların səlahiyyətləri xətləri ciddi surətdə iyerarxikdir. Formal təşkilatın əsasını zəruri ixtisaslaşmanın nəticəsi kimi meydana gələn və statuslar – vəzifələr sistemindən ibarət olan əmək bölgüsü təşkil edir. Üfüqi kommunikasiyalar mövcud deyildir. Vəzifə statusları funksional vəzifələrin oxşarlığına uyğun olaraq müəyyən iyerarxiyaya malikdir, təşkilat bölmələri isə bir növ asılılıqlar nərdivanını əmələ gətirirlər. Bu nərdivanın da yuxarı pilləsində rəhbərlər, aşağıdakı pillələrdə tabelikdə olanlar yerləşirlər.

Formal təşkilat funksional qarşılıqlı əlaqə üçün zəruri olan işgüzar informasiyanın ötürülməsinin təmin edilməsinə köməklik göstərir. Formal təşkilat öz əsası etibarı ilə rasionaldır, çünki məqsədəuyğunluq, məlum məqsədə doğru şüurlu hərəkət prinsipindən çıxış edir. Formal təşkilat prinsipial cəhətdən şəxssizdir, öz aralarında xidməti münasibətlərdən başqa heç bir digər münasibətin nəzərdə tutulmadığı abstrakt fərdlərə hesablanmışdır. Formal təşkilat bürokratik sistemə çevrilmək kimi qabarıq ifadə olunmuş meylə malikdir.

Qeyri-formal təşkilat çox və ya az dərəcədə uzunmüddətli şəxslərarası və qrupdaxili ünsiyyətin məhsulu olan sosial əlaqələr, normalar və hərəkətlərin spontan şəkildə təşəkkül tapmış sistemidir (Priqojin, 1995. S. 73). Deməli, qeyri-formal təşkilatın əsasını şəxslərarası səviyyədə və yaxud iyerarxik formal əlaqələrə daxil edilməmiş ilkin sosial qruplar səviyyəsində həyata keçirilən sosial mübadilələr sistemi təşkil edir. Bu cür təşkilatın üzvləri statusa (öz statusuna və kollektiv statusa) və məqsədli funksiyaların yerinə yetirilməsinə deyil, şəxsi keyfiyyətlərə doğru istiqamət götürürlər. Qeyri-formal struktur iki sferadan – işgüzar əməkdaşlıq sferasından və

sosial-psixoloji şəxslərarası ünsiyyət sferasından ibarətdir. Birinci sfera aydın ifadə olunmuş işgüzar xarakter daşıyır; o, təşkilatın və yaxud onun bölmələrinin məqsədlərinə nail olunması ilə bağlıdır. İkinci sfera rəğbət və nifrət hissi əsasında, bir qrupa mənsub olmaq hissi, üstünlük hissi və yaxud, əksinə, itkiyə məruz qalmaq hissi əsasında formalaşan şəxslərarası əlaqələr üzərində qurulur. Bu cür sferanın əsasını emosiyalar və şəxsi maraqlar təşkil edir.

Strukturun m ə r k ə z l ə ş d i r i l m ə s i qərarların rəsmi qəbulu imkanlarının fərdi və yaxud qrup səviyyəsində təmərküzləşməsi dərəcəsi ilə müəyyən edilir ki, bu da öz növbəsində işçilərə onların fəaliyyətinə təsir edən qərarların qəbulunda iştirak etmək imkanı verir.[1]

Mərkəzləşdirmənin yüksək dərəcəsi qərarın "yuxarıda" tam şəkildə hazırlanması və qəbulunu, "aşağı"da ən cüzi rəddetmələr və müzakirəsiz (hətta əgər situasiya düzəliş tələb etdikdə belə) onun dəqiq icrasını nəzərdə tutur. Mərkəzləşdirilmiş strukturlarda işçilərin davranışı tabelikdə olanlarla rəhbərlərin birtərəfli asılılıq münasibətləri ilə səciyyələnir.

Müasir sosial ədəbiyyatda *təşkilati texnologiyaların* işlənib hazırlanmasına böyük diqqət yetirilmişdir. B. Kantovits təşkilatın həyat fəaliyyətini müəyyən edən bütün texnologiyaları aşağıdakı üç əsasdan birinə görə təsnifatlaşdırmağı təklif etmişdir: 1) istehsal üsuluna görə (istehsal texnologiyası); 2) texnoloji qeyri-müəyyənliyin azaldılması üçün seçilən strategiyaların növlərinə görə; 3) obyekti dəyişdirmək məqsədilə personalın ona təsirlərinə görə.

Təşkilatın mövcudluğunun mühüm komponenti və eyni zamanda şərti onun *mədəniyyətidir*: yəni yalnız mövcud təşkilata xas olan, ümumi məqsədlərə çatmaq üçün birgə fəaliyyət gedişində formalaşan ideyaların, korporativ dəyərlərin və davranış normalarının məcmusudur.

Təşkilatın əsas mədəni komplekslərinə aiddir:

- fəaliyyət-rol kompleksi – mövcud təşkilatda məhsul istehsalını tənzimləyən dəyərləri və normaları özündə birləşdirən korporativ mədəniyyətin əsas hissəsi. Bu kompleksin vəzifəsi – rol tələbləri və motivasiyalarını tənzimlənmək və onların icrasına nəzarət etməkdir;
- idarəetmə kompleksi – təşkilatda hakimiyyət, tabeçilik və nəzarət münasibətlərini tənzimləyən norma və dəyərlərin məcmusu ilə müəyyən olunur;

[1] Bax: *Emery F., Trist F.* Socio-technical systems. Penguin. 1960. P.18.



- xarici mühitlə münasibətlər kompleksi – təşkilat üçün xarici mühitlə münasib balansın yaradılmasına bilavasitə və dolayısı ilə təsir göstərən dəyərlər və normaların xüsusi məcmusudur;
- davranış kompleksi – təşkilatın fəaliyyəti ilə birbaşa bağlı olmayan normalarla və dəyərlərlə: asudə vaxtın keçirilməsi normaları ilə, əks cinsin nümayəndələri arasında münasibətlərlə və s. ilə səciyyələnir.

Təşkilatın mədəniyyəti çoxlu növlərə ayrılır.

*Korporativ mədəniyyət* təşkilatda qəbul olunmuş normalarla bağlıdır. Bu mədəniyyət çox cəhətdən onun strukturunu və struktur vahidləri arasındakı münasibətləri şərtləndirir. Bundan əlavə, korporativ mədəniyyət iyerarxiya, hakimiyyət və tabeçilik normaları olan, ayrı-ayrı struktur vahidləri arasında qarşılıqlı təsir normaları olan təşkilatın strukturunun formalaşmasına kömək edir.

*Klub mədəniyyəti və yaxud "hörümçək toru" mədəniyyəti* – bir rəhbərin və yaxud liderin göstərişlərinə istiqamətləndirilmiş normalarla təqdim edilmişdir. Burada ali rəhbər ("hörümçək") tərəfindən müəyyənləşdirilən hakimiyyət xətləri və sanki dairələrlə sistemin mərkəzindən çıxan hakimiyyət xətləri mühüm əhəmiyyətə malikdir. Münasibətlər əsas etibarı ilə yoxlamalar üzərində deyil, etibar, inam üzərində qurulur, buna görə də nəzarətin həyata keçirilməsinə ayrılan xərclər ən azdır, minimum həddindədir.

*Məbəd mədəniyyəti* öz fəaliyyətini rol tələblərinin dəqiq fərqləndirilməsi üzərində quran rol mədəniyyəti ilə müəyyən edilir. Məbəd mədəniyyətinin strukturunu sxematik olaraq bir sıra sütunlar şəklində təsəvvür etmək olar. Bu "sütunlar" nisbətən avtonom şəkildə mövcuddur və təşkilatın "damı" altında birləşirlər. Funksiyaların və bölmələrin "yuxarı" hissəsini ali idarəedici orqan təşkil edir. Bütün elementlərinin sərt qaydalarla və prosedurlarla bağlı olduğu məbəd mədəniyyəti bürokratik təşkilat üçün tipikdir.

*Məqsədli mədəniyyət* üçün problemin uzunmüddətli həlli, onun müəyyənləşdirilməsi, lazımi resursların axtarılmasıdır. Bu cür mədəniyyətdə işçilərin fəaliyyətinin qiymətləndirilməsi əldə edilmiş nəticələrdən asılıdır, onun idarə olunmasını isə sxematik olaraq şəbəkə şəklində təsəvvür etmək olar. Resurslar təşkilatın müxtəlif hissələrindən toplanaraq "şəbəkənin" (problemin) müəyyən düyünündə fokuslaşır, bütün hakimiyyət isə onun "nüvəsində" ("özəklərində") cəmləşmişdir. Məqsədli mədəniyyətin normaları və dəyərlərinin əsasında ruh

yüksəkliyi və yaradıcılıq, baxışların təzəliyi və qərarların gözəlliyi durur. Bu mədəniyyət, məsələn, analitik mərkəzlər, reklam agentlikləri və s. üçün səciyyəvidir.

*Nöqtə mədəniyyəti* olan təşkilatların fəaliyyəti fərdin məqsədlərinə nail olunmasında ona kömək göstərilməsinə əsaslanmışdır. Bu mədəniyyət yüksək peşəkarlar üçün, "azad peşə" adamları üçün, özünün fərdiliyini və azadlığını saxlamaq istəyən, özünün xarici əhatədən asılı olmaması hissi ilə yaşayan insanlar üçün səciyyəvidir.

Təşkilatın işinin səmərəliliyi və sinergiya effektinə nail olunması hər bir üzvdən onun strukturuna, kommunikativ əlaqələr sisteminə, texnoloji və sosial proseslərə tam daxil olmağı tələb edir.

İstənilən təşkilat həmişə özünə sual verir, *personal* necə olmalıdır, şəxsiyyətin hansı xarakteristikalarına xüsusi diqqət yetirmək məqsədəuyğundur. Kadrların seçilməsi və yerləşdirilməsi zamanı yadda saxlamaq lazımdır ki, birincisi, şəxsiyyət mürəkkəb hadisədir, müəyyən bütövlükdür; onun başa düşülməsi üçün qarşılıqlı surətdə bir-biri ilə bağlı olan xarakteristikalar kompleksini nəzərə almaq zəruridir; şəxsiyyətin davranışı müxtəlif situasiyalarda eyni deyildir, ona görə də sadə, adi qiymətləndirmələr burada yaramır.

Təşkilat müəyyən məqsədlərə o zaman nail olur ki, rəhbərlik bütün personalın səmərəli fəaliyyətini təmin edə bilir. Bu, əməkdaşların nəinki funksional yüklənməsini göstərir, eyni zamanda onların motivasiyasına müsbət təsir göstərən şəraitin yaradılması deməkdir. Motivasiyanı təhlil etməklə və öyrənməklə başa düşmək olar ki, insanları işləməyə vadar edən nədir, fəaliyyət üsulunu seçməyə onlara nə təsir edir və nə üçün onlar müəyyən vaxt ərzində məhz ona əməl edirlər.

## 3.3. Motivasiya nəzəriyyələri

Motivasiya altı ardıcıl mərhələdən ibarət prosesdir: 1) tələbatların yaranması, 2) dominant tələbatların fərqləndirilməsi, 3) dominant tələbatların reallaşdırılması üzrə hərəkətlərin istiqamətinin müəyyən edilməsi, 4) dominant tələbatların reallaşdırılması üzrə hərəkətin həyata keçirilməsi, 5) mükafat almaq üçün hərəkətin həyata keçirilməsi, 6) yeni tələbatların müəyyənləşdirilməsi.

Motivasiya fenomeninin öyrənilməsi iki qrup nəzəriyyənin – motivasiyanın məzmununa dair nəzəriyyələrin və motivasiya prosesinə dair nəzəriyyələrin yaradılması ilə nəticələnmişdir.



### *Motivasiyanın məzmununa dair nəzəriyyələr*

Bu qrup nəzəriyyələr motivasiyanın amillərini tədqiq edirlər. Alimlər tələbatları və onların motivasiyaya təsirini təhlil edərək, belə bir suala cavab verməyə çalışırlar ki, insanın daxilində onu fəaliyyətə sövq edən nədir.

Ən tanınmış nəzəriyyə A.X. Maslou tərəfindən işlənib hazırlanmış *tələbatların iyerarxiyası nəzəriyyəsidir*. Bu nəzəriyyənin əsas ideyaları və ilkin şərtləri aşağıdakı müddəalardan ibarətdir:

- İnsanlar daim hansısa tələbatlara ehtiyac hiss edirlər.
- İnsanlar ayrı-ayrı qruplarda birləşə biləcək güclü surətdə ifadə olunmuş tələbatların müəyyən toplusuna malik olurlar.
- Tələbatların qrupları bir-birinə münasibətə görə iyerarxiya qaydasında yerləşirlər.
- Təmin edilməmiş tələbatlar insanı hərəkətlərə sövq edir. Təmin edilmiş tələbatlar insanlar üçün motivasiya təşkil etmirlər.
- Təmin edilmiş tələbatın yerini digər tələbat, təmin edilməmiş tələbat tutur.
- İnsan eyni zamanda öz aralarında kompleks qarşılıqlı təsirdə olan bir neçə müxtəlif tələbatlara malik ola bilər.
- "Piramidanın" əsasına yaxın olan tələbatlar birincidərəcəli təmin olunma tələb edir.
- Daha aşağı səviyyəli tələbatlar ödənildikdən sonra insana daha yüksək səviyyəli tələbatlar aktiv surətdə təsir etməyə başlayır.
- Daha yüksək səviyyəli tələbatlar aşağı səviyyəli tələbatlara nisbətən daha çox miqdarda üsullarla təmin oluna bilərlər.

Maslou beş qrup tələbat seçir:

1. Fizioloji tələbatlar – insanın fiziologiyasından meydana gəlmişdir; onların təmin edilməsi orqanizmi fəal canlı vəziyyətdə saxlamağa imkan verir (qida, su, hava, sığınacaq və b.). Motivasiyası yalnız bu tələbatlarla məhdudlaşdırılmış insanları idarə etmək üçün lazımdır ki, əməkhaqqı minimumu salamat qalmanı təmin edə bilsin, iş şəraiti isə onların həyatını o qədər də ağırlaşdırmasın.

2. Təhlükəsizlik tələbatları – insanların sabit və təhlükəsiz vəziyyətdə olmaq, yəni qorxudan, ağrıdan, xəstəliklərdən və digər iztirablardan qorunmaq səyləri və istəkləri ilə müəyyən olunur. Bu cür insanların idarə olunması aydın və ədalətli qaydalar üzrə fəaliyyət

göstərən etibarlı sosial sığorta sisteminin yaradılmasını özündə birləşdirməlidir. Əgər gəlir yaşayış səviyyəsindən yuxarıdırsa, onda bu insanları riskli qərarlar qəbul edilməsinə, risklə və dəyişikliklərlə bağlı hərəkətləri həyata keçirməyə cəlb etmək məsləhət deyildir.

3. Mənsubluq və bağlılıq tələbatları – bu tələbatlar qrupunu birgə hərəkətlərə, dostluğa, məhəbbətə səylər, hansısa birliklərin üzvü olmaq, ictimai tədbirlərdə iştirak etmək səyləri və s. təşkil edir. İdarəetmə dostcasına tərəfmüqabillik xarakteri daşımalıdır, bu cür adamlar üçün işdə olarkən ünsiyyət üçün şərait yaratmaq lazımdır.

4. Tanınmaq və özünütəsdiq tələbatları – insanların səlahiyyətli olmaq, güclü olmaq, qabiliyyətli, özünə inamlı olmaq istəyi ilə, həmçinin insanların ətrafdakıların onları bu cür tanımaq və buna görə də onlara hörmət etmək arzuları ilə müəyyən olunur. İnsanları idarə edərkən onların xidmətlərinin tanınması üçün müxtəlif ifadə formalarından istifadə etmək lazımdır.

5. Özünüifadə tələbatları – insanın biliklərdən, qabiliyyətlərdən və vərdişlərdən daha dolğun şəkildə istifadə edilməsinə səy göstərməsində öz ifadəsini tapır. Bu tələbatlar daha artıq dərəcədə fərdi xarakter daşıyır. İnsanların idarə edilməsi onlara bacarıq və qabiliyyətlərini reallaşdırmağa, zirəklik və yaradıcılıq tələb edən işi yerinə yetirməyə imkan verən orijinal tapşırıqlardan ibarətdir.

Maslounun nəzəriyyəsi bu və ya digər tələbatların təbiətini aydınlaşdırmır, bu tələbatların insanın fəaliyyət motivasiyasına necə təsir etdiyini; tələbatların motivasiyaya təsirinin müəyyən dinamikasını bilməklə, insana öz tələbatlarını təmin etmək üçün müəyyən imkanlar verməklə təsir etməyin mümkün olduğunu göstərməyə çalışır.

*ERG nəzəriyyəsinin* müəllifi K. Alfred də həmçinin insanın bütün tələbatlarını qruplar halında birləşdirir. Lakin Maslouдан fərqli olaraq Alfred belə hesab edir ki, bu cür tələbatlar qrupu yalnız üçdür: mövcudluq tələbatları, əlaqə tələbatları, inkişaf tələbatları.

Mövcudluq tələbatlarına Maslou tərəfindən fərqləndirilmiş iki qrup tələbatlar: təhlükəsizlik tələbatları və fizioloji tələbatlar daxildir. Əlaqə tələbatları mənsubluq və iştirak tələbatları ilə açıq şəkildə uyğun gəlir. Tələbatların bu qrupu insanın sosial təbiətini, onun ailənin üzvü olmaq, həmkarlara, dostlara, düşmənlərə, rəis və tabeçilikdə olanlara malik olmaq səyini ifadə edir. Buna görə də Alfred bu qrupa Maslounun fərqləndirdiyi tələbatların bir hissəsini – tanınmaq və özünütəsdiq tələbatını və qrup təhlükəsizliyi tələbatını aid edir. İnkişaf, artım



tələbatları Maslou piramidasının özünüifadə tələbatları ilə oxşardır və həmçinin inamlılığın inkişafına, özünütəkmilləşdirməyə və s. səy göstərilməsi ilə bağlı olan tanınma və özünütəsdiq tələbatlarını da özünə daxil edir.

Alfredin fikrinə görə tələbatdan tələbata doğru hərəkət hər iki tərəfə doğru baş verir: əgər aşağı səviyyəli tələbat təmin edilmirsə, yuxarıya hərəkət və daha yüksək səviyyəli tələbat təmin edilmirsə, aşağıya doğru hərəkət. Yuxarı səviyyəli tələbat təmin edilmədikdə daha aşağı səviyyəli tələbatın təsiri güclənir, o da insanın diqqətini bu səviyyəyə yönəldir.

Tələbatların səviyyələrinə görə yuxarıya doğru hərəkət prosesini Alfred tələbatların təmin edilməsi prosesi adlandırır, aşağıya doğru hərəkət prosesini isə frustrasiya, yəni tələbatı ödəməyə çalışarkən məğlubiyyətə uğramaq prosesi adlandırır.

X.M. Maklyuenin *qazanılmış tələbatlar nəzəriyyəsi* nail olmaq, müştərək iştirak tələbatlarının və hökmranlıq etmək tələbatının təsirinin öyrənilməsinə əsaslanır. Maklyuenə görə bu tələbatlar həyati vəziyyətlərin, təcrübənin, təlimin təsiri altında qazanılmış tələbatlar hesab olunurlar.

Nail olmaq tələbatı insanın öz qarşısında duran məqsədə əvvəllər etdiyinə nisbətən daha səmərəli nail olmaq səyi ilə müəyyən olunur. Qabarıq şəkildə ifadə olunmuş nail olmaq tələbatına malik insanlar az riskli qərarlar qəbul edirlər və bu qərarlardan təcili nəticə gözləyirlər. Bu cür adamlar girişdikləri vəzifələrə mübtəla olurlar, qərarlar qəbul etmək və bu qərarlara cavab vermək onların xoşuna gəlir. Lakin təcili, aydın və hiss olunan nəticəsi olmayan işlə məşğul olmaq onlara çətindir. Qeyd etmək lazımdır ki, onların işinin keyfiyyəti və nəticəsi labüd deyildir ki, ən yüksək olsun, lakin birgə əldə edilmiş nəticə onları daha az təmin edir.

Maklyuen bəyan edir ki, bu tələbat nəinki insana, eyni zamanda ayrıca götürülmüş cəmiyyətə xasdır. Nail olmaq tələbatı yüksək olan cəmiyyətlər adətən dinamik inkişaf edən iqtisadiyyata malik olurlar.

Müştərək iştirak tələbatı ətrafdakılarla dostluq münasibətlərinə səy göstərilməsilə xarakterizə olunur. Bu cür adamlar üçün belə fakt əhəmiyyətlidir ki, onlar kiməsə lazımdır, onların dostları və həmkarları onlara və onların hərəkətlərinə biganə deyillər.

Hökmranlıq etmək tələbatı insanın resurslara və onun əhatəsində baş verən proseslərə nəzarət etmək səyinə əsaslanır. Qabarıq ifadə olunmuş hökmranlıq tələbatına malik insanlar ətrafdakıların hərəkətlərinə və davranışına nəzarət etməyə, onlara təsir göstərməyə,

digər insanların hərəkət və davranışı üçün məsuliyyəti öz üzərlərinə götürməyə çalışırlar.

Maklyuenin konsepsiyasında nail olmaq, müştərək iştirakçı olmaq, *hökmranlıq etmək tələbatları bir-birini istisna etmirlər və iyerarxik* qaydada yerləşməmişlər. Üstəlik də bu tələbatların insanın davranışına təsiri onların bir-birinə təsirindən asılıdır.

*İki amil nəzəriyyəsinin* müəllifi F.Hertsberq bu nəticəyə gəlmişdi ki, təmin olunmamaqlığın əldə edilməsi prosesi və təmin olunmamaqlığın artması prosesi onları şərtləndirən amillər nöqteyi-nəzərindən iki müxtəlif prosesdir. O göstərir ki, təmin olunmamaqlığın artmasını doğuran amillər hətta onlar aradan qalxdıqda belə heç də labüd surətdə təminatlılığın çoxalmasına gətirib çıxarmır və əksinə, təminatlılığın artmasına kömək edən amilin təsiri zəiflədikdə belə heç cür təminatsızlığın artması baş vermir.

Hertsberqin fikrinə görə "təmin olunanlıq – təminatlılığın olmaması" prosesi əsasən iki qrup amildən – daxili və xarici amillərdən asılıdır. Daxili amillər işin məzmunu ilə bağlıdır. Bu amillərin mövcud olmaması güclü təminatsızlıq yaratmır. Hertsberq artım tələbatlarını (nailiyyət, tanınılma, məsuliyyət, irəliyə getmək və s.) nəzərdə tutan motivləşdirici amillərdən fərqli olaraq onları "təminedicilər" adlandırmışdır.

Xarici amillər əsas etibarı ilə işin həyata keçirildiyi ətrafla bağlıdır. Bu amillər motivləşdirici rola malik deyillər və sanki "ağrının", "iztirabın" aradan qaldırılması ilə bağlıdır (əmək haqqı, iş yerində təhlükəsizlik, status, qaydalar, nizam və s.).

Hertsberqin konsepsiyası göstərir ki, əgər işçi təminatsızlıq hissi keçirirsə, menecer hər şeydən əvvəl aydınlaşdırmalıdır ki, bu təminatsızlığı hansı amillər doğurur və bu təminatsızlığı aradan qaldırmaq üçün nə etməlidir və yalnız bundan sonra diqqəti motivləşdirici amillərin hərəkətə gətirilməsi üzərində cəmləşdirməlidir.

## *Motivasiya prosesinə dair nəzəriyyələr*

Bu nəzəriyyələr onu göstərir ki, motivasiya prosesi necə qurulur və insanları nəticələrin əldə edilməsinə necə sövq etməlidir. Motivasiyaya dair ən ümumi konsepsiya aşağıdakından ibarətdir. İnsan nəticələri və onların əldə edilməsi üçün mümkün olacaq mükafatı dərk edib, bu informasiyanı öz tələbatları ilə, motivasiya strukturu və imkanlarla



müqayisə edir, özünü müəyyən davranışa meyllendirir, müəyyən keyfiyyət və kəmiyyət parametrləri ilə səciyyələnən konkret nəticəyə gətirib çıxaran hərəkətləri həyata keçirir.

*Gözləmə nəzəriyyəsi* belə bir suala cavab verir ki, insan nə üçün bir neçə alternativlərlə rastlaşarkən bu və ya digər seçimi edir və insan edilmiş seçimə uyğun olaraq nəticəni əldə etmək üçün nə qədər motivə malikdir. Bu nəzəriyyənin əsasında K. Levinin ideyaları durur, lakin gözləmə konsepsiyalarının özünün tədqiqatçıları olaraq V. Vrumun, L. Porterin və E. Loulerin adlarını çəkmək olar.

Gözləmə nəzəriyyəsinə görə motivasiya prosesi üç blokun: səy göstərilməsi, icra və nəticənin qarşılıqlı təsirindən təşəkkül tapır. Səy göstərilməsi motivasiyanın törəməsi və hətta nəticəsi kimi nəzərdən keçirilir. İcra – səylərin, şəxsi imkanların və mühitin vəziyyətinin qarşılıqlı təsirinin yekunudur, nəticə isə – icradan və müəyyən tipli nəticələri əldə etmək arzusunun yerinə yetirilməsindən və onun dərəcəsindən asılı olan funksiyadır.

Gözləmə nəzəriyyəsində nəticə iki səviyyədə nəzərdən keçirilir. Birinci səviyyədən olan nəticələr – əslində işin yerinə yetirilməsinin, hərəkətlərin həyata keçirilməsinin nəticələridir. Bu nəticələr istehsal olunmuş məhsulun keyfiyyət və kəmiyyətində, sərf edilmiş vaxtın həcmində və s. əks olunur. İkinci səviyyədən olan nəticələr – insan o gözləntilərdir ki, onlar birinci səviyyədəki nəticələrdən irəli gəlir, yəni mümkün ola biləcək mükafat və ya cəzalandırmadır.

Konkret nəticəni arzulamağın dərəcəsi, nəticənin cazibədarlığı və yaxud, əksinə, cazibədarsızlıq dərəcəsi valentlik adlanır. Valentlik insan üçün bu və ya digər nəticələrin prioritetliyinin inikasıdır, təzahürüdür.

Əgər insan nəticəni yüksək qiymətləndirirsə, onda bu nəticə yüksək valentliyə malikdir. Əgər nəticə inkar edilirsə, onda valentlik də mənfi olacaqdır. Nəticəyə biganə münasibət bəslənildiyi halda isə biz sıfır valentliyə malik olacağıq.

Gözləmə – hərəkətlərinin müəyyən nəticəyə nə dərəcədə gətirib çıxaracağı haqqında insanın təsəvvürünün inikasıdır. Gözləmənin qiymətləndirilməsi 0-dan 1-cən olan diapozonda müxtəlif şəkil alır. Əgər insan hesab edirsə ki, nəticə və icra tam şəkildə onun səylərindən asılıdır, onda gözləmə 0-a bərabərdir, əgər onun səylərindən asılı deyildirsə, 1-ə bərabərdir.

Gözləmə nəzəriyyəsinin aşağıdakı əsas müddəalarını fərqləndirirlər:

1. Çıxış postulatı buna əsaslanmışdır ki, icra iki amilin: insanın imkanının və onun motivasiyasının qiymətlərinin vurma hasilidir.

2. Motivasiya birinci səviyyədən olan nəticələrin gözlənilməsi kəmiyyətinin birinci səviyyəli valentliyin kəmiyyətinə vurma hasili ilə müəyyən edilir.

3. Birinci səviyyədən olan nəticələrin valentliyi ikinci səviyyədən olan nəticələrin valentliyi kəmiyyətinin ikinci dərəcədən olan ayrı-ayrı nəticələrin gözlənilməsinə vurulma hasili ilə meydana çıxır. İnsan motivasiyası yüksək olan alternativi seçir.

Gözləmə nəzəriyyəsinə görə motivləşdirmə prosesini həyata keçirmək üçün iki ilkin şərtin yerinə yetirilməsi zəruridir: 1) işçidə birinci səviyyədən olan nəticələri gözləməsinin kifayət qədər yüksək dərəcədə mövcud olması; 2) ikinci səviyyədən olan nəticələrin kifayət qədər yüksək dərəcəli olması və ikinci səviyyədən olan nəticələrin mənfi olmayan məcmu valentliyi. İstehsalatda bu, işçinin belə bir təsəvvüründə öz ifadəsini tapır ki, onun əməyinin nəticələri onun səylərindən asılıdır, onun əməyinin nəticələrindən onun üçün müəyyən fayda irəli gəlir, yekunda onun əldə etdiyi nəticələr onun üçün dəyərdir.

*Məqsədlərin qoyuluşu nəzəriyyəsi* buna əsaslanır ki, insanın davranışı onun öz qarşısında qoymuş olduğu məqsədlərdən asılıdır, çünki o, qarşısında qoyduğu məqsədlərə nail olmağın xatirinə fəaliyyət göstərir. Bu halda nəzərdə tutulur ki, məqsədlərin qoyuluşu şüurlu prosesdir, dərk edilmiş məqsədlər və ölçülər isə insanın davranışını müəyyən edən şərtlərdir. Bu nəzəriyyənin köklərini F. Teylorun əsərlərində tapmaq olar, lakin onun aparıcı tədqiqatçısı E. Lokdur. Məqsədlərin qoyuluşu prosesini təsvir edən bazis modeli ümumi şəkildə aşağıdakı qaydada özünü göstərir. İnsan emosional şəkildə reaksiya bildirərək, ətrafında baş verən hadisələri dərk edir və qiymətləndirir. Bunun əsasında insan qarşısında elə məqsədlər qoyur ki, onlara nail olmaq üçün səy göstərmək niyyətindədir və qarşıda qoyulmuş məqsədlərdən çıxış edərək, müəyyən hərəkətləri həyata keçirir. Yəni özünü müəyyən qaydada aparır, müəyyən nəticəyə nail olur və bundan ləzzət alır, məmnunluq duyur.

Məqsədlərin qoyuluşu nəzəriyyəsi bundan çıxış edir ki, işin icrası səviyyəsi məqsədlərin dörd xarakteristikasından: mürəkkəblik, spesifiklik, münasiblik, bağlılıq xarakteristikalarından bilavasitə və yaxud bilvasitə önəmli dərəcədə asılıdır.

Məqsədin mürəkkəbliyi peşəkarlığın dərəcəsilə və icranın



səviyyəsi ilə müəyyən olunur. Spesifiklik məqsədin kəmiyyət aydınlığının, onun dəqiqliyinin və müəyyənliyinin inikasıdır. Münasiblik elə bir dərəcəni müəyyən edir ki, insan bu dərəcəyə qədər məqsədi özünün məqsədi kimi dərk edir. Məqsədə bağlılıq məqsədə nail olmaq üçün müəyyən səviyyəli səy göstərməyə hazır olmaq deməkdir.

Məqsədlərin qoyuluşu nəzəriyyəsi icranın məqsədlərdən asılı olduğunu nəzərdən keçirərkən təsdiq edir ki, icranın keyfiyyəti nəinki işçinin məqsədlə müəyyən olunan səyləri ilə, eyni zamanda iki qrup amillərlə: işçinin təşkilati amillər ilə və bacarıqları ilə bağlıdır. Burada amillərin bu qrupları nəinki icranın keyfiyyətinə və məzmununa, eyni zamanda məqsədlərə təsir göstərir. Beləliklə, bu amillər motivasiyaya vasitəli şəkildə təsir göstərir və deməli, icranı stimullaşdırır.

Məqsədin qoyuluşu nəzəriyyəsində motivasiya prosesində sonuncu addım kimi nəticənin işçini təmin etməsini göstərirlər. Bu addım motivasiya prosesinin zəncirini nəinki başa çatdırır, eyni zamanda motivasiyanın sonrakı sikli üçün çıxış nöqtəsi rolunu oynayır.

S. Adams tərəfindən işlənib hazırlanmış *bərabərlik nəzəriyyəsinin* əsas ideyası iş prosesində insanın öz hərəkətlərinə verdiyi qiymətin başqalarının bu hərəkətlərə verdikləri qiymətlə müqayisəsindən ibarətdir. İnsanın özünün müqayisəli qiymətləndirməsindən razı qalıb qalmamasından asılı olaraq o, öz davranışını dəyişdirir.

Bərabərlik nəzəriyyəsi aşağıdakı əsas kateqoriyalardan istifadə edir: fərd (təşkilatın insanın hərəkətlərinə ədalətlilik və ədalətsizlik mövqeyindən verdiyi qiyməti nəzərdən keçirən insan), müqayisə olunan şəxslər (hərəkətlərinə verilən qiymətin fərdin öz hərəkətlərinə verdiyi qiymətlə müqayisə etdiyi ayrı-ayrı şəxslər və insan qrupları), fərdin düşünülmüş mükafatlandırılması (fəaliyyətinin ayrı-ayrı nəticələrinə görə fərdin aldığı mükafatların birləşdirilmiş cəmi), başqalarının düşünülmüş mükafatlandırılması (fərdin təsəvvüründə müqayisə olunan şəxslər tərəfindən alınan bütün mükafatların cəmi), fərdin düşünülmüş xərcləri (insan tərəfindən hərəkətlərin həyata keçirilməsi və nəticənin əldə edilməsi üçün nə etdiyinin qavranılması), düşünülmüş xərcləri (fərdin xərclərin, başqalarının xidmətinin məcmu kəmiyyəti haqqında təsəvvürü), norma (başa düşülən xərclərin başa düşülən mükafatlandırmaya münasibəti).

*Partisipativ idarəetmə nəzəriyyəsi* belə bir müddəadan çıxış edir ki, həmin müddəaya görə insanın təşkilatdaxili fəaliyyətində maraqlı olmağından onun işdən razı qalması, işin onu təmin etməsi asılıdır, – o,

böyük səmərə ilə, daha yaxşı, daha keyfiyyətlə və məhsuldar işləyir. Belə hesab edirlər ki, partisipativ idarəetmə insanın təşkilatda fəaliyyəti ilə bağlı olan məsələlər üzrə qərar qəbul edilməsi üçün yol açır və bununla da insana öz işini daha yaxşı yerinə yetirməsi üçün motiv verir, həvəsləndirir, daha böyük uğura gətirib çıxarır, ayrıca işçinin təşkilatın həyatına daha böyük töhfə verməsilə nəticələnir. Beləliklə, partisipativ idarəetmə təşkilatın insan ehtiyatları potensialından daha tam istifadə edilməsinə kömək edir. Təşkilat üzvlərinin motivasiyasında onun rəhbərləri son dərəcə mühüm rol oynayırlar. Motivasiyaya yanaşmanın düzgün seçilməsi və bu istiqamətdə əməli tədbirlərin bacarıqla əlaqələndirilməsi əmək məhsuldarlığını nəinki artırır, eyni zamanda rəhbərin nüfuzunu yüksəldir.

### Testlər

1. Sosial qrup:
   a) ümumi sosial əlamətə malik olan və cəmiyyətin ümumi strukturunda ictimai zəruri funksiyanı yerinə yetirən insanların məcmusudur;
   b) ümumi məqsədlə birləşmiş insanların məcmusudur.

2. R.Mertona görə sosial qrupun əlamətləri:
   a) qrupun üzvləri arasında qarşılıqlı təsirin mövcud olması;
   b) qarşılıqlı gözləmələr;
   v) qarşılıqlı iddialar;
   q) kifayət qədər uzun müddət mövcud olması.

3. Qrup identifikasiyasının səmərəsi:
   a) bir-birinə mənsubluq hissi; b) ziddiyyət hissi.

4. Referent qrup:
   a) fərdin mənsubluq qrupudur;
   b) dəyərlər və normalar sistemi fərd üçün etalon olan sosial qrupdur.

5. Bilavasitə davamlı şəxsi ünsiyyət xasdır:
   a) kiçik qrupa; b) böyük qrupa.

6. Ailə:
   a) ilkin sosial qrupdur; b) təkrar sosial qrupdur.



7. Sosial mankirovka o zaman olur ki,
   a) insanlar qruplarda işləyərkən fərdi iş prosesindəkinə nisbətən daha çox səy göstərirlər;
   b) insanlar qruplarda işləyərkən fərdi iş prosesindəkinə nisbətən daha az səy göstərirlər.

8. Təşkilatın əsas fərqləndirici xüsusiyyətləri bunlardır:
   a) məqsədli təbiəti;
   b) funksionallıq;
   v) iyerarxiyalılıq;
   q) tənzimləmə və nəzarət vasitələrinin mövcud olması;
   d) əmək bölgüsü, ixtisaslaşma.

9. Təşkilatın sosial xassələri:
   a) motivasiya;
   b) məqsədə nailolma;
   v) təşkilat insan birliyi kimi, spesifik sosial mühit kimi.

10. Təşkilatın aşağıdakı mədəni kompleksləri mövcuddur:
   a) fəaliyyət-rol kompleksi;
   b) idarəetmə kompleksi;
   v) xarici mühitlə münasibətlər kompleksi;
   q) qanuniləşdirilmiş kompleks;
   d) davranış kompleksi.

11. Motivasiya prosesinin mərhələləri:
   a) tələbatların yaranması;
   b) ayrı-ayrı tələbatlardan imtina edilməsi;
   v) hərəkətlərin istiqamətinin müəyyən edilməsi;
   q) hərəkətin həyata keçirilməsi;
   d) hərəkətin mükafat almaq üçün həyata keçirilməsi;
   e) tələbatların reallaşdırılması;
   j) tələbatların müəyyənləşdirilməsi.

### Cavablar

**1** – a; **2** – a, b, q; **3** – a; **4** – b; **5** – a; **6** – a; **7** – b; **8** – a, b, q, d; **9** – b, v; **10** – a, b, v, d; **11** – a, v, q, d, j.

# 4-CÜ FƏSİL. CƏMİYYƏTİN SOSİAL STRUKTURU

## 4.1. Sosial struktur və sosial stratifikasiya

Sosiologiyanın əsas bölmələrindən biri sosial strukturun və onun çox mühüm komponenti olan sosial stratifikasiyanın öyrənilməsinə həsr edilmişdir. Struktur (*lat.* struktura – quruluş) – bir-biri ilə qarşılıqlı əlaqədə və qarşılıqlı təsirdə olan sosial qrupların, sosial institutların və onların arasındakı münasibətlərin məcmusudur. Cəmiyyət ziddiyyətli qlobal meyllər və amillər kontekstində fəaliyyət prosesində olan mürəkkəb iyerarxiyalaşmış sistemdir. Sosial struktur anlayışı qarşılıqlı təsirdə olan elementlərin məcmusu kimi cəmiyyət haqqında sistem təsəvvürünü nəzərdə tutur. Sosial strukturun elementləri olaraq insanların böyük sosial qrupları – siniflər və təbəqələr, həmçinin kiçik qruplar və ümumi tipli birliklər nəzərdən keçirilə bilər.

Sosial stratifikasiya (*lat.* stratum – təbəqə və facio – edirəm) gəlir, sosial nüfuz, təhsil, özünüidentifikasiya, hakimiyyət münasibətlərində iştirak və s., həmçinin sosial sistemdə sosial statusların və rolların daimi sıralanması (kiçik qrupdan cəmiyyətə qədər) kimi meyarların əsasında baş verən sosial diferensiasiya və bərabərsizlik deməkdir.

*Cəmiyyətin sosial-stratifikasiya strukturu dedikdə sosial qrupların və təbəqələrin öz aralarında mülkiyyətə, hakimiyyətə və sosial statusa malik olmaq dərəcəsi ilə fərqləndikləri çoxölçülü, iyerarxik qaydada təşkil olunmuş sosial məkan başa düşülür.* İnsanların təbii və sosial bərabərsizliyi stratifikasiya strukturunun əsası kimi çıxış edir. Lakin bərabərsizliyin təşkili üsulu müxtəlif ola bilər. Cəmiyyətin şaquli istiqamətdə quruluşunu müəyyən edən m e y a r l a r ı (əsasları) bir-birindən fərqləndirməyə çalışaq.

Bərabərsizliyin təbiətinə istər bioloji başlanğıcla müəyyən olunan təbii imkanların (fizioloji, psixoloji və b.) bərabərsizliyi, eyni zamanda sosial mövqelərin özünün (maddi vəziyyət, sosial mənşə, sosial status, təhsil səviyyəsi, yaşayış yeri və b.) bərabərsizliyi daxildir. Bərabərsizlik defisit resursların – pulun, hakimiyyətin, təhsilin, nüfuzun müxtəlif stratalar arasında qeyri-bərabər paylanmasını nəzərdə tutur.



S o s i a l b ə r a b ə r s i z l i k adı altında böyük *sosial qrupların* iqtisadi resurslara, sosial nemətlərə və siyasi hakimiyyətə qeyri-bərabərdə yol tapa bilmələri başa düşülür. Sosial bərabərsizliyin ölçülməsi üçün çox vaxt iki göstəricidən: sərvətdən (aktivlər ehtiyatından) və gəlirdən (zaman vahidində pul daxil olmaları axınından), həmçinin desil göstəricisindən (yəni əhalinin ən varlı 10%-nin əhalinin ən yoxsul 10%-i ilə müqayisəsi) istifadə edirlər.

Sosial bərabərsizlik özlüyündə (özünün ayrı-ayrı növlərində) cəmiyyətə lazımdır ki, cəmiyyət iqtisadi cəhətdən səmərəli inkişaf edə bilsin. Lakin bu da şübhəsizdir ki, sosial bərabərsizliyin əhalinin əksəriyyətini yoxsulluq, ümumi və yaxud xronik dilənçilik, siyasi və sosial perspektivsizlik həddinə gətirib çıxaran növləri də mövcuddur.

Bu bərabərsizlik nəinki "gecikən" modernləşmənin, transformasiya səhvlərinin və transformasiya metodlarının, eyni zamanda da dünya əmək bölgüsünün, bütün planet hüdudlarında gəlirin bölüşdürülməsinin nəticəsidir.

Bununla əlaqədar olaraq sual ortaya çıxır: sosial bərabərsizliyin real ölçüsü nədir? Bərabərsizliyin hansı növləri sosial ədalətsizliyə, ictimai həyatda demokratiyanın və azadlığın daha yüksək səviyyəsinə kömək edir?

İnsanlar arasında sosial bərabərsizlik bütün ictimai-iqtisadi formasiyalarda, ibtidai-icma cəmiyyəti istisna təşkil etməklə (yeri gəlmişkən, bu cəmiyyətdə insanlar həmçinin fiziki və psixiki cəhətdən bir-birindən fərqli idilər) (J.J. Russoya görə təbii fərqlər, lakin yoxsulluqda hamı bərabər idi) bütün cəmiyyət tiplərində mövcud olmuşdur və hazırda da mövcuddur. Buna görə də sosial strukturun transformasiyası məsələsi həmişə alimlərin diqqətini cəlb etmişdir. Artıq quldarlıq quruluşunda nəinki azad insanlarla qullar arasında, eyni zamanda azad insanların özləri arasında fərqlər meydana gəlir, belə ki, bəziləri varlı, digərləri isə yoxsul idilər. Xüsusi mülkiyyətə və cəmiyyətin siniflərə parçalanmasına əsaslanan sosial bərabərsizlik meydana gəlir, dövlət hakimiyyəti isə öz aparatının gücü ilə bu sistemi qoruyur və müdafiə edir. Quldarlıq cəmiyyətinə sosial bərabərsizliyin ən kobud formaları xas idi (qul əşya sayılırdı). Hətta Aristotel kimi maariflənmiş, savadlı filosof qulu danışan əmək aləti hesab edirdi.

Feodalizmdə sosial bərabərsizlik xüsusi mülkiyyətin və onun üzərində əsaslanmış ictimai-siyasi sistemin möhkəmləndirilməsi ilə

müəyyən olunurdu. Torpaq və təhkimçi kəndlilər başlıca mülkiyyət obyektinə çevrilmişdilər.

Müasir kapitalizm cəmiyyətində multimilli kompaniyalar və trestlər, həmçinin digər strukturların vasitəsilə kapital hədsiz dərəcədə mərkəzləşdirilir. Qitələrin, ayrı-ayrı regionların, dövlətlərin iqtisadi inkişafında bərabərsizlik daha artıq təzadlılıq kəsb edir.

Həmçinin sosializm ölkələri sosial bərabərsizlik problemini həll edə bilməmişlər, belə ki, bu gün bir sıra müəlliflər tərəfindən dövlət mülkiyyəti kimi müəyyənləşdirilən istehsal vasitələri üzərində ictimai mülkiyyət sosial bərabərsizliyin bir çox növlərini aradan qaldıra bilməmişdir. Bu problem sosializm nəzəriyyəçilərinin qabaqcadan görə biləcəklərinə nisbətən xeyli dərəcədə mürəkkəb alındı. Ədalətli əmək haqqı prinsipi pozulurdu, əmək məhsuldarlığı aşağı düşürdü, əmək əxlaqını məhv edərək müsbət əmək motivasiyası kəskin şəkildə aşağı düşürdü.

Müasir inkişaf mərhələsində sosial bərabərlik və bərabərsizlik problemi üzərində düşünərkən nəzərdən qaçırmaq olmaz ki, bu anlayışlardan hər birinin özünün konkret-tarixi məzmunu vardır, öz təzahür növləri və formaları vardır. Bundan əlavə, terminlərin özləri çox vaxt dolaşıqlıq yaradaraq müxtəlif kontekstdə istifadə olunurlar.

Belə təsəvvür olunur ki, əgər bərabərsizlik məhsuldar qüvvələrin inkişafında fərdi və kollektiv təşəbbüsə, ictimai məhsulun artmasına kömək edirsə, əgər o, normativ qaydada tənzimlənən konsensusdan çıxış edirsə və hakimiyyətə olan hansısa inhisarla şərtlənməyibsə, əgər o, yoxsulluğu və sosial dilənçiliyi azaldırsa, əgər əmək haqqının həcmi bu prinsipə əsaslanırsa ki, keyfiyyət və kəmiyyət cəhətincə təxminən eyni əməyə görə mükafatın cəmi təxminən eynidir, bərabərsizlik haqq qazandırılandır.

Sosiologiyada sosial struktura dair müxtəlif konsepsiyalar mövcuddur.

Marksizmdə sosial struktur əbədi və dəyişməz bir şey kimi deyil, qanunauyğun olaraq özündə hərəkətverici qüvvələri daşıyan bir şey kimi nəzərdən keçirilir ki, bu da konkret-tarixi totallıq anlayışında ifadə olunur. Bu halda cəmiyyətin iqtisadi strukturu ilkin hesab olunur. Sosial strukturun mövcudluğunun və inkişafının mexanizmi insan fəaliyyəti sistemində "gizlənmişdir". İctimai əmək bölgüsü sosial fərqlərin daha dərin mənbəyi kimi çıxış edir və ictimai münasibətlər sistemində qrup



əmələ gəlməsi proseslərinin izahı üçün açar verir. İctimai münasibətlər sosial qruplar və institutlar arasında təşkilati-texniki, iqtisadi, siyasi, əxlaqi, hüquqi davamlı və nizamlanmış əlaqə və münasibətlərin culğaşmasıdır. Bu halda sosial strukturun hakim istehsal üsulu ilə şərtləndiyi qeyd olunur və sosial strukturun ziddiyyətli xarakterinə diqqət yetirilir.

*Texnoloji determinizmin tərəfdarları* texnoloji innovasiyaları sosial strukturun dəyişməsinin mənbəyi hesab edirlər. Onların fikrinə görə texniki tərəqqi bütün ziddiyyətləri həll etməyə qadirdir. Bununla da sosial strukturun onu təşkil edən elementlərə münasibətdə determinasiya rolu qəbul olunur. Mexanisizmin və biologizmin izləri E. Dürkheymdə, A. Radkliff-Braunda və T. Parsonsda özünü xüsusilə göstərir. Onlar cəmiyyətin strukturunu demək olar ki, tamamilə fərddən asılı olan və hər bir elementin yalnız sosial struktur üçün zəruri olan funksiyanın yerinə yetirilməsi xatirinə mövcud olduğu bir tam kimi şərh edirlər. Bu halda sosial struktur bir-birini qarşılıqlı surətdə tamamlayan və bir tam kimi sosial strukturun tələbatlarını təmin edən şəxsiyyətsizləşdirilmiş rolların məcmusuna çevrilir. Müasir konsepsiyalar üçün həmçinin sosial strukturun dinamik tam kimi başa düşülməsi, səciyyəvidir. Çox vaxt sosial strukturu ölçülə bilən müxtəlif əlamətlərə (peşə, yaş, təhsil, gəlir) malik bir-biri ilə qarşılıqlı əlaqədə olan sosial mövqelərin sistemi kimi təsəvvür edirlər. Sosial struktur haqqında nəzəriyyədə çox vaxt insanın sosial vəziyyətinin – onun müəyyən sinfə və yaxud digər sosial qrupa mənsubluğunun təsiri altında formalaşan sosial və yaxud sinfi şüur kimi anlayışdan istifadə edirlər.

Sosial qarşılıqlı təsirlərin müxtəlifliyində insanların sosial birliklərdə birləşmələrinin formaları xüsusi rol oynayırlar. Birlikdə oxşar, eyni funksiyalara və bu funksiyalarla şərtlənmiş statuslara, sosial rollara, mədəni tələbata, etnik əlamətlərə və s. malik olan insanlar birləşirlər.

Sosial birliyin əsasında çox vaxt həmrəyliyin, səylərin birləşdirilməsinin verdiyi üstünlüklərə səy göstərilməsi durur. İstənilən birliyin səmərəliliyinin, deməli, həmçinin davamlılığının meyarı budur ki, mükafat, fərdlərin birlikdə iştirakının müsbət səmərəsi fərdlərin səylərinin əlaqələndirilməsinə, onların ayrı-ayrı hallarda öz mənafelərini qurban verməyə hazır olmaları üçün sərf olunan xərclərdən nə qədər artıqdır.

Fərddə birlik çərçivəsində tam bir sıra niyyətlər, ideyalar, öhdəliklər, gözləmələr meydana gəlir. Bunlar onun şəxsi tələbatları ilə birbaşa bağlı deyillər, lakin assosiasiya kimi birliyin səmərəli fəaliyyət göstərməsini təmin edən məqamları ifadə edirlər.

Sosial birlik adı altında insanların yalnız o qrupları nəzərdə tutulur ki, onlar sosial əlaqə vasitəsilə birləşmişlər. Əlaqənin iki tipini fərqləndirirlər: sosial təmaslar və sosial qarşılıqlı təsirlər, və həmçinin müvafiq olaraq sosial birliklərin iki tipini.

Ünsiyyət nəticəsində meydana gələn sosial təmasların sayəsində müəyyən sosial dairə formalaşır. Məsələn, qatarda yol yoldaşları dairəsindən, tanışlar dairəsindən, həmkarlar dairəsindən söhbət açmaq olar.

Əsasında birləşmə, həmrəylik, birgə səylərin uyğunlaşdırılması ilə əlaqədar sosial qarşılıqlı təsirlərin (hərəkətlərin bir-biri ilə bağlı, qarşılıqlı surətdə əlaqələndirilmiş sistemlərinin mübadiləsi) durduğu birliyi sosial qrup adlandırmaq olar (bax: bu bölmənin 3-cü fəsli).

Sosial təbəqələr (stratalar) dedikdə qlobal sosial sistemin strukturunda müxtəlif yer tutan, aralarında sosial bərabərsizliyin mövcud olduğu sosial-iqtisadi qruplar başa düşülür. P. Sorokinə görə sosial məkan çoxölçülüdür. Bu sosial məkan müxtəlif meyarlara (xətlərə): *vətəndaşlığa, milliyyətə, peşə növünə, iqtisadi statusa, dini mənsubiyyətə* və s. görə diferensiasiya olunmuşdur.

Sosial təbəqə (strata) obyektiv və subyektiv cəhətdən müəyyən oluna bilər.

Təbəqə obyektiv cəhətdən müəyyən olunduqda vurğu onun ictimai əmək bölgüsündə rolu üzərinə düşür, çünki bu rolun sayəsində fərdlər maddi sərvətin bölgüsü, hakimiyyətə sahib olma, sosial nüfuz sistemində tutduqları konkret sosial vəziyyətə malik olur, konkret yer tuturlar.

Subyektiv müəyyənləşdirmə fərdin özünün ayrı-ayrı sosial rollara qiymət verməsini nəzərdə tutur. Nüfuza qiymət verilməsi ətrafdakıların sosial mövqelərinin (statuslarının) iyerarxiyasını sıralamağa imkan verir. Bütün sosial statusların məcmusu sosial təbəqələrin formalaşmasına gətirib çıxarır. Sosial məkan kontinuumunda təbəqələr yuxarı və aşağı təbəqələrə (ya bir meyara görə – birölçülü stratifikasiya, ya da bir neçə meyar üzrə – çoxölçülü stratifikasiya) bölünürlər.

Cəmiyyətdə strataların bu və ya digər vəziyyəti iqtisadi və siyasi hakimiyyətin həcmindən asılıdır ki. bu da əslində onların qarşılıqlı münasibətini şərtləndirir. Münasibətlərin iyerarxiyalaşmış bu cür şkalası olmadan insanların cəmiyyətdə səmərəli qarşılıqlı təsiri mümkün deyildir. Bu cür qarşılıqlı təsirin sayəsində isə sosium tənzimlənmiş vəziyyətdə saxlanılır və bununla da sosiumun bütövlüyü və sərhədləri saxlanılır.



Sosial münasibətlərin iqtisadi, siyasi və peşə iyerarxiyası sosial stratifikasiyanın üç əsas tipini təşkil edir. Bu tiplərdən hər biri sosial məkanın spesifik göstəricisidir və başqa tiplə uyğun gəlmir.

*Stratifikasiya iyerarxiyasının müxtəlif səviyyələrinə* uyğun gələn müxtəlif strataların nümayəndələri adətən bir-birinə oxşar həyat şanslarına və həyat üslublarına malik olurlar və kollektiv identikliyə malik ola bilərlər ki, elə bununla da onlar digər strataların nümayəndələrindən fərqlənirlər.

P. Sorokin özünün hələ Rusiyada olduğu dövrdə və xaricdə həyatının ilk illərində sonralar *sosial stratifikasiya nəzəriyyəsinin* əsasını təşkil etmiş bir sıra anlayışları sistemləşdirmiş və dərinləşdirmişdir. Bu nəzəriyyə amerikan, bir qədər sonra isə təhlilin Avropa sosiologiyasında da geniş yayılmışdır. Lakin sosial stratifikasiya nəzəriyyəsinin metodologiyası və prinsipləri istər tranzitiv və istərsə də transformasiya prosesində olan cəmiyyətlərdə tamamilə "işçil" vəziyyətdə idi.

Son illərdə sosial stratifikasiya nəzəriyyələri Rusiya cəmiyyətinin sosial strukturuna aid tədqiqatlarda geniş tətbiq olunmağa başlanmışdır. Adətən (müxtəlif forma dəyişiklikləri ilə) aşağıdakı təbəqələri fərqləndirirlər: elita, ali təbəqə, orta təbəqələr, aşağı təbəqə, "həyatın sosial dibi".

Sosial struktur və sosial stratifikasiya nəzəriyyələrinin ümumi cəhətləri az deyildir. İstər sosial struktur və istərsə də sosial stratifikasiya cəmiyyətdə mövcud olan bərabərsizliyə əsaslanır.

Sosial struktur nəzəriyyəsinin sosial stratifikasiya nəzəriyyəsindən əsas fərqi bundan ibarətdir ki, birincinin çərçivəsində sosial qruplar digər qruplarla müəyyən münasibətlərdə olduqları halda (münaqişəli, harmonik münasibətlərdə) nəzərdən keçirilir, sonuncunun çərçivəsində isə təbəqələr bir-birini tamamlayırlar.

*Konfliktoloji paradiqmada* sosial qruplar arasındakı münasibətlər ya münaqişəli, ya da harmonik münasibətlər kimi nəzərdən keçirilir. Bu cərəyanın banilərindən biri olan K. Marks hesab edirdi ki, cəmiyyət

böyük sosial qruplardan – əmək bölgüsü və bəzilərinin digərləri tərəfindən istismar edilməsi münasibətləri əsasında formalaşan siniflərdən ibarətdir. Marksın nəzəriyyəsi bərabərsizliyin müxtəlif tipli cəmiyyətlərdə təşəkkül tapan mədəni-tarixi formalarına kifayət qədər diqqət yetirmədiyinə görə əleyhdarları tərəfindən kəskin tənqid edilmişdir. R. Darendorf Marksm nəzəriyyəsinin ayrı-ayrı elementlərini inkişaf etdirərək göstərirdi ki, istənilən cəmiyyətdə iki əsas sosial sinif: idarə edənlərin sinfi və idarə olunanların sinfi formalaşır. Onlar arasındakı münasibətlər həmişə münaqişəli xarakter daşıyır.

M. Veber öz konsepsiyasını təklif etmişdir. Bu konsepsiyanın əsasında sosial strukturun bərabərsizlik üzərində qərar tutmuş, ilkin kökləri sözün geniş mənasında h a k i m i y y ə t ə gedib çıxan iyerarxik təşkil olunmuş çoxölçülü sosial məkan kimi başa düşülməsi barədə müddəa durur. Cəmiyyət həmişə bərabərsizliyi öncədən müəyyən edən üç ölçüyə malikdir. Bunlar da sinif, partiya, statusdur. Sinfi Veber əmək bazarında insanın həyati imkanlarını, onun həyat üslubunu müəyyən edən oxşar mövqelərin bazasında formalaşan xalis iqtisadi ümumilik kimi nəzərdən keçirir. Veberin mövqeyi sosial stratifikasiyanın hakimiyyət kimi ölçüsündə müstəqil əhəmiyyətə malikdir. İnsanlar hakimiyyəti olanlara, yaxud hakimiyyətə cüzi surətdə malik olanlara ayrılırlar. Veberə görə sosial strukturun daha bir ölçüsü insanın statusudur, yəni anadan olandan aldığı və yaxud qazanılan (sərəncamla verilmiş və yaxud nail olunmuş) sosial resursudur. Veber hesab edir ki, sinfi şüur mövcud deyildir, o, heterogendir, müxtəlif cinslidir, çünki eyni bir insan eyni vaxtda sosial strukturun və stratifikasiyanın müxtəlif ölçülərində müxtəlif mövqelər tuta bilər.

P. Sorokin birmənalı olaraq hər hansı strataya mənsubluq meyarlarının vahid məcmusunun yaradılmasının mümkün olmadığını göstərmişdir və cəmiyyətdə üç stratifikasiya strukturunun: iqtisadi, siyasi və peşə strukturlarının mövcud olduğunu qeyd edir.

Funksionalist paradiqmada cəmiyyət hər bir hadisənin öz funksiyasına malik olduğu sosial orqanizm kimi nəzərdən keçirilir. Bərabərsizlik həmçinin funksionaldır və insanların müxtəlif sosial mövqelərə seçilməsini müəyyən edir (K. Devis, U. Mur, T. Parsons)



## 4.2. Sosial dəyişikliklər, anlayışları və növləri

Çox vaxt *sosial dəyişiklik adı altında sosial obyektin bir vəziyyətdən digər vəziyyətə keçməsi, cəmiyyətin sosial təşkilində, onun sosial institutlarında və sosial strukturunda, cəmiyyətdə qərarlaşmış davranış nümunələrinin istənilən modifikasiyası, forma dəyişməsi başa düşülür.* Bu məzmun sosial dəyişikliklər nəzəriyyələrində mərkəzi yer tutur və inkişaf, böyümə, mobillik, təkamül, inqilab, tərəqqi, tənəzzül, transformasiya, həmçinin dəyişikliklərin amilləri, mənbələri, növləri, sferaları, istiqamətləri kimi anlayışlarla bağlıdır. Sosioloji və siyasi elmlərdə sosial dəyişikliklər nəzəriyyələrinin təsnifatına yanaşmalar indiyəcən müxtəlifdir. Ən çox qəbul olunan nəzəriyyələrin klassik və müasir nəzəriyyələrə bölünməsidir. K l a s s i k n ə z ə r i y y ə l ə r ə təkamülçülüyü, tarixiliyi, siklliliyi, tarixi materializmi (marksizmi) aid edirlər. Təkamülçülük dəyişiklikləri ictimai həyatın funksional diferensiasiyası ilə və tədrici, getdikcə daha artıq dərəcədə mürəkkəbləşməsiylə bağlayırdı. Tarixilik – "dünyaya baxış"ın, ideyalar və dəyərlər dünyasına baxışların yenidən qurulmasının çıxış nöqtəsi kimi daxili təcrübəyə diqqəti cəmləşdirirdi. Tsiklizm tarixin eynixətli tərəqqisi və fasiləsizliyi ideyalarının məhdudluğunu sübut etməyə çalışırdı. Marksizm münaqişələrin və siyasi mübarizənin sinfi xarakterinin əhəmiyyətini qeyd edirdi.

M ü a s i r n ə z ə r i y y ə l ə r d ə "alternativ baxış: tarixin yaradılması" (modernləşmə nəzəriyyələri – köhnə və yeni nəzəriyyələr, adaptiv artım, inkişaf, müvazinət, münaqişə, mədəni müvazinət nəzəriyyələri, hərəkət, morfogenez, strukturlaşma, fəaliyyət əmsalı, "dünya sistemi" nəzəriyyələri və s.).

Məsələn, Ç. Tilli sosial dəyişikliyi bir tam kimi öyrənilməli və izah edilməli olan vahid, bir-biri ilə daxilən möhkəm birləşmiş fenomen kimi nəzərdən keçirir. İ. Uollerstayn sosial dəyişikliklərə alternativ baxışın zəruriliyini qeyd edir, belə ki, onun fikrinə görə inkişaf nəzəriyyəsinin əsas versiyaları təkamülçülük və tarixi materializm – artıq sosial təfəkkür tarixinə məxsusdurlar. Uollerstayn dəqiqləşdirərək, göstərir: iş bundadır ki, müasir dünya əsasən endogen dəyişikliklərə deyil, ekzogen dəyişikliklərə məruz qalır. Burada xarici mənbələr əhəmiyyət kəsb edir və millət fövqündə duran, qlobal amillər başlıca rol oynayırlar. Dəyişikliklərə təkanı cəmiyyətə xas olan potensial imkanların

reallaşdırılması zərurəti deyil, müxtəlif sosial qurumlar arasındakı təmaslar, rəqabət, toqquşmalar, münaqişələr və digər hadisələr təkan verir. Digər aspekt ayrıca götürülmüş suveren, avtonom hər bir cəmiyyətin (milli dövlətin) obrazı ilə bağlıdır. Lakin bu cəmiyyətlər faktik olaraq dünya miqyaslı proseslərin, birinci növbədə qloballaşmanın yaratdığı ilkin strukturlardır.

Müasir nəzəriyyələrdə nə kateqorial aparatda, nə də problemlərin seçimində vəhdət yoxdur. Bu sonuncu öz ifadəsini daha dolğun şəkildə sosial dəyişikliyi "davranış nümunələrinin, sosial qarşılıqlı əlaqələrin, institutların və sosial strukturların zaman etibarı ilə bir-birini əvəzləməsi" kimi nəzərdən keçirən funksionalizmdə tapmasıdır. Sosial struktur qarşımızda üzərində cəmiyyətin "möhkəmləndirildiyi" bünövrə şəklində çıxış edir. Sosial strukturda baş verən dəyişiklik isə bütün sistemin transformasiyasına gətirib çıxarır. Bu halda struktur funksionalistlər sosial dəyişikliyi cəmiyyətin normal vəziyyəti deyil, onun disfunksiyası hesab edirlər. Cəmiyyətdə baş verən əsaslı dəyişikliklər sosial strukturdakı ziddiyyətlər səbəbindən baş verir, insanların fəaliyyəti heç bir şeyi müəyyən etmir, insanlar yalnız struktur determinasiyaların vektorları və yaxud daşıyıcılarıdırlar. Rasionalist konsepsiyalarda sosial dəyişiklik aktiv fərdlərin "*tarixin istehsalı*" (history-making) kimi rasional məqsədyönlü fəaliyyətinin məhsulu, bəhrəsi kimi nəzərdən keçirilir. Sosioloqların çoxu bu əqidədədir ki, heç bir sosioloji paradiqmanın ümumi nəzəriyyəsi sosial dəyişikliklərin təhlili üçün kifayət qədər adekvat ola bilməz. Aksent getdikcə daha tez-tez bütövlükdə cəmiyyətin transformasiyasına deyil, ayrı-ayrı institutların, sosial qrupların, konkret ideyaların təhlilinə və izahı üzərinə keçirilir. İnsanların gündəlik həyatındakı tədrici dəyişikliklərin cəmiyyətdəki sosial qaydaya təsirini öyrənən praktikalar nəzəriyyələri getdikcə daha geniş yayılmaqdadır. Tədqiqatların fokusunda heç zaman bütün cəmiyyət durmur, yalnız onun kiçik bir hissəsi (qrup, sosial məkan), adətən cəmiyyətin elə bir hissəsi durur ki, o, tədqiqatçıları *maraqlandıran dəyişikliklərin episentri* hesab olunur.

Bir çox müasir tədqiqatçılar A. Uaytxedin belə bir fikrinə tərəfdar çıxırlar ki, "dəyişiklik şeylərin özünün təbiətinə xasdır".

Məsələn, P. Ştompka "Sosial dəyişikliklər sosiologiyası" kitabında belə bir nəticəyə gəlir ki, sosiologiya üçün bu, o deməkdir ki, "cəmiyyət (qrup, birlik, təşkilat, dövlət) elə bir mövcudluq kimi müəyyənləşdirilə



bilər ki, bu mövcudluq ona görə və o vaxta qədər mövcud olur ki, hələlik onun daxilində nə isə baş verir, hansısa hərəkətlər həyata keçirilir, hansısa proseslər cərəyan edir, nəsə dəyişir". Ştompka aşağıdakı dörd ölçüdən ibarət sosiomədəni məkan anlayışını daxil edir: a) i d e y a l a r ı n , qaydaların, hərəkətlərin və maraqların çulğaşması (İ); b) qaydaların (n o r m a l a r ı n, dəyərlərin, təlimatların, ideallarıın), normativ ölçünün və yaxud mədəniyyətin qarşılıqlı əlaqədə olan şəbəkələri (N); sahənin i n t e r a k s i y a ölçüsünü təşkil edən, onun "sosial təşkili"ni əmələ gətirən hərəkətlərin bir-biri ilə qarşılıqlı əlaqədə olan şəbəkələri (İ); q) maraqların şəbəkələri (həyat planları, i m k a n l a r, *resurslardan istifadə*), yəni sosial iyerarxiya (V). Hər bir səviyyədə sosiomədəni məkan fasiləsiz dəyişməkdədir, proseslər çoxsaylı və çoxölçülü qarşılıqlı əlaqədədirlər. Sosial dəyişikliyi Stompka "sosial hadisələrin ardıcıllığını (sosial məkanın müxtəlif hallarını) özündə birləşdirən "sosial proses kimi, sosial məkanın onun daxili, immanent xassələrinin nəticəsi olan sosial inkişafı, diferensiasiyası, ekspansiyası, kristallaşması, hissələrə bölünməsi kimi və nəhayət, bu və ya digər akseoloji nöqteyi-nəzərə uyğun olaraq müəyyən yaxınlaşma kimi nəzərdən keçirilə biləcək inkişafı təşkil edən sosial tərəqqi kimi" müəyyənləşdirilmişdir (Stompka, 1996, S. 270–274). Sistem modelindən fərqli olaraq məkan modelini Stompka cəmiyyətin dinamik təbiətini daha adekvat şəkildə başa düşmək və ifadə etmək səyi ilə əsaslandırır. Lakin o, tədqiq olunmaq üçün hər iki modeli qəbul etməyə çağırır.

Sosial dəyişikliklərin əsas xarakteristikalarından biri – bir cəmiyyətin çərçivəsi daxilində həyatın müxtəlif sahələrindəki dəyişikliklər arasında, təsərrüfatların ayrı-ayrı sahələri və bölmələri arasında, ayrı-ayrı sosial qruplar və təbəqələr arasında, ayrı-ayrı regionlar, ayrı-ayrı ölkələr və xalqlar və s. arasında uyğunsuzluq kimi təzahür edən *qeyri-bərabərlikdir.*

Cəmiyyətin sosial dəyişikliklərində *mobillik* böyük rol oynayır. Mobillik dedikdə ölçülərin hər hansı birində: varidat, idarəetmə sistemində mövqelər (hakimiyyət resursu), status sahəsində fərdin yerdəyişmələri nəzərdə tutulur. Hər bir ölçünün özünün sosial nərdivanı vardır ki, onun da pillələrində fərdlər yerləşir. Göstərilən bütün sosial ölçülər bir-biri ilə qarşılıqlı əlaqədə və qarşılıqlı culğaşmadadır. Sosial strukturun bu xüsusiyyəti cəmiyyətdə bütün üç ölçüdə mövqelərin ciddi

surətdə müəyyən birləşməsi, uyğunluğu ilə səciyyələnən homogen sosial qrupları fərqləndirməyə imkan verir.

*Sosial mobilliyin çox mühüm parametrlərindən biri onun* istiqamətliliyidir. Sosial mobillik şaquli və üfüqi mobilliyə ayrılır. Şaquli mobillik sosial nərdivan üzrə yuxarıya və aşağıya doğru yerdəyişmədir, üfüqi mobillik isə fərdin sosial mövqelərinə birbaşa təsir göstərməyən yerdəyişmədir. Üfüqi mobillik məkan və zaman istiqamətlərinə malikdir.

Sosial dəyişikliklərdə insanın bir sosial-peşə qrupundan digərinə, məcburən baş verən və sosial-peşə statusunun xarakteristikalarını əhəmiyyətli şəkildə dəyişdirən keçməsini müşayiət edən marginallıq bir vəziyyət, hal kimi xüsusi əhəmiyyətə malikdir. Sosioloji mənada marginallıq sadəcə olaraq müxtəlif sosial institutlarda: istehsalatda, qərarların qəbulu prosesində, resursların bölgüsündə və s. qeyri-kafi iştirakı deyil, eyni zamanda sosial strukturlardan çıxarılmağı bildirir. Marginallar sosial statusda dərin, prinsipial dəyişikliklərə uğrayırlar. Bu dəyişikliklər də vəziyyətin qeyri-müəyyənliyi, qeyri-davamlılığı ilə, onun daxili və xarici ziddiyyətliliyi ilə, sosial trayektoriyanın status uyğunsuzluğundan və sosial-mədəni oriyentasiya dəyişikliyindən meydana gələn, çoxvektorluluğu ilə səciyyələnən dərin və prinsipial dəyişikliklərə məruz qalırlar.

Cəmiyyətdə sosial dəyişikliklər nəinki daxili amillərdən, eyni zamanda da beynəlxalq əmək bölgüsü ilə, ölkənin təbii sərvətlərinin qeyri-bərabər bölgüsü ilə və iqtisadi potensialı ilə bağlı olan xarici amillərdən asılıdır. XXI əsrdə qloballaşma prosesləri getdikcə daha artıq dərəcədə əhəmiyyət kəsb edir.

## 4.3. Transformasiya mərhələsində Rusiya cəmiyyətinin sosial strukturunun dəyişməsi meylləri

Rusiya cəmiyyətinin müasir sosial strukturunu sabit, davamlı hadisə kimi nəzərdən keçirmək mümkün deyildir. Mülkiyyət, bölgü, əməyin ictimai təşkili münasibətləri sistemində, sosial mobilliyin meylləri və istiqamətlərində radikal dəyişikliklər davam etməkdədir. Bu da yeni sosial birliklərin, onların qarşılıqlı əlaqələrinin, iyerarxiyasının meydana gəlməsinə gətirib çıxarır.



Rusiya sosial məkanında müşahidə olunan transformasiya prosesləri çox və ya az dərəcədə üç qrup amillərlə şərtlənmişdir.

B i r i n c i q r u p a m i l l ə r – burada dünya məkanının qloballaşması (bax: bölmə V, fəsil 3), bir tərəfdən iqtisadiyyat, siyasət, təhsil, informasiya sahəsində inteqrasiya, digər tərəfdən, dezinteqrasiya kimi ən ümumi amillərdən söhbət gedir. Bu proseslər bütün cəmiyyətlərdə, onların bütün səviyyələrində müşahidə olunur. Həm də əgər qabaqcıl ölkələr "gələcək qarşısında şok" vəziyyətində olaraq, inteqrasiya sahəsində sivilizasiya proseslərini fəal surətdə həyata keçirirlərsə, tranzitiv və yaxud transformasiya prosesi keçirən postsosialist ölkələri isə "keçmiş qarşısında şok" sindromu keçirərək, milli partikulyarizmin gücləndirilməsilə, dini, milli və sosial münaqişələrlə müşayiət olunan dezinteqrasiya yolu ilə öz vəziyyətlərini kəskin şəkildə dəyişdirməyə çalışırlar.

A m i l l ə r i n i k i n c i q r u p u bazar münasibətlərinə əsaslanan ictimai sistemə keçid prosesində olan ölkələr üçün ümumidir. "Transformasiya" anlayışı çox vaxt hazırda keçmiş sosialist ölkələrində baş verən coşqun proseslərin ifadə edilməsi üçün işlədilir. Bu terminlə, eləcə də "modernizasiya " termini ilə baş verən dəyişikliklərin ideoloji xarakter daşımadığını nəzərə çatdırmağa çalışırlar.

Lakin əslində onların hər ikisi də ideolojilik ruhuna malikdirlər. Məsələn, əgər müəyyən ölkələr üçün transformasiya dünənki sosializm ölkələri səmərəli inkişaf etməkdə olan demokratik vətəndaş cəmiyyətlərinin sırasına daxil olsunlar deyə, hər cür müdafiə olunmalı olan pozitiv prosesdirsə, digər ölkələr isə transformasiyanı xaricdən (Qərb tərəfindən) qəbul etdirilmiş, bu cəmiyyətlərin iqtisadiyyatının, sosial quruluşunun və mənəvi əsaslarının qəfil iflicinə səbəb olmuş mənfi, dağıdıcı proses kimi nəzərdən keçirirlər.

Əvvəlki quruluşun dağılması və ictimai əsasların guya yenidən qurulması transformasiyanı qeyri-sabit vəziyyətdən çıxış kimi labüd edir, lakin ictimai quruluşun yeni tipinə keçid hərəkətinin istiqaməti etiraza səbəb ola bilər və yaxud dəqiqləşdirilə bilər. Transformasiya prosesinin xüsusiyyətlərinin müxtəlifliyi hələlik onu bütövlükdə dərindən təhlil etməyə və üstəlik də onun əsas istiqamətini heç olmazsa, trend qismində aşkara çıxarmağa imkan vermir. Bax buna görə də transformasiyanın "labüd surətdə kapitalizmə qayıtma" kimi, müasir Qərb cəmiyyətləri üçün tipik olan ictimai institutların və həyat tərzinin

formalaşması prosesi kimi geniş yayılmış anlayışı düzgün olmayaraq birtərəfli təsəvvür edilir. Rusiyada hər halda bir sıra mühüm proseslər ölkədə situasiyanı digər situasiyalara az bənzərli edən önəmli xüsusiyyətlərə malikdir.

Amillərin üçüncü qrupu müstəsna dərəcədə daxili, rus xarakterinə malikdir. Hər şeydən əvvəl ölkənin yenidən qurulması sahəsində nəzəri və praktiki cəhətdən əsaslandırılmış siyasətin olmamasını qeyd etmək lazımdır. Bu səbəbdən də həmin yenidənqurma kortəbii, qeyri-ardıcıl, hətta irrasional şəkildə baş verir. Son illərdə Rusiya cəmiyyətinin sosial strukturunun öyrənilməsinə həsr edilmiş tədqiqatlar da bunu təsdiq edir. Bu tədqiqatlar həmin sosial strukturun son dərəcə qeyri-sabit olmasını, amorfluğunu, qeyri-müəyyənliyini qeyd edir. Makrosəviyyədə və sosial-istehsal strukturları səviyyəsində sosial dezinteqrasiya və diferensiasiyanın yeni formaları meydana gəlir. Mülkiyyət formalarının nisbəti dəyişir, müəyyən sosial qruplar və təbəqələr aradan çıxır, digərləri yaranır, üçüncülər parçalanırlar, dördüncülər isə sosial rolların və statuslarını dəyişdirirlər və s.

Rusiya cəmiyyətində bütün münasibətlərin transformasiyası ilə bağlı olan proseslərin inkişafı sosial inteqrasiya və dezinteqrasiya, həmrəylik və münaqişə problemlərini – klassik sosioloji nəzəriyyədə əsas olan və sosioloji təhlilin əsas məkanını təşkil edən problemləri ilk plana çəkmişdir.

1990-cı illərin əsaslı dəyişiklikləri sosial-struktur münasibətlərini və digər münasibətləri keyfiyyətcə dəyişdirmiş, bununla da sosial qrupların bir-birinə maraqlarını və siyasi niyyətlərini qütbi əkslik vəziyyətinə gətirmiş, əmlak diferensiasiyasını son dərəcə kəskinləşdirmiş və dərinləşdirmişdir. Dövlət iqtisadiyyatını geniş spektrli formaları olan dövlət, xüsusi, bələdiyyə, icarə, aksioner, qarışıq, və s. formalardan ibarət çoxsektorlu iqtisadiyyat əvəz etdi. Məsələn, 2001-ci ilin sonlarında xüsusi mülkiyyət forması üstünlük təşkil edirdi – 47,9%, dövlət və bələdiyyə mülkiyyəti – 37,4%, qarışıq Rusiya – xarici ölkə mülkiyyəti – 13,9%, ictimai və dini təşkilatların mülkiyyəti isə – 0,8% təşkil edirdi.

Mülkiyyət formalarının çoxsaylılığı sosial diferensiasiyanın yeni formalarını əmələ gətirir, sahibkarı və işçini istehsal vasitələrinə münasibətdə qeyri-bərabər vəziyyətə qoyur, yeni sinfi və sosial-iqtisadi maraqların mürəkkəb kompleksini formalaşdırır. Bu maraqlar qəti



olaraq hələ tam cilalanmayıb, istər bu maraqlar və istərsə də onların daşıyıcıları hələlik təşəkkül tapma mərhələsindədir. Son 10 ildə xüsusi bölmədə məşğul olanların sayının 2 dəfədən çox artması onu göstərir ki, müəssisələrin nəinki iqtisadi və hüquqi statusları, eyni zamanda bu müəssisələrdə çalışan işçilərin iqtisadi və sosial vəziyyəti dəyişmişdir.

Rusiya sosioloqları müasir rus cəmiyyətinin sosial modelinin formalaşması prosesinin öyrənilməsinə böyük diqqət yetirirlər. Model adı altında sosial qruplar arasında (stratalar arasında) təşəkkül tapmaqda olan və yaxud artıq təşəkkül tapmış və onların bir-biri ilə qarşılıqlı əlaqədə olan status mövqelərinə – iqtisadi, siyasi, sosial-mədəni və s. statuslarına əsaslanan sistemi başa düşülür.

Hazırkı vaxtda sosial strukturun transformasiyasının əsas meylləri əmlak diferensiasiyası ilə müşayiət olunan sosial təbəqələşməyə doğru aparır. Sosial qrupların əksəriyyəti bu hadisəni qeyri-təbii və ədalətsiz hadisə kimi dərk edirlər. Konstitusiya Rusiyanı sosial dövlət elan etmişdir. Bununla da nəzərdə tutulur ki, həmin dövlətin siyasəti sosial imkanların bərabərliyinə zamin olmalıdır.

Bütün məşğul əhali iki əsas növə (statusa) bölünə bilər: 1) muzdla işləyənlər (muzdlu işçilər); 2) muzdla işləməyənlər (bunlar müstəqil məşğul olan işverənlərdir, istehsal kooperativlərinin üzvləridir). 2001-ci ilin sonunda muzdlu işçilər məşğul əhalinin 93%-ni təşkil edirdi, muzdsuz işləyənlər 7% təşkil edirdilər. İşverənlərin sayı artmış və müstəqil məşğul olanların sayı isə azalmışdı. Bu, əsas iş yerinə aiddir. Məşğul əhalinin 30%-ə qədərinin əlavə işi vardı.

Münasibətlərin təşəkkül tapmaqda olan sistemi haqqında əhalinin təsəvvürlərinin formalaşması başlıca olaraq cəmiyyətin sosial strukturunun obyektiv vəziyyətindən, islahatlar vaxtı iqtisadiyyatda, siyasətdə, sosial-mədəni sahədə baş vermiş dəyişikliklərin miqyasından asılıdır. Bu dəyişikliklərin empirik səviyyədə aşkara çıxarılması onların nəinki müsbət və mənfi nəticələrini qiymətləndirməyə, eyni zamanda müxtəlif qrupların sosial ümidlərinin dinamikasını, baş verən sosial irəliləyişlərin bərabərliyi (bərabərsizliyi), ədalətliliyi və ədalətsizliyi haqqında onların subyektiv təsəvvürlərini, yəni əhalinin sosial əhval-ruhiyyəsini izləməyə imkan verir.

Cəmiyyətin sosial transformasiyasını bu gün nəinki stratifikasiya sistemində əvvəllər mövcud olmamış mövqelərin – hər şeydən əvvəl iri və xırda sahibkarlar sinfinin, “yeni yoxsullar” təbəqəsinin,

marginalların, işsizlərin, ehtiyac olunmayanlar qruplarının meydana gəlməsi, eyni zamanda onların yeni status – rol funksiyalarına adaptasiyası dərəcəsi, sosial və şəxsi identikliyin yenidən qiymətləndirilməsi səciyyələndirir.

Müxtəlif illərdə aksent struktur bərabərsizliyin müxtəlif aspektlərinə: onun dərinləşməsi, cəmiyyətin sosial qütbləşməsi və marginallaşması, sosial məkana inteqrasiyası və dezinteqrasiyası, orta sinfin formalaşması problemləri, hakimiyyət münasibətləri, sosial istehsal strukturlarında əməyin avtonomiyası üzərinə edilirdi.

Rusiya cəmiyyətinin sosial-struktur sferasında baş verən proseslər haqqında daha dolğun təsəvvür əldə etmək üçün müxtəlif sosial elementlərin, sosial birliklərin formalaşmasının meyllərini və miqyaslarını nəzərdən keçirmək lazımdır. Onların dinamikası mülkiyyət, hakimiyyət münasibətlərində, gəlirlərin səviyyəsindəki keyfiyyət dəyişiklikləri ilə, təsərrüfatın struktur cəhətdən yenidən qurulması və əhalinin məşğulluq qanunları ilə determinasiya olunmuşdur. Bu günə Rusiyanın aktiv əhalisinin 8-10%-i ölkənin iqtisadiyyatındakı sahə irəliləmələrinin, bütöv istehsal qruplarını əhatə etmiş böhranın nəticəsində məşğulluq sahəsindən kənarda qalmış, işsizlər statusu qazanmışlar. Bu işsizlərin yaranması bütün əhalinin həyat keyfiyyətinə əsaslı şəkildə təsir göstərir. Lakin eyni zamanda da əhalinin bu hissəsi məşğulluq statusunu dəyişib, özünün dəyərlilik – normativ ustanovkaları, istehlak strukturu, həyat keyfiyyəti və tərzi ilə, identifikasiya meylləri və həyati dəyərləri ilə qrup müəyyənliyi cəhətlərini formalaşdırmışdır. Beləliklə, yeni sosial qrup proseslərinin bütöv bir kompleksi, qrup şüuru, qrup konsolidasiyası və inteqrasiyası fenomeninin təşəkkülü reallaşmışdır.

Şəxsiyyətin yeni, tamamilə müxtəlif sosial və sosial-psixoloji tipləri arasında ziddiyyətlər həyat fəaliyyətinin çox rəngarəng tərəflərini: əməyi və əmək motivasiyası sferasını, maddi vəziyyəti və bütövlükdə həyatın keyfiyyətini əhatə edir. Digər tərəfdən, mülkiyyət münasibətləri sistemində dəyişikliklər vətəndaşların müxtəlif qruplarının iqtisadi müstəqilliyini, sahibkarların, aksionerlərin korporasiyalarının nisbi qapalılığı ilə, adaptasiya resursu ilə səciyyələnən keyfiyyətcə yeni əmək assosiasiyalarını formalaşdırır.

Ölkə əhalisinin kəskin və getdikcə güclənən təbəqələşməsi (yoxsullar təxminən – 35%, az təmin olunmuşlar – 30 %, orta təmin



olunmuşlar – 21 %, yüksək təmin olunmuşlar – 10%-ə qədər və varlılar – 5%; bu nisbət regionlar üzrə tərəddüd edir) cəmiyyətin sosial qütbləşməsini sübut edir. Bu proses əhalinin böyük hissəsinin nəzərində kifayət qədər legitimliyə malik deyildir, bu proses bəzən islahatların "toxunduğu" əhalinin ayrı-ayrı təbəqələrinə, eyni zamanda bütövlükdə sistemə qarşı sosial dözümsüzlük formalaşdırır ki, bu da təbii olaraq nə cəmiyyətin inteqrasiyasına, nə harmoniyaya və nə tolerantlığa kömək edir.

Eyni zamanda da başa düşmək lazımdır ki, maddi vəziyyəti onları orta varlılıq həddindən və hətta yoxsulluq həddindən kənara atdığı insanlar baş verənlərə qiymət verilməsində daha tənqididirlər, lakin onlar həm də bazar – yenidənqurmalarının vəziyyətini və perspektivlərini daha real qavrayırlar.

Sosial münasibətlərin mahiyyətinin tərəfdaşlıq münasibətləri kimi (dözümlü, etibarlı) və yaxud münaqişəli (barışmaz) münasibətlər kimi qiymətləndirilməsi proseslərin və hadisələrin, bəyan edilən demokratik dəyərlərin, onların ümumbəşəri dəyərlər haqqında təşəkkül tapmış təsəvvürlərə (stereotiplərə) adekvatlığının qrup qavrayışının xüsusiyyətlərini əks etdirir. Ən ümumi planda bu, "etibar" anlayışı ilə, sosial-iqtisadi inkişafda onun təbiəti və rolu ilə birləşir.

Status və hakimiyyət qruplarının formalaşması meylini gəlirin səviyyəsi və bütövlükdə maddi vəziyyət sübut edir. Respondentlərin il ərzində öz büdcələrinin vəziyyətinə obyektiv və subyektiv qiymət verməsinə dair statistik məlumatlara əsaslanaraq, maddi vəziyyətlərinə görə fərqlənən aşağıdakı qrupları göstərmək olar:

- varlı qruplar – yüksək həyat səviyyəsini təmin etmək üçün kifayət edən maddi vasitələrə malikdirlər;
- təmin olunmuş qruplar – uzun müddət istifadə olunan predmetləri təzələmək üçün, kreditin köməyi ilə mənzil şəraitini yaxşılaşdırmaq üçün kifayət edəcək maddi vasitələrə malikdirlər;
- aztəminatlı qruplar – maddi vasitələr yalnız gündəlik xərclərə çatır;
- kasıblar – yalnız həyatlarını təmin etmək üçün minimum vasitələrə malikdirlər.

Beləliklə, münaqişəlilik və yaxud həmrəylik, dözümlülük və yaxud dözümsüzlük kateqoriyalarında gerçəkliyin sosial qavranılması siste-minin formalaşmasının yalnız bəzi aspektlərinin hətta qısa təhlili göstərir

ki, hazırkı vaxtda rus cəmiyyətinin sosial-struktur münasibətlərində baş verən dəyişikliklərin mahiyyəti nəinki sosial qrup və təbəqələrin, iyerarxiyanın və rol funksiyalarının ümumi kompozisiyası və nisbəti ilə, eyni zamanda kifayət qədər sabit və sosial cəhətdən istiqamətləndirilmiş münasibətlər haqqında təsəvvürlərin yeni sistemi ilə bağlıdır.

İnsanlar sosial məkanda öz vəziyyətlərini adekvat olaraq qiymətləndirməyə başlayır, hakimiyyətə, mülkiyyətə, sosial statusa sahib olmaq dərəcəsində cəmiyyətin sosial qrupları və təbəqələri arasında mövcud olan konkret fərqləri dərk edirlər. Cəmiyyətin formalaşmaqda olan stratifikasiya modeli həm obyektiv reallığa, həm də şəxsiyyətin, qrupun, sinfin subyektiv mənlik şüuruna çevrilir.

Transformasiya yenidənqurma prosesində dəyişikliklərə yaxşı uyğunlaşmış yeni resurs qrupları da meydana gəlmişdir: elit qruplar, orta sinif, menecerlər, sahibkarlar və başqaları – qısası, öz sosial kapitalından uğurla istifadə edənlərin və islahatda olan Rusiyanın aktiv subyektinə çevrilənlərin hamısı.

Vaxtilə P. Sorokin qeyd edirdi ki, sosial diferensiasiya problemi fərdlərin statuslarının qruplararası fərqlərinə deyil, qrupdaxili fərqlərinə istiqamət götürməklə həll olunur. Məhz buna görə də muzdlu işçilər sinfinin öyrənilməsi zamanı əmək münasibətlərinə, əmək münaqişəsinə, əmək avtonomiyasına, təkrar məşğulluğa xüsusi diqqət yetirilir, keçmiş işsizlər qrupları və onların adaptasiyası, müxtəlif peşə təhsili olan qruplar, məskunlaşma yerlərində (şəhər, qəsəbə, kənd) müxtəlif yaş qrupları seçilib fərqləndirilir.

Qeyd edilməsi maraqlıdır ki, muzdlu işçilər məşğulluq sektorundan – dövlət və qeyri-dövlət sektorundan – asılı olaraq əməli surətdə bütün göstəricilər üzrə: təhsil və peşə hazırlığı səviyyəsinə, maddi vəziyyətinə, sosial əhval-ruhiyyəsinə, əmək motivasiyasına görə, bazar münasibətlərinə uyğunlaşma dərəcəsinə görə bir-birindən əhəmiyyətli dərəcədə fərqlənirlər.

Digər göstərilənlərlə yanaşı Rusiya cəmiyyətinin spesifikası bundan ibarətdir ki, qloballaşma prosesi sosietal transformasiyanın sosial bərabərsizliyin dərinləşməsi ilə və marginal təbəqələrin (D. Kouplendin obrazlı ifadəsi ilə deyilsə, "iks nəslinin") artması ilə müşayiət olunan ziddiyyətli proseslə (dünya ədəbiyyatında brazilifikasiya adını almış proses) bağlanır.

Rusiya cəmiyyətinin transformasiyası labüd surətdə nəinki sosial



strukturun dəyişikliklərinə səbəb olmuşdur, eyni zamanda da ənənəvi birliklər qarşısında fərdi və qrup sosial identikliyin, inteqrasiya və dezinteqrasiyanın dərk edilməsi haqqında, sosial iyerarxiyada yeri, həmrəylik haqqında, yekdilliyin səviyyəsi, dəyərlər sistemi haqqında məsələni kəskin şəkildə qoymuşdur.

## Testlər

1. Sosial struktur deməkdir:
   a) bir-biri ilə qarşılıqlı əlaqədə və qarşılıqlı təsirdə olan sosial qrupların, sosial institutların və onlar arasındakı münasibətlərin məcmusudur;
   b) qarşılıqlı təsirdə olan sosial birliklər və qrupların məcmusudur;
   v) qarşılıqlı təsirdə olan etnosların məcmusudur.

2. Stratifikasiya strukturunun əsası:
   a) bərabərlikdir; b) bərabərsizlikdir.

3. Özünün bütün üzvlərinin real bərabərliyinə malik cəmiyyətlər mövcuddurmu?
   a) bəli; b) yox.

4. Sosial fərqlərin mənbəyi:
   a) sosial quruluş barədə insanların rəyləri;
   b) ictimai əmək bölgüsü;
   v) peşə – müqavilə münasibətlərinin inkişafı.

5. Stratifikasiya əlamətləri:
   a) peşə; d) təhsil;
   b) yaş; y) gəlir;
   v) yaşayış yeri; j) özünüidentifikasiya.
   q) milliyyət;

6. Sosial təbəqə (strata) deməkdir:
   a) aralarında bərabərsizliyin hökm sürdüyü və qlobal sosial struktur sistemində müxtəlif yer tutan sosial-iqtisadi qruplardır;
   b) məkanda səpələnmiş və həmrəy qarşılıqlı təsirdə olan böyük qruplardır.

7. Bərabərsizliyin köklərinin sözün geniş mənasında hakimiyyətə gedib çıxdığını güman etmişdir:
a) P. Sorokin; b) E. Dürkheym; v) M. Veber.

8. P. Sorokin tərəfindən fərqləndirilmiş üç stratifikasiya strukturunu sadalayın:
a) mənəvi; b) sosial; v) iqtisadi;
q) siyasi; d) peşə strukturları.

9. P. Ştompka – kitabın müəllifidir:
a) "Gələcək qarşısında şok";
b) "Sosial dəyişikliklər sosiologiyası".

10. Sosial mobillik deməkdir:
a) fərdin sosial nərdivan üzrə yuxarıya doğru yerdəyişməsidir;
b) fərdin istənilən sosial miqyasda yerdəyişməsidir.

11. Məşğul əhali bölünür:
a) muzdla işləyən əhaliyə;
b) müqavilə ilə işləyən əhaliyə;
v) muzdsuz işləyən əhaliyə.

12. Müasir Rusiya cəmiyyətinin sosial strukturu xarakter daşıyır:
a) sinifsiz xarakter; v) sinfi xarakter.
b) sinif-təbəqə xarakteri;

13. Müasir Rusiyada:
a) orta sinif formalaşmışdır; b) orta sinif formalaşır.

14. "İks nəsli" ideyasının müəllifi:
a) D. Kouplend; b) M. Markoviç; v) R. Merton.

Cavablar

**1** – a; **2** – b; **3** – b; **4** – b; **5** – a, b, d, e, j; **6** – a; **7** – v; **8** – v, q, d; **9** – b; **10** – b; **11** – a; v; **12** – b; **13** – b; **14** – a.



# 5-Cİ FƏSİL. CƏMİYYƏT VƏ DÖVLƏT

## 5.1. Dövlət cəmiyyətin bir hissəsi kimi

Cəmiyyət lap qədim dövrlərdən mövcud olmuşdur. O vaxtlar nə ölkələr vardı, nə dövlətlər. Xalqların köçünün başa çatması ilə dövlətlər formalaşmağa başlamış, sərhədlər və bunun nəticəsi olaraq ölkələr meydana gəlmişdir. *Ölkə* anlayışı eyni zamanda insanların təbii olaraq təşəkkül tapmış birliyini və dövlət sərhədlərinə malik siyasi qurumu ifadə edir, halbuki *dövlət* adı altında ölkədə hakimiyyətin siyasi təşkilini başa düşürlər. Bu hakimiyyət də müəyyən idarəetmə formasını (monarxiya, respublika), dövlət quruluşu formasını (unitar, federativ), siyasi rejim növünü (avtoritar, demokratik) özündə birləşdirir.

"Dövlət" sözü latıncadakı stare (qalmaq) sözündən olub, sabitlik, daimilik ideyasını özündə daşıyır. Dövlət elə vətəndaşların mənafelərinin müdafiəsi üçün yaradılmışdır, yəni dövlət xalqın xidmətçisi kimi çıxış edir, doğrudur; xalq hökm verəninə də çevrilə bilər.

Dövlət idarəetmə funksiyasını yerinə yetirir. Dövlətin fərqləndirici cəhətini suverenlik təşkil edir. Dövlətin suverenliyi ölkə daxilində ali hakimiyyətin (qanunları yaratmaq, ədaləti həyata keçirmək hüququ və s.) ona məxsus olmasında, həmçinin bunda ifadə olunur ki, dövlət beynəlxalq aləmdə müstəqil subyekt kimi çıxış edir. Onun şəxsiyyətlə qarşılıqlı münasibətlərinin xarakteri bütövlükdə cəmiyyətinin durumunun, onun inkişaf məqsədləri və perspektivlərinin mühüm göstəricisi kimi çıxış edir. Dövlətin əhəmiyyəti istər onun insana və cəmiyyətə münasibətdə asılı olmaması və müstəqilliyi ilə, eyni zamanda ictimai münasibətlərə təsir etmək vasitələrinə inhisarçı hüquqları ilə müəyyən olunur. Dövlət – nəinki müntəzəm şəkildə idarəetmə ilə məşğul olan, xüsusi qaydada təşkil olunmuş insanlar qrupudur, eyni zamanda cəmiyyətin əhalinin ərazi, yuridik və siyasi birliyini təmin edən daxili quruluşudur. Dövlətlə şəxsiyyət arasında siyasi-hüquqi əlaqə mövcuddur ki, bu da şəxsin konkret dövlətə, yuridik mənsubluğunu, şəxsiyyət tərəfindən spesifik dövlət vətəndaşı keyfiyyətlərinin qazanılmasını, vətəndaşların və dövlətin qarşılıqlı hüquq və vəzifələri dairəsinin mövcud olmasını, həmçinin ölkə daxilində və onun hüdudlarından kənarda vətəndaşın dövlət tərəfindən müdafiə edilməsini şərtləndirir.

## 5.2. Vətəndaş cəmiyyəti

Cəmiyyətin digər, qeyri-dövlət hissəsinin ifadə edilməsi üçün "vətəndaş cəmiyyəti" terminindən istifadə olunur. Vətəndaş cəmiyyəti üçün fərdlərin və vətəndaşların könüllü formalaşmış assosiasiyaları və təşkilatlarının spontan surətdə özünü təzahür etdirməsi, dövlət hakimiyyət orqanlarının birbaşa müdaxiləsindən və vətəndaşların fəaliyyətinin özbaşına tənzim edilməsindən müdafiə olunma səciyyəvidir. "Vətəndaş cəmiyyəti" anlayışı müasir cəmiyyətin və müasir dövlətin münasibətlərinin bütün kompleksinin dərk edilməsi üçün çox mühüm olan anlayışlardan biridir.

Vətəndaş cəmiyyəti və dövlət – identik anlayışlar deyillər. Vətəndaş cəmiyyəti sferasında bizim diqqətimizi cəlb edən xüsusi, siyasi olmayan, sıravi insandır, xüsusi maraqların daşıyıcısı, xüsusi hüququn subyekti olan insandır. "Vətəndaş cəmiyyəti" anlayışının formalaşması real mövcud olan dövlət haqqında təsəvvürə qarşı duran təbii qayda ideyasına gedib çıxır.

Aristotelə görə vətəndaş cəmiyyəti və yaxud siyasi cəmiyyət birlik formalarından biridir. Vətəndaş cəmiyyəti ailədən fərqlənərək həmçinin etnosa, xalqa, yəni barbarlar üçün və "sosial-siyasi heyvan" kimi insanın təbiətinin tam şəkildə reallaşmamış olduğu bir sıra yunanlar üçün səciyyəvi olan ən aşağı təşkilat formasına qarşı durur.

Avqustin Blajennı Yer üzərindəki cəmiyyəti Allahın dövlətinə qarşı qoyur. İki səltənət arasındakı əkslik öz başlanğıcını insanın süqutundan götürür. Siyasi cəmiyyətlər eyniqiymətli deyillər. Məsələn, sülhü təmin edən və əzəmətə, hökmranlığa səy göstərilməsi cəhdinə nəzarət etməyə imkan verən cəmiyyət bütün digər cəmiyyətlərə üstün gəlir. O, respublikanı belə cəmiyyət hesab edirdi.

T.Hobbs ehtimal edirdi ki, cəmiyyət halında birləşənə qədər müharibə insanların təbii vəziyyətini təşkil edirdi və sadəcə müharibə deyil, "hamının hamıya qarşı müharibəsi" təşkil edirdi, nə zaman ki, kim nə istəsə edə bilərdi. Lakin belə vəziyyət sülh marağında olan insan üçün xoşbəxtlik deyildi. Sülhə yalnız süni yolla – müqavilə yolu ilə nail olmaq mümkündür. Dövlət hakimiyyət və ədalətin təcəssümü olaraq məhz müqavilə üzərində qurulur. Beləliklə, Hobbs vətəndaş cəmiyyətini təbii vəziyyətə qarşı qoyur. Məhz cəmiyyət "hamının hamıya qarşı müharibəsi"nə son qaymağa və insanda humanistliyin inkişafını təmin etməyə imkan verir, bununla da əzəmətli, güclü siyasi hakimiyyət qurur ki, bu da insanları azadlıqdan məhrum etmək hüququna malik deyildir. J.J. Russo da oxşar mövqe tuturdu. Onun konsepsiyasına görə müqavilənin sayəsində "təbii qayda" "pozitiv qaydaya" çevrilir. Russoda vətəndaş cəmiyyəti həmçinin insanın təbii vəziyyətinə qarşı qoyulur. Lakin Hobbsdan fərqli olaraq fransız mütəfəkkiri vətəndaş cəmiyyətinin təsiri altında deqradasiyaya uğrayan insanın "təbii vəziyyətini" müsbət qiymətləndirir.



Vətəndaş cəmiyyəti sosioloji və siyasi nəzəriyyənin istər nəzəri və istərsə də praktik əhəmiyyətə malik olan anlayışları (azadlıq, ədalət, bərabərlik, demokratiya anlayışları ilə yanaşı) sırasına daxildir. Bu qəbildən olan anlayışları müəyyənləşdirmək o qədər də asan deyil, belə ki, bu anlayışlar son dərəcədə məzmun genişliyinə görə böyük qeyri-müəyyənlik "zonasına" malikdir ki, bu da onların izahında xeyli fərqlər yaradır.

Bununla belə vətəndaş cəmiyyəti anlayışının iki spesifik funksiyasını: nəzəri-analitik və normativ funksiyalarını fərqləndirmək olar. Nəzəri-analitik funksiya sosial reallıq hadisələrinin təhlili və izahı üçün nəzəri kateqoriya kimi işlədilir. Elə bu mənada da vətəndaş cəmiyyəti – başlıca subyektlərinin öz hüquqları ilə birlikdə vətəndaşdan və vətəndaş təşkilatlarından (siyasi olmayan və dövlət təşkilatları olmayan), assosiasiyalar və birliklərdən, ictimai hərəkatlar və vətəndaş institutlarından ibarət olduğu ictimai kommunikasiyaların və sosial əlaqələrin, sosial institutların və sosial dəyərlərin spesifik məcmusunu ifadə edən aqreqat anlayışdır.

Normativ funksiyada vətəndaş cəmiyyəti anlayışı başlıca olaraq normativ konsepsiya statusuna malikdir. Bu konsepsiya isə vətəndaşların və digər sosial subyektlərin vətəndaş fəallığının müxtəlif məzmun və formalarının inkişafına həvəsləndirilməsinə və səfərbər edilməsinə kömək edir. Bu funksiya transformasiya vəziyyətində olan cəmiyyətlərdə xüsusi əhəmiyyət kəsb edir.

Vətəndaş cəmiyyətinə aid tarixi konsepsiyalar və bu cəmiyyətin praktik modelləri üç müxtəlif mənbədən qaynaqlanan ideyaların və təcrübələrin əsasında meydana gəlmişlər.

Bu mənbələrdən biri Renessans dövrü İtaliya şəhər-respublikalarında vətəndaş cəmiyyətinin ilk rüşeymlərinin yaranmış olduğu Avropa

Aralıq dənizi ənənəsinin dərinliklərinə gedib çıxır. Bu ənənə N. Makiavellinin baxışlarında yaxşı müşahidə olunur. Makiavelli vətəndaş cəmiyyətinin üç mühüm dəyərlərini formulə edir və xüsusi nəzərə çatdırır. Bunlar da aşağıdakılardan ibarətdir: sülh və vətəndaşların təhlükəsizliyi, öz əmlakından və varidatından zövqalma, hər bir kəsin öz əqidələrinə malik olmaq və bu əqidələri müdafiə etmək hüququ.

Digər tarixi mənbə alman mədəni dünyasının təsiri altında formalaşmış Avropa – qitə ənənəsi ilə bağlıdır. Azad vətəndaşın meydana gəlməsinə çox cəhətdən sənətkarların, ticarətçilərin birləşdirilməsinin ilk formalarından biri, onları müdafiə etmiş və şəhərlərin idarə edilməsi prosesinə təsir göstərmiş assosiasiyaların ilk forması olan gildiya kömək etmişdir.

Üçüncü, daha əhəmiyyətli mənbə – liberal ingilis-amerikan ənənəsidir (təbii hüquq və azadlıq əsasında xüsusi mülkiyyət hüququnu müdafiə etmiş C. Lokk; vətəndaş cəmiyyətinin zəruri komponentləri olaraq modernləşməni və özünütənzimləməni dəfələrlə qeyd etmiş A. Smit; minimal dövlət konsepsiyasının müəllifi T. Peyn. Bu konsepsiya müstəqil vətəndaş cəmiyyətini və zəruri bəla kimi dövlətin olduqca məhdud rolunu nəzərdə tutur, dövlətin və ondan asılı olmayan vətəndaş cəmiyyətinin münasibətinin nümunəsini təsvir etmiş C.S. Mill). Sosiumun xüsusi, dövlətdənkənar sferası kimi vətəndaş cəmiyyətinin ardıcıl şərhi A.de Tokvilin "Amerikada demokratiya haqqında" əsərinin nəşrindən dərhal sonra Avropada verilməyə başlamışdır. Məhz Amerikada siyasi demokratiyanın formaları və vətəndaş cəmiyyətinin elementləri öz dövrü üçün optimal inkişaf tapmışdır, onlar arasında səmərəli qarşılıqlı təsir qərarlaşmışdır. Vətəndaşların könüllü assosiasiyaları hakimiyyət dairələrinin köməyinə gəlmişdir. İctimai həyatın "azad sferası" "cəmiyyətlər" deyilənlərlə, qeyri-dövlət müəssisələri ilə, dövlət hakimiyyəti sahəsindən kənardakı birliklərlə tamamlanmış, dolğunlaşmışdır. Dövlət əvvəllər yerinə yetirdiyi funksiyaların tam bir sırasından kənarlaşdırılmağa başlamışdı. Buna görə də cəmiyyət assosiasiya təşkil etmək qərarına gəlir. Artıq XIX əsrin sonunda şəxsiyyətin dövlətdən asılı olmaması kəskin şəkildə artmışdı, dövlətin birbaşa amiranə, komanda şəklində təsir etmək məkanı daralmışdı. Üfüqi sosial əlaqələrin sürətlə inkişafı və mürəkkəbləşməsi prosesində cəmiyyətin strukturlaşması güclənmiş, yeni ictimai təşkilatlar və hərəkatlar meydana gəlmişdir. Bu da vətəndaş



cəmiyyətinin "Lokk" inteqrasiya nəzəriyyəsinin "Tokvil" şərhi tərəfindən sıxışdırılmasına şərait yaratmışdı. Birinci Dünya Müharibəsindən sonra dövlət qurumlarının və ictimai qurumların demokratikləşməsi prosesi güclənir.

XIX əsrin əvvəllərindən başlayaraq bizim günümüzə qədər bu anlayışın inkişafının dixotomik nəzəri paradiqma şəklində bir-birinə əks olan iki inkişaf xətti saxlanılmaqdadır: vətəndaş cəmiyyəti – siyasi dövlət.

Bir xətt alman mədəni ənənəsinə söykənir ki, bu da G.V.F. Hegelin və K. Marksın əsərlərində özünün zirvəsinə çatmışdır. Hegel liberalizmə və universal dövlət ideyasına üstün gəlməyə çalışır. O göstərirdi ki, dövlət nə fasiləsiz "hamının hamıya qarşı müharibəsi" vəziyyətində olan cəmiyyətin radikal neqasiyası (Hobbs) və nə də onu təkmilləşdirməyin aləti deyildir (Lokk), vətəndaş cəmiyyətinin transformasiyası və transsendensiyası məqsədilə onun müstəqilliyini qoruyan yeni hadisədir. Yalnız dövlət mütləq ruh və universal siyasi birlik kimi ümumi marağı təmin etməyə qadirdir.

Hegel üçün vətəndaş cəmiyyəti – ailəyə və dövlətə əks qoyulan, lakin onlarla qarşılıqlı əlaqədə olan xüsusi və qrup maraqlarının sistemidir, haradakı hər bir kəs yalnız özünün məqsədlərinə can atır, lakin başqaları ilə əlaqədə olmasa, bu məqsədlərə çata bilməz; bu halda dövlət əxlaqi-siyasi birliyə, ümumi maraqların qorunmasına cavabdehdir.

Marks vətəndaş cəmiyyəti ilə dövlət arasında fərqi dövlətin və siyasətin necə deyərlər, ictimailəşdirilməsi yolu ilə aradan qaldırılmasını təklif etmişdir. Bu da onunla nəticələnmişdir ki, dövlət cəmiyyətlə bərabərləşdirilmiş, cəmiyyətin yeganə müdafiəçinə çevrilərək, onu udmuşdur, Marks üçün vətəndaş cəmiyyəti xüsusi mülkiyyətə əsaslanan cəmiyyətdir. Marksın təsəvvür etdiyi kimi, bu cəmiyyətdə sosial münasibətlər dövlətin meydana gəlməsini qabaqcadan müəyyən edən sinfi antaqonizmlər formasını alır.

Mahiyyət etibarı ilə bu yanaşma siyasi tərəfin üstünlüyü ilə, dövlətin şöhrətləndirilməsilə, institusional qaydanın əhəmiyyətliliyi ilə, kollektivçilik oriyentasiyası ilə səciyyələnir. Diqqət ictimai məsələlərin siyasi həlli üzərinə, yəni bu məsələlərin dövlət tərəfindən həlli üzərinə yönəldilir. Hələ vaxtı ilə Russonun yaratmış olduğu klassik formula görə suveren xalqın aliliyini bilavasitə özündə təcəssümləşdirmiş olan dövlət

ayrıca şəxsiyyətdən yüksəkdir və məcbur etmək hüququna malikdir. Yakobinçilər və sonralar da bolşeviklər terrora bəraəti bəlkə elə bu formulda tapmışdılar?

Bu xətt sosial-demokratik ənənəsində özünün sonrakı inkişafını tapmışdır. Vətəndaş cəmiyyəti bütün siyasətin əsası, özəyi kimi qəbul olunur. Burada ədalətə, bərabərliyə səy göstərilməsi daha çox inkişaf etmişdi. Özünün hakimiyyət münasibətləri ilə birlikdə dövlət vətəndaş institutlarının fəaliyyətinin təmin edilməsində iştirak etməlidir ki, onların demokratikcəsinə idarə edilməsinə zamin olsun, özünün məntiqi ilə bir araya sığa bilməyən nə varsa, hər şeyi udmağa və məhv etməyə can atan bazarı sıxışdırsın.

Bu yanaşma liberal dövlətin "gecə gözətçisi" olması ideyasını rədd edir və qeyd edir ki, dövlət demokratik və sosial dövlət olmalıdır.

Vətəndaş cəmiyyəti konsepsiyasının liberal inkişaf xətti ağırlıq mərkəzini azadlıq üzərinə keçirir və onu bütün dəyərlərdən yüksək tutur. Fərdi hüquqların və azadlıqların qoruyucusu kimi, dövlətin qəsdlərindən qoruyucusu (təminatçısı) kimi çıxış edən vətəndaş cəmiyyətinin özünütənzimləmə funksiyasına xüsusi diqqət yetirilir. Belə yanaşmada vətəndaş cəmiyyəti ondan ötəri lazımdır ki, fərd və dövlət arasında münasibətlərdə bir sıra müdafiə strukturları yaratsın.

Vətəndaş cəmiyyətinin mərkəzi siması azad və müstəqil, asılı olmayan şəxsiyyətdir. Bu cür yanaşmanın tərəfdarları bütün diqqəti ailə, kilsə, professional, lokal və s. assosiasiyaları məhv edə biləcək dövlətin destruktiv, dağıdıcı enerjisi üzərində cəmləşdirirdilər; burada onlar unudurdular ki, vətəndaş institutlarının özləri ekpansionizm nümayiş etdirərək (məsələn, bazar) bir-birini dağıda bilərlər. Burada aksent ictimainin primatlığı, üstünlüyü üzərinə, hüquq və azadlıqların, assosiativlik və özünütəşkil, fərdiyyətçi dəyərlilik oriyentasiyaları üzərinə keçirilir. İctimai problemlər cəmiyyət tərəfindən həll edilir, dövlət isə cəmiyyətin və şəxsiyyətin maraqlarına xidmət göstərir.

Bu konsepsiya ABŞ-da geniş yayılmışdır. Ehtimal ki, onun sayəsində belə olmuşdur ki, azad torpaqda azad insanların özünüidarəsi dövlət idealı olmuşdur, istənilən icra hakimiyyəti (inqilab dövründə bu hakimiyyət müstəmləkə idarəsi ilə assosiasiya təşkil edirdi) inamsızlığa səbəb olurdu, bürokratiya isə artıq demokratiya bazasında meydana gəlmişdir. Avropada isə siyasi sistemin demokratikləşməsi idarəetmə aparatının – bürokratiyanın – meydana gəlməsindən xeyli sonra baş



vermişdir. Bu idarəetmə aparatı həmin vaxta kimi formalaşa bilmişdi və demokratiyanın siyasi sistemlərinə çətinlik çəkmədən daxil olmuşdu.

Dövlətin və vətəndaş cəmiyyətinin münasibəti barədə diskussiyalar indiyə qədər davam etməkdədir. Məsələn, E. Arato hesab edir ki, dövlətin və vətəndaş cəmiyyətinin bir-birindən sadəcə fərqləndirilməsi ingilis liberal ənənəsindən irs qalmışdır. Kapitalizmin inkişaf etməsilə dövlət sıxışdırılmağa başlamışdı ki, "bazarın ecazkar qüvvəsini" azad etmək mümkün olsun. Buna görə də dövlətin və vətəndaş cəmiyyətinin dixotomik qaydada bir-birinə qarşı qoyulmasının əvəzində müəllif üç hissədən: dövlət, vətəndaş cəmiyyəti və iqtisadiyyatdan ibarət olan model təklif etmişdir. T.Yansson dövlətin və vətəndaş cəmiyyətinin münasibətini səciyyələndirərək hesab edir ki, qarşımızda dramatik üçbucaq durur: onun zirvəsində dövlət yerləşir, aşağıda bucaqların birində – yerli özünüidarə, ictimai sferaya və dövlətə aid olan bələdiyyələr və digər bucaqda isə Bentamın qaydası üzrə idarə olunan, "xüsusi, sosial, azad sferada" yerləşən könüllü birliklər dururlar. Bentam qaydasına görə cəmiyyətin məqsədi mümkün qədər daha çox vətəndaş üçün daha böyük səadətə nail olmaqdır.

Nəticədə də müəyyən cəmiyyətlərdə kommunalist tipi (yerli özünüidarəyə aksent edilməklə), digər cəmiyyətlərdə isə "assosiativ" tip daha çox yayılmışdır. Könüllü təşkilatlar ümummilli təşkilatlara çevrilir və bütün ölkənin xalqını birləşdirirdi.

Burada qeyd etmək vacibdir ki, tarix boyunca konkret siyasi-iqtisadi vəziyyətdən və mədəni mühitdən asılı olaraq istər dövlətin əlamətlərinin (bütün ölkə miqyasında siyasi hakimiyyətin ərazi təşkili; siyasi hakimiyyətin xüsusi mexanizmə, bilavasitə cəmiyyəti idarə edən orqanlar və idarələr sisteminə malik xüsusi təşkilatı; ictimai həyatın hüquq əsasında təşkili; dövlət hakimiyyətinin aliliyi), istərsə də onun mahiyyətinin və meydana gəlməsi səbəblərinin başa düşülməsi dəyişmişdir.

Son onilliklərdə vətəndaş cəmiyyəti ideyası plüralizmə, bir-biri ilə rəqabətdə olan sosial qrupların konsensusuna və tərəfdaşlığına, dövlət hakimiyyətinin hüquqi normalarla məhdudlaşdırılmasına, insanın fərdi azadlığına, sosial sferanın optimallaşmasına əsaslanan demokratiya ideyaları ilə tamamlanaraq, genişlənmiş və dərinləşmişdir. Plüralizm nəzəriyyəsi geniş yayılmışdı. Bu nəzəriyyəyə görə müasir demokratik dövlətin başlıca vəzifəsi əhalinin müxtəlif qruplarının çoxsaylı maraq və

tələbatlarının uçota alınması və koordinasiyası yolu ilə, ziddiyyətlərin aradan qaldırılması və yaxud yumşaldılması, vətəndaş həmrəyliyinin axtarılıb tapılması yolu ilə ümumvətəndaş konsensusuna nail olmaqdan ibarətdir. Bu halda dövlət insanların fərdiliyin "əriyib heç olduğu" simasız kollektiv birliyi kimi deyil, həmrəylik əsasında birləşmiş azad fərdlərin birliyi kimi qavranılır. Lakin, praktikanın göstərdiyi kimi, dövlət institutları heç də həmişə vətəndaş cəmiyyətinin demokratikləşdirilməsinin səmərəli aləti kimi çıxış etmir, belə ki, bu institutların möhkəmləndirilməsi bir çox hallarda dövlət hakimiyyətinin bürokratikləşməsinə və gücləndirilməsinə gətirib çıxarır.

Bir çox xarici ölkə sosioloqları və politoloqları üçün "vətəndaş cəmiyyəti" anlayışının çoxdan Qərb cəmiyyətlərinin inkişafının ideal modelinin təcəssümünə çevrilməsinə baxmayaraq indiyə qədər "vətəndaş cəmiyyətinin" hamı tərəfindən qəbul edilən vahid nəzəriyyəsi işlənib hazırlanmamışdır. Bu, sosial gerçəklikdə vətəndaş cəmiyyətinin normal vəziyyətinin iqtisadi, sosial, siyasi, əxlaqi parametrlərinin unifikasiya oluna biləcək qəti parametrlərin mövcud olmaması ilə izah olunur. Başqa sözlə, xalis şəkildə şərh edilmiş modellərə uyğun olan cəmiyyətlər mövcud deyildir.

Bununla əlaqədar olaraq bir çox tədqiqatçılar hər iki modelin və ənənənin məhdudluğunu qeyd edərək, vətəndaş cəmiyyətinin müxtəlif sferaları arasında sərhədləri, onlarda baş verənləri tənzimləməyə səy göstərmədən möhkəmləndirmək ideyasını irəli sürürlər. Dövlət iqtisadi bərabərsizliyin siyasi sistemə təsirini hər vəchlə məhdudlaşdırmalıdır. Yetkin vətəndaş cəmiyyəti dövlət üçün təsbit olunmuş funksiyaların miqdarını minimuma endirir, dövlət üçün ən mühüm olan funksiyalar: hüquqi qaydanın və şəxsiyyətin təhlükəsizliyinin təmin edilməsi, ətraf mühitin mühafizəsi funksiyalarını və s. saxlayır.

Vətəndaş cəmiyyətinin əsas elementləri birinci növbədə insanın və vətəndaşın hüquq və azadlıqları, hüququn aliliyi, cəmiyyətin muxtariyyəti, vətəndaş mədəniyyətidir (demokratik və yaxud partisipativ mədəniyyət, KİV-nin azadlığı və s.) vətəndaş cəmiyyəti ilkin, amorf vəziyyətdə idi.

Qərb ölkələrindən fərqli olaraq Rusiyada vətəndaş cəmiyyəti anlayışı istər nəzəri və istərsə də praktik mənada ənənəvi olaraq cüzi, hətta demək olar, marginal "mövqe" tutmuşdur, buna görə da indiyə qədər həmin anlayış formalaşma mərhələsindədir; vətəndaş



cəmiyyətinin bir çox elementləri sıxışdırılıb aradan çıxarılmış və yaxud "blokadaya alınmışdır". Biz vətəndaş cəmiyyətinin məzmunca və inkişaf dərəcəsinə görə müasir açıq və demokratik cəmiyyətə adekvat olmayacağı situasiyanı nəzərdə tuturuq. Onun yalnız muxtar ictimai həyatın kiçik sahəsinə sıxışdırılmış elementləri vardır. Bu barədə bir qədər ətraflı dayanaq.

Rusiya ənənəvi olaraq cəmiyyətdən daha çox dövlət yönümlü ölkələrə aiddir. Güclü dövlətin zəruriliyinə inam dərin kök salmışdır. Bu da təəssüf ki, hakimiyyətin özbaşınalığı ilə əvəz olunmuşdur. Cəmiyyət isə kifayət qədər avtonom və müstəqil deyildir, vətəndaşlar isə çox vaxt dövlətin və çox hökmlü siyasətçilərin mərhəmətinə möhtac qalmışlar və ya qalmamışlar. Rusiya dövlətinin tarixini yada salaq. Bu dövlətdə dövlət idarəçiliyinin Şərq və Avropa formaları çox qəribə və eklektik şəkildə bir-biri ilə culğaşmışdır. A. Qramşinin obrazlı dediyi kimi: "Şərqdə (Rusiyada da) dövlət hər şey idi, vətəndaş cəmiyyəti ilkin, amorf vəziyyətində idi. Qərbdə dövlətlə vətəndaş cəmiyyəti arasında qarşılıqlı münasibətlər qaydaya salınmışdır və əgər dövlət büdrəməyə başlayırsa, dərhal vətəndaş cəmiyyətinin möhkəm strukturu özünü açıq göstərməyə başlayırdı. Dövlət yalnız ön xətt idi ki, ondan arxada qalaların və qazamatların möhkəm bir zənciri vardı".[1]

Bu tarixi və yaxud ənənəvi əsaslara Rusiyada vətəndaş cəmiyyətinin inkişafını ləngidən müasir səbəbləri də əlavə etmək olar.

Vətəndaş cəmiyyəti müəyyən mənada ictimai islahatların mümkün istiqamətini müəyyən etmiş tənzimləyici ideyaya çevrilmişdir. Bu kontekstdə vətəndaş cəmiyyəti kateqoriyası normativ xarakter kəsb etmişdir: o, nə isə mövcud olan bir şeyi deyil, həyata keçirilməli "olanı" təsvir etməklə, dəyişikliklərə tələbatı və bu dəyişikliklərin istiqamətini, başqa bir vəziyyətin, başqa bir cəmiyyətin alternativini ifadə edir.

Cəmiyyətin müasir anlayışı istər XVIII əsr Maarifçilik ideologiyasına, istərsə də XIX əsr liberalizminə əsaslanmışdır. İqtisadi cəmiyyət dövlətlə münasibətdə avtonomdur. Bu avtonomluq hər bir kəsin azadlığına əsaslanır, lakin bu azadlıq sanki özü ən ümumi xoşbəxtliyə kömək edir.

XX əsrdə vətəndaş cəmiyyəti getdikcə daha artıq dərəcədə mülkiyyət formaları ilə və varlılar təbəqəsinin siyasi iştirakının

[1] *Грамши А.* Избр. соч. М., 1957. Т.3. С.200.

məhdudlaşdırılması ilə müəyyən olunurdu. Cəmiyyət adətlərə, ənənələrə və "üçüncü təbəqənin" maraqlarına söykənən bir növ sosial qaydaya çevrilmişdir.

Fəlsəfi nöqteyi-nəzərdən "cəmiyyət" anlayışı məzmunca "vətəndaş cəmiyyəti" anlayışı ilə ümumi və xüsusi kimi nisbətdədir. Sosial-fəlsəfi təhlil çərçivəsində vətəndaş cəmiyyəti cəmiyyətdəki qeyri-siyasi, mənəvi və iqtisadi münasibətlərin bütöv məcmusu kimi, insanların həyat fəaliyyətinin fərdlərin qanunla qorunan hüquqları və azadlıqlarının spontan özünütənzimləməsi ilə səciyyələnən sferası kimi müəyyənləşdirilir.

### *Vətəndaş cəmiyyətinin funksiyaları*

Vətəndaş cəmiyyətinin aşağıdakı funksiyalarını fərqləndirirlər:

- özünütənzimləmə. Özünütənzimləmə mexanizmi ayrı-ayrı vətəndaşların maraqlarını və cəmiyyətin maraqlarını əks etdirən qanun normalarını tarazlaşdırır. Özünütəşkil vətəndaş cəmiyyətinin funksiyası olaraq öz inkişafını sosial səviyyədə tapır;
- sosial inteqrasiya. Vətəndaş cəmiyyəti üçün sosial inteqrasiyanın yüksək forması – dövlət tərəfindən həyata keçirilən xarici inteqrasiyaya əks olan sosial özünütənzimləmə səciyyəvidir;
- sosial subyektlərin (istər böyük siniflərin, etnik qrupların, istərsə də fərdlərin) özinkişafı. Vətəndaş cəmiyyətində şəxsiyyətin subyektivləşdirilməsi üçün ilk dəfə olaraq sosial şərait – əvvəlcə məhdud, sonra isə daha geniş şərait yaradılır;
- dövlət hüdudlarından asılı olmayaraq iqtisadi, siyasi, mədəni, informasiya həyat şəraitinin homogenləşdirilməsi.

İnsanın maraqlarının dövlətin maraqları üzərində prioritetliyi – vətəndaş cəmiyyətinin zəruri əlamətidir. Belə cəmiyyət insanın və vətəndaşın digər maddi dəyərlərə münasibətdə hüquqları, azadlıqları və maraqlarının üstünlüyünü elan edir.

"Vətəndaş cəmiyyəti" anlayışında iki məna – ideoloji və sosioloji mənalar iştirak edir. İdeoloji anlayış olaraq "vətəndaş cəmiyyəti" anlayışı nə isə bir ideal kimi təsəvvür olunur. Reallıq olaraq vətəndaş cəmiyyəti hüquqi dövlət, yəni hüququn aliliyinə, vətəndaşların hüquq və azadlıqlarının təminatlılığına, vətəndaşın və dövlətin qarşılıqlı məsuliyyətinə əsaslanan dövlətin mövcudluğu şəraitində ideala uyğun gələ bilər. Bu cür cəmiyyətin üzvləri könüllü olaraq müəyyən



məhdudiyyətləri qəbul edir və ümumi qanunlara tabe olmağı öhdələrinə götürürlər. Hüquqi dövlətdə qanunların mənbəyini totalitar dövlətə qarşı duran və onun tərəfindən əzilən hər şeyi təcəssümləşdirən vətəndaş cəmiyyəti təşkil edir.

Vətəndaş cəmiyyəti – elə bir sferadır ki, orada ayrıca şəxsiyyətlə tam arasında gərginlik, təkcə ilə ümumi arasında ziddiyyət eyni zamanda yaranır və aradan qaldırılır. Şəxsiyyətin marağı burada cəmiyyət tərəfindən fərdin ictimai quruluş çərçivəsində korporasiyalar tərəfindən idarə olunan "siniflər" və "sosial qruplar" institutlarına eyni vaxtda inteqrasiya edilməsi, yəni onun dövlət sisteminə daxil edilməsi vasitəsilə təsdiq olunur.

Məntiqi və xronoloji olaraq dövlət və ailə vətəndaş cəmiyyətindən əvvəl gəlirlər. Vətəndaş cəmiyyətində insan ehtiyac və əməklə tənzimlənən bir sistemdə yaşayır, burada fərd həmin cəmiyyətin övladına çevrilir. Bu "ehtiyaclar sistemi"ndə əmək insanın öz tələbatlarını qarşılıqlı təsir və qarşılıqlı asılılıq vasitəsilə təmin etməsinin mənbəyidir. Vətəndaş cəmiyyətinin konkret məzmunu ehtiyacların rəngarəngliyini təyin edir, elmlərin və sənətlərin tərəqqisi sayəsində əmək bölgüsünün təkmilləşdirilməsinə gətirib çıxarır. Vətəndaş cəmiyyətində hüquq təsadüfi meydana gəlmir, çünki fərdin öz qazancı dalınca qaçması fərdiyyətçilik atomizminə, "hamının hamıya qarşı müharibəsinə" gətirib çıxara bilər. Müasir şəraitdə vətəndaş cəmiyyəti təhlükəsizliyə əməl edilməsi, xüsusi mülkiyyətin və şəxsi azadlığın müdafiəsinin təmin edilməsi vəzifələrini həll edir. Beləliklə, dövlət ümumi marağı və qanunçuluğu qoruyur. Dövlət vətəndaş cəmiyyətinin imkanları içərisində kök salır, lakin həmçinin ən ümumidə təkcəni, təkcədə çoxluğu yerləşdirir: mütəşəkkil sosial birlikdə ümumi marağın tənzimləyicisi olan qanunvericilik çərçivələri mövcud olmadıqda korporasiyalar öz üzvlərinin münaqişələri və lüzumsuz ehtirasları ilə məhv edilərdilər.

Testlər

1. Dövlət:
   a) insanların müntəzəm olaraq idarəetmə ilə məşğul olan, xüsusi qaydada təşkil olunmuş qrupudur;
   b) insanların müntəzəm olaraq idarəetmə ilə məşğul olan, xüsusi qayda da təşkil olunmuş qrupudur, cəmiyyətin əhalinin ərazi, yuridik və siyasi birliyini təmin edən daxili quruluşudur;
   v) cəmiyyətin əhalinin ərazi, yuridik və siyasi birliyini təmin edən daxili quruluşudur.

2. Vətəndaş cəmiyyəti səciyyələndirir:
   a) siyasi münasibətlər sferasını;
   b) qeyri-siyasi münasibətlər sferasını.

3. K. Marks verir:
   a) vətəndaş cəmiyyətinin iqtisadi anlayışını;
   b) vətəndaş cəmiyyətinin mənəvi anlayışını.

4. T. Hobbs:
   a) vətəndaş cəmiyyətini və təbii vəziyyəti bir-birinə qarşı qoyur;
   b) vətəndaş cəmiyyətini təbii vəziyyət kimi nəzərdən keçirir.

5. Dövlət ideyasını zəkanın təcəssümü kimi inkişaf etdirmişdir:
   a) O. Kont; b) G. Hegel.

6. Vətəndaş cəmiyyətinin funksiyaları:
   a) özünütənzimləmə;
   b) sosial inteqrasiya;
   v) sosial subyektlərin özinkişafı;
   q) sosial subyektlərin iqtisadi fəaliyyəti;
   d) həyat şəraitinin homogenləşməsi.

Cavablar

1 – b; 2 – b; 3 – a; 4 – a; 5 – b; 6 – a, b, v. d.



# 6-CI FƏSİL. KÜTLƏVİ KOMMUNİKASİYANIN SOSİOLOGİYASI

## 6.1. Kütləvi kommunikasiya vasitələrinin meydana gəlməsi və inkişafı

Cəmiyyətin inkişafının artıq ən erkən mərhələsində insan müxtəlif kommunikasiya, əlaqə və kütləvi informasiya toplamağın müxtəlif vasitələrindən istifadə etmişdir. Sosial varlıq kimi insan digər insanlarla daim qarşılıqlı əlaqə və təsirdə olmağa çalışmışdır. Kommunikasiyaların sferasını intensivləşdirmək və genişləndirmək üçün, bir-birindən xeyli aralı olan insanlarla ünsiyyəti qaydaya salmaq üçün böyük məsafələri dəf etmək tələb olunurdu. Bu da bir yerdən başqa bir yerə getmək üçün vasitələr axtarmaq məcburiyyəti yaradırdı. Ən birinci belə vasitə at olmuşdur. Təkərin ixtira olunması, rəngarəng nəqliyyat vasitələrinin daim və uzun müddət ərzində təkmilləşdirilməsi (yerüstü, su, hava, kosmik nəqliyyat vasitələrinin) *xarici açıq kütləvi kommunikasiyaların* yaranmasına gətirib çıxardı.

Bundan əlavə insan məsafədən ünsiyyətdə olmağa imkan verən işarə siqnalları sistemi kimi rabitə vasitələri ixtira etmişdir. Poçt rabitəsi distansiya kommunikasiyalarının sferasını genişləndirdi.

XIX əsrdə ixtira olunmuş teleqraf *ictimai olmayan kütləvi distansiya kommunikasiyalar* erasını açdı. Teleqrafın yaradılması ilə kommunikasiyaların sürəti min dəfələrlə artmışdır, başlıcası isə kommunikativ qarşılıqlı əlaqələrin iştirakçılarının sayı kəskin şəkildə artmışdır.

Radionun ixtirası ilə kommunikativ qlobal mübadilədə informasiyanın ötürülməsi sürəti işıq sürətinə çatmışdır. Beləliklə, informasiya bu kommunikasiya vasitəsinin sayəsində kütləviləşmişdir. Hamılıqla telefonlaşdırılma informasiyanın buraxılma qabiliyyətini daha da artırdı və deməli, kommunikasiyaların intensivliyi çox dəfələrlə yüksəlmişdir.

1940-cı illərdə yaranmış televiziya informasiyanın ötürülməsi sürətində yeni sıçrayış əmələ gətirdi. Bu kommunikasiya kanalının buraxma qabiliyyəti teleqrafdan 550 min dəfə yüksəkdir. Kommunikasiya mənbəyindən kommunikasiya rabitəsi resipiyentlərinə verilən informasiyanın həcmi da kəskin şəkildə artmışdı. Bundan əlavə,

televiziyada şifahi nitq insanlara audiovizual təsirlə birləşmişdi ki, bu da yazıyaqədərki mədəniyyət epoxası üçün səciyyəvi idi.

İnteraktiv televiziya informasiya ötürülməsinin bu kanalını ikitərəfli intensiv kommunikasiyaların tamhüquqlu şəbəkəsinə çevirmişdir. X. Maklyuenin nəzəriyyəsinə görə bəşəriyyətin inkişafının bu mərhələsi Qutenberq erasının sonu demək idi.

Qlobal informasiya şəbəkəsi olan İnternet kompüterləri bu gün üçün ən güclü kommunikasiya alətinə çevirmişdir.

1909-cu ildə Ç. Kuli kommunikasiyanı bəşər fikrini aktuallaşdırmaq vasitəsi kimi müəyyənləşdirmişdir. C. Mid isə qeyd edirdi ki, qarşılıqlı təsir prosesində fərd başqasının rolunu öz üzərinə götürür, bəşəriyyət tərəfindən toplanılmış təcrübə isə hamı üçün məlum və əl çatan olur. Kütləvi kommunikasiya kommunikativ informasiyaya eyni bir mənanı verən kommunikatorun və auditoriyanın ünsiyyətinin növü kimi başa düşülürdü.

Kommunikasiyaların bütün inkişaf tarixini hər biri kommunikasiya inqilabı kimi qeyd olunmuş üç dövrə bölmək olar:

- yazının ixtira edilməsi;
- çap dəzgahının hazırlanması;
- radio və televiziyanın meydana gəlməsi;
- elektron massmediyasının tətbiqi.

Qeyd etmək lazımdır ki, yeni kütləvi informasiya vasitələri bəşər ünsiyyətinin imkanlarını zənginləşdirərkən köhnələri məhv etmir. Bu onunla izah olunur ki, həmin yeni vasitələr bir çox, daha mükəmməl parametrlərə malik olsalar da, özlərinin sələflərini tam əvəz etmirlər.

## 6.2. Sosial kommunikasiya və informasiyanın mənbələri və əsas paradiqmaları

"Kommunikasiya" termini elmi ədəbiyyatda XX əsrin əvvəllərində meydana gəlmişdir. Bu termin altında informasiyanın insandan insana ötürülməsini, cəmiyyətdə qarşılıqlı təsiri, informasiya mübadiləsini başa düşürlər. Bu termindən həmçinin maddi və mənəvi dünyanın istənilən obyektlərinin əlaqəsini ifadə etmək üçün istifadə olunur.

"Ümumi təsəvvürlərin və yaxud ümumi maraqların müəyyən edilməsi və qarşılıqlı anlaşmaya nail olunması" məqsədilə sosial subyektlər arasında kommunikasiyaların ifadə edilməsi üçün "ictimaiyyətlə əlaqə" (publik relations, PR) anlayışı daxil edilmişdir.



Belə hesab olunur ki, birinci dəfə bu termindən 1908-ci ildə ABŞ-ın prezidenti T. Jeferson konqresə Yeddinci müraciətində istifadə etmişdir.

Biheviorizmin banilərindən biri olan C. Uotson ehtimal edirdi ki, kommunikasiyanın əsasında bir konstruksiya kimi dil deyil, nitq siqnalları durur, çünki bunlarla manipulyasiya edilməsi insana təsir etməyə imkan verir. İnsanın davranışını Uotson "stimul – reaksiya"[1] sxemi üzrə görünən və latent reaksiyaların sistemi ilə eyniləşdirirdi. Uotsona görə reaksiyaların möhkəmləndirilməsi "məşq qanununa", yəni bu reaksiyaları avtomatlaşdıran eyni bir stimullara eyni reaksiyaların çox dəfələrlə təkrarına tabe edilmişdir.

Simvolik interaksionalizmin nümayəndələri belə bir fikirdədirlər ki, şəxslərarası ünsiyyət sosial strukturu qaydaya salır, kommunikativ formaların inkişaf proses isə sosial inkişafa səbəb olur.

"Personalistlər" kommunikasiyada "şəxsiyyətin başqasını hiss etməyi özündə aşkara çıxarmaq" kimi daxili metafizik qabiliyyətini görürlər. "Personalistlər" üçün ünsiyyət qarşılıqlı başadüşmə, intim əlaqələr və dərk edilmiş mənəvi birlik hadisəsidir. K. Yaspers (1883 – 1969) məkan və zamanda ümumbəşər kommunikasiyasının mövcudluğu imkanına inanırdı. Onun fikrincə mədəni kommunikasiyaların manеələri fəlsəfi ənənələrin dərkedilməsilə, bütün dövrlərin mütəfəkkirlərinin qardaşlığı ilə aradan qaldırılır.

1940-1950-ci illərdə kommunikasiyanın öyrənilməsi məsələsinə iki yanaşma üstünlük təşkil edirdi. Birinci yanaşma – rasionalist yanaşma olub, texnoloji determinizm konsepsiyasına əsaslanırdı. Bu yanaşmanın tərəfdarları kütləvi informasiya vasitələrini sosial inkişafın yeganə stimul və mənbəyi kimi, informasiyanı isə mədəniyyətin və bütün mədəni dəyərlərin təməli kimi müəyyənləşdirirdilər. İrrasionalist yanaşma adlanan ikinci yanaşmanın – M. Veberin başa düşən sosiologiyası ideyalarına əsaslanan yanaşmanın nümayəndələri insanların hərəkətlərini kommunikasiyanı özünə məqsəd kimi qəbul edənlərə və belə bir məqsədi olmayanlara bölürdülər.

Britan və amerikan sosial antropologiyasında sosial şəbəkələrin təhlili metodu geniş yayılmışdır. Bu metodun köməyilə qarşılıqlı sosial təsirlər və kommunikasiyaların növləri, müxtəlif intensivlikli və tutumlu əlaqələr tədqiq olunur.

"Kommunikasiya" anlayışının müasir interpretasiyalarından üçü

[1] Bax: *Watson J.B.* Behaviorism. N.Y., 1925.

daha çox yayılmışdır: 1) maddi və mənəvi dünyanın istənilən obyektlərinin əlaqə vasitəsi kimi, 2) elə bir ünsiyyət kimi ki, bu ünsiyyət prosesində insanlar bir-biri ilə informasiya mübadiləsi edirlər, 3) cəmiyyətə və onun tərkib komponentlərinə təsir etmək məqsədilə informasiyanın ötürülməsi və kütləvi mübadiləsi kimi.

Müxtəlif elmi məktəblərin tədqiqat obyektinə çevrilmiş sosial kommunikasiyaları şərti olaraq, müvafiq surətdə sosial, dil və kommunikativ əsas üzərində formalaşmış üç qrupda birləşdirmək olar. Sosial kommunikasiya "kommunikasiya"nın bütün üç izahını özündə birləşdirir. Birinci izah – kommunikasiya vasitələrinin öyrənilməsilə, kommunikasiyanın sosial funksiyalarının reallaşdırılması üçün bu vasitələrin tətbiqi ilə, ikinci izah – şəxslərarası kommunikasiya problemləri ilə, üçüncü izah – kütləvi kommunikasiyanın ictimai münasibətlərin inkişafına təsiri ilə bağlıdır.

Dillə bağlı hələ XVIII əsrdə başlanmış sosioloji tədqiqatlar indiyə qədər davam etməkdədir. Həmin tədqiqatların gedişində dilin nitq fəaliyyətinin sosial aspektini: ünsiyyəti, kommunikasiyanı şərtləndirən kommunikativ funksiyası öyrənilirdi. Kommunikasiyanın müxtəlif sosial funksiyaları ilə qarşılıqlı nisbətdə dil vasitələrinin funksional diferensiasiyasına xüsusi diqqət yetirilmişdir.

1960-cı illərin ortalarında yeni bir fənn – sosial linqvistika meydana gəlir. Sosial linqvistika dilin sosial təbiətinin, cəmiyyətin həyatında və ictimai funksiyalarda onun rolunun, sosial amillərin dilə təsir mexanizminin öyrənilməsilə məşğuldur. Sosial linqvistika sosial kommunikasiyanın inkişafının əsasıdır.

"Sosial kommunikasiya" anlayışı XX əsr sosiologiyasının mərkəzi anlayışı olmaqla, dəyişikliklərə məruz qalmışdır. Bu gün həmin anlayışı üç, bəzən bir-birinə əks olan metodoloji yanaşmalar mövqeyindən tədqiq edirlər.

Birinci yanaşma subyekt-obyekt dispozisiyaları barədə klassik pozitivist metodologiyası üzərində qərar tutubdur. Bu yanaşma struktur funksionalizm, sistem yanaşma, informasiya cəmiyyəti, texnoloji determinizm, kompüter futurologiyası və b. konsepsiyalarla təqdim edilmişdir. Bu yanaşma çərçivəsində sosial kommunikasiyaların ontologiyası sistem əlaqələrinə və funksiyalarına əsaslanır. Kommunikasiya texnologiyaları müəyyən subyektin istənilən obrazını və sistemdə sosial əlaqələri yaratmaq vəzifəsini yerinə yetirirlər.

İkinci yanaşma subyekt-obyekt münasibətlərinin koqnitiv



modelinin qeyri-klassik metodologiyasından çıxış edir. Öz mənbələri etibarı ilə fenomenoloji olan bu model xüsusi ontoloji obyekt olaraq interaksiya (kommunikasiya) sferasını seçir. Bu ontoloji obyektin təhlili mənaların hermenevtik izahı, tənqidi reflekfsiya, rasional konstruksiya kimi metodların tətbiqini tələb edir. Bu metodologiyanın müəllifi olan alman filosofu Y. Habermas sosial subyektlərin öyrənilməsində pozitiv elmə üstünlük verməmişdir. İnsanlararası "interaksiyalar" dedikdə o, insanların praktik maraqlarını reallaşdırmaq alətini, kommunikasiyaları təhrif edən və gizli məcburetmə rolunu oynayan iqtisadi, siyasi və digər təsirlərdən azad olmaq, yaxa qurtarmaq üsulunu başa düşürdü. Habermas "həqiqi" və "yalançı" kommunikasiyaları bir-birindən fərqləndirirdi. O, texniki rasionallığı əsaslandırmağa (texniki vasitələri və metodları insanlararası interaksiyalar sahəsinə keçirməyə) çalışırdı.

Üçüncü – qeyri-klassik yanaşmadan sonra gələn – yanaşma sosial olanın təbiətinin subyekt – obyekt münasibətləri kimi başa düşülməsinə əsaslanmışdır. Cəmiyyət kommunikasiyalar şəbəkəsi kimi müəyyənləşdirilir, kommunikasiyalar isə cəmiyyətin özünütəsvir və özünü yenidən bərpa etmək imkanına malikdir. Kommunikasiya özünütəşkil edən fəal mühit kimi çıxış edir. Ən sadə sosial sistemlər – interaksiyalar – ünsiyyət iştirakçılarının hərəkət və həyəcanının qarşılıqlı surətdə razılaşdırılması vasitəsilə formalaşırlar. Cəmiyyət isə kommunikasiyada bir-biri ilə müqayisə edilməsi üçün həyata keçirilən bütün hərəkətləri əhatə edir (hərəkət sosial sistemin həqiqi elementi kimi başa düşülür. Bu element isə həmin sosial sistemdə "kommunikasiyanın" digər hərəkətlərlə – hadisələrlə müqayisəli şəkildə istehsal olunur və təkrar istehsal olunur). Kommunikasiyanın təbiətinin nəzərdən keçirilməsinə bu cür yanaşma kommunikasiyanın başa düşülməsinin yeni səviyyəsinə gətirib çıxarır və ona sosietal məna verir.

Kommunikasiya nəzəriyyəsinin vəzifəsi kommunikasiyanın müxtəlif tipləri və növlərində qanunauyğunluqlar və mühüm əlaqələr haqqında tam təsəvvürün başa düşülməsidir. Nəzəriyyənin metodoloji əsaslandırılması biliyin strukturunun və quruluş prinsiplərinin, idrakının forma və üsullarının, fəaliyyətin metodları və vasitələrinin aşkara çıxarılmasını özündə birləşdirir. Kommunikasiya problemlərinə aid tədqiqatlarda hər şeydən əvvəl sosioloji və psixoloji metodlar və instrumentarilərdən, həmçinin bir-birinə yaxın elmlərin araşdırmalarından istifadə olunur.

## 6.3. Kütləvi kommunikasiya və informasiya nəzəriyyələrinin inkişafı

Sosial hadisə kimi kütləvi kommunikasiyanın öyrənilməsi 1920-ci illərə təsadüf edir. Tədqiqatların əsasını alman sosioloqu, başa düşən sosiologiyanın və sosial hərəkət nəzəriyyəsinin banisi M. Veber qoymuşdur.

Kütləvi informasiyanın kommunikativ aspekti sosial kommunikasiyada dominant mövqe tutur. İnformasiya-məzmun elementi isə yardımçı funksiya yerinə yetirir. Sosial kommunikasiyanın həyata keçirilməsində aşağıdakı mövqelərin xüsusi əhəmiyyəti vardır:

- qarşılıqlı təsirdə nədən istifadə olunur;
- qarşılıqlı təsirdə kim iştirak edir;
- informasiya və əlaqələrdən necə istifadə olunur;
- informasiya kimə ünvanlanır;
- kommunikativ əlaqələr haraya istiqamətlənmişdir.

Kütləvi informasiyanın mahiyyətinin başa düşülməsinə funksional yanaşma konkret dominant funksiyanın təhlilinə əsaslanır. Bu nəzəriyyədə nəinki ideoloji, eyni zamanda maddi-iqtisadi amil dominant ola bilər. Siyasi nəzarət, siyasi hakimiyyətin təmərküzləşməsi funksiyasının təhlilinə əsaslanan nəzəriyyələr daha çox maraq doğurur.

*Kütləvi cəmiyyət nəzəriyyələri* istehsalın standartlaşdırılması və kütləvi tələbatla, orta sinfin sayının və rolunun artması ilə, ictimai həyatın bürokratikləşməsi, kütləvi kommunikasiya vasitələrinin və kütləvi mədəniyyətin yayılması ilə, konformizm ilə, münasibətlərin depersonalizasiyası ilə səciyyələnən cəmiyyətin təsvirinə və izahına, həmçinin müxtəlif sosial institutların qarşılıqlı təsirinin öyrənilməsinə yönəldilmişdir. Bu nəzəriyyələr KİV-ə xüsusi rol verirlər, belə ki, onlar ictimai rəyi formalaşdırmaqla hakimiyyət orqanlarının siyasi qərarlarına fəal surətdə təsir göstərirlər. Təhlilin birinci pilləsində kommunikasiya sistemlərinin siyasi xüsusiyyətləri, ikinci pillədə isə siyasi şəraitin tipologiyasından asılı olaraq onların funksional təzahürləri, təhlilin üçüncü pilləsində bu və ya digər formalardan, strukturlardan. informasiya proseslərindən istifadə olunmasının nəticələri nəzərdən keçirilir.

Kütləvi cəmiyyət nəzəriyyələri müasir cəmiyyətin bütün prosesləri və hadisələrinin həlledici xarakteristikası kimi kütləviliyin dominantlığı ideyasına əsaslanmışlar. Sosial-iqtisadi sferada kütləvi cəmiyyət sənayeləşdirmə və urbanizasiya ilə, kommunikasiya sferasında müxtəlif kütləvi kommunikasiya vasitələrinin geniş yayılması ilə əlaqələndirilir.



D.Bell sosial və mədəni institutları təhlil edərək, belə bir nəticəyə gəlmişdir ki, kütləvi kommunikasiyanın istehsalı və istehlakı, vasitələri həmcins cəmiyyətin təşəkkülü prosesinə kömək edir. Kütləvi cəmiyyət nəzəriyyələrinin bu cür izahı "xalq kapitalizmi", "ümumrifah dövləti" doktrinalarının və xüsusilə "Vahid orta sinif nəzəriyyəsinin" təsiri sayəsində mümkün olmuşdur.

*Tənqidi nəzəriyyə* cəmiyyətdə sosial hadisələrin təhlilinə neomarksist yanaşmanın növ müxtəlifliyindən biridir. Bu nəzəriyyənin müəllifləri erkən dövr Frankfurt məktəbinin nümayəndələri (1930-cu illər) M. Xorkhaymer, Q. Markuze, T. Adorno (Sosial tədqiqatlar İnstitutu, Mayn üzərində Frankfurt) fəhlə sinfinin inqilabi potensialı haqqında K. Marksın ideyasını rədd edərək, KİV-in manipulyativ funksiyalarının öyrənilməsinə müraciət etdilər, hakim sinfin mənafeyi naminə ideologiyanı siyasətin önəmli amilinə çevirdilər.

*Kütləvi kommunikasiyanın hegemonluğu haqqında nəzəriyyələr* cəmiyyətdə kütləvi kommunikasiyanın hakim rolunu açıqlayan müddəalar sistemindən ibarətdir, bu da kütləvi informasiyanın istər birbaşa, istərsə də dolayısı ilə; latent formada təsiri ilə müəyyən edilir. Bu cərəyanın nümayəndələri olan fransız politoloq-sosioloqu N. Pulansasın və fransız filosofu L. Altyusserin əsərlərində cəmiyyət üçün əhəmiyyət kəsb edən informasiyanın müxtəlif formaları və kütlələrin şüurunun formalaşmasını təmin edən və əhəmiyyətli nəzəri postulatları təsbit edən mexanizmlər nəzərdən keçirilir.

*Eqalitar kütləvi kommunikasiya nəzəriyyəsi* bütün vətəndaşların onları maraqlandıran istənilən informasiyanı əldə etmək üçün kommunikasiya kanalının seçilməsinə sərbəst daxil olması prinsipini qəbul edirlər. Bu nəzəriyyənin müxtəlif növlərindən biri kimi bərabər imkanlar modelini, o cümlədən KİV-də və kütləvi kommunikasiyanın digər vasitələrində istənilən nöqteyi-nəzərin söylənilməsi modelini fərqləndirmək olar. 1969-cu ildə J. Darsi Fransada birinci dəfə olaraq insanın kommunikasiya hüququnun tanınması zərurətini elan edir.

*Kütləvi kommunikasiya nəzəriyyəsinin* əsaslandığı müddəaya görə kütləvi kommunikasiya "insanlar sosial hisslərin açıq ümumiliyinə və ümumi sosial təcrübəyə malik olduqları vaxt" həyata keçirilir, reallaşır. Kütləvi kommunikasiyanın sosial aspekti B.A. Quşin tərəfindən fəal şəkildə tədqiq edilmişdir.

*Struktur-funksional nəzəriyyə.* Amerikan sosioloqları T. Parsonsun və R. Mertonun əsərlərində qəti olaraq başa çatdırılmışdır. Bu nəzəriyyənin müddəalarına görə massmedia müxtəlif altsistemlərin qarşılıqlı əlaqəsinin, onların tələbatlarının ödənilməsi vasitəsidirlər. Massmedianın rolu xidmət göstərdikləri altsistemlərin səviyyəsindən, onların tələbatlarının təmin edilməsindən asılı olaraq dəyişə bilər. Sosioloqlar kütləvi kommunikasiyanın funksiyasının strukturunu sistem yanaşma mövqelərindən nəzərdən keçirərək, cəmiyyətdə kommunikativ prosesin üç əsas funksiyasını fərqləndirirlər: ətraf mühitə nəzarət və ekoloji sistemdə baş verə biləcək dağıntılar haqqında cəmiyyətin qabaqcadan xəbərdar edilməsi; cəmiyyətdə və təbiətdə qarşılıqlı əlaqələrin saxlanılması; sosial-mədəni irsin saxlanılması və sonrakı nəsillərə ötürülməsi.

*Kulturoloji kommunikasiya nəzəriyyəsi.* Bu nəzəriyyənin nümayəndələri – Kanada sosioloqu və publisisti X. Maklyuen və fransız sosioloqu A. Mol – güman edirlər ki, kütləvi kommunikasiya vasitələri cəmiyyətin xarakterini formalaşdırır, "kütləvi mədəniyyət" isə insanları cəmiyyətin mənəvi dəyərlərinə qovuşdurur. "Qlobal kənd"də insanların sərbəst ünsiyyəti elektron kommunikasiyasının köməyilə təşkil edilir. İnsanların uğurlu qarşılıqlı təsirdə olmaları üçün kommunikativ vasitələrin öyrənilməsi zəruridir.

*İnformasiya cəmiyyəti nəzəriyyəsi* amerikan sosioloqu D. Bell tərəfindən işlənib hazırlanmış postindustrial cəmiyyət konsepsiyasına əsaslanır. İnformasiya cəmiyyətinin formalaşmasının əsas şərti qlobal miqyaslarda fəaliyyət göstərən yüksək texnoloji informasiya şəbəkələridir. İnformasiya cəmiyyətin spesifik əmtəəsi, əsas sosial dəyəridir, ictimai inkişafın başlıca amilləri isə informasiyanın və biliyin müxtəlif növləridir. İnformasiya qlobal xarakter aldığından artıq dövlət sərhədlərilə məhdudlaşdırılmır. İnsan fəaliyyətinin müxtəlif sahələrinin inkişafına informasiyanın təsiri güclənir, cəmiyyətin desentralizasiyası prosesi dərinləşir.

*Kommunikativ səlahiyyət nəzəriyyəsinin* əsasında səlahiyyətin koqnitiv (dərk olunan, idraka uyğun olan) aspektləri durur; kommunikativ səlahiyyətin qiymətləndirilməsi meyarı kimi istiqamətlilik, psixoloji biliklər, qavrama bacarığı çıxış edir. Ünsiyyət saxlamaq bacarığı kommunikativ səlahiyyətin əsas tərkib hissəsinə çevrilir.

*Minimal idrak nəzəriyyəsi* – idrak nəzəriyyəsinin bölməsi olub, öyrənilən, kommunikativ prosesin bütün subyektlərinin qarşılıqlı maraq obyektini təşkil edən hadisənin dərk olunanlıq həddinin müəyyən edilməsi üçün tətbiq edilir.



## 6.4. Kütləvi kommunikasiyanın modelləri və mahiyyəti

Kütləvi informasiyanın aşağıdakı modellərini fərqləndirirlər:

- ən sadə model – kommunikasiya mənbəyi siqnal göndərir və bu siqnalı da ünvan sahibi qəbul edir; kommunikasiyanın bu növündə əks əlaqə mövcud deyildir;
- xətti model – bu cür kommunikasiya qarşılıqlı təsirdən ibarətdir. İnformasiyanı alan öz təşəbbüsü ilə xəbər göndərə bilər və bu məqamda o, kommunikasiyanın subyektindən onun aktiv obyektinə çevrilir;
- sirkulyar model – insan eyni vaxtda informasiyanın həm mənbəyi və həm də alanı kimi çıxış edir. Kommunikasiya fasiləsiz prosesdir;
- ikipilləli (çoxpilləli) model – auditoriyaya göndərilən xəbər əvvəlcə qrupun daha nüfuzlu üzvünə – qərarın qəbul edilməsinə daha çox təsir göstərən liderə (liderlərə) çatır; onun da öz növbəsində həmçinin özünün xüsusi "rəy liderləri" vardır və lazımi informasiya üçün onlara müraciət edir. "Rəy liderləri" – kütləvi kommunikasiya vasitələri ilə kütlə arasında əlaqələndirici həlqədir. Kütləvi kommunikasiyalar sistemində xəbərlər formalaşdırılarkən bu xəbərlərin müəllifləri auditoriyanın "yedəyində gedirlər". Beləliklə, auditoriya özünə lazım olan və aydın olan informasiyanı alır; başqa cür olsa, auditoriya kommunikasiyalar sisteminə daxil edilməyəcəkdir. Belə ki, auditoriya özünün homogenliyini (həmcinsliyini) təzahür etdirir, ilkin informasiya isə insanların bütün kütləsi ilə və hər bir kəslə ayrılıqda qarşılıqlı təsirə daxil olur;
- homogen model – klassik fərdiyyətçilik əsasında qurulur. Kütləvi informasiya vasitələri auditoriyaya müəyyən bağlamalar şəklində formalaşmış informasiya təqdim edir. Şəxslərdaxili və şəxslərarası kommunikasiyalar sistemində bu bağlama qəbul oluna da bilər, rədd edilə də bilər. Homogen modeldə diskretlik nəyinsə barəsində öz fikrini ifadə etmək planında kütlənin həmcinsliyini pozmayan fərdlər halında avtomatik strukturun mövcudluğunu ifadə edir.
- sosial atomizm modeli – kommunikasiya sisteminə daxil olan elementlərin bütövlüyü və konstruktiv tamamlanması prinsiplərinə

əsaslanır. Sosial qruplar və yaxud formallaşdırılmış strukturlar arasında istənilən sabit qarşılıqlı təsir sosial atomizm modeli şəklində təqdim oluna bilər, bu şərtlə ki, həmin modeldə kommunikatorlar kifayət qədər strukturlaşdırılmış və müstəqil qüvvə olsunlar.

Artıq çoxdan qəbul edilmişdir ki, müasir cəmiyyətin fəaliyyətində KİV-lər (mətbuat, kitab nəşriyyatları, nəşriyyat agentlikləri, radio və s.) çox mühüm rol oynayırlar. Məhz onlar kütləvi kommunikasiyanın təmin edilməsi vasitəsidir. Elmi ədəbiyyatda kütləvi kommunikasiya adı altında mətbuat, radio, televiziya vasitələrilə informasiyanın istehsalı və ötürülməsi, texniki vasitələrin köməyilə insanların həyata keçirilən ünsiyyəti başa düşülür. Kütləvi kommunikasiya ustanovkaların və təsəvvürlərin möhkəmləndirilməsinin və onların arzu olunan istiqamətdə dəyişmələrinin çox güclü üsuludur.

Kommunikasiyanı müəyyən ideyanı mənbədən alana, onun davranışını (biliklərini və yaxud sosial ustanovkalarını) dəyişdirmək məqsədilə ötürülməsi kimi müəyyənləşdirmək olar. Öz məzmununa görə kommunikasiya – insanlar arasında informasiya mübadiləsidir. Bu mübadilədə dörd əsas elementi fərqləndirirlər: 1) informasiyanı göndərən – ideyaları yaradan və yaxud informasiyanı toplayan, onu ötürən şəxsdir (şəxslər qrupudur, təşkilatdır və s.); 2) məlumat – simvolların köməyilə kodlaşdırılmış informasiyadır; 3) kanal – informasiyanın ötürülməsi vasitəsidir; 4) alıcı – informasiyanın məxsus olduğu və informasiyanı interaksiya edən (edənlər) şəxsdir (şəxslər qrupudur).

Kütləvi kommunikasiyanın fəaliyyəti bir neçə başlıca şərti yerinə yetirdikdə mümkündür.

1. Müəyyən ümumi dəyərlilik oriyentasiyasına malik *kütləvi auditoriyanın mövcud olması*. Kütləvi auditoriya kütləvi kommunikasiyanın komponenti olmaqla həmcins olmayan struktura malikdir. Kütləvi auditoriya anonimdir və müəyyən ərazidə səpələnmişdir. Kütlə həm izdiham, həm camaat, həm də heterogen sistem kimi başa düşülür.

2. *İnformasiyanın sosial mənalılığı* – kütləvi kommunikasiya şəxsiyyəti geniş sosial mühitlə münasibətlərə girmək imkanı ilə təmin edir. Əgər informasiya kütləvi auditoriyanın sosial gözləmələrinə uyğundursa, onda bu informasiya kütləvi auditoriya üçün "maraqlıdır". Məna yükündən əlavə informasiya özündə qiymətləndirmə yükü də daşıyır. Kütləvi oxucu, dinləyici, tamaşaçı KİV-dən baş verən hadisələrə qiymət verilməsini gözləyir ki, buna da bir qayda olaraq inanır. Qiymətləndirmə informasiyası ictimai rəyin formalaşmasına daha yüksək dərəcədə kömək edir. Beləliklə, kütləvi informasiyanın bütün auditoriya üçün sosial mənalılığı kütləvi kommunikasiya sisteminin fəaliyyətini təmin edir.



Kütləvi informasiya vasitələri bir tərəfdən, kütləvi və şəxsi sosial oriyentasiyanı bir-birindən ayırır, digər tərəfdən, onları biri-biri ilə birləşdirir. Eyni bir informasiya eyni vaxtda hamıda və konkret insanlar qrupunda, həmçinin ayrı-ayrı fərdlərdə maraq doğura bilər. Yaxud başqa cür: *informasiyanın sosial yönümü cəmiyyətə də, şəxsiyyətə də güclü təsir göstərir.*

3. Kütləvi kommunikasiyaların fəaliyyət göstərməsi prosesini təmin edən *müvafiq vasitələrin mövcud olması*. Kütləvi kommunikasiyanın reallaşması vasitəli ünsiyyət sayəsində baş verir. Elə bu ünsiyyətlə də kütləvi kommunikasiya vasitələri müəyyən olunur. Kütləvi kommunikasiyanın başlıca vasitələri KİV-dir: mətbuat, radio, televiziya. Rusiyada İnternet qanunvericiliklə kütləvi informasiya vasitələri sırasına daxil edilməmişdir, lakin son illərdə o çox güclü vasitəyə çevrilmişdir.

4. *Kommunikasiyanın çoxkanallılığı*. Kütləvi kommunikasiya üçün birtərəfli istiqamətlilik səciyyəvidir, *yəni* əks əlaqə praktik olaraq mövcud deyildir. İnteraktiv televiziyanın, radionun imkanlarının artması ilə və xüsusilə İnternet şəbəkəsinin kəskin şəkildə genişlənməsi ilə kütləvi kommunikasiyalar qarşılıqlı surətdə istiqamətləndirilmiş olurlar.

Kütləvi kommunikasiyanın çoxkanallılığı vizual, audio və audioviziual kanallarından paralel olaraq istifadə olunmasını təmin edir. Kütləvi kommunikasiyanın müstəqil kanalı – kütləvi auditoriya da ənənəvi danışıq dilinin vasitəsilə həyata keçirilən ictimai kommunikasiyadır. Radio və televiziya üçün həmçinin şifahi kommunikasiya formaları səciyyəvidir. Mətbuat ümumədəbi yazı dilindən istifadə edir.

Kommunikasiya dörd səviyyədə nəzərdən keçirilir: şəxslərarası, qrup, təşkilati və kütləvi səviyyələrdə.

Şəxslərarası kommunikasiya idraki və yaxud effektiv - qiymətləndirmə xarakterli informasiyanın mübadiləsindən ibarət olan iki və yaxud çox adamın bir-birinə təsirini öyrənir. Qrup kommunikasiyası kiçik qruplarda informasiya təsiri problemlərini öyrənir. Təşkilati kommunikasiya inteqrasiya olunmuş böyük şəbəkələrdə, yəni təşkilatlarda fərdlərin və qrupların formal və qeyri-formal təsiri prosesindəki informasiya proseslərini əhatə edir. Kütləvi kommunikasiya informasiyanın texniki vasitələrin köməyilə məkanca

səpələnmiş böyük miqdarda insanlara (kütləvi auditoriyaya) ötürülməsi prosesini təhlil edir.

## 6.5. Kütləvi kommunikasiyaların funksiyaları

İnformasiyanın vəzifəsi fərdi ictimai-siyasi həyata qovuşdurmaqdan ibarətdir. İnformasiyanın sayəsində insanın ünsiyyət dairəsi genişlənir, onun sosial müdafiəsi artır, mənəvi dünyası zənginləşir. Lakin son vaxtda sosioloqlar, pedaqoqlar həyəcan təbili çalırlar: KİV-də keyfiyyətsiz materiallar, qəddarlıq və zorakılıq səhnələri, digər xalqlara nifrətin qızışdırılması və s. şəxsiyyətin "insanilәşdirilməsinə", onun inkişafına ,digər insanlarla normal ünsiyyətinə kömək edə bilməzlər. Deməli, informasiyanın istehlakında ölçü olmalıdır, informasiyam seçməyi və ondan istifadə etməyi bacarmaq lazımdır, axı KİV-lər istər müsbət, istərsə də mənfi rol oynaya bilər.

Kütləvi informasiya vasitələrinə cavabdeh olan şəxslərin, qrupların, təşkilatların informasiyanın seçilməsinə daha məsuliyyətlə yanaşmaları zəruridir, axı onlar həlledici əhəmiyyətə malikdirlər. Onların əsas funksiyası – cəmiyyətin həyat fəaliyyətinin informasiya təminatından ibarətdir

Məsələn, amerikan politoloqu Q. Lassuell kommunikasiyanın üç funksiyasını seçmişdi:

1) ətraf aləmin mənzərəsini vermək (informasiya funksiyası);

2) cəmiyyətin sosial strukturları ilə korrelyasiya (əks əlaqə vasitəsilə cəmiyyətə təsir göstərilməsi);

3) mədəni irsin (idraki-kulturoloji funksiya) ötürülməsi.

1960-cı ildə amerikan tədqiqatçısı K. Rayt həmçinin əyləncə funksiyasım (emosional dincəlmə-rahatlıq funksiyası) əlavə etmişdir. Amsterdam universitetinin kütləvi informasiya üzrə mütəxəssisi Makkveyl daha bir funksiyanı – səfərbəredici funksiyanı daxil edir.

Kütləvi kommunikasiyanın sosial əhəmiyyətli funksiyalarını informasiya funksiyası, tənzimləyici və kulturoloji funksiyalar olmaqla üç qrupda birləşdirmək olar. İnformasiya funksiyası cəmiyyət və fərdin münasibətlərinin ahəngdarlaşdırılmasına cavabdehdir. Bu funksiya kütləvi auditoriyaya həyat fəaliyyətinin müxtəlif sahələri haqqında aktual informasiyanın təqdim edilməsinə əsaslanır. Tənzimləyici funksiya ictimai şüurun, ictimai rəyin və sosial normaların formalaşmasına təsiri müəyyən edir. Bununla da sosial



nəzarət funksiyası həyata keçirilir. Kulturoloji funksiya mədəniyyət və incəsənət sferasında idraki vəzifəni yerinə yetirir.

***Reklam kütləvi informasiya vasitələrinin tərkib hissəsi kimi***

Reklam KİV-in tərkib hissəsidir. Reklam adı altında əmtəələrin daha geniş satışı məqsədilə onların istehlak xüsusiyyətləri və xidmət növləri haqqında, o cümlədən sosial xidmət növləri haqqında müxtəlif xəbərvermə formalarını başa düşürlər. Reklam müxtəlif funksiyalar yerinə yetirə bilər. Bu funksiyalar içərisində: müəssisənin, peşənin, ixtisasın nüfuzunun qaldırılması; xidmətlərə təklifin yaradılması; bütövlükdə sosial sferada və xüsusilə sosial işdə xidmətlər haqqında lazımi informasiyanın təqdim edilməsi; təklif olunan sosial, tibbi və digər xidmətlərin reallaşmasının təmin edilməsi; onlara inamın təlqin edilməsi.

Testlər

1. Kommunikasiyanı bəşər fikrinin aktuallaşdırılmasınm vasitəsi kimi nəzərdən keçirmişdir:
   a) C. Mİd;
   b) T. Parsons;
   v) Ç. Kuli.

2. Kommunikasiya inqilabı deməkdir:
   a) yazının ixtira edilməsi;
   b) mətbuatın meydana gəlməsi;
   v) radio və televiziyanın meydana gəlməsi;
   q) kompüterin hazırlanması;
   d) elektron massmediasının tətbiq edilməsi.

3. Kommunikasiya deməkdir:
   a) ünsiyyətdir, informasiyanın insandan insana ötürülməsidir, cəmiyyətdə qarşılıqlı təsirdir, informasiya mübadiləsidir;
   b) məqsədə çatmaq üçün sosial subyektlərin qarşılıqlı təsiridir.

4. "Kommunikasiya" anlayışının müasir interpretasiyaları:
   a) maddi və mənəvi dünyanın istənilən obyektlərinin əlaqə vasitəsidir;
   b) bir-birindən qarşılıqlı surətdə asılı olan sosial subyektlərin fəaliyyət vasitəsidir;
   v) elə bir ünsiyyətdir ki, onun gedişində insanlar informasiya mübadiləsi edirlər.

5. Başa düşən sosiologiyaya görə kommunikasiyanın əsas nəticəsi:
   a) qarşılıqlı rəğbətlərdir;
   b) qarşılıqlı başa düşmədir.

6. Kütləvi kommunikasiya və informasiya haqqında əsas nəzəriyyələr:
   a) kütləvi cəmiyyət nəzəriyyələri;
   b) tənqidi nəzəriyyə;
   v) eqalitar kütləvi kommunikasiya nəzəriyyələri;
   q) struktur-funksional nəzəriyyə;
   d) kulturoloji nəzəriyyə;
   e) informasiya cəmiyyəti nəzəriyyəsi;
   j) kommunikativ idrak nəzəriyyəsi;
   z) kommunikativ səlahiyyət nəzəriyyəsi;
   i) ən az idrak nəzəriyyəsi;
   k) sosial kommunikasiya nəzəriyyəsi.

7. Əks əlaqə aşağıdakı halda mövcud olmur:
   a) xətti kommunikasiyada;
   b) ən sadə kommunikasiyada.

8. Xəbər kommunikasiyanın elementi kimi deməkdir:
   a) informasiyanın ötürülməsi vasitəsidir;
   b) informasiyanın məxsus olduğu şəxsdir;
   v) simvolların köməyilə kodlaşdırılmış informasiyadır.

9. Kütləvi informasiya vasitələri:
   a) kütləvi və şəxsi sosial oriyentasiyaları bir-birindən ayırır;
   b) kütləvi və şəxsi sosial oriyentasiyanı bir-biri ilə birləşdirir;
   v) kütləvi və şəxsi sosial oriyentasiyaları həm bir-birindən ayırır və həm də bir-biri ilə birləşdirir.



10. Kommunikasiyanın səviyyələri:
   a) şəxslərarası səviyyə;
   b) qrup səviyyəsi;
   v) təşkilati səviyyə;
   q) məqsədli səviyyə;
   d) kütləvi səviyyə.

Cavablar

**1** – v; **2** – a, b, v, d; **4** – a; **5** – b; **6** – a, b, v, q, d , e, z, i; **7** – b; **8** – v; **9** – v; **10** – a, b, v, d.

# 7-Cİ FƏSİL. SİYASƏTİN SOSİOLOGİYASI

## 7.1. Siyasi həyatın institusionallaşması

Bütün siyasi proseslər siyasi institutların fəaliyyəti vasitəsilə həyata keçirilir. Cəmiyyətin siyasi quruluşunun və fəaliyyətinin spesifik orqanlarını siyasi institutlar adlandırırlar. Daha çox bunlar elə müəyyən təsisatlar və yaxud təsisatlar sistemidir ki, siyasi qüvvələr onların vasitəsilə özlərinin siyasi maraqlarını həyata keçirirlər.

Siyasətin mühüm institutlarına siyasi hakimiyyət, hüquq, ideologiya institutlarını, ordunu aid edirlər. Bu institutların fəaliyyəti qanunvericilik və icra hakimiyyəti (parlament, hökumət, hüquq-mühafizə orqanları), siyasi partiyalar, kütləvi informasiya vasitələrilə həyata keçirilir. Cəmiyyətin siyasi sistemində bunlardan hər birinin özünün spesifik funksiyaları vardır. Bu funksiyalardan da asılı olaraq bu və ya digər siyasi institutun strukturu yaradılır. Belə ki, siyasi institutların bütün fəaliyyəti cəmiyyətin siyasi həyatının normal fəaliyyətinin və inkişafının təmin edilməsinə, bütün sosial qrupların siyasi maraqlarının həyata keçirilməsinə yönəldilmişdir. Tarix sübut edir ki, yalnız o cəmiyyətlər salamat qalıb, inkişaf edə biliblər ki, onlar davamlı hakimiyyət formaları yarada biliblər

Siyasi hakimiyyətin davamlılığı onun institusionallaşması, təsisatlanması prosesində əldə edilir. Bu təsisatlanma cəmiyyəti idarə etməli olan status-rol qruplarının seçilməsindən başlanır. Eyni zamanda

bu qrupun məsuliyyət dərəcəsinin tənzimlənməsinə cavabdeh olan normativ-hüquqi sistem, həmçinin dövlət qarşısında məsuliyyət sistemi – vətəndaş məsuliyyəti formalaşır. Normativ qaydanın gözlənilməsi üçün verilmiş norma və qaydaların fərdlər tərəfindən yerinə yetirilməsini təmin edən etibarlı sanksiyalar mexanizmi yaradılır. Müəyyən vaxtdan sonra təşəkkül tapmış siyasi institusional qayda vərdiş halını alır.

Siyasi hakimiyyətin təsisatlanması – təbii prosesdir. Təsisatlanma müvəqqəti, keçici maraqlar güdən, lakin öz hərəkətlərində digər insanların gözləmələrindən çıxış edən, onlara istiqamətlənən insanların hərəkətlərinin nəticəsinə əsaslanır. Təsisatlanma – çoxlu sayda digər qarşılıqlı təsir qaydalarının toplusudur.

Təsisatlanmanın yekunu siyasi hakimiyyət münasibətlərinin daim yenidən istehsalını təmin edən sabit mexanizmdən ibarətdir. Təsisatlaşmanın gedişində siyasi hakimiyyət aydın cizgilər kəsb edir, alır. Hakimiyyət münasibətləri aydın şəkil alır ki, bu da hər bir insana həmin münasibətlərdə öz yerini müəyyən etməyə imkan verir.

## 7.2. Siyasi sosiologiyanın predmeti, obyekti və strukturu

Siyasi sosiologiya cəmiyyətin siyasi həyatını, daha dəqiq deyilsə, siyasi hadisələrin siyasətin cəmiyyətin həyat fəaliyyətinin müxtəlif sferalarından asılılığını, sosial strukturun siyasi sistemə təsirini aşkara çıxaran sosial hissəsini tədqiq edir.

Siyasi hadisələr iki səviyyədə: nəzəri və empirik səviyyələrdə öyrənilir. Nəzəri səviyyədə tədqiqatların metodologiyası işlənib hazırlanır, izahedici modellər yaradılır. empirik səviyyədə konkret siyasi-sosioloji tədqiqatlar aparılır.

Siyasi sosiologiyanın predmetini siyasətin sosial şərtliliyi, fəaliyyətin sosial şərtləri və əsasları, siyasətin sosial rolu təşkil edir. Siyasəti sosiologiya mövqelərindən öyrənmək – onu şəxsiyyətin, sosial qrupun və bütövlükdə cəmiyyətin qarşılıqlı münasibətləri prizmasından nəzərdən keçirmək deməkdir. Siyasi sosiologiyanın obyekti siyasi qruplar və birliklərdir; siyasi institutlar və təşkilatlardır; siyasi mədəniyyət, siyasi maraqlar, siyasi əlaqələr, münasibətlərin doğurduğu təsirlərdir, siyasi şüur və digərləridir. Lakin başlıca obyekt olaraq cəmiyyətin siyasətin institusional mexanizmləri və onların əsas vasitələri olan dövlətlər kimi siyasi sistemləri qalmaqdadır.

Siyasi sosiologiya siyasəti sosial sistemin digər sosial strukturlarla



qarşılıqlı təsirdə olan mühüm elementi kimi tədqiq edərkən bundan çıxış edir ki, siyasəti cəmiyyət doğurmuşdur və o bütün siyasi fenomenlər sosial fenomenlərdir. Siyasi sosiologiyanın təhlili cəmiyyətdə bu və ya digər ictimai münasibətlərin siyasi tənzimlənməsinə sosial tələbatın meydana gəlməsini və yetişməsini, bu cür tənzimləmə prosesində şəxsi, qrup və ictimai maraqların formalaşmasını izah etməyə imkan verir. Siyasi sosiologiya siyasətin təsiri altında meydana gələn bu və başqa sosial dəyişikliklərin səmərəliliyini tədqiq edir.

Beləliklə, *siyasi sosiologiyanı qısaca olaraq sosial sistem kimi cəmiyyətin və sosial tənzimləmə vasitəsi kimi siyasətin ümumi və spesifik sosial xassələri haqqında, qanunauyğunluqları və qarşılıqlı təsir mexanizmləri haqqında elm kimi müəyyənləşdirmək olar.*

## 7.3. Siyasi sistemlər

Cəmiyyətin siyasi sistemi – onun siyasi həyatının bütövlüyünü təmin edən xüsusi sosial mexanizmdir. Siyasi sistem ictimai sistemin digər altsistemlərlə – sosial, iqtisadi, hüquqi altsistemlərlə, mədəniyyət və s. ilə qarşılıqlı təsirdə olan altsistemidir.

Siyasi sistemin sistemyaradıcı əlaməti kimi dövlət hakimiyyətinin bu və ya digər forması çıxış edir. Siyasi sistem – dövlət hakimiyyətindən istifadə edilməsi əsasında bütün digər altsistemlərin fəaliyyət birliyini təmin edən universal idarəedici və tənzimləyici sistemdir.

Cəmiyyətin siyasi sistemi fəaliyyəti siyasi xarakter daşıyan idarələr və təşkilatların məcmusundan ibarətdir. Siyasi sistemin mühüm vasiləsi cəmiyyətin siyasi institutlarıdır. Siyasi sistemə həmçinin bir çox ictimai təşkilatlar (məsələn, həmkarlar təşkilatları, gənclər təşkilatları, veteranlar birlikləri və s.) daxildir. Siyasi sistemi təşkil edən bütün tərkib hissələrinin fəaliyyəti müəyyən siniflərin, sosial qrupların, milli birliklərin siyasi maraqlarının praktik surətdə həyata keçirilməsinə yönəldilmişdir. Bütün bu idarə və təşkilatlar bir-biri ilə qarşılıqlı əlaqədədirlər və daimi qarşılıqlı təsirdədirlər.

### *Siyasi sistemin elementləri*

Siyasi sistemə aşağıdakı struktur elementlər daxildir:

- institusional element – müxtəlif siyasi institutlardan və müəssisələrdən ibarətdir;
- funksional element – istər ayrı-ayrı institutlar və istərsə də

onların qrupları tərəfindən həyata keçirilən rollar və funksiyaların məcmusudur;

- tənzimləyici element – siyasi sistemin subyektləri arasında qarşılıqlı əlaqələrin tənzimlənməsinin siyasi-hüquqi normalarının və digər mədəni vasitələrinin məcmusudur;
- kommunikativ element – siyasi sistemin subyektləri arasında rəngarəng münasibətlərin məcmusudur;
- ideoloji element – siyasi ideyaların, nəzəriyyələrin, konsepsiyaların məcmusudur.

Cəmiyyətin siyasi sisteminin sistemyaradıcı elementi konkret təşkilat və idarələrin məcmusundan ibarət olan *siyasi təşkilatdır.* Siyasi təşkilatın başlıca komponentlərinə aiddir:

- dövlət orqanları, qanunverici və icra hakimiyyətləri, ordu;
- hüquq-mühafizə orqanları (məhkəmə, prokurorluq, polis);
- dövlət arbitrajı;
- siyasi partiyalar;
- siyasi hərəkatlar;
- ictimai təşkilatlar.

*Siyasi münasibətlər* dedikdə cəmiyyətin idarə edilməsi ilə əlaqədar sosial qruplar, şəxsiyyətlər, sosial institutlar arasındakı qarşılıqlı münasibətləri başa düşürlər. Bütün siyasi münasibətləri üç qrupa bölmək olar:

- siniflər, iri sosial qruplar, millətlər və dövlətlər arasındakı münasibətlər. Məhz bu münasibətlər siyasi sistemin əsasını təşkil edirlər;
- şaquli münasibətlər – siyasi hakimiyyətin həyata keçirilməsi prosesində təşəkkül tapan münasibətlərdir;
- siyasi təşkilatlar və idarələr arasındakı münasibətlər.

*Siyasi və hüquqi normalar* konstitusiyalar, nizamnamələr, partiyaların proqramları, siyasi prosedurlar şəklində mövcud olur və fəaliyyət göstərirlər. Onların vəzifəsi – siyasi münasibətləri tənzimləmək, onlara nizamlılıq verməkdir.

*Siyasi şüur* subyekt tərəfindən siyasi gerçəkliyin qavranılmasını ifadə edən qeyri-həmcins törəmədir. Siyasi şüur həmçinin siyasi biliklər, hisslər, yaşantılar, qiymətlərdir. Siyasi şüur iki formada: ixtisaslaşdırılmış və kütləvi formalarda mövcud olur.

İxtisaslaşdırılmış şüur – ideoloji cəhətdən həmcins şüurdur. Onun da daşıyıcısı hər şeydən əvvəl siyasi təşkilatlar və birliklərdir.



Kütləvi siyasi şüur cəmiyyətin tələbatlarının vasitəli səviyyəsini və məzmununu əks etdirir. Kütləvi siyasi şüur dinamikliyi ilə fərqlənir, konkret-tarixi xarakter daşıyır, bu və ya digər partiyaların taktiki-strateji fəaliyyət kursundan, müxtəlif sosial sarsıntılardan və bir çox digərlərindən asılıdır.

Siyasi strukturun bütün elementləri cəmiyyətin sosial-sinfi strukturunun müəyyən vəsilələrinə uyğun gəlirlər. Cəmiyyətin sosial-sinfi strukturu isə mövcud iqtisadi münasibətlərin əsasında bərqərar olur və fəaliyyət göstərir. Siyasi sistemin inkişafı cəmiyyətə xas olan sosial-iqtisadi və mənəvi münasibətlərin bütün məcmusundan asılıdır. Öz növbəsində siyasi sistemin bu münasibətlərə təsiri olduqca önəmlidir. Siyasi sistem nə qədər mükəmməl, təkmil olarsa, ictimai həyatın digər tərəfləri ilə qarşılıqlı təsir mexanizmləri nə qədər mükəmməldirsə, həmin sistem o qədər çox təsir göstərir.

Siyasi sistemin ictimai həyatın digər tərəfləri ilə qarşılıqlı təsiri obyektiv və subyektiv amillərdən asılıdır. Obyektiv amillərə hər şeydən əvvəl cəmiyyətin inkişafının obyektiv qanunları, subyektiv amillərə isə siyasi və dövlət xadimlərinin cəmiyyətin inkişafının obyektiv şərtlərinin əhəmiyyətini, əhalinin müxtəlif təbəqələrinin maraqlarını qəbul etmək və nəzərə almaq bacarığı aiddir.

## Siyasi sistemin funksiyaları

Siyasi sistemin funksiyalarının fərqləndirilməsi ilə əlaqədar fikirlərin dağınıq olmasına baxmayaraq onun əsas funksiyaları aşağıdakılar hesab olunur:

- sosial strukturun bütün elementlərinin dəyərlər bazasında ictimai bir tama inteqrasiyasında (birləşdirilməsində) ifadə olunan inteqral funksiyası;
- məqsədlilik funksiyası – cəmiyyətin inkişafının məqsəd və vəzifələrini müəyyən edir;
- təşkilatçılıq funksiyası – cəmiyyətin məqsəd və vəzifələrinin yerinə yetirilməsi üçün insan resurslarını, maddi, mənəvi resursları səfərbər edir;
- tənzimləmə funksiyası – siyasətin və hakimiyyətin ictimai tanınmasını, yəni siyasətin legitimliyini təmin edir;
- nəzarətetmə funksiyası – siyasi sistemin daimi sosial gərginliyi aradan qaldırmağı, münaqişələri söndürmək bacarığını nəzərdə tutur.

***Dövlət siyasi sistemin aparıcı vəsiləsidir***

Dövlət cəmiyyətin siyasi sisteminin əsas institutudur. Dövlət siyasi sistemin digər vəsilələrinə həlledici təsir göstərərək, insanların, ictimai qrupların, siniflərin və assosiasiyaların birgə fəaliyyətini istiqamətləndirir və ona nəzarət edir. Dövlət cəmiyyətdə mərkəzi hakimiyyət institutudur və bu hakimiyyət tərəfindən siyasətin təmərküzləşmiş şəkildə həyata keçirilməsidir. Bir çox sosioloqlar belə bir fikrə tərəfdardırlar ki, dövlət cəmiyyətin siniflərə parçalanması nəticəsində yaranmışdır. Cəmiyyətin dövlət şəklində təşkilinin əsas əlamətləri aşağıdakılardır:

- müəyyən insanların digər insanlar üzərində hakimiyyətinin mövcud olması;
- qan qohumluğu əlaqələrini nəzərə almayan ərazicə yerləşdirilmə;
- dövlət aparatının mövcudluğu;
- müxtəlif cür vergilərin qoyulması.

Dövlətin mahiyyəti və əsas vəzifəsi onun aşağıda göstərilən başlıca f u n k s i y a l a r ı n d a təzahür edir:

- cəmiyyətdə bu və ya digər sosial – sinfi qüvvələrin hökmranlığının təmin edilməsi;
- ölkənin xarici qəsdlərdən müdafiə edilməsi;
- bu və ya digər formada ölkənin iqtisadiyyatının inkişafına təsir göstərilməsi;
- mənəvi mədəniyyətin və ideologiyanın inkişaf etdirilməsi;
- xarici münasibətlər funksiyası (diplomatik, ticarət və s. münasibətlər sahəsi).

***Siyasi sistemlərin tipləri***

Siyasi rejimin xarakterindən asılı olaraq aşağıdakı siyasi sistemləri fərqləndirirlər:

- totalitar sistemlər – dövlət tərəfindən şəxsiyyətin əzilməsilə, onun hüquqlarının və azadlıqlarının pozulması ilə səciyyələnirlər. Bu, ictimai həyatın bütün sahələrinə total nəzarətdir, hakimiyyətin mərkəzləşdirilməsidir, yalnız təkcə bir hakim partiyanın mövcudluğu deməkdir. Totalitarizmin ən sərt formaları nasizm, faşizm, stalinizmdir;
- demokratik sistemlər – bu cür sistemlərdə hakimiyyətə münasibətdə şəxsiyyətin hüquqları prioritetdir. Demokratik sistem vətəndaşların təminatlı hüquq və azadlıqlarının geniş diapazonuna malikdir. Cəmiyyətdə hər hansı təkcə bir ideologiya mövcud deyildir, ümummilli, dünyagörüşü dəyərlər saxlanılır;
- avtoritar sistemlər – totalitar və demokratik sistemlər arasında aralıq mövqe tuturlar. Avtoritarizm – hakim qruplaşmanın hakimiyyəti olaraq şəxsi hakimiyyət rejimidir. Vətəndaşların siyasi hüquqları və azadlıqları xeyli dərəcədə məhdudlaşdırılmışdır.



## 7.4. Siyasi hakimiyyət

Siyasət – bu, həmişə hakimiyyət məsələsidir. Ümumi mənada hakimiyyət – başqalarının davranışına onların razılığından asılı olmadan nəzarət etmək, həmçinin qərarların qəbul edilməsi prosesində səmərəli iştirak etmək bacarığıdır. Hakimiyyət leqal, qeyri-leqal, ədalətli, ədalətsiz ola bilər. O, vara, statusa, hörmətə ,sayca üstünlüyə və yaxud təşkil olunmuş səmərəliliyə əsaslana bilər.

Hakimiyyətin əsas komponentləri subyekt və obyekt deyil, vasitələr və prosesdir. Subyekt və obyekt – hakimiyyətin bilavasitə daşıyıcıları, agentləridirlər. Sübyekt – hakimiyyətin fəal, istiqamətləndiricisi başlanğıcıdır. Siyasi hakimiyyətin subyektləri mürəkkəb, çoxsəviyyəli xarakterə malikdirlər. İlkin səviyyəni fərdlər və sosial qruplar təşkil edir. Sonrakı səviyyə siyasi təşkilatlardan ibarətdir. Subyekt hakimiyyət obyektinin davranışını nəzərdə tutan sərəncam vasitəsilə qarşılıqlı hakimiyyət təsirinin məzmununu müəyyən edir. Bu sərəncama həmçinin komandanın yerinə yetirilməsi və yaxud yerinə yetirilməməsi üçün həvəsləndirmə və cəzalandırma göstərilir. Buna görə də subyektin mütəşəkkilliyinin hakimiyyət üçün çox böyük əhəmiyyəti vardır.

Hakimiyyət obyektin subyektə tabeliyini həmişə nəzərdə tutur. Hakimiyyətin obyekti və subyektinin münasibətləri istər kəskin müqavimət, istərsə də könüllü, həvəslə qəbul olunan itaətetmə formasını ala bilər. Siyasi hakimiyyət obyektinin keyfiyyətləri hər şeydən əvvəl əhalinin siyasi mədəniyyətilə müəyyən olunur.

M. Fukonun fikrinə görə hakimiyyət kommunikasiyalardan və repressiyalardan fərqli olaraq fərdlərin öz aralarında, qrupların qruplarla qarşılıqlı təsirini təşkil edən xarici qüvvə ilə səciyyələnir. Hakimiyyət meqa-, makro- və mikrososial proseslərdən ayrılmazdır. Hakimiyyət – daimi olmamağı və davamsızlığı nəzərdə tutan münasibətdir:

"Hakimiyyət elə bir şey deyildir ki, onu əldə saxlayırlar və yaxud əldən buraxırlar; hakimiyyət mütəhərrik bərabərsizlik münasibətləri oyununda saysız-hesabsız nöqtələr vasitəsilə həyata keçirilir"[1].

Fransız sosioloqu M. Krozye hakimiyyətin aşağıdakı izahını təklif etmişdir: sosial kontekstə daxil olmuş və onunla ayrılmaz olan hakimiyyət həmişə birgə danışıqlarda iştirak edən tərəfdaşlar arasında mübadilə münasibətidir.

M. Krozye buna diqqət yetirir ki, hakimiyyət mübadiləsi prosesində hökm sürən subyektə və hakimiyyət təsirinin obyektinə bölgü şərtiliyi mövcud deyildir. Lakin bu mübadilə başqasına nisbətən birisi üçün həmişə daha münasibdir: "Hakimiyyət güc münasibətidir ki, burada birisi başqasına nisbətən daha çox ala bilər, lakin bu münasibətdə həmçinin birisi heç zaman başqası qarşısında hər şeydən tam şəkildə məhrum edilməmişdir"[2].

Hakimiyyət bir neçə əsasa malik ola bilər ki, onun gücü, yəni subyektin obyektə təsir etmək bacarığının dərəcəsi bu əsaslardan asılı olsun. Hakimiyyətin vərdişə əsaslanan gücü o vaxtacan əziyyətsiz qəbul olunur və kifayət qədər etibarlıdır ki, hələlik real həyatın tələbləri ilə ziddiyyətə girməyibdir. Marağa əsaslanan, mənafe üzərində qurulan hakimiyyət daha sabitdir, davamlıdır. Şəxsi maraq insanlarda müsbət tabeçilik motivasiyasının inkişafına kömək edir. İnam əsasında tabelik şüurun kifayət qədər dərin qatlarına təsir göstərilməsilə bağlıdır. Yüksək məqsədlər naminə hakimiyyətə tabe olmağa hazır olmaq – hakimiyyətin mühüm mənbəyidir. Nüfuz üzərində qurulan hakimiyyət hakimiyyət obyekti və subyektinin ümumi marağına və tabeçilikdə olanların subyektin xüsusi bacarıq və qabiliyyətinə inamına əsaslanır. Marağa, inam və nüfuza əsaslanan hakimiyyət böyüyüb, tabelikdə olanın rəhbərlə identifikasiyasına keçir.

Subyekt və obyekt – hakimiyyətin bir-birinə qarşı duran və dəyişkən iki qütbüdür: bir münasibətdə insan rəis kimi, digər münasibətdə tabelikdə olan kimi çıxış edir. Hakimiyyətin subyekt və obyektinin qarşılıqlı təsiri vasitələrin və yaxud resursların bütöv bir kompleksi ilə əlaqələndirilir. Bu qarşılıqlı təsir hakimiyyət prosesinin sabitləşdiricisi rolunda çıxış edən xüsusi təsisatlanma mexanizmi çərçivəsində həyata keçirilir.

---

[1] *Фуко М.* Воля к истине. М., 1996. С. 191-192.

[2] *Крозье М.* Социология т современность. М., 1977. Т. 2. С.115.



Siyasi hakimiyyətin mərkəzi funksiyası fərdlər, sosial qruplar, resurslar, dəyərlər və sosial əhəmiyyətli digər obyektlər üçün sosial cəhətdən müəyyən olunan hüdudların qoyulmasıdır. Bunlara həmçinin maddi olmayan resurslar deyilənlər də aiddir: təhlükəsizlik, informasiyaya daxil ola bilmək, status, nüfuz, hakimiyyətin özü. Bu hüdudlar mövcud olmadıqda mübahisələrin, münaqişələrin baş verməsi mümkündür. Hakimiyyətin vəzifəsi – mübahisələrə və münaqişələrə yol verməyin hüdudunu müəyyən etməkdir ki, həmin hüdudlara çatdıqda hakimiyyətin qərar qəbul etməsi zəruri olsun. Həm də bu qərar hamı tərəfindən məcburi qərar kimi başa düşülməlidir.

Siyasi hakimiyyət aşağıdakı cəhətlərlə səciyyələnir: 1) dövlətin hüdudları daxilində qücdən istifadə olunmasının leqallığı (fiziki məcburetmə, mülkiyyətdən məhrumetmə, azadlıqdan və hətta həyatdan məhrumetmə də daxil olmaqla bütün sanksiyaları vermək hüququ yalnız dövlətə məxsusdur). Siyasi hakimiyyət quldur dəstələrindən bununla fərqlənir ki, onun göstərdiyi zorakılıq legitimdir; bu isə cəmiyyət üzvlərinin əksəriyyəti tərəfindən tanınmış və qəbul edilmişdir; 2) qərarların hər cür digər hakimiyyət üçün aliliyi, məcburiliyi, ictimai proseslərə rəhbərlik etmək bacarığı; 3) ictimailik, yəni hamı tərəfindən tanınma və şəxssizlik (hakimiyyət bütövlükdə bütün cəmiyyətə şamil edilir); 4) monomərkəzçilik (qərarların qəbul edildiyi vahid mərkəzin mövcud olması, resursların müxtəlifliyi). Siyasi hakimiyyət istər məcburetmədən, istərsə də iqtisadi, sosial, mədəni-informasiya resurslarından istifadə edir.

Hər bir siyasi hakimiyyət öz mövcudluğunu saxlamaq üçün legitim olmalı, bu cür sistemin iştirakçıları tərəfindən tanınmalıdır.

### *Hakimiyyətin tipləri*

Hakimiyyətin tipologiyaları cürbəcürdür. T a b e ç i l i k m o t i v l ə r i n d ə n asılı olaraq aşağıdakı hakimiyyət tiplərini fərqləndirirlər:

- ənənəvi hakimiyyət – onun əsasında müəyyən olunmuş ənənələrin pozulmazlığına, müqəddəsliyinə ən ümumi inam durur. Hökmdarın hakimiyyəti yazılmamış qanunlara söykənir, bu hakimiyyət müqəddəsdir. Məsələn, rəhbərlər və monarxlar ənənəvi hakimiyyətə malik idilər. Onların hakimiyyətinə tabelik "əsrlərdən bəri belədir" kəlamı ilə bəraətləndirilirdi. Bu cür hakimiyyət adətən varislik hüququna əsaslanır. Çox vaxt da hökmdarın irsən qəbul olunmuş hakimiyyəti

qeyri-məhduddur;

- harizmatik hakimiyyət – avtoritetin qəbul edilməsinə, bir şəxsin hamının üzərində əzəmətinə, müqəddəsliyinə, qəhrəmanlığına, üstünlüyünə hökm sürən inama, etiqada əsaslanır. Bu cür hakimiyyət çox vaxt həvəslə, könüllü tabeçilik göstərilən millət atası, rəhbər, şəksiz lider obrazında təzahür edir. Harizmatik lider hamı tərəfindən talenin, ictimai inkişaf qanunlarının, Allahın qeyri-adi qabiliyyət verdiyi və cəmiyyətə rəhbərlik üçün gətirib çıxardığı insan kimi qəbul olunur. Lakin harizmatik hakimiyyət daimi deyildir, o, ya dağılır, ya da transformasiya edir;
- rasional hakimiyyət. Onun əsasında qoyulmuş qaydanın qanuniliyinə inam, əksəriyyət tərəfindən dövlət orqanlarının hakimiyyəti həyata keçirmək hüququnun əsaslandırılmış olmasının tanınması durur. Rəhbərlərin hüquqları və vəzifələri bir qayda olaraq konstitusiyalarda və qanunlarda təsbit olunur. Bu konstitusiyalar və qanunlar isə onların məzmunu ilə hamının razı olmasına əsaslanır. Siyasi hakimiyyətin rasional tipinin rəhbər prinsipi – "insanların deyil, qanunun hökmranlığıdır". Bu cür hakimiyyət tipi bir çox sənaye cəmiyyətləri üçün səciyyəvidir və demokratik cəmiyyətdə reallaşdırılır.

Hakimiyyətin *əsaslandığı resurslara uyğun olaraq* aşağıdakı formalarını fərqləndirirlər:

- iqtisadi hakimiyyət – iqtisadi resurslar, mülkiyyət, maddi dəyərlər üzərində nəzarətdir, maddi nemətləri bölüşdürmək bacarığını nəzərdə tutur;
- sosial hakimiyyət – sosial nərdivan üzrə mövqelərin (statusların, vəzifələrin, güzəştlərin və imtiyazların) bölgüsünə əsaslanır;
- mədəni-informasiya hakimiyyəti – elmi biliklərin, informasiyanın və onların bölgüsü vasitələrinin köməyi ilə həyata keçirilir;
- məcburedici hakimiyyət – fiziki gücün tətbiqi və yaxud fiziki güc tətbiq etmək təhlükəsinin köməyi ilə insanlar üzərində nəzarətdir.

Funksiyalar üzrə təsnifat apardıqda qanunverici, icra və məhkəmə hakimiyyətlərini fərqləndirirlər; tətbiq edilmənin xarakterinə görə demokratik, avtoritar, totalitar, despotik, bürokratik və s. hakimiyyətləri fərqləndirirlər.



### *Regional siyasi hakimiyyət*

Regional siyasi hakimiyyət – çoxaspektli və çoxsəviyyəli fenomendir. Onun əsas funksiyası – regionun siyasi həyatının yenidən istehsalı, yerlərdə siyasi prosesin varisliyinin təmin edilməsidir. Buna görə də regional siyasi hakimiyyətin fəaliyyəti inzibati və idarəetmə sferaları ilə məhdudlaşmır, həmçinin mütəşəkkil, nüfuza və maliyyə resurslarına malik regional qruplarla münasibətlərin yaradılmasını özündə birləşdirir. Belə ki, qruplarla əməkdaşlıq etmədən regional siyasi hakimiyyət səmərəli fəaliyyət göstərə bilməz.

Regional hakimiyyətin siyasi funksiyalarına yerli kollektivlər çərçivəsində səfərbərlik, sabitləşmənin təmin edilməsi və adaptasiya proseslərində iştirakı edilməsini də aid edirlər.

Regional hakimiyyətin mərkəzlə qarşılıqlı münasibətlərinin xarakteri ikili səciyyə daşıyır. Siyasi cəhətdən mərkəzdən asılı olmaqla, dövlət hakimiyyətinin bir buğumu olmaqla, regional hakimiyyət yerlərdə mərkəzin siyasətini həyata keçirməyə borcludur. Lakin eyni zamanda da regional hakimiyyət özünün fəaliyyətinə mərkəzin nəzarətinə müqavimət göstərmək yolu ilə ona təsir etməyə qadirdir. Bütün bunlar ziddiyyət doğurur: bir tərəfdən, öz vəzifələrini uğurla yerinə yetirmək üçün yerli hakimiyyət mərkəzi hakimiyyətdən getdikcə artmaqda olan asılılıq nümayiş etdirir, digər tərəfdən isə, onun salamat qalmağının şərti mərkəzə uğurla qarşı durmaqdır, yəni regionda özünün mövqelərini möhkəmləndirməkdir.

Buradan o çıxır ki, regional hakimiyyət – struktur cəhətdən determinasiya olunmuş inteqral, statuslu hakimiyyətdir. Hakimiyyətini tam dolğunluğu ilə həyata keçirmək üçün regional hakimiyyət iqtisadi, informatik və digər resursların cəlb edilməsinə ehtiyac duyur.

Regional hakimiyyətin aşağıdakı komponentlərini seçirlər:

- region miqyasında kadr siyasətinin həyata keçirilməsinə məsul olan inzibati orqanlar və regional elitanın müxtəlif "seqmentləri"nin nümayəndələri ilə müntəzəm qarşılıqlı təsiri təmin edən məsləhət – məşvərətçi orqanlar;
- bütün səviyyələrdən olan regional məmurlarla, siyasi partiyalarla və vətəndaşların digər birlikləri ilə formal qarşılıqlı münasibətlər sistemi;
- ictimai münasibətlərin tənzimlənməsinin vasitələri və üsullarının məcmusu.

## 7.5. Hakimiyyət orqanlarına seçkilər

Seçkilər – vətəndaşların siyasi iradəsinin ifadə edilməsinin köməyilə idarələrin hakimiyyət orqanlarını formalaşdırmaq üsuludur, yəni seçkilər xalqın suverenliyinin, hakimiyyətin mənbəyi kimi onun siyasi rolunun mühüm təzahür formasıdır. Seçkilər dövlət orqanlarının tərkibinin konstitusiyada təsbit edilmiş müntəzəm, dövri seçilməsi prosesdir.

Seçkilərin sayəsində hakimiyyət orqanları müxtəlif ictimai qrupların maraqları, mənafeləri haqqında məlumat əldə edirlər. Seçkilər hər bir vətəndaşa siyasətdə fəal surətdə iştirak etmək hüququ verir. Onlar – siyasi və ictimai həyatda tez-tez baş verən hadisədir, çünki seçkilər hakimiyyətin müxtəlif institutlarına və səviyyələrinə: parlamentə, prezidentə, federasiya subyektlərinin nümayəndəli və siyasi orqanlarına, yerli hakimiyyət orqanlarına şamil edilirlər.

Seçki fəallığının spesifik forması referendumdur. Referendum – bütün əhalinin rəyini aşkar etməyi tələb edən mühüm məsələ üzrə ümumxalq səsverməsinin xüsusi tipidir. Referendum konstitusiya referendumu ola bilər (konstitusiyanın təsdiq edilməsi) və qanunvericilik referendumu ola bilər (cari qanunvericilik qanunun obyekti).

### *Seçkilərin funksiyaları*

Seçkilər aşağıdakı funksiyalara malikdirlər:

- əhalinin rəngarəng maraqlarının artikulyasiyası, aqreqasiyası və nümayəndəliyi. Bu, vətəndaşlar tərəfindən bir qayda olaraq seçki proqramlarında artikulyasiya olunan və aqreqasiya edilən, yəni həyata keçirilmək üçün ziddiyyətsiz yararlı forma alan maraqlarının dərk edilməsi üçün əlverişli imkanlardır;
- hakimiyyət institutlarına nəzarət. Seçkilər – çox mühüm nəzarət institutudur, çünki onlar seçicilərə hökumətə və müxalifətə hökm vermək imkanı yaradır. Bundan əlavə seçkilərin sayəsində hökumətə nəzarət institutu olan parlament formalaşdırılır;
- rəngarəng rəylərin inteqrasiyası və ümumi siyasi iradənin formalaşması. Seçkilər vətəndaşların müəyyən siyasi platforma ətrafında və bu platformanı təmsil edən liderlər ətrafında birləşməsini təmin edir. Beləliklə, dövlətdə dominant olan siyasi iradə formalaşır;
- konkret hakimiyyət institutlarının: parlamentin, hökumətin, prezidentin və b. siyasi sisteminin legitimləşdirilməsi və sabitləşdirilməsi. Seçkilər vətəndaşlara siyasi sistemin mövcud tipini qəbul etməyə və yaxud rədd etməyə imkan verir;



- hakimiyyət institutları ilə vətəndaşlar arasında kommunikasiyaların və nümayəndəlik münasibətlərinin genişləndirilməsi. Seçkilər vətəndaşlarla hakimiyyət arasında əks əlaqələr kanalıdır;
- siyasi münaqişələrin kənarlaşdırılması, onların institusionallaşmış, dinc tənzimlənmə məcrasına yönəldilməsi;
- seçki heyətinin aktual ictimai vəzifələrin həllinə səfərbər edilməsi;
- əhalinin siyasi sosiallaşması, onun siyasi şüurunun və siyasi iştirakının inkişaf etdirilməsi;
- siyasi elitanın cəlb edilməsi;
- alternativ siyasi proqramların rəqabət mübarizəsinin vasitəsilə cəmiyyətin yeniləşdirilməsinin fəallaşdırılması;
- effektiv müxalifətin təşkil edilməsi və onun siyasi rəhbərlik funksiyalarını yerinə yetirmək üçün hazırlanması;

Seçkilərin başlıca sosial vəzifəsi – vətəndaşların rəyinin və iradəsinin adekvat əks etdirilməsi, əsas ictimai qrupların nümayəndəliyinin hakimiyyət orqanlarında təmin edilməsi, effektiv hökumətin formalaşdırılmasıdır.

Seçki hüququ aşağıdakı əsas demokratik prinsiplərə söykənir: 1) ümumilik prinsipi (cəmiyyətin hər bir vətəndaşının hakimiyyət orqanlarına seçmək və seçilmək hüququ vardır. Ümumilik prinsipini yalnız təyin edilmiş senzlər: yaş senzi, bacarıqsızlıq senzi və s. məhdudlaşdırır.); 2) bərabərlik (hər bir seçici səslərin eyni miqdarına malikdir); 3) seçki sirri (konkret seçicinin qərarı heç kimə məlum olmamalıdır); 4) müstəqim səsvermə (seçici seçilən vəzifəyə konkret namizəd haqqında bilavasitə qərar verir).

### Testlər

1. Siyasi sosiologiya öyrənir:
   a) siyasi hadisələrin sosial qanadını və onların mahiyyətini;
   b) sosial proseslərdən asılı olmayaraq siyasi prosesləri.

2. Siyasi sosiologiyanın başlıca tədqiqat obyekti:
   a) dövlətdir;
   b) siyasi partiyalar və hərəkatlardır.

3. Siyasi sistemin sistemyaratma əlaməti:
   a) siyasi rejim;
   b) dövlət hakimiyyət forması.

4. Siyasi sistemin elementləri:
   a) təsisatlanma;
   b) funksional element;
   v) tənzimləyici element;
   q) idraki element;
   d) kommunikativ element;
   e) ideoloji element.

5. Siyasi münasibətlər aşağıdakı şəkildə qruplaşdırılır:
   a) siniflər, iri sosial qruplar arasında münasibətlər;
   b) siyasi təşkilatlar və idarələr arasında münasibətlər;
   v) hakimiyyətin həyata keçirilməsi ilə bağlı münasibətlər;
   q) şəxslərarası istənilən münasibətlər.

6. Siyasi sistemlər siyasi rejimin xarakterindən asılı olaraq aşağıdakılara bölünürlər:
   a) totalitar; q) demokratik;
   b) unitar; d) avtoritar;
   v) federativ.

7. Hakimiyyətin gücü:
   a) subyektin obyektə təsir etmək bacarığının dərəcəsidir;
   b) subyektin obyektə zülm etmək bacarığının dərəcəsidir.

8. Siyasi hakimiyyətin əsas cəhətləri:
   a) leqallıq;
   b) qərarların aliliyi, məcburiliyi; rəhbərlik etmək bacarığı;
   v) aşkarlıq;
   q) vahidmərkəzçilik;
   d) özbaşınalıq.

9. Hakimiyyətin tipləri:
   a) ənənəvi hakimiyyət; b) irrasional hakimiyyət;
   b) harizmatik hakimiyyət; d) fərdi hakimiyyət.
   q) rasional hakimiyyət;



10. Seçki hüququnun əsas prinsipləri:
   a) ümumilik; q) seçkilərin sirri;
   b) bərabərlik; d) müstəqim səsvermə.
   v) qardaşlıq;

Cavablar

**1** – a; **2** – a; **3** – b; **4** – a, b, v, d, e; **5** – a, b, v; **6** – a, q, d;
**7** – a; **8** – a, b, v, q; **9** – a, b, v; **10** – a, b, q, d.

# 8-Cİ FƏSİL. İQTİSADİ SOSİOLOGİYA

## 8.1. İqtisadi sosiologiyanın meydana gəlməsi və inkişafı

İqtisadiyyat ictimai həyatın konkret insanların, sosial qruplar və birliklərin fəaliyyət göstərdikləri sferalarından biridir. Bu konkret insanları, sosial qrupları və birlikləri iqtisadi fəaliyyətin subyektləri adlandırmaq olar. Onların qarşılıqlı əlaqəsinə, davranışına nəinki iqtisadi qanunlar, eyni zamanda maraqlar və tələbatlar, dəyərlilik və siyasi oriyentirlər. əhval-ruhiyyə və sosial amillər təsir göstərir.

İqtisadi və sosial olanın çarpazlaşması reallığın elə bir sahəsini əmələ gətirir ki, bu sahəni iqtisadi sosiologiya tədqiq edir.

"İqtisadi sosiologiya" anlayışının daxil edilməsi XIX əsrin sonuna və XX əsrin əvvəllərinə təsadüf edir. M. Veber bu anlayışı "sosial iqtisadiyyat" kateqoriyası ilə eyniləşdirirdi. E. Dürkheym "iqtisadi sosiologiya" bölməsini fərqləndirirdi. Yalnız 1903-cü ildə Belçika sosioloqu Q.de Qreef sosiologiya elminin ayrıca sahəsi olaraq iqtisadi sosiologiyanın yaradılması məsələsini qarşıya qoydu. Rusiya sosiologiyasında bu termin xüsusi öyrənmə predmeti olmadan M.M. Kovalevski, V.M. Xvostov kimi sosioloqlar tərəfindən istifadə edilmişdir. Məhz həmin vaxtda alimlər istehsalatda insan amilinin rolunu, iqtisadi şüurun və iqtisadi davranışın əhəmiyyətini dərk etməyə başlamışdılar.

Lakin iqtisadi sosiologiyaya nisbətən müstəqil istiqamət kimi yalnız XX əsrin ikinci yarısında yanaşmağa başlamışlar. Almaniyada və

ABŞ-da industrial sosiologiyanın inkişafı buna kömək etmişdir Vətən elmində iqtisadi sosiologiyanın əsasları hər şeydən əvvəl əməyin sosiologiyası, kəndin, şəhərin sosiologiyası kimi istiqamətlərin sayəsində qoyulmuşdur.

İqtisadiyyat sahəsində bütün sosial biliyi iki istiqamətə ayırmaq olar. Birinci istiqamət ictimai şüurun dərindən tədqiq edilməsilə, bu şüurda iqtisadi şüurun və iqtisadi təfəkkürün aşkara çıxarılması ilə bağlıdır. İkinci istiqamət – təsərrüfat fəaliyyətinin zəruri şərti olan və məcmu halında iqtisadi inkişafın təsirli tənzimləyiciləri olan sosial amillərin müəyyən edilməsilə bağlıdır.

İqtisadi sferanın əsaslı şəkildə islah edilməsi, təsərrüfat dəyişikliklərinin sürətlə getməsi əhalinin yeni iqtisadi şəraitə adaptasiya olunması problemini "işıqlandırdı". İqtisadi şüuru transformasiya etmək və əhalinin yeni iqtisadi davranış modellərini formalaşdırmaq zərurəti meydana gəldi. Sosial fəallıq istər daxili mənbələrə (tələbatlar, maraqlar, sosial ustanovkalar və oriyentasiyalar) və istərsə də xarici tənzimləyicilərə (mədəniyyət, idarəetmə sistemi və s.) malik olduğuna görə iqtisadi münasibətlərin subyektlərinə diqqət artmışdır. İqtisadi sahədə sosial münasibətlərin, iqtisadi fəaliyyətin növləri və vasitələrinin onların dəyərlilik-məqsədlilik oriyentirlərinin dəyişdirilməsi üçün iqtisadiyyat elminin və sosiologiyanın analitik imkanlarına əsaslanan müvafiq elmi paradiqma lazım idi.

İqtisadi həyatın müasir inkişaf mərhələsi bunun başa düşülməsi zərurətini sübut edir ki, insanın şüurunda nə yetişir, mülkiyyət münasibətlərinin dəyişməsi prosesində işçilərin davranışında baş verən ciddi irəliləyişləri nədir şərtləndirən və həyatın irəli sürdüyü tələbləri praktikada necə reallaşdırmaq olar.

### *Tədqiqatın predmeti, obyekti, metodu*

İqtisadi sosiologiya – sosiologiyanın növlərindən biri olub, ictimai həyatın iqtisadi sferasında sosial olanı öyrənir. Axı obyektiv iqtisadi qanunlar və qanunauyğunluqlar insanların həyatın bütün sferalarına nüfuz edən sosial fəaliyyəti vasitəsilə reallaşdırılır, həyata keçirilir. İqtisadi fəaliyyət sosial sistemin, sosial fəaliyyətin bir hissəsidir.

T. İ. Zaslavskaya və R.V. Rıvkina birinci olaraq iqtisadi sosiologiyanın predmetinə tərif verərək, onu "iqtisadiyyat sferasında fəaliyyət göstərən insan amili haqqında, bu insan amilinin strukturu, rolu və sosial-iqtisadi proseslərə təsirinin xarakteri haqqında... yəni öz fəaliyyəti və davranışı gedişində təşəkkül tapan sosial-iqtisadi qrupların qarşılıqlı təsiri haqqında elm" [1] adlandırmışlar. İqtisadi və sosial maraqlarının uyğun gəlməsindən və ya uyğun gəlməməsindən asılı olaraq insan öz fəaliyyətinin nə dərəcədə motivləşdiyini və stimullaşdığını dərk edərək, öz davranışında düzəlişlər edir, tələbatlarını və arzularını təmin etdir. Fərdin, sosial qrupun və birliyin iqtisadi həyata daxil olmasının nəticəsində meydana gələn çox rəngarəng sosial əlaqələrin məcmusu elə obyektin mahiyyətini, onun spesifikasını müəyyən edir.

İqtisadi sosiologiyanın predmetinə iqtisadi proseslərin sosial aspektləri və cəmiyyətdə insanların iqtisadi davranışı; sosial təşkil formaları; bir-biri ilə qarşılıqlı əlaqədə olan rolların sistemləri; konkret cəmiyyətdə iqtisadi fəaliyyəti tənzimləyən norma və dəyərlərin modelləri; iqtisadi institutlar arasında qarşılıqlı münasibətlər daxildir. Bu prosesin mahiyyəti – qruplararası qarşılıqlı əlaqələrin təsiri altında iqtisadiyyatın fəaliyyətinin xarakterinin dəyişməsindən ibarətdir. İqtisadi sosiologiya ictimai həyatın iqtisadi sferasında insanların sosial fəaliyyəti ilə maraqlanır. Beləliklə, *iqtisadi sosiologiyanın predmetini bütövlükdə iqtisadi davranış təşkil edir.*

Sosioloqlar iqtisadi davranışı sosial davranışın növ müxtəlifliklərindən biri kimi nəzərdən keçirirlər. Həmin sosial davranış da iqtisadi fəaliyyətin çox rəngarəng növlərində reallaşır və qarşılıqlı sosial münasibətlərin müəyyən sinfini əks etdirir.

İqtisadi sosiologiyanın predmetini başa düşmək üçün aşağıda göstərilənlərlə bağlı olan bir sıra nəzəri müddəaları nəzərdən keçirmək lazımdır:

- müxtəlif iqtisadi proseslərin sosial "substratı" məsələsi (iqtisadiyyatda sosial əsas fərqləndirilir ki, onun çərçivəsi daxilində öyrənilmək məqsədilə iqtisadi sosiologiyanın problemləri işlənib hazırlanır);
- iqtisadi fəaliyyətin rasional əsasları və onların kriterial əsaslandırılması;
- institusional matrisalar; onların çərçivəsi daxilində o, reallaşdırılır;

[1] *Заславская Т.И., Рывкина Р.В.* Социология экономической жизни. Новосибирск, 1991. С. 56-57.

- *iqtisadi seçimdə məhdudiyyətlər və limitlər;*
- iqtisadi fəaliyyətin strukturunda innovasiya, ənənəvi və köhnəlmiş elementlərin balansı;
- müxtəlif iqtisadi mədəniyyətlər üçün səciyyəvi olan iqtisadi seçimin ənənəvi və stereotip komponentləri;
- iqtisadi davranışın ixtisaslaşmasının iqtisadi seçimin abstrakt modelini qazancın maksimum həddə çatdırılmasının müxtəlif vasitələri və texnologiyaları ilə müəyyən olunan konkret məzmunla dolğunlaşdıran amillər;

İqtisadi davranışın tədqiqi onun aşağıdakıları özündə birləşdirən ilkin muqəddəm şərtlərinin sosioloji təhlilini tələb edir:

- iqtisadi resursların iqtisadi subyektlərlə "ilişməsi"ni təmin edən mülkiyyət institutu;
- iqtisadi resursların bazar kanalları ilə bölgüsünə cavabdeh olan iqtisadi mübadilə institutu;
- bunun da funksiyası bazar mübadiləsi sistemində tənzimləmə, qiymətləndirmə və hesablamadan ibarət olan pul institutu;
- subyektlərin iqtisadi maraqlarının tarazlığını təmin edən müqavilə münasibətləri institutu;
- insan hərəkətlərinin nizama salınması, normalaşdırılması və tənzimlənməsi institutu;
- iqtisadi fəaliyyət subyektini səciyyələndirən anlayışların məzmununun müəyyənləşdirilməsi: "iqtisadi motivasiya", " iqtisadi üstünlük vermə", "iqtisadi stereotip", "iqtisadi şüur";
- sosial (iqtisadi) bərabərsizlik problemləri;
- iqtisadi mədəniyyət problemləri (iqtisadi mədəniyyət – konkret iqtisadi məqsədlərə çatmaq üçün zəruri olan iqtisadi seçimin və rasional prosedurların oriyentiridir;

İqtisadi proseslər sosial mexanizmlərlə tənzimlənir. Sosial mexanizmlərin tənzimləmə imkanlarını öyrənən müxtəlif yanaşmalar mövcuddur. Məsələn; klassik metodoloji yanaşma (K. Marks) bu və ya digər sosial mexanizmləri siniflərin mənafeləri, fəaliyyəti və münasibətləri mövqelərindən nəzərdən keçirir. İqtisadi həyatı tənzimləyən sosial mexanizmlərə kulturoloji yanaşma (M. Veber) nöqteyi-nəzərindən siyasi, etik və dini institutlar aiddir. Sosioloji yanaşma çərçivəsində (T. Veblen) sosial tənzimləyicilər rolunu bilavasitə istehlakçılıq həyat tərzindən irəli gələn instinktlər, meyllər və



vərdişlər yerinə yetirirlər.

İqtisadiyyatın tənzimlənməsinin sosial mexanizmi – sosial obyektlərin iqtisadi davranış tiplərinin davamlı strukturudur. Nemətlərin və xidmətlərin istehsalı, bölgüsü, mübadiləsi və istehlakı ilə əlaqədar həmin iqtisadi davranış tiplərinin qarşılıqlı təsiri bir tərəfdən, hüquqi, iqtisadi və sosial institutlarla, digər tərəfdən, sosial subyektlərin iqtisadi vəziyyəti ilə müəyyən olunur.

### *İqtisadi davranışın sosioloji təhlilinin klassik cərəyanları*

#### *M. Veberin başa düşən sosiologiyası*

M. Veber özünün başa düşən sosiologiya nəzəriyyəsini işləyib hazırlayarkən (bax: 1-ci bölmə, 3-cü fəsil) iqtisadi hərəkəti subyektin resurslar üzərində sivilizasiyalı nəzarət üsulu kimi müəyyənləşdirir; həmin subyekt bu nəzarəti subyektivcəsinə və şüurlu olaraq həyata keçirərkən, qazanc mülahizələrini əsas götürür. Buna görə də inamla demək olar ki, subyektin qazanc əldə etmək meyli iqtisadi hərəkətin əsas elementidir. İqtisadi hərəkətin mühüm aspekti olaraq insanların fəaliyyətinin nəinki məqsədləri, eyni zamanda vasitələri, manеələri və məhsulları kimi çıxış edən proseslərin və obyektlərin əhəmiyyətli amili kimi çıxış edir.

"Protestant etikası və kapitalizmin ruhu" əsərində Veber göstərir ki, istənilən iqtisadi hərəkət onun başqa bir elementini – özünüsahmanlayan avtonom hərəkətin çevik strukturuna malik planlaşdırmanı nəzərdə tutur. Burada xidmət seçimi azadlığın iqtisadi hərəkətin meyarını təşkil edən əlamət kimi çıxış edir. İqtisadi hərəkətin reallaşmasının konkret forması texnikadır (texnologiyadır). Veber göstərir ki, vasitələrin seçimi baxımından rasional olan heç də hər cür hərəkət tipi rasional iqtisadi hərəkət adlandırıla bilməz, belə ki, istənilən hərəkətin texnikası bu hərəkətin nə əhəmiyyətini, nə də məqsədini deyil, yalnız istifadə olunan vasitələri səciyyələndirir. Texnika da öz növbəsində bir-birinə qütbi əks olan iki mənaya malikdir. Veber tərəfindən rasional texnika adlandırılan birinci məna rasionallığın ali formasını – öz qazancını güdən subyektlərin iqtisadi maraqları və məqsədlərindən asılı olmayan elmi biliyi nəzərdə tutur. Rasional iqtisadi hərəkətin alqoritmi olan ikinci mənası isə həmin hərəkəti həyata keçirən subyektlərdən ayrılmazdır.

Veber formal və maddi (məzmunlu) rasionallığı bir-birindən fərqləndirirdi. Formal rasionallığa o, sosial hərəkəti tam şəkildə əhatə

edən kalkulyasiyaya (malın maya dəyərinin və satış qiymətinin hesablanmasına – İ.R.) əsaslanan rasionallığı aid edirdi. Maddi rasionallıq isə "dəyərlilik postulatları"na əsaslanır. Alim belə hesab edirdi ki, cəmiyyət inkişaf etdikcə formal rasionallıq məzmunlu rasionallıq üzərində getdikcə daha artıq dərəcədə üstünlük təşkil edəcəkdir.

Veberə görə iqtisadi hərəkətin başlıca komponenti subyektin qazanc əldə etmək məqsədilə rasional hərəkət etməklə bağlı leqal və legitim məramıdır. Veber qeyd edir ki, beləliklə, "rasionallıq" maksimumlaşdırma davranışının heç də bütün modellərini əhatə etmir. Lakin iqtisadi hərəkətlərin dünya praktikası məcburiyyətin bu və ya digər dərəcədə qazanc əldə etməyin əlavə vasitəsi kimi çıxış etdiyi, iqtisadi subyektlərin yalnız öz iqtisadi maraqlarını əsas tutaraq etik və institusional qadağaları inkar etdikləri halla bağlı Veber nümunəsindən imtina etməyin çoxlu sayda nümunələrini nümayiş etdirir. Bu da daha çox qaydadır, nəinki müstəsna hal.

### *V. Paretonun iqtisadi hərəkətin məntiqi-eksperimental təhlili*

V.Pareto (1848 – 1923) Veberdən fərqli olaraq iqtisadi hərəkətin strukturunda rasionallığın nisbiliyini qeyd edirdi. Hər cür şüurlu davranış kimi iqtisadi davranışı da rasional davranış adlandırmaq olar, bu şərtlə ki, subyekt öz hərəkətləri və öz qarşısında qoyduğu məqsəd üzərində düşünsün, onun davranışının isə sövqedici səbəbi olaraq onun tabe olduğu əqli nəticələr çıxış etsin.

Pareto iqtisadi rasionallığı iqtisadi hərəkətin strukturu üzərində qurur və bu strukturda məqsədi, maraq və vasitələri fərqləndirir. Bu halda əsaslı məqam vasitələrdir ki, bunlardan da istifadə edərək nəticə əldə etmək mümkündür. Məqsədlər və maraqlar təhlil predmeti deyildir, belə ki, müxtəlif seçim şkalalarının məziyyətləri və nöqsanları haqqında hökm çıxarmaq olmaz. İqtisadi davranışı yalnız o zaman rasional adlandırmaq olar ki, maraqların müəyyən seçimində fərd müxtəlif vasitələrdən istifadə edərək, axtardığı nəticəni əldə etsin. Lakin lazımi nəticə əldə edilməyibsə, bu cür iqtisadi davranış rasional olmayacaqdır.

Pareto düşüncəli əsaslılıq prinsipini formulə etmişdir. Bu prinsipin mahiyyəti odur ki, hər bir kəs özünün maraqlar şkalasının yeganə hakimi olmalıdır, maksimum düşüncəli əsaslılığı təmin edən davranış isə vəziyyətlə müəyyən edilməlidir.



Paretoya görə iqtisadi hərəkət iki hissədən: məntiqi-eksperimental əməllərdən və onun fikrincə məntiqi əməllərə aid edilə bilməyən elementlərdən ibarətdir. Məntiqi-eksperimental davranışlar istək və maraqların, onların reallaşdırılması vasitələri ilə əlaqəsinə cavabdehdir və gözlənilən nəticəni təmin edirlər. İnsanın davranışı özünün bütün rəngarəngliyi ilə belə rasional vasitələrlə izah oluna bilməyən çoxlu miqdar amillərlə müəyyən olunur, ona görə də Pareto belə nəticə çıxarır ki, yalnız müstəsna olaraq zəka ilə determinasiya olunan davranış mövcud deyildir. Veberdən fərqli olaraq Pareto insan davranışının sosial vərdişlərlə, stereotiplərlə, sublimasiya edilmiş emosiyalar və instinktlərlə motivasiya olunmuş meyllərindən bəhs edir. Beləliklə, Paretonun düşüncələrindən belə çıxır ki, sosial fərd – rasionallıq başlanğıcının mütləq deyil, əsas rol oynadığı sosiallıq fenomeninin inikasıdır. Fərdin məntiqi olmayan sosial hərəkətlərinin məntiqi – onun nəsli mövcudluğunun qaydasıdır. Məntiqi olmayan hərəkətlərin mexanizmi konkret fərddən asılı deyildir və daha sonrakı dövrün iki sosioloqunun – P. Bergerin (1929-cu ildə anadan olub) və T. Lukmanın (1927-ci ildə anadan olub) fikrinə görə institusional formulların sedimentasityası (çökməsi) fenomenindədir, sosial davranışın baza alqoritmlərinin əldə edildiyi və ənənəvi-təcrübi yolla nəsldən-nəslə ötürüldüyü stereotipləşdirmədədir.[1]

### *Q. Zimmelin iqtisadi davranışın monetar təhlili*

Q. Zimmel (1858 – 1918) sosial həyatın monetar aspektini fərqləndirərək, sosial-iqtisadi mübadilənin insan davranışını tənzimləyən və koordinə edən universal meyarlarının və formalarının mahiyyətini tədqiq etmişdir. Zimmelin monetar təhlili sosial hərəkətlərin əksəriyyətinin rasional təbiətini determinasiya edən obyektiv institusional strukturları aşkara çıxarmağa imkan verdi.

Pul institutu çoxlu sayda müxtəlif insanların davranışını müəyyən edir. Monetar münasibətlər nəinki müxtəlif iqtisadi transaksiyalar üzrə tərəfdaşları birləşdirir, eyni zamanda bir-biri haqqında heç bir təsəvvürə malik olmayan, lakin dolayısı ilə monetar zəncirlər sistemi ilə bağlı olan "sosial anonimləri" birləşdirir.

Zimmel bəyan edir ki, sosial həyatda iki paralel təkamül prosesi

---

[1] Bax: *Berger P., Luckmann T.* The Social construction of reality. N.Y., 1966.

mövcuddur: rasionallaşdırma (intellektuallaşdırma) və monetarlaşdırma. Bu iki proses fərdlər qarşısında iqtisadi mübadilə üçün universal məkan yaradaraq, sosial bərabərsizlik formalarının bərabərləşdirilməsinə imkan verir. Digər tərəfdən, pul nadir insan həyatını standartlaşdırır, fərdi insani təzahürləri tarazılaşdırır, onları kəmiyyət ekvivalentlərinə, qiymət standartlarına və bazar mübadiləsi miqyaslarına keçirir.

Monetar iqtisadiyyatda qarşılıqlı insan təsiri öz ifadəsini xalis iqtisadi pul maraqlarında tapır. İqtisadi maraqlar isə pulun xüsusi maraqlardan, mənbələr və əlaqələrdən ayrıldığı (bu da qeyri-məhdud istifadəyə kömək edir) müəyyən vəziyyətlərdə antisosial hərəkətlərə gətirib çıxara bilər. Ləngidici amillər dəyərlərin ölçülməsinin abstrakt vasitəsi kimi pulun əmələ gəlməsi mənbəyinə artmaqda olan etinasızlıqla əlaqədar olaraq öz əhəmiyyətini tamamilə itirir.

Lakin monetar iqtisadiyyatın mənfi xassələrinə baxmayaraq müasir bazar iqtisadiyyatının əsaslı amili kimi çıxış edən pul mexanizminin rolu azalmır. İqtisadi davranışın monetar təhlilinin əsasını pul institutu təşkil edir.

Zimmel güman edirdi ki, pul mübadilə sisteminə "cəlb olunmuş" subyektiv-şəxsi "submədəniyyətdən" asılı olmayan dəyərlər sferasını yaradır. Subyektlərin istəkləri və hissləri – "arxa plan üzrə hərəkətverici qüvvə"dir. Fərdlərin özləri şüurlu olaraq mübadilə obyektləri arasında yalnız dəyərlilik əlaqələri və mütənasibliklərini yarada bilər. Onlar mübadilə obyektlərinin bir-birinə nisbətdə "tarazlaşdırılmasının" nəticəsi olan dəyəri formalaşdırmaq iqtidarında deyildir. Bunu mübadilə vasitəsilə iqtisadiyyat həyata keçirir. İqtisadiyyat istəklərlə tələbatların təmin edilməsi arasında aralıq sfera yaradır.

Zimmel pula iqtisadi mübadilənin iki nisbi müstəqil proyeksiyada təqdim olunmuş substansiyası kimi tərif verir. Bir tərəfdən, bu, mübadilənin qiymətləndirilməsinin və ölçülməsinin texniki mexanizmidir ki, onu iqtisadi həyata qoşulanların hamısı mənimsəyir (və ondan öz məqsədlərinin reallaşdırılması üçün istifadə edirlər), digər tərəfdən, ən yüksək dərəcəli mürəkkəbliyə malik abstrakt institusional sistemidir, bu sistemin də fəaliyyət mexanizmlərinin tam əhatəli başa düşülməsi heç kimə müyəssər deyildir. Əksəriyyətinin şüurunda pul institutunun ikinci proyeksiyası və bu və ya digər iqtisadi məqsədə nail olmağın mütləq dəyərinə və dəyərlilik şərtinə çevrilir.

Zimmelə görə pul hamını və hər şeyi insanları və şeyləri, öz aralarında insanları bərabərləşdirən formal dəyərlilik meyarıdır. Pul bilavasitəliyin hər cür təzahürünü getdikcə daha artıq dərəcədə aradan qaldırır. Hamılıqla özgələşmə hökmranlığı başlanır: insanlar öz mənlik keyfiyyətlərini itirir, birölçülü olurlar, daha heç nəyə maraq göstərmirlər, nəyəsə üstünlük vermirlər, özlərinə də üstünlük verib sayan olmurlar. Fahişəlik insanlararası münasibətlərin simvoluna çevrilir. Fahişəliyin təbiəti və pulun təbiəti bir-birinə oxşardır. "Onlar etinasızlıqla istənilən subyekti tərk edirlər, çünki onlar həqiqətən heç kimlə bağlı deyillər, hər cür qəlb hərəkətini istisna edən, xalis vasitələr kimi onlara xas olan mülkiyyət, əşyalılıq – bütün bunlar pulla fahişəlik arasında faciəli analogiya aparmağa məcbur edir"[1].



Zimmelin fikrinə görə istənilən iqtisadi hərəkəti rasional hərəkət adlandırmaq olar, bu şərtlə ki, onun rasionallığı monetar amillə determinasiya olunmuş olsun. Monetar amil fərdi iqtisadi hərəkətin hüdudlarından kənardadır və eyni zamanda da onun, insanı özünü rasional aparmağa məcbur edən immanent tərkib hissəsidir.

Zimmel pulun institusional təhlilinə böyük əhəmiyyət verirdi. Pul – nəinki mübadilə vasitəsidir, texniki əməliyyatdır, universal əmtəədir, eyni zamanda milyonlarla insanın hərəkətlərini və səylərini vahid qaydalar, standartlar üzrə və vahid ərazidə inteqrasiya edən sosial institutdur.

Zimmel sosial mübadilənin "substansiyası" olaraq pulun tədqiqinə xüsusi diqqət yetirmişdir.

Hər bir obyektin əvvəlcə pulla mübadilə olunduğu halda pul bütün əmtəələr arasında mütləq mübadilə vasitəçisi kimi çıxış edə bilər. Obyektin obyektə mübadiləsi xüsusi formada təcəssümləşir və əgər iki fərd arasında sadə şəxsi qarşılıqlı münasibətlər prosesinə nisbətən nəysə başqa bir şeyə çevrilirsə, bu baş verə bilər. Mübadilənin bu yeni forması o zaman meydana gəlir ki, mübadilənin digər tərəfin güman etdiyi qiyməti onun üçün bilavasitə əhəmiyyət kəsb etməsin, lakin müəyyən dəyərin tələbi kimi qavranılsın. Bu tələbin reallaşması bütövlükdə iqtisadi birlikdən və onu təmsil edən hökumətdən asılıdır. İndiki halda mübadilə olunan iki tərəf arasında üçüncü amil – bütövlükdə cəmiyyət meydana gəlir. Deməli, sosiologiya üçün iqtisadi cəhətdən aktiv fərdlərlə pulu buraxan və təmin edən mərkəzi hakimiyyət arasında qarşılıqlı əlaqələr xüsusi əhəmiyyət kəsb edir. Mübadilə prosesinin siklik olaraq yenidən bərpası üçün mübadilənin konkret agentlərinin

[1] *Simmel G.* Philosophie des Geldes. B., 1958. S. 414.

dövriyyəyə buraxılan pulun funksiyasının konkret daşıyıcılarına etibarı zəruridir. Dövriyyədə olan pullar eyni vaxtda mübadilə münasibətlərinin bütün tərəfləri üçün "eyni dərəcədə" qiymətli olmalıdır.

Zimmelin monetar təhlili pulun köməyilə çoxlu sayda insanlar arasında həyata keçirilən sosial-iqtisadi mübadilənin makroiqtisadi mənzərəsinin fərdi insan hərəkətlərinin mikroiqtisadi təhlili ilə birləşdirilməsinə kömək etmişdir.

### *N. D. Kondratyevin iqtisadi davranışın ehtimalı - statistik təhlili*

N. D. Kondratyev (1892 – 1938) konseptual yanaşmanı tətbiq edib, sırf iqtisadi proseslərin özünün iqtisadiyyatdan kənar tərkib hissələrini – insanların fərdi, qrup və kütləvi davranış aktlarını və insanların sosial həyatın nisbi müstəqil sahəsini – iqtisadiyyatı müəyyən etmiş və fərqləndirmişdir.

İqtisadi proseslərə və institutlara münasibətdə o hərəkətlər və davranış aktları substratdırlar ki, onlar iqtisadi marağı reallaşdırırlar və yaxud dolayısı ilə buna transformasiya olunurlar. Sosial hərəkətlər – davranış aktlarının sonsuz zəncirləri – bunlar ya insan tələbatlarının təmin edilməsi prosesində həyata keçirilirlər, ya da onların təmin edilməsi üçün şəraitin və vasitələrin yaradılmasına yönəldilmişlər. Sosial hərəkətlər müxtəlif motivasiyaya: rasional, utilitar-praqmatik, hedonik, emosional-affektiv, ənənəvi və s. motivasiyalara əsaslanmışdır.

Kondratyev qeyd edirdi ki, hər bir konkret zaman kəsiyində cəmiyyətdə istər davranış aktları sistemi, istərsə də ona müxbirlik edən təsərrüfat münasibətləri sistemi mövcuddur, "Bazarda...özlərinin konkret vəziyyətində çıxış edən şəxslər, həmişə şübhəsiz inkişaf etmiş cəmiyyətin insanları arasında müşahidə edilməsi mümkün olan ən böyük müxtəliflik olduğunu aşkara çıxarırlar... lakin bir sıra təsərrüfat adamlarının rəngarəngliyini qeyd edərək,... məsələnin əks tərəfini də yaddan çıxarmaq olmaz. Bütün bu insanlar müəyyən və əsas etibarı ilə oxşar sosial-iqtisadi şəraitdə ... formalaşırlar... və onların həyatının obyektiv sosial-iqtisadi şəraitində oxşarlıq və yaxınlıq mövcud olduğundan insanların özlərində, həmçinin onların davranışında eynilik olmaya bilməz".[1]

İqtisadçı alim insan davranışları və hərəkətlərinin ilkin şərtlərinin və nəticələrinin çoxölçülüyünə, çoxmənalılığına və çoxvariantlılığına

[1] *Кондратьев Н.Д.* Большие циклы конъюнктуры. М., 1928. С. 355-356.



xüsusi diqqət yetirir. İnsanın davramş və hərəkətləri müxtəlif səbəblərə görə həyata keçirilirlər, iqtisadi prinsip isə müəyyən qaydada hərəkət etməyin müəyyən labüdlüyü olaraq çoxlu sayda insan hərəkətlərində reallaşdırılır. Kondratyevin ehtimali - statistik yanaşmasının iqtisadi sosiologiyanın inkişafı üçün əhəmiyyəti aşağıdakından ibarətdir:

- bu yanaşma iqtisadi davranışın izahını sərt metodoloji prinsiplərlə məhdudlaşdırmır;
- bu yanaşma istər iqtisadi davranışın real modellərinin reallaşdırılması ilə, istərsə də onların elmi-nəzəri izahı ilə bağlı olan insan hərəkətlərinin və davranışlarının "stoxastik dərinliyi" ilə izah olunan biliyin çoxölçülüyünü və ehtimaliliyini qəbul edir;
- metodların, konseptual sxemlərin və yanaşmaların bütün rəngarəngliyini tətbiq edərək insan hərəkətlərini daha realistcəsinə təhlil etməyə imkan verir.[1]

### *Y. Şumpeterin sintetik yanaşması*

Y. Şumpeterin (1883 – 1950) sintetik yanaşmasının əsasında dörd komponent durur: iqtisadi nəzəriyyə, iqtisadi statistika, iqtisadi tarix, iqtisadi sosiologiya.

Şumpeter iqtisadi nəzəriyyənin mövcud modellərini konkret təhlil etmək üçün yalnız "analitik gövdə", "iqtisadi həyatın skeleti", canlı faktlara ehtiyacı olan qansız "iqtisadi həyat skeleti" olduğuna görə tənqid edərək tarixi metoddan istifadə etmişdir, çünki o hesab edirdi ki, yalnız ətraflı tarixi bilik iqtisadi mexanizmlərin səbəbləri haqqında istənilən suala cavab verə bilər. Bir çox iqtisadi hadisələrə Şumpeter həmçinin sosioloji təhlili tətbiq etmişdir, çünki o, iqtisadi sosiologiyanın predmeti dedikdə iqtisadi həyatın stasionar və dinamik proseslərinin cərəyan etdiyi institusional və sosial-mədəni "karkasları" başa düşürdü.

Şumpeter iqtisadi proseslərə təsir göstərən siyasi institutlara və mexanizmlərə böyük diqqət yetirmişdir. Hakimiyyətin saxlanılması və ələ keçirilməsi mexanizmini Şumpeter siyasi manipulyasiyaların və səslərlə alver etməyin ədəbsiz psixotexnikası kimi izah edir. Siyasi rollara iddiaçıların "seleksiyası" proseslərini təhlili edərək, Şumpeter güman edirdi ki, müəyyən sosial təbəqə mövcuddur ki, onun üçün siyasətlə məşğul olmaq təbii haldır və bu təbəqənin özündə həmçinin sərt

[1] *Кондратьев Н.Д.* Большие циклы конъюнктуры. М., 1928. С. 355-356.

seçim gedir və bu seçimi uğurla bitirənləri o, siyasi mənsəb üçün nəzərdə tutur. Hakimiyyətə can atan siyasi liderlərin davranışını o, fəallıqlarının motivləri azadlıqdan, ekspansiya və yaradıcılıq sevincindən ibarət olan sahibkarların davranışı kimi şərh etmişdir. Şumpeter dövlətin, konkret hökumətlərin və siyasi liderlərin bazar cəmiyyətində iqtisadi agentlərin davranışına böyük təsir göstərdiyini qeyd etmişdir.

Siyasi liderlərin qərarlarının onların bilavasitə səlahiyyətlərinin çərçivəsi ilə məhdudlaşdırılması imkanını Şumpeter demokratik cəmiyyətin mühüm cəhəti hesab edirdi. Bundan əlavə hökumətin bürokratiyaya nəzarət etmək imkanı olmalıdır. Demokratik metodun müvəffəqiyyətini və sabitliyini konkret siyasi quruluşun qanunvericiliklə qəbul edilmiş institusional prosedurların, daha çox cəmiyyətin bütün üzvlərinin mentalitetindən və qəbul olunmuş davranış kodeksindən asılı vəziyyətdə götürür. Bunu o, "demokratik özünənəzarət" adlandırır. Yalnız "demokratik özünənəzarətin" çərçivəsi daxilində ictimai seçimin demokratik prosedurlarının demokratik bazar cəmiyyətinin sabitliyinə və təkamülünə kömək edən reallaşdırılması mümkündür. Digər tədqiqatçıların başlıca olaraq iqtisadiyyat terminlərində izah etdikləri bir çox hadisələri Şumpeter sosioloji baxımdan nəzərdən keçirmişdir: məsələn, imperializm, sosial siniflər, vergiqoyma, sosializm və hətta, sahibkarlıq[1].

## *İqtisadi davranışın sosioloji təhlilinin neoklassik (müasir) istiqamətləri*

### *F. Brodelin mirosistem yanaşması*

Miroiqtisadiyyat dedikdə F. Brodel (1908 – 1985) iqtisadi mübadilə zamanı özlərinin həyati və iqtisadi maraqlarını, kök salmış davranış ənənələri və praktikaları çərçivəsində reallaşdıran çoxlu sayda insanların və populyasiyaların sosial hərəkət məkanlarını başa düşürdü. Miroiqtisadiyyatlar – sərt sosial strukturlardır ki, bunlarda iqtisadi davranışın fərdlərin, qrupların, icmaların, silki korporasiyaların sosial stratifikasiyası, diferensiasiyası və sosial nüfuzunun təşəkkül tapmış və onlarla uyğun gələn əsas alqoritmləri müəyyən olunmuşdur. Sonrakı nəsillər miroiqtisadiyyatların doğurduğu nisbi stasionar ənənələri,

[1] Bax: *Schumpeter J.* Kapitalismus, Sosialismus und Demokratie. Berlin, 1942.



şərtləri və meylləri əldə edirlər.

Brodel miroiqtisadi sistemi iqtisadi-əmtəə mübadiləsinin (xarici və daxili) sosial təkamül prosesində meydana gələn, öz taleyini ənənəvi qaydalar üzrə "təşkil edən" və bu qaydaları yenidən dəyişdirərək, təkmilləşdirən konkret sosial populyasiya tərəfindən təkrar istehsal olunan unikal sikl kimi nəzərdən keçirmişdir.

Miroiqtisadi sistemlər daimi mübarizə və vəziyyətin unikal şəkildə cərəyan etməsi prosesində meydana gəlmiş və özü ilə rəqibləri arasında iqtisadi potensialların müsbət balansını saxlamış iqtisadi, ərazi, texnoloji, texniki və digər üstünlüklərin əsasında fəaliyyət göstərir.

Brodelin miroiqtisadiyyatının nəzəri obrazı iqtisadi hərəkətlərin determinasiyası sistemini konkret və tam şəkildə təsəvvür etməyə və onları tarixən geriyədönməz praksioloji reallığın sərt sosial iqtisadi kontekstində nəzərdən keçirməyə imkan verir. Brodelin konsepsiyası sayəsində aşağıdakılar üçün imkan yaranmışdır:

- vahid miroiqtisadi sistemdə müxtəlif subyektlərin iqtisadi davranışının iqtisadi və sosial determinasiyasını qiymətləndirməyə;
- subyektlərin malik olduqları statusa və imkanlara əsaslanaraq onların rollarını və təyinatlarını diferensiasiya etməyə;
- müxtəlif subyektlərə obyektiv şəkildə xas olan iqtisadi maraqlar və iqtisadi resurslar sistemlərini, həmçinin onların imkanlar və alternativlər məkanını müəyyən etməyə;
- müxtəlif subyektlərin maraqlarındakı ziddiyyətlərin razılaşdırılması və yumşaldılmasının sosial və iqtisadi mexanizmlərini aydınlaşdırmağa;
- müxtəlif subyektlərin iqtisadi davranış modellərinin məqsədlilik hüdudlarını müəyyən edən məhdudluqları və imkanları təhlil etməyə.

### *T. Parsonsun davranışın institusional təhlili*

T. Parsons (1902 – 1979) iqtisadi davranışın "sırf" sosioloji təhlilini təklif etmişdir. O belə hesab edirdi ki, sosial hərəkət və onun əsasında duran prinsiplər avtonom ola və sosial kontekstdən tədric edilə bilməz. İqtisadi hərəkətin təbiətini onların məqsədlərinin struktur ümumiləşdirilməsini həyata keçirən institutlar müəyyən edirlər. Məsələn, azad sahibkarlıq institutları sistemi situasiyanı və gözlənilən davranışı bu qaydada müəyyən edir ki, insanlar mənfəətə can

atmalıdırlar. Belə hallarda insan davranışının motivasiyası və maraqları mənfəətin istehsalı üzrə fəaliyyətə münсər olunur.

İqtisadi davranışı Parsons bütövlükdə sosial sistemin çoxlu sayda komponentlərinin determinasiyasının törəmə elementi kimi nəzərdən keçirir. O, iqtisadi hərəkətin əsas xarakteristikalarını aşağıdakı şəkildə izah edir və aydınlaşdırır.

1. İqtisadi davranış – sosial hərəkətin xüsusi halıdır. İqtisadi davranış cəmiyyətin sosial həyatının müəyyən sahəsini təşkil edən və müəyyən məqsədə – cəmiyyətin tələbatlarının təmin edilməsi vasitələrinin istehsal edilməsi məqsədinə malik olan iqtisadiyyatda həyata keçirilir.

2. İqtisadi davranışı yalnız iqtisadiyyatın və sosial sistemin münasibətləri vasitəsilə nəzərdən keçirmək lazımdır. İqtisadi hərəkətin prinsipləri və dəyərləri şəxsiyyət amili ilə deyil, sosial amillərlə şərtlənmişdir. Aktor özünün şəxsi məqsədləri vasitəsilə ona konkret sosial mühit tərəfindən verilmiş davranış modellərini reallaşdırılır.

3. İqtisadi davranış aktiv elementlərindən birinin sahibkarlıq olduğu istehsalın təşkili ilə bağlıdır.

4. İqtisadi davranışda aşağıdakı modelləri fərqləndirmək olar: adaptasiya-istehsal (nemətlərin, xidmətlərin və digər iqtisadi dəyərlərin istehsalı), tənzimləmə (maliyyə təşkilatları, kredit münasibətləri, sığorta, əhalinin əmanətləri sferası), dəyərlilik-normativ (iqtisadi mədəniyyət) və inteqrativ - davranış (iqtisadi prosesin təşkili) modelləri.

5. İqtisadi davranış institusional cəhətdən rəsmiləşdirilibdir. Bazar münasibətlərinin strukturunda – bu, iqtisadi davranışın müxtəlif subyektlərinin iqtisadi interaksiyasıdır (müqavilə)[1].

6. İqtisadi hərəkətlərin rasionallığı cəmiyyətdə dominant olan dəyərlərin institusionallaşması və internallaşması prosesi ilə izah olunur.

### *"Rasional seçim sosiologiyası"nda iqtisadi davranışın şərhləri*

"Rasional seçim sosiologiyası"nın parlaq nümayəndələrindən biri Q. Bekkerdir (1928-ci ildə anadan olub). İstər iqtisadi və istərsə də sosial həyatın bir çox tərəflərinin tədqiqi üçün maksimumlaşdırma təhlili metodundan istifadə edərək, Bekker bəyan edir ki, rasional seçim prinsipi – insan davranışının bütün modellərinin (o cümlədən iqtisadi modellərinin) özəyidir. Rasionallığın və rasional seçimin prioritetliyi

[1] Bax: *Парсонс Т.* О структуре социального действия. М., 2000.



insanın təkamülü gedişində yararlı davranış üsullarının təbii seçiminin törəməsidir.

Bekkerə görə iqtisadi davranış insanda aprior olaraq təməli qoyulmuş üç tərkib hissəsini özündə birləşdirir: insanın həyata keçirdiyi hərəkətlərin ağılauyğunluğu prinsipi; bazar mübadiləsi institutları tərəfindən əlaqələndirilən hərəkətlərin bir-birilə qarşılıqlı surətdə uyğunlaşdırılması; üstün tutulanların sabitliyi.

Rasional seçim nəzəriyyəsinin daha bir tərəfdarı – C.Koulmen (1926 – 1995) iqtisadi davranışın institusional matritsasının qurulması problemini daha mühüm problem hesab edir. O, güman edirdi ki, sosiologiya üçün daha mühüm olan subyektlərin qabaqcadan müəyyən edilmiş hesab oluna bilən hərəkətləri deyil, oyun qaydalarıdır – sosial aktorların qarşılıqlı təsiri prosesində əmələ gələn strukturlardır. Koulmen sosial hərəkəti istər fərdi və istərsə də kollektiv subyektlərin (korporativ aktorların) davranışının öyrənilməsi üçün metodoloji fərdiyyətçilik prinsiplərindən istifadə edərək təhlil edir. O, firmanın, korporasiyanın hərəkətlərini, davranışını fərdi davranışla müqayisə edir və buna əsaslanır ki, onların hər ikisinin təşkiledici əlaməti düşüncəlilik və məqsədlilikdir. Koulmenə görə nəzarət və maraq fərdi subyektlərin qarşılıqlı təsiri ilə təmin olunurlar və razılaşdırılmış davranışın əsası kimi çıxış edirlər. Maraq dedikdə müəllif aktorların hərəkətinin müəyyən *resurslarla assosiasiya* təşkil edən hərəkətverici qüvvəsini nəzərdə tutur. Maraq – iqtisadi hərəkətlərin daxili motivatorudur, sövqedicisidir. Nəzarət sivilizasiyalı qarşılıqlı təsir fenomenini doğuran insan hərəkətinin institusional nəticəsidir. Normalar – aktorların bir-birinin hərəkətlərinə nəzarət etmək hüquqlarının ötürülməsi formasıdır.

Koulmenin şərhinə görə rasional seçim postulatları aşağıdakılardan ibarətdir: 1) nəinki fərdi aktorlar ,eyni zamanda təşkilatlar da rasional hərəkət edə bilərlər; 2) əgər fərdlər həmçinin fayda olduğunu görürlərsə, öz hərəkətləri üzərində nəzarəti başqalarına verə, ötürə bilərlər; 3) fərdlər öz hərəkətlərini optimallaşdırmağa imkan verən "sosial kapitala" resurs qoya bilərlər; 4) iqtisadi və sosial hərəkətlərin rasionallığı insanlar arasında hüquqların bölüşdürülməsi formalarından, onların hərəkətlərini koordinasiya edən müxtəlif sosial institutlardan asılıdır.

*C. Akerlofun fənlərarası yanaşması*

C. Akerlof rasional seçim və iqtisadi prinsip nəzəriyyəsinin mütləqləşdirilməsinə qarşı çıxış edirdi. O buna diqqət yetirirdi ki, tələb-təklifin "xalis" bazar mexanizmləri bazarın bütün agentlərinin maraqlarını heç də həmişə nəzərə almır. Bəziləri digərlərinə nisbətən mütləq üstünlük əldə edirlər. Amerikan sosioloqu "Limon" bazarı" əsərində bazar mübadiləsinin paradokslarını formulə etmişdir:

- satıcılarla alıcılar arasında əmtəələrin keyfiyyəti haqqında informasiyanın asimmetriyalılığı;
- keyfiyyətsiz mal təklif edən satıcıların vicdansızlığı;
- alıcılarda səhih informasiyanın olmaması səbəbindən keyfiyyətli malların keyfiyyətsiz mallarla əvəz edilməsi meyli.

Akerlof etibar amilini ticarətin və istehsalın zəruri şərti adlandırır. Bu amil çoxlu sayda sosial institutlarda zəmanət şəklində reallaşdırılır; burada da risk satıcının, firma işarələrinin, lisenziyalaşdırma praktikasının üzərinə qoyulur.

Akerlof əmindir ki, iqtisadi davranışın müasir bazar modelləri xüsusi institutların hərəkətinin minimumlaşdırılması, iqtisadi üstünlüklərin və hakimiyyətin təmərküzləşdirilməsi hesabına qazancın ədalətli bölgüsü ehtimalını artırırlar. O belə bir nəticə çıxarır ki, iqtisadi təhlil metodlarını iqtisadi prosesləri şərtləndirən və onların sosial "substansiyası" olan sosial hadisələr sahəsinə keçirilməsi düzgün deyildir.

*"Yeni iqtisadi sosiologiya"da homo economicus modelinin şərhi*

Bu məktəbin banilərindən biri kimi X. Uaytın adını çəkmək olar. X. Uayt iqtisadi davranışı qarşılıqlı bazar təsiri mexanizmləri vasitəsilə tədqiq edərək, bazarı sosial mexanizm kimi nəzərdən keçirir və onun strukturunda iqtisadi fəallığın real daşıyıcıları olan konkret insanların hərəkətlərini və motivlərini xüsusi olaraq seçib fərqləndirirdi.

Uayt bəyan edir ki, bütün bazar aktorlarının hərəkətləri bir-biri ilə qırılmaz surətdə bağlıdır və bu hərəkətlər bazar və sosial mübadilə şəbəkəsinə daxil olmuşlar. İqtisadi davranış müxtəlif sosial mexanizmlər strukturunda təcəssümləşmiş çoxlu miqdar tərkib hissələrinin sosial konstruksiyasıdır.

Bu cərəyanın digər nümayəndəsi olan M. Qranovetter insanların şəxsi əlaqələrinin sistemi vasitəsilə bu əlaqələrin tezliyini, istiqamətini,



seçimliliyini müəyyən etməklə məşğulluq sahələri haqqında informasiya əldə edilməsi prosesini öyrənirdi.

Qranovetterə görə iqtisadi davranış sosial kontekstdən kənarda reallaşmır. İqtisadi davranış çoxlu miqdar qeyri-iqtisadi tərkib hissələrinin təsiri nəticəsidir. İqtisadi davranışın qaydası və müntəzəmliyi istər institusional təsirlə və istərsə də sosial münasibətlərin bütün şəbəkəsi ilə müəyyən olunur.

*İqtisadi nəzəriyyələrdə işlənib hazırlanan homo economicus modellərinin sosioloji inversiyası metodu*

A. Alçian özünün əmək bazarında işçi qüvvəsinin "axtarışı" modelində işçi qüvvəsi sahiblərinin davranışını təsvir edir; belə bir vaxtda ki, onlar iş yerlərinin və işçi qüvvəsinin bazarı haqqında natamam informasiya olduğu şəraitdə əmək haqqının münasib stavkalarına ümidlidirlər. Alçian güman edir ki, əmək haqqı stavkalarının bu müvəqqəti sərtliyi ondan asılıdır ki, fəhlələr özləri informasiya axtarışını həyata keçirmək məqsədilə müəyyən vaxtda öz əməklərini geri götürmək qərarına gəlirlər.

C. Keyns (1883 – 1946) investisiya davranışı modelində investorların investisiya prosesində qərarların qəbul edilməsi və mənfəət haqq-hesabı prosesinin təhlilinə əsaslanmış davranışını təsvir edir. İnvestorların qısamüddətli ehtimalları faktlara əsaslanır; uzunmüddətli ehtimallar qeyri-müəyyənlik amilini aradan qaldırmağa yönəldilmiş proqnozla bağlıdır.

## 8.2. İqtisadi davranış

Cəmiyyətin yenidən bərpaedici bütün proseslərinin məcmusunu həmin cəmiyyətin təsərrüfat həyatı adlandırırlar. Bu proseslərin "sosial substansiyası" elə *iqtisadi davranışdır; bu isə birincisi, funksiyalarına və təyinatına görə müxtəlif iqtisadi sərvətlərin (resursların) istifadə edilməsilə bağlı olan və ikincisi, fayda (qazanc, mükafatlandırma, onların dövriyyəsindən mənfəət) əldə edilməsinə istiqamətlənmiş sosial hərəkətlərin sistemidir.*

İqtisadi sosiologiya amilləri, şəraiti, institutları, onların kontekstində fəaliyyət göstərən, özlərinin konkret iqtisadi maraqlarını həyata keçirən müxtəlif sosial subyektləri öyrənir. Nəticələrin

maksimumlaşdırılması və xərclərin minimumlaşdırılması prinsipinin reallaşdırılması ilə bağlı olan sosial davranış modellərinə nəzərə salan sosioloqlar diqqəti sosial-mədəni institutlar, sosial stimulyatorlar üzərində və yaxud müxtəlif *iqtisadi resurslardan səmərəli istifadə edilməsini* əsaslı şəkildə limitləşdirən məhdudiyyətlər üzərində cəmləşdirirlər.

Hər bir sosial subyekt cəmiyyətin iqtisadi həyatında iştirak edir. Həmin subyekt özünün təsəvvürlərinə, istək göstərdiklərinə, bacarıq və maraqlarına uyğun olaraq yaradır (istehsal edir), istehlak edir, mənimsəyir, fayda əldə edir. Subyekt şüurlu və yaxud şüursuz, peşəkar və yaxud qeyri-peşəkar hərəkət edərək, müxtəlif uğurluluq dərəcəsi ilə iqtisadi dəyərlərin dövriyyəsi sistemində öz iştirakına qiymət verir. Müxtəlif qazanclar (mükafatlar) iqtisadi davranışın nəticəsidir.

İqtisadi tipli sosial davranış norma və qaydaların cürbəcür bazar elementlərinin xarakteristikalarını əks etdirən və fəaliyyət göstərən bütün iqtisadi subyektlər üçün məcburi hesab olunan çox müxtəlif sistemlərinə əsaslanmışdır. Bu norma və qaydalar yuridik cəhətdən dövlət səviyyəsində, insanlar arasındakı müqavilələrdə, adətlərdə, ənənələrdə təsbit olunur, möhkəmləndirilir.

Sosioloqlar aşağıda göstərilən bir neçə tərkib hissəsini seçirlər ki, onlar olmadan iqtisadi davranış reallaşdırıla bilməz: iqtisadi tələbatlar, iqtisadi resurslar, iqtisadi mühit, müəyyən davranış norma və qaydaları, fəaliyyət göstərən subyektlər.

İqtisadi davranışın istənilən subyekti qazanc (mükafatlar) əldə edilməsinə istiqamətlənmişdir, deməli, onun motivasiyasının nüvəsini az xərc çəkməklə maksimum mükafat əldə edilməsi təşkil edir. Lakin bu formulu tam şəkildə həyata keçirmək mümkün deyildir, ona görə ki, hər bir subyekt aşağıda göstərilənlərlə şərtlənmiş məhdudiyyətlərin müəyyən sistemində fəaliyyət göstərib, hərəkət edir:

- ilkin iqtisadi maddi və qeyri-maddi resursların keyfiyyət və kəmiyyət xarakteristikaları;
- iqtisadi davranış subyektlərinin statusları;
- rəqiblərin bir-birinə qarşı hərəkətləri, müqaviməti;
- xarici mühit amilləri;
- müvəffəqiyyətə nail olmağın yolları və üsullarının qeyri-müəyyənliyi.

İqtisadi davranışın güclü motivini iqtisadi resursların bərabərsizliyi faktı təşkil edir. Bu fakt şansların bərabərləşdirilməsinə səy göstərilməsini doğurur. Həmin səy göstərmə də şəxsi resursların sürətləndirilməsində, rəqib üçün standart olmayan kombinasiya və situasiyaların yaradılmasında, nadir resursa yol tapmaq hesabına yeni şans əldə edilməsində, partnyorları öz tərəfinə çəkməkdə və s. öz ifadəsini tapır.



İqtisadi davranışın hər bir ayrıca subyekti bir çox funksiyaları (istehsalçı və istehlakçı funksiyalarını, kredit verən və kredit alan funksiyalarını və s.) yerinə yetirir, lakin bir qayda olaraq o, yenidən bərpa etmək siklinin bir neçə funksiyasını eyni vaxtda və eyni səlahiyyətlə yerinə yetirməyə qadir deyildir. Buna görə də həmin subyekt ixtisaslaşmalıdır ki, bu da onun iqtisadi, sosial, hüquqi və professional statuslarını müəyyən edir. Lakin hətta hər hansı ixtisaslaşmış funksiya çərçivəsində iqtisadi davranış parametrləri aşağıda göstərilənlərdən asılı olaraq şəklini dəyişdirir, variasiya edir:

- istifadə olunan resurslardan – iqtisadi resurslar strukturunda nəticə əldə etməyin vasitələri kimi çıxış etdikləri hərəkətlərin rejim və metodunu müəyyən edirlər;
- qazanc (gəlir, mənfəət) əldə etməyin üsullarından – işçi qüvvəsinin muzdla tutulması ilə və iqtisadi davranış subyektinin əmək haqqının həcmi ilə, istehsal kapitalı mülkiyyəti, iqtisadi renta ilə, investorun, yeni ideyaları tətbiq etmək naminə risk edən insanın fəaliyyətindən alınan gəlirlə bağlı olan müxtəlif üsulları fərqləndirirlər;
- riskin dərəcəsindən – subyektlərin əksəriyyətinin iqtisadi davranışı çox və ya az dərəcədə standart situasiyalarda, risksiz (istehlakçılıq davranışı) cərəyan edir. Sahibkarlıqda iqtisadi davranış – bu, çox vaxt riskin mövcud olması, əlverişsiz nəticə imkanının mövcud olmasıdır;
- "xərclər – ödəniş" sikllərinin sürəkliliyindən – iqtisadi davranışda xərclər fazasını və ödəniş fazasını fərqləndirirlər. Bununla əlaqədar olaraq iqtisadi hərəkətin üç variantını seçmək olar: 1) simmetrik hərəkətlər – xərclərin cəmi gəlirin cəminə bərabərdir; 2) mənfi gəlirli asimmetrik hərəkətlər – xərclərin cəmi əldə edilən qazancdan çoxdur; 3) müsbət gəlirli asimmetrik hərəkətlər – xərclərin cəmi alınan qazancdan azdır;
- planlaşdırılan və gözlənilən nəticənin hesabının dəqiqliyindən – bu dəqiqlik nisbidir, heç də həmişə iqtisadi hərəkət subyektini riskli situasiyalardan qorumur. Lakin eyni zamanda da iqtisadi ölçünün əhəmiyyəti kifayət qədər önəmlidir, çünki gələcək hadisələrin aydın olmayan perspektivindən baş çıxarmağa imkan verir.

Yenidənistehsal siklinin müxtəlif fazalarından asılı olaraq iqtisadi davranışın dörd əsas növünü fərqləndirmək olar.

*Distributiv davranış (bölgü davranışı)* – bazar subyektlərini iqtisadi resurslarla birləşdirir. Distributiv davranış bu resursların faydalı xassələrinin mənimsənilməsinin, onların dövriyyəsindən əldə edilən qazancın, həmçinin resursların bir istifadəçidən başqa bir istifadəçiyə ötürülməsi üsulunun norma və ölçüsünün müəyyənləşdiricisidir.

*İstehsalat davranışı* – maddi, texnoloji, intellektual, təşkilati və digər resursların yığımı, təmərgüzləşdirilməsilə səciyyələnir. İstehsalat davranışı nəzərdə tutulmuş istehlakçılıq xassələri olan nemətlərin və onların bazarda dövriyyəsindən mənfəət əldə edilməsi məqsədilə həmin resursların birləşdirilməsinə və kombinə edilməsinə cavabdehdir.

*Mübadilə davranışı* – bazar çərçivəsində müxtəlif iqtisadi nemətlərin hərəkəti ilə bağlıdır.

*İstehlakçılıq davranışı* – iqtisadi nemətlərin əldə edilməsini (mütləq və yaxud nisbi) və insanın tələbatlarının təmin edilməsi məqsədilə onların faydalı xassələrinin istifadə edilməsini nəzərdə tutur.

## *Motivasiya və stimullaşdırma*

Motivin rolu hərəkətin məqsədilə və bunun üçün nəzərdə tutulan hərəkət haqqında qərarların qəbul edilməsi üçün əsas yaradan proqramla müəyyən edilir. Hərəkətə sövq etdirən amillər insanın tələbatları ilə bağlıdır. Belə ki, motivlər insanın tələbatlarından asılı olduğundan sonuncuların müxtəlifliyindən çıxış edərək, onları təsnifatlaşdırmaq olar. Ümumu şəkildə tələbatlar dedikdə fərdin özünün mövcudluğunu və özünü qoruması üçün zəruri vasitələrlə və şəraitlə təmin edilməsi qayğısına qalınmasını başa düşürlər. Tələbatların iyerarxiyasını daha dolğun şəkildə A. X. Maslou işləyib hazırlamışdır. Maslou tələbatların beş səviyyəsini fərqləndirmişdir: fizioloji və seksual tələbatlar, təhlükəsizlik tələbatları, sosial tələbatlar, nüfuz tələbatları, mənəvi tələbatlar (bax: bu bölmənin 3-cü fəsli).

Beləliklə, mövcudluq motivlərindən və həyat məqsədlərinə nail olmaq motivlərindən bəhs etmək olar. Münasibətlərin xarakterinə görə eqoist davranış motivlərini (fərdin rifahına yönəldilmişdir) və altruist davranış motivlərini (ailənin, kollektivin və bütövlükdə cəmiyyətin rifah halına yönəldilmişdir) fərqləndirirlər.

Bu və ya digər motivin seçilməsinin izahı üçün sosioloqlar sosial ustanovka – şəxsiyyətin (qrupun) sosial təcrübəsində ifadə olunmuş əhəmiyyətli obyektləri qavramağa və qiymətləndirməyə meylliliyində, şəxsiyyətin (qrupun) sosial əhəmiyyətli subyektlərə istiqamətlənmiş müəyyən hərəkətlərə hazırlığında ifadə olunmuş sosial ustanovka anlayışını daxil etmişlər.



İqtisadi sistemdəki davranışın təhlili belə nəticəyə gəlməyə imkan verir ki, insanlar eqoist prinsiplərdən çıxış edirlər. Bununla belə həmçinin altruist motivlər də insana üzvi surətdə xasdır. Məşhur genetik V. Efroismen qeyd edirdi ki, yaşlılara qayğı göstərilməsinin xas olduğu cəmiyyətlər təcrübə toplanılması, ənənələrin qorunub saxlanılması hesabına daha dinamik inkişaf etmişlər.

İqtisadi fəaliyyətin bütün eqoist motivlərini iki qrupa ayırmaq olar: iş prosesinə və bu işin nəticələrinə istiqamətləndirilmiş motivlər. Birinci qrup motivlər işin məzmunu ilə, əmək şəraitilə, qarşılıqlı münasibətlərin xarakteri ilə, insanın qabiliyyətlərinin inkişaf etdirilməsi imkanları ilə, ikinci qrup motivlər isə işin əhəmiyyətliliyilə, maddi mükafatlandırma ilə, asudə vaxtla şərtlənmişlər.

İqtisadi fəaliyyətin nəticəsi insanların əməyə münasibətindən, motivasiyanın formalarından və metodlarından asılıdır. Motivasiyanın əsaslarını motivatorlar adlandırırlar. Motivatorlar olaraq sosial və predmet əhatəsinin stimulları və yaxud davamlı tələbatlar və maraqlar çıxış edə bilər.

Xarici və daxili motivasiyanı bir-birindən fərqləndirirlər. Xarici motivasiya – inzibati (işin komanda, əmr üzrə yerinə yetirilməsi), iqtisadi (iqtisadi stimullar – əmək haqqı, dividendlər və s. vasitəsilə həyata keçirilir) və status (təşkilatda işçinin statusunun dəyişməsinə əsaslanır) motivasiyası ola bilər. Xarici motivasiyanın seçilməsinə işin məzmunu, idarəetmə pninsipləri, milli ənənələr və korporativ struktur təsir göstərir.

Əmək fəaliyyəti prosesində insanın motivasiya mexanizminin strukturu aşağıdakı şəkildə təsəvvür olunur:

- ehtiyac (mübadilə üçün yararlı olan nemətlərin çatışmaması);
- tələbat (diqqətin müəyyən nemətlərin çatışmaması üzərində cəmləşdirilməsi);
- meyl (müəyyən nemətlərin çatışmamasının yerini doldurmaq üçün spontan axtarış);
- stimul (zəruri nemətin obrazının yaradılması);
- motiv (zəruri nemətin ekvivalentinin əldə edilməsi üsulunun

tapılması);

- motivator (müəssisənin sabitləşdirilməsi ilə bağlı olan bu üsulun möhkəmləndirilməsi);
- ustanovka (zəruri hərəkətləri yerinə yetirməyə hazır olma);
- maraq (mənfəət əldə etməyin qabaqcadan təsəvvür olunması);
- dəyərlilik (ümumbəşəri dəyərlərin mənimsənilməsi);
- səy göstərilməsi;
- qayə;
- plan;
- niyyət;
- iradə.

Stimullaşdırma – motivasiya vasitəsilə insanın davranışına təsir metodudur. Hər bir insan stimullaşdırıcı məkanla əhatə olunmuşdur. Bu məkan sadəcə olaraq ətraf aləm deyildir, subyekt üçün faydalılıq, əhəmiyyətlilik süzgəcindən "keçirilmiş" aləmdir. Stimullar bir qayda olaraq fərddən müəyyən məsafədə, distansiyada yerləşir, çünki səy göstərilmədən əldə edilməsi mümkün olan şey stimul ola bilməz. Stimul hərəkət üçün xarici sövqedicidir. Bu sövqedici motivə, yəni fərdin daxili meylinə, istəyinə çevrilir.

Stimulun motivə çevrilməsinin səmərəliliyi stimullaşma – motivasiya mexanizminin tənzimləyici imkanlarından asılıdır. Lakin onun təsiri stimullaşdırıcı məkanın dolğunluğu və faydalılığı dərəcəsindən, fərdin instrumental və psixoloji dünyagörüşü əhval-ruhiyyəsinin səviyyəsi və fəallığı ilə məhdudlaşır. Buna uyğun olaraq iki qrup stimulu fərqləndirirlər: sosial-iqtisadi stimullar (əmək haqqının səviyyəsi, mənsəb, müəssisənin sosial infrastrukturu) və sosial-psixoloji stimullar (kollektivdə qarşılıqlı münasibətlər, rəhbərin səlahiyyətliliyi).

Sosial elmlərdə əməyin stimullaşdırılması bir qayda olaraq insana və yaxud insanlar qrupuna onların əmək davranışının, əmək fəallığının müəyyən xarakteristikalarının qorunması üçün məqsədyönlü təsir göstərilməsini nəzərdə tutur. Stimullaşdırmada arzu – şəxsiyyətin müxtəlif tələbatlarının ödənilməsidir.

Əməyin stimullaşdırılması bir qayda olaraq maddi mükafatlandırma, həvəsləndirmə vasitələrində – əmək haqqında ifadə olunur. Əmək haqqı – hər şeydən əvvəl adekvat əmək və iqtisadi davranışa görə mükafatlandırmadır.

Əlbəttə, insan üçün əmək haqqının əhəmiyyəti şübhəsizdir, lakin



bu, o demək deyildir ki, istənilən əmək haqqı elə eyni zamanda onun stimullaşdırılmasıdır. Stimullaşdırmanın ən ümumi təsnifatları üzərində dayanaq.

1. Mütənasib, proqressiv və reqressiv stimullaşdırma. Mütənasib stimullaşdırma stimulun lap əvvəlcədən müəyyən edilmiş və normal ölçü kimi qəbul olunmuş ölçüsünün daimi uçotuna əsaslanmışdır. Proqressiv stimullaşdırma stimulun artmaqda olan ölçüsündən çıxış edir. Reqressiv stimullaşdırmadan o zaman danışmaq olar ki, əmək fəallığı stimulun azalmaqda olan ölçüsü üzərində qurulmuş olsun.

2. Sərt və liberal stimullaşdırma. Sərt stimullaşdırma – insanın səy göstərməyə məcbur edilməsidir, liberal stimullaşdırma – insanın səy göstərməyə cəlb edilməsidir.

3. Aktual və perspektiv stimullaşdırma. Aktual stimullaşdırma – gündəlik yaşayışın mənbəyi olaraq əmək haqqının əhəmiyyəti ilə bağlıdır. Perspektiv stimullaşdırma daha dərin mülkiyyət, hakimiyyət, sosial irəliləmə instinktlərinin təmin edilməsini nəzərdə tutur.

## 8.3. Məşğulluq və işsizlik problemləri

### *Əmək bazarı*

Əmək bazarı – iqtisadiyyatın ən mürəkkəb problemlərindən biridir. Əmək bazarı adı altında iş verənlə potensial işçi arasında qarşılıqlı münasibətlərin müəyyən iqtisadi məkan çərçivəsində fəaliyyət göstərən mexanizmi başa düşülür. *Əmək bazarı – istehsal vasitələrinin paylaşdırıcıları ilə işçi qüvvəsinin sahibləri arasında qarşılıqlı münasibətlərin məcmusudur.*

Əmək bazarı müəyyən prinsiplər əsasında formalaşdırılır, onun öz qurulma metodları və fəaliyyət mexanizmləri vardır. Bazarın formalaşdırılması bazarın subyektləri arasında sabit, davamlı iqtisadi və qarşılıqlı sosial əlaqələrin yaradılmasını nəzərdə tutur. Əmək bazarında qarşılıqlı münasib razılıq əldə edilməsi yolu ilə çoxvariantlı seçim, iş verənlərin və işçilərin mənafelərinin bilavasitə uyğunlaşdırılması imkanı meydana gəlir.

Daxili bazarlar ondan ötrü yaradılır ki, müəssisəni sabitlik və mobillik prinsiplərinin optimal şəkildə birləşdirilməsi əsasında zəruri personalla təmin etmək mümkün olsun. Xarici bazarlar yaradılarkən işçi qüvvəsinin professional və sosial əlamətləri nəzərə alınır. Daxili və

xarici bazarlar biri o biri olmadan mövcud ola bilməzlər, onlar daimi qarşılıqlı əlaqədədirlər.

P.Deringer və M.Piore ilkin və sonrakı bazarları bir-birindən fərqləndirirlər. İlkin bazarlar əlverişsiz konyunktura təsirlərindən yüksək müdafiə olunmaq dərəcəsi ilə; autsayderlər üçün çətinləşdirilmiş girişlə; məşğul olanların müdafiə olunmalarının sahibkarların və həmkarlar təşkilatlarının iqtisadi maraqlarının paritetliyini təmin edən yüksək səviyyəsilə fərqlənirlər. İlkin əmək bazarı – iş yerini seçmək üstünlüyünə malik işçilərin imtiyazlı təbəqələrinin bazarıdır. Sonrakı bazar – "marginalların" bazarıdır ki, burada iş yerlərinin əsas kütləsi ixtisaslaşma üzrə həmcinsdir, burada həmçinin işçi qüvvəsinin çoxlu alıcıları və satıcılar da vardır.

Əmək bazarlarında işçi qüvvəsi əmtəə kimi çıxış edir. Hər bir əmtəə kimi işçi qüvvəsinin də öz dəyəri və qiyməti vardır. İşçi qüvvəsinin dəyəri iki amillə müəyyən olunur: işçinin peşə-ixtisas səviyyəsilə və istehlak səbətinə daxil edilmiş həyat vasitələrinin toplusu ilə müəyyən edilir.

*Sosial, etnik, yaş, təhsil və digər amillər işçi qüvvəsinin* qeyri-bərabər vəziyyətində öz ifadəsini tapır və bu da peşə ayrıseçkiliyinin və seqreqasiyanın açıq və gizli meyllərini doğurur. Əgər sosial-iqtisadi sistemdə diskriminasiya meyarları üstünlük təşkil edirsə, onda insanın səlahiyyətliliyinin işverənlərin muzdlu tutmaq üçün dominant əhəmiyyəti yoxdur. Onu digər standartlar əvəz edirlər: loyallıq, sosial mənsubluq və s.

Əmək sahəsində sosial siyasət strategiyası dörd tərkib hissəsinə malikdir:

- kompensasiya siyasəti – yenidən bölüşdürülməli və yenidən hazırlanmalı olan azad olunan işçilərin zəruri sosial müdafiəsini təmin edir;
- stimullaşdırma siyasəti – məşğul olan müxtəlif qrupların əməyə maraqlı münasibətini təmin edən sosial mexanizmin yaradılmasına cavabdehdir;
- sosial adaptasiya siyasəti – əmək həyat tərzinin plüralizmini təmin edir;
- sosial tərəfdaşlıq siyasəti – əmək fəaliyyətinin müxtəlif aspektləri üzrə hökumət, sahibkarlar və zəhmətkeşlər arasında razılığın əldə edilməsinə cavabdehdir.






Sxem 1
Əmək bazarı və əhalinin məşğulluğu

Əmək bazarı və əhalinin məşğulluğu müəyyən əlaqədədir (sxemə bax). Əmək bazarında *məşğulluq xidmətlərinin* aşağıdakı vəzifələri vardır:

- işçi qüvvəsinə tələb və təklifin təhlili və proqnozlaşdırılması;
- boş yerlərin və işə düzəlmək üçün müraciət edən vətəndaşların uçotu;
- iş əldə edilməsi və işçi qüvvəsi ilə təmin olunmaq imkanları haqqında məsləhətləşmələr;
- işə düzəlmək sahəsində xidmət göstərilməsi;
- pensiyaların verilməsi də daxil olmaqla onlara kömək göstərilməsi;
- əhalinin müxtəlif qruplarının məşğulluq proqramlarının işlənib hazırlanması və bu proqramlarda onların sosial müdafiəsi tədbirlərinin nəzərdə tutulması;
- vətəndaşların peşə təhsilinin və yenidən öyrənilmələrinin təşkili.

Məşğulluq mərkəzlərinin fəaliyyətinin başlıca məqsədi məşğul olmayan və iş axtaran əmək qabiliyyətli əhalinin və azad olunan işçilərin maksimum dərəcədə işə düzəldilmələrinin və onların sosial müdafiəsinin təmin edilməsindən ibarətdir.

### *İşsizlik*

İşsiz – mövcud qanunvericiliyə görə işə qəbul olunmalı olan və aktiv surətdə iş axtaran şəxsdir. İşsiz statusunu almaq üçün bir sıra şərtlərə əməl edilməsi zəruridir: məşğulluq xidmətində qeydə alınma; fəal surətdə iş axtarılması; digər gəlir mənbələrinin olmaması; məşğulluq xidmətilə əməkdaşlıq, onun tövsiyələrinin nəzərə alınması.

Səbəblərdən asılı olaraq işsizliyin aşağıdakı tiplərini fərqləndirirlər:

- friksiya (könüllü) işsizliyi – yeni iş axtarmaqla öz arzusu ilə iş yerinin dəyişdirilməsi ilə bağlıdır;
- mövsümi işsizlik – işçi qüvvəsinə tələbin mövsümi dəyişmələrindən asılıdır.
- struktur işsizlik – iqtisadiyyatda texnoloji dəyişikliklərlə əlaqədar olaraq əməyə tələbin strukturunda baş verən dəyişikliklərlə şərtlənmişdir;
- gizli işsizlik – formal olaraq işləyən hesab olunan və göstərilən iş həcmini yerinə yetirməyən işçilərin sayı ilə səciyyələnir;
- məcburi işsizlik – iş yerini məcburən azad etməklə bağlıdır (müəssisənin iflasa uğraması, hazırkı iş yerinin ləğv edilməsi, işdən azad edilmə). Bu cür işsizliyi həmçinin siklik işsizlik adlandırırlar. Bu cür işsizlik iqtisadi inkişaf fazası ilə əlaqədar olaraq istehsalın aşağı düşməsindən yaranmışdır;
- texnoloji işsizlik – istehsalın mürəkkəbləşməsi, ixtisassız əməyin istifadə olunduğu iş yerlərinin ixtisarından əmələ gəlir.

Sosioloqlar işsizliyin aşağıdakı funksiyalarını və onun doğurduğu hadisələri müəyyənləşdirmişlər.

1. İşsizlik iki sosial-iqtisadi funksiyanı yerinə yetirir: ədalət funksiyasını və stimullaşdırma funksiyasını.
2. İş barəsində ictimai əhval-ruhiyyələr: ictimai rəy bir qayda olaraq işsizliyə mənfi yanaşır.
3. Muzdlu işçinin eqoizmi – muzdlu işçi üçün iş yeri xüsusi məqsəddir, halbuki iş yerinin səmərəliliyi nisbətən ikincidərəcəlidir; muzdlu işçi çox vaxt iş verənə istismarçı kimi baxır.
4. İş verənin eqoizmi: iş verən iş yerlərini onların ən yüksək səmərəliliyi nöqteyi-nəzərindən nəzərdən keçirir və qiymətləndirir.
5. Kadr qərarlarında subyektivizm: çox vaxt işdən azad etmə, ixtisarla əlaqədar konkret məsələlərin həlli zamanı insanlar özlərinin fərdi və sosial maraqlarından çıxış edirlər.



6. Rəqabət və yaxud həmrəylik: kadrları ixtisar edərkən müəssisə işçilərin bir hissəsinin ixtisarı ilə yerdə qalanların əmək haqlarının saxlanılması (rəqabət variantı) arasında və yaxud bütün ştatın saxlanılması ilə hamı üçün əmək haqqının ixtisar edilməsi (həmrəylik variantı) arasında seçim etməli olur.
7. Sosial müdafiənin ziddiyyətləri: bir qayda olaraq işsizliyin xüsusi çəkisi nə qədər yüksək olarsa, işsizin sosial müdafiəsinin səviyyəsi bir o qədər aşağı olar və sosial gərginlik daha kəskin olur.
8. İşsizliyin doğurduğu həyəcanın xüsusiyyətləri və onların amilləri (bu, insanların müxtəlif kateqoriyaları və tipləri üçün işsizliyin sosial-psixoloji problemliliyinin dərəcəsinin göstəriciləridir): böhran kateqoriyasına adətən pensiya öncəsi yaşda olan insanları və kişiləri aid edirlər, çünki onlar işə sosial və əxlaqi tələbatı daha güclü hiss edirlər.
9. İşsizlərin davranışı: işsizin davranışına təsir edən bütün amilləri obyektiv və subyektiv amillərə ayırmaq olar; obyektiv amillərə işsizin rifah halının səviyyəsi, subyektiv amillərə insanın işsizliyə hadisə və şəxsi bədbəxtlik kimi yanaşması.
10. İstehlakçılıq psixologiyası amili: işsizliyin səviyyəsinə həmçinin bu və ya digər istehlakçı obrazının dəyərlilik oriyentasiyaları, maraqları, meylləri təsir göstərir.

### Testlər

1. M. Veber iqtisadi hərəkəti aşağıdakı kimi müəyyənləşdirir:
   a) iqtisadi tələbatların ödənilməsinə yönəldilmiş hərəkətdir;
   v) subyektin resurslar üzərində sivilizasiyalı nəzarət üsuludur, nə vaxt ki, həmin subyekt bu nəzarəti şüurlu surətdə həyata keçirərək, qazanc əldə etməyə oriyentasiya götürür.

2. İqtisadi davranışın strukturunda rasionallığın nisbiliyini qeyd edirdi:
   a) M. Veber; b) R. Merton; v) V. Pareto.

3. Q. Zimmelə görə sosial həyatın paralel təkamül prosesləri bunlardır:
   a) rasionallaşdırma; b) monetarlaşdırma; v) fərdiləşdirmə.

4. İqtisadi davranışın ehtimali-statistik təhlilini işləyib hazırlamışdır:
   a) R. Merton; b) N. Kondratyev; v) M. Veber.

5. İqtisadi davranış deməkdir:
   a) məqsədə çatılmasına yönəldilmiş sosial hərəkətlərin sistemidir;
   b) resurslardan istifadə edilməsilə bağlı olan sosial hərəkətlərin sistemidir;
   v) resurslardan istifadə edilməsi ilə bağlı olan və qazanc əldə edilməsinə yönəldilmiş sosial hərəkətlərin sistemidir.

6. İqtisadi davranışın tərkib hissələri:
   a) tələbatlar; q) davranış normaları və qaydaları;
   b) iqtisadi resurslar; d) fəaliyyətdə olan subyektlər;
   v) iqtisadi mühit; e) iqtisadi şüur.

7. Əmək sferasında sosial siyasətin tərkib hissələri:
   a) dezorqanizasiya; q) stimullaşdırma,
   b) kompensasiya; d) sosial tərəfdaşlıq;
   v) sosial adaptasiya.

8. İşsiz –
   a) mövcud qanunvericiliyə görə işləyə bilməyən şəxsdir;
   b) mövcud qanunvericiliyə görə işə götürülə bilən və aktiv iş axtaran şəxsdir;
   v) mövcud qanunvericiliyə görə işə qəbul oluna bilən şəxsdir.

9. Özünün xahişinə görə yeni iş yeri axtarmaqla əlaqədar iş yerinin dəyişməsi ilə bağlı olan işsizlik belə adlanır:
   a) struktur işsizlik, b) mövsümi işsizlik, v) friksion işsizlik.

Cavablar

**1** – b; **2** – v; **3** – a, b; **4** – b; **5** – v; **6** – b, v, q, d; **8** – b; **9** – v.

Seminarlarda və "dəyirmi masa"larda müzakirə olunmaq üçün mövzular

1. Cəmiyyət sosial sistemi kimi: davamlı fəaliyyət prinsipləri.
2. Müasir Rusiya cəmiyyəti: dəyişmə meylləri.
3. Etnik birliklər və etniklərarası münasibətlər.
4. Sosial qruplar və sosial təşkilatlar: oxşar və fərqli cəhətləri.

# V BÖLMƏ
# SOSİAL DƏYİŞİKLİKLƏR, İDARƏETMƏ VƏ QLOBALLAŞMA PROSESLƏRİ

## 1-Cİ FƏSİL. SOSİAL QARŞILIQLI TƏSİRLƏR

### 1.1. Sosial hərəkət, qarşılıqlı təsir, əlaqə

Sosial əlaqə – sosial dünyanın çox əhatəli hadisəsidir. İnsan çoxlu miqdar gözəgörünməz tellərlə digər insanlarla, cəmiyyətlə əlaqədədir. Bu əlaqələrin mənası, onların əhəmiyyəti nədir? *Əlaqə – başqalarına oriyentasiya etməklə, cavab hərəkətini gözləməklə şüurlu suratdə həyata keçirilən sosial hərəkət vasitəsilə reallaşdırılan asılılıqdır.*

Sosial əlaqənin strukturunda aşağıdakıları fərqləndirmək olar: 1) əlaqənin subyektləri; 2) əlaqənin predmeti, yəni o şey ki, ona görə əlaqə həyata keçirilir; 3) "oyun qaydaları", yəni əlaqənin subyektləri arasında qarşılıqlı münasibətlərin şüurlu surətdə tənzimlənməsi mexanizmləri. Əlaqə formal və qeyri-formal, vasitəsiz və vasitəli, kauzal və korrelyasion olur.

Əlaqə aşağıdakı halda kəsilir: 1) əlaqə predmeti dəyişdikdə və yaxud itirildikdə; 2) iştirakçılar əlaqənin tənzimlənməsi prinsipləri ilə razı olmadıqda, 3) əlaqə subyektlərindən biri yoxa çıxdıqda.

Çox vaxt əlaqənin iştirakçıları arasında qarşılıqlı münasibətlərin tənzimlənməməsi səbəbindən baş verən *münaqişə* əlaqənin müəyyən halıdır. Əlaqə başlıca olaraq həmrəyliklə səciyyələnir, təcridolunma kateqoriyası ona qarşı durur.

Sosial əlaqə həmçinin sosial ünsiyyət və sosial təsir şəklində çıxış edir.

*Sosial ünsiyyət* zamanı insanlar arasında əlaqə səthi xarakterə malik olur, sanki ötəri xarakter daşıyır, tərəfdaşların bir-birinə münasibətdə qarşılıqlı, uyğun hərəkətlər sistemi mövcud deyildir. Bu, əlahiddə aktdır, birgə iştirakdır, lakin qarşılıqlı təsir deyildir.

*Sosial qarşılıqlı təsir – tərəfdaşın bir-birinə istiqamətlənmiş, müəyyən reaksiya doğurmaq məqsədi güdən sistematik, kifayət qədər müntəzəm hərəkətləridir.* Bu, hərəkətlərin mübadiləsidir. Qarşılıqlı təsir

formal və qeyri-formal, vasitəsiz və vasitəli və s. olur.

Qarşılıqlı təsir sosiologiyada **sosial interaksiya** adlanır. Sosial interaksiya bir-biri ilə bağlı hərəkətlərdən – baza elementlərindən, sosial reallığın özünəməxsus bölünməz atomlarından ibarətdir. Hərəkətdə, rüşeym halında sosial gerçəklik üçün səciyyəvi olan bütün əsas xarakteristikalar, ziddiyyətlər, hərəkətverici qüvvələr mövcuddur. Sosiologiyanın görkəmli klassikləri M. Veber və T. Parsons yanaşmalarındakı fərqlərə baxmayaraq özlərinin doktrinalarında ən öncə məhz hərəkətə diqqət yetirmişlər: Veber – sosial hərəkətə, Parsons – əlahiddə hərəkətə. "Sosial hərəkət" termininin müəllifi də Veberdir. "Sosial hərəkət" dedikdə o, motivi və məqsədi olan, digər insanların istər keçmiş, istər hazırkı və yaxud gələcək davranışına istiqamətlənmiş şüurlu, dərk edilmiş hərəkəti başa düşürdü.

İnsanın hərəkəti özlüyündə ideal məqsəd forması alan müəyyən tələbatla istiqamətləndirilir. Bu hərəkətin məqsədə çatılmasına sövq edən daxili mənbəyini təminatsızlıq təşkil edir. Sosial hərəkət özündə, birincisi, hərəkət anını, ikincisi, başqasına oriyentasiya anını sintezləşdirir.

Parsons hərəkətin strukturunda fərqləndirirdi: 1) özünün tələbatları və məqsədləri ilə birlikdə xadimi; 2) xadimin fəaliyyət göstərdiyi konkret şəraitin, mühit hadisələrinin məcmusu kimi situasiyanı; 3) xadimin, sayəsində tələbatın, məqsədin həyata keçirilməsinin reallaşdırılmasının konkret planının hasil olduğu situasiyaya oriyentasiyasını.

Xadim, fərd və yaxud qrup konkret situasiyanı təhlil edir, məqsədə çatılması ilə bağlı olan variantları götür-qoy edir. Hərəkət o zaman sosial hərəkət kimi çıxış edir ki, fərd situasiyaya istiqamətlənərək, digər insanların reaksiyasını, onların tələbatlarını və məqsədlərini diqqətə alır, digərlərinin hərəkətlərini nəzərə almaqla öz hərəkətlərinin planını hazırlayır, digər insanlarla birbaşa və yaxud dolayısı ilə qarşılıqlı təsiri nəzərdə tutur.

Sosial hərəkətin təhlili çox mühüm iki problemi nəzərdən keçirməyə imkan verir: sosial inkişafın mənbəyi olaraq tələbatlar problemini və fəaliyyətin mənayaradıcı əsası olaraq motivasiya problemini.

Sosial mühiti, insanlarla konkret əlaqələri xadim o zaman ağıllı, zəkaya uyğun hesab edir ki, onlar tələbatları təmin etməyə, məqsədi reallaşdırmağa imkan vermiş olsun. Əgər qarşılıqlı əlaqələrin mövcud zənciri buna nail olmağa imkan vermirsə, o zaman sosial əlaqələr



sisteminin yenidən qurulmasına sövq edən təminatsızlıq formalaşır. Fərdin, eləcə də sosial qrupun sosial hərəkətlərinin başa düşülməsi motivasiyanı, xadimin öz səylərinə daxil etdiyi ideal daxili mənanı nəzərə almadan mümkün deyildir.

Sosial hərəkətin motivasiyası özündə iki başlanğıcı birləşdirir:

- konkret insanın tələbatını yenidən istehsal edən fərdi məqsədi;
- başqasına oriyentasiyanı, ətrafdakıların mümkün ola biləcək cavab reaksiyasını nəzərə alan "gözləmə"ni.

Bu iki başlanğıcın sintezi elə sosial hərəkətin motivini əmələ gətirir. Beləliklə, *sosial hərəkətin motivi* sosial münasibətlər, əlaqələr, gözləmələr prizmasından keçərək dərk olunmuş fərdi məqsəddir. Sosial hərəkətin konkret məzmunu bununla müəyyən olunur ki, bu iki başlanğıc bir-biri ilə necə uzlaşacaq, qarşılıqlı təsirdə olacaqlar.

Parson haqlı olaraq tip hərəkət dəyişənlərinin aşağıdakı qrupunu – hərəkət variantının seçilməsi prosesində müntəzəmləşmiş, ahəngdarlaşmış əsas oriyentasiyalar sistemini fərqləndirir. Bu aşağıda göstərilənlər arasında alternativ seçim imkanını səciyyələndirən cütlüklərdir:

- özünün müstəsna olaraq xüsusi maraqları ilə uyğun olan hərəkətlə öz davranışında kollektivin tələbatlarını nəzərə almaq zərurəti arasında (özünə oriyentasiya – başqasına oriyentasiya);
- bilavasitə, ötəri tələbatların ödənilməsinə səy göstərilməsi və perspektiv və mühüm məqsədlər naminə bu deyilənlərdən imtina edilməsi arasında;
- başqa fərdin sosial xarakteristikalarına oriyentasiya ilə başqasına immanent şəkildə xas olan fərdi keyfiyyətləri (cinsi, yaşı, zahiri görkəmi) arasında;
- fərd tərəfindən öz davranışını mövcud situasiyanın spesifik məqamları nəzərə alınmaqla hər hansı ümumi qaydaya tabe etdirilməsi.

Göstərilən alternativlər konkret sosial hərəkətin motivasiyasının mürəkkəbliyini sübut edir. Sosial hərəkətin seçilməsi motivasiyasında çox şey insanın fərdi xüsusiyyətlərilə şərtlənir. Lakin motivasiyanın bu və ya digər tipinin və hərəkətin özünün yayılmasının kütləviliyi cəmiyyətdən, sosial-mədəni mühitdən, onların bu cür, məqsədyönlü və yaxud ənənəvi hərəkətə imkan verməsindən, onu stimullaşdırmasından, ya da onların nə dərəcədə davranışın bir tipini sıxışdırıb, digər tipini stimullaşdırmasından asılıdır. Sosial gerçəklik aşağıdakı aspektlərin bir-biri ilə çox müxtəlif şəkildə çulğaşması və birləşməsidir: başqasına fəaliyyət baxımdan oriyentasiyanın, yəni sosial əlaqələrin və qarşılıqlı

təsirin, mənaların sistemi kimi mədəniyyətin, şəxsiyyətin hərəkət motivatorlarının, hərəkətin mənbəyi olaraq şəxsiyyətin tələbatlarının.

Sosial hərəkətin digər insanların (fərd öz hərəkətlərinin planını hazırlayarkən başqalarına oriyentasiya götürür) reaksiyasının, gözləntisinin mövcud olduğunu nəzərdə tutduğundan, onu heç də həmişə sosial hərəkət adlandırmaq mümkün olmur. Hərəkət o zaman sosial hərəkətə çevrilir ki, bu hərəkət bir başa və yaxud dolayısı ilə digər insanlarla qarşılıqlı təsirə istiqamətlənmiş olsun. Əlahiddə akt, hadisə kimi sosial hərəkətə az təsadüf olunur. Real həyatda sosial hərəkət – səbəb-nəticə əlaqəsi ilə birləşmiş, bir-birini qarşılıqlı surətdə şərtləndirən sosial hərəkətlər seriyasıdır.

Qarşılıqlı sosial təsir həmişə əks əlaqəyə malik olur – başqa bir insana istiqamətlənmiş olur, buna görə də qarşılıqlı sosial təsir universal mübadilə kimi müəyyənləşdirilir. Qarşılıqlı təsirin dörd əlamətini fərqləndirirlər:

- predmetlilik əlaməti – həyata keçirilməsi səylərin birləşdirilməsini tələb edən xarici məqsədin mövcudluğu;
- situasiyalılıq – qarşılıqlı təsir prosesinin baş verdiyi situasiyanın konkret şərtləri ilə sərt reqlamentasiya olunmaq;
- izahlılıq – kənar müşahidəçi üçün qarşılıqlı təsir prosesinin xarici ifadəliliyinin mümkün olması;
- refleksiv çoxmənalılıq – fəaliyyətin hər hansı bir növündə insanların istər subyektiv niyyətlərinin təzahürü olmaq və istərsə də insanların birgə iştirakının dərk olunmamış və yaxud dərk olunmuş nəticəsi olmaq imkanı.

## 1.2. Sosial proseslər və münasibətlər

*Sosial proses – çoxlu sayda digər sosial hərəkətlərin içərisindən seçilməsi mümkün olan eyni istiqamətli və təkrar olunan sosial hərəkətlərin məcmusudur.* Sosioloqlar R. Park və E. Byorcess sosial proseslərə kooperasiyanı, rəqabəti, uyğunlaşmanı, münaqişəni, assimilyasiyanı, amalqamalaşdırmanı, sərhədlərin saxlanılmasını və sistematik əlaqələri (sonuncu iki proses yalnız qruplarda özünü göstərir) aid edirlər.[1]

[1] Bax: *Park R., Burgess E.* İntroduction to the science of sociology Chicago, 1924.



İstənilən k o o p e r a s i y a ümumi məqsədlərə nail olunmasında razılaşdırılmış hərəkətlərə əsaslanır. Kooperasiya üçün qarşılıqlı anlaşılma, hərəkətlərin razılaşdırılması, əməkdaşlıq qaydalarının müəyyənləşdirilməsi səciyyəvidir. Kooperasiyanın başlıca mənası ikitərəfli faydadan, qazancdan ibarətdir.

Kooperasiya diadalarda, kiçik və böyük qruplarda baş verə bilər. İlkin və kiçik qruplarda kooperasiya nəinki özlüyündə, eyni zamanda təkrar qrupdakı kooperasiya ilə görünməz əlaqəsi ilə çox mühümdür. Unutmaq olmaz ki, qrupun uğurla mövcud olması və onun üzvlərinin təminatlılığı hər bir kəsin qarşılıqlı kooperativ əlaqələrinə daxil olmaq bacarığından asılıdır. Asanlıqla və sərbəst surətdə kooperasiya təşkil etməyi bacarmayan şəxsiyyət birgə həyata da uyğunlaşa bilməz. Təkrar qruplarda kooperasiya fərdlərin şəxsi qarşılıqlı əlaqələrinin sayəsində fəaliyyət göstərən kiçik ilkin qrupların kooperasiyalarının şəbəkəsidir.

R ə q a b ə t sərvətlərə sahib olunmasında maraqları bir-birinə uyğun gələn fərdlər, qruplar və yaxud cəmiyyətlər arasındakı mübarizəyə əsaslanır. Rəqabət həmişə mövcud olur, şəxsi və şəxssiz səviyyədə təzahür edir, hər şeydən əvvəl rəqiblərin səviyyəsinə çatılmasını, onları kənar etməyi deyil, qabaqlamağı nəzərdə tutan müəyyən *qaydalar üzrə* həyata keçirilir. Şəxsiyyəti daha böyük *nailiyyətlərə* stimullaşdıran vasitə kimi rəqabətin əhəmiyyətini onun müsbət *cəhəti* hesab etmək olar. Axı məhz rəqabət elmdə, incəsənətdə tərəqqiyə, sosial münasibətlərdə xeyli dəyişikliklərə gətirib çıxarmışdır.

U y ğ u n l a ş m a – bu, *fərd və yaxud qrup tərəfindən yeni mühitin* normalarının, dəyərlərinin, *hərəkət etalonlarının* qəbul edilməsidir, həm də köhnə mühitin norma və dəyərləri tələbatları təmin etməyə artıq qadir deyillər. Dəyişilmiş xarici mühit şəraitində yeni davranış tipinin formalaşması mürəkkəb, fasiləsiz dəyişməkdə olan prosesdir ki, bu da tabe olmaqdan, kompromisdən və dözümlülükdən ibarətdir. Tabe olma və dözümlülük – uyğunlaşma prosesinin zəruri şərtləridir. Kompromis uyğunlaşmanın forması olub, fərdin və yaxud qrupun dəyişməkdə olan şəraitlə və mədəniyyətlə yeni məqsədlərin və onlara çatmaq üsullarının qismən və ya tam şəkildə qəbul edilməsi yolu ilə razılığını ifadə edir.

A s s i m i l y a s i y a – qarşılıqlı mədəni nüfuzetmənin ikitərəfli prosesidir ki, onun sayəsində şəxsiyyətlər və qruplar prosesin bütün iştirakçıları tərəfindən qəbul olunan ümumi mədəniyyətə gəlib çıxırlar. *Assimilyasiya* üçün müsbət cəhət odur ki, assimilyasiya qrup münaqişələrini xeyli dərəcədə zəiflədə və hətta söndürə bilər.

A m a l q a m a l a ş m a – iki və yaxud daha çox etnik qrupların və ya xalqların bir-biri ilə bioloji qarışdırılmasıdır ki, bunun nəticəsində də onlar bir xalqa çevrilirlər.

Cəmiyyətin ayrı-ayrı sferalarında baş verən sosial proseslər sosial-iqtisadi, sosial-siyasi, sosial-mədəni və ictimai proseslərdən ibarət ola bilər. Cəmiyyətin çox mühüm elementlərini ictimai münasibətlər təşkil edir, yəni iqtisadi, siyasi, sosial, mənəvi münasibətlər. Bu münasibətlər bir-biri ilə qarşılıqlı əlaqədədirlər, lakin eyni zamanda da müstəqildirlər, öz qanunları üzrə inkişaf edirlər, öz strukturlarına malikdirlər.

*Sosial münasibətlər – əmək bölgüsü, müəyyən mülkiyyət formaları, milli münasibətlərinin spesifik konfiqurasiyası olan cəmiyyətin daxili təşkili sistemidir.* Sosial münasibətlər adı altında sosial subyektlər arasındakı davamlı, qanunauyğun əlaqələri başa düşürlər. Sosial münasibətlərin strukturuna daxildir: münasibətin subyekti (ayrı-ayrı fərdlər, qruplar, birliklər), münasibətin obyekti (onun barəsində və onunla əlaqədar münasibətlər meydana gəlir və müdafiə olunur), subyektlərin məqsədləri və dəyərləri, məqsədlərə çatılmasında onların imkanları, sosial normalar.

Sosial münasibətlər birtərəfli (münasibətlər iyerarxik xarakter alır) və ikitərəfli xarakterə malik ola bilər (subyektlər qarşılıqlı təsirdə bərabər imkanlara malikdirlər).

## 1.3. Sosial dəyişikliklər

Sosial dəyişikliklər cəmiyyətin baza xarakteristikalarına aiddir. Əgər cəmiyyətdə dəyişikliklər baş vermirsə, onda bu cəmiyyət "durğunluq" içərisində qalmış olur. Sosial dəyişiklik – sosial sistemlərin, birliklərin, institutların və təşkilatların bir haldan başqa bir hala keçməsidir, sadədən mürəkkəbə, aşağı pillədən yuxarı pilləyə doğru hərəkəti nəzərdə tutan inkişafdır.

Cəmiyyətin inkişafının bütün mərhələlərində sosial strukturun bütün elementlərinin labüd şərti olaraq sosial proseslərin dinamikasının təhlilinə bir çox sosioloqlar hələ XIX əsrdə diqqət yetirmişlər. Onların tədqiqatlarının nəticələrini iki qrupa ayırmaq olar: sosial təkamül nəzəriyyələrinə və sosial inqilab nəzəriyyələrinə. Təkamül nəzəriyyəsinə görə sosial dəyişiklik inkişafın "hərbi" və yaxud "sənaye" cəmiyyəti kimi bir neçə inkişaf mərhələlərini özündə birləşdirir. Cəmiyyət də bu



mərhələlərdən keçərək, getdikcə daha mürəkkəb formalar alır. Elə bu cərəyana funksionalistlərin baxışları da aiddir. Funksionalistlər dəyişikliyi fərdlərin şüurunun diferensiasiyası və struktur mürəkkəbliyinin artması prosesində sosial sistemin ətraf mühitə uyğunlaşması üsulu kimi nəzərdən keçirirlər. K. Marksın ideyalarına əsaslanmış inqilab nəzəriyyələri kapitalizmdə sinfi münaqişəyə, siyasi mübarizəyə və əsas sosial qüvvələrin məqsədlərinə fundamental struktur dəyişikliklərin hərəkətverici mexanizmləri olaraq başlıca, aparıcı rol verirlər.

Cəmiyyətdə daim keyfiyyətli sosial dəyişiklikləri hazırlayan və onun inkişafını stimullaşdıran dəyişikliklər baş verir. Sosial inkişafa təsir göstərən dəyişikliklərin bir neçə tipini fərqləndirirlər:

- təbiətdəki dəyişikliklər – təbii dəyişikliklər və sosiogenezin özünün stimullaşdırdığı dəyişikliklər;
- demoqrafik dəyişikliklər – təbii və sosial dəyişikliklərin funksiyasıdır; təbiətə və sosial mühitə mühüm əks təsir göstərir;
- istehsal sahəsindəki dəyişikliklər – ictimai tərəqqinin təbii stimullaşmasını təmin edirlər;
- idarəetmə sistemindəki dəyişikliklər – idarəetmənin ailədəki elementar, sadə formalardan tutmuş müasir dövlət strukturlarına qədər inkişafı;
- sosial təşkildəki dəyişikliklər – bir tərəfdən, ənənəvi əlaqələrin təkmilləşdirilməsinə yönəldilmişdir, digər tərəfdən isə, təşkilatların yeni formalarının yaranmasına və onlar arasında əlaqələrin qurulmasına kömək göstərir;
- sosial struktur çərçivəsindəki dəyişikliklər – cəmiyyəti təşkil edən komponentlərin hər birindəki dəyişikliklərdir;
- mənəvi sferada, yəni dünyagörüşü və ideologiya sahəsindəki dəyişikliklər.

Dəyişikliklər bir-biri ilə qarşılıqlı təsirdə olmaqla, bir-birini determinasiya etməklə cəmiyyətin bütün strukturuna nüfuz edirlər. Məhz bu dəyişikliklər sosial inkişaf prosesinin bazasını təşkil edirlər.

Cəmiyyətlərdə sosial dəyişikliklər adətən diffuziya vasitəsilə – mədəni xüsusiyyətlərin və nümunələrin qrupdan qrupa yayılması və tətbiq edilməsi vasitəsilə inkişaf edirlər. Sosial dəyişikliklərdən bəhs edərkən biz çox vaxt nə isə yeni bir şeyin meydana gəlməsini, yəni kəşfini, aşkarlanmasını nəzərdə tuturuq. Praktikada yoxlanılmış, insanlar tərəfindən qavranılmış biliklər toplusuna yeni töhfə olan kəşf yalnız o

zaman sosial dəyişiklik amilinə çevrilir ki, o, istifadə edilmiş olsun, nə vaxt ki, o, ictimai həyatın və yaxud insan münasibətlərinin bir hissəsinə çevrilmişdir.

Lakin heç də bütün innovasiyalar cəmiyyət tərəfindən qəbul olunmur. Sosial dəyişikliklərin qəbul olunması amillərinə aid edirlər:

- dəyişikliklərə olan müqavimətə təsir göstərən amillər: dəyişikliklərin qəbul edilməsinə mane olan və hətta onları blokadaya alan spesifik ustanovkalar və dəyərlər;
- innovasiyaların qəbulunu sürətləndirən amillər. Bu amillər geniş auditoriya qarşısında öz imkanlarını nümayiş etdirirlər. Bu halda tətbiq olunmanın ilkin mərhələsində qeyri-kamilliklər innovasiyanın tətbiqini yalnız ləngidə bilər, lakin onun yolunu heç cür bağlaya bilməz;
- mövcud mədəniyyətlə uyğunlaşa bilmək amilləri. İnnovasiyaların mövcud mədəniyyətlə bir araya sığmaması üç səbəblə şərtlənmişdir: 1) innovasiyaların mövcud mədəni nümunələrlə münaqişəsilə; 2) innovasiyalar tərəfindən mövcud mədəniyyətdə təmsil olunmayan yeni mədəni nümunələrin daxil edilməsilə; 3) innovasiyaların mövcud mədəniyyətdəki mədəni nümunələri sıxışdırması ilə.

Sosial dəyişikliklərin cəmiyyət tərəfindən qəbul olunub olunmamasından, mövcud mədəniyyətə birləşib birləşməməsindən və yaxud mövcud mədəni nümunələri əvəz edib etməməsindən asılı olmayaraq onlar güclü təsir bağışlayırlar. Məsələn, U. Oqborn innovasiyaların effektlərinin üç əsas formasını fərqləndirmişdir: bir ixtiranın dispersiyasını (çoxsaylı effektlər); bir ixtiranın törəmə effektlərini; müxtəlif ixtiraların bir neçə təsirlərinin konvergensiyasını (birləşməsini).[1]

İnnovasiyalar dinamik qurum, törəmə olan müasir cəmiyyət üçün son dərəcə əhəmiyyətlidir. Cəmiyyət innovasiyalara reaksiya verməyə, onları sosial, mədəni və insan fəaliyyətinin digər sahələrində qəbul etməyə və mənimsəməyə borcludur. İnnovasiyaları qəbul etməyən statik cəmiyyət sosial həyatın durğunluğu ilə və tənəzzül əlamətləri olan sosial effektlərlə səciyyələnir.

[1] Bax: *Ogburn W.* On culture and social change: selected papers, Chicago, 1964.



## 1.4. Sosial hərəkatlar

Sosial hərəkatlar sosial həyatın müxtəlif sferalarında yeniliklərə kömək edən, dəyişiklikləri təmin edən və yaxud onlara müqavimət göstərən səylərin məcmusudur. Lakin müasir sosioloqlar qeyd edirlər ki, sosial hərəkatlar nəinki sosial dəyişikliklərin müdafiə edilməsinə, eyni zamanda onların əleyhinə də yönəldilə bilərlər.

Sosial hərəkatları sosial institutlar və təşkilatlarla qarışdırmaq olmaz. Belə ki, sosial hərəkatlar davamlı institusional statusa malik deyillər; cəmiyyət üzvlərinin əksəriyyəti bu hərəkatlara cəlb olunmamışdır. Cəmiyyət tərəfindən müdafiə olunduqda sosial hərəkat dəyişərək, sosial instituta çevrilir. Sosial hərəkatlar, demək olar ki, mütəşəkkillik əlamətlərindən tamamilə məhrumdurlar. Bu hərəkatlar davranış formalarında bu və ya digər dəyişikliklərlə bağlıdırlar, mədəni nümunələrin davamsızlığı isə onların mövcudluğunun zəruri atributu hesab oluna bilər. Sosial hərəkatların fəaliyyət göstərməsi bu hərəkatların ideyalarını və dəyərlərini müdafiə edən insanların səylərini əks etdirir. Sosial hərəkat sabitləşmiş normalar şəraitində, nizamlanmış statuslar və rollar sisteminin mövcudluğu şəraitində inkişaf edərək, formal təşkilata çevrilir.

Sosial hərəkatları, hətta onlar idarəetmə institutlarına təsir göstərməyə çalışaraq, təzyiq qrupları kimi hərəkət etdikləri halda da siyasi hərəkatlar adlandırmaq olmaz. Birincisi, bu hərəkatlar təsadüfən təzyiq qrupları funksiyalarını yerinə yetirirlər; ikincisi, bu hərəkatlar şüurlu olaraq özünün inkişaf dinamizmini saxlamaq nöqteyi-nəzərindən cəmiyyətə lazım olan norma və dəyərlərdəki dəyişikliklərin müdafiə edilməsinə yönəldilmişlər.

Sosial hərəkatların müxtəlif çalarlar qəbul edə biləcəyi, siyasi və ya iqtisadi xarakter daşıyacağı, müxtəlif sayda insanları əhatə edə biləcəyi ilə əlaqədar olaraq onların tam təsnifatını vermək olduqca çətindir. Bu hərəkatların daha ümumi əlamətlər əsasında bir sıra "ideal tiplərini" misal gətirək.

*Ekspressiv hərəkatlar.* Bu hərəkatlar o zaman meydana gəlirlər ki, insanlar dəyişdirmək iqtidarında olmadıqları sosial sistemin məhdud çərçivəsindən kənara çıxa bilmirlər. Belə hərəkatın iştirakçısı cazibədar olmayan reallığa öz münasibətini bildirir, arzularının köməyilə bu reallığın hüdudlarından kənara çıxır. Bu da onun emosional rahatlığına kömək edir. Bizim zəmanəmizdə belə hərəkatlar gənclər mühiti üçün xüsusilə səciyyəvidir (hippilər, baykerlər, lyuberlər və s.).

*Utopik hərəkatlar*. Bu hərəkatlar ideal sosial sistemlər, mükəmməl cəmiyyətlər yaratmaq və onları öz dərnəklərində layihələşdirmək səylərinə əsaslanırlar. Bu cür hərəkatların üzvləri bir qayda olaraq yüksək daxili enerjiyə və fəallıq səviyyəsinə malik olurlar.

*İslahatçı hərəkatlar*. İctimai həyatın ayrı-ayrı tərəflərini və cəmiyyətin strukturlarını tam transformasiya olmadan dəyişdirmək cəhdlərindən ibarətdir. Bu cür hərəkatlar yalnız demokratik cəmiyyətdə – insanların mövcud sosial institutları sərbəst şəkildə tənqid edə bildikləri cəmiyyətdə mümkündür.

*İnqilabi hərəkatlar*. Bu hərəkatların məqsədi mövcud sosial quruluşu devirmək, əvvəlkindən xeyli dərəcədə fərqlənən yeni cəmiyyət qurmaqdır. Bu cür hərəkatların meydana gəlməsi üçün əlverişli mühit avtoritar cəmiyyətlərdir.

*Müqavimət hərəkatları*. Bu, müəyyən qrup insanların dəyişikliklər etmək imkanını məhdudlaşdırmağa və yaxud artıq baş vermiş dəyişikliklərin məhv edilməsinə yönəldilmiş səyləridir.

Sosial hərəkatlar siklik xarakter daşıyır. Bu hərəkatlar öz inkişafında bir neçə mərhələdən keçirlər:

- narahatçılıq mərhələsi – cəmiyyətin bəzi hissələrini əhatə etmiş qeyri-müəyyən, fokslaşmamış ümumi əhval-ruhiyyədə özünü göstərir (sabahkı gün üçün ümidsizlik hissi, sosial ədalətsizliyin dərki və s.);
- coşqunluq, həyəcan mərhələsi – müəyyən şəraitə cavab olaraq narahatçılıq fokslaşdırıldıqda meydana gəlir. Uğursuzluqların səbəbləri real sosial obyektlərlə identifikasiya olunur, eyniləşdirilir ki, bu da aktiv hərəkatlara gətirib çıxarır. Hadisələrin sonrakı inkişafı təşviqatçıların hərəkətlərindən və sosial institutların effektivliyindən asılıdır;
- formallaşma mərhələsi – hərəkətin aktivliyini və ideologiyasını nizamlayan xadimlərin meydana gəlməsilə səciyyələnir. Bu mərhələdə coşmuş kütlələr hərəkatın intizamlı üzvlərinə çevrilirlər;
- institusionallaşma mərhələsi – institusionallaşma sosial hərəkatlara bitkinlik və müəyyənlik verir. Hərəkat eynimənalı mədəni nümunələr kəsb edir: hərəkat üzvlərinin maraqlarının müdafiə edilməsi və qorunması ənənələri, işlənib hazırlanmış simvolikası və kodeksi. Müvafiq sosial rolları yerinə yetirən liderlər meydana çıxırlar;
- parçalanma mərhələsi – sosial hərəkat ya bir-biri ilə münaqişədə olan və yaxud rəqabət aparan bir sıra avtonom qurumlara parçalanır, ya da sosial instituta çevrilir və cəmiyyətdə öz nüfuzunu möhkəmləndirir.



## 1.5. Şəxsiyyətlərarası qarşılıqlı təsir nəzəriyyələri

Sosial qarşılıqlı təsir problemləri XIX əsrin sonlarından başlayaraq fəal surətdə tədqiq olunur. Bu sahəyə P.Sorokin, C.Xomans, T.Parsons kimi sosioloqlar böyük töhfə vermişlər. Məsələn, Sorokin qeyd edirdi ki, "cəmiyyət" anlayışının özü nəinki bir neçə vahidin (fərdlərin) mövcudluğunu, eyni zamanda onlar arasında qarşılıqlı təsiri nəzərdə tutur. Sorokin şəxsiyyətlərarası qarşılıqlı təsirin sosial-psixoloji aspektlərinə öncül yer verərək, qarşılıqlı mübadilənin üç əsas prosesini fərqləndirirdi: müxtəlif ideyaların mübadiləsi, iradi impulsların mübadiləsi, hisslərin mübadiləsi.

Sorokinin dediyi kimi, insanın həyatı – qarşılıqlı təsirlərin fasiləsiz prosesidir.

Şəxsiyyətlərarası səviyyədə qarşılıqlı təsirin qanunauyğunluqlarını izah edən nəzəriyyələr 3-cü cədvəldə təqdim edilmişdir

Cədvəl 3.

**Şəxsiyyətlərarası qarşılıqlı təsir nəzəriyyələri**

| Nəzəriyyə | Müəllif | Əsas ideya |
|---|---|---|
| Mübadilə nəzəriyyəsi | C.Xomans | İnsanlar bir-biri ilə öz təcrübələrinin əsasında qarşılıqlı təsirdə olurlar, mümkün olan mükafatlandırılma və xərcləri ölçüb biçirlər |
| Simvolik interaksio-nizm | C. Mid, Q. Blumer | İnsanların bir-birinə və ətraf mühit predmetlərinə münasibətlərinə görə davranışı bu predmetlərə verdikləri qiymətlərlə müəyyən olunur |
| Təəssüratların idarə edilməsi nəzəriyyəsi | E. Hoffman | Sosial situasiyalar dram tamaşalarını andırır ki, burada aktyorlar əlverişli təəssürat yaratmağa və onu saxlamağa çalışırlar |
| Psixo-analitik nəzəriyyə | Z.Freyd | Şəxslərarası qarşılıqlı təsirə erkən uşaqlıqda mənimsənilmiş anlayışlar və bu mərhələdə yaşanılmış münaqişələr dərin təsir göstərir |

Mənbə: *Борцов Ю.С.* Социология. Ростов н/Д., 2002. С. 161.

C.Xomansın *mübadilə nəzəriyyəsi* qarşılıqlı təsirin mahiyyətinin başa düşülməsinə böyük təsir göstərmişdir. C.Xomans iki şəxsiyyətin qarşılıqlı təsirini qarşılıqlı sanksiyalaşdırma kimi nəzərdən keçirir, nə vaxt ki, biri başqasının hərəkətlərini mükafatlandırır və yaxud bu hərəkətlərə görə cəzalandırır. Qarşılıqlı təsirin əsas prinsipləri aşağıdakından ibarətdir: sosial hərəkətə görə mükafatlandırma nə qədər tez-tez baş verərsə, onu həyata keçirmək səyi bir o qədər güclü olar; mükafatlandırma nə qədər əhəmiyyətlidirsə, insan bir o qədər onu müvəffəqiyyətə gətirib çıxarmış şəraitə daha çox səy göstərəcəkdir; tələbatların təmin olunması dərəcəsi nə qədər realdırsa, fərd tələbatların ödənilməsi üçün bir o qədər artıq səy göstərəcəkdir; insan demək olar ki, tələbatları tam ödənildikdə onların ödənilməsi xatirinə az səy göstərir.

*Simvolik interaksionizm nəzəriyyəsi* bundan çıxış edir ki, qarşılıqlı təsir kommunikasiyaya əsaslanır. Qarşılıqlı təsir prosesində məhz şüurlu kommunikasiya fərdlərin sözlərinə, jestlərinə, davranışlarına məna verir. Bu cür qarşılıqlı təsirdə ən mühüm cəhət – tərəfdaşların nəinki davranışlarının, eyni zamanda da niyyətlərinin başa düşülməsidir. C. Midin fikrinə görə bunun üçün özünü bir başqasının yerinə qoymalısan, yəni "başqasının rolunu qəbul etməlisən". C. Mid də xarici ünsiyyəti (fərdlərin qarşılıqlı təsiri) və daxili ünsiyyəti (vahid Mən-nin hissələri arasındakı ünsiyyət) fərqləndirir.

T. Parsons qarşılıqlı təsiri *sistem yanaşması* mövqelərindən nəzərdən keçirmişdir. O göstərirdi ki, fərdlərin hərəkətləri "əlahiddə və diskret olmur, onlar sistemlər halında təşkil olunmuşlar".

Sosial qarşılıqlı təsirlərin tədqiqində Parsons "qarşılıqlı gözləmələr sistemlərini fərqləndirirdi. Həmin "qarşılıqlı gözləmələr"in məğzi bundan ibarətdir ki, qarşılıqlı təsir vaxtı tərəfdaşlar digər tərəfdaşların müəyyən gözləməsinə istiqamət götürürlər ki, bunun da nəticəsində qarşılıqlı təsirdə iştirak edən tərəfdaşların "tələbat dispozisiyalarının" bu və ya digər strukturu təşəkkül tapır. İştirakçılar nə qədər çoxsaylı olarlarsa, onların qarşılıqlı təsirlərində də bir o qədər çox qeyri-müəyyənliklər olar. Ən tipik yeddi qeyri-müəyyənlik bunlardır: kommunikativ çətinliklər, zaman nizamlılığı çətinlikləri, mənanın başa düşülməsində fərqdəki çətinliklər, iqtisadi çətinliklər, siyasi problemlər, normativ qayda problemləri, motivasiya xarakterli problemlər.

Parsons xüsusi qeyd edirdi ki, demokratik dövlətdə hərəkət sistemi bu qeyri-müəyyənlikləri azaltmağa qadirdir, lakin onları tam şəkildə aradan qaldırmaq prinsipcə mümkün deyildir.



E.Hoffman özünün *təəssüratların idarə edilməsi* nəzəriyyəsində bütün qarşılıqlı təsirləri fokuslanmamış və fokuslanmış qarşılıqlı təsirlərə ayırmışdır. Fokuslanmamış qarşılıqlı təsirlər o zaman meydana gəlir ki, insanlar bir-birilərini gördüklərini anladırlar (canlı hərəkət olan küçədə, rəqs meydançasında və s.); fokuslanmış qarşılıqlı təsirlər zamanı isə fərdlər buna diqqət yetirirlər ki, onlardan hər biri nə deyir və nə iş görür (adi boşboğazlıq, dissertasiya müdafiəsi və s.). Qarşılıqlı təsir zamanı müxtəlif vəziyyətlər və situasiyalar insanlar arasındakı kommunikasiyaların məzmununa, xarakterinə, formasına təsir göstərir.

Z.Freyd ehtimal edirdi ki, hər bir fərd başqa bir fərdə ona ləzzət almağa imkan verən (və yaxud imkan verməyən) obyekt kimi baxır. İnsana əxlaq mədəniyyət (cəmiyyət) tərəfindən qəbul etdirilir, o, insanın təbii meyllərini əzir, onun şəxsiyyətini sıxıntıya salır ki, bu da daxili psixiki münaqişələrin və pozuntuların səbəbidir. Bu məhdudiyyətləri aradan qaldırmaq və yaxud meylləri başqa sahələrə doğru sıxışdırmaq (sublimasiya etmək) lazımdır.[1]

Şəxsiyyətlərarası qarşılıqlı təsirlər fiziki (əlvermə və s.), verbal (şifahi), qeyri-verbal (jestlər, mimika, bədən hərəkətləri) şəklində özünü göstərə bilər. Bu, cəmiyyətin fərdin ünsiyyətə daxil olduğu sahəsində (iqtisadi, siyasi, dini və s. sahələrində) onun rolları və statusları sistemindən asılıdır. Qarşılıqlı təsir həmçinin birbaşa və vasitəli ola bilər.

Qarşılıqlı təsirin öz iştirakçılarının məqsədlərə çatmaq üsullarını ifadə edən üç əsas formasını fərqləndirirlər: kooperasiya, rəqabət və münaqişə. Kooperasiya – fərdlərin və yaxud qrupların ümumi vəzifənin həllində əməkdaşlığıdır, rəqabət – məqsədə çatmaq uğrunda mübarizədir, münaqişə – qarşılıqlı təsirdə olan subyektlərin toqquşmalarıdır.

Qarşılıqlı təsirlərin bütün məcmusundan s o s i a l m ü n a s i b ə t l ə r i – fərdlər tərəfindən təkrar olunan əlaqələr kimi dərk olunan, onların hissi olaraq qavradıqları davamlı sosial əlaqələri xüsusi olaraq fərqləndirirlər. Digər qarşılıqlı təsirlərdən fərqli olaraq sosial münasibətlər mənasına və məzmuna görə bir-birindən aydın şəkildə fərqlənirlər.

Fərdlərarası qarşılıqlı təsir qarşılıqlı təsirdə olan fərdlərin hərəkətlərinin qavranılmasını, gözlənilməsini, yerinə yetirilməsini və s. onların qiymətləndirilməsini, müvafiq davranışlar şəklində cavab reaksiyalarını özündə birləşdirir. Bu cür qarşılıqlı təsirin aşağıdakı

[1] Bax: *Фрейд З.* Психология бессознательного. М., 1989.

komponentlərini fərqləndirmək olar: qavrama, gözləmə, sözlərlə və hisslərlə mübadilə, bir-birinə qarşılıqlı qiymətvermə, cavab reaksiyası, rolun qəbulu, rolun, hərəkətin yerinə yetirilməsi.

Qeyd olunduğu kimi, sosial qarşılıqlı təsir – mürəkkəb, çoxtərəfli prosesdir ki, o da fərdlərarası hərəkətlərə müncər edilməyib, özündə həmçinin qrupdaxili, qruplararası, sistemdaxili və sistemlərarası qarşılıqlı təsirləri birləşdirir (bax: bu fəslin 1.1).

Qrupdaxili qarşılıqlı təsir – istər fərdlərarası qarşılıqlı təsirlərin və istərsə də qarşılıqlı təsirlərin status-mövqe, dəyərlilik – normativ və digər növlərinin elementlərindən ibarət mürəkkəb strukturdur.

Öz növbəsində qruplararası qarşılıqlı təsir fərdlərarası və qrupdaxili qarşılıqlı təsirin müxtəlif sosial qruplar üçün səciyyəvi olan kömək və əks təsir göstərilməsilə güclənən proseslərini özündə birləşdirir. Bu – kooperasiya, assimilyasiya, uyğunlaşma, neytrallıq, rəqabət, münaqişə, yatırılmadır.

Yuxarıda sadalanmış bütün qarşılıqlı təsirlər sistemdaxili qarşılıqlı təsirlərin məcmusunu təşkil edirlər. Bu qarşılıqlı təsirlərə sosial sistem səviyyəsində qarşılıqlı təsirin sistem üçün spesifik növləri olan inteqrasiya, diferensiasiya, dezorqanizasiya, xaotikləşmə və nizamlanmanı əlavə edirlər.

## 1.6. Münaqişə və razılıq

Cəmiyyət üçün iki əsas mövcudluq üsulu səciyyəvidir: razılaşma və münaqişə. Cəmiyyətin statik vəziyyətində bunlar tarazlıq nisbətində olurlar. Cəmiyyətin sosial münasibətlərin və qarşılıqlı təsirlərin balansının pozulması ilə, qeyri-tarazlığı ilə səciyyələnən dinamik vəziyyətində isə bunlardan biri öncül inkişaf tapır. Razılığın və münaqişənin qütbləşməsi - sosial münasibətlərdə və qarşılıqlı təsirlərdə daimi deyil, müvəqqəti hadisədir. Razılıq və münaqişənin qütblüyünün aydın ifadə olunmadığı situasiyada s o s i a l q a y d a, n i z a m hökm sürür. Real sosial qarşılıqlı təsirlər razılığın və yaxud qaydanın münaqişə ilə və yaxud xaosla qarşılıqlı dialektik əlaqəsi ilə səciyyələnir.

Sosial münaqişələr obyektiv olaraq istənilən sosial strukturda labüddür, belə ki, bu münaqişələr ictimai inkişafın zəruri şərtidir. Cəmiyyətin bütün fəaliyyət və inkişaf prosesi münaqişələrdən və konsensuslardan, razılaşma və qarşıdurmadan, müharibə və sülhdən ibarətdir.



Siniflərə, sosial təbəqələrə, qruplara sərt diferensiasiya olunmuş cəmiyyətin sosial strukturu münaqişələri nəzərdə tutur və onların mənbəyini təşkil edir. Mürəkkəb sosial strukturu olan azad cəmiyyətdə həmişə daha çox bir-biri ilə uyğun gəlməyən, bəzən də bir-birini qarşılıqlı surətdə istisna edən dəyərlər, maraqlar, məqsədlər, müvafiq olaraq potensial münaqişələr üçün daha çox mənbələr mövcud olur. Lakin belə cəmiyyətdə münaqişələrin uğurla həll edilməsi üçün mexanizmlər işlənib hazırlanmışdır, razılığın, həmrəyliyin formalaşması üçün şərtlər və amillər aydınlaşdırılmışdır. İstənilən sosial birliyin problemi bundan ibarətdir ki, bir tərəfdən, münaqişənin mənfi nəticələrinə yol verməmək (bunları maksimum dərəcədə azaltmaq), ortaya çıxan problemlərin müsbət həlli üçün ondan istifadə etmək, digər tərəfdən isə, razılığa nail olmaq üçün şərait yaratmaqdan ibarətdir.

Cəmiyyət bir-biri ilə qarşılıqlı təsirdə olan sosial subyektlərin çoxsəviyyəli inteqrativ məcmusu olaraq razılıq və münaqişənin təzahürünün müxtəlif dərəcəsi ilə, bu halların və proseslərin culğaşması ilə səciyyələnir.

Razılıq və münaqişənin təhlilinə yanaşmalarda əsas dünyagörüşü məsələsini, fəlsəfi məsələni həll etmək prinsipial cəhətdən əhəmiyyətlidir: planetdə insanın salamat qalması üçün ilkin nədir və həlledici rolu nə oynayır? Cəmiyyət bunun sayəsində mövcuddur ki, onun vəziyyətinin dominant xüsusiyyəti sosial subyektlər arasında razılıq və əməkdaşlıqdır. Əlbəttə, münaqişə cəmiyyətin sosial inkişafa impuls verən normal vəziyyətidir, durumudur, lakin sosial həyatı bu prosesdə onun həlledici rol oynaması faktından çıxış edərək qurmaq olmaz.

Razılıq cəmiyyətin sabitliyini, davamlılığını, münaqişə isə dəyişikliklərin zəruriliyini şərtləndirir. Razılıqda insan yaradır, münaqişədə isə məhv edir. Bununla əlaqədar olaraq cəmiyyətdə razılıq və qayda-nizama nail olmağın, münaqişələrin, xaosun qarşısının alınmasının və həllinin mahiyyətinin, ilkin mənbələrinin və mexanizmlərinin predmet tədqiqinin zəruriliyi aktuallaşdırılır.

Razılıq və münaqişə sosiologiya üçün ənənəvi nəzəriyyədir. Sosioloji konsepsiyalarda və paradiqmalarda cəmiyyət razılıq, həmrəylik, qayda və münaqişə, mübarizə, sosial gərginlik, həmçinin bu durumların sintezi mövqeyindən nəzərdən keçirilir.

Sosiologiya tarixində hər iki istiqamət: konsensoloji və konfliktoloji istiqamət inkişaf etmişdir. Konsensuoloji ənənə gedib O. Kontun və E. Dürkheymin baxışlarına çıxır və onun inkişafına

T. Parsonsun, M. Kovalevskinin, P. Sorokinin, M. Veberin, Q. Tardın və b. əsərləri müsbət təsir göstərmişdir. Konfliktoloji istiqaməti hər şeydən əvvəl K. Marks, Q. Zimmel, R. Darendorf, L. Kozer, Y. Delevski inkişaf etdirmişlər.

Sosioloji elmdə münaqişə və razılıq anlayışlarına çoxlu sayda təriflər verilmişdir. Ən yayılmış yanaşma münaqişəyə ziddiyyət vasitəsilə tərif verilməsində, razılığa tərifin isə vəhdət vasitəsilə verilməsində ifadə olunur. Cəmiyyət eyni vaxtda daxilən vahid və ziddiyyətli sistem kimi çıxış edir. Vəhdət və ziddiyyətlər cəmiyyətin özünün təbiəti ilə şərtlənirlər, onun atributlarıdırlar. Birlik – razılığın, ziddiyyətlər isə münaqişənin əsasıdır.

Məsələn, Y.M. Babosov sosial münaqişəyə (*lat.* conflictus sözündən olub, toqquşma deməkdir) sosial ziddiyyətlərin kəskinləşməsinin son həddi kimi tərif verir ki, bu hədd də fərdlər və müxtəlif sosial birliklər arasında mübarizənin çox rəngarəng formalarında ifadə olunur və iqtisadi, sosial, siyasi, mənəvi məqsədlərə çatılmasına, gerçək və yaxud xəyali rəqibin neytrallaşmasına yönəldilmiş olur və ona maraqlarının reallaşdırılmasına imkan vermir (bax: Babosov, 2001).

A.V. Dmitriyev qeyd edir ki, sosial münaqişə qarşıdurmanın elə bir növüdür ki, burada tərəflər ərazini və yaxud resursları zəbt etməyə çalışırlar, müxalif qüvvələr və yaxud qruplar üçün, onların mülkiyyəti və mədəniyyəti üçün təhlükə yaradırlar; beləliklə də mübarizə hücum və yaxud müdafiə formasını kəsb edir. Bütövlükdə münaqişə həmişə tərəflərin, əqidələrin, dəyərlərin, maraqların, məqsədlərin və qüvvələrin qarşıdurması, toqquşmasıdır (bax: Dmitriyev, 2001).

Sosiologiyada sosial razılığa vəhdətdə olan, oxşar, bir-biri ilə üst-üstə düşən dəyərlərə, tələbatlara, maraqlara və məqsədlərə malik olan sosial subyektlər arasında qarşılıqlı təsirin halı, prosesi və əlaməti kimi tərif verilir. Belə olduqda sosial sistem həmrəylik, mütəşəkkillik, inteqrativlik, nizamlılıq, sabitlik, davamlı və bütövlük əldə edir.

Münaqişə və razılıq müəyyən zaman müddətinə, müəyyən vaxt çərçivəsinə malikdir. Əbədi razılıq və yaxud əbədi münaqişə mövcud olmur. Razılıq münaqişəyə keçir, münaqişə həll olunur və razılıq, barışıqlıq mərhələsi başlanır. Razılıq və münaqişə uzunmüddətli (əsasında dəyərlilik təsəvvürləri və əqidələri duran prinsipial razılıq və yaxuä prinsipial münaqişə), ortamüddətli (məqsədli razılıq və yaxud məqsədli münaqişə) və qısamüddətli (əsasında situasiyadan asılı olaraq tələbatlar, maraqlar, emosiyalar duran) ola bilərlər.



Razılıq və münaqişə zaman müddətinə, məkan sərhədlərinə malik olub, müəyyən hallarda şəxsiyyətlərarası münasibətləri, digər hallarda isə çox geniş məkan çərçivəsində birləşmiş böyük insan qruplarını əhatə edir.

Münaqişə və razılıq eynivaxtlı hadisələr deyil, statistik və dinamik aspektlərə malik olan çox mürəkkəb sosial proseslərdir.

Münaqişə öz inkişafında aşağıdakı mərhələlərdən keçir.

1. Latent mərhələsi: obyektiv problem situasiyasının yaranması, obyektiv problem situasiyasının dərk edilməsi; tərəflərin obyektiv problem situasiyasını münaqişədənkənar üsullarla həll etmək cəhdləri, münaqişə situasiyasının yetişməsi.
2. Münaqişənin başlanması: tərəflərin qarşıdurmasının ilk aktları, halları.
3. Açıq mərhələ: münaqişə insidenti, münaqişənin eskalasiyası, balanslaşdırılmış qarşılıqlı təsir, münaqişənin başa çatması.
4. Münaqişədən sonrakı dövr: opponentlərin münasibətlərinin qismən və yaxud tam normallaşdırılması.
5. Münaqişənin qurtarmasının müxtəlif formaları və nəticələri olur, lakin bir-birinə qarşı yönəldilmiş hərəkətlər dayandırılır.

Analoji, oxşar mərhələlər razılığa da xasdır. Bununla belə razılığın digər mərhələlərinin təsnifatını təklif etmək olar:

1. Başlanğıc mərhələsi: cəmiyyətdə razılıq və münaqişənin müəyyən nisbətilə, mütəşəkkilliyin, həmrəyliyin və gərginliyin dərəcəsilə, tələbatların və maraqların reallaşdırılmasının səviyyəsilə səciyyələnir.
2. Təşəbbüskarlıq mərhələsi: istər qarşılıqlı təsirdə olan bir-birinə əks qrupların daxilində, istərsə də onların arasında konsensual prosesin *inkişafı*.
3. Razılaşmalar mərhələsi: sosial subyektlərin məqsədlərinin, maraqlarının razılaşdırılmasını, uyğunlaşdırılmasını nəzərdə tutur; razılaşdırılmış məqsədlərin və maraqların əldə edilməsinə yönəldilmiş hərəkətlərin strategiyası işlənib hazırlanır.
4. Razılaşdırılmış hərəkətlər və qarşılıqlı təsirlər mərhələsi: qarşılıqlı təsirdə olan tərəflər arasında razılıq müqavilələr, sazişlər, qətnamələr formasında təsbit olunur ki, bunlar da fəaliyyət üçün rəhbərliyə çevrilir.
5. Münaqişə mərhələsi: qarşılıqlı təsirdə olan subyektlərin ziddiyyətli dəyərləri mənayaradıcı xarakter alır.
6. Münaqişədən çıxmaq və yeni razılaşmanın formalaşmasının

başlanması mərhələsi: qarşılıqlı təsirin vəhdət təşkil edən iştirakçıları münaqişənin dağıdıcı gücünü tədricən dərk edirlər ki, bu da razılaşmanın yeni əsaslarının axtarışı üçün əsasa çevrilir.

7. Sosial razılaşmanın intensivlik dərəcəsi: yüksək, orta, aşağı.

8. Sosial razılaşmanın yayılma əhatəsi: məkan hüdudları ilə məhdudlaşa bilər, lakin çox geniş məkanda yaşayan və yaxud fəaliyyət göstərən əhalinin böyük bir hissəsini əhatə edə bilər.

Münaqişə və razılıq özünün strukturu və funksiyaları olan sistemlərdir. Sosial münaqişənin strukturunu ziddiyyətlər, subyektlər, qarşılıqlı təsir əmələ gətirir, sosial razılığın strukturunu – vəhdət, subyektlər, qarşılıqlı təsir təşkil edir.

Gündəlik həyatda münaqişələrə mənfi münasibət mütləq şəkildə üstünlük təşkil edir. Bütövlükdə belə münasibət haqq qazandırılandır, özünü doğruldur, çünki münaqişə insadan həqiqətən çox böyük emosional, mənəvi, çox vaxt isə iqtisadi və siyasi səylər tələb edir. Lakin münaqişə ağır, əzablı razılaşmanı həll edə, həyata yeni təkanlar verə bilər.

Amerikan konfliktologiyasında aşağıdakı ssenari ("uduş-uduzma") məşhurdur:

- münaqişədə udmuş və uduzmuş (qalib və məğlub) mövcud olmalıdır;
- mən uduzmamalıyam;
- deməli, sən uduzmalısan;
- lakin uduzmuş olanlar pislik törədə və təhlükə yarada bilərlər.

Deməli, əgər sən özünün uduzmağından narazılıq bildirirsənsə, deməli, sən bəlasan.

Bu ssenari münaqişəyə nəinki düzgün yanaşmağı öyrədir, eyni zamanda münaqişədə razılığa nail olmaq bacarığını aşılayır. Münaqişə və razılıq dialektik münasibətdədirlər, yəni bunlardan biri müəyyən şəraitdə digərinə keçir.

Münaqişə və razılıq istiqamətinə və nəticələrinə görə bir-birindən fərqlənən sosial əhəmiyyətli funksiyaları yerinə yetirirlər (cədvəl 4, 5).



Cədvəl 4

**Münaqişə və razılığın müsbət funksiyaları**

| Müsbət funksiyalar | |
|---|---|
| münaqişənin | razılığın |
| Münaqişə tərəfləri arasında gərginliyin azaldılması | İnteqrativ funksiya |
| Opponent haqqında yeni informasiya əldə edilməsi | Adaptasiya funksiyası |
| Xarici düşmənlə qarşıdurma vaxtında kollektivin, təşkilatın birləşdirilməsi | İnformasiya-kommunikasiya funksiyası |
| Dəyişikliklər və inkişaf stimulu | Diaqnostik, proqnozlaşdırma funksiyası |
| Tabelikdə olanlarda mütilik, itaət sindromunun aradan qaldırılması | İnnovasiya (normayaradıcı) funksiyası |
| Opponentlərin imkanlarının diaqnostikası | Qarşılıqlı təsirdə olan subyektlərin imkanlarının diaqnostikası |
| Qrupun fəaliyyətində həll edilməmiş problemlərin işıqlandırılması | Sabitləşdirici funksiya – kollektivdə əxlaqi-psixoloji iqlimi yaxşılaşdırır |
| İctimai şüurun qabaqcadan öyrənilməsi, yeni, daha əlverişli şəraitin yaradılmasına kömək | Davamlı ictimai şüurun, rəyin formalaşması |
| Şəxsiyyətlərarası münasibətlərin optimallaşdırılması | Şəxsiyyətlərarası münasibətlərin nəcibləşdirilməsi |

Bütövlükdə münaqişələrin müsbət rolu bundan ibarətdir ki, qarşılıqlı münasibətlərin və qarşılıqlı təsirlərin qəbul olunmuş əsasları ilə ziddiyyət təşkil etmədikdə onlar cəmiyyətin inkişafına müsbət təsir göstərirlər.

Razılığın müsbət rolu bundan ibarətdir ki, onun sayəsində cəmiyyət vahid, davamlı və sabit inkişaf edən tama çevrilir, sosial qarşılıqlı təsirlərin nizamlanması qeyri-məcburi yolla əldə edilir. Mütəşəkkilliyin

səviyyəsi yüksəlir, insanlar daha adekvat şəkildə situasiyaya, dəyişilmiş, o cümlədən böhranlı şəraitə uyğunlaşırlar.

Razılığın yüksək səviyyəsinə malik olan cəmiyyətdə insanların dəyərləri və məqsədləri bütöv bir tam olaraq cəmiyyətin dəyərlərinə, maraqlarına, məqsədlərinə uyğun gəlir. Yeni sosial normalar mövcud ərazidə yaşayan xalqların sosial-mədəni dəyərlərini daha tam əks etdirirlər.

Cədvəl 5

**Münaqişənin və razılığın mənfi funksiyaları**

| Mənfi funksiyaları | |
|---|---|
| münaqişənin | razılığın |
| Münaqişələrdə iştirak üçün böyük emosional, maddi xərclər. Münaqişələr psixoloji və fiziki zorakılıqla müşayiət oluna bilərlər | Konformist funksiya: adamlar bir-birinə "bənzədilirlər" fərdiyyətin əhəmiyyəti aşağı düşür, insanın yaradıcılığa və azadlığa səyi zəifləyir |
| Əməkdaşların işdən azad edilmələri, intizamın aşağı düşməsi, kollektivdə sosial-psixoloji iqlimin pisləşməsi | Staqnasiya funksiyası: problemlər kifayət qədər dərk olunmur və tədricən çoxalırlar |
| Məğlub olmuş qrupların düşmənlər kimi təsəvvür edilməsi | |
| İşin ziyanına olaraq münaqişə qarşılıqlı təsiri prosesinə həddindən artıq aludə olunması | |
| Münaqişənin başa çatdıqdan sonra əməkdaşların bir hissəsi arasında daha az fəal əməkdaşlıq | |
| İşgüzar münasibətlərin mürəkkəb şəkildə yenidən bərpa edilməsi ("münaqişənin şleyfi") | |

Cədvəldə gətirilmiş funksiyalar göstərir ki, nə razılıq, nə də münaqişə yalnız müsbət və ya mənfi hadisə kimi qiymətləndirilə bilməz. Lakin qeyd etmək lazımdır ki, razılığın müsbət rolu münaqişəyə nisbətən daha yüksəkdir.

Razılıq və münaqişə təbii olaraq cəmiyyətdə təşəkkül tapmaqda



olan münasibətlərə və qarşılıqlı təsirlərə uyğun olaraq meydana gəlir və inkişaf edirlər. Razılığın və yaxud münaqişənin əsas səbəbi ictimai əmək bölgüsüdür. Lakin onları məqsədyönlü şəkildə törətmək və stimullaşdırmaq olar.

Münaqişələr və razılıq son dərəcə rəngarəngdir. K. Bouldinq birinci olaraq münaqişənin ümumi modelini yaratmağa və formalaşdırılmış aparatın köməyilə həmin modeli elə şəkildə nəzərə almağa cəhd göstərmişdir ki, ondan hər bir ayrıca hal üçün istifadə etmək mümkün olsun. Bouldinqin münaqişəyə verdiyi tipologiya hərəkətverici qüvvələr *prinsipinə əsaslanmışdır*. Bu tipologiya fərdlər arasında münaqişələri, məkanca bir-birindən ayrı olan qruplar arasındakı sərhəd münaqişələrini, məkanca bir-birilə kəsişən qruplar arasındakı ekoloji münaqişələri, homogen təşkilatlar (dövlətlər) arasındakı heterogen təşkilatlar arasındakı (məsələn, dövlətlə kilsə arasında) münaqişələri, fərdlə qrup arasındakı (ailə, həmyaşlılar qrupu) münaqişələri, qrupla təşkilat arasındakı münaqişələri özündə birləşdirir.

Bouldinq bütün digər münaqişələr üzərində dominantlıq edən beynəlxalq münaqişəni, münaqişələrin ən yüksək forması hesab edir.

Bouldinqin təklif etdiyi tipologiyanın predmetcə nəzərdən keçirilməsi bunu qeyd etməyə imkan verir ki, münaqişənin bütün subyektləri razılığa da birbaşa və bilavasitə münasibət bəsləyirlər. Axı sosial praktikada fərdlər arasında nəinki münaqişələr, eyni zamanda razılıq mövcuddur, nəinki ekoloji münaqişələr, eyni zamanda ekoloji razılıq , və s. mövcuddur. Beynəlxalq razılıq istər dominant, istərsə də prioritet kimi nəzərdən keçirilə bilər.

Bouldinq başqa təsnifatını da verərək, onları aşağıdakı tiplərə ayırır: gerçək münaqişələr (obyektiv, zəruri münaqişələr), təsadüfi münaqişələr (labüd olmayan münaqişələr, onlar ikincidərəcəli məqamlardan asılıdır), əvəzedici münaqişələr (gizli münaqişələr, həqiqi münaqişələrin mahiyyətini pərdələyən hadisə-münaqişələr), pis məlumata əsaslanan, səriştəsiz rəhbərliyin nəticəsi olan latent, gizli münaqişələr (subyektivləşdirilmiş münaqişələr, bunlar açıq mübarizə ilə nəticələnir), saxta münaqişələr (obyektiv əsaslara malik deyildir).

Q.İ. Kozerev münaqişələrin təsnifatlaşdırılması üçün bir neçə digər əsaslardan istifadə edir. O, aşağıdakıları fərqləndirir:

- təşkilati-texnoloji münaqişələr – bu münaqişələr əsas etibarı ilə rol, funksional, professional mövqelərin əksliyindən doğan mövqe münaqişələridir. Məsələn, əgər ayrı-ayrı işçilərə və yaxud bütöv

bölmələrə həvalə edilmiş vəzifələr, funksiyalar və məsuliyyət müvafiq vasitələr, hüquqlar və hakimiyyət səlahiyyətləri ilə təmin olunmursa, münaqişə iş yerlərinin balanslaşdırılmamasından meydana gəlir. Mühüm səbəblərdən biri əməyin və idarəetmənin təşkilinin aşağı səviyyədə olmasıdır ki, bu da istər obyektiv, istərsə də subyektiv əsaslara malik ola bilər;

- təşkilatın sosial-iqtisadi sistemində münaqişə – təşkilatın bölmələri və əmək kollektivinin ayrı-ayrı üzvləri arasında resursların və maliyyə vasitələrinin bölgüsü ilə bağlıdır;
- inzibati-idarəetmə sistemindəki münaqişələr. İdarəetmənin iki əsas tipi mövcuddur: avtoritar və demokratik idarəetmə tipləri. Avtoritar idarəetmə tipi bütün istehsal münasibətlərinin sərt formallaşdırılmasını nəzərdə tutur, demokratik idarəetmə tipi isə "yerlərdə" özünütəşkil və özünütənzimləmə üçün geniş meydan açır. Münaqişələr hər iki halda mövcuddur, lakin burada münaqişələr bir-birindən kəskin şəkildə fərqlənirlər;
- qeyri-formal təşkilatın fəaliyyəti ilə bağlı olan münaqişələr;
- təşkilatda münasibətlərin sosial-psixoloji sisteminin (qeyri-formal münasibətlərin) fəaliyyəti ilə bağlı olan münaqişələr – xaricdən tənzimlənən və əmək fəaliyyəti ilə əlaqədar formalaşırlar, lakin xidməti ünsiyyətlərin əsasında meydana gəlirlər.

Münaqişələrin tipologiyaları kifayət qədər çoxdur. Onların hamısını sadalamağa elə də zərurət yoxdur. Yalnız bunu qeyd edək ki, birincisi, təsnifatın meyarları ümumilik dərəcəsinə uyğun olmalıdır, ikincisi, münaqişələrin təsnifatı razılığın təsnifatına oxşar olmalıdır.

Razılıq iki tipə ayrılır: dəyərlilik razılığı və funksional-məqsədli razılıq.

D ə y ə r l i l i k  r a z ı l ı ğ ı – vəhdət təşkil edən, bir-birinə yaxın, bir-birinə uyğun gələn, üst-üstə düşən əxlaqi və hüquqi dəyərləri əsas tutan sosial subyektlər arasında durumun və qarşılıqlı təsirin xarakteristikasıdır. Dəyərlilik razılığı əxlaqi və hüquqi razılığa ayrılır. Əxlaqi dəyərlilik razılığı insanın onun nəsli mahiyyətinin saxlanılmasına və inkişafına yönəldilmiş dünyagörüşü prioritetlərindən ibarətdir. Hüquqi dəyərlilik razılığı – hüquqi dəyərlərin təsirinin nəticəsidir. Hüquqi dəyərlər lap əvvəldən əmək, peşə kollektivlərinin, sosial təşkilatların, qrupların, birliklərin fəaliyyətinin və inkişafının optimallaşdırılması üçün formalaşırlar. Hüquqi dəyərlər insanın öz sosial mahiyyətinin inkişafına yönəldilmiş dünyagörüşü prioritetlərini ifadə edirlər.



F u n k s i o n a l - m ə q s ə d l i  r a z ı l ı q – vəhdətdə olan, ümumi tələbatlara, maraq və məqsədlərə malik, həmçinin onlara nail olunmasının hüquqi normalarda təsbit olunmuş üsulları haqqında təsəvvürləri olan sosial subyektlər arasında qarşılıqlı əlaqələri səciyyələndirir. Razılığın bu tipi həmişə müəyyən məqsədlər güdən sosial subyektlərin razılığını, həmrəyliyini nəzərdə tutur. Bu razılıq o zaman meydana gəlir ki, nə vaxt sosial subyektlər arasındakı asılılıq dərk edilir, onların məqsədləri məntiqidir və bir-biri ilə ziddiyyət təşkil etmir, məqsədlərə nail olmaq üsullarını qarşı tərəf dəyərli münasib üsullar kimi dərk edir. Cəmiyyət inkişaf etdikcə funksional-məqsədli razılığın aşağıdakı əsas növləri təşəkkül tapır:

1) struktur-funksional razılıq – birgə əmək fəaliyyəti prosesində funksiyalar kimi təsbit olunan vəzifələrin təbii bölgüsü baş verir, struktur formalaşır. Sosial həyat inkişaf etdikcə struktur və funksiyalar mürəkkəbləşir. Bu, strukturun və funksiyaların razılaşdırılmasına, müəyyən sosial mədəniyyətin formalaşmasına gətirib çıxarır;

2) funksional-rol razılığı – standart, tipik sosial hərəkətlər sosial funksiyalarda təsbit olunur. Funksiya sosial rol vasitəsilə, yəni cəmiyyət tərəfindən müəyyən sosial mövqelər tutan şəxslərə edilən tələblərin məcmusu vasitəsilə reallaşdırılır. Rola edilən tələblər funksiya ilə uyğunlaşdırılır;

3) funksional-müqavilə razılığı – funksional-məqsədli razılığın bu növünün başlıca fərqləndirici cəhəti ondan ibarətdir ki, bu razılıq məqsədə doğru aparan konkret vəzifələrin həlli üçün süni olaraq formalaşdırılır, kontraktlarda, müqavilələrdə, sazişlərdə, paktlarda təsbit olunur.

Razılaşdırılmış qarşılıqlı təsirin s u b y e k t l ə r i n ə uyğun olaraq razılığın aşağıdakı növləri fərqləndirilir:

- şəxsiyyət səviyyəsində razılıq – bu, insanın özünün özü ilə razılığıdır, xadim kimi insan səviyyəsində şəxsiyyətin daxili ziddiyyətsizliyidir ki, o da sosial-psixoloji tarazlıqda, müvazinətdə, əxlaqi sabitlikdə, dəyanətdə, söz və işin vəhdətində, məsuliyyətdə və azadlıqda təzahür edir;
- şəxslərarası razılıq – insanlar arasında formal və qeyri-formal münasibətlər prosesində təşəkkül tapır. İnsanlar arasında münasibətləri ahəngdarlaşdıran əsas amillərə aiddir: məhəbbət, inam, ümid, qarşılıqlı hörmət və bağlılıq, psixoloji uyğunluq, rəğbət, simpatiya, həssaslıq,

başqasının dərdinə şərik olma, xeyirxahlıq, ədalətlilik, tolerantlıq və kompromisə səy göstərilməsi. Şəxslərarası razılıq dəyərlərin, maraqların, məqsədlərin, baxışların və əqidələrin vəhdətinə əsaslanır;

- qrup razılığı – insan cəmiyyətlə sosial təşkilatlara və qruplara qoşulması vasitəsilə bağlıdır. Sosial qruplar səviyyəsində sosial razılığın formalaşması münasibətlərin və qarşılıqlı təsirlərin qrupdaxili tənzimlənməsi mexanizmlərinin sayəsində və yaxud qruplarda şəxslərarası razılığın saxlanılması və inkişafından, bütövlükdə qrupun özünün razılığından təşəkkül taparaq digər sosial subyektlərin hərəkətləri sayəsində həyata keçirilir. İlkin qruplarda bu razılıq ümumi dəyərlər, əxlaqi mövqelər və qayələr, hisslər, tələbatlar, maraqlar üzərində qurulan sıx şəxsi münasibətlərin əsasında, həmçinin hüququn köməyilə əldə edilir. Razılığın formalaşması prosesinə xarici təsirlər burada başlıca olaraq dolayısı ilə əhəmiyyətə malikdir.

Təkrar, sonrakı qruplarda sosial razılığın formalaşması onların cəmiyyətdəki strukturundan və funksiyalarından asılıdır. Qrupda razılığın dərəcəsini ölçü, tərkib, qrup normaları, mütəşəkkillik, münaqişəlilik, qrup üzvlərinin statusu və rolu kimi amillər müəyyən edir;

- qruplararası razılıq – ümumi məqsədləri, oxşar həyat mövqeləri və qayələri olan rəhbərlərin qarşılıqlı təsiri vasitəsilə əldə edilir. Qruplar arasında münasibətlərin nizamlılığı funksiya və rolların bölgüsü ilə, qanunlarda təsbit olunmuş münasibətlərin dəqiq reqlamentləşdirilməsi və formallaşdırılması ilə təmin olunur. Böyük qruplar – millətlər, siniflər, sosial-demoqrafik, sosial-professional və b. qruplar arasında razılıq sosial – sosial-mədəni əsaslandırılmaya malikdir və dəyərlərin, maraqların, məqsədlərin, hərəkətlərin vəhdətində, ümumiliyində, bir-birinə uyğun gəlməsində təzahür edir;

- təşkilati razılıq – bir qayda olaraq təşkilati mədəniyyətin inkişaf etmiş olduğu və cəmiyyətdə hökmran olan dəyərlərə uyğun gəldiyi sosial təşkilatlarda (təşkilat dedikdə məqsədli ümumiliyi – birliyi başa düşürük) müşahidə olunur. Təşkilatın məqsədinə uyğun gələn və təşkilati mədəniyyətə zidd olmayan normalar və qaydalar təşkilati razılığın amilləri kimi çıxış edirlər. Funksional-təşkilati razılıq təşkilati mədəniyyətin fəaliyyət və qarşılıqlı təsir məntiqinin nə qədər adekvat müəyyənləşdirilməsindən, təşkilatın idarə edilməsinin müxtəlif sferalarının inteqrasiyasının nə dərəcədə təmin edilməsindən, struktur bölmələrinin ölçüləri, onların hüquqları və vəzifələrinin, digər bölmələrlə informasiya əlaqələrinin nə dərəcədə dəqiq fərqləndirilməsindən, məqsədin reallaşdırılması üçün kifayət qədər resursların olmasından asılıdır;



- təşkilatlararası razılıq – dəyərlərin ümumiliyinə, təşkilatların fəaliyyət və inkişafının məqsəd və vəzifələrinin müvafiq vəhdətinə əsaslanır. Təşkilatlar arasında qarşılıqlı təsir o halda razılaşdırılmış olacaqdır ki, onların məqsədləri bir-birinə zidd olmasın, bu məqsədlərə çatılması isə əməkdaşlıq, razılaşdırılmış hərəkətlər tələb edir. Məqsədlərə nail olunmasında qarşılıqlı təsirdə olan təşkilatların vəhdəti, onların bir-birindən (ictimai əmək bölgüsü ilə bağlı olan) qarşılıqlı asılılığına əsaslanır. Təşkilatdaxili razılığın əldə edilməsində bölmələrin məqsədlərinin təşkilatın ümumi məqsədinə uyğunluğu mühüm rol oynayır.

Razılığın iştirakçıları bu razılığı nəinki formalaşdırırlar, eyni zamanda bərqərar olunmuş qayda ilə bu və ya digər razılıq dərəcəsini təzahür etdirirlər. İnsanların və sosial qrupların cəmiyyətdə fəaliyyət göstərən qayda ilə razılığı o zaman müşahidə olunur ki, institusional normaların əsasında əxlaqi dəyərlər dominantlıq təşkil etsin. Sosial subyektlərin cəmiyyətdə münasibətlərin fəaliyyətdə olan sistemi ilə razılığı sosial qarşılıqlı təsirlərin sabitliyinin və davamlılığının çox mühüm amili kimi çıxış edir.

İnsanlar münaqişəyə və razılığa müxtəlif şəkildə reaksiya bildirirlər. Kənaraçəkilmə, uyğunlaşma, əksdurma, əməkdaşlıq, kompromis kimi reaksiyalar mövcud ola bilər.

Münaqişə və razılıq tənzimlənən və idarə olunan proseslərdir. Münaqişələrin və razılığın tənzimlənməsində əxlaqi normaların çox böyük əhəmiyyəti vardır. Bu da təbiidir. Praktik olaraq istənilən münaqişə bu və ya başqa şəkildə xeyir və şər haqqında, düzgün və düzgün olmayan davranış haqqında, şərəf və ləyaqət, ədalət və alicənablıq, mükafatlandırma və cəzalandırma haqqında əxlaqi təsəvvürlərlə bağlıdır.

Münaqişə situasiyası dini normalarla da tənzimlənə, qaydaya salına bilər. Bu, xüsusilə dini qaydaların mülki həyatın geniş sahəsinə – nikaha, ailəyə, təlimə və s. şamil edildiyi dinlər üçün (məsələn, islam üçün) səciyyəvidir.

Siyasi normalar bir qayda olaraq yuridik xarakterə malik deyildir. Beynəlxalq münaqişə də daxil olmaqla bu və ya digər münaqişə dinc siyasi vasitələrlə, yəni danışıqlar, qarşılıqlı güzəştlər və digər aksiyalarla qaydaya salına bilər və yaxud qaydaya salınmalıdır.

Münaqişələrin həllinin, razılığın əldə edilməsinin və qorunub

saxlanılmasının dörd əsas üsulunu fərqləndirirlər:

1. *Sosial nəzarət* – bu, sistemin özünütənzimləməsi üsuludur. Həmin üsul normativ (o cümlədən hüquqi) tənzimlənmə vasitəsilə sistemi təşkil edən elementlərin qaydaya salınmış qarşılıqlı təsirini təmin edir.

2. *Danışıqlar prosesi* – tərəflərin mövqelərinin uyğunluq və uyğunsuzluq ölçüsünü müəyyən etmək məqsədilə münaqişənin tənzimlənməsi üzrə onların razılaşdırılmış qarşılıqlı hərəkətləri prosesidir.

3. *Tolerantlıq* – bu anlayış rus dilində "səbr etmək", "dözmək" anlayışları ilə sinonimdir; tolerantlıq konfliktogenlərin insana təsiri zamanı onun reaksiyasının sabitliyinin göstəricisidir, mövcud olmaması və yaxud zəif olmasıdır.

4. *Kompromis* – konsensusdan fərqi əsas etibarı ilə qarşılıqlı güzəştlərə nail olunmasından ibarətdir. Bu üsul bütün səviyyələrdə münaqişələrin qaydaya salınması, nizamlanması üçün klassik üsuldur, lakin çox vaxt kompromis problemləri ləğv etmir, yalnız onun həllini daha uzaq müddətə təxirə salır. Kompromis adətən o zaman tətbiq olunur ki, problem aşkardır, onun həlli üçün resurslar və vaxt məhduddur, digər texnologiyalar (konsensus, güc və s.) işləmir. Kompromis qarşılıqlı güzəştləri və öz iddialarının bir hissəsindən imtina edilməsini nəzərdə tutur.

Sabit inkişaf edən cəmiyyətdə münaqişənin səviyyəsinə nisbətən razılığın səviyyəsi yüksək olur. Sosial razılığın əlamətləri bunlardır:

- dəyərlilik vəhdəti. Bir çox adamlar ümumi dəyərləri rəhbər tuturlar, çox vaxt ümummilli ideya və yaxud ideologiya mövcud olur;
- hüquqi normalara əməl edilməsi;
- cəmiyyətin davamlı və sabit fəaliyyət göstərməsi;
- əxlaqi dəyərlərlə həmahəng fəaliyyət göstərən hüquqi dəyərlər;
- vahid sosial məqsədin mövcud olması və əsas sosial subyektlər arasında maraqlarda, məqsədlərdə köklü ayrılıqların olmaması;
- struktur-funksional – rol uyğunluğunun mövcudluğu;
- rol gözləməsi ilə rol icrası arasında uyğunluq;
- fəaliyyətdə olan hüquqi normalara uyğun olaraq sosial subyektlər arasında müqavilələrin, sazişlərin bağlanılması;
- münaqişələrin qanuni, dinc üsullarla (kompromis, inandırma) həll olunması.

Funksional razılığın bu əlamətləri istənilən cəmiyyətdə özünü



göstərir və müxtəlif təzahür dərəcəsinə malikdir. Nəyin üstünlük təşkil etməsindən – funksional razılığınmı və yaxud münaqişəninmi – asılı olaraq bu cəmiyyətin sabitliyindən və yaxud qeyri-sabitliyindən danışmaq olar. O. Kont haqlı olaraq yazırdı ki, sosial sarsıntılar tərəqqinin sayəsində aradan qaldırılır. Sosial həyatın sabitliyinin, insanların həmrəyliyə can atmalarının əsasında onların bir-birindən əmək bölgüsü prosesində meydana gələn sabit, davamlı asılılığı, münaqişənin əsasında isə xüsusi maraq durur.

Buna diqqət yetirək ki, münaqişəli toqquşmaların müxtəlif tipləri, həddindən artıq sosial gərginliyin təzahürləri hər hansı marağı təmin etmək və yaxud həyatın gözlənilməzlikləri haqqında biliklərimizi zənginləşdirmək xatirinə deyil, ona görə öyrənilir ki, münaqişələrin profilaktikası və tənzimlənməsi metodlarına (priyomlarına və qaydalarına) yiyələnmək mümkün olsun. Razılığın və münaqişələrin meydana gəlməsinin, onların inkişafının və fəaliyyətinin mahiyyətini, səbəblərini və mexanizmlərini öyrənərkən tələbə əmək mübahisələrinin, əmlak çəkişmələrinin, ailə münaqişələrinin və fikir ayrılıqlarının, etnoslararası münaqişələrin və digər sosial münaqişələrin iştirakçılarını razılığa, barışığa gətirməyə imkan verən qaydalar haqqında konkret təsəvvür əldə edir. Münaqişə davranışının müvafiq üslublarının adekvat xarakteristikasına və qiymətləndirilməsinə, adamlar arasında münasibətlərdə yüksək ünsiyyət mədəniyyətinin, qarşılıqlı anlaşılma və əməkdaşlığın, sosial tərəfdaşlığın və razılığın yaranmasına və bunun qorunmasına hazır olmağı öyrənmək olduqca əhəmiyyətlidir.

## Testlər

1. M. Veber başlıca olaraq öyrənirdi:
   a) sosial hərəkəti; b) fərdi hərəkəti.

2. T. Parsons hərəkətin strukturunda aşağıdakı elementləri fərqləndirirdi:
   a) xadimi;
   b) obyekti;
   v) situasiyanı;
   q) vəziyyəti;
   d) xadimin situasiyaya oriyentasiyasını.

3. Sosial əlaqənin strukturu ibarətdir:
   a) əlaqənin subyektlərindən;
   b) subyektlərin tələbatlarından;
   v) əlaqənin predmetindən;
   q) "oyun qaydalarından".

4. Əlaqəyə əks durur:
   a) təcridolunma, b) qarşılıqlı təsir.

5. U. Oqborna görə innovasiya effektlərinin əsas formaları:
   a) inteqrasiya;
   b) dispersiya;
   v) törəmə effektlər;
   q) konvergensiya;
   d) adaptasiya.

6. Qarşılıqlı təsirin əlamətləri:
   a) *predmetlilik;*
   b) situasiyalılıq;
   v) obyektivlik;
   q) eksplikasiya;
   d) reflektiv çoxmənalılıq, çoxqiymətlilik

7. P. Sorokinə görə qarşılıqlı mübadilənin üç əsas prosesi:
   a) müxtəlif ideyaların mübadiləsi;
   b) ideallarn mübadiləsi;
   v) iradi impulsların mübadiləsi;
   q) hisslərin mübadiləsi.

8. Mübadilə nəzəriyyəsinin banisi:
   a) E. Hoffman;
   b) Z. Freyd;
   v) Xomans.

9. Kooperasiya nədir:
   a) məqsədə nail olmaq uğrunda mübarizə;
   b) məsələlərin həllində fərdlərin və yaxud qrupların əməkdaşlığı.



10. Sosial hərəkatların tipləri:
   a) ekspressiv;
   b) siyasi;
   v) mənəvi;
   q) utopik;
   d) reformatorçu;
   e) inqilabi;
   j) müqavimət hərəkatı.

11. Razılıq cəmiyyətdə müəyyən edir:
   a) sabit, davamlı olanı, inkişaf etdirilməli olanı;
   b) dəyişdirmək lazım olanı.

12. Razılığın tipləri:
   a) dəyərlilik razılığı;
   b) ənənəvi razılıq;
   v) funksional-məqsədli razılıq.

Cavablar:

**1** – a, **2** – a, v, d; **3** – a, v, q; **4** – a; **5** – b, v, q; **6** – a, b, q, d; **7** – a, v, q; **8** – v; **9** – b; **10** – a, q, d, e, j; **11** – a; **12** – a, v.

# 2-Cİ FƏSİL. İDARƏETMƏNİN SOSİOLOJİ ANLAYIŞI

## 2.1. Sosial idarəetmə nəzəriyyəsi

Sosiologiyada sosial idarəetmə anlayışı iki mənada nəzərdən keçirilir: birincisi, ictimai sistemlərə, onların komponentlərinə və proseslərinə məqsədyönlü təsir kimi, ikincisi, idarəetmə subyektinin bütün cəmiyyətə təsiri kimi.

İdarəetmənin funksiyası xidmət edir:

- idarəetmə qərarlarının hazırlanması üçün və b. qərarların sosial idarəetmənin müxtəlif səviyyələrində praktik olaraq reallaşdırılması üçün əsasdır;

- dövlət idarəetmə orqanlarının fəaliyyəti üçün zəruri olan sosial informasiyanın, sosial inkişafın cari və perspektiv planlarının işlənib hazırlanmasının mənbədir;
- sosial siyasətin obyektləri olaraq sosial proseslərin sosial göstəricilərinin və normativlərinin işlənib hazırlanmasının elmi alətidir;
- yaranmış sosial problemlərin və münaqişələrin təhlilinin, sosial diaqnostika, sosial planlaşdırma, sosial texnologiyalar hesabına onların aradan qaldırılmasının və həllinin üsuludur;
- obyektlərin sosial xarakteristikalarının qiymətləndirilməsində, ictimai həyatın müxtəlif tərəflərinin sosial göstəricilərinin ölçülməsində ifadə olunan sosial nəzarətin alətidir;
- idarəetmə kadrlarının hazırlanması və yeni idarəçilik təfəkkürünün formalaşdırılmasının bazasıdır.

Sosial idarəetmə nəzəriyyəsində cəmiyyət çərçivəsində idarəetmənin qanunauyğunluqları tədqiq olunur. Cəmiyyətdə idarəetmə – müxtəlif səviyyələrdə həyata keçirilən mürəkkəb fəaliyyətdir. İdarəetmənin subyekti öz səylərini iqtisadiyyata, sosial-siyasi sahəyə, mədəniyyətə, elmə və s. yönəldir.

Sosial idarəetmə nəzəriyyəsi bir neçə bölmədən ibarətdir: idarəetmə ictimai münasibətlər bölməsindən, idarəetmənin obyekti və subyekti bölməsindən, rəhbərin sosial statusları və funksiyaları bölməsindən, idarəetmədə metodlar və yanaşmalar bölməsindən, idarəetmənin texnologiyası, idarəetmə qərarının mahiyyəti və strukturu, böyük sistemlərin idarə edilməsinin təşkili bölmələrindən ibarətdir.

Sosial idarəetmə nəzəriyyəsinin p r e d m e t i – hər şeydən əvvəl sosial idarəetmə prosesində kollektivlər və şəxsiyyətlər arasında ictimai münasibətlərin öyrənilməsidir. İdarəetmə münasibətləri sferasını bu orqanlarla bütövlükdə cəmiyyət arasında qarşılıqlı əlaqələr, həmçinin əhalinin müxtəlif qrupları arasında idarəetmənin fəaliyyəti prosesində meydana gələn münasibətlər, yəni idarəetmənin subyekti və obyekti arasındakı münasibətlər təşkil edir.

Sosial idarəetmə nəzəriyyəsi idarəetmə qərarlarının kompleks xarakterini, bu qərarların ictimai münasibətlər sisteminin yerdə qalan komponentləri ilə qarşılıqlı təsirini aşkara çıxarır, sosial idarəetmənin obyekti və subyekti olaraq insanın davranışının qanunauyğunluqlarını və xüsusiyyətlərini tədqiq edir. İdarəetmə prosesində insan spesifik rol yerinə yetirir. Burada rəhbərin şəxsiyyəti xüsusi maraq doğurur. Rəhbərin sosial rolunun, onun tipoloji xarakteristikasının, müxtəlif



ictimai şəraitdə onun davranış xüsusiyyətlərinin aydınlaşdırılması – bütün bunlar sosial idarəetmə nəzəriyyəsinin yaradılmasının zəruri ilkin şərtidir.

İstənilən idarəetmə kimi sosial idarəetmə də cəmiyyətin spesifikasını, zərurət və azadlıq münasibətlərinin qarşılıqlı əlaqəsini, insanın şüurlu varlıq kimi gerçəkliyə fəal təsir etmək və onu özünün məqsədlərinə, ideallarına uyğun olaraq dəyişdirmək imkanlarını əks etdirir. İnsan burada sosial subyekt kimi, sosial qrupun bir hissəsi kimi nəzərdən keçirilir.

İdarə olunan sistemə məqsədyönlü təsir prosesi kimi idarəetmə nəinki müvafiq informasiyanın, müxtəlif variantlar və alternativlərin tutuşdurulması əsasında qərarların qəbul edilməsini, eyni zamanda həmin qərarların reallaşdırılmasına yönəldilmiş və şüurlu təşkil olunmuş fəaliyyəti özündə birləşdirir.

İdarəetməyə sosioloji yanaşmanın mahiyyəti bir-biri ilə qarşılıqlı əlaqədə olan yeddi komponentin fərqləndirilməsindən və hərtərəfli öyrənilməsindən ibarətdir. Həmin komponentlər bunlardır:

- *idarəetmə orqanlarının* (idarəetmə altsistemi) sosial sistemlər kimi fəaliyyət göstərməsi nöqteyi-nəzərindən onların *fəaliyyəti*;
- *idarəedən aparata* məqsədliliyi və məqsədə çatılmasını özündə birləşdirən *məqsədyönlü idarəedici təsir*;
- *sosial özünütəşkil*, yəni sosial qrup daxilində spontan tənzimləmə proseslərinin məcmusu;
- *idarəetmə qərarlarının sistemi;*
- *idarə olunan altsistemin fəaliyyətinin təhlili və bu fəaliyyətə nəzarət;*
- idarəetmə fəaliyyəti ilə əlaqədar olaraq sosial təşkilatın əməkdaşlarının *səlahiyyətliliyi, məsuliyyəti, icraçılığı, intizamı problemi;*
- idarəetmə məqsədləri və qərarlarının yerinə yetirilməsi üzrə *idarəetmə obyektinin fəaliyyəti.*

İdarəetmənin rolu və yeri haqqında, idarəetmə fəaliyyətinin məzmunu və onun həyata keçirilməsi metodları haqqında təsəvvürlər dəfələrlə dəyişmişdir. İctimai münasibətlərin inkişafı, rabitə texnologiyalarının, vasitələrinin və informasiyanın işlənilməsinin, təkmilləşdirilməsi idarəetmə praktikası və nəzəriyyəsi qarşısında yeni tələblər irəli sürürdülər.

İdarəetmə fikri üç hadisə ətrafında – insan, vəzifə və idarəetmə fəaliyyəti ətrafında dövr edir. İdarəetmə təlimlərinin inkişafının ilkin mərhələsində bu hadisələrdən hansısa birinə maraq üstünlük təşkil etmişdir. Biliklərin dərinləşməsi və idarəetmənin xarakterinin dəyişməsilə bu hadisələri vahid bir tam halında birləşdirən sintetik yanaşma getdikcə daha artıq nüfuz qazanırdı.

*Elmi-rasionalist idarəetmə ideyalarının* banisi və tədqiqatçısı F. Teylordur. Onun "Fabrikin idarə olunması", "Müəssisənin elmi idarə edilməsi prinsipləri" əsərləri isə bir çox alimlərin bu problemə marağını stimullaşdırmışdır.

Teylora görə idarəetmənin başlıca vəzifəsi müəssisədə məşğul olan fəhlənin maksimum rifahının təmin edildiyi halda sahibkar üçün maksimum mənfəət əldə edilməsindən ibarətdir. Yalnız idarəetmənin elmi təşkili sahibkarın və fəhlənin həqiqi maraqlarını birləşdirməyə imkan verir. Administrasiyanın vəzifəsi rəhbərlərlə işçilər arasında əməyin və məsuliyyətin demək olar ki, bərabər bölgüsünün müəyyən edilməsindən ibarətdir. Teylor inzibati idarənin funksional tipi deyiləni (idarə üzrə işin bölgüsü) əsaslandırır. Bu halda hər bir işçi ən az miqdarda funksiya yerinə yetirir Teylora görə elmi idarəetmənin əsas prinsipləri aşağıdakılardır:

- vaxt, hərəkətlər, səylər sərfinin və s. elmi öyrənilməsi bazasında işin həyata keçirilməsinin optimal metodlarının işlənib hazırlanması;
- işlənib hazırlanmış standartlara mütləq surətdə əməl edilməsi;
- fəhlələrin seçilməsi, təlimi və ən çox fayda verə biləcəkləri iş yerlərində yerləşdirilmələri;
- əməyin nəticələrinə görə əmək haqqı;
- ixtisaslaşdırılmış istiqamətlər üzrə nəzarəti həyata keçirən funksional menecerlərdən istifadə olunması;
- elmi idarəetməni təmin etmək məqsədilə fəhlələrlə menecerlər arasında dostluq münasibətlərinin qorunub saxlanılması.

Teylor vəzifələr və rollar arasında dəqiq qarşılıqlı əlaqəni nəzərdə tutan sərt təşkilat strukturunu işləyib hazırlamışdır. Bu strukturda yalnız şaquli hakimiyyət əlaqələri (rəhbərlərdən tabeçilikdə olanlara doğru) mövcuddur. Şaquli xətt üzrə ötürülən informasiya iki tipə bölünür: tapşırıq və onunla bağlı zəruri izahat; tapşırığın yerinə yetirilməsinə nəzarət. Burada nəzarət zamanı əks əlaqə tapşırığın yerinə yetirilməsi haqqında məruzə vasitəsilə reallaşdırılır.



Klassik dövr adlanan dövrün idarəetmə nəzəriyyəsinin inkişafında mühüm mərhələni L. Urvikin, D. Muninin və hər şeydən əvvəl A. Fayolun adları ilə bağlayırlar. Fayol ehtimal edirdi ki, vahid mexanizm kimi istənilən təşkilat üçün müəyyən fəaliyyət növlərinin mövcud olması səciyyəvidir. Bu fəaliyyət növləri isə aşağıdakılardır: texniki (istehsal), kommersiya (satın alma, satış və mübadilə), maliyyə (kapital axtarışı və ondan optimal istifadə olunması) fəaliyyəti, təhlükəsizlik fəaliyyəti (insanların mülkiyyətinin qorunması), ekkauntinq (təhlil, uçot və statistika üzrə fəaliyyət), idarəetmə fəaliyyəti (planlaşdırma, təşkilatın funksiyası, sərəncam vermək bacarığı, koordinasiya və nəzarət).

İdarəetməni Fayol bir-biri ilə qarşılıqlı əlaqədə olan iki funksiyaya – planlaşdırma və təşkiletmə funksiyalarına malik olan universal proses kimi nəzərdən keçirirdi. Onun sözlərinə görə "idarə etmək qabaqcadan fikir söyləmək və planlaşdırmaq, təşkil etmək, sərəncam vermək, koordinə etmək və nəzarət etmək deməkdir".

Fayol həmçinin idarəetmənin on dörd prinsipi konsepsiyasını işləyib hazırlamışdır. Həmin prinsiplər bunlardır: əmək bölgüsü, hakimiyyət, intizam, sərəncamçılığın vəhdəti, rəhbərliyin vəhdəti, fərdi maraqların ümumi maraqlara tabe olması, işçi heyətin mükafatlandırılması, mərkəzləşdirmə, qarşılıqlı təsir zənciri, nizam, bərabərlik, işçi heyətin sabitliyi, təşəbbüs, korporativ ruh.

İdarəetmə elminin tarixində amerikan alimi X. Emersonun əsərləri xüsusi yer tutur. Emerson elmi təşkil problemlərini müəssisənin çərçivəsi ilə məhdudlaşdırmamağı, bunları daha geniş planda nəzərdən keçirməyi təklif edirdi. Emerson hesab edirdi ki, idarəetmənin səmərəliliyini yüksəltmək üçün əmək məhsuldarlığının artması prinsiplərinə əməl etmək lazımdır. Bu prinsiplərə o aid edirdi: dəqiq qoyulmuş məqsədlər və ideallar; sağlam düşüncə, səriştəli məsləhət, intizam, personala ədalətli yanaşma, sürətli, düzgün və daimi hesabat; dispetçerləşdirmə; normalar və cədvəllər; ticarətin normallaşdırılması; əməliyyatların normativləşdirilməsi; yazılı standart təlimatlar, məhsuldarlığa görə mükafat.[1]

Teylorun, Fayolun, Emersonun və digər sosioloqların klassik nəzəriyyələri sonralar yeni cərəyanların, hər şeydən əvvəl *bihevriorizmin* nümayəndələri tərəfindən tənqidi surətdə yenidən nəzərdən keçirilmiş və

[1] *Эмерсон Х.* Двенадцать принципов производительности труда. М., 1972.

onların ideyaları ilə tamamlanmışdır.

Bihevioristlər (D.S. Valter, M. P. Follet və b.) idarəetmədə ağırlıq mərkəzini istehsalat vəzifələrindən insanın üzərinə, idarəetmə prosesinin sosial və psixoloji aspektlərinə keçirirlər. İdarəetmə nəzəriyyəsində biheviorist cərəyanın inkişafına A.X. Maslou böyük töhfə vermişdir. O, "tələbatlar piramidası" adlanan tələbatlar nəzəriyyəsini işləyib hazırlamışdır (bax: bölmə IV, fəsil 3).

Artıq maşın kimi deyil, sosial varlıq kimi nəzərdən keçirilən insana öncül diqqət yetirilməsi 1920 – 1930-cu illərdə E. Meyo tərəfindən yaradılmış *insan münasibətləri məktəbinin* əsas xarakteristikasıdır.

Əgər Teylor diqqəti vəzifələri, əməliyyatları və funksiyaları necə yaxşı yerinə yetirmək üzərində cəmləşdirirdisə, Meyo və bihevioristlər cavabı kollektivdəki münasibətlərin təbiətində, insan fəaliyyətinin motivlərində axtarırdılar.

Follet birinci olaraq menecmenti "digər şəxslərin köməyilə işin yerinə yetirilməsinin təmini" kimi müəyyən etmişdir. Bu elmi məktəbin başlıca konsepsiyasına görə insan nadir sosial canlıdır, buna görə də təşkilatın üzvləri arasında qeyri-formal xarakterli üfüqi təşkilati əlaqələrin böyük əhəmiyyəti vardır.

*Psixoloji məktəbin* tərəfdarları güman edirdilər ki, əgər rəhbərlik öz işçilərinə böyük qayğı göstərirsə, onda işçilərin razılıq səviyyəsi yüksəlməlidir; bu da onların əmək məhsuldarlığını artıracaqdır. Onlar bilavasitə rəislərin daha səmərəli hərəkətlərini, işçilərlə məsləhətləri və işdə ünsiyyət üçün onlara daha geniş imkanlar yaradılmasını özündə birləşdirən insan münasibətlərinin idarə olunması üsullarından istifadə etməyi məsləhət görürdülər.

*Davranış cərəyanına* mənsub olan daha böyük tədqiqatçılar içərisində birinci növbədə K. Arcirisin, R. Laykertin, D. Makqreqorun və F. Hertsbernin adlarını çəkmək olar. Davranış elmləri məktəbi insan münasibətləri məktəbindən xeyli dərəcədə uzaqlaşmışdır. Yeni yanaşma işçiyə davranış elmləri konsepsiyalarının təşkilatların qurulmasına və onların idarə olunmasına adaptasiyası yolu ilə özlərinin xüsusi imkanlarını dərk etməkdə kömək göstərməyə səy göstərmişdir. Ən ümumi cəhətləri etibarı ilə bu məktəbin əsas məqsədi insan resurslarının səmərəliliyinin artırılmasından ibarət olmuşdur. Bu məktəbin əsas müddəası ondan ibarətdir ki, davranış haqqında elmin düzgün tətbiqi həmişə istər ayrıca işçinin, istərsə də bütövlükdə təşkilatın səmərəliliyinin artırılmasına kömək göstərəcəkdir.



Makqreqor tərəfindən işlənib hazırlanmış "X" nəzəriyyəsinə və "Y" nəzəriyyəsinə uyğun olaraq idarəetmənin işçilərə baxışların iki tipini əks etdirən iki tipi mövcuddur.

"X" tipli təşkilat üçün aşağıdakı ilkin şərtlər səciyyəvidir: 1) adi insan işə irsən keçmiş olan nifrət, məhəbbətsizlik bəsləyir və işdən yaxa qurtarmağa çalışır; 2) işləmək istəməmək səbəbindən insanların əksəriyyətini yalnız məcburiyyət yolu ilə, əmrlərin, nəzarətin, hədə-qorxu və cəzalandırmanın köməyi ilə təşkilat tərəfindən öz məqsədlərinə çatmaq üçün tələb olunan zəruri hərəkətlərin həyata keçirilməsinə və səylər göstərilməsinə vadar etmək olar; 3) orta adam üstün tutur ki, onu idarə etsinlər, o çalışır ki, öz üzərinə məsuliyyət götürməsin; o nisbətən aşağı ambisiyalara malikdir və arzu edir ki, təhlükəsiz situasiyada olsun.

"Y" nəzəriyyəsinin əsasında başqa ilkin şərtlər durur: 1) işdə fiziki və emosional səylər göstərilməsi insan üçün həmçinin istər oyun vaxtı və yaxud istirahət zamanı olduğu qədər təbiidir. Əmək şəraitindən asılı olaraq insan işi təminolunma mənbəyi və yaxud cəzalandırma kimi başa düşə bilər. Əgər insan məsuliyyət hissinə malikdirsə, özünənəzarəti həyata keçirməyə qadirdir; 2) təşkilatın məqsədlərinə münasibətə görə məsuliyyət və vəzifələr əməyin nəticələrinə görə alınan mükafatdan asılıdır; 3) müəyyən qaydada tərbiyə olunmuş adi insan nəinki öz üzərinə məsuliyyət götürməyə hazırdır, eyni zamanda hətta buna səy göstərir.

Şübhəsiz, idarəetmə fikrinin inkişafına M. Veber çox böyük töhfə vermişdir. İdarəetmənin təşkilinin və sisteminin *bürokratik quruluşu nəzəriyyəsini* işləyib hazırlayarkən Veber belə bir sual irəli sürür: nə etmək lazımdır ki, bütün təşkilat maşın kimi işləsin? Cavabı Veber istənilən situasiyada qaydaların və prosedurların və hər bir işçinin hüquqları və vəzifələrinin yaradılmasında görürdü. Veberin təşkiletmə konsepsiyasında şəxsiyyət nəzərə alınmırdı, prosedurlar və qaydalar isə fəaliyyətin bütün əsas növlərini, işçilərin karyerasını, rəhbərliyin konkret qərarlarını və fəaliyyətini müəyyən edirdi. Veber belə hesab edirdi ki, bürokratik sistem sürəti, dəqiqliyi, qaydanı, müəyyənliyi, fasiləsizliyi və qabaqcadanxəbərverməni müəyyən etməlidir. Onun inzibati idarəetmə üzrə "ideal tipi" - "bürokratiya nəzəriyyəsi" - aşağıdakı elementləri özündə birləşdirən təşkilatın yaradılmasını nəzərdə tuturdu:

- idarəetmə sisteminin bütün həlqələrində ekspert – mütəxəssislərdən istifadə etmək üçün şərait yaradan əmək bölgüsü;

- hakimiyyət bölgüsünün dəqiq iyerarxiyası;
- işçilərin hüquq və vəzifələrini müəyyən edən qayda və normaların sistemi;
- konkret situasiyalarda davranış qayda və prosedurlar sistemi;
- şəxsiyyətlərarası münasibətlərdə şəxsiyyət başlanğıcının olmaması;
- təşkilatın səlahiyyətliliyi və tələbatı əsasında təşkilata qəbul;
- təşkilat daxilində müəyyən iş stajı ilə əmələ gələn səlahiyyətlilik və bilik əsasında irəli çəkilmə;
- həyati muzd strategiyası;
- ixtisaslı işçilər üçün vəzifədə irəliləyişin dəqiq sistemi;
- inzibati fəaliyyətin idarə edilməsi.

İdarəetmə sahəsində müasir dövrün görkəmli nəzəriyyəçisi P. Drukerdir. Onun məşhur *məqsədlərə görə idarəetmə konsepsiyasının* əsasında belə bir ideya durur ki, idarəetmə məqsədlərin işlənib hazırlanmasından başlanılmalıdır və yalnız bundan sonra funksiyaların, qarşılıqlı təsir və proses sisteminin formalaşdırılmasına keçmək olar. Bundan əlavə də 1950-ci illərin əvvəllərində o, özünüidarə edən əmək kollektivi ideyasını irəli sürmüşdür.

İdarəetmə haqqında "sintetik" təlimlər içərisində *situasiya nəzəriyyələri* nəzərə çarpacaq dərəcədə yer tutur. Onların məğzi bundan ibarətdir ki, eyni bir idarəetmə hərəkətlərinin nəticələri müxtəlif situasiyalarda bir-birindən olduqca ciddi şəkildə fərqlənə bilərlər. Konkret hallarda necə idarə etmək məsələsi ilə əlaqədar tövsiyələr verən situasiya nəzəriyyələri dörd zəruri addımı nəzərdə tutur: 1) idarəetmə situasiyanı – həmçinin onun səciyyəvi cəhətlərini, həm də onun təşkilat qarşısında irəli sürdüyü "tələbləri" təhlil etməyi bacarmalıdır; 2) idarəetməyə müvafiq yanaşma tapılmalıdır; 3) əgər vəziyyət tələb edirsə, idarəetmə təşkilatda potensial və yeni idarəetmə üslubuna keçməyə imkan verən zəruri çeviklik yaratmalıdır; 4) idarəetmə situasiyaya uyğunlaşmağa imkan verən müvafiq dəyişikliklər etməlidir.

1980-ci illərin ən yayılmış sistem konsepsiyalarından biri tədqiqatçıların iki cütlüyü – T. Piters və R. Uoterman, R. Paskal və E. Atos tərəfindən işlənib hazırlanmış *"7-S" nəzəriyyəsidir.* Onlar bildirirlər ki, səmərəli təşkilat bir-biri ilə qarşılıqlı əlaqədə olan yeddi tərkib hissəsinin bazasında formalaşır. Həmin tərkib hissələri aşağıdakılardır: 1) hərəkət strategiyası – planları və istiqaməti; 2) təşkilatın strukturu – təşkilatın daxili kompozisiyası; 3) prosedurlar və ləng proseslərin sistemi; ştat – personalın əsas qrupları; 5) üslub – rəhbərlərin təşkilatı idarə etdikləri üsul; 6) ixtisas dərəcəsi – təşkilatda aparıcı fiqurların fərqləndirici imkanları; 7) bölüşdürülmüş dəyərlər – yeni fəaliyyət istiqamətlərinin mənası və məzmunu.



1981-ci ildə amerikan professoru U. Ouçi *"Z" nəzəriyyəsini* irəli sürmüşdür. Bu nəzəriyyənin çıxış nöqtəsi belə bir müddəadan ibarətdir ki, insan istənilən təşkilatın əsasıdır və təşkilatın fəaliyyətinin uğurluluğu birinci növbədə ondan asılıdır. "Z" nəzəriyyəsinin ideyaları yığcam şəkildə aşağıdakılara müncər olunur;

- uzun müddətə muzdla kadr götürülməsi;
- qrup şəklində qərar qəbul edilməsi;
- fərdi məsuliyyət;
- kadrlara ləng qiymət verilməsi və onların yavaş irəliləməsi;
- dəqiq formallaşdırılmış metodlarla qeyri-müəyyən, qeyri-formal nəzarət;
- ixtisaslaşdırılmamış vəzifə mənsəbi;
- işçilərə hərtərəfli qayğı göstərilməsi.

ABŞ-da digər cərəyanlar da inkişaf etdirilir. Bu cərəyanlardan biri – *idarəetmə elmində yeni məktəb adlanan cərəyan* diqqəti qərarların qəbul edilməsi prosesi üzərində cəmləşdirir və idarəetmə prosesində ən müasir riyazi metod və vasitələrin rolunu tədqiq edir.

Menecment nəzəriyyəsi sahəsində böyük amerikan mütəxəssisləri R. Bleyk və C. Muton klassik idarəetmə nəzəriyyəsinin nəzəri müddəalarını və onları dəqiqləşdirən xeyli sonrakı tədqiqatları ümumiləşdirərək, məşhur "idarəetmə şəbəkəsi"ni işləyib hazırlamışlar. Onlar idarəetmənin səmərəliliyini "iki qüvvə xəttinin" qarşılıqlı surətdə kəsişdiyi qüvvə sahəsi şəklində təqdim edirdilər: bu xətlərdən biri maksimum sənaye səmərəliliyinə doğru aparır, ikinci xətt isə insana doğru istiqamətlənmişdir. "Qüvvə xətləri"ndən hər birinin doqquz dərəcəsi vardır; bu da idarəetmə fəaliyyətinin beş səciyyəvi tipini ayırmağa imkan verir. Bu tiplərdən də hər biri iki rəqəmlə asanlıqla işarə oluna bilər (cədvəl 6).

Cədvəl 6

**İdarəetmə şəbəkəsi**

| | | | | |
|---|---|---|---|---|
| 9.1 | | | | |
| 8.1<br>7.1 | **1.9. Şəhərkənarı klub ruhunda idarəetmə**<br>İnsanların tələbatlarının təmin edilməsinə son dərəcə diqqətlə yanaşılması komfort və dostcasına abuhava yaradılmasına, lakin istehsalın aşağı səmərəliyinə gətirib çıxarır | | **9.9. Qrup idarəetməsi**<br>İstehsalat uğurları öz işinə sadiq olan insanlarla şərtlənmişdir; qarşılıqlı asılılıq təşkilati məqsədlərə ümumi istinad etməklə etimad və hörmətə əsaslanan qarşılıqlı münasibətlərin yaradılmasına gətirib çıxarır | |
| 6.1<br>5.1<br>4.1 | | **5.5. Təşkilati idarəetmə**<br>İdarəetmənin yaxşı təşkilinə istehsalat nəticələrinə zərurətin və insanlar haqqında qayğının qənaətbəxş səviyyədə balanslaşdırılması yolu ilə nail olmaq mümkündür | | |
| 3.1<br>2.1 | **1.1. Zəiflədilmiş idarəetmə**<br>Zəruri nəticələrə nail olmaq üçün daha az səy göstərilməsi və insana o qədər də az qayğı göstərilməsi | | **9.1. Hakimiyyət və tabeçilik**<br>İstehsalın səmərəliliyi elə işçi şəraitinin yaradılmasından asılıdır ki, orada insan aspektləri ən az dərəcədə iştirak edir | |
| 1.1 | 2.2 3.3 4.4 | 5.5 | 6.6 7.7 8.8 | 9.9 |

Mənbə: Социология / Под ред. А.Н. Елсукова. М., 1999. С. 280.



Cədvəl 7

**İdarəetmə nəzəriyyəsinin əsas elmi məktəbləri**

| Elmi cərəyanlar və konsepsiyaların başlıca müddəaları | Müasir menecmentdə istifadə olunan əsas ideyalar |
|---|---|
| 1. Elmi idarəetmə (1885 – 1920) | |
| 2. Klassik və yaxud inzibati məktəb (1920 – 1950) | |
| Elmi prinsiplər<br>İşlərin yerinə yetirilməsinin rasionallaşdırılması<br>İdarəetmədə əmək bölgüsü | Menecmentə və idarəetmə prinsiplərinə elmi yanaşma<br>Təkmilləşmə məqsədilə işlərin yerinə yetirilməsi üsullarının təhlili<br>Əmək haqqı işləyənlərin motivasiyasının ən mühüm elementi kimi |
| 3. İnsan münasibətləri və davranış elmləri məktəbləri (1930 – 1950) | |
| Kollektiv xüsusi sosial qrup kimi<br>Şəxsiyyətlərarası münasibətlər hər bir işləyənin səmərəliyinin və potensialının artmasının amili kimi | Menecmentə kommunikasiya, qrup dinamikası, motivasiya və liderlik amillərinin istifadə edilməsi<br>Təşkilatda insan davranışından tədqiq edilməsi. Təşkilatın üzvlərinə fəal insan resursları kimi yanaşılması |
| 4. Kəmiyyət yanaşması (1950 – indiyədək) | |
| Kəmiyyət tədqiqatları, modelləşdirmə və hesablama texnikası metodlarının tətbiqi | Qərarlar qəbul edilərkən kəmiyyət ölçülərindən istifadə edilməsi<br>İnformasiya idarəetmə sistemlərindən və hesablama texnikasından istifadə edilməsi |
| 5. Sistemli və situasion yanaşmalar (1950-ci illərin sonları) | |
| Təşkilatın bütün komponentlərinin qarşılıqlı təsiri və qarşılıqlı əlaqəsi<br>Ətraf mühitin situasion dəyişənlərinin aşkara çıxarılması və uçotu | Təşkilatın qarşılıqlı əlaqədə olan sistemlərdən ibarət sistem kimi nəzərdən keçirilməsi<br>Təşkilatın nailiyyət qazanması üçün ətraf mühitin və əks əlaqənin əhəmiyyəti<br>Situasion yanaşmaların bütün məcmusunun öyrənilməsi əsasında idarəetmə qərarlarının qəbul edilməsi |

1950 – 1980-ci illərin qovşağında idarəetməyə dair elmi tədqiqatlarda keyfiyyət irəliləyişi baş vermişdir. Həmin irəliləyiş də sosiologiya elminin bütün sonrakı nəticələrinə və müddəalarına təsir

göstərmişdir. Bu, *sistem yanaşmasının* xarici mühitlə fəal qarşılıqlı təsirdə olan müəssisələrin idarə edilməsinə cəlb edilməsilə bağlı idi. Sistem yanaşma – idarə edənlər üçün hansısa rəhbərliklərin və yaxud prinsiplərin yığımından ibarət deyildir, təşkiletmə və idarəetmə sahəsində təfəkkür üsuludur. Sistemlər nəzəriyyəsi rəhbərlərə təşkilatın ayrı-ayrı hissələri arasında və təşkilatla onu əhatə edən mühit arasında qarşılıqlı əlaqəni başa düşməyə kömək edir.

Situasiya baxımından yanaşma sistemlər nəzəriyyəsinin ideyalarını öz canına çəkərək, onun praktik tətbiqi sahəsini genişləndirmiş, təşkilata təsir göstərən əsas daxili və xarici dəyişənləri müəyyən etmişdir. Bu yanaşmaya uyğun olaraq metodikalar və konsepsiyalar konkret situasiyalara tətbiq olunmalı olduğuna görə, onu çox vaxt situasiya təfəkkürü adlandırırlar. Situasiya nöqteyi-nəzərindən idarəetmənin "ən yaxşı" üsulu mövcud deyildir, hər şey vəziyyətdən asılıdır.

İdarəetmə elminin müasir anlamında nəzərə çarpacaq iz qoyub getmiş elmi məktəblərin konsepsiyalarının başlıca müddəaları ümumiləşdirilmiş şəkildə cədvəl 7-də verilmişdir.

İdarəetmənin nəzəri təməli yeni biliklərlə zənginləşməkdədir. 1980-ci illərin ortalarından başlayaraq alimlərin və praktiklərin diqqət mərkəzində təşkilat mədəniyyətinin və innovasiya menecmentinin problemləri dururdu, 1990-cı illərdə isə birinci yerə müasir təşkilatların gələcəyə ümidlərini bağladıqları liderlik üzrə tədqiqlər çıxmışdır.

## 2.2. Sosial idarəetmənin əsas xarakteristikaları

İdarəetməyə yığcam tərifi kibernetika verir: *idarəetmə – sistemin atributudur.* Sistem – bir-biri ilə qarşılıqlı əlaqədə olan elementlərdən ibarət olan nə isə bir tamdır; burada idarəetmə həmin elementlərin və onları birləşdirən əlaqələrin, sistemin bütün orqanizminin qarşılıqlı dinamik təsirlərinin öyrənilməsi nəticəsidir. Sosial proseslərin idarə edilməsi materiyanın və *insan* varlığının *hərəkətinin ali* və *daha* mürəkkəb ictimai formaları ilə bağlıdır. Sosial proseslərin idarə edilməsi cəmiyyət həyatının təbii, texniki, iqtisadi və sosial tərəflərinin qarşılıqlı təsiri şəraitində həyata keçirilir.

İdarəetmənin üç tipini fərqləndirirlər: iqtisadiyyatın idarə edilməsi, sosial-siyasi idarəetmə (insanların müxtəlif qrupları arasında münasibətlərin və bu qrupların daxilindəki münasibətlərin idarə edilməsi, yəni insanların sosial davranışının tənzimlənməsi), cəmiyyətin



və onun hər bir üzvünün mənəvi həyatının idarə edilməsi.[1]

Sosial proseslərin idarə edilməsinin kəmiyyəti və səmərəliliyi sosial-siyasi inkişafın subyektiv və obyektiv amilləri arasındakı əlaqələrin səviyyəsindən asılıdır. Obyektiv amil təbiətin və cəmiyyətin inkişafının insanların fəaliyyət *istiqamətlərini müəyyən* edən şəraitindən, qanunauyğunluqlarından ibarətdir. Subyektiv amil – insanların fəaliyyətidir. İdarəetmənin inkişaf dərəcəsi və keyfiyyəti aşağıdakılardan asılıdır:

- ictimai inkişaf qanunauyğunluqlarının dərk edilməsinin səviyyəsindən;
- idarəetmənin alətləri və vasitələrinin adekvatlığından.

Sosial proseslərin idarə edilməsi – praktik fəndir; onun da məqsədi elmlərin bütün sisteminin nailiyyətlərini ictimai praktikaya fasiləsiz tətbiq etməkdən ibarətdir. İnkişafın yüksək pillələrində idarəetmə ictimai sistemin bütün tərəflərinin inkişafına təsir göstərir, insanı dəyişdirir və inkişaf etdirir, eyni zamanda da dərinləşib təkmilləşdikcə özü də dəyişir.

Əməyin idarə edilməsi – sosial idarəetmənin əsasıdır, çünki məhz əmək ictimai varlığın və ictimai sərvətin təməlidir. Əmək prosesini üç fazaya bölmək qəbul edilmişdir: hazırlıq fazası (insan öz əməyinin *məqsədini müəyyən* edir və *proqram* işləyib hazırlayır), bilavasitə icra *fazası* (insan əmək alətinin köməyi ilə əmək cisminə təsir göstərir) və nəzarət fazası (insan əmək prosesinin gedişinə və nəticələrinə nəzarət edir).

Əmək siklinin hazırlıq və nəzarət fazaları bütün əmək prosesi boyunca iştirak edən idarəetmə funksiyaları ilə səciyyələnir. Sosial proseslərin idarə edilməsi sahəsində idarəetmənin obyekti və subyekti olaraq texniki inkişaf kimi element nəzərdən keçirilir. Bunun sayəsində insan özünün bilavasitə əməyini texniki sistemlərlə əvəz edir, avtomatlar yaradır.

### *Sosial idarəetmənin dünyagörüşü problemləri*

İctimai münasibətlər sistemi özündə aşağıdakıları birləşdirir: iqtisadi münasibətləri, siyasi münasibətləri, insanların mənəvi həyat sahəsindəki münasibətləri, sosial münasibətləri. İdarəetmə münasibətləri bu

[1] Bax: *Афанасьев В.Г.* Научное управление обществом. М., 1968.

sahələrin hər birində mövcuddur. İctimai inkişafda iqtisadi idarəetmə mühüm rol oynayır, çünki idarəetmənin bütün strukturu, idarəetmənin bütün funksiyaları nəticə etibarı ilə məhsuldar qüvvələrin inkişaf səviyyəsilə şərtlənmişdir. Lakin, həmçinin nəzərə almaq lazımdır ki, sosial-siyasi münasibətlər onları doğurmuş iqtisadiyyata əks təsir göstərə bilər. Qarşılıqlı təsirlərin bütün bu mürəkkəb məcmusu idarəetmənin obyekti və subyektinin qarşılıqlı təsirində reallaşdırılır.

İdarəetmənin istər obyekti, istərsə də subyekti mürəkkəb, çoxsəviyyəli struktura malikdir:

- böyük bütöv sistemin – dövlətin, federasiyamn və s. idarə edilməsi; ictimai inkişaf subyektinin siyasi proqramı aparıcı proqramdır;
- böyük sistemin – regionun, istehsal sahəsinin və s. idarə edilməsi. Sosial prosesin həlledici amili iqtisadiyyata rəhbərlikdir;
- orta sistemin – müəssisələr birliyinin, yaradıcılıq birliyinin idarə edilməsi və s.; burada idarəetmə subyektinin funksiyaları təşkilati xarakterə malikdir;
- kiçik sistemin – istehsalat briqadasının, laboratoriyanın və s. idarə edilməsi; idarəetmənin subyekti hər şeydən əvvəl təşkilati və tərbiyəvi funksiyaları həyata keçirir.

Əsasında maddi istehsal münasibətləri duran ictimai münasibətlər sistemi son dərəcə mürəkkəb və çoxplanlıdır. Bu sistemin hər bir elementinin məzmunu müəyyən idarəetmə aspektlərini özündə birləşdirir. Mövcud sosial sistemdə hökmran olan münasibətlərdən qərarların qəbul edilməsinin xarakteri asılıdır. Burada aşağıdakı əlamətlərin xüsusi əhəmiyyəti vardır:

1) mövcud cəmiyyətin hansı sosial qrupu idarəetmə qərarlarının qəbuluna həlledici təsir göstərir;

2) bu qərarlar hazırkı sistemin insanlarının əksəriyyətinin maraqları ilə hansı nisbətdədir;

3) bu əsasda meydana gələn sosial intizam və məsuliyyət tipi nədən ibarətdir.

İctimai münasibətlər sistemində idarəetmə – cəmiyyətdəki maddi və mənəvi əlaqələr və qarşılıqlı təsirlərin zəruri tərəfidir. İqtisadiyyat cəmiyyətdə sosial idarəetmə münasibətlərinin maddi əsasıdır.

K. Marks məqsədi təbii və sosial proseslərin zəruri elementi kimi dərk edərək, yazırdı: "İnsan nəinki təbiətin verdiklərinin formasını dəyişdirir; təbiətin verdiyində o eyni zamanda özünün şüurlu məqsədini də həyata keçirir; bu məqsəd də qanun olaraq insanın hərəkətlərinin üsulunu və xarakterini müəyyən edir və o, öz iradəsini bu məqsədə tabe etməlidir".[1]



Məqsədlilik idarəetmə prosesinin çox mühüm elementlərindən biridir. İnsanların fəaliyyəti bir qayda olaraq məqsədyönlülük, məqsədəuyğunluq, məqsədəcanatma kimi cəhətlərlə səciyyələnir.

Məqsədlilik nöqteyi-nəzərindən idarəetmənin strukturu aşağıdakı əsas elementlərdən ibarətdir:

- məqsədin müəyyənləşdirilməsi;
- bu məqsədə nail olmağın əsas hərəkətverici qüvvəsinin aşkar edilməsi;
- məqsədi həyata keçirmək vasitələrinin seçilməsi;
- qarşıya qoyulmuş vəzifənin həlli metodlarının müəyyən edilməsi;
- lazımi resursların təmin edilməsi;
- icranın təşkilinin tələb olunan formalarının yaradılması;
- proqramın işlənib hazırlanması, nəzarət və uçot sisteminin təmin edilməsi, həmçinin qəbul edilmiş proqramda düzəlişlər edilməsi;
- həyata keçirilən hərəkətlərin nəticələrinin qabaqcadan görülməsi.

Məqsədliliyin əsasında dünyaya bu və ya digər baxış, yəni mövcud sosial sistemdə hökmran olan konkret ideoloji, dünyagörüşü prinsipləri durur. Məqsədlilik bu və ya digər sosial vəzifənin bütün həlli prosesini müəyyən edən mühüm vasilədir.

Ətraf aləm obyektiv surətdə mövcud olan, bizim şüurumuzdan asılı olmayan qanunların əsasında inkişaf edir. Həmin qanunların təsiri zərurət kimi qavranılır. Bu kateqoriya dünyanın, onun mövcudluğunun gerçəkliyini real surətdə ifadə edir, gerçəklik isə həmişə bu və ya digər real imkanın təcəssümüdür. Məhz imkanın mövcudluğu dünyanın dərk edilməsində məqsədlilik proseslərini müəyyən edir.

İstənilən imkanın inkişafında iki əsas pilləni fərqləndirmək olar: abstrakt imkan (bu və ya digər hadisənin meydana gəlməsilə ziddiyyət təşkil etməyən bir sıra ilkin şərtlərin mövcudluğu) və konkret imkan (gözlənilən nəticənin meydana gəlməsi üçün artıq nəinki zəruri, eyni zamanda kifayətləndirici ilkin şərtlərin mövcudluğu).

Məqsədlilikdə insan tələbatları – insanlar tərəfindən istər *ayrıca insanın*, istərsə də bütövlükdə *cəmiyyətin həyat şəraitinin*

---

[1] *Маркс К., Энгельс Ф.* Соч. Т.23. С. 189.

təkmilləşdirilməsi üçün maddi və mənəvi dəyərlərdən istifadə edilməsinin zəruriliyinin dərk edilməsi böyük rol oynayır.

Cəmiyyətin idarə edilməsində məqsədə çatmaq üçün müəyyən v a s i t ə l ə r, hər şeydən əvvəl, resurslar, o cümlədən insan resursları, həmçinin insan fəaliyyətinin təşkilinin səviyyələri və formaları tələb olunur. İnsan fəaliyyətinin təşkili iqtisadi qanunlara tabedir və bu qanunlarla şərtlənmişdir. Burada vəzifə obyektiv iqtisadi qanunlar əsasında hazırkı cəmiyyətdə təşkiletmənin konkret prinsiplərini işləyib hazırlamaqdan ibarətdir. Cəmiyyətin və onu təşkil edən fərdlərin hamısının tələbatlarının maksimum dərəcədə təmin edilməsinə səy göstərilməsi aparıcı iqtisadi qanundur.

Qarşıya qoyulmuş məqsədin həyata keçirilməsi vasitələrinə mühüm element olaraq insan fəaliyyəti haqqında nəzəriyyələrin və bu fəaliyyətin təşkilinin uçotu və istifadə edilməsi, əmək adamlarının birləşdirilməsi, onların yaradıcılıq imkanlarının fəallaşdırılması daxildir.

Məqsədlilikdə baş vermiş nəticələrin, xüsusilə uzaq nəticələrin üçotunun, nəzərə alınmasının böyük əhəmiyyəti vardır. Bu, məqsədəuyğun insan fəaliyyətinin zəruri ilkin şərti kimi çıxış edir, şüurlu başlanğıcı bu fəaliyyətin tənzimləyicisi kimi təsdiqləyir.

İnsanların bütün fəaliyyəti öz məzmunu etibarı ilə *sosial vəzifələrin* irəli sürülməsinin və həllinin sonsuz zənciridir. Problem insanların müəyyən məqsəd naminə bu və ya digər hərəkətləri həyata keçirmək zərurətini dərk etmələrindən ibarətdir. Bu halda zərurət dedikdə maddi dünyanın prosesləri və hadisələrinin onların mövcudluğunu və inkişafını müəyyən edən daxili sabit əlaqəsi başa düşülür. Sosial vəzifə bu şərtlə yerinə yetirilər ki, onun həlli təbiətin və tarixin obyektiv qanunlarının mahiyyətinə və fəaliyyətinə uyğun gəlsin: "Vəzifə yalnız o zaman meydana gəlir ki, onun həllinin maddi şərtləri artıq hazırdır və yaxud, hər halda təşəkkül prosesindədir".[1]

Sosial vəzifələri o b y e k t i n d ə n asılı olaraq aşağıdakı qruplar halında birləşdirmək olar:

1) məhsuldar qüvvələrin inkişaf etdirilməsi;

2) ictimai münasibətlərin daim təkmilləşdirilməsi;

3) mənəvi dəyərlərin yaradılması və istifadəsi;

4) ətraf mühitin mühafizəsi.

Sosial vəzifələrin mühüm xarakteristikasını onların həlli

[1] *Маркс К., Энгельс Ф.* Соч. Т. 13. С. 7.



s u b y e k t i n i n d i n a m i k a s ı təşkil edir. Buna uyğun olaraq fərqləndirirlər:

- həlli həll edən subyektin müsbət dinamikaya malik olduğu vəzifələr;
- həyata keçirilməsi həll edən subyektin keyfiyyət dəyişməsinə aparan vəzifələr;
- həll edilməsi subyektinin başlanğıcda gizli, sonra isə getdikcə daha aydın olan mənfi dinamikaya malik olduğu vəzifələr;
- İnsanların ictimai həyatındakı m i q y a s l a r ı n a görə də sosial vəzifələri fərqləndirirlər:
- fərdi vəzifələr – bunları insan özü həll edir; onların həllindən insanın özünün xüsusi tale, həyat şəraiti və s. asılıdır;
- sosial-qrup vəzifələri – istər ayrıca əmək təşkilatının və yaxud ictimai təşkilatın, istərsə də elə ailənin və s. inkişaf xüsusiyyətlərini müəyyən edir;
- sistemdaxili vəzifələr – bütün sistem üçün əhəmiyyətə malik olub, bu sistemin daxili inkişafını müəyyən edir;
- sistem vəzifələri – bütövlükdə mövcud sistemin nəinki onun daxili əlaqələri baxımından, eyni zamanda onun xarici təsirlərlə məcmu halında inkişaf yollarını və perspektivlərini aşkara çıxarır;
- sistemlərarası vəzifələr – bu və ya digər məqsədin həyata keçirilməsi üçün yaradılmış dövlətlər birliyinin, dövlətlər sistemi miqyasında və s. sosial inkişafın xüsusiyyətlərini əhatə edir;
- qlobal vəzifələr – bütün planet miqyasında sosial inkişafın xüsusiyyətləri ilə bağlıdır.

Vəzifələri i s t e h s a l ı n n ö v l ə r i n ə görə də təsnifatlaşdırmaq olar:

- nəzəri vəzifələr (mənəvi istehsal sahəsi);

- strateji vəzifələr – insan fəaliyyətinin məqsədləri haqqında məsələlərin qoyulması, irəli sürülməsi və həlli ilə bağlıdır;

- taktiki vəzifələr – ümumi strateji məqsədlərin daha xüsusi problemlərini həll edir;

- əməliyyat vəzifələri – taktiki vəzifənin ayrı-ayrı tərkib hissələrinin həllini verən prosedurlardan və əməliyyatlardan ibarətdir;

- praktik vəzifələr (maddi istehsal).

## 2.3. Mürəkkəb sosial sistemlərin idarə edilməsi

Sosial sistem özünüidarəedən tam olaraq iki altsistemi: idarə edən və idarə olunan altsistemləri özündə birləşdirir. Bunlar da birbaşa və əks əlaqələrə malikdirlər. İdarəetmə prosesinin zəruri şərti – idarə edən sistem tərəfindən istər xaricdən gələn informasiyanın (xarici siqnallar), istərsə də idarə olunan sistemlə əks əlaqə vasitəsilə alınan informasiyanın (daxili siqnallar) yenidən işlənilməsidir. İnformasiyasız idarəetmə mümkün deyildir.

Özüidarə olunan sistem səbəb-nəticə asılılıqlarının mürəkkəb şəbəkəsindən ibarətdir. İdarəetmənin məqsədi – sistemi sabitləşdirmək, bu sistemi ona dinamik tarazlıq, keyfiyyət müəyyənliyi və bütövlük verən qanunauyğunluqlarla uyğunlaşdırmaqdır. Sistemin nizama salınması sistemlə mühit arasında informasiya mübadiləsi sayəsində əldə edilir.

Cəmiyyət iyerarxik olaraq nizama salınmış, özü özünü dərk edən, özü özünü idarə edən və obyektiv qanunlar üzrə inkişaf edən sistemdir. Həm də ki, insana məlum olan bütün sistemlərdən ən mürəkkəbidir. İdarəetmə və tənzimləmə prosesləri bu sistemdə təbii olaraq baş verir və ona xas olan amillərlə və mexanizmlərlə determinasiya olunurlar. Cəmiyyətin komponentləri (altsistemləri) funksional olaraq mürəkkəbləşən dinamik komplekslərin iyerarxik məcmusunu əmələ gətirir. İstehsalın və ictimai həyatın keyfiyyətcə yeni sahələri meydana gəlir, istehsal əlaqələri və sosial əlaqələr genişlənir. İnsan özü də mənəvi cəhətdən inkişaf edir, onun fərdiliyi parlaq şəkildə özünü göstərir.

İctimai münasibətlərin və idarəetmənin mürəkkəbləşməsi – qanunauyğun prosesdir, sosial sistemlərin inkişafının ifadəsidir. Bu sosial sistemlərdən hər birinin özünün xüsusi proqramı vardır, o, səciyyəvi davranışa malikdir. Cəmiyyətin hifz edilməsinin, onun inkişafının və fəaliyyətinin mühüm şərti altsistemlərin nisbi müstəqilliyidir, bunlardan hər birinin inkişafının və fəaliyyətinin spesifik proqramlarının mövcudluğudur.

Optimal idarəetmə sisteminin yaradılması özünütəşkil edən sistem olaraq cəmiyyətin inkişaf qanunauyğunluqlarının dərk edilməsini və bu qanunauyğunluqlara sahib olunmasını nəzərdə tutur. Cəmiyyətin idarə edilməsi elə bir idarəetmə sisteminin yaradılması zərurəti ilə bağlıdır ki, bu sistem cəmiyyətin iyerarxik səviyyələri arasında informasiya və qarşılıqlı təşkilati münasibətləri, onların bir-biri ilə uyğunlaşdırılmasını



və eyniistiqamətliliyini təmin etmiş olsun.

Cəmiyyət yüksək dərəcədə ehtimali sistemdir ki, ona qeyri-xətti asılılığı olan böyük miqdarda parametrlər xasdır. Tarixi proses çox variantlıdır və tarixi hərəkətdə obyektiv seçmə imkanını müəyyən edir. Bu seçim cəmiyyətin mütərəqqi meylini, istərsə də əksini doğura bilər.

İdarəetmənin əsas vəzifələrindən biri sosial orqanizmin və onun komponentlərinin normal hərəkətinin (fəaliyyət göstərməsinin) təmin edilməsidir. Sosial sistemin fəaliyyət göstərməsi bu sistemin inkişafı ilə qırılmaz surətdə bağlıdır. Buna görə də sosial sistemin idarə edilməsi zamanı fəaliyyət və inkişafın nəinki nisbi əlahiddəliyini, eyni zamanda onların qırılmaz daxili vəhdətini nəzərə almaq zəruridir.

Cəmiyyətin optimal inkişafının və fəaliyyətinin əsas şərtlərindən biri – sosial idarəetmənin əsaslandırılmış və səmərəli sisteminin yaradılmasıdır. Struktur cəhətdən cəmiyyət bir təşkilati sistemə – ali sistemə (milli sistemə) malikdir. Ayrı-ayrı sosial səviyyələr və sferalar sosial sistemin nisbi müstəqil komponentləri olduğundan, daha xüsusi, regional və yaxud ixtisaslaşdırılmış (sahələr üzrə), mütəşəkkil sistemlər – iqtisadiyyatın, mədəniyyətin, sosial-siyasi həyatın və s. idarə edilməsi sistemləri yaradılır və fəaliyyət göstərirlər. Belə təşkilati sistemlər müəyyən sosial tələbatların təmin edilməsi məqsədilə yaradılır və fəaliyyət göstərirlər. Buna görə də həmin sistemlər yaradılarkən və təkmilləşdirilərkən həmişə ictimai münasibətlərin spesifikliyini, onların inkişaf istiqamətini və meyllərini nəzərə almaq lazımdır.

Ali təşkilati sistem iyerarxiyalılıq prinsipinə uyğun olaraq qurulur və fəaliyyət göstərir. Bu sistemə bir neçə səviyyə daxildir; bunlardan da hər biri müəyyən vəzifə daşıyır və digər səviyyələrlə subordinasiya münasibətindədir. İyerarxiya prinsipinin reallaşdırılması, idarəetmə prosesinin təkmilləşdirilməsi səlahiyyətin mərkəzsizləşdirilməsi və ötürülməsi sistemi ilə – istehsalın mürəkkəbləşməsi ilə və ali müdiriyyətin təşkilatın bütün vəsilələrinə bilavasitə rəhbərlik etməsinin mümkün olmaması ilə şərtlənən spesifik bir hadisə ilə bağlıdır. P. Drukerə görə bu sistemin üstünlükləri aşağıdakılarda ifadə olunur:

- operativ qərarların qəbul edilməsində;
- vaxta qənaət edilməsində;
- kabinet işinin həcminin azaldılmasında;
- qəbul olunan qərarların keyfiyyətinin yüksəldilməsində.

İdarəetmə sisteminin mürəkkəbliyi, onun iyerarxik xarakteri koordinasiya prinsipinin fundamental əhəmiyyətini müəyyən edir.

Koordinasiyanın gücləndirilməsi – təşkilati sistemin inkişafında əsas istiqamətlərdən biridir.

### *Böyük sosial sistemlər idarəetmənin obyekti kimi*

İdarəetmə obyekti bir-birindən ayrılmaz üç komponenti – insanları, şeyləri, münasibətləri özündə birləşdirir. Onların vəhdəti insan birliklərində – bir tam kimi cəmiyyətdə, təsərrüfat təşkilatlarında və digər təşkilatlarda, əmək kollektivlərində və s. daha aydın şəkildə təzahür edir. Sosial idarəetmə nəzəriyyəsi üçün böyük sistemlər adlananlar xüsusi maraq doğurur.

Böyük sosial sistem – bir-biri ilə qarşılıqlı əlaqədə olan, ümumi məqsədlə birləşmiş nisbi müstəqil altsistemlərdən ibarət sosial qurumdur. Hər şeydən əvvəl, bütövlükdə cəmiyyət, həmçinin siniflər, dövlətlər, iqtisadi və sosial təşkilatlar kimi iri sosial qurumlar böyük sosial sistem əlamətlərinə malikdirlər. Böyük sistemlərin ümumi sinfində fövqəlsistemlər deyilənləri fərqləndirirlər – "bu sistemlər o qədər geniş və mürəkkəbdirlər ki, onlar məkan və zamanı idarə etməyə, öz varlığının kosmik formalarını dəyişdirməyə qadirdirlər".[1]

Əlaqələrin mürəkkəbliyi, yəni rəngarəngliyi, nisbi müstəqil davranış proqramları olan hissələrin mövcudluğu – özlüyündə həcm deyil, bu əlamətlər konkret sistemin böyük sosial sistemlər sinfinə mənsubluğunu müəyyən edir. Məsələn, həcmcə kiçik, lakin mürəkkəb şəkildə və iyerarxik qurulmuş olan sistem böyük sosial sistemin bütün keyfiyyətlərinə malikdir.

Sosial sistemin fərqləndirici əlaməti onun insani təbiəti və mahiyyətidir. Sosial sistemlər – insanın, ictimai məxluqlar kimi adamların hərəkətlərinin məhsuludur, eyni zamanda bu hərəkətlərin sferasıdır. Sosial sistemlərdə idarəetmə qərarları insanlar tərəfindən – öz xüsusi iradələri olan kollektivlər və şəxsiyyətlər tərəfindən işlənib hazırlanır və qəbul olunur.

Böyük sosial sistemləri səciyyələndirərkən ilkin müqəddəm şərt olaraq mütləq müstəqil subyekt kimi insanı deyil, sosial qurumları, sözün geniş mənasında insan birliklərini götürmək lazımdır. Böyük sosial sistemlərin əsasını və hərəkətverici motivini birliklər halında təşkil olunmuş, öz aralarında müəyyən əlaqələr qurmuş və öz

[1] *Поваров Г.Н.* Об уровнях сложности систем // Методические проблемы кибернетики. М., 1970. Т. 2. С. 183.



hərəkətlərini əlaqələndirmiş insanlar təşkil edirlər. İnsan fəaliyyətinin obyektiv bazisi sosial qanunlardan ibarətdir.

Böyük sosial sistemlərə həmçinin xasdır:

- dinamiklik (sosial sistemlər zaman etibarı ilə dəyişir, onlarda fasiləsiz yeniləşmə baş verir, həm də ki kiçik zaman ərzində köklü dəyişikliklər də baş verə bilər);
- əsaslı dəyişikliklərin tempi (sosial sistemlərdə bu temp silsilə şəklində arta bilər);
- adaptasiya (sosial sistemlər ətraf mühitə onların fəaliyyəti və inkişafı üçün əlverişli olan nəticələrin alınmasını təmin edən üsulla cavab verir);
- reallığa məqsədyönlü təsir (böyük sosial sistem kimi cəmiyyəti mövcud reallığa passiv uyğunlaşma deyil, bu reallığa aktiv təsir göstərilməsi səciyyələndirir);
- sosial sistemin ayrı-ayrı vahidlərinin davranışını qabaqcadan səciyyələndirməyin və təsvir etməyin mümkün olmaması.

Böyük sosial sistemlər – özü-özünü idarə edən sistemlərdir. Bu sistemlərin "özünün xüsusi idarəedici bloku var; bu sistemlər homeostatik vəziyyəti saxlamağa, özünü yenidən istehsal etməyə və müəyyən qanunlar əsasında özünü inkişaf etdirməyə qadirdir.

Böyük sosial sistemlər içərisində şübhəsiz ki, daha mürəkkəbi cəmiyyətdir. Sosial sistemlər formalaşma və fəaliyyət göstərmək üsulundan asılı olaraq təsnifata ayrılırlar. Bəzi sistemlər kortəbii olaraq, ictimai inkişafın obyektiv gedişi sayəsində formalaşırlar, digərləri isə sosial subyekt tərəfindən (dövlət orqanları, ictimai və digər orqanlar və təşkilatlar) şüurlu və məqsədyönlü şəkildə yaradılır. Təşkilatların əsas funksiyası – cəmiyyət üçün həyati əhəmiyyətli sferalarda lokal çoxluqların nizamlılığının yüksəldilməsidir.

Böyük sosial sistemlərdə idarəetmə hər şeydən əvvəl onların yüksələn xətlə inkişafını təmin etməlidir. İnkişaf prosesində zərurət üzündən həlli yaradıcı yanaşma tələb edən yeni, daha mürəkkəb vəzifələr meydana gəlir. Bu, sosial idarəetmənin optimallaşdırılmasının başlıca şərtlərindən biridir.

Müasir şəraitdə idarəetmə subyektinin rolu getdikcə artmaqdadır. Cəmiyyətin və ictimai münasibətlərin funksional və struktur inkişafı, sosial həyatın dinamikasının artması səbəbindən idarəetmə subyektinin strukturu mürəkkəbləşir. İdarəetmə subyektinə öz aralarında istər üfüqi və istərsə də şaquli qaydada bir-biri ilə bağlı olan çoxlu miqdar

komponenti özündə birləşdirir. Rəhbər və rəhbəredici orqan getdikcə daha çətin və daha əhəmiyyətli problemləri həll etməlidirlər. Təsiri altında idarəetmə prosesinin getdiyi amillərin sayı artır.

## 2.4. Sosial idarəetmənin metodoloji problemləri

Sosial idarəetmənin metodoloji problemləri – idarəetmə nəzəriyyəsinin idarəetmə proseslərinin ictimai qanunlarının, bu qanunların real ictimai proseslərə təsir şəraitinin, mənbə və xüsusiyyətlərinin dərk edilməsi, qiymətləndirilməsi və şüurlu surətdə istifadə edilməsinə dair məsələlərinin məcmusudur.

İdarəetmə sosiologiyasında obyektiv və subyektiv olanın problemi mühüm yer tutur.

Sosial idarəetmənin obyektiv tərəfi insanların iradəsindən və arzusundan asılı deyildir, subyektiv tərəfi isə – şüur sferası ilə, şüurun idraki, qiymətləndirmə, iradi və emosional komponentləri ilə müəyyən olunur.

İdarəetmədə obyektiv və subyektiv olanı səciyyələndirməklə iki qrup anlayışı fərqləndirmək olar: a) obyekt, obyektiv şərait, obyektiv amillər; b) subyekt, subyektiv şərait, subyektiv amillər.

Sosial idarəetmənin "obyekt" və ya "subyekt" kateqoriyaları – idarəetmə nəzəriyyəsində ən geniş, məzmunlu və fundamental anlayışlar olub, idarəetmənin başlıca komponentlərini əhatə edir və idarəetmə münasibətlərinin, yəni cəmiyyətin özünütənzimləmə prosesində insanların münasibətlərinin dərin mahiyyətini səciyyələndirir.

Cəmiyyətin obyekt və subyekt şəklində strukturlaşdırılması obyektiv meyarlar əsasında baş verir. Bu meyarlardan başlıcası – mövcud sosial birliyin idarəetmə qərarlarının qəbul edilməsi prosesində iştirak etməsidir.

*Sosial idarəetmənin obyekti* insanlar və onların qərarların qəbulu prosesində praktik olaraq iştirak etməyən insanlar və onların birlikləridir. *Sosial idarəetmənin subyekti* – cəmiyyətdə fəaliyyətin məqsədləri, vasitələri, metodları və vəzifələri haqqında qərarlar qəbul etmək hüququna malik olan insanların cəmiyyət tərəfindən seçilən xüsusi qruplarıdır. Müxtəlif cəmiyyətlərdə onların qarşılıqlı təsirinin xarakteri müxtəlifdir. Məsələn, quldarlıq cəmiyyətində idarəetmənin obyekti hakim dairələrə passiv şəkildə tabe olur. Müasir cəmiyyətdə idarəetmənin obyekti və subyekti fəal qarşılıqlı təsirdədir. Bu vəhdət



obyektin və subyektin iqtisadi, sosial, siyasi, ideya və əxlaqi məqsəd və ideallarına əsaslanır.

Sosial həyatın obyektiv şərtlərinə onun maddi tərəfi aiddir (təbii yaşayış mühiti, əhali, istehsal üsulu). Bunların içərisində həlledici rolu istehsal üsulu oynayır. Məhz istehsal üsulu cəmiyyətin inkişafının baş istiqamətini müəyyən edir. Sosial həyatın inkişaf amillərinə həmçinin aşağıda göstərilən elementləri aid etmək lazımdır:

a) ictimai münasibətlərin tarixən müəyyən sistemini;

b) insanların maddi və mənəvi tələbatlarının təmin edilməsi sistemini;

v) sosial inkişaf və idarəetmə obyektinin öz subyekti ilə qarşılıqlı təsirinin forma və sistemini.

Subyektiv şərtlər adı altında insanların və onların birliklərinin mövcud şüur səviyyəsilə şərtlənmiş müəyyən kütləvi hərəkatlara hazır olmaq bacarığını və bunun dərəcəsini başa düşürlər.

Obyektiv və subyektiv amillər – cəmiyyətin inkişafının, onun dialektik özhərəkətini təmin edən daxili mənbələri və hərəkətverici qüvvələridir. *Obyektiv amillərə* cəmiyyətin inkişafının insanların şüurundan kənarda və ondan asılı olmayaraq fəaliyyət göstərən mənbələri və hərəkətverici qüvvələri daxildir. Bu amillər cəmiyyətin köhnədən yeniyə doğru hərəkətinin obyektiv qanunlarını ifadə edirlər. *Subyektiv amillərə* ictimai şüurun və onun əsasında formalaşan üstqurum sisteminin fəal rolu ilə bağlı olan mənbələri və hərəkətverici qüvvələri aid edirlər. Subyektiv amillərin fəaliyyəti insanların, onların birliklərinin, təşkilatlarının və ittifaqlarının məqsədyönlü ictimai praktikası şəklində həyata keçirilir. Obyektiv və subyektiv olan müəyyən spesifikliyə malikdirlər. Məsələn, əgər idarəetmənin obyekti kollektivdirsə, subyekti isə – bu kollektivə rəhbərlik edən orqandırsa, onda burada obyektiv şərtlər işçi qüvvəsi, istehsal gücü, əmək resursu və texniki resurslar və s.-dir, subyektiv şərtlər isə – idarə olunan kollektivin təcrübəsinin və peşə ixtisasının ümumi səviyyəsidir, bu kollektivin əxlaqi iqlimi, yekdilliyi, rəhbər heyətin nüfuzu və s.-dir. Rəhbər öz qarşısında qoyulmuş vəzifəni yerinə yetirərkən bu şərtləri inkişafın hərəkətverici qüvvələrinə – obyektiv və subyektiv amillərə çevirir.

Obyektiv amil – kollektiv qarşısında duran tapşırıqdır. Bu tapşırıq ümumi məqsəddən, onun həyata keçirilməsi proqramından və bu proqramı həyata keçirmək planından ibarətdir. Əlbəttə, bütün bunlar kollektivin malik olduğu obyektiv şərtlərlə düzgün əlaqələndirilməlidir.

Rəhbərin fəaliyyətində subyektiv amil olaraq bu rəhbərin işinin onun qarşısında qoyduğu tələbləri adlandırmaq olar. Məsələn, rəhbərin səriştəliliyi və yüksək peşəkarlığı yalnız o zaman və o yerdə səmərəli olar ki, bu nə vaxtsa və haradasa kollektivin özündə biliklərin və peşə ixtisasının durmadan artması ilə birləşmiş olsun.

İdarəetmədə obyektiv və subyektiv olan problemi ictimai inkişafda və sosial proseslərin idarə edilməsində şüurluluq və kortəbiilik kateqoriyası ilə bağlıdır. Şüuri haqqında danışarkən biz insan şüurunun nəzarət etdiyi prosesləri nəzərdə tuturuq. Kortəbii isə görünür ki, insanların özlərinin şüurunun hazırkı inkişaf səviyyəsində öz hərəkətlərinin həqiqi məqsədlərini, istinad edilməli olan qanunları, bu hərəkətlərdən sonra baş verməli olacaq nəticələri müəyyən etməyi bacarmamasınm nəzərə alınmasını özündə ehtiva etməlidir. Kortəbiilik həmçinin kütlələrin hərəkətlərində vəhdətin, yekdilliyin və qarşıya qoyulmuş məqsədlər uğrunda mübarizəyə şüurlu səy göstərilməməsinin olmaması kimi cəhətləri özündə birləşdirir.

Sosial idarəetmənin obyekt və subyektinin sərhədlərinin nisbiliyi onların qarşılıqlı strukturlaşdırılmasında öz ifadəsini tapır. Obyekt idarəetmə subyektinin strukturunu və fəaliyyət metodlarını determinasiya edir. Lakin subyekt obyektin təbiətini və tələbatlarını nəinki əks etdirir, eyni zamanda onun strukturuna, onun fəaliyyətinə və inkişafına müəyyən, bəzi hallarda isə həlledici təsir göstərir.

İnsanların idarə edilməsi - mürəkkəb problemdir, çünki insanlar sosial qruplar halında təşkil olunaraq, ictimai inkişafın həlledici subyektiv amilinə çevrilirlər. Cəmiyyət inkişaf etdikcə idarəçilik, idarəetmə münasibətləri mürəkkəbləşir, daha rəngarəng, daha çoxtərəfli olur, buna görə də idarəetmə subyektinin başlıca vəzifəsi onların nəinki qorunub saxlanılmasını, eyni zamanda onların inkişafını təmin etməkdir.

Sosial idarəetmə ictimai sistemin bütün komponentlərini - insanları, şeyləri, münasibətləri tənzimləyir və vahid məqsədə doğru yönəldir. Müxtəlif iyerarxik səviyyələrdə onların qarşılıqlı münasibəti eyni deyildir və deməli, idarəetmənin subyekti bu səviyyələrin hər birində spesifik vəzifələrə malikdir. İdarəetmə nərdivanının ən yüksək pilləsində insanların və onlar arasındakı münasibətlərin idarə olunmasının əhəmiyyəti durur. Biz nərdivanla aşağı endikcə əşyalar, şeylər aləminin, hər şeydən əvvəl, texnikanın və texnologiyanın idarə edilməsi proseslərinin əhəmiyyəti artmaqdadır. İdarəetmənin subyekti məhsuldar qüvvələrlə, əmək cisimləri və alətləri ilə bağlı olan istehsal,



energetik və digər prosesləri tənzimləməlidir. Bu sahədə peşəkar idarəetmə əməyi xüsusi əhəmiyyət kəsb edir.

İdarəetmə subyektinin ən ümumi strukturu fərdi və kollektiv komponentlərdən ibarətdir. Fərdi subyekt - idarəetmə qərarları qəbul etmək, bu və ya digər sosial proseslərə rəhbərlik etmək hüquqlarına və funksiyalarına malik olan rəhbərdir. İstənilən mürəkkəb idarəetmə sisteminə rəhbər xadimlərdən ibarət institusional subyekt başçılıq edir.

İdarəetmə təsirinin üç əsas metodunu fərqləndirirlər: məqsədyönlü tənzimləmə, özünütənzimləmə və kortəbii tənzimləmə. Bu metodlardan hər biri öz növbəsində idarəetmə obyektlərinin rəngarəngliyini əks etdirən və daha səmərəli, daha çevik idarəetmə təsirinə kömək edən daha konkret metodlar sistemini özündə birləşdirir.

*Məqsədyönlü tənzimləmə metodu* birbaşa sərəncamları, hökmləri, qadağaları, sanksiyaları və s. nəzərdə tutur. Bu metod formal, işgüzar təşkilatlarda geniş tətbiq olunur.

*Özünütənzimləmə metodu* cəmiyyətin bu və ya digər özəyində insanların fəaliyyətinin aktivləşməsinə kömək edən özünütənzimləmə vasitələrinin şüurlu surətdə tətbiqi üçün nəzərdə tutulmuş təşkilolunma və stimullaşdırma ilə səciyyələnir.

İdarəetmə qərarlarının hazırlanmasında modelləşdirmə getdikcə daha çox əhəmiyyət kəsb edir. Qeyd etmək lazımdır ki, modelləşdirmənin rolu idarəetmə qərarının hazırlanması, qəbulu və həyata keçirilməsi mərhələlərində özünü göstərir.

Modellər hansı informasiyanı - deskriptiv, reskriptiv və yaxud retrospektiv informasiyasını daşımasından asılı olaraq təsnifatlaşdırıla bilər. Deskriptiv modeldə sistemin əsas parametrlərinin təsviri idarəetmə qərarlarının qəbulunun ilkin çıxış şərtidir. Müvafiq modeldə mövcud olan reskriptiv informasiya idarəetmə subyektinin fəaliyyətini reqlamentləşdirir, həmin subyektin həyata keçirməli olduğu əhəmiyyətli və zəruri hərəkətləri müəyyən edir. Retrospektiv informasiya artıq həyata keçirilmiş və yaxud hələ baş verməkdə olan proses haqqında məlumat verir, təshihedici komanda işləyib hazırlamağa və yeni qərar qəbul etməyə imkan yaradır. Qeyd etmək lazımdır ki, preskriptiv model çoxdəfəlik hərəkətlə fərqlənir. İstənilən analoji situasiyada idarəetmə subyekti preskriptiv model çərçivəsində hərəkət edə bilər və bu, arzu olunan nəticələri onun üçün təmin edə bilər.

İdarəetmədə mühüm yeri proqnozlaşdırma tutur. Aşağıda bundan ətraflı bəhs edəcəyik (bax: 2.5).

Sosial sistemlərin modelləşdirilməsi və proqnozlaşdırılması bir-biri ilə qarşılıqlı surətdə sıx bağlı olan fəaliyyət növləridir. Müəyyən mənada proqnoza gələcəyin modeli kimi baxmaq olar. Digər tərəfdən, hər hansı bir sistemin idraki və idarəedici rolları, əgər həmin sistem proqnostik informasiyaya əsaslanırsa, labüd surətdə yüksəlir.

Müasir şəraitdə idarəetmə prosesinin artmaqda olan mürəkkəbliyi ilə əlaqədar olaraq əməyin idarəyə xidmət edən spesifik növü – konsultativ-məsləhətvermə əməyi formalaşır. U. Morris ekspert qarşısında qoyulan iki əsas tələbi göstərir: ekspertin rəyi sabit olmalı, bu rəy yalnız yeni məlumatlar aldıqda dəyişə bilər; ekspertin qabaqcadan söylədikləri xəbərvermələr yüksək dəqiqlik və etibarlılıq səviyyəsilə fərqlənməlidir.[1]

Kompaniyaların idarə edilməsinin strukturuna çox tez-tez şeylərin vəziyyətini hər hansı bir bölmənin, qulluq yerinin mövqelərindən deyil, geniş strateji mənada "təzə baxışla" (informal man) qiymətləndirən işçi vəzifəsi daxil edilir. Hakimiyyəti səlahiyyəti olmayan və məsuliyyət daşımayan bu vəzifə sahibi yüksək rəhbərliyin uzunmüddətli strategiyaya və qarşıda duran taktikaya aid olan bütün planlardan və sirlərdən məlumatı olan bir növ etibarlı nümayəndəsidir (prezidentin və yaxud baş idarəedicinin müşaviri, müstəqil ekspert və s.). Müstəqil ekspertizanın müxtəlif növlərindən biri də kompaniyaların direktorlar şuralarına iqtisadiyyat, bazar münasibətləri, maliyyə, kapital qoyuluşu, idarəetmə sferasında ixtisaslaşan alimlərin daxil edilməsidir.

İdarəetmənin yüksək elmi əsaslandırılması elektron-hesablama texnikasının geniş imkanları ilə təmin edilir. Avtomatik idarəetmə sistemlərinin sayəsində qərarların qəbulu rəhbərin subyektiv rəyindən və intuisiyasından asılı olmayıb, mövcud olan və gözlənilən situasiyanın kəmiyyətcə qiymətləndirilməsinə əsaslanır. Avtomatlaşdırılmış sistem idarəetmənin operativliyini artırır və insanın idarəetmə prosesində fəal iştirakını nəzərdə tutur. Məhz insan müxtəlif variantların qiymətləndirilməsi əsasında, əlavə informasiyanı nəzərə almaqla qəti qərar qəbul edir.

İnformasiyanın yenidən işlənilməsi və qərarların qəbul edilməsi prosesində elektron-hesablama texnikasının artmaqda olan rolu heç də spesifik təhlil metodlarından: informasiyanın süzgəcdən keçirilməsi və qiymətləndirilməsi, alternativlərin seçilməsi, tədqiqat qaydalarının

[1] Bax: *Моррис У.* Наука об управлении. М., 1971. С. 233.



eynimənalı olmaması, assosiativlik, model və rəqəm formalarından istifadə, həmçinin sadə hesablama metodlarından imtina edilməsi demək deyildir. Qiymətləndirmə və qərar qəbul etmədə "insani" metodlar öz əhəmiyyətini bundan sonra da saxlayacaqdır, lakin bu metodlar elektron-hesablama texnikasının açdığı imkanlarla zənginləşəcək və güclənəcəkdir.

Müasir idarəetmə metodları içərisində operasional tədqiqatlar getdikcə daha mühüm əhəmiyyət kəsb edir. Bu tədqiqatlar strukturlaşdırılmış böyük sistemlərdə qərarların qəbul edilməsi üçün kəmiyyət etibarı ilə əsaslandırılmış tövsiyələr hazırlanmasına imkan verir. Bu tədqiqatların üstünlüklərindən biri ondan ibarətdir ki, onlar elektron-hesablama texnikasının tətbiq edilməsi yolu ilə rəhbər qərarların hazırlanması üzrə işi optimallaşdırmağa imkan yaradır.

Operasional tədqiqatlar sistem təhlili prinsiplərinə uyğun olaraq həyata keçirilir. Bu tədqiqatlar mühitin bütöv halında öyrənilməsini, amillərin onların qarşılıqlı şərtlənməsi halında təhlilini özündə birləşdirir. Bu halda operasional tədqiqatların aparılması üçün qruplara çoxtərəfli hazırlığı olan adamlar və müxtəlif fənlər üzrə mütəxəssislər daxil edilirlər. Operasiyaların tədqiqi ilə rəhbər qərarların hazırlanması üzrə iş qurtarmır. Bu tədqiqat yalnız tövsiyələrin hazırlanmasını nəzərdə tutur, qərarları isə müvafiq rəhbər orqanlar qəbul edirlər.

Bu cəbbəxananı "hərəkətə gətirmək üçün" bu cəbbəxananın istər tərkib hissələri arasındakı qarşılıqlı münasibətləri, istərsə də idrakın ayrı-ayrı səviyyələrinin idarəetmə qərarlarının hazırlanması və qəbulu prosesinə təsirinin xüsusiyyətlərini öyrənmək zəruridir. Bu əsasda idarəetmə qərarlarını hazırlayarkən müxtəlif informasiya mənbələri ilə (səmərəli şəkildə) rəftar etmək yolunu da nəzərdə tutmaq olar.

Müasir tarixi mərhələdə elmin praktika ilə müqayisədə görünməmiş şəkildə qabaqlayıcı inkişaf zərurəti özünü göstərir. Yalnız elmi cəhətdən səhih biliklər məqsədyönlü praktik qərarlara və hərəkətlərə transformasiya oluna bilər. Lakin elm idarəetmə qərarlarını hazırlamağın yeganə amili deyildir. Elmin inkişafı intuisiyanın və təcrübənin şəklini dəyişdirir, lakin onları ləğv etmir. "Əslində yeni idarəetmə sistemləri elə rəhbərin intuisiyasını kəskinləşdirməli, ən əsaslandırılmış qərar qəbul etməkdə ona kömək etməklə və onu subyektivizmdən qorumaqla rəhbərin qabiliyyətlərinə geniş meydan

açmalıdır".[1]

Sosial idarəetmə kompleks xarakterə malikdir. Onun mahiyyəti iqtisadi vəzifələrin həllinin, sosial-siyasi münasibətlərin və cəmiyyətin mənəvi həyatının vəhdətindən ibarətdir. Siyasi və yaxud ideoloji əhəmiyyəti olmayan iqtisadi qərarlar mövcud ola bilməz, eynilə də siyasi idarəetmə də iqtisadi və ideoloji funksiyaları özündə birləşdirməyə bilməz. İdeologiya sahəsində qərarlar iqtisadiyyat və siyasət sferalarına ciddi təsir göstərir. Bu aspekti qeyd edərkən idarəetmə ideologiyasının həyata keçirilməsində siyasətin birinciliyinə nəzər yetirmək lazımdır.

Rusiyada iqtisadi və siyasi idarəetmə tərbiyə və yenidəntərbiyə prosesləri ilə birləşdirilmişdir. Bu cür idarəetmə maarif, ali və orta ixtisas təhsili, mədəniyyət nazirlikləri rəhbər orqanları, kütləvi informasiya vasitələri və s. tərəfindən həyata keçirilir.

Müasir idarəetmə praktikası tədqiq olunan obyektin yalnız sistem yanaşma bazasında mümkün olan hərtərəfli təhlilini tələb edir.

Sistem yanaşmada nəzərə çatdırılır ki, rəhbərlər təşkilatı qarşılıqlı surətdə bir-birindən asılı olan elementlərin – dəyişməkdə olan xarici mühit şəraitində müxtəlif məqsədlərin əldə edilməsinə istiqamətləndirilmiş – insanların, strukturların, vəzifələrin və texnologiyanın məcmusu kimi nəzərdən keçirməlidirlər. İdarəetmə vəzifələrini həll edərkən əlaqə obyektinin səviyyəsini hazırda, keçmişdə və gələcəkdə nəzərə almaq zəruridir. Sistem yanaşmanın və idarəetmə nəzəriyyəsi və praktikasının bir sıra digər nailiyyətlərinin təsiri altında məqsədli-proqram yanaşma formalaşmış və tezliklə təsdiqlənmişdir. Bu yanaşmaya görə istənilən sosial vəzifənin həlli, xatirinə bu vəzifənin irəli sürüldüyü məqsədin dərk edilməsindən və elmi şəkildə əsaslandırılmasından başlanır. Bu halda ayrıca bir fərdin məqsədləri və vəzifələri yalnız bu fərdin mənsub olduğu sosial birliyin məqsəd və vəzifələrinin real inikası və ifadəsi kimi formulə edilə bilər.

Məqsədli-proqram yanaşmasına üç əsas prosedur daxildir: 1) məqsədlərin müəyyən edilməsi və onların müvafiq sistemdə nizamlanması; 2) təşkilati cəhətdən təcrid olunmuş komplekslərin və yaxud sosial fəaliyyətin bir-biri ilə qarşılıqlı əlaqədə olan növlərinin kompleks inkişaf proqramlarının işlənib hazırlanması; 3) istər daimi, istərsə də müvəqqəti orqanların daxil olduğu spesifik təşkilat strukturlarının

[1] *Арбатов Г.А.* Вступительная статья // США – современные методы управления. М., 1971. С. 13.



formalaşdırılması. İstehsal fəaliyyətinin hər bir sikli üçün "məqsədlər ağacı", yəni hər bir fəaliyyət siklində əmək prosesinin ayrı-ayrı vəsilələrinin prioritetləri sistemi yaradılır. "Məqsədlər ağacı" məqsəd-idealın (ümumi imkanın) və məqsəd-nəticələrin (konkret imkanların) nisbətini göstərir. Məqsədli-proqram yanaşmada sosial vəzifələrin həll edilməsi yoluna daxildir: ümumi məqsədin (məqsəd-idealın) dərk edilməsi, konkret, daha dar məqsədlər (məqsədlər-nəticələrin) sistemi vasitəsilə bu məqsədə çatmaq yollarının aşkara çıxarılması, konkret təcrübənin qiymətləndirilməsi və təhlili və onun praktikada insanları ümumi məqsədə çatmaq yolunda bir-birinə yaxınlaşdıran məqsədlər-nəticələr şəbəkəsinin elmi ümumiləşdirilməsi gedişində alınmış məqsədlər-nəticələr şəbəkəsinin təcəssümləşdirilməsidir.

## 2.5. İdarəetmə və elmi qabaqgörənlik

Cəmiyyətin idarə edilməsi bilavasitə elmi qabaqgörənliklə bağlıdır.

Sosial qabaqgörənliyin obyektləri hələ realizə olunmamış ictimai proseslər, sistemlər və s., həmçinin mövcud sosial sistemlərdir. Elmi qabaqgörənlik empirik və nəzəri biliklərə əsaslanır, lakin idrakın bu səviyyələrinin nisbiliyi nəticəsində qabaqgörənliyin də nisbi xarakterindən danışa bilərik. Məsələn, empirik qabaqgörənlik həyati təcrübədən, xalq əlamətlərindən, gələcək haqqında ehtimallardan ibarətdir.

Fakt – müəyyən ontoloji əsasa malik olan qnoseoloji kateqoriyadır, empirik biliyin praktika ilə və səhihliklə bilavasitə əlaqəsi ilə səciyyələnən növüdür. Faktlar təkcə (bu faktlar obyektin ayrı-ayrı xassələrini və tərəflərini əks etdirir) və statistik (statistik tədqiqat üsullarının tətbiq edilməsi yolu ilə çox böyük miqdarda əlahiddə faktların ümumiləşdirilməsi) ola bilərlər. Sosial faktların təhlili sosial gerçəkliyin fraqmentləri haqqında, sosial olaylar və hadisələr haqqında səhih bilik verir.

Gələcəyin qabaqcadan görülməsi ilə bağlı olan vəzifənin həllinin beş əsas mərhələsini fərqləndirirlər.

1. Mövcud vəzifənin irəli sürülməsi və həllinin zəruriliyini əsaslandıran *elmi hipotezin yaradılması*. Hipotezin praktik olaraq yoxlanılmasından sonra bu hipotezin reallaşdırılmasının müddətlərini və xarakterini müəyyən etmək, yəni ikinci mərhələyə keçmək lazımdır.

2. *Proqnoz* – bu və ya digər imkanın gerçəkliyə çevrilməsinin müddətlərinin, meyllərinin və səciyyəvi xüsusiyyətlərinin aşkara

çıxarılması. Proqnozlar uzunmüddətli və qısamüddətli proqnozlara bölünür. Sosial idrakda uzunmüddətli proqnozlar böyük rol oynayırlar.

3. Proqnozların əsasında qəbul edilmiş qərarın həyata keçirilməsinin *proqramı* yaradılır. Bu proqramda sosial vəzifələrin sisteminə dair konkret tədqiqlər gətirilir, qoyulmuş məqsədə çatmaq üçün zəruri şərtlər göstərilir, bu vəzifələrin həlli yolları, həmçinin onların qarşılıqlı üzvi əlaqəsi qiymətləndirilir.

4. Hərəkət *planı* – konkret sosial prosedurlardan ibarətdir. Prosedurlar əməliyyatlara bölünür ki, bunlardan da hər biri planda qoyulmuş tapşırıqların yerinə yetirilməsinə aparıb çıxarır.

Əməliyyat – daha geniş bir prosedurun hər hansı ayrıca konkret bir hissəsinin reallaşdırılmasına yönəldilmiş hərəkətdir.

5. Hər bir ayrıca prosedurun və əməliyyatın əvvəldən başlayaraq başa çatana qədər gedişini müəyyən edən dar *plan-layihələrin* yaradılması.

Qabaqgörənlik ehtimali və evristik qabaqgörənliyə ayrıla bilər. Ehtimali qabaqgörənlik fəlsəfə, ehtimallar nəzəriyyəsi, statistika, xətti proqramlaşdırma *nəzəriyyəsi tərəfindən, sosioloji* tədqiqatlar və s. tərəfindən öyrənilir. Bütün bu sahələr gələcəyin qabaqcadan xəbər verilməsi üçün kəmiyyət təhlilinin məlumatlarından istifadə etməyə səy göstərir. Ehtimali qabaqgörənlik diskret rəqəmlər olan ilkin məlumatların sonlu kəmiyyətinə malik olan birkeyfiyyətli obyektlərin tədqiqində istifadə edilir.

Evristik qabaqgörənlik – natamam informasiyanın tədqiqatçının özü üçün gözlənilməz planda tədqiqat obyektinə ekstrapolyasiyası yolu ilə onun düşünülməmiş şəkildə istifadə edilməsidir. Evristik qabaqgörənlik fikrin təhlil obyektindən onun nəticəsinə doğru bilavasitə hərəkətindən ibarətdir. Bu qabaqgörənliyin vasitələrindən biri olaraq intuisiya çıxış edir. İntuisiya isə tədqiqat subyekti tərəfindən nurlanmaya qədər bilavasitə dərk edilməyən təcrübənin, bacarığın, biliklərin aktuallaşmasıdır.

Sosial qabaqgörənliyin bir neçə formas ı var:

- ürəyədamma sadə qabaqsezmədir. Bu, həm psixi-fizioloji, həm də sosial hadisədir; bir çox insanların həyatında təcəssümləşir və əks olunur; adətən ehtimali hadisələrin gözlənilməsilə bağlıdır;
- qabaqduyma – mürəkkəb qabaqsezmədir. İnsanın intellektual fəaliyyətinin növlərindən biridir, şəxsi təcrübəyə əsaslanır və onun öz şəxsi taleyinin, peşəsinin, ünsiyyət mühitinin gələcəyi haqqında təsəvvüründə təzahür edir;
- elmi qabaqgörənlik – müəyyən təbiət hadisəsinin və yaxud ictimai hadisənin meydana gəlməsinin səbəblərinin fəaliyyəti xüsusiyyətlərinin və inkişaf gedişinin dərk edilmiş olduğu halda həmin hadisənin inkişaf qanunauyğunluqlarından çıxan nəticədir;
- bütün cəmiyyət çərçivəsində gözlənilən və bütün bəşəriyyətlə və yaxud onun böyük qrupları ilə bağlı olan gələcək dəyişikliklərin məcmusunun müəyyənləşdirilməsi.



Qabaqgörənlik prosesi təfərrüata nüfuz etməməli, keyfiyyət dəyişənlərinin yetişməkdə olduğunu səciyyələndirən indikatorlar üzərində cəmləşdirilməli, rasional və intuitiv olanın optimal şəkildə *əlaqələndirilməsinə, birləşdirilməsinə əsaslanmalıdır.* Bu halda da rasional olan aparıcı rol oynayır və coşqun fantaziyanı məhdudlaşdırır.

İdarəetmədə *sosial proqnozlaşdırma – qabaqgörənliyin konkretləşdirilməsi prosesi, onun nəticəsi* mühüm əhəmiyyətə malikdir. Sosial proqnozlaşdırmanın məqsədi sistemin keçmişdə vəziyyətinin və davranışının təhlilindən və nəzərdən keçirilən sistemə təsir göstərən amillərin dəyişməsinin mümkün meyllərinin öyrənilməsindən ibarətdir. Proqnozlaşdırmada cəmiyyətin gələcək inkişafının ümumi cəhətləri və xüsusiyyətləri aşkara çıxarılır. Proqnozlaşdırmanın əsasında strategiya işlənib hazırlanır, onun həll edilməsi vəzifələri və yolları müəyyən edilir, proqnozlar və planlar tərtib olunur. Planlarda göstəricilər və tapşırıqlar, onların həyata keçirilməsinin əsas vasitələri, müddətləri və templəri göstərilir. Planlaşdırma həmçinin gələcək haqqında bilik deməkdir, lakin planlaşdırmanın vəzifəsinə sosial qabaqgörənliyin və proqnozlaşdırmanın nəticələrinin idarəetmə fəaliyyətinə çevrilməsi daxil olur.

Sosial proqnozlaşdırma inkişaf variantlarının müəyyən edilməsini və resurslardan, vaxtdan və sosial qüvvələrdən çıxış edərək daha münasib, optimal olanın seçilməsini nəzərdə tutur. Sosial proqnozlaşdırma mümkün olan qərarların ehtimallıq dərəcəsinin müfəssəl təhlilini və çoxvariantlılığını nəzərdə tutur.

Sosial proqnozlaşdırma direktiv xarakter daşımır, yalnız qərarın əsaslandırılması və planlaşdırma metodlarının seçilməsi üçün informasiya verir, gələcəkdə inkişafın bu və ya digər yolunun imkanını göstərir.

### Sosial proqnozlaşdırmanın metodları

*Ekstrapolyasiya.* Bu metod proqnozlaşdırılan prosesin göstəricilərinin hadisənin bir hissəsinin tədqiqindən alınmış nəticələrin bu hadisənin başqa hissələrinə və yaxud müasir reallıqların tədqiqi nəticələrinin gələcək hadisələrə şamil edilməsilə dinamik (statistik və yaxud məntiqi) sıralarının qurulmasına əsaslanır. Mürəkkəb ekstrapolyasiya formullarının, müasir riyaziyyatın və kibernetikanın cəbbəxanasını təşkil edən ehtimallar nəzəriyyəsinin, oyunlar nəzəriyyəsinin nəticələrinin istifadə edilməsi səmərəlidir.

*Ekspert metodları.* Ekspert metodlarına analitik tədqiqləri, "dəyirmi masalar"ın iclaslarını, ekspert qiymətlərini aid edirlər. Bu sonuncular ekspertlərin fərdi rəylərinin məcmusunun işlənilməsi və təhlili əsasında proqnozlaşdırma obyektinin keyfiyyət və kəmiyyət tərəflərinin obyektiv xarakteristikasını verirlər.

*Edip effekti.* Onun mahiyyəti proqnozun özünü həyata keçirməsi və yaxud özü-özünü məhv etməsi imkanından ibarətdir; əgər bu prosesə insanların yaradıcı fəaliyyəti qoşulursa və bu fəaliyyət prosesində müsbət gözləmələr reallaşırsa və yaxud təhlükə sezmələri aradan qaldırılırsa.

*Morfoloji sintez metodu.* Bu metod öyrənilən problemin bütün parametrləri üzrə müntəzəm informasiyanın alınmasını nəzərdə tutur və aşağıdakı suallara cavab verir: a) proqnoz informasiyasının alınması üçün hansı vasitələr lazımdır; b) hadisələrin baş verməsinin ardıcıllığı nədən ibarətdir; v) hazırkı problemin bütün həlli vasitələrinin, metodlarının, mərhələlərinin tətbiqini necə izləməli.

*Proqnoz ssenarisi metodu.* Məntiqi ardıcıllıqla səciyyələnir. Bu məntiqi ardıcıllıq real situasiyadan çıxış edərək tədqiqat obyektinin, sosial prosesin və yaxud hadisənin gələcək vəziyyətinin addım-addım necə baş verdiyini göstərir. Proqnoz ssenarisi inkişaf perspektivlərini müəyyən edir.

*Proqnoz qrafaları.* Proqnoz qrafaları istiqamətləndirilmiş və istiqamətləndirilməmiş ola bilər, sikllərə malik ola bilər və yaxud olmaya bilər, əlaqəli və ya əlaqəsiz ola bilər və s. Bu qrafalar proqnoz məqsədlərinin, ssenarisinin formulə edilməsində, proqnozların səmərəliliyinin səviyyələrinin və meyarlarının müəyyən edilməsində iştirak edir.

*Modelləşdirmə metodu.* Bu metod inkişaf alternativlərinin



axtarışına əsaslanır; bu da hazırkı şərait üçün optimal olan variantı seçməyə imkan verir.

### Sosial layihələşdirmə

Sosial layihələşdirmə – sosial problemlərin elmi cəhətdən əsaslandırılmış həllinin müxtəlif variantlarının işlənib hazırlanması üzrə məqsədyönlü fəaliyyətdir. Qərarın işlənib hazırlanması və qəbulu formalarından biri kimi sosial layihələşdirmə idarəetmənin, onun digər funksiyalarının reallaşdırılmasını təmin edən siklinin mühüm elementidir. Sosial layihələşdirmə mövcud maddi, əmək və maliyyə resurslarından çıxış edərək, qərarların çoxvariantlılığını qəbul edir və ciddi zaman məhdudiyyətinə malik deyildir.

Sosioloqlar sosial layihələşdirmənin reallaşmasının bir neçə elmi metodunu fərqləndirirlər.

*İdeyalar matrisası* – bir neçə müstəqil dəyişənlərdən istifadə edərək, qərarların müxtəlif variantlarını hazırlayırlar ki, bunların əsasında da nəzərdə tutulmuş şəraitdə layihənin həyata keçirilməsinin ən səmərəli yolunu müəyyən edirlər.

*Rola daxil olma* – bu metod bunun haqqında daha dəqiq təsəvvür almağa imkan verir ki, layihələşdirmə prosesində nə etmək lazımdır (layihəçi mövcud sosial problemi optimal həll etmək üçün prosesin getdiyi şəraiti diqqətlə öyrənir).

*Analogiya metodu* – əsas kimi bu və ya digər sosial problemlərin həllində artıq mövcud olan nailiyyətlərdən istifadə etməklə sosial vəzifələrin və məqsədlərin hazırlanması üçün sosial layihənin yaradılmasıdır.

*Assosiasiya metodu* – buna əsaslanır ki, bəzən müəyyən sosial problemin həlli ictimai həyatın bu və ya digər sferasında düzgün seçim etməyi göstərə bilər. Assosiasiya metodu obyektin fəaliyyətinin əvvəlki prinsiplərinin kənar edilməsi ilə də və onların layihələşdirilən məlumatların köklü surətdə yenidən dəyişdirilməsinə aparan yeni çıxış müddəaları ilə əvəz edilməsilə də bağlıdır.

*Beyin hücumu metodu* – bu və ya digər layihə problemlərinin optimal həlli axtarışını irəlilətməyə qadir olan özünəməxsus ideyalar müsabiqəsi elan edilərkən mövcud bütün intellektual potensialın səfərbər edilməsini nəzərdə tutur.

*Sinektika metodu* – bir-birindən ayrı olaraq təklif edilmiş bir neçə

ideyanın nəzərdən keçirilməsidir və sonra isə onların arasında müəyyən qarşılıqlı əlaqə və qarşılıqlı asılılığın qurulmasıdır.

Layihələşdirmə bir neçə mərhələdən ibarətdir: ictimai tələbatın mahiyyətinin axtarışı ilə bağlı olan başlanğıc mərhələ; həmin ictimai tələbatın təhlili layihələşdirmə elə prosesinin əsasında durur;

- sosial layihənin işlənib hazırlanması məqsədinin dəqiqləşdirilməsi mərhələsi, həmin məqsəd ictimai tərəqqinin tələblərindən çıxış edərək, əldə edilməsi arzu olunan vəziyyətin xarakteristikasında ifadə olunur;
- zəruri informasiyanın, o cümlədən elmi tədqiqatların nəticələrinin toplanılması, layihələşdirmə üçün tapşırığın tərtib edilməsi və onun parametrlərinin müəyyən edilməsi mərhələsi;
- müxtəlif həll variantlarını özündə birləşdirən tapşırığın formulə edilməsi mərhələsi; konsepsiyanın yoxlanılması iki istiqamətdə baş verir: nəzəri təhlil vasitəsilə və eksperimentin köməyi ilə;
- qərarın qəbul edilməsi, yəni konkret fəaliyyət proqramının işlənib hazırlanması mərhələsi;

Sosial layihələşdirmə çox vaxt yeni istehsallarla və yeni şəhərlərlə bağlı olur. İstehsalların layihələşdirilməsi zamanı işçi qüvvəsinin komplektləşdirilməsi və təsbit edilməsi, əmək şəraitinin yaradılması, peşə hazırlığının yüksəldilməsi və s. kimi vasitələri nəzərdə tutmaq, həmçinin məhsuldar qüvvələrin inkişaf səviyyəsini və insanların gözlənilən işin xarakteri haqqında, onların işləməli olacaqları təşkilatda həyat, əmək şəraiti haqqında məlumatlandırılmasını nəzərdə tutan sosial adaptasiya prosesini nəzərə almaq lazımdır. Beləliklə, yeni istehsalatların sosial layihələşdirilməsi sosial həyat qüvvələrindən birinin – işçilərin və onların ailə üzvlərinin – yeni və yaxud yenidən qurulan sosial institutlar, sosial proseslər və hadisələr şəraitində hazırlanması, işlənib hazırlanması və təsdiq olunması prosesidir.

Şəhərlərin iqtisadi və sosial inkişafının kompleks təhlilləri hazırlanarkən əhalinin həyatının sosial aspektlərinə olduqca diqqətli yanaşmaq lazımdır. Bu cür layihə – planların məziyyəti ondan ibarətdir ki, onlar birincisi, çox mühüm təsərrüfat vəzifələrindən birinin həllinə kömək edir, həmin layihə-planların həyata keçirilməsi bütün aspektlərin – texniki aspektlərdən tutmuş sosial aspektlərə qədər hamısının kompleks uçotunu nəzərdə tutur.



## 2.6. Sosial idarəetmənin texnologiyası

"Texnologiya" anlayışı texniki bilik sistemində meydana gəlmişdir. Bu anlayış altında əmək alətlərilə əmək cisminin müxtəlif xassələrinə təsir metodlarının məcmusu başa düşülürdü. Bizim günlərdə bu anlayışın məzmunu genişlənmişdir.

Sosial texnologiya – qabaqcadan proqramlaşdırılmış nəticəni əldə etmək məqsədilə sosial obyektə məqsədyönlü təsir prosesidir, nəticəli və məqsədyönlü təsir metodlarının və metodikalarının işlənib hazırlanmasıdır.

Aşağıdakı texnologiyaları fərqləndirirlər:

- mikrosistemlərin makrotexnologiyaları (cəmiyyətin regional altsistemləri, siniflər, partiyalar, böyük sosial qruplar);
- şəhər və digər yaşayış məntəqəsi, iri əmək kollektivi səviyyəsində mezotexnologiyalar;
- insanların kiçik birlikləri, mikrosəviyyədə ictimai proseslər üçün nəzərdə tutulmuş mikrotexnologiyalar.

İdarəetmədə texnologiyanın məzmunu bütövlükdə təşkilatın fəaliyyətinin səmərəliliyinin artırılması məqsədilə başlıca resurs kimi insana təsir vasitələri ilə eyniləşdirilir. İnsanların idarə edilməsi prosesi humanitar texnologiyanı təşkil edir. Bu texnologiyanın başlıca funksiyası əmək kollektivinin təşkilidir. Həmin texnologiya aşağıdakı elementlərdən ibarətdir: kadr siyasətindən, əməkdaşların ixtisas dərəcəsinin və sosial mobilliyinin artmasının təmin edilməsindən; işçilərin motivasiyasından; onların stimullaşdırılmasından; kommunikasiyanın və əks əlaqənin inkişafından; münaqişələrin idarə edilməsindən.

Kadr siyasəti – müasir təşkilatların səmərəliliyinin aparıcı amilidir. Kadr siyasətinin ən mühüm prinsipi intellektə əsaslanmaqdır. Axı nahaq yerə deyil ki, bütün istedadlı insanlar özlərini özlərinə oxşar adamlarla əhatə etməyə çalışırlar. Lakin istedadlı adamlara rəhbərlik etmək üçün xüsusi qabiliyyət və bacarıq lazımdır.

Menecmentdə kadr siyasətinin aşağıdakı çox mühüm elementlərini fərqləndirirlər:

- xidmət sahəsində irəliləmə perspektivinin və zəmanətinin mövcudluğu;
- əməkdaşların istehsalın bütün mərhələlərini öyrənmələri məqsədilə onların istər şaquli və istərsə də üfüqi şəkildə yerdəyişmələri;

- təcrübəli mütəxəssislərin cavanlar üzərində kuratorluğu;
- özünü yaxşı göstərmiş gənc mütəxəssislər içərisindən irəli çəkilmək üçün ehtiyatın formalaşdırılması;
- hər bir yerdəyişmə qabağı istehsaldan ayrılmaqla yaxud ayrılmamaqla ixtisasın artırılması;
- müxtəlif vəzifələrdə stajkeçmə, məzuniyyət və s. vaxtlarda müxtəlif işçilərin əvəz edilməsi praktikası;
- birinci rəhbərin vəzifəsi də daxil olmaqla bütün vəzifələr üçün yaş senzinin qoyulması;
- pensiya yaşına çatmış, lakin öz potensialını saxlamış işçilərə başqa vəzifələrin təklif edilməsi.

Əməkdaşların peşə səviyyəsinin yüksəldilməsi səmərəli əmək davranışına kömək edən təlimi, öz hazırlığı və yenidən hazırlanmanı nəzərdə tutur. Səmərəli əmək davranışı – öz vəzifələrini vicdanla yerinə yetirən və əlavə çalışmağa həvəslə hazır olan insanın davranışıdır. Fəal əmək davranışı və onun formaları motivlərlə, daxili səylərlə, dəyərlərlə şərtlənir.

Vətən sosioloqları əmək fəaliyyətinə sövq edən motivlər olaraq bunları fərqləndirirlər: peşəsinə, öz işinə məftunluq; maksimum maddi mükafat almağa meyllilik; maddi cəhətdən işçini hətta o qədər də cəlb etməyən işin əhəmiyyətinin və lazımlılığının dərk edilməsi.

Qərb sosioloqları əmək davranışı motivlərinə hər şeydən əvvəl aid edirlər: iş mühitini, mükafatlandırmanı, təhlükəsizliyi, şəxsi inkişafı və peşə inkişafını, mənsubluq hissini, maraq və meyli (bax: Vudkok, Frensis, 1991).

Stimullaşdırma – işçinin əmək davranışına onun motivasiyası ilə vasitələnmiş təsir metodudur. Motivasiyanın öyrənilməsi başa düşməyə imkan verir ki, insanları işləməyə məcbur edən nədir, onların fəaliyyət üsulunu seçmələrinə təsir edən nədir və nə üçün olanlar müəyyən vaxt ərzində bu üsula əməl edirlər (bax: IV bölmə, 8-ci fəsil).

Davranışının nə dərəcədə uğurlu olmasından asılı olaraq insan mükafat alır, yəni öz tələbatlarını ödəyir, təmin edir. Alınmış mükafat insanın öz davranışının münasibliyinə qiymət verməsinə və həm də gələcəkdə onu təkrar etməsi imkanına təsir göstərir.

Motivasiya prosesinin məntiqinin dərk edilməsi bu prosesin idarə edilməsində önəmli üstünlüklər yaratmır. Motivasiyanın praktik cərəyan etməsi prosesini mürəkkəbləşdirən və qeyri-aydın edən bir neçə amili misal göstərmək olar. Birincisi, motivlərin aydın, olmamasıdır. İkincisi,



motivasiya prosesinin dəyişkənliyidir. Üçüncüsü, ayrı-ayrı insanların motivasiya strukturlarının müxtəlifliyi, müəyyən motivlərin təsirinin başqa motivlərdən asılılıq dərəcəsinin müxtəlif olmasıdır.

Texnologiya hər cür idarəetmə fəaliyyətinin mühüm, önəmli tərəfidir. Texnologiya nəzəri sistem kimi elmi sosial praktika ilə əlaqələndirir və S. Yanqın fikrinə görə o deməkdir ki, "istənilən problemlərin həlli yolunda eyni mərhələlər həyata keçirilir və eyni qaydada".[1]

Sosial idarəetmənin texnologiyası i d a r ə e t m ə s i k l i n i n köməyilə təsvir olunur.

İdarəetmə siklinin modeli cəmiyyətdə idarəetmənin məntiqi olaraq bir-birinin ardınca gələn mərhələləri və yaxud dövrləridir. İdarəetmə siklinin mahiyyəti və mərhələləri barədə sosioloqların nöqteyi-nəzərləri bir-birindən fərqlənir. R. Akoff dörd mərhələni fərqləndirir: qərarların qəbul edilməsi, tətbiq edilməsi, qiymətləndirilməsi və dəyişikliklər haqqında tövsiyə[2]. V.Q.Afanasyev hesab edir ki, idarəetmə sikli aşağıdakı mərhələlərdən ibarətdir: idarəetmə qərarının işlənib hazırlanması və qəbulu, təşkiletmə, təshihetmə, uçot və nəzarət.[3] V.A.Abçuk və S.Yanq idarəetmə siklini daha artıq dərəcədə detallaşdırır. Q.A. Arbatov məqsədli-proqram və kompleks yanaşmanın nailiyyətlərindən istifadə edərək, əsas mərhələlər olaraq aşağıdakıları göstərir: son və aralıq məqsədlərin aşkarlanması və əsaslandırılması, həll olunan vəzifənin hissələrinin, onun digər vəzifələrlə və obyektlərlə qarşılıqlı əlaqələrinin müəyyənləşdirilməsi və vahid sistemə müncər edilməsi; bütövlükdə vəzifənin və onun ayrı-ayrı elementlərinin alternativ yollarının aşkarlanması və təhlili; alternativlərin müqayisə edilməsi; proqramı reallaşdırmalı və daha artıq səmərəni təmin etməli olan təşkilatın strukturunun yaradılması; işlərin maliyyələşdirilməsi və həyata keçirilməsi üzrə konkret proqramların işlənib hazırlanması və qəbulu.

M. Markov idarəetmə siklinin aşağıdakı mərhələləri özündə birləşdirən abstrakt modelini təklif edir:

- məqsədli mərhələ – problemlə tanışlıqdan, onun həllinin zəruriliyinin dərk edilməsi prosedurlarından, hər şeydən əvvəl, məqsədin

---

[1] *Янг С.* Системное управление организацией. М., 1972. С.61.
[2] Вах: *Акофф Р.* Планирование в больших экономических системах. М., 1972.
[3] *Афанасьев В.Г.* Научное управление обществом. М., 1973.

formula edilməsindən ibarətdir. İdarəetmənin səmərəsi obyektiv olaraq həll edilməli olan problemlərin öyrənilməsinin və dərk edilməsinin vaxtında həyata keçirilməsindən asılıdır. Problemlərin öyrənilməsi və dərk edilməsi arasında vaxt məsafəsi böyük olmamalıdır, başqa cür olsa, o bu mərhələdə ziddiyyətləri mürəkkəbləşdirər və münaqişə vəziyyətinə gətirib çıxara bilər. Bu mərhələdə ən önəmli prosedur məqsədin formula edilməsidir;

- deskriptiv mərhələ – informasiyanın toplanılması və işlənib hazırlanması (real situasiyanın, müəyyən məlumatların təsviri);
- perspektiv mərhələ – təsviredici informasiyanın sərəncamverici, komandaverici informasiyaya çevrilməsilə bağlı olan fəaliyyət növlərini əhatə edir. Bu mərhələ idarəetmə qərarlarının işlənib hazırlanması və qəbulunu özündə əks etdirir. İdarəetmənin necə fəaliyyət göstərəcəyi, sosial subyektin fəaliyyətinin səmərəsinin nədən ibarət olacağı idarəetmə qərarlarının qəbulundan asılıdır;
- reallaşdırma mərhələsi – mövcud meyarlara uyğun olaraq optimal hərəkət variantının seçilməsi, vasitələrin, resursların və qüvvələrin daha səmərəli paylaşdırılması, prosesin konkret gedişinin proqramlaşdırılması, icraçılar arasında məsuliyyətin bölgüsü və s.;
- retrospektiv mərhələ – idarəetmə qərarının yerinə yetirilməsi nəticələrinin ümumiləşdirilməsi və təhlili, onun "faydalı təsir əmsalı"nın nəzərə alınması[1].

## 2.7. Rəhbərin əsas funksiyaları, işçi heyətin idarə edilməsi

Rəhbər – idarəetmə prosesində mərkəzi, simadır, insan birliklərinin fəaliyyətini istiqamətləndirmək, idarəetmə qərarlarını qəbul etmək, idarəetmənin məqsədləri və funksiyalarının reallaşdırılması üzrə təşkilati və nəzarət fəaliyyətini həyata keçirmək hüququ olan şəxsdir. Rəhbərin mahiyyəti "şəxsiyyət – insan birliyi" münasibətində, onun insan kollektivlərinə rəhbərlik etmək hüququnda təzahür edir. Rəhbərin real hakimiyyətinin, onun sosial proseslərə və insanlara təsir etmək imkanının iki əsas mənbəyi var – rəhbərin hüquqi-dövlət statusu və qazanılmış ictimai nüfuz. Müəyyən sosial şəraitdə bu mənbələr tam şəkildə və ya qismən bir-biri ilə qovuşa bilər. Rəhbərin hüquqi-dövlət statusu öz səlahiyyəti çərçivəsində normativ və fərdi aktlar barədə

[1] Bax: *Марков М.* Теория социального управления. М., 1978.



sərəncam vermək, onları təsdiq etmək və zərurət olduqda dövləti məcburetmə hüququnu nəzərdə tutur.

Sosial idarəetmə mahiyyət etibarı ilə insanların, insan kollektivlərinin idarə edilməsi deməkdir. Buna görə də rəhbərin nüfuzu nə qədər yüksək olarsa, onun müvafiq sosial birliklərə, onların fəallığına, müəyyən vəzifələrin həllinə, qarşıya qoyulmuş məqsədlərə nail olunmasına təsir etmək imkanları bir o qədər çox olar.

Rəhbərin vəzifələrinə sosial qruplara rəhbərliyin bütün əsas elementlərinin həyata keçirilməsi daxildir. Rəhbər nəinki təsərrüfat hesabatları ilə, eyni zamanda əməkdaşların qarşılıqlı münasibətlərilə maraqlanmalı, özünün bütün davranışı və rəhbərlik tərzi ilə kollektivin əməyi və mənəvi inkişafı üçün əlverişli sosioloji-psixoloji iqlimin formalaşdırılmasına kömək etməlidir

Bəzi müəlliflərin fikrinə görə rəhbərliyin başlıca funksiyaları planlaşdırma, təşkiletmə, idarəetmə və əlaqədir. Bu funksiyaların köməyilə zəruri resursların qoyulmuş məqsədə çatmaq üçün ümumi sistemdə birləşdirilməsi həyata keçirilir.[1] D. Kliland və V. Kinq rəhbərin funksiyalarını strateji funksiyalara – qərarların qəbul edilməsinə və onların yerinə yetirilməsi üçün təşkilat qarşısında vəzifələrin qoyulmasına müncər edirlər.[2]

İdarəetmə üzrə amerikan assosiasiyası rəhbərin fəaliyyətində səkkiz funksiyanı fərqləndirir: planlaşdırma, təşkiletmə, məqsədə nail olunması, problemin identifikasiyası, qərar qəbul edilməsi, məsuliyyətin və səlahiyyətlərin ötürülməsi, icraya nəzarət, motivləşdirmə[3].

Rəhbərin funksiyaları həmçinin spesifik rəhbər funksiyası (obyektiv sosial tələbatlara adekvat olan məqsədlərin işlənib hazırlanması və elan edilməsi); idarəedici-sərəncamverici funksiya (qərarlar qəbul etmək, direktivlər və göstərişlər vermək, bu prosesə operativ müdaxilə etmək, idarə olunun sistemin əmək resurslarını və digər resursları bölmək və göndərmək hüququ və vəzifələri); təşkilatçılıq funksiyası (insanların fəaliyyətini müəyyən sxem üzrə istiqamətləndirmək, ayrı-ayrı fərdlərin səylərini qrupun səyləri halında birləşdirmək,

[1] Bax: *Джонсон Р., Каст Ф., Розенцвейг Д.* Системы и руководство. М., 1971.

[2] Bax: *Клиланд Д., Кинг В.* Системный анализ и целевое управление. М., 1974.

[3] Bax: Организация управления: Реферативный сборник. 1976. № 2.

məqsədə nail olmaq üçün konkret fəaliyyət növünü təşkil etmək) və tərbiyəvi funksiya (ictimai şüurun bir-biri ilə qarşılıqlı əlaqədə olan komponentlər sisteminin formalaşdırılması) halında təsnifatlaşdırıla bilər.

Müasir şəraitdə rəhbər kadrların seçilməsi, qiymətləndirilməsi və irəli çəkilməsi problemi xüsusi aktuallıq kəsb edir. Hər bir idarəetmə sistemi zəruri olaraq subyekti (idarəedici blok), obyekti (idarə olunan blok) və onlar arasında qarşılıqlı informasiya təsirini özündə birləşdirir.

Rəhbərlər müxtəlif statuslara və funksiyalara malik tabelikdə olanlarla qarşılıqlı təsirdə olurlar. Bu cür qarşılıqlı təsir funksional – rol xarakteri daşıyır. Kollektivdə rəhbərin rolu olduqca önəmlidir, axı məhz rəhbər sosial təşkilatı müdafiə edə bilər, onu dəyişdirə və yaxud məhv edə bilər. Buna görə də idarəetmə rolu ən azı iki şərti nəzərdə tutur:

- idarəetmə ünsiyyətinin müəyyən formalarının mövcudluğu;
- qarşılıqlı təsirdə olan subyektlərlə özlərinin şəxsiyyət keyfiyyətlərinin qarşılıqlı surətdə təkmilləşdirilməsi.

İdarəetmə ünsiyyəti iki formada həyata keçirilir: tabelikdə olanlarla situasiya ilə bağlı qarşılıqlı təsir formasında ("açıq qapılar siyasəti" və s.); rəhbərlərlə formallaşdırılmış və təşkilati görüşlər formasında (istehsalat müşavirələri, yığıncaqlar, konfranslar).

İdarəetmə ünsiyyətində rəhbərin dinləmək, inandırmaq və adamlar qarşısında çıxış etmək bacarığının mühüm əhəmiyyəti var. Tabelikdə olanlarla ünsiyyətdə olarkən situasiyaya nəzarət etmək zəruridir. Rəhbərdən gələn informasiyanın daha dolğun qavranılması üçün münasibətlərdə qarşılıqlı səmimiyyətin olması əhəmiyyətlidir.

Nitq kommunikasiyası – rəhbər ilə tabelikdə olan arasında qarşılıqlı münasibətlərin nəinki dinləməyi, eyni zamanda danışmaq bacarığını nəzərdə tutan "təkandır". Sosiologiyada kommunikasiyanın eyni vaxtda reallaşan iki səviyyəsini fərqləndirirlər: 1) məzmunun səviyyəsi və 2) münasibətlərin səviyyəsi. Məhz münasibətlərin səviyyəsi prioritetdir: o rəhbərin dalınca şüurlu və yaxud şüursuz, həvəslə və asanlıqla gedirlər ki, onu sevirlər, ona hörmət edirlər, onu nümunə kimi qəbul edirlər. Deməli, idarəetmə etikasından danışmaq olar.

İdarəetmə etikasının ümumi əxlaq nəzəriyyəsindən əxz olunmuş kateqoriyalarının əsasında insana, onun hüquqlarına və məziyyətlərinə hörmət etmək tələbi durur. Hamı üçün eyni dərəcədə məcburi olan qaydalardan ibarət fərdi davranış məcəlləsi mövcuddur. Lakin rəhbər başqalarından daha çox özünü elə bir şəxsiyyət kimi dərk etməlidir ki, bu



şəxsiyyətə oxşamaq istəyirlər, onu təqlid edirlər. Buna görə də rəhbər özünə qiymət verməli, səmərəli idarəetmə haqqında təsəvvürlərə uyğun öz obrazını yaratmalıdır. Peşəkar özünüqiymətləndirmənin formalaşmasının mühüm şərti – şəxsi nailiyyətlərin səviyyəsidir. Rəhbər daim təkmilləşməlidir. Məhz bu xassəni – rəhbərin, ona səmərəli əmək fəaliyyəti ilə məşğul olmaq imkanı verən səciyyəvi cəhətlərinin təkmilləşdirilməsini ingilis mütəxəssisləri M. Vudkok və D. Frensiz elə idarəetmə deyə başa düşürlər. Bu səciyyəvi cəhətin sırasına onlar aid edirlər: sağlamlıq, ziyanlı vərdişlərin olmaması; çalışqanlıq və həyat enerjili olmaq; həyata və işə sakit və tarazlıqlı yanaşma; stressin öhdəsindən gəlmək qabiliyyəti, vaxtdan səmərəli istifadə etmək (bax: Vudkok, Frensiz, 1991).

Səmərəli rəhbər özünü idarə etməyi, özünü həsr etməyi, müvafiq imic yaratmağı, cazibədar olmağı bacarır. Öz bacarıqlarını və biliklərini özünün təqdim etməsi – peşəkarlıq məharətidir. Buna sahib olunması isə daim çalışmağı və özünə nəzarət etməyi tələb edir. Mütəxəssislər xidməti statusundan, cinsindən, yaşından, təbii keyfiyyətlərinin olmasından və yaxud olmamasından və s. asılı olaraq rəhbərin imicinin formalaşmasının bir sıra texnologiyalarını işləyib hazırlayıblar. Bu mütəxəssislər həmçinin geyim tərzinə diqqət yetirirlər, belə ki. geyim şəxsiyyəti kifayət qədər parlaq səciyyələndirir.

*Lider* – hər hansı bir məqsədə çatmaq üçün insanları birləşdirməyə qadir olan şəxsiyyətdir. Liderlik liderin şəxsi keyfiyyətlərinin onun təsir etməyə çalışdığı insanların keyfiyyətləri ilə qarşılıqlı münasibətindən və içərisində mövcud qrupun olduğu situasiyadan asılı olan təsirin dərəcəsi ilə müəyyən olunur. Həll olunan vəzifələrin miqyasından asılı olaraq liderliyin üç tipini fərqləndirirlər:

- məişət tipi (məktəb, tələbə birliklərində və s.);
- sosial tip (istehsalatda, idman cəmiyyətlərində və s.);
- siyasi tip (dövlət xadimləri, ictimai xadimlər).

"Rəhbərlik" və "liderlik" anlayışları bir-birinə yaxındır, lakin eyni deyillər. "Rəhbər" sözü hərfi mənada "əlindən tutub aparmaq" deməkdir. Rəhbərin məqsədi – başqalarına elə tərzdə təsir etməkdir ki, onlar təşkilata tapşırılmış işi yerinə yetirsinlər. Liderlik – ayrı-ayrı şəxsiyyətlərə və qruplara təsir etmək, onların səylərini təşkilatın məqsədlərinə nail olunmasına yönəltmək bacarığıdır.

Sosiologiyada formal və qeyri-formal liderliyi bir-birindən fərqləndirirlər. Formal liderlik – şəxsin təşkilatın üzvlərinə özünün

rəhbər mövqeyinə əsaslanan təsiridir. Rəhbərlik – həmişə formal liderlikdir. Qeyri-formal liderlik – rəhbərlik hüquqlarını qrupun tanıdığı insanın bacarığı, qabiliyyətidir. Qeyri-formal rəhbər heç də həmişə rəhbər olmur.

"Lider" və "menecer" idarəetmə problemlərinin məzmununa və heyətə təsirinə görə bir-birindən əhəmiyyətli dərəcədə fərqlənirlər. Menecment üzrə tanınmış amerikan nəzəriyyəçisi və praktiki L. Cekson qeyd edir ki, menecerlər insanları lazım olan şeyləri icra etməyə məcbur edirlər; liderlər lazım olanı yerinə yetirmək istəyi doğururlar.

Təşkilatçılıq bacarıqlarına malik olan lider situasiyanı dərhal və düzgün qiymətləndirməyi, ümdə vəzifələri fərqləndirməyi bacarır. Napoleon özü haqqında demişdir: "Mənim düham bundan ibarətdir ki, mən sürətli bir baxışla işdəki bütün çətinlikləri qavrayırdım, lakin eyni zamanda da həmin çətinlikləri aradan qaldırmaq üçün bütün resursları əhatə edirdim; mənim başqaları üzərində üstünlüyüm buna minnətdardır".

Lider yalnız asılı olduğu və onun şəxsi üstünlüyünü etiraf edən qrupun mövcud olduğu halda mövcud ola bilər. Bu halda başlıca rolu etimad oynayır.

"Etimad" nüfuz sahibi ilə daxili razılıqdır, onun qayələrinə uyğun olaraq hərəkət etməyə hazır olmaq deməkdir. Bir tərəfdən, qrup liderdən modelə uyğunluğu tələb edir, digər tərəfdən isə, lider qrupun maraqlarını ifadə etməlidir. Liderin rolu bundan ibarətdir ki, o, öz tərəfdarlarının baxışlarını razılaşdırılmış fəaliyyət proqramına çevirsin, həmçinin qrupun yekdilliyini, birliyini qorusun, müdafiə etsin. Lider – qrupun "güzgüsüdür": lider məhz bu qrupda bəyənilən və arzu olunan cəhətləri öz şəxsində daşıyır.

Lider real situasiyanı düzgün təhlil etməyi bacarmalıdır. Bunun sayəsində o, davranış xəttini, fəaliyyət proqramını formalaşdırır və qərarlar qəbul edir. Qəbul edilmiş qərarları icra etmək üçün rəhbər icraçıların seçilməsini, yerləşdirilməsini, qərarları (dəqiqləşdirilmiş və icra yerinə tətbiqən adaptasiya olunmuş) həmin icraçıların nəzərinə çatdırmağın yollarını və üsullarını, icra üçün xarici və daxili şəraitin yaradılmasını, icraçıların fəaliyyətinin əlaqələndirilməsini, əldə edilmiş nəticələrin yekunlaşdırılmasını və təhlilini nəzərdə tutmalıdır.

Liderin təsnifatları müxtəlifdir: üstünlük təşkil edən f u n k s i y a l a r əsasında fərqləndirirlər:

- təşkilatçı lider – fəal surətdə hərəkət edərək, kollektivin



ehtiyaclarını özünün xüsusi ehtiyacları kimi qəbul edir;

- yaradıcı lider – vəzifəni elə şəkildə qoyur ki, o, insanları maraqlandırsın və cəlb etsin;
- mübariz lider – bu cür liderin üslubu - "igidlərin ağılsızlığıdır";
- diplomat lider – situasiyanın, onun gizli detallarının əla idrakına əsaslanır, o, dedi-qodulardan və qeybətdən xəbərdardır və buna görə də kimə və necə təsir etməyi dəqiq təsəvvür edir;
- təskinləşdirici lider – çətin anda yardım etməyə, əl uzatmağa hazırdır.

F ə a l i y y ə t i n məzmununa görə liderliyi fərqləndirirlər: işgüzar, emosional və informasiyalı liderlik.

Mürəkkəb təşkilatın qarşıya qoyulmuş məqsədə çatması üçün bütün idarəetmə funksiyalarının reallaşdırılmasını təmin etmək lazımdır. Səmərəli rəhbərlik yoxdursa, planlaşdırma, təşkiletmə, motivasiya və nəzarət funksiyalarını səmərəli yerinə yetirmək mümkün deyildir.

Rəhbərliyin idarəetmənin mühüm komponenti olmasına baxmayaraq səmərəli liderlər heç də həmişə səmərəli idarəçilər ola bilmirlər. Liderliyin səmərəliliyini liderin ətrafdakılara göstərdiyi təsir sübut edir. Təşkilatın rəhbəri – eyni vaxtda həm lider olan və həm də özünün tabeçiliyində olanları səmərəli şəkildə idarə edən insandır. Öz liderliyini və təsirini səmərəli etmək üçün rəhbər öz hökmünü də yeritməlidir, işə salmalıdır. Hakimiyyət – başqalarının davranışına təsir etmək imkanıdır.

Hakimiyyət və liderlik sahəsində tədqiqatçılar olan Frenç və Reyven hakimiyyətin əsaslarının münasib təsnifatını işləyib hazırlamışlar. Onlar beş aparıcı formanı seçiblər:

1) məcburetməyə əsaslanan hakimiyyət – icraçı inanır ki, təsir göstərən şəxs hər hansı vacib tələbatın təmin edilməsinə kömək etmək üçün pislik etmək və yaxud cəzalandırmaq imkanına malikdir;

2) mükafatlandırmaya əsaslanan hakimiyyət – icraçı inanır ki, təsir göstərən vacib tələbatı təmin etmək və yaxud zövq vermək imkanına malikdir;

3) ekspert hakimiyyəti – icraçı inanır ki, təsir göstərən tələbatı təmin etməyə imkan verən xüsusi biliklərə malikdir;

4) etalon hakimiyyəti – təsir göstərənin xarakteristikaları və xassələri icraçı üçün o dərəcədə cazibədardır ki, o da elə təsir göstərən kimi olmaq istəyir;

5) qanuni hakimiyyət – icraçı inanır ki, təsir göstərənin əmrlər

vermək hüququ var və onun borcu bu hüquqa tabe olmaqdır.

İdarəetmə üslubunun struktur elementlərinin tədqiq edilmə ənənəsi başlanğıcını iki dəyişənin (qərarların məzmunu və qərarların yerinə yetirilməsi priyomları) əsasında avtoritar, demokratik və liberal idarəetmə üslublarını seçmiş olan K. Levinin əsərlərindən götürür.

Hazırkı vaxtda üslubun məzmun xarakteristikalarının və ümumi strukturunun təsviri üçün bir qayda olaraq çoxölçülü modellərə müraciət edirlər. Bununla yanaşı hətta bir-birinə oxşar ikiölçülü modellərdən istifadə edilməsi zamanı (məsələn, rəhbərin oriyentasiyasının iki tipinin seçilməsinə: vəzifəyə və insanlara əsaslanan) idarəetmə tərzlərinin siyahıları bir-birindən istər kəmiyyətcə və istərsə də məzmun etibarı ilə fərqlənir. Məsələn, R. Bleyk və C. Mouton beş üslubu fərqləndirirlər: vəzifəyə maksimal oriyentasiya, insanlara minimal oriyentasiya; hər iki amilə maksimum oriyentasiya; vəzifəyə minimum oriyentasiya və insanlara maksimum oriyentasiya; hər iki amilə minimum oriyentasiya; göstərilən amillərə marağın orta dərəcəsi. R. Laykert elə həmin əsasda istismarçı-avtoritar, xeyirxah-avtoritar, konsultativ-demokratik üslubları və iştirak etməyə əsaslanan idarəetmə üslubunu fərqləndirir. A.A. Rusalinova məzmun etibarı ilə ya istehsalın maraqlarına, ya da şəxsiyyətlərarası münasibətlərə istiqamətləndirilə biləcək yeddi amillik modeldən istifadə edərək, tipəmələgətirici amillərə aşağıdakıları aid edir: qərarların qəbul edilməsində fəallıq – passivlik, təkrəhbərlilik və kollektivlilik, təsirlərin direktiv – sövqedici xarakteri, müsbət – mənfi stimulyasiyaya yönümlülük, tabelikdə olanlarla distant – kontakt münasibətləri, informasiya axınlarının mərkəzləşdirilməsi – mərkəzsizləşdirilməsi, kollektivlə əks əlaqənin mövcud olması və mövcud olmaması.

İdarəetmə üslubunun seçilməsinə üç yanaşmanı fərqləndirirlər. Məsələn, T.Y. Bazarov, M. Meskon və başqaları aşağıdakı yanaşmaların mövcud olduğunu göstərirlər:

- fəaliyyətin uğurluluğunun rəhbərin fərdi xüsusiyyətləri ilə əlaqəsini müəyyən edən şəxsi yanaşma:
- rəhbərin səmərəlilik səviyyəsini onun davranış xüsusiyyətləri ilə izah edən biheviorist və yaxud davranış yanaşması;
- rəhbərin, tabelikdə olanların (kollektivin), fəaliyyət (vəzifə) situasiyası xüsusiyyətləri kimi dəyişənləri bir-biri ilə uyğunlaşdıran sistem və yaxud situasyon yanaşma.

Bu təsnifata həmçinin çoxölçülü-funksional və proqram-rol yanaşmalarını əlavə etmək olar. Modellər özləri nədəsə məhdudlaşdırılmış olduqda o qədər də böyük proqnoz verməyə malik deyil. Əslində bu səbəb idarəetmə üslublarının çoxölçülü modellərinin yaranmasını şərtləndirmişdir. Belə təsəvvür yaranır ki, bu cür model nə qədər çox amili özündə birləşdirirsə, bu modeldə zərurilik və kifayətlilik əlamətinə cavab verən sistemi əmələ gətirən parametrlərin bütün məcmusunun əks olunması ehtimalı daha çoxdur. Reallığa istiqamətlənmiş olan adaptasiya üslubu ən səmərəli hesab olunur.



İdarəetmə kontekstində liderlik üslubu rəhbərin tabelikdə olanlara münasibətdə onlara təsir göstərmək və onları təşkilatın məqsədlərinə nail olmağa sövq etmək xatirinə adi, vərdiş olunmuş davranış maneri kimi özünü göstərir. Ənənəvi təsnifatda idarəetmə üslubu avtokratik, liberal və demokratik üslublara və yaxud iş üzərində cəmləşdirilmiş və insan üzərində cəmləşdirilmiş üslublara ayrılır.

*Avtokratik* lider avtoritardır və öz iradəsini icraçılara qəbul etdirmək üçün kifayət qədər hakimiyyətə malikdir. Zərurət olduqda o, tərəddüd etmədən buna əl atır. Avtokrat qəsdən öz tabeliyində olanların daha aşağı səviyyəli tələbatlarını əsas götürür. Burada o belə bir ehtimala əsaslanır ki, bu elə, onların əsas tutduqları həmin səviyyədir. D. Makqreqor işçilərə münasibətə görə avtokratik rəhbərin ilkin şərtlərini "X" nəzəriyyəsi adlandırmışdır. Bu idarəetmə üslubu yalnız böhran situasiyalarında (qəza, hərbi döyüş hərəkətləri və s.) haqq qazandırılandır.

*Demokratik* rəhbər daha yüksək səviyyəli tələbatları: mənsubluq, ali məqsəd, muxtariyyat və özünüifadə tələbatlarına əsaslanan təsir mexanizmlərinə üstünlük verir və öz iradəsini tabelikdə olanlara qəbul etdirməkdən çəkinir. Makqreqor demokratik rəhbərin təsəvvürlərini "Y" nəzəriyyəsi ilə ifadə etmişdir. Demokratik üslub daha səmərəlidir, lakin bu üslub yalnız o halda mümkündür ki, rəhbər yüksək intellektual, təşkilatçılıq, kommunikativ bacarığa malik olsun.

*Liberal* rəhbər – "başını boş buraxan" – bu üslub öz məqsədlərini müəyyən etməkdə, öz işinə nəzarət etməkdə və qərarların qəbul edilməsində tabelikdə olanların az qala tam azadlığını nəzərdə tutur. Bu üslubda nəticələr adətən aşağı olur, adamlar işdən, rəhbərdən o qədər də razı deyillər və s.

*Ardıcıl olmayan* (məntiqsiz) üslub rəhbərin gözlənilmədən bir üslubdan digər üsluba keçməsilə səciyyələnir. İşin nəticələri aşağıdır, münaqişəlilik səviyyəsi yüksəkdir.

*Situasyon* idarəetmə üslubu tabelikdə olanların və kollektivin psixoloji durumunu nəzərə alır. P. Xersi və K. Blanded bu idarəetmə üslubunu əməkdaşın professional yetkinliyi ilə əlaqələndirirlər. Bu yetkinlikdən də rəhbərlik dərəcəsi və rəhbərə emosional yardım asılıdır. Bu cür yanaşmada "rəhbər – tabelikdə olan" sistemində münasibətlərin dörd növünü fərqləndirirlər: əmrvermə, təlqinetmə, iştirak, nümayəndə göndərmək. Bunlar da əməkdaşın peşə inkişafına uyğun olaraq dəyişir.

Mütəxəssislərin əksəriyyətinin fikrinə görə daha səmərəli olan *partisipativ* (*birgə iştirak*) rəhbərlik üslubudur. Bu üslub üçün aşağıdakı cəhətlər səciyyəvidir: rəhbərin tabelikdə olanlarla müntəzəm müşavirələri, onlar arasında münasibətlərdə açıqlıq, tabelikdə olanların təşkilati qərarların hazırlanması və qəbulu işinə cəlb edilmələri və s.

Bütün fikri *iş üzərində* cəmləşmiş olan rəhbərlik üslubu hər şeydən əvvəl əmək məhsuldarlığının yüksəldilməsi üçün vəzifələrin layihələşdirilməsinə və mükafatlandırma sisteminin işlənib hazırlanmasına diqqət yetirilməsini nəzərdə tutur. İnsana istiqamətlənmiş rəhbərin ən birinci qayğısı insanlardır. Belə rəhbər tabelikdə olanların qayğıları ilə hesablaşır, problemlərini həll etməkdə onlara kömək edir, onların professional inkişafını həvəsləndirir.

## 2.8. Cəmiyyətin idarə edilməsində dövlətin rolu

Sosioloqlar və dövlət idarəçiliyi sahəsindəki mütəxəssislər cəmiyyətin idarə edilməsində dövlətin rolunu açıb göstərən, öz aralarında rəqabətdə olan üç konsepsiyanı təklif edirlər.

*Liberal konsepsiya* – burjua-parlament quruluşunu və onunla bağlı olan iqtisadi, siyasi və digər həyat sahələrindəki azadlıqları əsaslandıran liberal ideologiyanın prinsiplərindən çıxış edir. Liberalizm xüsusi mülkiyyətçilik təşəbbüsünün tam vüsət alması ilə və iqtisadi fəaliyyətin dövlətin himayəsindən azad edilməsilə səciyyələnir və azad bazarı ictimai həyatın əsas tənzimləyicisi kimi qəbul edir. "Dövlət planlaşdırması və rəqabət bir araya sığmazdır – bu, eyni bir problemin həllinin alternativ prinsipləridir" (F. Xayek). Liberalların fikrinə görə rəqabət – fərdlərin fəaliyyətinin idarə edilməsinin ən yaxşı üsuludur. Dövlət tərəfindən müdaxiləyə liberallar yalnız o halda yol verirlər ki, bu, rəqabətin inkişafına kömək etsin.

Hazırkı vaxtda bu konsepsiyanı dövlət mülkiyyətini tamamilə inkar edən və yalnız xüsusi mülkiyyəti qəbul edən bazar iqtisadiyyatının



radikal neoklassik liberal konsepsiyası kimi izah edirlər. Bu konsepsiyanı daim tənqid edirlər. Məsələn, amerikan iqtisadçısı və sosioloqu C. Helbreyt bu əqidədir ki, məhz dövlət, həmçinin iri şirkətlər və həmkarlar ittifaqları kimi sosial institutlar iqtisadiyyata həlledici şəkildə təsir göstərirlər. Dövlət iqtisadi prosesin tənzimləyicisi kimi çıxış edir. Dövlət – iri şirkətlərlə müqavilə münasibətləri vasitəsilə, dövlət aparatı tərəfindən idarə olunan "texnika strukturu" (mülkiyyətdən təcrid olunmuş fəaliyyət göstərən kapital) vasitəsilə məhsulun sifarişçisidir.

*Sosialist konsepsiyası* – dövlətin cəmiyyət, şəxsiyyət üzərində dominantlığı, ictimai mülkiyyətin tam – başdan başa hökmranlığı, gəlir əldə etməyin və azad bazarın mənbəyi olaraq xüsusi sahibkarlığın inkarı prinsiplərinə əsaslanır. Sosial qrupların və şəxsiyyətin maraqları dövlət maraqlarına tabe edilmişdir. İqtisadiyyat sahəsində öz siyasətini yeridən hakim partiya idarəetmənin ən yüksək subyektidir. Sosialist konsepsiyası insan kollektivlərinin həyat fəaliyyətinin dövlətləşdirilməsini nəzərdə tutur. Bu – cəmiyyətə elmi rasionallıq prinsiplərini əsas tutan partiya-dövlət rəhbərliyidir, yəni dövlət planlaşdırması cəmiyyətidir. Bu halda dövlət planlaşdırması nəinki iqtisadiyyata, eyni zamanda sosial sferaya, mədəniyyət, elm, təhsil sferasına şamil edilir. Burada iqtisadi və sosial tərəqqinin hərəkətverici qüvvəsi kimi dövlət idarəçiliyinin inzibati-komanda metodları çıxış edir.

*Dövlətin rolunun neoliberal və sosialist modellərinin elementlərini özündə birləşdirən konsepsiya* – siyasət sahəsində dövlətin proqnozlaşdırıcı və planlaşdırıcı, tənzimləyici və idarəedici fəaliyyəti şəklində şüurlu amilin artmaqda olan rolu haqqında müddəadan çıxış edir. Müasir dünya birliyinin inkişafı bu konsepsiya üzərində qurulur. Həmin konsepsiyanın başlıca prinsipi sosial istiqamətli bazar iqtisadiyyatıdır. Bu cür dövlət idarəçiliyi modeli mülkiyyətin müxtəlif formalarının yanaşı yaşamasından və dövlətin səmərəli sosial və iqtisadi fəaliyyəti üçün planlaşdırmadan və proqnozlaşdırmadan istifadə edilməsindən çıxış edir. Dövlət idarəçiliyi – dövlətin zəruri funksiyasıdır, bu funksiyanın ifadə edilməsinin ictimai-siyasi forması və ictimai zərurətin şüurlu şəkildə reallaşdırılması olan rasional fəaliyyətdir.

Dövlət idarəetməsini sosioloqlar geniş və dar mənada başa düşürlər. Məsələn, geniş mənada bu, cəmiyyətin sosial idarəetmənin dövlət həyatı sferasındakı tipidir, hakimiyyət orqanları tərəfindən hakimiyyət funksiyasının və digər funksiyaların, lakin müxtəlif dərəcədə və müxtəlif formalarda həyata keçirilməsidir. Dar mənada dövlət

idarəetməsi yalnız dövlətin funksiyalarının həyata keçirilməsi formasıdır, çərçivəsi daxilində icra hakimiyyətinin həyata keçirildiyi dövlət fəaliyyətinin növüdür.

Dövlət idarəetməsi cəmiyyətə və onun qruplarına şüurlu təsir göstərərək, onları ictimai-siyasi cəhətdən zəruri və məqsədəuyğun olanın məcrasına yönəldir.

İctimai subyektlərin sosial tələbatlarının və məqsədlərinin ü m u m i l i k s ə v i y y ə l ə r i n d ə n asılı olaraq dövlət idarəetməsinin bir neçə səviyyəsini fərqləndirirlər:

- siyasi rəhbərlik – idarəetmənin yüksək səviyyəsidir, onun obyekti – bütövlükdə sosial sistemdir və vətəndaşların siyasi birliyi kimi dövlətin özüdür;
- inzibati-dövlət idarəetməsi – dövlət orqanlarının gündəlik operativ-icra fəaliyyətidir;
- hərbi müdaxilə – dövlətin və cəmiyyətin təhlükəsizliyi üçün qorxu təşkil edən münaqişələrin yatızdırılması məqsədilə həyata keçirilir.

Dövlət idarəetməsi – ictimai əhəmiyyətli vəzifələrin həllinə tabe olan məqsədyönlü fəallaşdırıcı və nəzarətedici fəaliyyətdir.

Dövlət strategiyasının işlənib hazırlanması (yəni prioritet məqsədlərin, həmçinin digər başlıca məqsədlər "ağacı"nın və bu məqsədə nail olmaq yollarının müəyyən edilməsi və təsdiqi) məqsədliliyə və proqnozlaşdırmaya əsaslanır. M ə q s ə d l i l i k funksiyası ictimai inkişaf meyllərinin, sosial qrupların və vətəndaşların ictimai tələbatları və maraqlarının haqqında biliklərin olmasını nəzərdə tutur. Məqsədin formalaşması – fəaliyyətin gələcək nəticəsinin müəyyən edilməsidir. Lakin hazırkı vaxtda və sosial məkanın mövcud sektorunda konkret situasiyanı bilmədən real məqsədi formalaşdırmaq mümkün deyildir. Buna görə də məqsədlilik konkret situasiyanın konkret təhlilini qabaqlayır. Bu təhlili hazırkı zaman məqamında təşəkkül tapan şəraitin kompleksi kimi müəyyən edirlər.

Sosial p r o q n o z mövcud sosial sistemin, onun dövlət təşkilatının gələcək vəziyyəti haqqında ehtimali mühakimədir, bunlarda baş verən dəyişikliklərin müəyyən müddətlərinin göstərilməsidir.

P l a n l a ş d ı r m a dövlət idarəetməsinin ayrılmaz funksiyası olaraq qalmaqdadır. Planlaşdırma işlənib hazırlanmış strategiyaya əsaslanır, qarşıya qoyulmuş məqsədlər isə praktik forma - vəzifə formasını alırlar.



Dövlət idarəetməsinin aparıcı funksiyalarından birinə i n f o r m a s i y a l a ş d ı r m a n ı aid edirlər. İnsanların şüuruna təsir göstərilməsində başlıca rolu informasiya və simvolik vasitələr: ideyalar, çağırışlar, şüarlar, təlimatlar, ənənələr oynayır. İdarəetmə prosesinin ayrılmaz elementini dövlət gerbi, bayraq, himn, dövlət mükafatları kimi siyasi simvollar təşkil edir.

Lakin konkret proqramların və məqsədlərin həyata keçirilməsi üçün insanların birləşdirilmiş səyləri, yəni insanlar arasında qarşılıqlı əlaqələrin qaydaya salınması üzrə hərəkətlərin məcmusunu yerinə yetirən, idarəedici subyektin məqsədləri və proqramlarının birlikdə həyata keçirilməsi üçün insanları birləşdirən təşkilatların yaradılması zəruridir.

Təşkiledici fəaliyyətin məntiqi davamı əlaqələndirmə və tənzimləmə funksiyasıdır. Ə l a q ə l ə n d i r m ə ictimai subyektlərin fəallığının müxtəlif formaları və növlərinin uzlaşdırılmasına yönəldilmiş hərəkətdir. T ə n z i m l ə m ə – insanların mütəşəkkilliyinin zəruri, lazımi səviyyəsinə çatmaq üsuludur, sosial qrupların, fərdlərin maraqları sferasına təsirin, bu maraqların öz aralarında və ümumi dövlət maraqları ilə uzlaşdırılması formasıdır.

İdarəetmə qərarlarının icrasına nəzarət, idarəetmə nəticələrinin ümumiləşdirilməsi və qiymətləndirilməsi idarəedici hərəkətin dövlət fəaliyyətinin bu çox mühüm sferasının iştirakçılarının məsuliyyəti ilə əlaqəsini təmin edir.

Dövlət idarəetməsi *subyektin obyektə idarəedici təsirinin dövlət idarəetməsi sisteminin və sosial mühitin vəziyyətindən asılı olması obyektiv qanununa* tabedir. Dövlət idarəetməsinin istənilən sistemi onun fəaliyyətinin xarakterinə təsir göstərən müəyyən sosial mühitdə fəaliyyət göstərir.

Sosial idarəetmə nəzəriyyəsində cəmiyyətə idarəedici təsir imkanlarını müəyyənləşdirən *"zəruri müxtəliflik" qanununun* böyük əhəmiyyəti vardır. Birinci növbədə bu, cəmiyyətə idarəedici təsirin cəmiyyətin özünütəşkili ilə əlaqələndirilməsinin zəruriliyində təzahür edir. Burada sosial sistemin özünütənzimləməsinin kortəbii xarakteri nəzərə alınır. Süni sistemlər sinfinə aid olan dövlət sistemi təbii sistemin – sosiumun hüdudsuz rəngarənglik və müxtəlifliyini özünün tənzimləyici təsiri ilə əhatə edə bilməz. Dövlət idarəetmə obyekti həmişə müxtəliflik hüdudlarına malik olur (informasion məzmun). İdarəedici subyektin məqsədlərinə münasibətdə kortəbii özünütənzimləmə kömək

edə bilər və yaxud əksinə, maneçilik törədə bilər.

*İctimai proseslərin tənzimlənməsinin və idarə edilməsinin gücləndirilməsi qanunu* informasiya cəmiyyətinin təşəkkülünün spesifikası ilə bağlıdır.

İstənilən subyekt tərəfindən yenidən işlənilən informasiyanın həcmi bütün səlahiyyətləri mərkəzləşdirilmiş bir orqanın əlində cəmləşdirməyə imkan vermir. Buna görə də iyerarxiya idarəetmə strukturunun yaradılmasına zərurət meydana gəlir: şaquli xətt üzrə – ali, regional, yerli səviyyələr; üfüqi xətt üzrə – idarəetmə fəaliyyəti növlərinin və regional qurumlara uyğun olaraq qərarların qəbul edilməsi mərkəzlərinin bölgüsü.

Dövlət hakimiyyətinin fəaliyyət göstərməsinin ən ümumi forması hakimiyyət qollarının bölgüsüdür (qanunvericilik, icra, məhkəmə hakimiyyəti) və onlara uyğun olan idarəetmə subyektlərinin bölgüsüdür. Bu, *hakimiyyət və idarəetmə mərkəzlərinin səpələnməsi obyektiv qanununa* çevrilmişdir.

*Dövlət idarəetməsinin sistemliliyi qanunu* öz ifadəsini aşağıda göstərilənlərin vəhdətində tapır:

- idarəetmənin əsas funksiyalarının, məhz məqsədliliyin, proqnozlaşdırmanın, planlaşdırmanın, məlumatlandırmanın, nəzarətin, nəticələrin ümumiləşdirilməsi və qiymətləndirilməsinin; bunların da sayəsində ümumi idarəetmə prosesi formalaşır;
- dövlət idarəetməsi səviyyələrinin: mərkəzi, regional və yerli səviyyələrinin;
- dövlət idarəetməsinin ümumi və xüsusi sistemlərinin.

*Sistemin özinkişafı* – həmçinin dövlət idarəetməsinin obyektiv qanunudur. Dövlət idarəetməsinin istənilən sistemi sosial mühitin dəyişmələrinə cavab vermək qabiliyyətinə malikdir. Bu, həmin sistemin sabitliyinin və səmərəli fəaliyyət göstərməsinin zəruri şərtidir. Özinkişaf – dövlət idarəetmə sisteminin mövcudluğunun obyektiv surətdə olan mümkün üsuludur.

Dövlət idarəetməsinin prinsipləri – idarəetmə fəaliyyətinin əsas və çıxış müddəaları – elm tərəfindən işlənib hazırlanır və dövlət tərəfindən formalaşdırılır. Aşağıdakı prinsipləri göstərirlər:

1. Obyektivlik prinsipi – dövlət idarəetmə sistemində əsaslı prinsiplərdən biridir; idarəetmə subyekti tərəfindən cəmiyyətin və dövlətin, ictimai maraqların və tələbatların, onların təmin edilməsi imkanlarının obyektiv əks etdirilməsinə (düzgün informasiyaya) əsaslanır.



2. Entropiyaya (sosial idarəetmə nəzəriyyəsində entropiya situasiyanın qeyri-müəyyənlik kəmiyyətini bildirir) qənaət prinsipi – sistemin nizamlılığının şərtini səciyyələndirir. İdarə edən subyekt bu prinsipə uyğun olaraq idarə olunan subyektin daha az məhvinə gətirə biləcək bu və ya digər hərəkət növünü və metodunu seçir.

3. Ən az hərəkət prinsipi – dövlət subyektinin əsas məqsədinin reallaşdırılmasına xidmət edir – sistemin davamlı dəyişməsinin, bu sistemin yeni vəziyyətə keçməsinin təmin edilməsidir; bu prinsip mümkün olan idarəetmə təsirlərindən entropiyanın ən az kəmiyyətinin müşahidə olunduğu təsirin seçilməsi tələbinə əsaslanır.

İdarəetmə prosesinin texnologiyasını rəngarəng metodların, prosedur və qaydaların köməyilə həyata keçirilən müxtəlif formaları təşkil edir. Lakin bu formalar idarəetmə obyektinin və ətraf mühitin dəyişmələrinə həssas olduğundan daim eyni metodları tətbiq etmək mümkün deyildir.

İdarəetmənin təsir vasitələrindən asılı olaraq aşağıdakı metodları fərqləndirirlər:

- inzibati-hüquqi metodlar – idarəedici subyektin iyerarxiya strukturuna əsaslanır, "əmr-icra" prinsipi üzrə fəaliyyət göstərir. Tabeçilik münasibətləri qanunvericilik sistemi, hakimiyyət səlahiyyətlərinin reallaşdırılması, hüquqi məcburetmə də daxil olmaqla qadağanedici sanksiyaların tətbiqi üzərində qurulur. İnstrumentarisi: qanun, qanunaltı aktlar, direktivlər, əmrlər, sərəncamlar, təlimatlar. İnzibati-hüquqi metodlar idarəetmənin amerikan sosioloqlarının rəyincə sabit şəraitdə və istifadə olunan texnologiyaların aşağı səviyyədə olduğu halda səmərəli olan bürokratik modeli üçün səciyyəvidir;
- təşkilati metodlar – hüquq normalarına və sistem olaraq təşkilatın xüsusi hakimiyyətinə əsaslanır, idarəetmənin bütün mərhələləri ilə bağlıdır. İnstrumentarisi: idarəetmə münasibətlərinin iştirakçıları arasında rolların bölgüsü, səlahiyyətlərin, vəzifələrin yenidən bölgüsü, kadr yerdəyişmələri və s.;
- siyasi metodlar – idarə olunanların davranışına və fəaliyyətinə siyasi vasitələrin köməyilə birbaşa və yaxud dolayısı ilə təsir göstərilməsi. Söhbət siyasətdən gedir. İnstrumentarisi: qanunvericilik aktlarının müzakirəsi və qəbulunun normativ olaraq təsbit olunmuş formaları, üsulları, vasitələri və prosedurları, parlament müzakirələri və s.;
- iqtisadi metodlar – insanların, kollektivlərin, sosial birliklərin həyatının sosial-iqtisadi şəraitinə təsirin (maddi, maliyyə vasitələrilə)

formaları; bu metodlar inzibati-hüquqi metodlarla bağlıdır, lakin iqtisadiyyatın dövlət tənzimlənməsi problemlərini həll edir. İnstrumentarisi: dövlət orqanları tərəfindən maddi-maliyyə resurslarının bölgüsü və yenidən bölgüsü, ölkədə maliyyə axınlarının tənzimlənməsi, insana münasibət baxımından isə – əməyin və sahibkarlığın maddi stimullaşdırılması mexanizmləri;

- sosial metodlar – insanların sosial fəallığının hərəkətverici qüvvələrinin motivasiyası amillərinə, onların təsirini məhdudlaşdıran öz həyat şəraitindən, konkret fəaliyyətinin nəticələrindən razı qalmalarına səbəb olan amillərə təsiri nəzərdə tutur. İnstrumentarisi: sosial nəzarət vasitələri, sosial fəallığı motivləşdirən stimullar, sosial nemətlərin və xidmətlərin sosial standartları və s.
- informasiya metodları – idarəetmə obyektinə informasiya təsir texnologiyalarının məcmusudur. Bu metodlar idarə olunanlara bilavasitə və yaxud dolayısı ilə təsir göstərir;
- ideoloji metodlar – insanların ictimai şüurunun fəallaşdırılmasına yönəldilmişdir; bu metodlar dövlət siyasətinin məqsədlərinə uyğun olan motivasiyalar sistemini formalaşdırırlar. İnstrumentarisi: ictimai əhəmiyyətli ideyaların və mənəvi dəyərlərin təbliği, KİV-dən istifadə edilməsi və b.;
- sosial-psixoloji metodlar – əhval-ruhiyyələrin, ictimai hisslərin, psixoloji durumların məqsədyönlü formalaşdırılmasının priyomları və vasitələrinin kompleksi və s. İnstrumentarisi: KİV, ideoloji təşkilatlar, mədəniyyət idarələri, kilsə;
- manipulyasiya (*lat.* manipulus – bir ovuc) metodları – kütlələrin baxışlarını və davranışlarını manipulyasiya ilə məşğul olan subyekt üçün lazım olan istiqamətdə dəyişdirmək məqsədilə onlara təsir priyomlarının (sosial-siyasi priyomların) sistemidir.

## Testlər

1. Sosial idarəetmə anlayışı sosioloqlar tərəfindən aşağıdakı kimi nəzərdən keçirilir:
   a) ictimai sistemlərə və proseslərə, ictimai həyatın ayrı-ayrı komponentlərinə məqsədyönlü təsir kimi;
   b) idarəetmə subyektinin bütün cəmiyyətə təsiri kimi;
   v) yalnız sosial mühitin idarə edilməsi kimi.



2. İdarəetmə bu deməkdir:
   a) sosial sistemə məqsədyönlü təsir prosesidir;
   b) məqsədlilik və idarəetmə qərarları prosesidir.

3. İdarəetmədə elmi cərəyanın banisi:
   a) F.Teylor; b) A. Fayol; v) E. Meyo.

4. F. Teylora görə idarəetmənin başlıca vəzifəsi:
   a) maksimum mənfəətin təmin edilməsi;
   b) fəhlənin rifah halının yaxşılaşdırılması;
   v) müəssisədə işləyən fəhlənin maksimum rifah halı ilə yanaşı sahibkarlar üçün maksimum mənfəətin təmin edilməsi.

5. A. Fayola görə təşkilatın idarə edilməsində müəyyənedici funksiya:
   a) inzibati funksiyadır; b) maliyyə funksiyasıdır.

6. Kim güman etmişdir ki, orta insan üstün tutur ki, onu idarə etsinlər:
   a) D. Makqreqor; b) A. Maslou.

7. İnzibati idarəetmənin "ideal tipinin " müəllifi:
   a) E.Meyo; b) M.Veber.

8. U.Oyçinin "Z" nəzəriyyəsinin çıxış nöqtəsi:
   a) təşkilatın fəaliyyətinin uğurluluğu obyektiv vəziyyətdən asılıdır;
   b) təşkilatın fəaliyyətinin uğurluluğu insandan asılıdır.

9. Sosial praktikanın məqsədəuyğunluğunun mühüm meyarı:
   a) tələbatların və maraqların uçotu; b) məqsəd.

10. Böyük sosial sistemlər:
    a) özünüidarə edən deyillər; b) özünüidarə edənlərdir.

11. İdarəetmə münasibətlərində fərqləndirirlər:
    a) idarəetmə obyektini; b) idarəetmə subyektini.

12. İstehsalın idarə edilməsi – birinci növbədə:
    a) texnoloji prosesin idarə edilməsidir;
    b) insanların və münasibətlərin idarə edilməsidir.

13. İdarəetmə təsirinin metodları:
a) zəruri tənzimləmə;
b) məqsədyönlü tənzimləmə;
v) özünütənzimləmə;
q) proqnoz tənzimlənməsi;
d) kortəbii tənzimlənmə.

14. U.Morrisə görə ekspert qarşısında irəli sürülən iki əsas tələb:
a) ekspertin rəyləri davamlı olmalı, yalnız yeni mühüm məlumatlar alınarkən dəyişə bilər;
b) ekspertin fikirləri ideoloji cəhətdən əsaslandırılmış və haqq qazandırılan olmalıdır;
v) ekspertin qabaqcadan söylədikləri yüksək dəqiqlik və etibarlılıq səviyyəsi ilə fərqlənməlidir.

15. *İdarəetmədə* məqsədli – proqram yanaşma fəaliyyətin aşağıdakılara görə nəzərdən keçirilməsini tələb edir:
a) məqsədinə görə;
b) metodlarına görə.

16. Sosial proqnozlaşdırma:
a) direktiv xarakter daşıyır;
b) direktiv xarakter daşımır.

17. İdarəetmə qərarına daxildir:
a) məqsəd;
b) məqsədə nail olmanın yolları və vasitələri;
v) ideallar.

18. Cəmiyyətin idarə edilməsində dövlətin rolunu açıqlayan konsepsiyalar:
a) liberal konsepsiya;
b) demokratik konsepsiya;
v) sosialist konsepsiyası;
q) neoliberal-sosialist konsepsiyası.

Cavablar

**1** – a, b; **2** – a; **3** – a; **4** – v; **5** – a; **6** – a; **7** – b; **8** – b; **9** – a; **10** – b; **11** – a, b; **12** – b; **13** – b, v, d; **14** – a, v; **15** – a; **16** – b; **17** – a, b; **18** – a, v, q.



# 3-CÜ FƏSİL. QLOBALİZM VƏ EKOLOJİ SOSİOLOGİYA

## 3.1. Qlobalizm ideyasının mənşəyi və inkişafı

Müasir sosial-siyasi proseslər üçün qlobal strukturların – iqtisadi, siyasi, sosial, *mədəni strukturların formalaşması səciyyəvidir. Mühüm* beynəlxalq funksiyaları yerinə yetirən və fəaliyyətinə artıq milli dövlətlərin nəzarət edə bilmədiyi transmilli strukturlar meydana gəlir: BMT, YUNESKO, ATƏT, Beynəlxalq maliyyə şirkəti OPEK və bir çox digərləri.

İnsan birliyinin və onun dəyərlər sisteminin universallaşdırılmasının üsulu olaraq qlobalizm ideyası çoxdan formalaşmışdır. Özünün ilkin şəklində bu ideya dünyanın bütövlüyünü, vəhdətini, kosmosun vəhdətini, bəşəriyyətin vəhdətini ifadə edirdi.

Qloballaşmanın birinci mərhələsi XIX əsrin sonuna – XX əsrin əvvəlinə təsadüf edir. Həmin vaxtda baş verən proseslər imperializm anlayışına daxil edilirdi. 1950 – 1960-cı illərdə qloballaşmanın "soyuq müharibə"nin və iki böyük dövlətin – Sovet İttifaqının və ABŞ-ın bir-birinə qarşı durması ilə əlamətdar olan iki qütblü dünyanın durumunu əks etdirən digər izahı geniş yayılmışdı.

1960 – 1980-ci illərdə qloballaşma ideyası konvergensiya (*lat.* converge – yaxınlaşıram, oxşamağa başlayıram) anlayışlarında ifadə olunurdu. Lakin 1970-ci illərin sonuna qədər qloballaşma problemləri dünya sosial elmi tərəfindən qaldırılmamışdı və "qloballaşma" termininin özü yalnız 1950-ci illərin sonlarında meydana gəlmişdir. Bu gün qloballaşma adı altında, terminin geniş mənasında vahid iqtisadi və siyasi məkanın, yəni dünya cəmiyyətinin yaradılması prosesini başa düşürlər. Dar mənada qloballaşma insanın Yer planetinin vətəndaşı kimi, vahid dünya birliyinin üzvü kimi başa düşülməsindən çıxış edir. Bununla da vurğulanır ki, "beynəlxalq" sözünün "qloballaşma" sözü ilə əvəz edilməsi təkcə semantik əməliyyat deyildir ("beynəlxalq" termini suveren dövlətlər arasında münasibətləri ifadə edir). Sosiologiya elmində "qloballaşma" termininin indiyə qədər kifayətləndirici izahı yoxdur. Sosioloqlar hələ ictimai proses kimi qloballaşmanın məzmununu müəyyən etməli, cəmiyyət həyatının bütün sahələrində onun səbəblərini və nəticələrini göstərməlidirlər.

1990-cı illərdə qloballaşma problemi görünməmiş dərəcədə praktik kəskinlik əldə etmişdi.

Bu fenomenin qiymətləndirilməsində bütün alimlər iki cəbhəyə ayrılırlar. Qərbdə qloballaşma iqtisadi inkişafı sürətləndirir, dünyanın möhkəmləndirilməsinə kömək edir, demokratiyanın inkişafına və hətta bütün bəşəriyyətin birləşdirilməsinə (həmrəyliyinə) kömək edir deyənlərlə (onları nikbinlər və *qlobalistlər adlandırırlar)* yanaşı qloballaşmanın yoxsulluğun və işsizliyin, inflyasiyanın artmasında və dünyada münaqişələrə və hərcmərcliyə gətirib çıxaran digər iqtisadi, ekoloji və sosial problemlərdə günahlandıranlar da az deyildir (antiqlobalistlər). Əsas etibarı ilə hamı bununla razıdır ki, ticarət və yeni texnologiyalar, maliyyə kapitalı və informasiya, aviasiya və miqrasiya bir çox ölkələrin yaxınlaşmasına şərait yaradır. Lakin bir çox pessimistlər də belə hesab edirlər ki, transmilli iqtisadiyyat yeniləri yaradılana qədər mövcud olan iqtisadi və siyasi münasibətləri məhv edəcəkdir və o zaman yeni dünya sosial quruluşunun əvəzində xaos, hərcmərclik hökm sürəcəkdir. Yalnız sosial yönümlü dövlətlər bu hadisələrə qarşı dura bilərlər. Bu cür nöqteyi-nəzərin tərəfdarları özlərini realistlər adlandırırlar. Şərq ölkələrində, eləcə də Avropa ölkələrində antiqlobalizm konsepsiyaları işlənib hazırlanır, vesternizasiyanın əleyhinə yönəldilmiş qeyri-formal hərəkatlar meydana gəlir.

Bununla belə, bizim istəyib istəməməyimizdən asılı olmayaraq, dünya bu gün qloballaşma şəraitində yaşayır. Qloballaşma müxtəlif coğrafi və sosial sferalar üçün nə isə eyni olan vəziyyət, durum deyildir, bu, dünya prosesində dinamikanın və statikanın, mərkəzə səy göstərən və mərkəzdən qaçan inkişaf vektorlarının qarşıdurması gedişində təsbit olunmuş və üstünlük təşkil edən meyldir. Həm də sosial münasibətlərin müxtəlif səviyyələrində: lokal, professional və s. başlamış ümummilli və dövlətlərarası münasibətlərə qədər sosial münasibətlərin müxtəlif səviyyələrində təzahür edən meyldir. Bu meyl ayrı-ayrı ölkələr üçün yalnız xarici fon kimi çıxış etmir, eynilə də qloballaşma prosesində iştirak onlar üçün beynəlmiləl əlaqələrin sadəcə olaraq genişlənməsi deyildir. Qloballaşma daxili və xarici amillərin elə bir qarşılıqlı təsiri ilə, millətlərdaxili və millətlər fövqündə duran münasibətlərin və institutların elə bir culğaşması ilə səciyyələnir ki, iqtisadi, siyasi, sosial fəallıq milli sərhədləri "deşib keçir" və dünyanın bir regionundakı hadisələr, proseslər, qərarlar digər regionlardakı hadisələrə, proseslərə, qərarlara təsir göstərir. Buradan da – dövlətlərin bir-biri ilə, milli və



fövqəlmilli birliklər və institutlarla qarşılıqlı təsirlərinin və əlaqələrinin, eləcə də sonuncular arasında əlaqələrin mürəkkəbləşməsi və intensivləşməsi, milli, lokal, regional və qlobal amillərin və proseslərin yaxınlaşması baş verir. Bir sıra nüfuzlu sosioloqların fikrincə bütün bunlar müasir sosial-siyasi strukturların (istər ölkə, istərsə də dünya səviyyəsində) şəbəkə-cəmiyyət deyilənə çevrilməsi meylini doğurur.

Beləliklə, *bəşəriyyətin böyük bir hissəsinin informasiya və telekommunikasiyanın ən yeni vasitələri əsasında maliyyə-iqtisadi, ictimai-siyasi və mədəni əlaqələrin vahid sisteminə daxil olmasını qloballaşma adlandırmaq olar*. Qloballaşma prosesləri iqtisadiyyat və siyasətdən tutmuş mədəniyyətə qədər cəmiyyət həyatının bütün sahələrinə nüfuz edir.

Məzmun etibarı ilə qloballaşma Qərb sivilizasiyasının ustanovkalarının və dəyərlərinin Yer kürəsinin bütün digər regionlarına yayılması prosesi kimi başa düşülür. Qloballaşma inkişafına fəal surətdə qoşulmuş birliklər sivilizasiyalı birliklər kimi qəbul olunurlar, ləng hərəkət edən və yaxud buna qarşı çıxan, birliklər isə qeyri-sivilizasiyalı birliklər kimi qəbul olunurlar.

Qlobalizmə həmçinin öz inkişafının real səviyyəsindən çox yüksək gözləmələr xasdır. Həqiqətən unifikasiya prosesləri maliyyə, informasiya sahələrində, qismən istehsalda əhəmiyyətli dərəcədə irəliyə getmişdir, lakin bütün həyati əhəmiyyətli mühüm sahələr qloballaşmanın kandarında durur və yaxud da hələ ona yaxınlaşmamışdır. Qloballaşmanın yalnız xoşbəxtlik gətirməsi haqqında müddəa düzgün deyildir. Bir çox birliklər, dövlətlər, sosial qruplar bunları heç hiss etmirlər. Bunu onların qloballaşma prosesinə zəif qoşulmaları ilə izah etmək bəsitlik olardı.

Qloballaşmanın doğurduğu problemlərin həcmi və kəskinliyi get-gedə daha açıq şəkildə özünü göstərir. Elmi və siyasi dairələrdə getdikcə qlobalizmin istər nəzəriyyə və istərsə də sosial-mədəni və siyasi-iqtisadi praktika kimi böhranından daha tez-tez söhbət açırlar.

Hər halda qloballaşma bəşər cəmiyyətinin elmi-texniki inqilabın yeni dövranı şəraitində dünya quruluşunun ümumiliyinə və bütöv sisteminə doğru hərəkətinin müəyyən mərhələsidir. Qlobalizm – qloballaşma konseptinin dərk edilməsinin özünəməxsus variantıdır, onun doğurduğu özünəməxsus dəyərlər sistemidir, müəyyən dərəcədə də ideologiyadır.

Qlobalizm siyasətini müəyyən edən xadimlərdən biri kimi C. Soros

göstərir ki, biz artıq qlobal iqtisadiyyat sistemində yaşayırıq. Qlobal iqtisadiyyat nəinki əmtəələrin və xidmətlərin azad hərəkəti ilə, eyni zamanda daha əhəmiyyətli dərəcədə, ideyaların və kapitalın azad hərəkəti ilə səciyyələnir... Son bir neçə il ərzində maliyyə bazarlarının qloballaşması elə bir səviyyəyə çatmışdır ki, müxtəlif ölkələrdə valyuta kurslarının, bank faizinin hərəkəti öz aralarında çox sıx surətdə bağlıdır. Beləliklə, qlobal iqtisadiyyatı mahiyyət etibarı ilə qlobal kapitalist sistemi kimi nəzərdən keçirmək lazımdır[1].

Soros əmindir ki, qlobal iqtisadiyyat yalnız saysız-hesabsız nemətlər gətirmişdir, məsələn, beynəlxalq əmək bölgüsü, inkişafın dinamikləşməsi. Lakin əsl həqiqətdə isə qlobal inteqrasiya ilə yeni məhrumiyyətlər də bağlıdır: dilənçiliyin artması, mənəvi aşılanma və perspektivsizlik, dünya hökmranlığı uğrunda mübarizədə sivilizasiyaların toqquşması.

Qloballaşma prosesinin təhlili sosioloqlara bu prosesin bir neçə prinsipial təzahür formalarını qeyd etməyə imkan vermişdir:

- məkan və zamanda kommunikasiya imkanlarının dəyişməsi. Bu da informasiya cəmiyyətinin vətəndaşlarını bir-birindən ayrı salan fiziki və sosial məsafələri "qısaltmış", dünyanı "dünya kəndinə" çevirmişdir;
- müasir cəmiyyətdə qarşılıqlı əlaqələrin artmış miqyasları və qarşılıqlı asılılıqlar dərəcəsi. Bu da "real zaman rejimində və bütün planet miqyasında fəaliyyət göstərən" qlobal iqtisadiyyatın yaranmasına gətirib ( Kastels, 2000, S. 105);
- müxtəlif mədəniyyətlərin qarşılıqlı təsir prosesinin möhkəmləndirilməsi;
- beynəlxalq münasibətlər sisteminin "dövlətsizləşdirilməsi" əsasında qlobal sosial qarşılıqlı təsirlər sisteminin formalaşması.

Bu gün qlobal kapitalist sistemi sürətlə böyüməkdədir. Bu sistemin cazibədarlığı onun təklif etdiyi maddi nemətlərlə şərtlənmişdir. Eyni zamanda da qlobal kapitalist sistemi tək qalmağa çalışan ölkələri amansız şəkildə cəzalandırır.

Sosial məkanın qloballaşması dünyanın geoiqtisadi parçalanması ilə sosial və mədəni cəhətdən həmcins "böyük məkanların" formalaşması ilə sıx surətdə bağlıdır. Milli sərhədlər "əriyib yoxa çıxaraq"

[1] Sitat götürülmüşdür: *Моисеев Н.* Третьего варианта не дано // Социально-политический журнал, 1996. №2. С.81.



iyerarxik xarakter alır. Dünya vətəndaşlığı hələ yaranmamışdan siniflərə parçalanmış olur.

Sosial məkan sahəsində qloballaşma milli dövlətlərin bu və ya digər meyllərə və hadisələrə fəal təsir etmək imkanlarını aşağı salır. "Virtual dövlətlər", milli dövlət nəzarətindən kifayət qədər azad olan dövlətlərarası orqanizmlər, xüsusi kapitalın qeyri-formal görüntüləri daha böyük rol oynamağa başlayır. İqtisadiyyat eyni vaxtda həm təsərrüfatçılıq üsuluna və həm siyasətə və hətta yeni dünya ideologiyasına çevrilir.

Müasir siyasətdə geniş siyasi forumların nüfuzu aşağı düşür və məhdud elitar birliklərin təsiri güclənir. Məsələn, BMT son vaxtlar NATO-nun daha çox qapalı olan strukturları tərəfindən sıxışdırılır. Siyasi strukturların hakimiyyət səlahiyyətləri iqtisadi qüvvə mərkəzlərinə keçir. İnsanların hakimiyyəti kimi siyasi demokratiya neodemokratiya deyilən yeni hakimiyyət forması ilə, yəni qərarların qəbul edilməsi prosesinin bir dollar - bir səs prinsipinə müncər edildiyi hakimiyyətlə əvəz olunur. Yeni zamanə insanlarının mentalitetinə insan azadlığının təminatçısı kimi iqtisadi inkişaf gücünə inam xas idi. Dünya əmin-amanlığının sərhədləri azadlığın meyarı ilə eyniyyət təşkil edir. Şəxsiyyətin statusu bəşəriyyətin iqtisadi uğuru ilə bir başa bağlıdır.

Qlobal iqtisadiyyatın mexanizmi informasiya texnologiyalarının coşqun inkişaf etdiyi bir şəraitdə reallaşdırılır. Keyfiyyətcə yeniləşdirilmiş olan KİV-lər özlərinin "subyektiv dünyası"nı – potensial təsiri çox böyük olan "mediakosmosu" formalaşdırırlar. İnformasiya məkanında qloballaşma bu məkanın dövlət nəzarətindən və ictimai nəzarətdən azad olunmasına gətirib çıxarır.

Rusiya digər dünya kimi qlobal problemləri yaşayırmı? Müəyyən sahələrdə Rusiya həqiqətən də bu problemlərə fəal surətdə qoşulmuşdur. İnformasiya məkanında Rusiya inkişaf etmiş ölkələrlə bərabər vəziyyətdədir (məsələn, İnternet). Siyasi sahədə proseslər iqtisadi sahədəkinə nisbətən daha sürətlə gedir. Əgər qlobal istehsal, əvvəllər də mövcud olmuş millətlərarası şirkətlərin yaradılması kimi hadisələri nəzərdən keçirmiş olsaq, onda görərik ki, hazırda keyfiyyət dəyişikliklərindən daha çox kəmiyyət dəyişiklikləri baş verir. Rusiyada pərakəndə halda beynəlxalq şirkətlər yaradılır ki, bunlarda da müxtəlif ölkələrin nümayəndələri çalışırlar, lakin onların fəaliyyəti istehsaldan daha çox istehlakla bağlıdır. Burada da problem ortaya çıxır. Rusiyanın bu qlobal məkana daxil olması üçün onun iqtisadi sahədə daha fəal

iştirakı tələb olunur. Axı bazis münasibətləri olaraq məhz iqtisadi münasibətlər oyun qaydalarını diktə edir və siyasətə təsir göstərir.

Rusiya cəmiyyətinin transformasiyası fərdi və qrup sosial identikliyin inteqrasiya və dezinteqrasiyanın dərk edilməsi məsələsini, sosial iyerarxiyada yer, həmrəylik haqqında mütəşəkkillik səviyyəsi, dəyərlər sistemi haqqında məsələsini kəskin şəkildə qoymuşdur. Ayrı-ayrı cəmiyyətlər arasında münasibətlərin yeni formalarını formalaşdırmaq zərurəti daha çox dərk edilməkdədir, nəinki "yeni dünya nizamının" təşkili ilə məşğul olmaq. Lakin milli və mədəni oxşarlığın qorunub saxlanılması və qloballaşma prosesinə uğurla daxil olmaq probleminin həllinə vahid yanaşma hələlik təşəkkül tapmamışdır.

## 3.2. Qloballaşma: nailiyyətlər və risklər

Qloballaşma təbii-tarixi prosesdir. Lakin eyni zamanda qloballaşma bu prosesə fəal şəkildə qoşulmaqla milli və yaxud sosial "kapsula" hüdudlarında qapalılıq arasında şüurlu seçimi nəzərdə tutur. Hər bir ölkəyə milli problemlərdə "rəndələnməyin", qlobal proseslərə etinasızlığının və yaxud qoşulmağının öz dərəcəsi xasdır. Hər bir ölkə bir növ "dünya məkanına" sərbəst surətdə qoşularaq, buraya özünün xüsusi üsulu ilə daxil olur (maliyyə sferası vasitəsilə, ticarət, siyasət, mədəniyyət vasitəsilə, bu sahələrin müəyyən kompleksi və onların tərkib elementlərinin müxtəlif kombinasiyaları vasitəsilə).

Qloballaşma informasiyanın əldə edilməsində bərabərliyi, beynəlxalq əmək bölgüsünü, yeni texnologiyaların geniş yayılmasını, idarəetmənin rasionallaşdırılmasını, sosial strukturun müasirləşdirilməsini, liberal (və yaxud heç olmazsa elektoral) demokratiya istiqamətində irəliləməni, vətəndaş cəmiyyəti institutlarının inkişafını, onların fəallıq sferasının beynəlmiləlləşdirilməsini və s. nəzərdə tutur. Bir sözlə, qloballaşma bütün ictimai həyatın modernləşdirilməsini, inkişafın sürətləndirilməsini, geridə qalan cəmiyyətlərin qabaqcıl cəmiyyətlər səviyyəsinə yaxınlaşdırılmasını nəzərdə tutur.

Qloballaşmanın məziyyətlərinə aşağıdakıları aid etmək olar: müasir sivilizasiyanın nailiyyətlərinə qovuşma, milli və etnik qapalılığın aradan qaldırılması üçün şəraitin meydana gəlməsi, informasiya əldə etmək imkanlarının genişləndirilməsi, yüksək əmək məhsuldarlığının təmin edilməsi və beynəlxalq əmək bölgüsü hesabına istehsal olunan məhsulun maya dəyərinin aşağı salınması, transmilli inhisarların fəaliyyəti sferasına daxil olmuş əhalinin həyat səviyyəsinin yüksəldilməsi.



Lakin müsbət effektinə baxmayaraq qloballaşma proseslərinin mənfi nəticələri getdikcə daha tez-tez hiss olunmaqdadır. Bu mənfi nəticələrə aiddir: informasiyadan istifadə olunması imkanlarının bərabərsizliyi, məhsuldar kapitalla kommersiya və maliyyə kapitalı arasında güclənməkdə olan parçalanma, öz suverenliyinin bir hissəsini itirməkdə olan millət – dövlətin zəifləməsi, milli mədəniyyətlərin bərabərləşdirilməsi, milli vətəndaş institutlarının muxtariyyatının məhdudlaşdırılması, vətəndaşların öz hüquqlarının bir hissəsini praktik olaraq itirmələri, artıq informasiya erasına daxil olmuş cəmiyyətlərlə əvvəlki tarixi mərhələlərdə inkişafda ləngimiş cəmiyyətlər arasında ayrılığın genişlənməsi. Qloballaşma elə bir vəziyyət yaradır ki, burada sənaye cəhətdən inkişaf etmiş ölkələr daha az inkişaf etmiş, qloballaşma yolunda çox böyük maddi və sosial itkilərə məruz qalan ölkələrə qalib gəlirlər. İnkişaf etmiş ölkələr əsas qloballaşdırıcı qüvvə kimi çıxış edirlər.

Müxtəlif regionlarda və sosial sferalarda qloballaşmanın konkret nəticələrinin spesifikası arxasında qloballaşmaya əvvəldən xas olan ziddiyyətlər durur: a) ümumbəşəri və *milli maraqlar arasındakı* ziddiyyətlər, qloballaşma ilə ayrı-ayrı xalqların, sosial birliklərin və şəxsiyyətlərin öz müqəddəratını təyin etməsi identikliyi arasındakı ziddiyyətlər. Bəzi tədqiqatçılar tərəfindən bu ziddiyyət müasir dünyanın əsas ziddiyyəti kimi nəzərdən keçirilir (qloballaşma zəmanəsində müxtəlif sivilizasiyaların bir araya gələ bilməsi və bir araya gələ bilməməsi məsələsi təkidlə ortaya çıxır); b) birliklə fraqment arasında, inteqrasiya ilə dezinteqrasiya arasında ziddiyyət. Müxtəlif istiqamətli bu meyllərin sintezinin üsullarından biri olaraq müxtəlif miqyaslı regional piramidal sistem təşəkkül tapmaqdadır. Bu cür aralıq qloballaşma formasında bir tərəfdən, praktik olaraq bu və ya digər birliklərin qloballaşma proseslərində iştiraka hazır olmalarının real dərəcəsi və digər tərəfdən, başqa sivilizasiya qüvvələrin tərəfindən baş verə biləcək təhlükələrdən özünü qorumaq səyi öz ifadəsini tapır.

Məhz ona görə də bu gün regionların inkişaf problemi bunca aktualdır. Qloballaşma proseslərinin gedişində əldə olunanlarla itkilərin konkret nisbəti iqtisadi, təbii, demoqrafik və digər şərtlərlə və bu proseslərdə iştirak edən ölkələrin imkanları ilə, həmçinin həmin ölkələrin təqib etdikləri real məqsədlərlə müəyyən olunur. Müasir qloballaşmanın müsbət və mənfi *cəhətləri yüksək texnologiyalı* sənayesi

və müvafiq infrastrukturu olan ölkələrdə və iqtisadiyyatı əsas etibarı ilə kənd təsərrüfatı məhsullarının və xammal ixracına və yaxud turizmə əsaslanan ölkələrdə müxtəlif şəkildə təzahür edir.

Qloballaşma təşəkkül tapmış ictimai münasibətlərin və yüz milyonlarla çoxlu insanların davranış stereotiplərinin dağılmasına gətirib çıxarmışdır. Mədəniyyətin, həyat tərzinin, davranış modellərinin qloballaşması prosesləri cavab reaksiyası olaraq sosial-mədəni özünəməxsusluğa və orijinallığa yüksək maraq doğurur. Bu qayda ilə tradisionalist fundamentalizm üçün əlverişli mühit yaranır.

Milli iqtisadiyyatların artmaqda olan qarşılıqlı asılılığı maliyyə sistemlərinin sabitliyinin pozulmasına gətirib çıxarır. Dünya bazarı iqtisadi cəhətdən inkişaf etmiş ölkələrdə istehsal olunmuş əmtəələr üçün onların yüksək maya dəyərinə görə getdikcə daha çox maneələr yaradır. Yeni texnologiyaların inkişafının nəticəsi olaraq iqtisadi cəhətdən aktiv əhalinin 10%-ni əhatə etmiş kütləvi işsizlik yaranır.

İnkişaf etmiş ölkələrin və yerdə qalan dünyanın əhalisinin həyat səviyyəsindəki kəskin fərqdən irəli gələn miqrasiya axınları da qloballaşmanın nəticəsidir. Nə qeyri-leqal immiqrantların deportasiyaları, nə immiqrasiya qanunvericiliyinin kəskinləşdirilməsi, nə iqtisadi cəhətdən inkişaf etmiş ölkələrin qeyri-leqallar barəsində qəbul etdikləri çox sərt tədbirlər bu miqrasiya axınlarını azalda bilmir. Bu zəmində yerli əhali ilə immiqrantlar arasında münaqişə kəskinləşir.

Qloballaşmanın mühüm nəticəsi dünya nizamı elementlərinin artmaqda olan qarşılıqlı asılılıq dərəcəsidir. Son dövrün hadisələri göstərir ki, qloballaşmanın indiki mərhələsində zor tədbirlərinin rolu artır, kompromislərin rolu azalır.

Elmi-texniki inqilabla fəallaşdırılan qloballaşma onun nəticələrinin diversifikasiyasına kömək edir. Nəticə – nəzarət oluna bilinməyən kütləvi qırğın vasitələrinin yayılması və zorakılığın güclənməsidir ki, bunlar da bəşəriyyəti məhv olmaq təhlükəsi qarşısında qoyur.

Qloballaşmanın indiki mərhələsi demokratik inkişafı ciddi surətdə mürəkkəbləşdirən problemlərlə müşayiət olunur. Bu problemlərə aiddir:

- kapitalın qlobal hərəkəti, milli dövlətin nəzarətindən kənara çıxan və istənilən ölkənin daxili siyasətinə getdikcə daha güclü təsir göstərən maliyyə və informasiya axınları;
- qloballaşmanın unifikasiya aspektləri ilə milli birliklərin sosial-mədəni özəlliyinə meyl arasında ziddiyyət;
- ictimai istehsalın təməlində, insanların varlıq üsulunda və həyat tərzində radikal çevrilişi stimullaşdıran texnoloji inqilab.



Qlobalizm özünün qələbəsi üçün nəzərdə tutur:

- beynəlxalq xarakterli dövlətüstü strukturların aramsız güclənməsini;
- milli dövlətlərin təsirinin zəifləməsini;
- kapitalın beynəlmiləlləşməsinin dərinləşməsini;
- unifikasiyalı xarakterli nümunələrin güclü "informasiya" müdaxiləsinin hesabına milli mədəniyyətlərin və ənənələrin sıxışdırılmasını;
- ictimai həyatın sərt şəkildə standartlaşdırılmasını;
- fərdi inkişaf imkanlarının məhdudlaşdırılmasını, super-eqoizmin təzahürlərinə formal göz yumulduğu şəraitdə azadlıqların məhdudlaşdırılmasını;
- kütlələrin qloballaşma vəzifələrini yerinə yetirməklə məşğul olan partiyalarla, qruplarla və yaxud təşkilatlarla bağlı olmayan istənilən mütəşəkkilliyinin boğulmasını.

Bu şəraitdə dünya mədəniyyəti tədricən "qədimliklər dükanına" çevrilir. Maddi deqradasiyanın ardınca labüd olaraq mədəni deqradasiya baş verir. Kriminallıq "tənzimləyici vəzifələri" yerinə yetirməklə "prosesin arxitektorları" qərargahı ilə qovuşur. Beləliklə, bizim qarşımızda "yeni dünya" gerçəkliyinin ürək bulandırıcı mənzərəsi yaranır.

Dünyanın getdikcə daha çox qarşılıqlı əlaqədə, qarşılıqlı nüfuzetmədə, qarşılıqlı surətdə zəif nöqtələrə malik olduğu bir prosesin bazasında meqacəmiyyət formalaşır. Meqacəmiyyətdə isə milli-dövlət qurumlarının tabelikdə olan struktur vahidlər kimi çıxış edir.

Meqacəmiyyətin təşəkkülü tapması vahid bir mərkəzdən icra olunan məqsədyönlü səylərin nəticəsi deyildir. Bu, maneələrin və sərhədlərin üzərindən aşaraq qlobal şəbəkələrin tədricən yaradılmasından ibarət kortəbii tarixi prosesdir. Bununla əlaqədar olaraq cəsarətlə demək olar ki, qloballaşma ictimai proseslərin idarə edilməsinin keyfiyyətcə daha yüksək səviyyəsini tələb edir. Mövcud reallıqlar dərin transformasiyaya məruz qalmalıdır.

Bəşəriyyət qarşısında qlobal inkişafın idarə edilməsi kimi ən mürəkkəb problem durur. Bu problemin həlli üçün dünya siyasəti bütün planet məkanında lokal səviyyədən tutmuş ümumdünya səviyyəsinə qədər təşkilolunmanın bütün səviyyələrində idarəolunanlığı təmin etməlidir. Biz vahid əsaslar üzərində qurulan çox və ya az bütöv yeni

dünya nizamının formalaşmasını müşahidə edirik. Bu dünya nizamını əvvəlkilərdən bir sıra cəhətlər fərqləndirir:

- "milli güc" anlayışının genişlənməsi və mürəkkəbləşməsi – qloballaşma aşağıdakı güc amillərini irəli sürür: informasiya - kommunikativ potensial, dünya maliyyə bazarlarında vəziyyət, yeni texnologiyaların mənimsənilməsi sürəti, beynəlxalq təşkilatlar, ideya-siyasi sükanlar vasitəsilə təsir göstərmək imkanı;
- hüquqi əsasların ikiləşməsi – beynəlxalq aləmdə eyni vaxtda bir-birinə xeyli dərəcədə zidd olan müxtəlif məramlar fəaliyyət göstərir. İnsan hüquqlarının yuridik müdafiəsi üçün qlobal sistemin yaradılması ilk addımlarını atarkən güclü müqavimətlə üzləşir; onun qanunvericilik bazası hələ inkişaf etməmişdir və zəifdir;
- təcridolunmanın gələcəyinin olmaması – təcridolunma vaxtları artıq birdəfəlik yoxa çəkilmişdir. Özlərini dünyadan kənara çəkməyə çalışan ölkələr həsəd aparılmayan vəziyyətə düşürlər. Xarici dünyaya fəal surətdə uyğunlaşmaq lazımdır;
- sıfır məbləğli oyunlardan tədricən uzaqlaşma – ölkələr və xalqlar müxtəlif sahələrdə əməkdaşlığın inkişaf etdirilməsinə səy göstərirlər və imkan daxilində toqquşmalardan qaçmağa çalışırlar;
- dövlətlərin nüfuzlarına görə və qarşılıqlı münasibətlərin müəyyən sistemlərində daha sərt şəkildə yerləşdirilməsi – dövlətlərin böyük qruplarının nizama salınmış və sərt şəkildə strukturlaşmış xaraktерə malik tipologiyası formalaşır: inkişaf etmiş dövlətlər, keçid dövlətləri, inkişaf etməkdə olan dövlətlər, "dördüncü dünya". Qloballaşma hər bir ölkənin ümumi nəzərdə daha yaxşı görünməyə çalışdığı dövlətlərarası rəqabəti gücləndirir;
- müxtəlif tipli və intensivlik dərəcəsinə malik olan inteqrasiya proseslərinin stimullaşdırılması – qloballaşma insan fəaliyyəti üçün geniş meydan açan böyük, nisbətən həmcins sosial məkanlar yaradır;
- daxili və xarici siyasət arasında "divar"ın ləğv edilməsi – sərhədlər daha çox nüfuz edilən olur, daxili siyasi qərarlar xarici aləmə daha güclü təsir göstərir, xarici siyasət daim daxili həyata istiqamətlənmiş olur.

"Qarşılıqlı asimmetrik asılılıq" formulu bugünkü qloballaşmanın tərifi ola bilər. Bu mərhələdə qloballaşma prosesinin "sərəncam verəni" dünya resurslarının, istehsalının, ticarətinin, istehlakının 70%-dən çoxuna nəzarət edən postindustrial Qərbdir.



XXI əsrdə yoxsulluğun, qabaqcıl və inkişaf etməkdə olan ölkələr arasında sosial-iqtisadi inkişaf səviyyəsində ayrılığın aradan qaldırılmasında, zorakılıq və terrorçuluqla mübarizədə, ətraf mühitin çirklənməsinin və əlbəttə ki , istilik-nüvə müharibəsinin qarşısının alınmasında insanların birləşdirilməsi problemləri qlobal problemlərə çevrilir.

Qloballaşma dağıdıcı deyil, yaradıcı xarakter daşımalıdır. Bu işdə mühüm rolu sosial fəlsəfə, humanitar biliklər oynamalıdırlar. Nəzərə almaq lazımdır ki, müasir şəraitdə təbii-tarixi inkişaf prosesi subyektiv amilin sayəsində sosial-tarixi prosesə çevrilir.

Cəmiyyətin tərəqqisi yüksək intellektual və əxlaqi potensiala malik insanların müdrikliyindən və yetkinliyindən asılıdır.

Sülhün maddi təminatı qlobal sabitliyin və təhlükəsizlik sisteminin ayrılmaz və zəruri hissəsi olan tərksilah həmçinin müasir dövrün qlobal probleminə çevrilir. Tərksilah prosesi aşağıda göstərilən bir sıra əsas aspektləri özündə birləşdirir: 1) adi silahların (odlu silahın) ixtisar edilməsi, 2) istilik – nüvə silahlarının tərksilah olunması, 3) kosmosun hərbiləşməsinə qarşı mübarizə, 4) kimyəvi, bioloji və bakterioloji silahlar problemləri.

İqtisadi, texnoloji, siyasi, sosial və mədəni amillər məkan və zamanda öz təsirini gücləndirmək xassəsinə malikdirlər. Bununla əlaqədar olaraq istər sinergetik kreativ və istərsə də dağıdıcı effekt tamamilə realdır[1]. Sosial tərəqqi yolundakı səylərin uzun siyahısını gətirmək mümkündür, lakin uğursuzluqların siyahısı da təsirlidir.

Dünyanın qloballaşması istər böyük, istərsə də kiçik ölkələri yeni təhlükələr qarşısında eyni dərəcədə zəifliyə düçar edir. Rəqabət və zorakılıq prinsipləri qlobal sosial təhlükəsizliyin yeni tələblərinə cavab vermirlər. Qərb ölkələrinin müasir beynəlxalq münasibətlər sistemini ahəngdarlaşdırmağı istəməmələri dünya meydanında fundamental dini müxalifətin meydana gəlməsinə şərait yaradır, müasir terrorizm üçün sosial və siyasi zəmin yaradır.

Bununla əlaqədar olaraq terrorizm üçün təkan rolunu oynamış bir sıra səbəbləri fərqləndirirlər:

- iqtisadi səbəblər (kütləvi informasiya vasitələrinin qloballaşması "üçüncü dünya" ölkələrinin əhalisində yoxsulluq və zülm altında olmaq duyğusu doğurmuş müqayisə effekti kimi güclü fenomeni

[1] Bax: *Капица С.П., Курдюмов С.П., Малинецкий Г.Г.* Синергетика и проблемы будущего. М., 2001.

yaratmışdır);

- texnoloji səbəblər (kütləvi qırğın vasitələri böyük dağıdıcı xüsusiyyətə malikdir və kifayət qədər miniatürdür. Dövlət sərhədlərini keçən nəhəng insan axınlarının mərkəzləşdirilməsi bilavasitə qloballaşmanın nəticəsidir. Bu da onların içərisində terrorçuları büsbütün ələkeçməz edir);
- dünya nizamının spesifikliyi (insan birliyinin strukturu qloballaşmanın təsiri altında xeyli dərəcədə mürəkkəbləşir. Lakin məlumdur ki, sistem nə qədər mürəkkəbdirsə, onun sabitliyi bir o qədər zəif olur).

Formalaşmaqda olan qlobal dünya şəraitində təhlükələrin xarakteri də dəyişmişdir. Beynəlxalq terrorizm, zorakılığın tətbiqi ilə müşayiət olunan ekstremizm, mütəşəkkil cinayətkarlıq və korrupsiya ilə yanaşı silah ticarəti, narkotiklərlə, qiymətli metallarla və hətta insanlarla alver kimi qeyri-hərbi amillər də fəallaşmışdır.

Müasir beynəlxalq təhlükəsizlik özünün təmin edilməsi üçün qeyri-hərbi vasitələrin də olmasını tələb edir. Bu vasitələr hərbi-siyasi ziddiyyətlərin, hərbi münaqişələrin həlli zamanı daha münasib və məqsədəuyğundur (Cədvəl 8).

Cədvəl 8

**Qeyri-hərbi vasitələr, funksiyaları və subyektləri, onların tətbiqinə məsul olanlar**

| № | Qeyri-hərbi vasitələr | Onların funksiyaları | Qeyri-hərbi vasitələrin tətbiqinə məsul olan subyektlər |
|---|---|---|---|
| 1. | Siyasi-diplomatik vasitələr | Əlverişli hərbi-siyasi vəziyyətin formalaşdırılması, ölkənin beynəlxalq vəziyyətinin möhkəmləndirilməsi | Prezident, hökumət, parlament, XİN, Təhlükəsizlik şurası. Digər xarici siyasət idarələri |
| 2. | Hüquqi vasitələr (beynəlxalq və dövlət daxili) | Sülh və təhlükəsizliyin qanunvericilik əsaslarının, müharibələrin və münaqişələrin törədilməsi yollarında hüquqi maneələrin möhkəmləndirilməsi | Parlament, Təhlükəsizlik şurası, XİN, Ədliyyə Nazirliyi, Müdafiə Nazirliyi |



*Cədvəl 8-in davamı*

| № | Qeyri-hərbi vasitələr | Onların funksiyaları | Qeyri-hərbi vasitələrin tətbiqinə məsul olan subyektlər |
|---|---|---|---|
| 3. | İqtisadi vasitələr | Ölkənin müdafiəsini möhkəmləndirən iqtisadi, ticarət, maliyyə, elmi-texniki münasibətlərin inkişaf etdirilməsi | Təsərrüfatın əsas sahələrinin inkişafına cavabdeh olan nazirliklər və idarələr |
| 4. | İdeoloji – psixoloji vasitələr | Sülhü və dövlətin müdafiə qabiliyyətini möhkəmləndirən baxışların, ideya və hisslərin təsdiqlənməsi | Elm, mədəniyyət, təhsil, dinlər işləri üzrə hökumət orqanları, xarici siyasətin həyata keçirilməsi üzrə dövlət orqanları |
| 5. | İnformasiya vasitələri | Əlverişli ictimai rəyin formalaşması, müdafiə üçün informasiya resurslarından istifadə edilməsi | İnformasiya sistemlərinin idarə edilməsinin dövlət orqanları, idarələrin və regionların, KİV-in informasiya sistemləri |
| 6. | Humanitar vasitələr | Mənəvi-mədəni antaqonizmin aradan qaldırılması, şəxsiyyətlərarası ictimai əlaqələrin inkişaf etdirilməsi | Mədəniyyət nazirliyi, Təhsil və Elm nazirliyi, dini işlər üzrə dövlət komitəsi, ictimai təşkilatlar |
| 7. | Kəşfiyyat | Təcavüzkar niyyətlərin, gizli əməliyyatların aşkara çıxarılması, müdafiə sirlərinin qorunması | HKS, FTX, DKİ |
| 8. | İctimai (qeyri-hökumət) müdafiə | Qeyri-zoraki müqavimətlə təcavüzkarların qarşılarının alınması və ölkədən qovulmaları | Təhlükəsizlik şurası, Müdafiə nazirliyi, Təhsil və elm nazirliyi, ictimai özünümüdafiə təşkilatları |

Mənbə: *Канто А.С.* Концептуальные основы культуры мира в XXIвеке // Безопасность Евразии. 2002, № 2(8). С. 195.

## 3.3. Şəbəkə yanaşması qloballaşma şəraitində təhlükəsizlik sosiologiyasının fundamental nəzəri konsepti kimi

Şəbəkə Fenomeni bütün dünyada alimlərin və vətəndaşların diqqətini getdikcə daha artıq dərəcədə cəlb etməkdədir. Axı bu hadisənin sayəsində dövlət və ictimai institutların hər bir insanın və hər bir ailənin həyat təminatı əsaslarının möhkəmləndirilməsi üzrə səyləri özünün praktik təcəssümünü tapır.

Şəbəkə yanaşmasının, şəbəkə strukturlarının (network structures) təşəkkülü XX əsrin ortalarında "insan münasibətləri məktəbi" adı altında menecment nəzəriyyəsi cərəyanının inkişafı ilə bağlıdır. Üfüqi əlaqələrin həyata keçirilməsində, üfüqi strukturların yaradılmasında bu cərəyanın rolu 1960 – 1980-ci illərdə xüsusilə aydın şəkildə özünü göstərmişdir. Həmin illərdə ictimai birliklərin və yaxud QHT-lərin (qeyri-hökumət təşkilatlarının) hərəkatları geniş yayılmışdı. İnsanların, qeyri-formal birliklərin məhz üfüqi əlaqələri vətəndaş cəmiyyətinin skeletini möhkəmləndirir, insanı eyni zamanda azad edir və başqa adamlarla, institutlarla qarşılıqlı münasibətlərə daxil edir. İnsan öz taleyi haqqında, başqasının taleyi haqqında qərarlar qəbul edən real subyektə çevrilir. Lakin insan eyni zamanda məsuliyyət kəsb edir, çünki o, qeyri-formal əlaqələrdə "iştirak etməklə" öz əməllərinin nəticələrinə və yaxud bunların olmamasına görə məsuliyyət daşıyır.

Şəbəkələşmənin inkişafında dörd mərhələni fərqləndirmək olar:

B i r i n c i  m ə r h ə l ə təşəkkül tapma mərhələsidir və 1960 – 1980-ci illərə təsadüf edir. Bu mərhələ ayrıca bir insanın səviyyəsində, onun evində üfüqi əlaqələrin təşəkkül tapmış sistemində Şəbəkədə informasiyanın ötürülməsinin əldə edilmiş miqyaslarının, keyfiyyət və sürətinin saxlanılması mərhələsi idi.

İ k i n c i  m ə r h ə l ə 1990-cı illərə təsadüf edir. Bu illərdə kommunikasiyaların inkişafı, informasiyalaşdırmanın kəskin şəkildə artması şəbəkə strukturlarını yüksək texnologiyaların real insanın həyat təminatı sferasında ona yaxınlaşdırılması üçün arzu olunan mühit kimi müəyyənləşdirdilər. Lakin bu mərhələdə Şəbəkədə təhlükəsizliyin insanın hüquq və azadlıqlarından tutmuş sivilizasiyanın təhlükəsizliyinə qədər bütün spektri üzrə problemlərə yüksək diqqət yetirilməsində olduqca böyük rol oynamış ictimai birliklər liderlik etmişlər. Nəticədə, bunu da qeyd etmək lazımdır ki, 1990-cı illərdə Rusiyada şəxsi, ictimai



və dövlət təhlükəsizliyinin təmin edilməsində iştiraka istiqamətləndirilmiş ictimai institutların şəbəkəsi təşəkkül tapmışdır.

Ü ç ü n c ü  m ə r h ə l ə n i XXI əsrdə milyardlarla insanın həyat tərzinə, dünya mədəniyyətinə və milli mədəniyyətə, bəşəriyyətin əmin-amanlığına və təhlükəsizliyinə təsir göstərən qlobal fenomen kimi qiymətləndirmək olar. Bu, onunla əlaqədardır ki, İnternet konkret insana, onun ailəsinə evdə ola-ola öz məqsədlərinə nail olmaq, idealları həyata keçirmək, digər insanların, digər ailələrin rifahı və təhlükəsizliyini nəzərə almaqla öz dəyərlərini, maraqlarını müdafiə etmək və möhkəmləndirmək imkanı vermişdir.

Üçüncü mərhələnin sosioloji aspektləri L.A. Vasilenko tərəfindən "İnternet Rusiyanın dövlət xidmətinin informasiyalaşdırılmasında " adlı fundamental tədqiqatında orijinal və müfəssəl şəkildə açıqlanmışdır. Vasilenkonun qeyd etdiyi kimi, istər fərdlərdən, istərsə də təşkilatlardan və hətta dövlətlərdən ibarət olan şəbəkə strukturlarının formalaşması informasiya cəmiyyəti zəmanəsində, qlobal kompüter şəbəkələrinin və informasiya texnologiyalarının partlayışlı xarakter daşıdığı dövrdə daha perspektivlidir. Bu, istər iri sosial problemlərin və istərsə də xüsusi məsələlərin həlli üçün nəzərdə tutulmuş ərazicə paylanmış strukturları sürətlə formalaşdırmağa imkan verir.

Vasilenko güman edir ki, sosial şəbəkələr sosiumda yeni ideya oriyentirlərinin və dəyərlərinin generatorları və yayıcıları kimi çıxış edir, kütlələri hakimiyyət orqanlarının bu və ya digər təşkiledici təsirini qəbul etməyə və ya qəbul etməməyə hazırlayaraq, vətəndaş cəmiyyətinin fəallığının stimullaşdırıcıları kimi çıxış edə bilər.

Metodologiya səviyyəsində humanitar vətən elmində şəbəkə paradiqması ilk dəfə olaraq O.N. Yanitski tərəfindən nəzərdən keçirilmişdir. O, xüsusilə Şəbəkə subyektinin sosioloji şərhini təklif etmişdir. Yanitskiyə görə Şəbəkə sosial subyekti məkanca səpələnmiş – dispers kollektiv aktordur ki, bunun da elementləri kommunikasiya və digər resurs şəbəkələrinin vasitəsilə inteqrasiya olunur və yenidən bərpa olunur, informasiya isə mövcud sosial aktorun fəaliyyətinin əsas resursu və məhsuludur.

Şəbəkələşmənin d ö r d ü n c ü  m ə r h ə l ə s i n i minilliyin Sammiti ilə (6-8 sentyabr 2000-ci il, Nyu-York) ilə bağlayırıq. Bu Sammitdə Kofi Annan "Biz xalqlarıq: XXI əsrdə Birləşmiş Millətlər Təşkilatının rolu" mövzusunda məruzəsində birinci dəfə praktik olaraq BMT üzvləri olan bütün dövlətlərin liderlərinin iştirakı ilə şəbəkələşmə proqramını təqdim

etmişdir (məruzənin "Dəyişikliklər naminə şəbəkələrin yaradılması" və "Rəqəm texnologiyalarının qoşulması" bölmələri) . BMT-nin Baş katibi qlobal şəbəkələrin təşəkkül tapmasını ümumi məqsədlərə çatmağa səy göstərilməsində beynəlxalq institutların, vətəndaş cəmiyyətinin və xüsusi sektorun, hökumətlərin birləşməsi kimi nəzərdən keçirmişdir.

Kofi Annan xüsusi olaraq qeyd etmişdir ki, siyasətin işlənib hazırlanması üzrə qlobal şəbəkələr çox formalar alsalar da, onların bir sıra səciyyəvi cəhətləri vardır. Bu qlobal şəbəkələrdə iyerarxiya strukturu mövcud deyildir və səs vətəndaş cəmiyyətinə verilir. Qlobal şəbəkələr qlobal siyasi gündəliklərin hazırlanmasına, müzakirələrin tematikasının müəyyənləşdirilməsinə və ictimai şüurun yüksəldilməsinə kömək edir.

Kofi Annanın "müasir sivilizasiyanın və BMT-nin XXI əsrin tələblərinə cavab verməyə" hazırlığının təmin edilməsində mərkəzi yer tutacaq "yeni kommunikasiya mədəniyyətinin" məntiqi və məzmunu haqqında mülahizəsinin şəbəkələşmənin dördüncü mərhələsinin başa düşülməsi üçün mühüm əhəmiyyəti vardır.

Lakin şəbəkələşmə prosesi barədə digər nöqteyi-nəzər də mövcuddur. Misal olaraq, iqtisad elmləri doktoru L. Myasnikova (Sankt-Peterburq dövlət iqtisadiyyat və maliyyə universiteti) göstərir ki, hələlik azadlıqsız sərt şəbəkə cəmiyyəti formalaşır; bu cəmiyyətdə insanın mahiyyəti onun mövcudluğundan daha güclü şəkildə özgələşir, bilik isə getdikcə daha çox əmtəəyə çevrilir. Əməyin şəbəkə özgələşməsi baş verir ki, bu da insanın insandan özgələşməsinə gətirib çıxarır. Bu halda Qərb təkrar istehsal üsulu insanı "şəbəkə insanına" çevrilir, onun protestant etikası şəbəkə etikasına, onun mentaliteti isə şəbəkə mentalitetinə çevrilir.

İnkişaf etdikcə qlobal şəbəkə strukturları getdikcə daha yeni-yeni ölkələri öz orbitinə çəkib gətirir və ümumdünya totalitarizminin bərqərar olması üçün əxlaqi-psixoloji və praktik şərait yaradır. Bunların transmilli yayılmasına və təsirinə qarşı dura biləcək real qüvvə isə dünyada hələki yoxdur.

Hər iki nöqteyi-nəzər mübahisəli olaraq qalır və şübhəsiz, böyük diqqət və ətraflı təhlil tələb edir.

Şəbəkə yanaşması ilə əlaqədar sosioloji tədqiqatlarda bir institut kimi, proses, spesifik struktur, məqsəd, ideal, dəyər və maraq kimi çıxış edən fenomenin özünün çoxplanlılığı ümumi dominanta çevrilir.

Ən yeni institusionallaşma kontekstində şəbəkə yanaşması məşhur



sosioloq M. Kastelsin üç cildlik "İnformasiya epoxası: iqtisadiyyat, cəmiyyət və mədəniyyət" əsərində daha dolğun şəkildə açıqlanmışdır. Müəllif cəmiyyətin təkamülündə şəbəkə strukturlarının rolu haqqında öz təsəvvürlərini ümumiləşdirərək, belə bir nəticəyə gəlir ki, istehsal, hakimiyyət və təcrübənin münasibətlərindəki dəyişikliklər sosial həyatın, məkan və zamanın maddi əsaslarının transformasiyasına səbəb olur. İnformasiya zəmanəsinin axınları məkanı mədəni regionların məkanı üzərində dominantlıq edir. Kapital dövr edir, hakimiyyət hökmünü sürür, elektron kommunikasiyaları isə ayrı-ayrı yerləri qarşılıqlı mübadilə axınları ilə birləşdirir, halbuki fraqmentar, ayrıca bir təcrübə müəyyən yerə bağlanmış olaraq qalır. Texnologiya cəmiyyəti zaman ardıcıllıqlarından məhrum edərək və tarixi tarixsizləşdirərək zamanı bir neçə təsadüfi anlara qədər sıxışdırır. Şəbəkə cəmiyyəti hakimiyyəti axınlar məkanına qovaraq, kapitalı zamandan kənara çıxararaq və tarixi efemer mədəniyyət içərisində əridərək, real virtuallıq mədəniyyətini daxil edərək, sosial münasibətləri "birdəfəyə təcəssümləşdirir" (Bax: Kastels, 2000).

İnformasiya epoxasının zaman və məkanı kəsib keçən qlobal axınlarda virtuallıq mədəniyyətini əmələ gətirən istehsal, hakimiyyət və təcrübə şəbəkələri tərəfindən yaradılmış bu yeni sosial strukturunu Kastels *şəbəkə cəmiyyəti* adlandırır.

Sosial ölçülərin və institutların heç də hamısı şəbəkə cəmiyyətinin məntiqinə riayət etmir, necə ki, sənaye cəmiyyətləri uzun bir vaxt ərzində bəşər mövcudluğunun sənayeqabağı çoxsaylı formalarını özünə daxil etmişdi. Lakin informasiya zəmanəsinin bütün cəmiyyətləri dinamik ekspansiyası əvvəl mövcud olmuş sosial formaları tədricən udan və tabe edən şəbəkə cəmiyyətinin məntiqi ilə həqiqətən aşılanmışdır.

İnstitusionallaşmanın və şəbəkə yanaşmasının əlaqə mexanizmi üzərində ətraflı dayanaq.

Rusiya və xarici ölkə müəlliflərinin tədqiqatlarının təhlili "institut" kateqoriyasını sosiumun yaşaması və inkişafını təmin edən sabit qaydaların, ənənələrin, prosedurların məcmusu kimi nəzərdən keçirməyə imkan verir, yəni institut – özünəməxsus oyun qaydalarıdır. İnstitutun təşkilatdan fərqi bundan ibarətdir ki, institut daha universaldır, çevikdir və başlıcası isə, o, *formal və qeyri-formal oyun qaydalarını üzvi surətdə* birləşdirir, qeyri-müəyyənlik şəraitində imkanları ifadə edir, bununla da özinkişafı təmin edir. Təşkilat isə yalnız formal prosedurlar çərçivəsində fəaliyyət göstərir və dəqiq müəyyənləşdirilmiş vəzifələrin

reallaşdırılmasına yönəldilmişdir.

İnstitusionallaşma institutların mühitlə qarşılıqlı əlaqəsində onların məcmusunu bildirir və institutsionallaşmanın çox mühüm xassəsi – institutların dəyişməkdə olan mühitə, qeyri-müəyyənlik situasiyasına adaptasiyasıdır, sosiumun qeyri-standart situasiyalarda yaşamasıdır. Bu çıxış müddəası yeni təhlükəsizlik keyfiyyətinin – təhlükəsizlik mədəniyyətinin metodologiyasını səciyyələndirir.

Şəbəkə – yeni geomədəni fenomendir. Bu fenomen informasiyanı, bilikləri, İnternetdə birləşdirilmiş yeni yüksək texnologiyalarla vəhdətdə insanların münasibətlərini və qarşılıqlı təsirlərini özündə birləşdirən yeni obyektin bütövlüyünü əks etdirir.

Fəlsəfədə şəbəkə yanaşması kommunitar istiqamət, cərəyan şəklində formalaşmışdır. Kommunitarlıq İnstitutu sosial kollektivin və yaxud ayrıca şəxsiyyətlə müqayisədə bütöv cəmiyyətin hüquq və maraqlarının prioritetliyinin cəmiyyətdə kök salmış anlamını əks etdirir. Kommunitarlıq ictimai, kollektiv rifaha nail olunmasının önəmini şəxsi rifaha nail olunmasının önəmindən yüksək tutan sosial normalarla realizə olunur.

Beləliklə, şəbəkə yanaşması institusional yanaşma ilə müqayisə oluna bilər.

Şəbəkə yanaşması üçün şaquli əlaqələrdən üfüqi əlaqələrə doğru hərəkət səciyyəvidir. Şəbəkə yanaşması qlobal-informasiya iqtisadiyyatında mədəniyyətin maddi ifadəsidir; o, siqnalların və kodların əmtəələrə və xidmətlərə çevrilməsinə kömək edir (bax: yenə orada). Bu cəhətlər institusional-mədəni sintezin əsasını yaradır. Şəbəkə yanaşmasının inkişafı müəssisələrin səviyyəsindən başlayır. İşgüzar şəbəkələrin formalaşması aşağıdakı texnoloji alətlərin yaradılması ilə müşayiət olunur:

- telekommunikasiya şəbəkələrinin;
- güclü kompüterlərin;
- öz-özünə inkişaf edən adaptiv proqram təminatının. Bu, yeni işçi yerlərinin, qeyri-müəyyənlik, təşkilatsızlıq, yüksək risk şəraitində işləməyi bacaran yeni menecerlərin ortaya çıxmasına səbəb olur. Dünyanın istənilən nöqtəsində çox böyük sürətlə və başlıcası, dialoq rejimində eyni bir rəqəm dilində danışmağa imkan yaranır.

Yüksək humanitar texnologiyalar bu meylin ifadəsinə çevrilir. Məhz bu humanitar texnologiyalar institusional və şəbəkə yanaşmalarını yeni bir bütövlükdə – institusional-şəbəkə metodologiyasında birləşdirir.



Şəbəkə yanaşmasının sistem yanaşmasından fərqi nədən ibarətdir?

1. Şəbəkə yanaşması mühitlə qarşılıqlı təsir zamanı insanın təhlükəsizliyinin təhlilini nəzərdə tutur.

2. Şəbəkə yanaşması bütövlüyə istiqamətləndirilmişdir, yəni sinergetikanın müddəalarını özündə birləşdirir ki, bu da obyektin vəziyyətinin qeyri-müəyyənliyini (xaosdan nizama doğru) nəzərə almağa imkan verir.

3. Şəbəkə yanaşması iyerarxikdir. Burada liderlik məcburi deyildir, ona görə də diqqət mərkəzində Şəbəkənin sayəsində tənhalıqdan azad olmuş insan durur. 1998 – 2002-ci illərdə Beynəlxalq sosiologiya assosiasiyasının prezidenti A.Martinellinin Ümumdünya konqresinə (Brisben, Avstraliya, 2002) təqdim edilmiş "Bazarlar, hökumətlər, birliklər və qlobal idarəetmə" mövzusunda məruzəsində qeyd etdiyi kimi, "tarixdə ilk dəfə olaraq insanlar qlobal (perspektivdə) sosial şəbəkələrlə üz-üzə durmuşlar". İstehsal sistemləri və bazarlar ümumplanetar səviyyədə koordinasiya olunur, KİV-lər bütün dünyada insan kütlələrini əhatə edir. İnformatika məsafədən qarşılıqlı təsirdə olmağa imkan verir. Maddi və simvolik kommunikasiyalar zamanı və məkanı sıxışdırırlar. Lakin bütün bunlara cavab verə biləcək və geniş ictimaiyyət üçün münasib, sərfəli olacaq qlobal demokratik idarəetmə institutlarını əsaslandırmağa qadir olan normativ konsensus mövcud deyildir. XXI əsrin sosial dünyası fraqmentar olaraq qalır. Eyni samanda da çoxqatlı qlobal idarəetmə institutları və qaydaları kosmopolit mədəniyyət dəyərləri ilə birlikdə inkişaf edəcəkdir.

## 3.4. Ekoloji sosiologiya

III minilliyin başlanğıcında bəşəriyyət başlıca olaraq insanın düşünülməmiş fəaliyyətinin nəticəsində yaranmış ekoloji böhran qarşısında qalmışdır. Yaranmış situasiyanı aradan qaldırılmaq zərurəti ekoloji problematikanı müasir dövrün ən aktual qlobal problemlərindən birinə çevirmişdir.

"Hər addımda faktlar bizə xatırladır ki, biz təbiət üzərində bir işğalçının başqa xalq üzərində hökmranlıq etdiyi kimi hökmranlıq etmirik, biz təbiət üzərində təbiətdən kənarda olan bir kimsə kimi hökmranlıq etmirik, əksinə, biz öz canımızla, qanımızla və beynimizlə bu təbiətə məxsusuq və onun daxilində yerləşirik, bizim təbiət üzərində hökmranlığımız bundan ibarətdir ki, biz bütün digər məxluqatlardan

fərqli olaraq onun qanunlarını dərk etməyi və onları düzgün tətbiq etməyi bacarırıq”.[1]

Təbiətlə rasional qarşılıqlı münasibətlər o qədər mühümdür ki, bu münasibətlər ümumplanetar əhəmiyyət kəsb edirlər. Bəşəriyyət ekoloji yönümlü şüura və fəaliyyətə, ekoloji yönümlü sosial inkişafa keçməlidir – sosial ekologiya ekoloji problemləri məhz bu mövqelərdən nəzərdən keçirir.

Ekoloji sosiologiyanın təşəkkül tapmasına qədər ekologiya elmi uzun bir inkişaf yolu keçmişdir. “Ekologiya” terminin özünü 1866-cı ildə alman bioloqu E. Hekkel elmi dövriyyəyə daxil etmişdir. O, ekologiya adı altında orqanizmlərin ətraf mühitə münasibəti haqqında elmi başa düşmüşdür. Ç. Darvin özünün orqanizmlərin yaşayış uğrunda mübarizəsi (o cümlədən ətraf mühitə adaptasiyası yolu ilə) haqqında təliminə əsaslanan fənn olaraq ekologiyanın bioloji təməlini qoymuşdur.

Bioloji ekologiya ilə yanaşı insan ekologiyası da meydana gəlmişdir, doğrudur, başqa bir ad altında. Sonra insan ekologiyası iki cərəyana ayrılmışdır – orqanizm kimi insan ekologiyasının özünə və sosial ekologiyaya. İngilis fitotsenoloqu A. Tensli “ekosistem” terminini daxil etmişdir. Bu termin müxtəlif mürəkkəblikli təbiət obyektlərinə tətbiq olunur və aralarında daim maddə və enerji mübadiləsi gedən canlı və cansız elementlərdən ibarət olan vahid təbiət kompleksini, ifadə edir, mübadilə proseslərinin xassələri isə sabitliyə malik olurlar.

Ətraf mühitə, onun ekosistemlərinə antropogen təsirin güclənməsi təbiətin sosiallaşdırılması ideyasını doğurmuşdur. “Orqanizm-şəhər” və “dərin bioloji fenomen” kimi cəmiyyət konsepsiyası irəli sürüldü (Çikaqo sosiologiya məktəbi).

O.N. Yanitski ekoloji sosiologiyanın inkişafının üç mərhələsini fərqləndirir:

1) insan ekologiyasını və şəhər ekologiyasını – 1920 – 1930-cu illər;

2) ekoloji problemlər sosiologiyasını – 1960 – 1970-ci illər;

3) ekoloji sosiologiyanı. Ekoloji sosiologiya 1980-ci illərdə qəti olaraq təşəkkül taparaq, Roma klubunun və BMT-nin ətraf mühitə dair Proqramının ideyalarının dərk edilməsi kimi meydana gəlmişdir[2].

---

[1] *Маркс К., Энгельс Ф.* Соч. Т. 42. С. 92.

[2] Bax: *Яницкий О.Н.* Экологическая социология (программа курса) // СОЦИС. 1997. №2.



Ekoloji sosiologiyanın əsas vəzifəsi təbii-elmi və ictimai biliklərin, tədqiqat hipotezlərinin və metodlarının sintezi yolu ilə insan birliyinin və təbiətin qarşılıqlı təsirinin konseptual şəkildə işlənib hazırlanmasıdır.

E. Hekkelin, A. Tenslinin, R. Parkın, E. Byorcessin, R. Makkenzinin ekologiyaya və sosial ekologiyaya dair konseptual müddəaları, həmçinin V.İ. Vernadski və P. Teyyar de Şarden tərəfindən biosfer və noosfer haqqında formulə edilmiş ideyalar ekoloji sosiologiyanın nəzəri mənbəyini təşkil etmişdir. Ekoloji sosiologiyanın inkişafını invayronmental sosiologiyanın baniləri olan R. Danlep və U. Ketton tərəfindən işlənib hazırlanmış “yeni ekoloji paradiqma” sürətləndirmişdir. Ekoloji sosiologiyanın əsas **prinsipləri** aşağıdakılardır.

- Bəşəriyyət canlı varlıq kimi ətraf təbiət mühitindən asılıdır. Lakin təbiətlə əks əlaqə çətinləşdiyindən insan fəaliyyəti çox vaxt gözlənilməz nəticələr verə bilər.
- Təbiət özdəyərlidir, insansız mövcud ola bilər.
- Zəka insana heç bir imtiyaz vermir, yalnız ətraf mühitə münasibətdə onun qarşısında əlavə vəzifələr qoyur. İnsanlar dünyası və təbiət dünyası vahid sistemin elementləridir.
- Təbiətə təsir istər insanın, istərsə də təbiətin tələbatlarının maksimum təmin edilməsini nəzərdə tutan qarşılıqlı təsirlə əvəz olunur.
- Təbiət mühiti sosioloji tədqiqatlarda mühüm dəyişəndir.
- Təbiətin resursları sonsuz deyildir. Bu da ictimai tərəqqi üçün müəyyən məhdudiyyətlər yaradır.
- Dövlət ətraf mühitin xüsusiyyətlərini nəzərə almadan kapitalın sərfəli akkumulyasiyası – toplanması üçün şərait yaratmaqla ekoloji problemlərin kəskinləşməsinə şərait yaradır.
- Təbiətlə qarşılıqlı təsir “ekoloji imperativ” xarakteri daşımalıdır. Bu “ekoloji imperativ” aşağıdakı prinsipə əsaslanır: yalnız o şey düzgündür və ona icazə verilib ki, o, təbiətdə mövcud olan ekoloji tarazlılığı pozmur.

Akademik N.N. Moiseyev həmin prinsiplərə əsaslanaraq kotəkamül konsepsiyasını işləyib hazırlamışdır. Bu konsepsiyaya görə təbiət və insan “davamlı tarazılıqsızlıq” vəziyyətindədirlər, yəni biosfer parametrlərinin dəyişməsi o qədər yavaş baş verir ki, bəşəriyyət dəyişikliklərə uyğunlaşmağa və praktik olaraq sabit biogeokimyəvi sikllərə qoşulmağa macal tapır.

Tədqiqat obyektinə sosio-ekololoji istiqamətlilik "təbii – süni" olanın qarşılıqlı təsirilə müəyyən edilir. Ekoloji sosiologiya insan tərəfindən süni olaraq yaradılmış predmet mühitinin – ətraf təbiətlə qarşılıqlı təsirdə olan "ikinci təbiət" obyektinin strukturunu, fəaliyyət xüsusiyyətlərini və meyllərini öyrənir. Meydana gələn ekoloji problemlər də məhz "ikinci təbiətin" törəməsidir.

Ekoloji sosiologiyanın o b y e k t i n i sosial-təbiət münasibətləri və qarşılıqlı təsirlərinin mürəkkəb və çoxaspektli sistemi təşkil edir. Bu sistem insanın şüurlu fəaliyyəti nəticəsində formalaşır və fəaliyyət göstərir. İnsanla yanaşı bu sistem bir neçə müxtəlif təbiətli mühitləri özünə daxil edir: geosferi və biosferi (mühit əmələ gətirən amilləri – təbiət proseslərini), texnosferi və sosial sferi (mühit əmələ gətirən amilləri – sosial prosesləri).

Ekoloji sosiologiyanın s u b y e k t i olaraq nəinki insan və sosial qruplar, eyni zamanda da təbiət obyektləri, ekosistemlər çıxış edir.

Sosial ekologiya hələlik təşəkkül mərhələsindədir, buna görə də, onun predmeti haqqında vahid fikir yoxdur. Sosial ekologiyanın p r e d m e t i n ə aşağıda göstərilənlər kimi müxtəlif hadisələr daxildir:

- müxtəlif miqyaslı sosial sistemlərin ətraf təbiət mühiti ilə qarşılıqlı münasibətləri;
- müxtəlif sosial birliklərdə birləşmiş insanın təbiətyaradıcı fəaliyyəti;
- cəmiyyətin təbiətlə istər insanın maraqları və tələbatlarına, istərsə də biosferin qorunması və yenidən bərpası maraqlarına uyğun olan optimal qarşılıqlı münasibətlərinin yaradılması;
- insanların birliklərinin ətraf mühitlə qarşılıqlı təsirlərinin idarəetmə qərarlarının işlənib hazırlanması və həyata keçirilməsi vasitəsilə formalaşması.

Beləliklə, *ekoloji sosiologiyanın predmetini insanla ətraf mühit arasında spesifik qarşılıqlı təsirlərin, təbiət və cəmiyyət amillərinin məcmusu olaraq ətraf mühitin insana təsirinin, insanın mühit dəyişikliklərinin aşkara çıxarılması mövqelərindən ətraf mühitə təsirinin, sosial-bioloji varlıq kimi insanın normal həyatı üçün ətraf mühitin qorunub saxlanılması və yenidən bərpasının tədqiqi kimi müəyyənləşdirmək olar.*

Sosial ekosistemin fəaliyyət və inkişaf qanunları içərisində sosioloqlar B. Kommoner tərəfindən formulə edilmiş aşağıdakı postulatları xüsusilə fərqləndirirlər:



1) hər şey hər şeylə əlaqədədir; 2) təbiət daha yaxşı bilir; 3) hər şey harayasa işlənməlidir; 4) heç bir şey elə-belə əldə edilmir.

N.F. Reymens ilk plana aşağıdakıları çıxarır: sosial-ekoloji tarazlıq qanunu; inkişafın mədəni idarə edilməsi prinsipi; sosial-ekoloji əvəzetmə qaydası; sosial-ekoloji geriyədönməzlik qanunu; V.İ. Vernadskinin noosfer qanunu.

Ətraf daim dəyişməkdə olan ekomühit şəraitində insanın yerinin müəyyənləşdirilməsi ekoloji sosiologiyanın əsas vəzifəsidir.

Təbiətlə rasional qarşılıqlı münasibətlərin həlledici amili ekoloji şüurdur. E k o l o j i ş ü u r adı altında sosioloqlar ətraf mühitin vəziyyətindən əhalinin kütləvi narahatlığını və bu vəziyyəti yaxşılaşdırmaq yollarının axtarılıb tapılmasını başa düşürlər. Ekoloji şüurun əsas xarakteristikaları bunlardır: ətraf mühitin durumundan narahatlıq, təhlükə mənbəyini identifikasiya etmək bacarığı, sağlam və təhlükəsiz yaşayış mühitinin ictimai dəyər kimi qəbul edilməsi, pozitiv səfərbərlik (risklər haqqında informasiyanın dərk edilməsi əsasında hərəkətə hazırlığın formalaşması), fərdi səfərbərlik (kollektiv hərəkətlərdə şəxsi iştirakın zəruriliyinin dərk edilməsi).

Şüurun ekoloji risk ölçüsü üzərində və onun qarşısının alınmasında iştirakın ölçüsü üzərində cəmləşdirilməsi dərəcəsi dörd pilləyə bölünür

- təminolunma – ekoloji situasiyanın doğurduğu şəraitin və sosial subyektin gözləmələrinin balanslılığı;
- ziyana məruzqalma – ekoloji situasiyanın həyat şəraitinə ziyan vurmasının qiymətləndirilməsi;
- sosial gərginlik – ekoloji situasiyanın inkişaf xarakterinin subyektin maraqlarına təhlükə yaratmasının dərk edilməsi;
- münaqişəlilik – ekoloji situasiyaya ilə ziddiyyətin aradan qaldırılmasına hazırlıq.

Hər bir insan başa düşməlidir ki, təbiətin hətta ona qəsdən vurulmayan ziyanının əvəzini verməyə heç də həmişə gücü çatmır. İntensiv təsir təbiətə itirilmiş olanı bərpa etməyə imkan vermir. Ekoloji şüur insanı ekoloji inkişafın obyektiv tələbatlarının düşüncəli şəkildə realizə olunmasına sövq etməlidir.

Bəşəriyyətin ekoloji nadanlığı faktının etiraf edilməsi e k o l o j i m ə d ə n i y y ə t i n formalaşdırılması zərurətinin başa düşülməsinə lap yaxınlaşdırır. Ekoloji böhranın həll edilməsi ekoloji dəyərlər və normaların zəruri şərt kimi mədəniyyətin ən ümumi norma və dəyərlərinə çevrilməsini tələb edir.

Ekoloji mədəniyyətin əsas cəhətləri insanın təbiətin bir hissəsi kimi və təbiətlə qarşılıqlı təsirdə bərabərhüquqlu tərəfmüqabil kimi qəbul edilməsi, təbiətdə və cəmiyyətdə müxtəlifliyin başa düşülməsi, onların mühafizəsi və yenidən bərpasıdır.

Ekoloji mədəniyyət təsadüfi tərzdə formalaşmır. Onun təşəkkül tapması insanları aktiv hərəkətlərə sövq edən məqsədyönlü inkişafın əsasında baş verir. Lakin ekoloji mədəniyyətə nəinki ayrıca insan, eyni zamanda dövlət, istehsal, biznes strukturları da sahib olmalıdırlar.

Ekoloji mədəniyyət ətraf mühitin mühafizəsinə dair bilikləri, ölkənin təbiət zənginliklərinin qorunmasına və artırılmasına əsaslanan aktiv ekoloji davranışı özündə birləşdirir. Müasir şəraitdə bu fəallıq "yaşıllar hərəkat"ının müxtəlif formalarında təzahür edir. Ekoloji davranış bir sıra birbaşa və sövqedici amillərlə şərtlənmişdir (cədvəl 9)

Cədvəl 9.

**Ekoloji davranış amilləri**

| Birbaşa amillər | Sövqedici amillər |
|---|---|
| Təbiət mühiti | Cəmiyyətin sosial strukturu |
| Süni mühit | Demokratiyanın səviyyəsi |
| Texnoloji amillər | Hakimiyyətin və idarəetmənin strukturu |
| İqtisadi amillər | Mədəni ənənələr |
| Əhalinin inkişaf səviyyəsi | Əxlaqi normalar |
| Hüquqi normalar | Ekoloji şüur |
| Beynəlxalq əməkdaşlıq | İctimai rəy |
| Fərdin və cəmiyyətin ekoloji davranışı | |

Mənbə: Бабосов Е.М. Прикладная социология. Минск, 2001. C. 122.

Ekoloji davranış amilləri haqqında ekoloji mədəniyyətdə təcəssümünü tapmış dəqiq təsəvvür alimlərin fikrincə yeni dünyagörüşü – mədəni-fəaliyyət sisteminin – ekosofiyanın, yəni ekoloji müdrikliyin formalaşmasına gətirib çıxaracaqdır. Bu doktrinanın əsasında bütün canlı nə varsa, hamısının mütləq dəyərliliyinin, insanın gündəlik həyat fəaliyyəti prosesində təbiətin yaratdıqları ilə ahəngdarlığa nail olunması zərurətinin etiraf edilməsi durur.



Beləliklə, ekosofiya səviyyəsində ekoloji mədəniyyət bəşəriyyətin davamlı inkişafının təmin edilməsinə yönəldilmiş sosial yönümlü ekoloji siyasətin (iqtisadi, sosial, elmi-texniki və sosial-mədəni siyasətlə üzvi vəhdətdə) formalaşmasının çox mühüm şərtinə çevrilir. Davamlı inkişaf konsepsiyası texnoloji və iqtisadi inkişaf proseslərinin insanların müasir və gələcək nəsillərinin mənafei baxımından yaşayış mühitinin qorunması və yenidən bərpası ilə uzlaşdırmağı nəzərdə tutur.

Testlər

1. Qlobalizm bu deməkdir:
   a) insan birliyinin universallaşmasıdır;
   b) insan birliyinin fərdiləşdirilməsidir.

2. Açıq cəmiyyət bu deməkdir:
   a) sosial ədalətdən asılı olmayaraq bəşər birliyinin azadlığıdır;
   b) sosial ədalətlə bir araya sığışa bilən maksimum azadlıq dərəcəsi verən cəmiyyətdir.

3. Qloballaşma müşayiət olunur:
   a) sosial və mədəni cəhətdən həmcins olan "böyük məkanların" formalaşması ilə;
   b) sosial və mədəni cəhətdən heterogen olan "böyük məkanların" formalaşması ilə.

4. Qloballaşma tələb edir:
   a) cəmiyyətin idarə edilməsinin mövcud modellərinin saxlanılmasını;
   b) ictimai proseslərin idarə edilməsinin keyfiyyətcə yeni səviyyəsini.

5. "Ekologıya" terminini elmi dövrəyə daxil etmişdir:
   a) Ç. Darvin; b) E.Hekkel.

6. Ekosistem bu deməkdir:
   a) aralarında daim maddə və enerji mübadiləsi gedən, mübadilə proseslərinin xassələrinin isə sabitliyə malik olduğu canlı və cansız elementlərdən ibarət davamlı təbiət kompleksidir;
   b) aralarında daim maddə və enerji mübadiləsi gedən, mübadilə proseslərinin xassələrinin isə dəyişkənliyə malik olduğu canlı və cansız elementlərdən ibarət olan sabit təbiət kompleksidir.

7. Ekoloji sosiologiya öyrənir:
   a) ekosistemləri;
   b) cəmiyyətlə qarşılıqlı təsirdə ekosistemləri.

8. B.Kommonerə görə sosioekoloji qanunlar:
   a) hər şey hər şeylə əlaqəlidir;
   b) hər şey tarazılıqdadır;
   v) təbiət daha yaxşı bilir;
   q) hər şey harayasa işlənilməlidir;
   d) heç bir şey elə belə əldə edilmir;
   e) hər şey xərc tələb edir.

9. Noosfer haqqında təlimin banisi:
   a) V.İ. Vernadskidir; b) N.F. Reymensdir.

10. Ekoloji mədəniyyət tələb edir:
   a) ekoloji dəyərlər və normaların fərdiləşdirilməsini;
   b) ekoloji dəyərlər və normaların universallaşdırılmasını.

## Cavablar:

**1** – a; **2** – b; **3** – a; **4** – b; **5** – b; **6** – a; **7** – b; **8** – a, v, q, d; **9** – a; **10** – b.

## Seminarlarda və "dəyirmi masa"larda müzakirə olunmaq üçün mövzular

1. İnnovasiyalar effektlərinin əsas formaları; U. Oqborna görə müasir səslənməsi.
2. Manipulyasiya və idarəetmə.
3. Müasir rəhbər: cəhətləri və xarakteristikaları.
4. Rusiyada dövlət idarəçiliyi problemləri.
5. Vətəndaş cəmiyyəti: meyllər və perspektivlər.
6. Qloballaşma və yeni dünya nizamı.
7. Qloballaşma şəraitində təhlükəsizlik problemi.
8. Müasir dünyada risklər.



## Referatlar üçün mövzular

1. Sosiologiyanın elm kimi meydana gəlməsi.
2. Sosioloji tədqiqatın obyekti və predmeti.
3. H.Spenserin üzvi-təkamül nəzəriyyəsi.
4. K.Marks və sosioloji fikir tarixində onun yeri.
5. Rus sosioloji fikir tarixi.
6. M.Veberin anlayan sosiologiyası.
7. Klassik rus sosiologiyası.
8. Müasir Qərb sosiologiyası.
9. Sosioloji bilik sistem kimi.
10. Sosiologiyanın metodu haqqında tarixi-sosioloji təsəvvürlər.
11. Empirik sosioloji tədqiqat: mahiyyəti və məzmunu.
12. Sosioloji tədqiqat proqramı.
13. Sosiologiya tarixində mədəniyyət problemi.
14. Davranışın tənzimlənməsinin mədəni mexanizmləri.
15. Sosiomədəni tolerantlıq problemləri.
16. Mədəniyyətin tipləri və növləri.
17. Elitar mədəniyyət, onun xüsusiyyətləri.
18. Deviant qrupların submədəniyyəti.
19. Əksmədəniyyət və onun neytrallaşdırılması mexanizmləri.
20. Müasir mədəni relyativizm.
21. Din sosiomədəni institut kimi.
22. İncəsənət mədəniyyət institutu kimi.
23. Qərb sosiologiyasında şəxsiyyət problemi.
24. Rus sosiologiyasında şəxsiyyət problemi.
25. Şəxsiyyət sosial münasibətlərin subyekti kimi.
26. P. Sorokinin şəxsiyyət tipologiyası.
27. Şəxsiyyətin sosial adaptasiyası: R.Merton.
28. Marginal şəxsiyyət tipi.
29. Müasir rus cəmiyyətində şəxsiyyətin sosiallaşdırılması problemləri.
30. D. Mur və onun "ümumiləşdirilmiş başqası" nəzəriyyəsi.
31. Marksizmdə şəxsiyyətin mahiyyəti.
32. C.Midin və R.Lintonun şəxsiyyətin rolları nəzəriyyələri.
33. Müasir rus cəmiyyətində sosial statusların və rolların təhlili.
34. İmic və onun əsas xarakteristikaları.
35. Sosial nüfuz haqqında tarixi təsəvvürlər.
36. Müasir Rusiya: rol razılığı və rol münaqişəsi.
37. Müasir rusiyalının həyat tərzi.
38. Tələbə həyat tərzinin xüsusiyyətləri.
39. Müasir Rusiya tələbəsinin asudə vaxtının strukturu.
40. Deviasiya və sosial nəzarət: tipləri və növləri.
41. Müasir Rusiyada ailə-nikah münasibətləri: problemlər, meyllər, perspektivlər.
42. Cəmiyyətin sosial strukturuna dair əsas anlayışlar və bu sosial strukturun öyrənilməsinə yanaşmalar: sosial struktur, sinif, qrup, təbəqə, sosial stratifikasiya, stratalar, stratifikasiyanın meyarları, sosial məkanlar, distansiyalar.
43. Sosial bərabərsizlik.
44. Sovet cəmiyyətinin sosial strukturu (əsas yanaşmalar, kəmiyyət və keyfiyyət göstəriciləri).
45. Müasir Rusiya cəmiyyətində sosial bərabərsizliklərin transformasiyası.
46. Elitalar nəzəriyyələri. Struktur və meritokratik yanaşmalar (V.Pareto, R.Mixels,

Q.Moska, R.Mills və b.).
47. Orta siniflərin seçiminə yanaşmaların müxtəlifliyi: köhnə və yeni orta siniflər.
48. Cəmiyyətin sosial strukturunda marginal təbəqələr.
49. Yoxsulluq və işsizlik problemi.
50. Sosial mobillik: Rusiya və Qərb.
51. Təhsil və sosial qruplar və fərdlərin peşə mənsəblərinin nümunələri.
52. Sosial qrup və fərdlərin yaşayış yeri və miqrasiyası.
53. Maddi və mədəni istehlakın nümunələri və həyat keyfiyyəti.
54. Fəaliyyət növlərinin sosial strukturu və sosial nüfuzu.
55. İctimai və siyasi hakimiyyət bölgüsü və sosial qrupların sosial razılaşması.
56. Sosial və milli distansiya və sosial stratifikasiya.
57. Sosial identifikasiya problemi.
58. Siniflərin və təbəqələrin dəyərlilik yönümləri (eqalitarizmə, ənənəviçiliyə, konformizmə, avtoritarizmə, etatizmə, əmək etikasına, meritokratizmə, dindarlığa münasibətlərin şkalaları).
59. Sosial qrupların sosial problemlərə münasibəti (tətillər, böhran, imtiyazlar, fəhlələrin vəziyyəti).
60. Sahibkarların vəziyyəti və rolu (kənd təsərrüfatı, kiçik biznes, azad peşələr və s.).
61. Müasir Rusiya cəmiyyətinin sosial strukturunun transformasiyası meylləri.
62. Rus sosiologiyasında "cəmiyyət" anlayışı.
63. Qərb sosiologiyasında "cəmiyyət" anlayışı.
64. Cəmiyyətlərin tipologiyası problemləri.
65. Birlik və cəmiyyət.
66. Sosial sistem və cəmiyyət.
67. Etnik identifikasiya.
68. Etnos sosial birlik kimi.
69. Təşkilatda şəxsiyyət.
70. Təşkilati davranışın motivasiyası.
71. Təşkilat – məqsədli birlik kimi.
72. Referent qruplar.
73. M. Veber sosial hərəkət haqqında.
74. Sosial əlaqə.
75. Sosial münasibətlər.
76. Sosial dəyişikliklər.
77. Sosial transformasiyalar.
78. Sosial razılaşma.
79. Sosial münaqişə.
80. Sosial sistemlərin inkişafının proqnozlaşdırılması.
81. Modelləşdirmə və cəmiyyətin idarə edilməsində onun rolu.
82. Avtomatlaşdırılmış idarəetmə sistemləri: inkişaf perspektivləri.
83. Sosiologiyada liderlik problemi.
84. İdarəetmə üslubu.
85. Yerli özünüidarə.
86. İdarəetmə təsir metodları.
87. İdarəetmə qərarının strukturu.
88. Qloballaşma: nailiyyətlər və risklər.
89. Meqacəmiyyətlərin formalaşması problemləri.
90. Bəşəriyyətin qlobal problemləri.
91. Rusiyada ekoloji vəziyyət.
92. Ekoloji mədəniyyət.
93. Müasir cəmiyyətdə risklər və sosial məsuliyyət problemləri.

# TÖVSİYƏ OLUNAN ƏDƏBİYYAT


*Абекромби И., Хилл С., Тернер Б.С.* Социологический словарь. Казань, 1997.
*Агафонов Ю.А.* Социальный порядок в России. Ростов н/Д., 2000.
*Акулич М.М.* Социология согласия: Учебное пособие. Тюмень, 2002.
Американская социологическая мысль. М., 1994.
Американская социология: Тексты. М., 1994.
Антология мировой политической мысли. М., 1997. Т. 1—5.
*Ануфриев Е.А.* Социальный статус и активность личности // Личность как объект и субъект социальных отношений. М., 1984.
*Арон Р.* Этапы развития социологической мысли. М., 1993.
*Асп Э.* Введение в социологию. СПб., 1998.
*Афанасьев В.Г.* Социальная информация и управление обществом. М., 1975.

*Бабосов Е.М.* Прикладная социология. Минск, 2001.
*Батыгин Г.С.* Лекции по методологии социологических исследований. М., 1995.
*Бауман З.* Мыслить социологически. М., 1996.
*Беляева Л.А.* Социальная стратификация и средний класс в России. М., 2001.
*Беляева Л.А.* Эмпирическая социология в России и Восточной Европе. М., 2004.
*Бергер Питер Л.* Приглашение в социологию. М., 1996.
Биографический метод в социологии: история, методология, практика. М., 1993.
*Борцов Ю.С.* Социология. Ростов н/Д. 2002.
*Бутенко И.А.* Организация прикладного социологического исследования. М., 1998.
*Вебер М.* Избранные произведения. М., 1990.
*Вебер М.* Избранное. Образ общества. М., 1994.
*Витанье И.* Общество, культура, социология. М., 1994.
*Волков Ю.Г., Мостовая И.В.* Социология. М., 1999.
*Вудкок М., Френсис Д.* Раскрепощенный менеджер. М., 1991.

*Гидденс Э.* Социология. М., 1999.
*Голенкова З.Т., Нарвут Н.П.* История социологии в странах Центральной и Восточной Европы. М., 2004.
*Голосенка И.А., Козловский В.В.* История русской социологии XIX—XX вв. М., 1995.

*Горшков М.К.* Общественное мнение. История и современность. М., 1988.
*Гофман А.Б.* Классическое и современное. Этюды по истории и теории социологии. М., 2003.
*Гофман А.Б.* Семь лекций по истории социологии. М., 2000.
Гражданское общество: Теория, история и современность. М., 1999.
*Громов И.А., Мацкевич А.Ю., Семенов В.А.* Западная теоретическая социология. СПб., 1996.
*Грушин Б.А.* Мнения о мире и мир мнений: проблемы методологии исследования общественного мнения. М., 1967.
*Гумилев Л.Н.* Этногенез и биосфера земли. Л., 1989.
*Гумплович Л.* Социология и политика. М., 1995.
*Гуревин П.С.* Культурология. М., 2001.

*Давыдов Ю.Н., Роднянская И.Б.* Социология контр культуры. М., 1980.
*Девятко И.Ф.* Методы социологического исследования. Екатеринбург, 1998.
*Девятко И. Ф.* Социологические теории деятельности и практической рациональности. М., 2003.
*Дмитриев А.В.* Конфликтология: Учебное пособие. М., 2001.
*Добренькое В.И., Кравченко А.И.* Социология. М., 2001.
*Дробижева Л.М.* История и социология. М., 1971.
*Дробижева Л.М.* Социальные проблемы межнациональных отношений в постсоветской России. М., 2003. ,
*Дюркгейм Э.* Разделение общественного труда. М., 1991.
*Дюркгейм Э.* Самоубийство. Социологические этюды. М., 1994.
Западно-европейская социология XIX—XX века. М., 1996.
*Заславская Т.Н.* Современное российское общество. Социальный механизм трансформации. М., 2004.
*Зборовский Г.Е.* История социологии. М., 2004а.
*Зборовский Г.Е.* Общая социология. М., 2004б.
*Здравомыслов А.Г.* Потребности. Интересы. Ценности. М., 1986.
*Здравомыслов А.Г.* Социология конфликта. М., 1996.
*Зиммель Г.* Избранное: В 2 т. М., 1996. Т. 2.

*ИонинЛ.Г.* Понимающая социология. М., 1984.
*ИонинЛ.Г.* Социология культуры. М., 1996.
История социологии в Западной Европе и США. М., 2001.
История теоретической социологии. СПб., 2000.



*Камю А.* Человек бунтующий. М., 1990.
*Кастельс М.* Информационная эпоха: экономика, общество и культура. М., 2000.
*Козер Л.А.* Функции социального конфликта. Социальный конфликт: современные исследования. М., 1991.
*Козырева П.М.* Процессы адаптации и эволюции социального самочувствия россиян на рубеже XX—XXI веков. М., 2004.
*Кон И.С.* Социология личности. М., 1967.
*Кравченко С.А.* Социология. М., 2002.
*Кузнецов В.Н.* Российская идеология. М., 2004.
*Кузнецов В.Н.* Социология безопасности. М., 2003.
*Кукушкина Е.И.* Развитие социологии в России с момента зарождения до конца XX века. М., 2004.
*Култыгш В.П.* Классическая социология. М., 2000.
*Култыгш В.П., Кузнецов А.Г.* Общая социология. М., 2004.
Культурология. XX век: Антология. М., 1995.
*Кун Т.* Структура научных революций. М., 1993.
*Курбатов В.И.* Современная западная социология. Ростов н/Д., 2001.

*Лапин Н.И.* Предмет и методология социологии // СОЦИС. 2002. № 8.
*Лапин Н.И.* Эмпирическая социология в Западной Европе. М., 2004.
*Ленин В.И.* Полное собрание сочинений. М., 1975. Т. 1—3.

*Маркович Ж.Д.* Общая социология. М., 1996.
*Маркович Ж.Д.* Социальная экология. М., 1996.
*Маркс К., Энгельс Ф.* Сочинения. М., 1967. Т. 4, 25.
*Медушевский А.Н.* История русской социологии. М., 1993.
*Мескон М., Альберт М., Хедоури Ф.* Основы менеджмента. М., 1998.

Общая социология / Под ред. А.Г. Эфендиева. М., 2000.
*Ортега-и-Гасет Х.* Восстание масс // Вопросы философии. 1989. № 3.
*Осипов Г.В.* Социология и социальное мифотворчество. М., 2002.
*Осипова Е.В.* Социология Эмиля Дюркгейма. М., 1997. Основы прикладной социологии. М., 1996.

*Панарин А.С.* Политология. М., 2000.
*Пригожий А.И.* Современная социология организаций. М., 1995.
*Пригожий А.И.* Социология организаций. М., 1980.
*Пригожий И., Стенгерс И.* Порядок из хаоса. Новый диалог человека с природой. М., 1986.

Рабочая книга социолога. М., 1983.
*Радаев В.В., Шкаратан О.И.* Социальная стратификация. М., 1995.
Развитие социологии в России с момента зарождения до конца XX века. М., 1995.

*Смелзер Н.* Социология. М., 1994.
*Соколова Т.Н.* Социология труда. М., 2002.
*Соколова Т.Н.* Экономическая социология. Минск, 1995.
*Сорокин П.* Система социологии. Сыктывкар, 1991.
*Сорокин П.А.* Человек. Цивилизация. Общество. М., 1992.
Социальная стратификация российского общества / Отв. ред. З.Т. Голенкова. М., 2003.
Социальное расслоение и социальная мобильность / Отв. ред. З.Т. Голенкова. М., 1999.
Социологи России и СНГ XIX-XX веков. М., 1999.
Социологическая энциклопедия: В 2 т. М., 2003.
Социологический энциклопедический словарь. М., 1998.
Социология в России XIX — начала XX веков: Тексты. М., 1997. Вып. 1-3.
*Степин В. С.* Становление научной теории. М., 1967.

*Татарова Г.Г.* Типологический анализ в социологии. М., 2003.
*Тихонова Н.Е.* Факторы социальной стратификации. М., 1999.
*Толстова Ю.Н.* Измерение в социологии. М., 1998.
*Тощенко Ж. Т.* Парадоксальный человек. М., 2001.
*Тощенко Ж. Т.* Социология. М., 2000.
Трансформация социальной структуры и стратификация российского общества/ Отв. ред. З.Т. Голенкова. М., 1998.

*Фишер Р., Юри У.* Путь к согласию или Переговоры без поражения. М., 1992.
*Фрейд З.* Психология масс и анализ человеческого «Я». М., 1925.
*Фролов С.С.* Социология. М., 2002.

*Шалин В.В.* Толерантность. Краснодар, 2000.
*Штомпка П.* Социология социальных измерений. М., 1996.

Экономическая социология: новые подходы к институциональному и сетевому анализу. М., 2002.

*Яновский Р.Г.* Глобальные изменения и социальная безопасность. М., 1999.

# MÜNDƏRİCAT

**Tərcüməçidən** ........ 5

**I Bölmə. Sosiologiya elm kimi**

*1-ci fəsil.* Sosiologiyanın obyekti, predmeti və metodu ........ 9
1.1. Obyekt, predmet və əsas sosioloji yanaşmalar ........ 9
1.2. Sosioloji biliyin əsas paradiqmaları ........ 16
1.3. Sosiologiyanın metodologiyası ........ 20
1.4. Sosioloji bilik sistemi, sosiologiyanın strukturu və funksiyaları ........ 26
Testlər ........ 34
Cavablar ........ 35

*2-ci fəsil.* Empirik sosioloji tədqiqatların metodikası və texnikası ........ 36
2.1. Empirik sosioloji tədqiqatın mahiyyəti və növləri ........ 36
2.2. Empirik sosioloji tədqiqatın əsas mərhələləri və strukturu ........ 40
2.3. Sosioloji tədqiqatın proqramı ........ 42
2.4. Sosioloji informasiya toplamağın metodikası və texnikası ........ 51
2.5. Sosioloji tədqiqatın nəticələrinin işlənilməsi və təhlili ........ 72
Testlər ........ 78
Cavablar ........ 78

*3-cü fəsil.* Sosiologiyanın meydana gəlməsi və inkişafı ........ 79
3.1. O. Kontun sosiologiyası ........ 79
3.2 H. Spenserin sosiologiyası ........ 80
3.3. E. Dürkheymin sosiologiyası ........ 81
3.4. M. Veberin sosiologiyası ........ 85
3.5. K. Marksın sosiologiyası ........ 87
3.6. M.M. Kovalevskinin sosiologiyası ........ 88
3.7. P. Sorokinin sosiologiyası ........ 89
3.8. T. Parsonsun sosiologiyası ........ 91

Testlər ... 92
Cavablar ... 93

Seminarlarda və "dəyirmi masa"larda müzakirə olunmaq üçün mövzular ... 93

**II Bölmə . Mədəniyyət və cəmiyyət**

*1-ci fəsil.* Mədəniyyət anlayışı və mədəniyyətin struktur-funksional xarakteristikaları ... 94
1.1. Mədəniyyət anlayışı ... 94
1.2. Mədəniyyətin strukturu və funksiyaları, davranışın tənzimlənməsinin mədəni mexanizmləri ... 100
Testlər ... 113
Cavablar ... 114

*2-ci fəsil.* Mədəniyyətin tipologiyası və sosial-mədəni tolerantlıq ... 115
2.1. Mədəniyyətin tipləri, formaları və növləri ... 115
2.2. Sosial-mədəni tolerantlıq və həmrəylik, mədəni relyativizm ... 118
Testlər ... 122
Cavablar ... 122

*3-cü fəsil.* İnformasiya cəmiyyətində mədəniyyət ... 123
Testlər ... 128
Cavablar ... 128

*4-cü fəsil.* Mədəniyyətin əsas institutları ... 129
4.1. Elm mədəniyyət institutu kimi ... 129
4.2. İncəsənət mədəniyyət institutu kimi ... 131
4.3. Din mədəniyyət institutu kimi ... 132
Testlər ... 136
Cavablar ... 137

Seminarlarda və "dəyirmi masa"larda müzakirə olunmaq üçün mövzular ... 137



**III Bölmə. Şəxsiyyət və cəmiyyət**

*1-ci fəsil.* Şəxsiyyət anlayışı, şəxsiyyətin strukturu və tipologiyaları ... 138
1.1. Sosiologiyada şəxsiyyət anlayışı ... 138
1.2. Şəxsiyyətin strukturu ... 140
1.3. Şəxsiyyətin tipologiyaları ... 143
1.4. Şəxsiyyət ictimai münasibətlər sistemində ... 159
Testlər ... 163
Cavablar ... 164

*2-ci fəsil.* Şəxsiyyətin sosiallaşması ... 165
2.1. Sosiallaşma anlayışı ... 165
2.2. Sosiallaşma nəzəriyyələri ... 167
2.3. Sosiallaşmanın fazaları və mərhələləri ... 170
2.4. Sosiallaşmanın sosial amilləri və mexanizmləri ... 174
Testlər ... 176
Cavablar ... 176

*3-cü fəsil.* Şəxsiyyətin rol nəzəriyyələri ... 177
3.1. Sosial statuslar və sosial rollar ... 177
3.2. Rol razılaşması və rol münaqişəsi ... 182
Testlər ... 185
Cavablar ... 186

*4-cü fəsil.* Şəxsiyyətin həyat tərzi və asudə vaxtı ... 187
4.1. Həyat tərzi sosioloji təhlil obyekti kimi ... 187
4.2. Həyat tərzinin strukturu ... 191
4.3. Şəxsiyyətin asudə vaxtı ... 193
Testlər ... 194
Cavablar ... 195

*5-ci fəsil.* Şəxsiyyətin davranışı, özünütənzimləmə və sosial nəzarət ... 196
5.1. Şəxsiyyətin davranış konsepsiyaları ... 196
5.2. Sosial nəzarət və deviasiya ... 201
5.3. İctimai rəy sosial tənzimləyici kimi ... 204
Testlər ... 209
Cavablar ... 210

*6-cı fəsil.* Ailə ....211
6.1. Ailə anlayışı və ailənin amilləri ....211
6.2. Ailə-nikah münasibətləri ....219
Testlər ....228
Cavablar ....229

Seminarlarda və "dəyirmi masa"larda müzakirə olunmaq üçün mövzular ....229

**IV bölmə. Cəmiyyət**

*1-ci fəsil.* Cəmiyyət anlayışı və cəmiyyətin tipologiyaları ....230
1.1. Cəmiyyət anlayışı ....230
1.2. Cəmiyyətin tipologiyaları ....233
Testlər ....237
Cavablar ....237

*2-ci fəsil.* Cəmiyyət sosial birlik və sosial sistem kimi ....238
2.1. Cəmiyyət sosial birlik kimi ....238
2.2. Cəmiyyət sosial sistem kimi ....243
2.3. Etnik birliklər ....248
Testlər ....257
Cavablar ....258

*3-cü fəsil. Qrupların və təşkilatların sosiologiyası* ....259
3.1. Sosial qruplar ....259
3.2 Sosial təşkilatlar ....267
3.3. Motivasiya nəzəriyyələri ....276
Testlər ....284
Cavablar ....285

*4-cü fəsil.* Cəmiyyətin sosial strukturu ....286
4.1. Sosial struktur və sosial stratifikasiya ....286
4.2. Sosial dəyişikliklər, anlayışları və növləri ....293
4.3. Transformasiya dövründə Rusiya cəmiyyətinin sosial strukturunun dəyişilməsi meylləri ....296
Testlər ....303
Cavablar ....304



*5-ci fəsil.* Cəmiyyət və dövlət ....305
5.1. Dövlət cəmiyyətin bir hissəsi kimi ....305
5.2. Vətəndaş cəmiyyəti ....306
Testlər ....316
Cavablar ....316

*6-cı fəsil.* Kütləvi kommunikasiya sosiologiyası ....317
6.1. Kütləvi kommunikasiya vasitələrinin meydana gəlməsi və inkişafı ....317
6.2. Sosial kommunikasiya və informasiyanın qaynaqları və əsas paradiqmaları ....318
6.3. Kütləvi kommunikasiya və informasiya nəzəriyyələrinin inkişafı ....322
6.4. Kütləvi kommunikasiyanın modelləri və mahiyyəti .... 325
6.5. Kütləvi kommunikasiyanın funksiyaları ....328
Testlər ....329
Cavablar ....331

*7-ci fəsil.* Siyasətin sosiologiyası ....331
7.1. Siyasi həyatın institusionallaşması ....331
7.2. Siyasi sosiologiyanın predmeti, obyekti və strukturu ...332
7.3. Siyasi sistemlər ....333
7.4. Siyasi hakimiyyət ....337
7.5. Hakimiyyət orqanlarına seçkilər ....342
Testlər ....343
Cavablar ....345

*8-ci fəsil.* İqtisadi sosiologiya ....345
8.1. İqtisadi sosiologiyanın meydana gəlməsi və inkişafı ... 345
8.2. İqtisadi davranış ....361
8.3. Məşğulluq və işsizlik problemləri ....367
Testlər ....371
Cavablar ....372

Seminarlarda və "dəyirmi masa"larda müzakirə olunmaq üçün mövzular ....372

**V Bölmə. Sosial dəyişikliklər, idarəetmə və qloballaşma prosesləri**

*1-ci fəsil.* Sosial qarşılıqlı təsirlər....373
1.1. Sosial hərəkət, qarşılıqlı təsir, əlaqə....373
1.2. Sosial proseslər və münasibətlər....376
1.3. Sosial dəyişikliklər....378
1.4. Sosial hərəkatlar....381
1.5. Şəxslərarası təsir nəzəriyyələri....383
1.6. Münaqişə və razılıq....386
Testlər....399
Cavablar....401

*2-ci fəsil.* İdarəetmənin sosioloji anlayışı....401
2.1. Sosial idarəetmə nəzəriyyəsi....401
2.2. Sosial idarəetmənin əsas xarakteristikaları....412
2.3. Mürəkkəb sosial sistemlərin idarə edilməsi....418
2.4. Sosial idarəetmənin metodoloji problemləri....422
2.5. İdarəetmə və elmi qabaqgörənlik....429
2.6. Sosial idarəetmənin texnologiyası....435
2.7. Rəhbərin əsas funksiyaları, işçi heyətin idarə edilməsi....438
2.8. Cəmiyyətin idarə edilməsində dövlətin rolu....446
Testlər....452
Cavablar....454

*3-cü fəsil.* Qlobalizm və ekoloji sosiologiya....455
3.1. Qlobalizm ideyasının mənşəyi və inkişafı....455
3.2. Qloballaşma: nailiyyətlər və risklər....460
3.3. Şəbəkə yanaşması qloballaşma şəraitində təhlükəsizlik sosiologiyasının fundamental nəzəri konsepti kimi....468
3.4. Ekoloji sosiologiya....473
Testlər....479
Cavablar....480

Seminarlarda və "dəyirmi masa"larda müzakirə olunmaq üçün mövzular....480

Referatlar üçün mövzular....481

Tövsiyə olunan ədəbiyyat....483

Учебное издание

Зинаида Тихоновна Голенкова, Мария Михайловна Акулич, Вячеслав Николаевич Кузнецов

**Общая социология**

Учебное пособие

Tərcümə

*Rüstəmov İzzət Əşrəf oğlu*

Ümumi sosiologiya

Yığılmağa verilmişdir: 13.11.2007

Çapa imzalanmışdır: 25.12.2007

Ofset üsulu ilə çap edilmişdir. Şərti ç.v. 31

Kağız forması 60x90 $^1/_{16}$ Nüsxə 1000. Qiyməti razılaşma yolu ilə.

"Diplomat" nəşriyyatı

mətbəəsində çap olunmuşdur.

370015, Bakı, Ak. Həsən Əliyev küçəsi, 135"a"

# İZZƏT RÜSTƏMOV

Fəlsəfə elmləri doktoru, professor, Bakı Dövlət Universitetinin Sosiologiya kafedrasının müdiri, akademik S.İ.Vavilov adına medalın laureatı (1991), Lütfi Zadə adına Beynəlxalq Müasir Elmlər Akademiyasının akademiki (2001), Azərbaycan Respublikası Təhsil Nazirliyinin "Qabaqcıl təhsil işçisi" (2007) Rüstəmov İzzət Əşrəf oğlu 1932-ci ildə Gədəbəy rayonunun Şınıx mahalının Düz Rəsullu kəndində zəhmətkeş kəndli ailəsində anadan olub. Doğma diyarda orta təhsil aldıqdan sonra 1949-cu ildə Azərbaycan Dövlət Universitetinin Tarix fakültəsinin nəzdində Fəlsəfə şöbəsinə daxil olub. 1954-cü ildə həmin şöbəni fərqlənmə diplomu ilə bitirərək, Universitetin Fəlsəfə kafedrasında laborant olaraq, əmək fəaliyyətinə başlayıb. Burada laborant vəzifəsindən professor vəzifəsinə qədər elmi yaradıcılıq yolu keçib. 1961-ci ildə namizədlik, 1972-ci ildə doktorluq dissertasiyasını müdafiə edib. 1973-1975-ci illərdə Universitetin azad partiya komitəsinin katibi işləyib.

1984 – 1999-cu illərdə Azərbaycan Dövlət Neft Akademiyasının Fəlsəfə kafedrasının müdiri (müəyyən istisna ilə), Azərbaycan KP MK yanında Partiya tarixi İnstitutunun direktorunun elmlər işləri üzrə müavini, Azərbaycan Respublikası Baş nazirinin müavini (05.12.1994 – 15.01.1999), Beynəlxalq humanitar yardım üzrə narkotiklərə və narkobiznesə qarşı, Dövlət Komissiyalarının, həmçinin 20 yanvar faciəsi üzrə Hökumət Komissiyasının sədri kimi çalışmışdır. Baş nazirin müavini vəzifəsindən azad olduqdan sonra, Respublika prezidentinin sərəncamı ilə Bakı Dövlət Universitetinə göndərilmişdir. Burada beynəlxalq əlaqələr üzrə prorektor işləmişdir (22.01.1999 – 21.07.2004). Hazırda BDU-da Sosiologiya kafedrasının müdiridir.

İzzət Rüstəmov Azərbaycan ictimai – siyasi, fəlsəfi və təbii – elmi fikrinin tədqiqatçılarındandır, A.A.Bakıxanov, M.F.Axundov, H.Zərdabi, N.Nərimanov, H.Cavid və M.Hadinin elmi yaradıcılığının təhlilinə həsr olunmuş elmi məqalələrin, kitab və monoqrafiyaların müəllifidir. Onun "Həsən bəy Zərdabi" (1969), "Azərbaycanda təbii – elmi biliyin inkişafının fəlsəfi problemləri" (2001) monoqrafiyaları oxucular tərəfindən xüsusi rəğbətlə qarşılanmışdır. Müəllifin bu sonuncu monoqrafiyası və akademik F.Köçərli ilə müştərək yazdıqları "N.Q.Çernişevski və Azərbaycanda ictimai fikir" kitabı ABŞ Konqresinin kitabxanasında kataloqa daxil edilmişdir.

İ.Rüstəmov humanitar, o cümlədən fəlsəfi ədəbiyyatın tanınmış tərcüməçisidir. Onun tərcüməçilik qələmindən xeyli sayda dərslik, dərs vəsaiti, lüğətlər çıxmışdır. Bunlara misal olaraq "Qısa estetika lüğəti"ni (müştərək), "Ateistin cib lüğəti"ni, "Elmin gəncliyi" (Marksa qədərki iqtisadçı mütəfəkkirlərin həyatı və ideyaları) monoqrafiyasını göstərmək olar. Professor İ.Rüstəmovun elmi rəhbərliyi və bilavasitə müəllifliyi ilə Azərbaycanda ilk dəfə olaraq sanballı "Ensiklopedik fəlsəfə lüğəti" (Ensiklopediya nəşriyyatı, 1997; 500 səhifə) yaradılmışdır.

İ.Rüstəmov həmçinin "Anti-During", "Təbiətin dialektikası", "Fəlsəfə dəftərləri" əsərlərinin Azərbaycan dilinə tərcüməsinin, eyni zamanda bir çox elmi, fəlsəfi və b. kitabların (akad. A.Mirzəcanzadə elmi resenzenti, elmi redaktoru olmuşdur).

İ.Rüstəmov elmi kadrların hazırlanmasında yaxından iştirak edir. O, Ali Attestasiya nəzdində fəlsəfə elmləri üzrə Ekspert Şurasının sədri, Müdafiə Şuralarının üzvü olmuşdur. Hal-hazırda BDU nəzdindəki Dissertasiya şurasının üzvüdür.

İ.Rüstəmov Baş nazirin müavini işləyərkən Nyu-york, Roma, Cenevrə, Odessa və s. şəhərlərdə yüksək səviyyəli siyasi tədbirlərin fəal iştirakçısı olmuş, Azərbaycan Respublikasının nümayəndə heyətinə rəhbərlik etmişdir.

İ.Rüstəmov Azərbaycanın Milli Qəhrəmanı Məzahir Rüstəmovun atasıdır.